AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

ISSN 2663-4414 (Print)
ISSN 2709 – 0762 (E-Print)

MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ

BEYNƏLXALQ ELMİ JURNAL

AZƏRBAYCAN-ÖZBƏK ƏDƏBİ ƏLAQƏLƏRİ
XÜSUSİ BURAXILIŞ

COMPARATIVE LITERATURE STUDIES

INTERNATIONAL SCIENTIFIC JOURNAL
SPECIAL ISSUE

BAKI – 2020, № 1

Təsisçi
AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

Baş redaktor
İsa Həbibbəyli - **AMEA-nın həqiqi üzvü**

Baş redaktorun müavinləri
Məmməd Əliyev – professor, filologiya elmləri doktoru
Gülər Abdullabəyova – professor, filologiya elmləri doktoru
Bədirxan Əhmədov – professor, filologiya elmləri doktoru

Məsul katib
Mehman Həsənli − filologiya üzrə fəlsəfə doktoru

Məsul redaktor
Maral Poladova

Redaksiya heyəti
Qəzənfər Paşayev – professor, filologiya elmləri doktoru (Azərbaycan)
Almaz ÜlviBinnətova – filologiya elmləri doktoru (Azərbaycan)
Yaşar Qasımbəyli – filologiya elmləri doktoru (Azərbaycan)
Sara Osmanlı – filologiya elmləri doktoru (Azərbaycan)
Orxan Söyləməz – professor, filologiya elmləri doktoru (Türkiyə)
Kazbek Sultanov – akademik (Rusiya)
Huanq Zhonqxianq – professor (Çin)
Şöhrət Siracəddinov – professor (Özbəkistan)
Elka Traykova – professor (Bolqarıstan)
Abdıldacan Akmataliyev – akademik (Qırğızıstan)
Mariya Kenneşi – Dr.dosent (Macarıstan)
İvan Meznik – professor (Çexiya)
Alfis Qayazov – müxbir üzv (Başqırdıstan)
Kim Minnullin – müxbir üzv (Tatarıstan)
Serik Pirəliyev – professor (Qazaxıstan)
Davut Orazsəhədov – Dr.dosent (Türkmənistan)
Vaskiv Mikola Stepanoviç – professor (Ukrayna)
Yaroslav Lavski – professor (Polşa)

Founder
AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
INSTITUTE OF LITERATURE NAMED AFTER NIZAMI GANJAVI

Editor-in-Chief
Isa Habibbayli – **Active member of ANAS**

Deputy Editor-in-Chief
Mamed Aliyev – professor, doctor of philological sciences
Gular Abdullabeyova – professor, doctor of philological sciences
Badirkhan Akhmedov – professor, doctor of philological sciences

Executive Editor
Mehman Hasanli – Doctor of Philosophy in Philology

Editor
Maral Poladova

Editorial Board
Gazanfar Pashayev – professor, doctor of philological sciences (Azerbaijan)
Almaz Ulvi Binnatova – doctor of philological sciences (Azerbaijan)
Yashar Gasimbeyli – doctor of philological sciences (Azerbaijan)
Sara Osmanli – doctor of philological sciences (Azerbaijan)
Orkhan Soylemez – professor, doctor of philological sciences (Turkey)
Kazbek Sultanov – academician (Russia)
Huang Zhonghiang – professor (China)
Shukhrat Surojiddinov – professor (Uzbekistan)
Elka Traikova – professor (Bulgaria)
Abdildazhan Akmataliev – academician (Kyrgyzstan)
Maria Kenneshi – Dr.associate professor (Hungary)
Ivan Meznik – professor (Czech Republic)
Alfis Gayazov – corresponding member (Bashkortostan)
Kim Minnullin – corresponding member (Tatarstan)
Serik Piraliev – professor (Kazakhstan)
Davut Orazsahadov –Dr.associate professor (Turkmenistan)
Vaskiv Mikola Stepanovich – professor (Ukraine)
Yaroslav Lavsky – professor (Poland)

Основатель
НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ЛИТЕРАТУРЫ ИМЕНИ НИЗАМИ ГЯНДЖЕВИ

Главный редактор
Иса Габиббейли- **действительный член НАНА**

Заместители главного редактора
Мамед Алиев – профессор, доктор филологических наук
Гюляр Абдуллабекова – профессор, доктор филологических наук
Бадирхан Ахмедов – профессор, доктор филологических наук

Ответственный секретарь
Мехман Гасанли – доктор философских наук по филологии

Ответственный редактор
Марал Поладова

Редакционная коллегия
Газанфар Пашаев – профессор, доктор филологических наук (Азербайджан)
Алмаз Ульви Биннатова – доктор филологических наук (Азербайджан)
Яшар Гасимбейли – доктор филологических наук (Азербайджан)
Сара Османлы – доктор филологических наук (Азербайджан)
Орхан Сойлемез – профессор, доктор филологических наук (Турция)
Казбек Султанов – академик (Россия)
Хуангь Зхонгхианг – профессор (Китай)
Шохрат Сираджаддинов – профессор (Узбекистан)
Элька Трайкова – профессор (Болгария)
Абдильдажан Акматалиев – академик (Кыргызстан)
Мария Кеннеши – Др.доцент (Венгрия)
Иван Мезник – профессор (Чешская Республика)
Альфис Гаязов – член-корреспондент (Башкортостан)
Ким Миннуллин – член-корреспондент (Татарстан)
Серик Пиралиев – профессор (Казахстан)
Давут Оразсахадов – Др.доцент (Туркменистан)
Васькив Микола Степанович – профессор (Украина)
Ярослав Лавский – профессор (Польша)

İÇİNDƏKİLƏR / № 1, 2020

İsa Həbibbəyli
Ədəbiyyatdan – əbədiyyətə 17
Anar
Özbəkistan görüşləri: ənənələr və vəzifələr 24
Samir Abbasov
Özbəkistan-Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin rolu 30

- USTAD ƏLİŞİR NƏVAİ VƏ BABUR

Mirzə İbrahimov
Nəvai yurdunun şan-şöhrəti 36
Nüşabə Araslı
Nizami ənənələrinin türk ədəbiyyatında yayılmasında Əlişir Nəvainin rolu 38
Möhsün Nağısoylu
Əlişir Nəvai – dilçi-türkoloq 47
Qulamhüseyn Əliyev
Nəsimi və özbək ədəbiyyatı 54
Almaz Ülvi Binnətova
Əlişir Nəvai və Azərbaycan 59
Paşa Kərimov
Əlişir Nəvai əlyazmaları AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında 68
Ataəmi Mirzəyev
Sələflər və xələflər: Nəvai və Füzuli 73
Zəhra Allahverdiyeva
Əlişir Nəvai yaradıcılığında Nizami Gəncəvi şəxsiyyətinə baxış 80
Bəxtiyar Məmmədov
Zəhirəddin Məhəmməd Babur – ümumtürk mədəniyyətinin unikal hadisəsi 86
Siracəddin Hacı
Əlişir Nəvainin hikmətləri 92
Təhminə Bədəlova
Nizami xəzinəsi və Nəvai heyrəti 99
Cavidə Məmmədova
Əlişir Nəvainin yaradıcılığında milli birlik idealı 110
Xanım Zairova
Əlişir Nəvai əsərlərinin Almaniyada tədqiqi 114
Yelena Teyer
Yevgeni Bertelsin Əlişir Nəvai irsinin öyrənilməsinə töhfəsi 118
Şəhla Məcidova
Nizami və Nəvai yaradıcılığında Fərhad surəti 123
Samirə Əliyeva
Əlişir Nəvai və Fəxrinin əsərlərinin müqayisəli təhlili 128
İlhamə Sultanova
Əlişir Nəvai ədəbi irsi Cənnət Nağıyevanın tədqiqatlarında 136

- MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ – ƏDƏBİ ƏLAQƏLƏR

Əbülfəz Quliyev
Məhəmməd Salihin "Şeybaninamə" əsəri Azərbaycan dilində 142
Həmidulla Baltabayev
Cəlil Məmmədquluzadə və özbək ədəbiyyatı 149
Almaz Ülvi Binnətova, Məhəmmədəmin Tuxliyev
Qafur Qulam və Azərbaycan 157
İsmixan Osmanlı
Məhtimqulu Fəraqi və Əlişir Nəvai 164
Aslan Salmanov
Səməd Vurğun və özbək ədəbiyyatı: "Son illərədək bilmirdik ki, Nəvai özbək şairidir" 175
Gülbəniz Babayeva
"Molla Nəsrəddin" və özbək satirik ədəbiyyatı 184
Azad Nəbiyev
Azərbaycan-özbək folklorunda ortaq janrlar 191
Obid Shofiev
Xalil Rizo Uluturk va o'zbek adabiyoti 196
Lütviyyə Əsgərzadə
"Şeyx Sənan" mövzusunun yayılma trayektoriyası: Əlişir Nəvai 202
Sənubər Səmədova
Hüseyn Cavid və Əbdürrauf Fitrət yaradıcılıqlarında milli özünüdərk 212
Eşqanə Babayeva
Camal Kamal və Azərbaycan ədəbiyyatı 218

- ƏMİR TEYMUR ƏDƏBİYYATDA

Təranə Həşimova
XX əsr Azərbaycan və özbək ədəbiyyatında Əmir Teymur mövzusu 224
Elnarə Qaragözova
Yunus Oğuzun "Əmir Teymur" romanında hökmdar və zaman 231

- YENİ ÖZBƏK ƏDƏBİYYATI: AZƏRBAYCANDAN BAXIŞ

Bədirxan Əhmədli
Siracəddin Səyyidin poetik dünyası 236
Gülşən Kəngərlinskaya
Maqsud Şeyxzadə haqqında xatirələr 242
Mehman Həsənli
Özbək dramaturgiyasına baxış 246
Xatirə Bəşirli
Çağdaş özbək şeirinin görkəmli nümayəndəsi Osman Əzim 251

- ƏDƏBİYYATŞÜNASLIQ

Cənnət Nağıyeva
Azərbaycan-özbək əlaqələrinin böyük tədqiqatçısı akademik Həmid Araslı 257
Şirindil Alışanov
Görkəmli özbək ədəbiyyatşünas alimi, professor Həmidulla Baltabayev 262
Əlizadə Əsgərli
Professor Şöhrət Siracəddinov – özbək nəvaişünaslığının görkəmli nümayəndəsi 266
Şəbnəm Babayeva
Xalid Səid Xocayev və onun "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri 273

- BƏDİİ TƏRCÜMƏ MƏSƏLƏLƏRİ

Qulu Kəngərli
Özbəkistanda Azərbaycan ədəbiyyatının tərcüməsi və təbliği: qədim dövr və müasir mərhələ 278
Yaşar Qasımbəyli
Osman Qoçqarın tərcümə yaradıcılığı 286
Gülnar Qasımlı
Azərbaycanda özbək ədəbiyyatının tərcüməsi və nəşri 296

- QARDAŞLIQ DUYĞULARI

Azərbaycandan salam

Xəlil Rza Ulutürk
Özbək dili *(görkəmli özbək alimi İbrahim Haqqula)*
Özbəkistan 303
Akif Azalp
Özbəkistan dastanı 306
Eldar İsmayıl
Özbəkistan deyəndə 307
İbrahim İlyaslı
Özbəkistan duyğuları 308
Əşrəf Fəxri
Qəmindən ey, ahu gözlü, yolunda bəs qədər durdum (nəzirə) 309

İki xalqın oğlu

Maqsud Şeyxzadə
Daşkəndnamə *(poemadan parça)* 310

Özbəkistandan baxanda

Qafur Qulam
Səməd Vurğuna məktub 311

Abdulla Aripov
Azərbaycan 313
Erkin Vahidov
Füzulinin heykəli önündə 315
Nodir Xolbutaev
Navoiy 317
Camal Kamal
Azərbaycan 318
İxtiyar Rza
Özbəkistan
Bir ovuc torpaq (Maqsud Şeyxzadəyə) 321
Cüməgül Suvanova
Azərbaycan 323
Öktəmay Xaldarova
Nəsimi 324

- FOTOLARDA YAŞAYAN QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ

Fotolar 325

CONTENTS / № 1, 2020

Isa Habibbayli
From literature to eternity 17
Anar
Meetings in Uzbeksitan: traditions and duties 24
Samir Abbasov
The role of Heydar Aliyev cultural centre in the development of Uzbekistan-Azerbaijani literary-cultural relations 30

- ALISHIR NAVOI AND BABUR

Mirza Ibrahimov
The glory of Navoi's homeland 36
Nushaba Arasli
Alishir Navoi's role in the spread of Nizami traditions in the Turkish literature 38
Mohsun Naghisoylu
Alishir Navoiy – linguist-turkologist 47
Gulamhusein Aliyev
Nasimi and Uzbek literature 54
Almaz Ulvi Binnatova
Alisher Navoiy and Azerbaijan 59
Pasha Karimov
Manuscripts of Alishir Navoi's works at the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS 68
Ataemi Mirzoev
Predecessors and followers: Navai and Fuzuli 73
Zahra Allahverdiyeva
View to personality of Nizami Ganjavi in the creativity of Alishir Navai 80
Bahtiyar Mammadov
Zahiraddin Mohammad Babur – a unique event of all-turkish culture 86
Sirajaddin Haji
Alishir Navoi's wisdoms 92
Tahmina Badalova
Nizami's treasury and Navai's wonder 99
Javida Mammadova
The ideal of national unity in Ali-shir Navai's creativity 110
Khanim Zairova
The study of the Alishir Navai's creativity in Germany 114
Elena Teer
E.Bertels' contribution to the study of Alisher Navoi's work 118
Shahla Majidova
The image of Farhad in the works of Nizami and Navai 123
Samira Aliyeva
Comparative analysis of Alishir Navai and Fakhri's works 128
Ilhama Sultanova
Alishir Navai's literary heritage in Jannat Naghiyeva's investigations 136

- COMPARATIVE LITERATURE – LITERARY RELATIONS

Abulfaz Guliyev
"Sheybaniname" poem by Muhammad Salih in the Azerbaijani language 142
Hamidulla Baltabayev
Jalil Mammadguluzadeh and Uzbek literature 149
Almaz Ulvi Binnatova, Muhammedamin Tuxliyev
Gafur Gulam and Azerbaijan 157
Ismikhan Osmanli
Magtymguly Pyragy and Alishir Navoi 164
Aslan Salmanov
Samad Vurghun and Uzbek literature: "until recent years, we did not know that Navai was an Uzbek poet" 175
Gulbeniz Babayeva
"Molla Nasraddin" and Uzbek satirical literature 184
Azad Nabiyev
Common genres in the Azerbaijani-Uzbek folklore 191
Obid Shofiev
Khalil Rza Uluturk and Uzbek literature 196
Lutviyya Asgerzade
Spread areal of the subject "Sheikh Sanan": Alishir Navai 202
Sanubar Samadova
National identity in the creativities of Huseyn Javid and Abdurrauf Fitrat 212
Eshgana Babayeva
Jamal Kamal and Azerbajani literature 218

- AMIR TEYMUR IN LITERATURE

Tarana Hashimova
The subject of Amir Teymur in the Azerbaijani and Uzbek literature of the 20th century 224
Elnara Garagozova
Ruler and time in novel "Amir Teymur" by Yunus Oghuz 231

- NEW UZBEK LITERATURE: VIEW FROM AZERBAIJAN

Badirkhan Ahmedli
The poetic world of Sirajaddin Seyyid 236
Gulshan Kengerlinskya
Memories about Maksud Sheikzade 242
Mehman Hasanli
A view to the Uzbek dramaturgy 246
Xhatira Bashirli
Osman Azim, the great poet of modern Uzbek poetry 251

- LITERATURE STUDIES

Jannat Naghiyeva
Senior researcher of Azerbaijani-Uzbek relations, academician Hamid Arasli 257
Shirindil Alishanov
Prominent Uzbek scientist of literary studies, professor Hamidulla Baltabayev 262
Alizade Asgerli
Professor Shohret Sirajaddinov – a prominent representative of modern
Uzbek Navai studies 266
Shabnam Babayeva
Khalid Said Khojayev and his work "Old memories and feelings on the new alphabet" 273

- ISSUES ON LITERARY TRANSLATIONS

Gulu Kengerli
The issues of promotion and translation of the Azerbaijani literature
in Uzbekistan: ancient period and modern stage 278
Yashar Gasimbeyli
Osman Gochgar's translation creativity 286
Gulnar Gasimli
Translation and publishing of the Uzbek literature in Azerbaijan 296

- FEELINGS OF BROTHERHOOD

Greeting from Azerbaijan

Khalil Rza Uluturk
The Uzbek language (about outstanding scientist Ibrahim Haggula)
Uzbekistan 303
Akif Azalp
Uzbek dastan 306
Eldar Ismail
When saying Uzbekistan 307
Ibrahim Ilyasli
Uzbek feelings 308
Ashraf Fakhri
Out of grief, o gazelle-eyed, i stood on your way enough 309

The son of two nations

Maksud Sheikhzade
Dashkendname *(a part from the poem)* 310

When looking from Uzbekistan

Gafur Gulam
Letter to Samad Vurghun 311

Abdulla Aripov
Azerbaijan 313
Erkin Vahidov
In front of the statue of Fuzuli 315
Nodir Kholbutayev
Navoiy 317
Jamal Kamal
Azerbaijan 318
Ikhtiyar Rizo.
Uzbekistan
A handful of soil (for Maksud Sheikzade) 321
Jumagul Suvanova
Azerbaijan 323
Oktamay Khaldarova
Nasimi 324

- BROTHERHOOD AND COOPERATION ON PHOTOS

Photos 325

ОГЛАВЛЕНИЕ / № 1, 2020

Иса Габиббейли
От литературы до вечности 17
Анар
Встречи в Узбекистане: традиции и задачи 24
Самир Аббасов
Роль культурного центраим. Гейдара Алиева в развитии литературно-культурных отношений Узбекистана и Азербайджана 30

- АЛИШИР НАВОИ И БАБУР

Мирза Ибрагимов
Навои – слова своей отчизны 36
Нушаба Араслы
Роль Алишера Навои в распространении в турецкой литературе традиций Низами 38
Мохсун Нагисойлу
Алишир Навои – языковед-тюрколог 47
Гуламгусейн Алиев
Насими и узбекская литература 54
Алмаз Улви Биннатова
Алишир Навои и Азербайджан 59
Паша Керимов
Рукописи произведений Алишера Навои в фондах института рукописей имени Мухаммеда Физули НАН Азербайджана 68
Атаеми Мирзоев
Предшественники и преемники: Навои и Физули 73
Захра Аллахвердиева
Взгляд на личность Низами Гянджеви в творчестве Алишера Навои 80
Бахтияр Мамедов
Захираддин Мухаммед Бабур – как уникальное явление общетюркской культуры 86
Сираджеддин Гаджи
Мудрые слова Алишира Навои 92
Тахмина Бадалова
Сокровищница Низами и смятение Навои 99
Джавида Мамедова
Идеал национального единства в творчестве Алишира Навои 110
Ханым Заирова
Изучение творчества Алишира Навои в Германии 114
Елена Теер
Вклад Е.Бертельса в изучение творчества Алишера Навои 118
Шахла Меджидова
Образ Фархада в творчестве Низами и Навои 123
Самира Алиева
Сопоставительный анализ произведений Алишира Навои и Фахри 128
Ильхама Султанова
Литературное наследие Алишира Навои в исследованиях Джаннат Нагиевой 136

- КОМПАРАТИВИСТИКА – ЛИТЕРАТУРНЫЕ СВЯЗИ

Абульфаз Кулиев
Поэма Мухаммада Салиха «Шейбанинаме» на азербайджанском языке 142
Гамидулла Балтабаев
Джалил Мамедгулузаде и узбекская литература 149
Алмаз Ульви Биннатова, Мухаммедамин Тухлиев
Гафур Гулям и Азербайджан 157
Исмихан Османлы
Махтумкули Фраги и Алишер Навои 164
Аслан Салманов
Самед Вургун и узбекская литература: «До последних лет мы не знали, что Навои был узбекским поэтом» 175
Гюльбениз Бабаева
«Молла Насреддин» и узбекская сатирическая литература 184
Азад Набиев
Общие жанры в азербайджанско-узбекском фольклоре 191
Обид Шофиев
Халил Рза Улутурк и узбекская литература 196
Лутвия Аскерзаде
Распространение траектории темы «Шейх Санан»: Алишир Навои 202
Санубар Самедова
Национальное самосознание в творчестве Гусейна Джавида и Абдурауфа Фитрата 212
Эшгана Бабаева
Джамал Камал и азербайджанская литература 218

- АМИР ТЕЙМУР В ЛИТЕРАТУРЕ

Тарана Гашимова
Тема Амира Теймура в азербайджанской и узбекской литературе 20-го века 224
Эльнара Гарагёзова
Правитель и время в романе Юнуса Огуза «Амир Теймур» 231

- СОВРЕМЕННАЯ УЗБЕКСКАЯ ЛИТЕРАТУРА: ВЗГЛЯД ИЗ АЗЕРБАЙДЖАНА

Бедирхан Ахмедли
Поэтический мир Сираджаддина Сейида 236
Гюльшан Кенгерлинская
Воспоминания о Магсуде Шейхзаде 242
Мехман Гасанли
Вид на узбекскую драматургию 246
Хатира Беширли
Осман Азимвеликий поэт современной узбекской поэзии 251

- ЛИТЕРАТУРОВЕДЕНИЕ

Джаннат Нагиева
Известный исследователь азербайджанско-узбекских связей академик Гамид Араслы 257
Ширинди Алышанов
Видный узбекский ученый-литературовед, профессор Гамидулла Балтабаев 262
Ализаде Аскерли
Профессор Шохрат Сираджаддинов – известный представительсовременного узбекского Навоиведения 266
Шебнем Бабаева
Халид Саид Ходжаев и его произведение «Старые воспоминания и мои ошущения о новом алфавите» 273

- ВОПРОСЫ ХУДОЖЕСТВЕННОГО ПЕРЕВОДА

Гулу Кенгерли
К вопросу популяризации и перевода азербайджанской литературы в Узбекистане: древний и современный этапы 278
Яшар Гасымбейли
Творчество перевода Усмана Гочгара 286
Гюльнар Гасымлы
Перевод и издание узбекской литературы в Азербайджане 296

- БРАТСКИЕ ЧУВСТВА

Привет из Азербайджана

Халил Рза Улутурк
Узбекский язык (Выдающийся узбекский ученый Ибрагим Хаггула) Узбекистан 303
Акиф Азалп
Эпос Узбекистана 306
Эльдар Исмаил
Когда произносишь: Узбекистан 307
Ибрагим Ильяслы
Чувства к Узбекистану 308
Эшреф Фахри
В печали о тебе, волоокая, я долго пребывал… *(незире)* 309

Сын двух народов

Магсуд Шейхзаде
Ташкентнаме (отрывок из поэмы) 310

Взгляд из Узбекистана

Гафур Гулам
Письмо Самеду Вургуну 311
Абдулла Арипов
Азербайджан 313
Эркин Вахидов
Перед статуей Физули 315
Нодир Холбутаев
Навои 317
Джамол Камол
Азербайджан 318
Ихтийор Ризо
Узбекистан
Горсть земли (для Магсуда Шейхзаде) 321
Джумагюль Суванова
Азербайджан 323
Октамай Халдарова
Насими 324

- БРАТСТВО И СОТРУДНИЧЕСТВО В ФОТОГРАФИЯХ

Фотографии 325

Ədəbiyyatdan – əbədiyyətə

İsa Həbibbəyli
Akademik, AMEA-nın I vitse-prezidenti,
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: isa.habibbeyli@science.az
https://orcid.org/0000-0002-9793-1949

Annotasiya. Məqalədə Azərbaycanın Özbəkistanla elmi, ədəbi, mədəni əlaqələrindən söhbət açılır. İbn Sina, Xarəzmi, Buxari, Uluqbəy kimi tanınmış şəxsiyyətlərin adları Azərbaycanda çox böyük hörmətlə çəkilir. Nizami Gəncəvinin, Xaqaninin, Nəsimi və Məhəmməd Füzulinin əsərləri Özbəkistanda böyük tirajla nəşr olunmuşdur. Əlişir Nəvainin əlyazmaları Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılır, həm də tədqiq edilir. Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundzadə ənənələrini Özbəkistanda Həmzə Həkimzadə Niyazi davam etdirmişdir. C.Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalının Özbəkistanda geniş oxucu auditoriyası var idi. Azərbaycan yazıçı və şairləri ilə Özbəkistan yazıçı və şairləri arasındakı yaradıcılıq əlaqələri müstəqillik dövründə daha da genişlənmişdir.
Açar sözlər: Azərbaycan və Özbəkistan, elmi-ədəbi əlaqələr, Əlişir Nəvai, iki ölkənin poeziya ənənələri, "Molla Nəsrəddin" jurnalı, Heydər Əliyev adına Mədəniyyət Mərkəzi

http://dx.doi.org/10.29228/edu.154
Məqaləyə istinad: Həbibbəyli İ. (2020) *Ədəbiyyatdan – əbədiyyətə.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 17-23
Məqalə tarixçəsi: göndərilib – 11.04.2020; qəbul edilib – 19.04.2020

From literature to eternity

Isa Habibbayli
Academician, First Vice-President of ANAS,
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: isa.habibbeyli@science.az
https://orcid.org/0000-0002-9793-1949

Abstract. The article discusses scientific, literary and cultural relations of Azerbaijan with Uzbekistan. Outstanding personalities as Ibn Sina, Kharazmi, Bukhari, Ulugbey are highly respected in Azerbaijan. The works by Nizami Ganjavi, Khagani, Nasimi and Mahammad Fuzuli have been published with large circulation.in Uzbekistan. Alisher Navoi's manuscripts are kept and studied at the Institute of Manuscripts named after Mahammad Fuzuli of the Azerbaijan National Academy of Sciences. The Azerbaijani thinker Mirza Fatali Akhundzadeh continued the traditions of Hamza Hakimzadeh Niyazi in Uzbekistan. Molla Nasreddin magazine, published by Mammadguluzadeh, had a large number of readerships in Uzbekistan. There are

creative relations between Azerbaijani and Uzbek writers and poets. These relations have expanded in the Independence period.
Keywords: Azerbaijan and Uzbekistan, scientific and literary relations, Alisher Navoi, poetic traditions of the two countries, "Molla Nasreddin" magazine, Haydar Aliyev Cultural Center

http://dx.doi.org/10.29228/edu.154
To cite this article: Habibbayli I. (2020) *From literature to eternity.* «Comparative Literature Studies», Issue I, pp. 17-23
Article history: received – 11.04.2020; accepted – 19.04.2020

Giriş / *Introduction*

Azərbaycan–Özbəkistan: iki dövlət və bir can deməkdir.
Özbəkistan–Azərbaycan: iki ölkə və bir cahan deməkdir.
Buxara–Gəncə şəhəri, Səmərqənd – Naxçıvan deməkdir.
Azərbaycan–Özbəkistan: qardaş xalq və əsl dost məkan deməkdir.
Özbəkistan–Azərbaycan, Azərbaycan–Özbəkistan deməkdir!

Azərbaycan–Özbəkistan elmi-ədəbi və mədəni əlaqələri çoxəsrlik qədim tarixə və böyük ənənələrə malikdir. İbn Sinaların, Xarəzmi və Buxarailərin, Uluqbəylərin əsərləri qədim zamanlardan Azərbaycanda oxunmuş və həmişə böyük marağa səbəb olmuş, silinməz izlər qoymuşdur. Eyni zamanda, Nizami və Xaqaninin, Nəsimi və Füzulinin də əsərləri Özbəkistanda həmişə oxunmuş və rəğbətlə qarşılanmışdır.

Dahi şair Əlişir Nəvai özbək ədəbiyyatının əbədi olaraq ədəbiyyat rəmzi kimi qəbul olunur.

Əlişir Nəvai Şərq ədəbiyyatında Nizami Gəncəvidən sonrakı və Füzulidən əvvəlki dövrün ən böyük şairidir.

Əlişir Nəvai ilk dəfə türk dilində "Xəmsə" yaratmaq missiyasını həyata keçirmiş qüdrətli özbək-türk şairidir.

Əlişir Nəvai ədəbi məktəbi ənənələri təkcə Özbəkistanda deyil, türk-müsəlman dünyasında yaşamaqda davam edir.

Azərbaycanda Əlişir Nəvainin əsərləri orta əsrlərin klassik milli poeziya nümunələri kimi oxunur, asan başa düşülür və sevilir. Bu, Azərbaycan və özbək xalqlarının ortaq tarixi kökləri ilə birlikdə, həm də poeziya ənənələrinin, milli-mənəvi dünyasının da nə qədər yaxın və doğma olmasının mühüm göstəricilərindən biridir.

Vaxtilə Azərbaycanın Xalq şairi Səməd Vurğunun dediyi "Əlişir Nəvai bizdə bir Azərbaycan şairi kimi tanınmışdır" – sözləri Azərbaycan xalqının qardaş Özbəkistanın qüdrətli sənətkarına doğma münasibətini və əbədi ehtiramını mənalandırır.

Əsas hissə / *Main part*

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında Əlişir Nəvainin əsərlərinin əlyazmaları ortaq milli sərvətimiz kimi etibarlı şəkildə qorunur və tədqiq edilib öyrənilir. Həmin əlyazmaların içərisində Əlişir Nəvainin sağlığında köçürülmüş və orijinal miniatürlərlə bəzədilmiş qiymətli örnəklər də vardır.

Əlişir Nəvainin əsərlərinin əlyazmalarının Özbəkistandan sonra ən çox Azərbaycanda geniş şəkildə yayılması, xalqlarımız və ölkələrimiz arasındakı ədəbi-mənəvi bağlılıqların möhkəm dayaqlar

üzərində ucaldığını nümayiş etdirir. Aradan uzun əsrlər keçməsinə baxmayaraq, Azərbaycanda bu gün də Əlişir Nəvainin əsərlərinin ədəbiyyat dairələrində orijinaldan oxunması, başa düşülməsi ortaq dəyərlərimizin davamlı və dayanıqlı olmasına parlaq bir misaldır. Eyni zamanda, Özbəkistanda da İmadəddin Nəsiminin və Məhəmməd Füzulinin əsərlərinin tərcüməsiz başa düşüldüyü də çoxdan qəbul edilmiş gerçəklikdir.

Demək olar ki, bütün əsərlərdə ədəbiyyatlarımızın qardaşlığı xalqlarımızın qardaşlığının nümunəsinə və təcəssümünə çevrilmiş, dərin mənəvi bağlılığımızın daha da möhkəmləndirilməsinə uğurla xidmət etmişdir. Bu mənada ayrı-ayrı Azərbaycan və özbək şairlərinin, yazıçılarının dostluq, yaradıcılıq əlaqələri həm də eyni zamanda ölkələr və xalqlararası əlaqələrin də parlaq səhifələrini təşkil edir.

Görkəmli Azərbaycan yazıçısı və mütəfəkkiri Mirzə Fətəli Axundzadə ənənələrinin XX əsrin əvvəllərində Özbəkistanda Həmzə Həkimzadə Niyazi tərəfindən yaradıcı şəkildə davam etdirilməsi ortaq ədəbi-mənəvi dəyərlərimizin nəsillərdən-nəsillərə keçdiyini və hər dövrdə faydalı olduğunu nəzərə çarpdırır. Görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin redaktorluğu ilə çıxan məşhur "Molla Nəsrəddin" satira jurnalının, eyni zamanda Özbəkistanda da doğma mətbuat orqanı kimi qəbul olunması və geniş yayılması, həm də eyni taleyə malik olan xalqlarımızın oxşar problemlərinin ədəbiyyatda, mətbuatda bədii ifadəsinin ortaq maraqlarımız səviyyəsində əks etdirildiyini göstərir. Cəlil Məmmədquluzadənin "Ölülər" pyesinin XX əsrin əvvəllərində Daşkənddə tamaşaya qoyulması, böyük maraqla qarşılanması da Azərbaycan və Özbəkistan üçün eyni dərəcədə ortaq mədəniyyət hadisəsidir.

XX əsrdə Səməd Vurğunla Maqsud Şeyxzadənin və Qafur Qulamın, Mirzə İbrahimovla Şərəf Rəşidovun, Qeyrətəli ilə Süleyman Rüstəmin, Mehdi Hüseynlə Əshəd Muxtarın dostluğu və yaradıcılıq əlaqələri Azərbaycanla Özbəkistan arasındakı böyük etibarın sarsılmaz nümunələridir. Xalq şairi Qafur Qulamın 1960-cı ildə yazdığı aşağıdakı misralar bu gün də Azərbaycan–Özbəkistan münasibətlərini çox dolğun şəkildə mənalandırır:

Azərbaycan, sevirsən böyük eşqi, sənəti.
Tarixə həkk olunub öz şöhrətin, öz adın.
Hələ keçmişlərdə də çox dühalar səndədi,
Şəfəqlər saçdı dahi Nizami tək ustadım.
Bizə yaxşı tanışdır Füzulilə Vidadi,
Biz ürəkdən sevirik sizin böyük Vurğunu.
Üzeyir çox əzizdir, sənəti, sözü, adı,
Könüldə bəsləyirik bir xoş duyğutək onu.

Azərbaycanda və Özbəkistanda keçirilmiş ədəbiyyat həftələri bədii sənətimiz və mədəniyyətimizlə birlikdə dostluq və qardaşlığımızın da təntənəsi olmuşdur. Müxtəlif vaxtlarda Azərbaycanda və Özbəkistanda çap olunmuş şeir antologiyaları iki qardaş xalqın solmaz poeziya çələngi kimi yaşayır.

Ədəbiyyatşünaslıq sahəsində də Azərbaycan–Özbəkistan elmi əlaqələri daim inkişaf etmiş və hər iki ölkə üçün faydalı olmuşdur. Özbəkistanda nəvaişünaslıqla qoşa inkişaf etmiş Nizami Gəncəvi tədqiqatları, Məhəmməd Füzuli araşdırmaları elmi-ədəbi əlaqələrimizin möhkəm təməllərini təşkil edir. Özbək ədəbiyyatşünaslarının Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Səməd Vurğun haqqında yazdıqları elmi əsərlər professional ədəbiyyatşünaslıq nümunələridir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının əsas simalarına həsr olunmuş araşdırmaları ilə özbək həmkarlarımız ədəbiyyatların qardaşlığının yeni nailiyyətlərinin müasir Özbəkistan oxucularına çatdırılmasına geniş imkan yaradırlar. Azərbaycana dair çoxsaylı nadir fotoların və sənədlərin nümayiş etdirildiyi görkəmli özbək şairi Qafur Qulamın Daşkənd şəhərindəki ev muzeyini bu böyük sənətkarın ədəbi əlaqələrimizin inkişafında mühüm rolu olmuş azərbaycanlı yazıçı və şair müasirləri ilə müştərək muzeyi adlandırmaq olar. Azərbaycandan akademik Həmid Araslı, Özbəkistandan isə aka-

demik Vahid Zahirov ölkələrarası ədəbiyyatşünaslıq əlaqələrinin nümunəvi örnəklərini yaratmışlar. Qulamhüseyn Əliyev "Azərbaycan-Özbək ədəbi əlaqələri" mövzusunda müdafiə etdiyi dissertasiyada ədəbi əlaqələrimizin tarixi və inkişaf yolunu sistemli şəkildə araşdırıb, ümumiləşdirmişdir.

Eyni zamanda, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 1985-ci ildə Bakıda "Elm" nəşriyyatında çap etdirdiyi "Azərbaycan-Özbək ədəbi əlaqələrindən səhifələr" adlı məqalələr toplusu da hər iki qardaş xalqın elmi kollektivlərinin, tanınmış elm adamlarının qarşılıqlı əməkdaşlığının nəticəsi kimi meydana çıxmışdır. Əslində bu məqalələr toplusu Azərbaycan alimlərinin özbəkistanlı həmkarları ilə birgə əməkdaşlığının əyani nümunəsini göstərmək üçün atdıqları əhəmiyyətli addımdır. Məqalələr toplusunda Azərbaycan tərəfdən Həmid Araslı, Arif Hacıyev, Azad Nəbiyev, Qafar Kəndli, Cənnət Nağıyeva, Pənah Xəlilov, Xəlil Rza, Qulamhüseyn Əliyev, Şamil Qurbanovun məqalələrində xalqımızın qarşılıqlı ədəbi əlaqələrinin əhəmiyyətli səhifələri elmi obyektivliklə yanaşı, həm də böyük sevgi və ehtiramla təqdim olunmuşdur. Eyni zamanda, məqalələr toplusunda Özbəkistan tərəfdən yer almış Vahid Zahidov, Sabir Alimov, Səidə Nərzullayeva, Həsənxoca Məhəmmədxocayev, Şirəli Turdıyev, Sabir Əliyevin məqalələrində də Azərbaycan xalqına və ədəbiyyatına böyük hörmət və məhəbbət ifadə edilmişdir. Obrazlı şəkildə bu toplunu Azərbaycan və Özbəkistan alimlərinin qardaşlıq çələngi adlandırmaq olar.

Akademik Həmid Araslının Özbəkistanın Əməkdar elm xadimi fəxri adı ilə təltif olunması elmi-ədəbi əlaqələrimizin inkişaf etdirilməsinə dövlət səviyyəsində verilmiş yüksək qiymətin əməli ifadəsidir. 2019-cu ildə Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, görkəmli ədəbiyyatşünas, professor Şöhrət Siracəddinovun Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Fəxri doktoru elmi adına layiq görülməsi tanınmış elm xadiminin xidmətlərinə verilmiş yüksək qiymətin göstəricisi olmaqla bərabər, həm də müasir dövrdə elmi-ədəbi əlaqələrimizin inkişaf etdirilməsinin zəruriliyinə və əhəmiyyətinə göstərilmiş diqqəti də nəzərə çarpdırır.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın müstəqillik illərində Özbəkistana səfərləri, qardaş ölkənin yazıçılar təşkilatı və özbək yazıçıları ilə əlaqələri genişləndirmək sahəsindəki təşəbbüsləri yaradıcı qüvvələrin əlaqələrini yenidən qurmaq baxımından əhəmiyyətli olmuşdur. Eyni zamanda, Özbəkistan Yazıçılar İttifaqının sədri, Xalq şairi Siracəddin Səidin Azərbaycanda müasir ədəbi prosesin inkişafına göstərdiyi maraq, verdiyi önəm də ədəbi mühitdə münasibətlərin genişləndirilməsində irəliyə doğru inkişafa öz təsirini göstərmişdir. Özbəkistanın paytaxtı Daşkənd şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin ədəbi əlaqələrin qarşılıqlı surətdə inkişafına açdığı meydan hər iki ölkə üçün faydalı olan addımların atılmasına şərait yaratmış və müsbət nəticələrin əldə olunmasına geniş yol açmışdır. AzərTAc-ın Orta Asiya üzrə təmsilçisi, tanınmış Azərbaycan ziyalısı Qulu Kəngərlinin iyirmi ilə yaxın müddət ərzində Özbəkistan mühitinə yaxından bələd olan yaradıcı ziyalı kimi göstərdiyi yorulmaz fəaliyyət Nizami Gəncəvi yurdundan və Əlişir Nəvainin vətənindən atılmış ədəbiyyat, dostluq körpülərinin daha da möhkəmləndirilməsinə uğurla xidmət edir.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda da qardaş Özbəkistanla elmi və ədəbi əlaqələr sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Hələ sovet hakimiyyəti illərində Nizami adına Ədəbiyyat İnstitutunda çalışmış Xalq şairi Xəlil Rzanın iki xalqın görkəmli sənətkarı Maqsud Şeyxzadə haqqında "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası və çap etdirdiyi monoqrafiya elmi əlaqələrimizin qiymətli səhifələrini təşkil edir. Xəlil Rza Ulutürkün özbək poeziyasından çevirdiyi şeir örnəkləri Azərbaycanda qardaş Özbəkistanın mənalı poetik təqdimatı kimi səslənir.

XX əsrin yetmişinci illərində Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu (Azərbaycan) ilə Aleksandr Puşkin adına Dil və Ədəbiyyat İnstitutunun (Özbəkistan) birlikdə keçirdikləri elmi konfranslar qarşılıqlı ədəbi əlaqələrin inkişaf etdirilməsi ilə bərabər, digər xalqların da ədəbiyyatlarının ortaq problemləri üzrə öyrənilməsi baxımından əhəmiyyətli olmuşdur. Bu cəhətdən Azərbaycan və Özbəkistan Elmlər Akademiyalarının Ədəbiyyat İnstitutlarının birgə təşkilatçılığı ilə

"Sovet Şərqi xalqlarının ədəbiyyatında realizm problemləri" (Bakı, 1972) və "Sovet Şərqi xalqlarının ədəbiyyatlarında sosialist realizminin mənbələri, formalaşması və inkişafı" (Daşkənd, 1975) mövzularında keçirilmiş ümumittifaq (beynəlxalq) elmi konfransları zamanında böyük əks-səda doğurmuş, ortaq elm tariximizin qiymətli hadisələrindən birinə çevrilmişdir.

Azərbaycan-Özbəkistan əlaqələri Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda müstəqillik dövründə daha geniş və sistemli şəkildə davam etdirilir. Bu elmi-tədqiqat İnstitutunda 20 may 2016-cı il tarixində "Azərbaycan-Türkmənistan–Özbəkistan ədəbi əlaqələri" şöbəsinin yaradılması Orta Asiya ölkələri ilə, xüsusən də Özbəkistanla qarşılıqlı elmi əməkdaşlığı yeni inkişaf mərhələsinə çatdırmağa imkan yaratmışdır. Azərbaycan–Türkmənistan–Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi Binnətovanın böyük ənənələri olan özbək ədəbiyyatının, qardaş ölkə ilə çoxəsrlik elmi-ədəbi əlaqələrin öyrənilməsinə həsr edilmiş çoxsaylı qiymətli elmi əsərləri elmi-ədəbi əlaqələrimizin yeni və sanballı səhifələridir. Almaz Ülvi Binnətova ədəbiyyatlarımızın və ədəbiyyatşünaslıq elmimizin Azərbaycandakı ortaq böyük elçisi kimi ölkələrimiz və xalqlarımız arasında möhkəm və etibarlı elm, sənət körpüləri yaratmaqda davam edir. "Azərbaycan–Türkmənistan–Özbəkistan ədəbi əlaqələri" şöbəsinin əməkdaşı, filologiya elmləri doktoru Yaşar Qasımbəylinin müasir özbək ədəbiyyatına və qarşılıqlı ədəbi əlaqələrin çağdaş mərhələsində ədəbiyyatlarımızın arasındakı tipoloji bənzərliklərin inkişaf etdirilməsinə dair tədqiqatları oxşar ədəbi proseslərin və eyni taleli ədəbi simaların yaradıcılıqlarının müqayisəli şəkildə təhlil edilib müəyyənləşdirilməsinə yeni perspektivlər yaradır.

Bundan başqa, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda demək olar ki, artıq hər il özbək ədəbiyyatının görkəmli klassikləri Əlişir Nəvai, Zahirəddin Məhəmməd Babur, Maqsud Şeyxzadə, Kamal Camalın yaradıcılıqlarına və Azərbaycan–Özbəkistan ədəbi əlaqələrinə həsr edilmiş Beynəlxalq elmi konfranslar keçirilir, həmin konfransların materialları çap olunub ictimaiyyətə çatdırılır. Elmi konfranslarda Özbəkistanın Azərbaycandakı səfirliyinin, tanınmış özbək yazıçı və alimlərinin iştirakı və məruzələrlə çıxış etmələri qarşılıqlı elmi əməkdaşlığın daha da genişləndirilməsinə yeni üfüqlər açır.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Əlişir Nəvai adına Ədəbiyyatşünaslıq Mərkəzinin yaradılması, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı İnstitutunda isə Füzulişünaslıq Mərkəzinin təşkili ədəbiyyatlarımızın öyrənilməsi və təbliği sahəsində yeni mərhələ təşkil edir. Bu elmi mərkəzlərdə toplanılmış elmi və bədii əsərlər, əlyazmaları və lüğətlər ortaq dillərimizi, ədəbiyyatlarımızı və mədəniyyətimizi, geniş mənada ölkələrimizin nailiyyətlərini daha əsaslı şəkildə tədqiq və təbliğ etməyə meydan açır.

Müstəqillik illərində həm Azərbaycanda, həm də Özbəkistanda ədəbi əsərlərimizin tərcümə olunması sahəsində çox böyük addımlar atılmışdır. Bu cəhətdən Özbəkistanda Azərbaycan alimlərinin və yazıçılarının əsərlərinin özbək dilinə çevrilərək nəşr olunması işi daha geniş miqyas almışdır. Tərcümə işi sahəsində Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin, Özbəkistan Yazıçılar Birliyinin, görkəmli ədəbiyyatşünas alim və naşir, professor Həmidulla Baltabayevin, özbək tərcüməçisi mərhum Osman Qoçqarın və AzərTAc-ın Özbəkistan müxbiri Qulu Kəngərlinin zəhmətləri xüsusilə diqqətəlayiqdir. Eyni zamanda, professor Ramiz Əskərin təqdimatında Əlişir Nəvainin "Xəmsə"sinin Azərbaycan dilində səsləndirilməsi ortaq ədəbiyyat və mədəniyyətlərimizə xidmətin böyük əməli ifadəsidir. Özbəkistanın Xalq şairi Kamal Camalın tərcüməsində böyük Azərbaycan şairi Nizami Gəncəvinin məşhur "Xəmsə"sinə daxil olan ölməz poemaların Daşkənddə nəşr edilməsi çox mühüm və əlamətdar ədəbiyyat hadisəsidir. Nizami Gəncəvinin "Xəmsə"si, eyni zamanda tanınmış özbək şairi Alimcan Buriyev tərəfindən özbək dilinə tərcümə olunaraq bir kitabda nəşr olunmuşdur (kitabın redaktoru və ön sözün müəllifi akademik Əziz Qəyumovdur, 2017). Tanınmış professional özbək tərcüməçisi Osman Qoçqarın çevirməsində görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin əsərlərinin 2019-cu ildə "Poçt qutusu" adı ilə kitab halında nəşr olunması qarşılıqlı əlaqələrimizin əhəmiyyətli səhifələridir. Görkəmli özbək ədəbiyyatşünası, filologiya elmləri doktoru, professor Həmidulla Baltabayevin "Poçt qutusu" kitabına daxil etdiyi "Cəlil Məmmədqulu-

zadə və özbək ədəbiyyatı” adlı sanballı məqalə müstəqillik dövrü qarşılıqlı elmi-ədəbi əlaqələrimizin qiymətli elmi örnəyidir. Elmi və ədəbi əlaqələrimizin inkişafındakı xidmətlərinə görə, professor Həmidulla Baltabayev 2019-cu ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurası tərəfindən “İlin alimi” diplomuna, Qulu Kəngərli Fəxri Fərmana layiq görülmüşdür.

Son illərdə Azərbaycan və özbək alimlərinin birgə iştirakı ilə ölkəmizdə “Azərbaycanca-özbəkcə, özbəkcə-azərbaycanca lüğət”in hazırlanıb nəşr edilməsi çox mühüm elmi-mədəni hadisə sayılmağa layiqdir. Özbəkistan Respublikasındakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi olaraq AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan–Türkmənistan–Özbəkistan ədəbi əlaqələri şöbəsində hər iki ölkənin dilçi və ədəbiyyatçı alimləri tərəfindən birgə hazırlanmış (müəlliflər: dilçi professor İsmayıl Məmmədli, Almaz Ülvi Binnətova, Babaxan Şərif və Şahista Artikova) bu lüğət ədəbiyyatlarımızın və elmi əsərlərimizin orijinaldan oxunub öyrənilməsinə geniş imkan yaradır. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix Muzeyinin əməkdaşı Məhfuzə Zeynalovanın müəllifi olduğu "Azərbaycan və özbək xalqlarının tarixi əlaqələri" adlı monoqrafiyada ən qədim dövrdən başlayaraq 1991-ci ilə qədər iki xalq arasındakı qarşılıqlı siyasi, iqtisadi və mədəni əlaqələr təhlil edilir.

Elmi-ədəbi və mədəni əlaqələrimizin öyrənilib, təbliğ edilməsində Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının ölkələrimizdəki səfirliklərinin fəal iştirakını, dəstəyini xüsusi minnətdarlıqla qeyd etmək lazımdır. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin ölkələrimiz və mədəniyyətlərimiz arasında əməkdaşlıq körpülərini daha da möhkəmləndirmək işinə ardıcıl olaraq verdiyi böyük dəstək də əlaqələrimizin sabahına daha nikbin baxmağa əsas verir.

Azərbaycan-özbək ədəbi-mədəni əlaqələrinin inkişafında Dünya Gənc Türk Yazarlar Birliyi faydalı işlər görmüşdür. Qurumun Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə birlikdə hazırladığı “Özbək şeir çələngi” toplusunun Bakıda, təşkilatın qurucusu Əkbər Qoşalının “Xəyalımı çağırdım” şeirlər kitabının Daşkənddə çapı qarşılıqlı əlaqələrimizin inkişafına töhfə vermişdir. Dünya Gənc Türk Yazarlar Birliyinin xətti ilə Özbəkistandan Azərbaycana gəlmiş gənc yazıçı və şairlər AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda, Azərbaycan Yazıçılar Birliyində yaddaqalan görüşlərdə iştirak etmiş, faydalı fikir mübadiləsi aparmışlar.

Oxuculara təqdim edilən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Müqayisəli ədəbiyyatşünaslıq” jurnalının bütövlüklə Azərbaycan–Özbəkistan ədəbi əlaqələrinə həsr olunmuş Xüsusi buraxılışı bu sahədə ilk əməli təşəbbüsdür. Xüsusi buraxılışda çoxəsrlik özbək ədəbiyyatının mühüm nailiyyətləri və görkəmli simaları haqqında oçerklər, icmallar, analitik yazılar, habelə ədəbi əlaqələrimizin unudulmaz səhifələrinə həsr edilmiş araşdırmalar və ölkələrimizi tərənnüm edən şeirlər öz əksini tapmışdır. Bir sözlə, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Siracəddinovun redaksiya heyətinin üzvü olduğu və beynəlxalq aləmdə geniş yayılan “Müqayisəli ədəbiyyatşünaslıq” jurnalı Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu əməkdaşlarının özbək ədəbiyyatına və elminə dair marağını və baxışlarını geniş ictimaiyyətə təqdim edir. Bu, Azərbaycan–Özbəkistan elmi və ədəbi əlaqələrinin inkişafında tamam fərqli və əhəmiyyətli elmi hadisədir. İlk dəfə olaraq “Müqayisəli ədəbiyyatşünaslıq” jurnalının bütünlüklə Özbəkistana həsr edilməsi müstəqil dövlətçilik şəraitində Azərbaycan–Özbəkistan elmi və ədəbi-mədəni əlaqələri sahəsindəki müasir inkişafın canlı, əyani bir göstəricisidir. “Müqayisəli ədəbiyyatşünaslıq” jurnalının Özbəkistan sayı dost və qardaş Özbəkistana, özbək ədəbiyyatına, özbəkistanlı yazıçı və şairlərə, ədəbiyyatşünas alimlərə Azərbaycan xalqının, azərbaycanlı ədib və alimlərin hörmət və ehtiramının əməli ifadəsidir. Bu müstəvidən baxanda Azərbaycan–Özbəkistan ədəbi-mədəni və elmi əlaqələrinin dünəni şərəfli, bu günü qiymətli, sabahı daha aydın və parlaq görünür.

Azərbaycan–Özbəkistan elmi-ədəbi və mədəni əlaqələri ölkələrimizin və xalqlarımızın genişmiqyaslı əlaqələrinin üzvi tərkib hissəsi və əsas hərəkətverici qüvvəsidir.

Özbək ədəbiyyatı – özbək xalqının tarixi taleyinin, milli-mənəvi varlığının, inkişafda olan müasir dövrünün və daha aydın sabahlarının ədəbi təqdimatıdır.

Özbək ədəbiyyatı – Özbəkistanın dünəni və bu gününün güzgüsü, gələcək inkişafının barometridir. Heç vaxt Özbəkistanda olmamış başqa ölkələrin insanları özbək ədəbiyyatını oxumaqla, Özbəkistanın şərəfli tarixi keçmişinə və inkişafda olan bu gününə mənalı bir ekskurs etmiş ola bilərlər.

Özbək ədəbiyyatı – müasir Özbəkistanın mükəmməl ədəbi bələdçisidir.

Azərbaycan–Özbəkistan ədəbi-elmi və mədəni əlaqələri xalqlarımız və ədəbiyyatlarımız arasında etibarlı, möhkəm və əhəmiyyətli körpüdür.

Xalqlarımızın və ədəbiyyatlarımızın tarixi dostluğu və qardaşlığına, qarşılıqlı əməkdaşlığına xidmət edənlər bu elm və ədəbiyyat körpüləri vasitəsilə daha böyük gələcəyə və əbədiyyətə doğru daim inamla yol gedəcək, ölkələrimizin inkişaf salnaməsinə parlaq səhifələr yazacaqlar.

От литературы до вечности

Иса Габиббейли
Академик, первый вице-президент НАНА, директор Института литературы
им. Низами Гянджеви. Азербайджан.
E-mail: isa.habibbeyli@science.az

Резюме. В статье рассматриваются научные, литературные и культурные связи Азербайджана с Узбекистаном. В Азербайджане высоко ценятся такие выдающиеся личности, как Ибн Сина, Харазми, Бухари, Улугбей. Произведения Низами Гянджеви, Хагани, Насими и Мухаммеда Физули изданы большим тиражом в Узбекистане. Рукописи Алишера Навои хранятся и изучаются в Институте рукописей имени Мухаммеда Физули Национальной Академии наук Азербайджана. Хамза Хакимзаде Ниязи продолжил традиции азербайджанского мыслителя Мирза Фатали Ахундзаде в Узбекистане. Журнал «Молла Насреддин», издаваемый Джалил Мамедгулузаде, имел большое количество читателей в Узбекистане. Между азербайджанскими и узбекскими писателями и поэтами сложились тесные и продолжительные творческие отношения. Эти отношения особенно расширяются в период независимости.

Ключевые слова: Азербайджан и Узбекистан, научно-литературные связи, Алишир Навои, поэтические традиции двух стран, журнал «Молла Насреддин»а, Центр Культуры им. Гейдара Алиева

Özbəkistan görüşləri: ənənələr və vəzifələr

Anar
Azərbaycanın Xalq yazıçısı

Avqustun 6-da Özbəkistan Yazıçılar İttifaqının dəvətilə mən və dramaturq Firuz Mustafa Beynəlxalq konfransda iştirak etməkçün Daşkəndə yola düşdük.

İki saat sürən uçuşdan sonra İslam Kərimov adına Beynəlxalq Hava Limanında bizi Özbəkistan Yazıçılar İttifaqının sədri, Xalq şairi Siracəddin Seyyid, Prezident Aparatı Mədəniyyət şöbəsinin müdiri, yazıçı-tərcüməçi Məmmədqul Həzrətqulov və başqaları qarşıladılar.

Konfrans "Klassik və çağdaş özbək ədəbiyyatının öyrənilməsinin aktual məsələləri və özbək ədəbiyyatının dünyada tanınması" mövzusuna həsr olunmuşdu.

Bəri başdan deyim ki, çox vacib bir problemə həsr olunmuş beynəlxalq konfrans son dərəcə yüksək səviyyədə təşkil edilmişdi. Açılış toplantısından sonra beş seksiya üzrə işləyən konfransda Türkiyədən (İmdat Afşar və başqaları), İrandan (Hüseyn Düzgün), Misirdən, Hindistandan, Əfqanıstandan, Yaponiydan, Cənubi Koreyadan, Rusiyadan ("Roman-qazeta"nın baş redaktoru Yuri Kozlov, "Literaturnaya qazeta"nın redaktor müavini Anastasiya Yermakova), Ukraynadan, Belarusdan, ABŞ-dan, Kanadadan, Fransadan, Almaniyadan, Hollandiyadan, İsveçdən, Qazaxıstandan, Qırğızıstandan, Türkmənistandan, Tacikistandan, Latviyadan, Litvadan, Azərbaycandan (Firuz Mustafa) gələn qonaqlar müxtəlif seksiyalarda məruzələrləçıxış etdilər.

Açılış toplantısını Özbəkistan Yazıçılar İttifaqının sədri Siracəddin Seyyid aparırdı. Özbəkistan prezidenti Şövkət Mirziyayevin konfransa təbrikini Ali Məclis Senatının sədri N.Yuldaşov oxudu. Sonra YUNESKO-nun Özbəkistandakı nümayəndəsi Dender Badarç, mən, Qazaxıstan Yazıçılar İttifaqının sədri Uluqbek Yesdueletov, Tacikistan Yazıçılar İttifaqının sədri Nizom Kosim çıxış etdik.

Mən Azərbaycanla qardaş Özbəkistanın əsrlərin dərinliklərinə gedən mədəni, ədəbi əlaqələrindən, böyük Nəvaiyə Bakıda heykəl ucaldılmasından danışdım. Beynəlxalq siyasi aləmdə Özbəkistanın daima ölkəmizin haqq işini müdafiə etməsinə görə təşəkkürümü bildirdim və Yazıçılar Birliyinin Əlişir Nəvaiyə həsr olunmuş Xüsusi buraxılışı haqqında məlumat verib, Senatın sədri, cənab Yuldaşovdan bu nüsxəni Özbəkistanın hörmətli prezidentinə çatdırmasını xahiş etdim. O, bu işi məmnuniyyətlə edəcəyini bildirdi.

Açılışdan sonra Əlişir Nəvainin abidəsinə əklillər qoyduq və böyük şairin adını daşıyan Özbək Dili və Ədəbiyyatı Dövlət Universitetində görüşümüz oldu. Özbək dostlarımız iftixarla deyirdilər ki, əvvəllər özbək dili və ədəbiyyatı universitetlərdə bir fakültə çərçivəsində tədris edilirdisə, indi bu fənlər üzrə ayrıca Dövlət Universiteti fəaliyyət göstərir.

Sonra Özbəkistan Yazıçılar İttifaqına yollandıq. Bu təşkilat son illərdə xüsusi tikilmiş ikimərtəbəli, yaraşıqlı binada yerləşir. Ən müasir avadanlıqla və cihazlarla təmin olunmuş binada Yazıçılar İttifaqından başqa onun aylıq dörd jurnalı və həftəlik qəzetinin redaksiyaları, eləcə də "İcad" və "İlham" fondları yerləşir. Hamısı da dövlət büdcəsindən maliyyələşdirilir. Amma fondların əlavə gəlir mənbələri də var. Yazıçılar İttifaqı, yazıçıların sosial təminatı və adıçəkilən fondların maddi vəziyyəti haqqında bir qədər sonra danışacam. Yazıçılar İttifaqındakı görüşdə mən Azərbaycan Yazıçılar Birliyinin işi haqqında, təşkilatımıza dövlət qayğısı haqqında danışdım. Mərhum prezidentimiz Ulu öndər Heydər Əliyevin ədəbiyyata xüsusi münasibətini xatırlatdım. 1993-cü ildə H.Əliyev yenidən hakimiyyətə gələndən sonra həm Yazıçılar Birliyinin, həm də onun ədəbi orqanlarının dövlət büdcəsindən maliyyələşdirilməsi haqqında, Azərbaycanın ən yüksək "İstiqlal ordeni"ni ilk olaraq yazıçılara – Bəxtiyar Vahabzadəyə, Xəlil Rzaya, Məmməd Araza təqdim etməsi haqqında danışdım.

Hörmətli Prezidentimiz İlham Əliyevin Tərcümə Mərkəzimizin də büdcəyə salınması barədə qərarı, yazıçılara ev tikməkçün sahə ayırılması, kitabların latın qrafikasıyla nəşr olunması haqda sərəncamı, binamızın əsaslı təmirinə ayırdığı vəsait, hər il otuz yazıçıya ayda 300 manat, iyirmi gənc

yazıçıya ayda 200 manat məbləğində təqaüd verilməsi, 2014-cü ildə təşkilatımızın 80 illliyi və qurultayımızın çoxlu əcnəbi qonaqların iştirakıyla yüksək səviyyədə keçirilməsinə göstərdiyi yardım, jurnalistlərçün tikilmiş evlərdə mətbuat sahəsində çalışan bir sıra yazıçıların da mənzillə təmin olunması – ədəbiyyatımıza dövlət qayğısının bariz örnəkləridir.

Özbəkistan Yazıçılar İttifaqının sədri Siracəddin Seyyid və mən ədəbi əlaqələrimizin daha da genişləndirilməsi barədə memorandum imzaladıq. Memorandumda qarşılıqlı tərcümələrə, görüşlərə, mətbuat orqanlarımızda ədəbiyyatlarımızdan nümunələrin dərc olunmasına, ədəbi-bədii müsabiqələrin keçirilməsinə, kitab mübadiləsinə aid maddələr daxildir.

İttifaqdakı tədbirdən sonra böyük Nizaminin abidəsinə əklil qoyduq və onun adını daşıyan Ali məktəbdə görüşümüz oldu. Mən çıxışımda dedim ki, bu gün iki dahinin – Nizaminin və Nəvainin abidələrinə əklil qoyub, onların adlarını daşıyan təhsil ocaqlarında görüşlər keçirdik. Deməli, çox əsrlər qabaq olduğu kimi, bu gün də Nizami və Nəvai bizim ədəbi və əbədi qardaşlığımızın rəmzləridir. Nəvai Nizami "Xəmsə"sindən ruhlanaraq türk – çağatay – qədim özbək dilində öz orijinal "Xəmsə"sini yaradıb, gəncəli ustadının adını hörmətlə andığı kimi, Füzuli də öz "Leyli-Məcnun"unu doğma Azərbaycan türkcəsində qələmə alarkən, özbək dahisini ehtiramla xatırlayıb. Bu yaxınlarda bitirdiyim "Üç Leyli və üç Məcnun" essemdə məhz bu dahilərin yaratdıqları üç poemadan bəhs olunur. Azərbaycanda Nəvainin əsərlərindən başqa, son zamanlar "Baburnamə" də dilimizə çevrilib. Cavid, Cavad, Müşfiq kimi Stalin repressiyalarının qurbanı olmuş Çulpandan bu günün ən gənc şairlərinə qədər özbək müəlliflərin əsərlərindən ibarət Antologiya Bakıda bu günlərdə çapdan çıxıb.

Özbəkistanda başqa klassik və müasir yazıçılarımızla bir sırada mənim də dörd kitabımın çıxması, müxtəlif qəzet, jurnal və almanaxlarda yazılarımın dərc olunması, vaxtilə Mukimi adına Teatrda "Qaravəlli" pyesim əsasında özbək bəstəkarı Kələntərovun yazdığı"Zəncir" musiqili komediyasının uğurla tamaşaya qoyulması, şübhəsiz, məni sevindirməyə bilməzdi.

Bu yaxınlarda rəhmətə getmiş tərcüməçim Usman Kuçkoru xatırladım və başqa çevirimçilərimə ən dərin təşəkkürümü bildirdim. "Dantenin yubileyi" povestim özbək dilində iki müxtəlif tərcümədə, "Gürcü familiyası" üç müxtəlif tərcümədə nəşr edilib. Amma bilmirdim ki, "Dantenin yubileyi"ni çevirən Məmədqul Həzrətqulov, həm də bu povest əsasında yaranmış televiziya tamaşasının və radio tamaşanın müəllifidir. Bütün səfər boyu məni öz maşınında gəzdirən və Səmərqəndə səfərdə müşayiət edən Məmədqula da çox minnətdaram. Yeri gəlmişkən, mənə bağışladığı"Göy göl" kitabı Azərbaycana həsr olunub və biz də hökmən bu əsəri dilimizə çevirməliyik.

Dostluq əlaqələrimizdən, bu sahədə görüləcək gələcək işlərimizdən Daşkənd televiziyasına və "Özbəkiston adabiyotı va sanati", "Hurriyat" qəzetlərinə verdiyim geniş müsahibələrdə bəhs etdim.

Nahar fasiləsindən sonra seksiyaların işi başlandı.

Firuz Mustafa ikinci seksiyada "Müstəqillik dövründə Azərbaycan-özbək ədəbi əlaqələrinin mühüm aspektləri" mövzusunda, mən beşinci seksiyada "Üç Leyli, üç Məcnun" temasında çıxışlar etdik. Bizim seksiyada çıxış edən görkəmli özbək yazıçısı Erkin Əzimin mənim haqqımda xoş sözlərinə, redaktə etdiyi "Təfəkkür" dərgisində "Ağ qoç, qara qoç"u çap edəcəyini deməsinə görə ona da təşəkkür etdim.

Səhərisi gün, ayın 8-də iti sürətli qatarla Səmərqəndə yola düşdük.

Altmışıncı illərin sonunda, Daşkənddə keçirilən Asiya-Afrika ölkələri kinofestivalında iştirak etdiyim zaman Səmərqəndə də getmişdim. O festival günlərində məşhur özbək kinorejissoru Şöhrət Abbasovla tanış olmuşduq, çox sonralar onunla Türkiyədə də görüşmüşdük. Şöhrətin bir neçə ay öncə dünyasını dəyişdiyini biləndə də, şəxsən tanıdığım tacik şairi Mömin Kanaotun da bu yaxınlarda rəhmətə getdiyini eşidəndə də Sergey Yeseninin misraları yadıma düşdü.

Mı teper uxodim ponemnoqu
v tu stranu, qde tiş i blaqodat
Mojet i mne skoro na doroqu
brennıe pojitki sobirat

(Xoş, sakit dünyaya yollanmaq üçün
yavaş-yavaş tərk edirik aləmi.
Bəlkə lap yaxında yola çıxmaqçün
mən də yığışdırım şələ-şüləmi.)

Azı əlli il bundan qabaq gördüyüm Daşkənd, Səmərqəndlə indiki şəhərlər arasında zəmin-asiman fərq var. Daşkənd də, Səmərqənd də heyrətamiz şəkildə dəyişib, yeniləşib, daha da gözəlləşib, abadlaşıblar. Qədim memarlıq abidələriylə dünyanı heyran qoyan Səmərqənd bu abidələri göz-bəbəyi kimi qoruyub saxlamaqla tamamilə yeni, müasir şəhər kimi də cilalanıb. Özbəkistana ilk səfərimdən Daşkənd xatirimdə daha çox yaşıllıqlar – parklar, bağlar şəhəri kimi qalmışdı. İndi bütün bu parkların, bağların bolluğuyla bərabər, bir-birindən orijinal binalara, geniş xiyabanlara da heyran olursan. Bir də ki – Dəmir yol vağzalından Yazıçılar İttifaqının binasınacan hər yerdə əkilmiş və zövqlə yerləşdirilmiş əlvan güllər, çiçəklər adamın gözünü oxşayır. Gen kölgəli, qol-budaqlı ağaclar, rəng verib-rəng alan güllüyün rayihələri, fəvvarələrin fışıltısı, arxların şırıltısı qırx neçə dərəcə istini hiss etməyə qoymurlar.

Səmərqənddə, əlbəttə, ilk növbədə misilsiz memarlıq abidələrinə baş çəkdik.

Özbəkistanın ilk prezidenti İslam Kərimov Səmərqənddə anadan olub. Daşkənddə məşhur Reqistan Meydanının yaxınlığında heykəli ucalsa da, öz vəsiyyətinə görə, ölkənin paytaxtında deyil, Səmərqənddə, qədim məscidin yanında dəfn olunub. Bu vəsiyyətin yerinə yetirilməsi üçmərtəbəli binanın damına çıxmaq deməkdir və ona görə ziyarətə gələnlər – elə mənim kimi yaşlılar müəyyən çətinliklə qarşılaşırlar. Bakıda Nəvainin heykəlinin açılışında hörmətli Prezidentimiz İlham Əliyev bizi də İslam Kərimova təqdim etmişdi. Onun haqqında bildiklərimə və eşitdiklərimə görə bu üç mərtəbəni qalxmağı özümə borc bildim.

Özbək dostlarımız İ.Kərimovun qürurlu xasiyyətindən danışırdılar. Sovet İttifaqının son dövrlərində Moskvada hansısa yüksək zirvə toplantısında Kərimov bir az gecikərək daxil olanda Mixail Qorbaçov rişxəndlə: vot eşe odin prezident izvolil poyavitsya (bir prezident də təşrif buyurdu) – deyir və kobudcasına əlavə edir: - bunları öz xoşuna qoysan, hərəsi özünü bir padşah elan edər.

İslam Kərimov əlindəki iclasın gündəliyini göstərərək: - Mən bu gündəlikdə göstərilən məsələlərin müzakirəsi üçün gəlmişəm, gündəlikdə Kərimovun müzakirəsi məsələsi yoxdur - deyib iclası tərk edir.

Bu söhbətin nə qədər həqiqətə uyğun olduğunu bilmirəm, amma İslam Kərimovun qürurlu, necə deyərlər, "qabağından yeməyən"şəxsiyyət olması barədə çox eşitmişəm. Danışırlar ki, YUNESKO-nun Baş katibi Frederik Mayor Səmərqənddə Uluqbəy rəsədxanasını ziyarət edərkən deyib: - Uluqbəyin riyazi kosmik hesablarıyla tanış olan alimlər təəccüblənir ki, onlar müasir kompüterlərin göstərdiyi rəqəmlərdən çox az fərqlənir. Uluqbəyin hesablamalarında cüzi bir yanlışlıq var. İ.Kərimov F.Mayora: - Cüzi yanlışlıq Uluqbəyin verdiyi rəqəmlərdə yox, müasir kompüterlərin hesablamalarında ola bilər – deyir. Sonralar Frederik Mayor Özbəkistan təəssüratlarından yazarkən, Kərimovun bu düzəlişini xatırlayıb onu əsl vətənpərvər adlandırır.

Uluqbəyin rəsədxanası da, mədrəsəsi də, ümumən dövlət xadimi kimi fəaliyyəti də doğrudan möcüzədir. Əmir Teymurun istəkli nəvəsi Uluqbəy (hətta bir əfsanəyə görə uşaqlıqda babasının həyatını da xilas edib) hökmdar kimi də öz vəzifəsini icra edib, özünün tikdirdiyi rəsədxanasında da kainatın sirləriylə uğraşıb. Rəsədxananı da gördük, qarşısındakı Uluqbəy muzeyində o dövrün astronomik cihazlarıyla da tanış olduq.

Nəvədən sonra böyük babasının son mənzilinə– məzarına yollandıq. Gur Əmir, yəni Əmir Teymurun goru-məzarı əzəmətli, yüksək gümbəzli bir tikilidir. Tam Şərq üslubunda inşa olunubsa da, nədənsə, mənə Parisdə Napoleonun Əlillər evindəki qəbrini xatırlatdı – eyni əzəmət, möhtəşəmlik, eyni əbədi hökmranlıq iddiası...

Əmir Teymurun oğulları – Şahrux və Azərbaycanda pis ad çıxarıb öldürülmüş "Maran şah", yəni İlan şah kimi tanınan Miran şah, Uluqbəyin və başqa nəvələrinin məzarları ən alt qatda, zirzəmidədir. Turistlərin gördükləri məzar daşları isə onların üst qatda təkrarıdır. Əmir Teymurun bahalı daşdan tünd rəngli məzar daşı başqa qəbirlərdən fərqlənir. Rəvayətə görə, Əmir Teymur: - Məbadə, mənim məzarımı açasınız, – deyib, – yoxsa, fəlakət baş verər. Sovet arxeoloqları bu vəsiyyətə məhəl qoymadan 1941-ci il iyunun 21-də Teymurun məzarını açıblar. Səhərisi gün müharibə başlayıb və bu prosesi çəkən operator cəbhədə qıçını itirib, Teymur kimi axsaq qalıb. Bu məzarı açmaq prosesini lentə alan başqa bir operator - Malik Kayumov doxsan neçə yaşında vəfat edib.

Böyük tarixi şəxsiyyət Əmir Teymur nə sovet dövründə təqdim olunduğu kimi yalnız qəddarlığıyla ad çıxarmış zülmkar, nə də indiki zamanda bəzən ifrat idealizə edilən hökmdar olub. Bütün sahibi-ixtiyarlara mənsub olan cəhətlər-təkəbbür, qəddarlıq, küllü-aləmə hakim kəsilmək iddiası ona da xas idi. Məgər Makedoniyalı İsgəndər, ya Yuli Sezar belə deyildilər? Amma bununla bərabər, elmə, şeirə, sənətə həssas, qayğıkeş münasibəti, Səmərqəndi və başqa şəhərləri misilsiz memarlıq abidələrilə əbədiləşdirməsi də Teymurun tarixdə müsbət işarəsilə qalacaq əməllərindəndir. Teymurun alimlərə, şairlərə, sənətçilərə verdiyi önəmlə bir sırada indiki təbirlə desək, dini tolerantlığı da diqqəti çəkir.

Səmərqənddə sivri bir dağın döşündə Müqəddəs Daniel, yaxud Xacə Daniyar adlı övliyanın məzarı var. Kimsə buranı doğrudan da Əmir Teymurun əmriləövliyanın Bağdaddan köçürüldüyü məzarı sayır, kimsə Bağdaddan onun məzarından bura ancaq torpaq gətirildiyini deyir. Qəribə odur ki, bu məzarla bağlı əfsanələr bizim günlərdə də yaranır. Məzarın yanında bitən ağac quruyurmuş. Guya Rusiya patriarxı Aleksi bura gəlib su səpəndən sonra ağac yenidən dirçəlməyə başlayıb. Dağın ətəyində suyu Laçının, Şuşanın bulaqları kimi sərin və şirin bir bulaq da var. Yenə də əfsanəyə görə bu bulaqdan su içən ürəyində niyyət tutmalıdır. İsraildə, Qüdsdə Ağlaşma (Göz yaşı) divarında niyyətimi yazıb daşların arasına qoyduğum kimi, Səmərqənddəki bulaqdan su içəndə də ürəyimdə tutduğum niyyətin - Qarabağımızın, bütün başqa işğal olunmuş torpaqlarımızın tezliklə azad olunması arzumun tezliklə baş tutmasını istədim.

Səmərqənd doğrudan da açıq səma altında unikal memarlıq muzeyidir. Beləşəhər-muzey kimi onu dünyada bəlkə yalnız Romayla müqayisə etmək olar. Reqistan Meydanı dəqiq ölçülüb-biçilmiş miqyaslarına görəən məşhur meydanlarla – Romada Müqəddəs Pyotr, Peterburqda Senat, Parisdə Etual (Ulduz) meydanlarıyla müqayisə oluna bilər.

Reqistan qumluq deməkdir və bu meydan üç tərəfdən ecazkar binalarla əhatə olunub, dördüncü tərəfdənsə giriş və baxış üçün açıqdır. Bu açıq yerdən baxanda sol tərəfdəki bina Uluqbəy mədrəsəsidir. Mədrəsənin dörd tərəfdən divarlarla əhatə olunmuş daxili sahəsi Avropa şəhərlərində, özəlliklə ispan memarlığında geniş yayılmış patio-daxili həyətləri xatırladır, amma təbii ki, Uluqbəy mədrəsəsindəki həyət daha çox genişdir.

Reqistan meydanının dördüncü, açıq tərəfində, pillələrin üstündə skamyalar düzülür və vaxtaşırı burda musiqi festivalları keçirilir. Ağpaltarlı gəlinlər nişanlılarıyla, ərlərilə bura gəlib Reqistan Meydanının fonunda şəkil çəkdirirlər.

Səmərqəndin başqa məşhur abidələri sırasında Bibi xanım məscidi, Şahizində (əbədi yaşar şah) nekropolu da dünyaca məşhurdurlar. Şahizində məzarlığını memarlıq incilərilə bəzəyən ustalar sırasında azərbaycanlılar da olub.

Səmərqənddən ayrılıb sürət qatarıyla Daşkəndə yollanır, iki saatdan sonra çatırıq. Axşam qaldığımız beşulduzlu "Site palas" otelinin açıq həyətində Özbəkistan hökuməti adından ziyafət verilir. Gur və həzin səsli kişi və qadın müğənnilər özbək musiqisilə bərabər, Rəşid Behbudovun, Edit Piafın, Frenk Sinatranın repertuarından mahnılar, Rossininin "Sevilya bərbəri", Puççininin "Turandot" operalarından ariyalar ifa edirlər. Özbəkistan dövlətinin ayrılmaz hissəsi Qaraqalpak respublikasından istedadlı gənc müğənni bizim Müslüm Maqomayevin repertuarından elə onun ifa tərzində iki mahnı oxyur, sonra bizə yanaşır, tanış oluruq. Demə, Müslüm Maqomayev adına konkursda iştirak edib, birinci mükafata layiq görülüb. Onu təbrik edirik. Artıq yetərincə məşhur müğənni olduğu üçün haqqında lətifələr də söyləyirlər. Hansı bir konsertindəsə səhnədə oxuduğu zaman zəlzələ baş verir,

salondakı çilçıraq tərpənməyə başlayır. Zəlzələdən xəbəri olmayan gənc müğənni qürurla: - Gördünüzmü, – deyir, – səsimin gücündən çilçıraq da əsməyə başladı.

Türkiyəli yazıçı və tərcüməçi, ədəbiyyatımızın sadiq dostu İmdat Afşarla görüşüb söhbətləşirik. Çox məmnunuq ki, neçə il əvəllərdə Türkiyəylə Özbəkistan arasında yaşanan gərginlik aradan qalxıb, siyasi və mədəni əlaqələr gün-gündən daha da fəallaşır. Türkiyədə ümumtürk məsələlərilə bağlı toplantılarda Özbəkistan nümayəndələrinin olmamasını görəndə doğrusu, çox üzülürdüm. Özbəkistansız Türk dünyası tam deyil və Türkiyə də Özbəkistançün qardaş məmləkətdir. İmdad məni Cənubi Koreyadan gəlmiş türkoloq xanımla tanış edir. Xanımın adı İngenq, soyadı isə bircə hərfdən ibarətdir – O. Türkoloji təhsilini Seulda başlayıb, İstanbulda tamamlayıb, bir çox türk dillərini, o cümlədən, Türkiyə və Azərbaycan türkcələrini, özbək dilini bilir. Türk dünyasının bir çox bölgələrində olub, ən ucqar yerlərinə - Yakutiya-Saxa və Altaylara da səfərlər edib. Azərbaycana da gəlib. Universitetimizin müəllimi, yazıçı Vaqif Sultanlı ilə yaradıcılıq əlaqələri saxlayır. Xanım O. özbək dastanı“Alpamışla” Koreya eposu “Jumonq” arasında tipoloji analizə həsr etdiyi kitabını mənə bağışlayır. Alpamışın mənşəcə“Kitabi-Dədə Qorqud”dakı Alp Bamsıya (Beyrəyə) yaxınlığını nəzərə alsaq, bu, koreyalı türkoloqun bir növ bizim folklorumuza da müraciətidir. Madam O Azərbaycan ədəbiyyatına da maraq göstərir. Bizimlə bir təyyarədə Bakıya uçacağını və iyirmi gün şəhərimizdə qalacağını deyir.

Bakıya səhər saat 7-də uçmalıyıq. Hava limanına saat beşdə gəlirik. Sabahın belə erkən çağında Məmədqulun, Yazıçılar İttiffaqının sədri Siracəddin Seyyidin bizi ötürməyə gəlmələrindən mütəəssir oluruq...

Yazımın əvvəlində vəd etdiyim məsələ barəsində– Yazıçılarla bağlı prolbemlər haqqında bir neçə kəlmə yazmaq istəyirəm. Biz hər zaman haqlı olaraq fəxr edirik ki, Azərbaycanda Yazıçılar Birliyi dağılmadı, parçalanmadı, jurnallarımız, qəzetimiz bağlanmadı. Axı, bir çox keçmiş sovet respublikalarında yazıçı təşkilatları ya dağılıb itdi, ya da Moskvada olduğu kimi, neçə yerə parçalandı, ədəbi nəşrlərin çoxu da ya çıxmır, ya da miskin vəziyyətdədir. Bütün bunlar həqiqətdir, amma xoş istisnalar da var. Belə istisnalardan biri də qardaş Özbəkistan imiş. Özbəkistanda da Yazıçılar İttifaqı fəaliyyətini dayandırmayıb, parçalanmayıb, ədəbi nəşrlərini nəinki qoruyub, hətta artırıb. Otuz üç milyonluq Özbəkistan on üç vilayət və bir Qaraqalpak respubilkasından ibarətdir. Hər vilayətdə Yazıçılar İttifaqının altı nəfər ştatı olan bölmələri var və bölmə rəhbərlərinə yüksək maaş və idarə avtomobili verilir. Bundan başqa, hər vilayətin hakimi (icra başçısı) yazıçılara himayədarlıq şurasına rəhbərlik edir. Qaraqalpak respubilkasında isə öz Yazıçılar ittifaqlarının imtiyazları daha böyükdür. Yazıçıların Həmid Əlimcan adına Yaradıcılıq evindən başqa, ölkənin daha iki bölgəsində yaradıcılıq evləri tikilir. Daşkənddə yazıçılar üçün ayrılmış sahədə hərəsi 120 mənzilli iki yaşayış binası dövlətin hesabına tikilir. Mənimçün maraqlı məlumatlardan biri də keçmiş ədəbiyyat fondu sayağı iki müasir fondun – “İcad” və“İlham” fondlarının maliyyələşdirilməsi idi. “İcad” fondu yalnız yazıçılara, “İlham” fondu digər sənət sahələrində çalışanlara xidmət edir. Hər iki fondun gəlirləri qismən dövlət büdcəsindən, qismən sponsorların yardımlarından, qismən də bütün nəşriyyatlarda (həm dövlət, həm özəl nəşriyyatlarda) çap olunan yazıçı kitablarından ayrılan müəyyən faizlərdən yaranır. Nəşriyyatların bu faizləri ödəməsi qəbul olunmuş qanunla tənzimlənir. Belə ödənişlərsiz heç bir nəşriyyat lisenziya ala bilməz. Bu təcrübədən bizim də istifadə etməyimiz barədə düşünməyə dəyər.

1991-ci ildə Əlişir Nəvai parkında müasir özbək yazıçılarından Abdulla Qəhharanın, Aybekin və başqalarının heykəlləri ucaldılmışdı. Özbəkistan Yazıçılar İttifaqının, Mədəniyyət Nazirliyinin, İncəsənət Akademiyasının təkliflərinə əsasən, daha üç məşhur şairin – Həmid Əlimcanın, onun həyat yoldaşı şairə Zülfiyyə xanımın, Qafur Qulamiın şəhərin ayrı-ayrı bölgələrində qoyulmuş heykəlləri də bu Ədiblər Xiyabanına köçürülmüşdür. Hazırda bu xiyabanda Xalq şairləri Erkin Vahidovun və Yazıçılar İttifaqının sabiq sədri Abdulla Arifovun da heykəlləri qurulur. Bu xiyabanda mənəviyyat dərsləri, oxucularla, ilk növbədə, gənclərlə yazıçıların görüşlərinin təşkil olunması, turistlərin özbək ədəbiyyatının görkəmli xadimlərilə tanış olması üçün şərait yaradılır. Bu məqsədlə Özbəkistan mədəniyyət və incəsənəti sərgi salonu Yazıçılar İttifaqının sərəncamına verilir.

Yazıçılar İttifaqının nüfuzunun daha da yüksəlməsinə yönəlmiş bütün bu tədbirlər haqqında Prezident Şövkət Mirziyayevin bir neçə müvafiq qərarı çıxmışdır. Qərarların icrası Baş nazir A.Aripova və Prezidentin Dövlət müşaviri, özü də tanınmış yazıçı olan X.Sultanova tapşırılmışdır.

Bir çox orta məktəblərə çağdaş yazıçıların adları verilmişdir və bu məktəblərdə yalnız adlarını daşıdıqları yazıçıların yox, ümumiyyətlə, özbək ədəbiyyatının tədrisinə xüsusi yer ayrılır. Elə iştirak etdiyimiz beynəlxalq konfrans da özbək ədəbiyyatının dünyada tanıdılmasına, araşdırılmasına, təbliğ olunmasına həsr edilmiş mühüm addım idi. Nəvai və Babur dühalarıyla, Mükimi, Həmzə Həkimzadə, Çulpan irsiylə zəngin olan özbək ədəbiyyatı həqiqətən də dünyada təbliğ olunmağa və tanınmağa layiqdir.

Dost, qardaş özbək yazıçılarıyla sıx yaradıcılıq əməkdaşlığımızı daha da inkişaf etdirmək isə Azərbaycan Yazıçılar Birliyinin öhdəsinə düşən şərəfli və vacib vəzifədir.

Özbəkistan-Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin rolu

Samir Abbasov
Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi. Özbəkistan.
E-mail: samir-culture@mail.ru

Annotasiya. Məqalədə Azərbaycan Respublikasının Özbəkistanda fəaliyyət göstərən Mədəniyyət Mərkəzinin yaranması və bu Mərkəzin layihələri əsasında görülmüş bir sıra tarixi əhəmiyyətli məsələlər barədə ətraflı məlumat verilir. Ulu öndər Heydər Əlyevin adını daşıyan bu Mərkəzin özbək və Azərbaycan xalqları arasındakı ədəbi və mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində həyata keçirdiyi bütün tədbirlər sözün həqiqi mənasında çox böyük uğurlardan xəbər verir. Maraqlı faktlardan biri də 2013-cü ildə Mərkəzin layihəsi əsasında fəaliyyətə başlayan Azərbaycan dili kurslarının açılmasıdır. 2017-ci ildə isə tərcüməçilik məktəbinin yaranması və bundan sonra Azərbaycan və özbək dillərində nəşr olunan danışıq kitabçasının nəşri və əhəmiyyəti barədə ətraflı məlumat verilir. Məqalədə həmçinin hər iki ölkənin Milli Elmlər Akademiyalarının Dilçilik və Ədəbiyyat institutları alimlərinin birgə hazırladıqları 23 mindən çox söz və ifadələrin qarşılıqlı tərcümələrini dolğun şəkildə əks etdirən yeni lüğət barədə verilən məlumatlar da diqqətəlayiqdir. İki ölkə arasında genişmiqyaslı ədəbi-mədəni tədbirlərin həyata keçirilməsində AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xüsusi rolu da məqalədə konkret faktlar əsasında öz əksini tapmışdır.
Açar sözlər: Heydər Əliyev, Azərbaycan, Özbəkistan, mədəniyyət, ədəbi əlaqələr, Nizami, Əlişir Nəvai

The role of Heydar Aliyev cultural centre in the development of Uzbekistan-Azerbaijani literary-cultural relations

Samir Abbasov
Azerbaijan Cultural Center named after Heydar Aliyev. Uzbekistan.
E-mail: samir-culture@mail.ru
https://orcid.org/0000-0001-5785-3811

Abstract. In the article it is given information about establishment of Cultural Centre of the Republic of Azerbaijan operating in Uzbekistan and some historically significant issues taken from the projects of this Centre. All the events realized in order to strengthen literary and cultural ties among Uzbek and Azerbaijani people by this Centre named Great Leader – Heydar Aliyev, indicates great success literally. One of the interesting facts is operating Azerbaijani language courses on the basis of the project of the Centre in 2013. It is also given extensive information about establishment of the school of translation in 2017, publication and essence of phrasebook in the Azerbaijani and Uzbek languages. The information given in the presented article about a new dictionary which consists of more than 23000 words and expressions, and their translations prepared by scholars of the Institutes of Linguistics and Literature of National Academy of Sciences of both countries, is notable. The role of the Institute of Literature named Nizami Ganjavi, ANAS on implementing literary-cultural events between two countries is mentioned on the basis of concrete facts.

Keywords: Heydar Aliyev, Azerbaijan, Uzbekistan, culture, literary relations, Nizami, Alisher Navoi

Giriş / *Introduction*

Azərbaycan Respublikasının bir sıra xarici ölkələrdə (Özbəkistan, Fransa, Avstriya, Almaniya) mədəniyyət mərkəzləri fəaliyyət göstərir. İlk belə mərkəz 2010-cu ildə Daşkəndin Mirovad rayonunda – azərbaycanlıların kompakt yaşadığı ərazidə, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adını daşıyan küçədə açılıb. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistanın Baş naziri (indiki prezident) Şovkat Mirziyayev də iştirak ediblər.

Bu Mərkəzin yaradılması dövlətimizin Özbəkistanla humanitar və mədəni əlaqələrinin yaranmasına böyük önəm verməsinin göstəricisidir. Ölkəmizin Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən bu Mədəniyyət Mərkəzinin xalqlarımız arasında ədəbi əlaqələrin yaranmasında müstəsna rolu vardır. Mərkəzin əsas vəzifələrindən biri də Azərbaycan dili və ədəbiyyatının öyrənilib təbliğ edilməsidir. Burada Azərbaycanın tanınmış şair və yazıçılarının, dünya şöhrətli musiqiçilərinin portretləri, habelə Özbəkistanda yaşayıb-yaratmış azərbaycanlılar, onların yaradıcılıqlarına həsr olunmuş ayrıca guşə də vardır. Azərbaycan mədəniyyətinə dair bölmədə milli mədəniyyətimzi əks etdirən suvenirlər, tarixi abidələrimizin maketləri, xalçalarımız, milli musiqi alətlərimiz nümayiş etdirilir.

Əsas hissə / *Main Part*

Türk dünyasının aparıcı ölkələrindən biri olan Özbəkistan qədim tarix və zəngin mədəniyyətə malik olan qardaş məmləkətdir. 33 milyondan artıq əhalisi olan Özbəkistanın Səmərqənd, Xivə, Buxara, Termez, Şəxri Səbz, Kokand kimi tarixi abidələrlə zəngin şəhərləri vardır.

Özbək mədəniyyəti Şərqin ən parlaq və orjinal nümunələrindən biri sayılır. Onun misilsiz memarlıq və sənətkarlıq nümunələri, musiqisi, ədəbiyyatı, rəsmləri, özünəməxsus mətbəxi, geyim mədəniyyəti vardır. Özbəklər özlərinin klassik və könüloxşayan xalq mahnıları ilə məşhurdurlar. Özbək klassik musiqisi "Şaşməqam" adlanır. Muğam sənətinin bir növü olan bu musiqi XVI əsrin sonlarında Buxarada formalaşmışdır.

Özbək ədəbiyyatı və sənəti olduqca zəngin tarixi ənənələrə malikdir. İbn Sina, Termezi, Əlişir Nəvai, Mirzə Uluqbəy, Əmir Teymur, Zahirəddin Babur, Cəlaləddin Mənguberdi kimi şəxsiyyətlərin həyat və fəaliyyətləri, onların zəngin irsinin gələcək nəsillərə çatdırılması üçün ölkədə hər il yeni layihələr işlənib hazırlanır.

Özbəkistan əsasən ağır və yüngül sənaye, habelə kənd təsərrüfatı və turizm sahəsində də yeni-yeni uğurlara imza atır.

Həm insan və ərazi resurslarını, həm də aparılan islahatları nəzərə alsaq, Türk Şurasının üzvi olan Özbəkistanın gələcəkdə Asiyanın qüdrətli ölkəsinə çevriləcəyi şübhə yaratmır.

Azərbaycan Mədəniyyət Mərkəzi yaradıldıqdan sonra ilk növbədə Azərbaycanın təbliği, Azərbaycan reallıqlarının Özbəkistanda yayılması və bu istiqamətdə yerli mətbuatla daha sıx fəaliyyətə başlanılıb. 2013-cü ildə müəyyən edildi ki, özbək mətbuatında aparılan monitorinqə əsasən 2012-ci ildə özbək mətbuatında Azərbaycana dair cəmi 2 məqalə verilmişdir ki, bu da digər xarici ölkələrin mətbuatına istinad edilərək verilən məqalələr idi. Təbliğatı genişləndirmək və onu effektiv aparmaq məqsədi ilə Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə hər il Özbəkistan mətbuatında "Azərbaycan haqqında ilin ən yaxşı məqaləsi" müsabiqəsinə başlanıldı. Hər ilin sonunda qalib jurnalistlər mükafatlandırılır, Mədəniyyət Mərkəzimizin fəxri diplomları, pul mükafatları ilə təltif edilirlər.

Müsabiqə elan edildikdən sonra il üzrə Özbəkistan mətbuatında Azərbaycana dair 300-dən artıq məqalə dərc olunmuş və televiziya kanallarında çoxsaylı verilişlər nümayiş etdirilməyə başlamışdır. Təsadüfi deyil ki, dərc olunan məqalələrin əksəriyyəti Azərbaycan ədəbiyyatı, dünya şöhrətli şair və

yazıçılarımızın yaradıcılığı, iki ölkə arasında ədəbi əlaqələr, habelə Ermənistanın Azərbaycana təcavüzü və işğal siyasətinə aiddir.

Qalib jurnalistlər Mərkəzimizin təşkilatçılığı ilə hər il Azərbaycana reallaşdırılan "Mediatur"da iştirak etmək imkanı əldə edirlər. Özbək jurnalistlərin 2014-cü ildən Azərbaycana 6 dəfə mediaturu təşkil edilmiş və nəticədə onlar Azərbaycan mədəniyyəti, turizmi, ədəbiyyatı ilə yanaşı, həm də Ermənistanın ölkəmizə təcavüzünə dair çoxsaylı məqalələr və televiziya verilişləri hazırlayıb yayımlayıblar.

2013-cü ilin 10 may tarixindən Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Mərkəzdə ilk dəfə olaraq Azərbaycan dili kursları fəaliyyətə başlayıb. Kurslarda istifadə etmək üçün iştirakçılar Mədəniyyət Mərkəzi tərəfindən bütün əyani vəsaitlər və nəşrlərlə təmin edilir. Bu kursları başa vuran müdavimlər Azərbaycan Respublikasının müxtəlif ali məktəblərinə daxil olmaqla yanaşı, onlarla özbək tələbə də son illərdə Azərbaycanda təhsil almağa başlamışdır.

Azərbaycan Mədəniyyət Mərkəzi təbliğatı daha geniş və effektiv aparmaq məqsədilə Özbəkistanın aparıcı ali məktəblərində Azərbaycan ocaqlarının yaradılmasına start verib.

Mədəniyyət Mərkəzinin layihəsi əsasında 2014-cü ildə Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetində Nizami Gəncəvi adına Özbəkistan-Azərbaycan Dostluq Mərkəzi də yaradılıb. 2015-ci ildə Daşkənddə Özbəkistan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəyli adına Azərbaycan-Özbəkistan Musiqi Mədəniyyəti Mərkəzi, 2017-ci ildə Şərqin qədim təhsil ocağı olan Səmərqənd Dövlət Universitetində Özbəkistanda tanınmış azərbaycanlı maarifçi, pedaqoq, naşir Seyid Rza Əlizadə adına Azərbaycan-Özbəkistan Dostluq Mərkəzi yaradılmışdır.

Mərkəzin nəzdində təşkil edilən kitabxanada ölkəmizin tarixi, dövlətçiliyi, mədəniyyəti, ədəbiyyatı, Ulu öndər Heydər Əliyevin irsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair kitablar, xəritələr, video materiallar, habelə Azərbaycanın çoxsaylı bədii filmləri universitet tələbələrinin istifadəsinə verilib.

2018-ci ildə Özbəkistan Sənət və Mədəniyyət İnstitutunda Azərbaycanın böyük bəstəkarı Qara Qarayevin adını daşıyan Azərbaycan Mədəniyyəti və İncəsənəti Mərkəzi yaradılmış və Mərkəzə ölkəmizin tarix, mədəniyyət, musiqi və incəsənətinə dair çoxsaylı kitablar, disklər, not nəşrləri, bədii filmlər, milli geyimlər, milli musiqi alətlərimiz hədiyyə edilib.

Aparılan bu işlərin uğurlu davamı kimi 2019-cu ildə Özbəkistanın nüfuzlu ali məktəblərindən olan Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin adını daşıyan Azərbaycan mədəniyyət, təhsil və tədqiqatlar Mərkəzinin yaradılmasını xüsusi qeyd etmək olar. Mərkəzə Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin təbliği məqsədilə ölkəmizə dair nəşrlər, əyani vəsaitlər də hədiyyə edilmişdir. Azərbaycan ocağında xalqlar arasında dostluq, mədəni-ədəbi əlaqələrə dair guşələr, habelə dövlət atributlarımız və milli mədəniyyətimizə dair xüsusi stendlər yaradılıb, Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrinin portretləri, habelə dahi Füzulinin əsərləri, əsərlərindən miniatürlər yerləşdirilib.

Yaradılan mərkəzlərdə Azərbaycanın tanınmış şair və yazıçıları ilə yanaşı, həmçinin dünya şöhrətli musiqiçilərinin də portretləri, habelə Özbəkistanda yaşayıb-yaratmış tanınmış azərbaycanlılar, onların irsləri haqqında ayrıca guşə təşkil edilib. Azərbaycan mədəniyyətinə dair yaradılan xüsusi bölmədə isə milli mədəniyyətimizə dair suvenirlər, tarixi abidələrin maketləri, xalçalarımız, milli musiqi alətlərimiz nümayiş etdirilir.

Dövlətimizin yaratdığı imkanlardan istifadə edərək, Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə həm klassiklərimizin əsərlərinin özbək dilinə tərcüməsi, dil və lüğətşünaslıq, həm də xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair nəşrlərin hazırlanmasında çoxsaylı işlər reallaşdırıb.

Özbəkistanın Xalq şairi Camal Kamal, tanınmış türkoloq alim və tərcüməçilər – Babaxan Şərif, Tahir Qəhhar, şairlərdən Şəhla Qasımova, Xasiyət Rüstəm, alim-tədqiqatçılar Gülbahar Aşurova, Gülnaz Səttarova, Şahistə Kamranlı kimi tanınmış tərcüməçilər hər il ədəbiyyatımıza dair əsərlərin tərcümə olunmasında əməkdaşlıq edirlər.

Şöhrət Salamov, Rüstəm Cabbarov, Abdulvəli Sahibnəzərov kimi jurnalist-tədqiqatçılar isə həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair əsərlər yazmaqla bu işə öz töhvələrini verirlər.

Ötən illərdə dahi Azərbaycan şairləri Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Anar, Elçin və Yunus Oğuzun əsərləri, habelə "XX əsr Azərbaycan ədəbiyyatı" adlı nəşr özbək dilinə tərcümə edilərək Daşkənddə çap olunmuşdur.

Tanınmış Azərbaycan şairi Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Seyid Əzim Şirvani və Mirzə Ələkbər Sabirin əsərləri artıq Mərkəzimizin sifarişi ilə özbək dilinə tərcümə olunmuş və il ərzində nəşri planlaşdırılmışdır.

Mərkəzimizin layihəsi ilə ötən 7 il ərzində ümumilikdə Azərbaycan ədəbiyyatı, mədəniyyəti, tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 69 adda kitab özbək dilinə tərcümə edilərək Özbəkistanda nəşr olunmuşdur.

Nizami Gəncəvi yaradıcılığına xüsusi dəyər vermiş Ümummilli lider Heydər Əliyev, 1981-ci ildə Nizaminin 840 illiyi geniş qeyd olunarkən demişdir: "Nizami elə bir dahi şəxsiyyətdir ki, onun yubileyini hər il, hətta hər ay keçirməyə dəyər."

İllər ötdü, Orta Asiyanın nəhəng mədəniyyət, ədəbiyyat mərkəzi olan, dünyaya böyük şəxsiyyətlər bəxş etmiş Özbəkistan torpağında dahi Nizami irsinə ən böyük abidə ucaldıldı.

Məhz Ulu öndərin adını daşıyan Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin 5 il ərzində həyata keçirdiyi layihə nəticəsində sistemli olaraq, Nizami Gəncəvi irsi bütövlükdə özbək türkcəsinə çevrildi.

Ötən illərdə Özbəkistanda çox şairlər və tərcüməçilər Nizami Gəncəvinin yaradıcılığına müraciət etmiş və onun əsərlərinin özbək dilinə tərcüməsini reallaşdırmağa çalışmışlar. Lakin dahi Nizaminin şəxsiyyəti, onun yaratdığı əsərlərin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan tərəfi bu işin daha sistemli, habelə tərcüməçilik sahəsində öz sözünü demiş, şair-tərcüməçi tərəfindən həyata keçirilməsini məqsədəuyğun hesab etmişdir.

Dahi Nizaminin qardaş ölkədə təbliği, əsərlərini özbək oxucusuna öz ana dilində çatdırmaq, şairə dair tədqiqatlara dəstək məqsədi ilə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi 2015-ci ildə şairin "Xəmsə"sinə daxil olan bütün əsərlərinin ayrı-ayrılıqda özbək dilinə tərcüməsi barədə Özbəkistanın Xalq şairi Camal Kamalla müqavilə imzaladı. Müqaviləyə əsasən Özbəkistanın Xalq şairi Camal Kamalın rəhbərliyi ilə xüsusi redaksiya şurası yaradıldı və Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan 5 əsər – "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "İsgəndərnamə", "Yeddi gözəl" orijinaldan özbək dilinə tərcümə edildi.

Qeyd edək ki, Camal Kamal bugünə kimi tanınmış klassiklər – Ömər Xəyyam, İbn Sina, Cələləddin Rumi, Məhəmməd Füzuli, Şeyx Mahmud Şəbüstəri, Əbdürrəhman Cami, Bəxtiyar Vahabzadə və Xəlil Rzanın əsərlərini özbək dilinə tərcümə etmişdir.

2019-cu ilin oktyabr ayında Nizami yaradıcılığının zirvəsi olan "Xəmsə"nin bütövlükdə özbək dilinə tərcüməsi başa çatdırılmışdır.

Bu layihə Özbəkistanın 84 yaşlı Xalq şairi, tərcüməçi Camal Kamalın yaradıcılığının zirvəsi, habelə Azərbaycan Mədəniyyət Mərkəzinin tarixinə qızıl hərflərlə yazılmağa layiq bir uğur sayıla bilər.

Qeyd edək ki, nəşrlərin hər birində Nizaminin Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan əsərlərinə çəkilmiş miniatürlərin rəsmləri verilib. Kitablara ön sözü isə Azərbaycan və Özbəkistanın elm, ədəbiyyat sahəsində tanınmış simaları yazıblar.

2014-cü ildə Mərkəzimizin layihəsi ilə "Azərbaycan-özbək dillərində danışıq kitabçası" tərtib edilərək Daşkənddə nəşr olunmuşdur. Bu işin məntiqi və sistemli davamı kimi 2018-ci ildən lüğət kitabının tərtibi işinə başlanılmışdır.

Hər iki ölkənin Milli Elmlər Akademiyasının Dilçilik və Ədəbiyyat institutularının alimləri ilə birgə hazırlanmış bu nəşr dilçi mütəxəssislərin ciddi səyi ilə ərsəyə gəlmişdir. 23 mindən artıq söz və

ifadənin qarşılıqlı tərcümələri əks olunmuş bu cür lüğətin tərtibi Azərbaycan-Özbəkistan, həmçinin Türk dünyası ölkələri arasında tarixi bir hadisə kimi dəyərləndirilir. Qeyd edək ki, "Azərbaycanca–özbəkcə, özbəkcə–azərbaycanca lüğət" Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Nəsimi adına Dilçilik İnstitutunun, Özbəkistan Elmlər Akademiyasının Dil, Ədəbiyyat və Folklor İnstitutunun Elmi şuralarının müvafiq qərarları ilə nəşr olunub. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan–Türkmənistan–Özbəkistan ədəbi əlaqələri şöbəsində hazırlanan lüğətin tərtibçi müəllifləri: AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun "Tətbiqi dilçilik" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İsmayıl Məmmədli, filologiya elmləri doktoru Almaz Ülvi Binnətova, özbək ədəbiyyatşünası Məhəmməd Şərif Babaxan, şərqşünas-filoloq Şahista Kamranlıdır. Lüğətin həm Azərbaycanda, həm də Özbəkistanda geniş təqdimat mərasimləri keçirilmiş və bu unikal nəşr hər iki ölkənin elmi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanmışdır.

Nizami Gəncəvi və Əlişir Nəvai şəxsiyyəti, Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin, dostluğunun möhkəm təməlidir. Nizami Gəncəvi və Əlişir Nəvai dedikdə, dünya ədəbiyyatını öz yaratdıqları ilə zənginlşdirən, milli ədəbiyyatımızda ədəbi intibahın əsas sütunu, əməlləri ilə xalq ehtiramını qazanmış böyük xadimlər, filosof və söz ustadlarını anırıq. Görkəmli Azərbaycan və özbək klassikləri Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Əlişir Nəvai, Mirzə Uluğbəy, Zahirəddin Babur, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai və bir çox başqalarının yaratdıqları əsərlər təkcə Şərq xalqlarının deyil, həm də bütün dünya sivilizasiyasının dəyərli sərvətidir.

Əlişir Nəvai özünü hər zaman dünya ədəbi-fəlsəfi fikrinin öndəri Nizami Gəncəvinin tələbəsi hesab edib. Şərq ədəbiyyatında yeni "Xəmsə" yaratması Nəvainin filosof düşüncəsinin, şairlik istedad və qabiliyyətinin, ən əsası isə böyük Nizamiyə olan ehtiramının nəticəsi idi.

Nəvai də özündən sonra gələn Azərbaycan şairlərinin – Kişvəri, Xətai, Füzuli və başqalarının yaradıcılığına təsir etmişdir.

Elə bunun nəticəsidir ki, Bakıda Əlişir Nəvainin, Daşkənddə isə dahi Nizami Gəncəvinin abidələri ucaldılmışdır.

Cümhuriyyət dövründə Hüseyn Cavid və Çolpan, Sovet dövründə ədəbi əlaqələr sahəsində Səməd Vurğun və Qafur Qulam, Maqsud Şeyxzadə, Mirzə Ələkbər Sabir, Xəlil Rza kimi şairlərimiz daim iki xalq arasında ədəbi əlaqələrimizi təbliğ etmişlər.

Daşkənd Dövlət Pedaqoji Universitetinə Dahi Nizami Gəncəvinin adı verilmiş, habelə Universitetin qarşısında şairin büstü qoyulmuşdur.

Bu iki ölkə arasında elmi və ədəbi əlaqələrin inkişafı sahəsində AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun fəaliyyəti xüsusi qeyd edilməlidir. İnstitutda özbək ədəbiyyatına, habelə ədəbi əlaqələrimizə xüsusi önəm verilir, bu istiqamətdə daim tədqiqatlar, araşdırmalar aparılır.

Doğrudur, ötən əsrin 70-80-ci illərində də hər iki ölkədə qarşılıqlı olaraq ədəbiyyat və mədəniyyət günləri nəinki paytaxtlarda, habelə regionlarda da uğurla keçirilmişdir.

Bu tədbirlərdə hər iki ölkənin olduqca tanınmış şairləri, mədəniyyət xadimləri iştirak etmişlər. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev də bu tədbirlərdə iştirak və çıxış etmişdir.

Azərbaycan Mədəniyyət Mərkəzi 2013-cü ildən bu gözəl ənənəni davam etdirərək hər il Özbəkistanın paytaxtı Daşkənd şəhəri ilə yanaşı, regionlarında da "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri" təşkil edir və bu möhtəşəm tədbirlərdə Azərbaycanın tanınmış mədəniyyət, incəsənət ustaları, şair və yazıçıları, ədəbiyyatşünas alimləri iştirak edirlər.

Ötən il Fərqanə, Sırdərya, Səmərqənd və Xarəzm vilayətlərində ədəbiyyatımıza, mədəniyyətimizə həsr olunmuş silsilə tədbirlər keçirilmiş, bu məqsədlə vilayətin mərkəzi ali məktəblərində ədəbi əlaqələrə dair konfranslar, seminarlar, yubiley gecələri təşkil edilmiş, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatına dair yüzlərlə kitab bu ali məktəblərin kitabxanalarına, habelə Vilayət Mərkəzi kitabxanalarına hədiyyə edilmişdir.

Bu il isə qardaş ölkənin Buxara və Xarəzm vilayətlərində bu cür tədbirlərin keçirilməsi planlaşdırılmışdır. Xarəzm vilayətinin mərkəzi şəhərlərindən olan Xivənin Türk mədəniyyətinin paytaxtı

elan edilməsi ilə əlaqədar bu şəhərdə Türk dünyası ölkələrinin poeziya-muğam gecəsinin keçirilməsi də nəzərdə tutulmuşdur.

Nəticə / *Conclusion*

Göründüyü kimi, Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi xalqlarımızın tarixən sahib olduqları milli-mədəni dəyərləri geniş təbliğ edərkən, onların bir-birinə nə qədər yaxın olduqları əyani faktlarla öz təsdiqini tapır.

Mərkəzin təşkilatçılığı və layihəsi əsasında vaxtilə Özbəkistanda yaşayıb-yaratmış məşhur azərbaycanlıların ədəbi irsinin geniş miqyasda öyrənilməsi, onların yaşadıqları evlərin üzərinə xatirə lövhələrinin vurulması, büstlərinin qoyulması və digər xoşməramlı tədbirlər də hər iki xalqın tarixində silinməz izlər qoyur.

Xalqlarımız arasında orta əsrlərdən başlayan dostluğun hazırda Nizami Gəncəvi, Əlişir Nəvai və Məhəmməd Füzulinin timsalında araşdırılması bu əlaqələrin dəyərini daha da artırır.

Роль культурного центраим. Гейдара Алиева в развитии литературно-культурных отношений Узбекистана и Азербайджана

Самир Аббасов
Азербайджанский Культурный Центр имени Гейдара Алиева. Узбекистан.
E-mail: samir-culture@mail.ru

Резюме. В статье приводится информация о создании действующего в Узбекистане Культурного центра Азербайджанской Республики, а также некоторые исторически значимые вопросы, взятые из проектов этого Центра. Все мероприятия, проведенные этим центром имени Гейдара Алиева для укрепления литературных и культурных связей между узбекским и азербайджанским народами, в буквальном смысле свидетельствуют о больших успехах. Одним из интересных фактов является функционирование курсов азербайджанского языка на основе проекта Центра в 2013 году. Также предоставлена обширная информация о создании школы перевода в 2017 году, публикации и сущности разговорника на азербайджанском и узбекском языках. Представленная в представленной статье информация о новом словаре, состоящем из более чем 23000 слов и выражений, и их переводах, подготовленных учеными Институтов лингвистики и литературы Национальной академии наук обеих стран, заслуживает внимания. Роль Института литературы имени Низами Гянджеви НАНА в проведении литературно-культурных мероприятий между двумя странами упоминается на основе конкретных фактов.
Ключевые слова: Гейдар Алиев, Азербайджан, Узбекистан, культура, литературные связи, Низами, Алишир Навои

USTAD ƏLİŞİR NƏVAİ VƏ BABUR

Nəvai yurdunun şan-şöhrəti

Mirzə İbrahimov
Azərbaycanın Xalq yazıçısı

Ədəbiyyat və incəsənət inciləri ilə respublikamıza qonaq gələn qardaş özbək xalqı öz əməyi və işıqlı dühası ilə insanlığın azadlıq, tərəqqi və mədəniyyət tarixinə parlaq səhifələr yazmış xalqlardandır. Onun fiziki və zehni əməyi Səmərqənd və Buxara kimi şəhərlərin ölməz memarlıq abidələrində, bəşər bədii təfəkkürünün əbədi xəzinəsinə daxil olmuş şeir və sənət nümunələrində, torpağı bəzəyən, təbiətin gözəlliklərini artıran, insan həyatı üçün zəruri nemətlər yetirən meyvə bağlarında, taxıl və pambıq tarlalarında, göylərə baş çəkən əzəmətli çinarlarda maddiləşmiş, tükənməz yaradıcı qüvvəsini göstərmişdir.

Böyük Oktyabr sosialist inqilabı ölkəmizin başqa xalqları kimi, özbək xalqını da istismar dünyasının, xüsusi mülkiyyət aralığının zülmündən, əsarətindən birdəfəlik xilas etdi, onu arasıkəsilməz iqtisadi və mədəni yüksəliş yoluna çıxartdı. O gündən özbək xalqının hərtərəfli intibahı və mənəvi-mədəni yüksəlişi başladı, özbək tarixinin yeni səhifələri yazıldı.

Özbək xalqının bütün buxovlardan azad olmuş yaradıcı əməyi və fikri fəzalara qol-qanad açır, əsl möcüzələr yaradır.

Mən bir neçə dəfə Özbəkistanda olmuşam, onun Daşkənd, Səmərqənd, Buxara kimi mədəniyyət mərkəzlərini, bir sıra kəndlərini gəzmişəm, fəhlələri, kolxozçuları, ziyalıları, tələbələri ilə görüşmüşəm, həmişə də Özbəkistanda təsərrüfatın, tikintinin, abadlıq və mədəni quruculuq işlərinin vüsəti qəlbimdə işıqlı, hərarətli hisslər, sahilsiz sevinclər oyadıb. Lakin Özbəkistanda insanı daha çox sevindirən adamların inkişafıdır. Özbək xalqı bütün ittifaqımızda ad çıxarmış pambıq ustaları, qabaqcıl fəhlələr, sənaye və kənd təsərrüfatı komandirləri, dövlət və partiya işçiləri, alimlər, yazıçılar, incəsənət ustaları tərbiyə etmişdir. Sosialist inqilabının sovet həyat şəraitinin qədim tarixli özbək torpağında ucaltdığı əbədi abidə budur, kommunist əxlaqlı, azad düşüncəli yeni insan.

Özbək xalqının qədim tarixi kədərlə, qəm-qüssə və faciələrlə doludur. Lakin bu tarixi irəli aparan, ona hərəkət verən kədər və qəm-qüssə olmayıb, xalqın həyat eşqi, nikbin ruhu, haqqın, insaniyyətin xeyrinə, qələbəsinə inamı olub, bu yolda apardığı mübarizələr olub. Bu sarsılmaz ruh, bu sönməz ürək insanlığın azadlıq mübarizəsinə olmaz dühalar bəxş edib: Uluğbəy, Nəvai, Babur kimi böyük oğullarının sayəsində özbək xalqının mədəniyyəti və ümumiyyətlə iqtisadi-ictimai həyatı XV əsrdə parlaq intibah dövrü keçirmişdir. Bu, ümumbəşər intibah mədəniyyəti tarixinin əhəmiyyətli səhifələrindən birini təşkil edir.

Azərbaycan və özbək ədəbi əlaqələrinin kökü tarixin çox dərinliyindədir. Heç də təsadüfi deyil ki, Əlişir Nəvai "Heyrət ül-əbrar" ("Möminlərin heyrəti") əsərində Nizamini yüksək, ali sözlərlə tərifləyir, mənəvi sirlər xəzinəsinin açarı onun əlindədir, deyir.

Ümumiyyətlə, özbək xalqı ilə, özbək mədəniyyəti ilə Azərbaycan xalqını və Azərbaycan mədəniyyətini birləşdirən cəhətlər, bir-birinə bağlayan tellər çoxdur. Sovet dövründə, sosializm quruculuğu illərində Özbəkistanın və Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat və incəsənət adamları arasındakı dostluq, qardaşlıq əlaqələri daha da genişlənmişdir. Tez-tez birgə elmi və yaradıcılıq görüşləri, müşavirələri keçirir, yeni kəşflər, əsərlər, tədqiqatlar, yaradıcılıq axtarışları barədə fikir mübadiləsi aparırıq. Müntəzəm surətdə keçirilən elmi konfranslar, konsert və tamaşalar hər iki respublikanın zəhmətkeşləri arasında dərin maraq oyatmaqla bərabər, kommunist əxlaqı normalarının yayılmasına, estetik tərbiyənin güclənməsinə kömək edir.

Azərbaycan oxucuları qardaş özbək ədəbiyyatını həmişə maraqla izləyirlər. Özbək ədəbiyyatının həm klassikləri, həm də müasir görkəmli yazıçıları dilimizə müntəzəm tərcümə olunur. Qafur Qu-

lamın, Aybəkin, Şərəf Rəşidovun, Kamil Yaşenin, Həmid Qulamın, Rəmə Babacanın, Zülfiyyənin əsərləri Azərbaycan oxucularının dərin məhəbbətini qazanmışdır.

Mən böyük həvəslə, dərin mənəvi-estetik həzz ilə Şərəf Rəşidovun "Qaliblər" romanını dilimizə tərcümə etmişəm. Bu gözəl roman müəllifin lirik, insani duyğularının dərinliyi ilə həyata, varlığa sağlam, nikbin münasibəti ilə çox dəyərli əsərdir. Oxucuda daim işıqlı fikirlər, təmiz insani duyğular və eyni zamanda tükənməz maraq oyadır.

Mən böyük məhəbbətlə deyirəm ki, özbək yazıçıları Azərbaycan ədəbiyyatına qarşı çox həssasdırlar. Onlar ədəbiyyatımızı müntəzəm izləyir, onun yeni əsərləri barədə özbək oxucusuna məlumat verir və bu əsərlərin çoxunu tərcümə edib kifayət qədər böyük tirajla oxucuya çatdırırlar.

Özbəkistan həm də başqa xalqların, xüsusən Asiya və Afrika xalqlarının ədəbi nümunələrinin tərcüməsi və çapı cəhətdən yaxşı yerlərdən birini tutur. Bu da təbiidir ki, bu məsələdə məşhur "Daşkənd ruhu" özünü göstərir.

Partiyamızın böyük Lenin xəttini yerinə yetirərək sülh uğrunda imperializmə, müstəmləkəçiliyə qarşı mübarizədə Asiya və Afrika xalqlarının vahid cəbhəsini yaratmaqda, həmrəyliyə qüvvət və vüsət verməkdə Daşkəndin tarixi rolu vardır. Daşkənd Asiya və Afrika xalqları həmrəylik hərəkatının ilk mərkəzlərindəndir. Daşkənd Asiya və Afrika yazıçıları təşkilatının beşiyidir. Asiya və Afrika yazıçılarının həyatında, mübarizəsində böyük əhəmiyyəti olan bir sıra vacib beynəlxalq müşavirələr, görkəmli dövlət başçılarının görüşləri, simpozium və müşavirələr Özbəkistan SSRİ-nin paytaxtı Daşkənddə keçirilmişdir.

Eyni zamanda Daşkənd özbək xalqının insani duyğularını, beynəlmiləlçilik ruhunu təcəssüm etdirən bir paytaxtdır. Burada ağır zəlzələlərin nəticələrini aradan qaldırmış hər respublikanın neçə-neçə yadigar binası əzəmətlə ucalır. Bəli, Daşkənd bu gün çiçəklənən Özbəkistanın paytaxtı və xalqların qardaşlıq şəhəridir.

Azərbaycan öz əziz qonaqlarını sevinclə, qollarını açaraq qarşılayır. Artıq gözümüz önündə rəngarəng özbək ipəyi ilə parlayan səhərlər canlanır qulağımızda ahəngdar, mübariz və lirik özbək musiqisi səslənir. İxtiyarsız olaraq ürəyimizdən bir səs qalxır:

- Xoş gəlmisiniz, əziz dostlar, mehriban qardaşlar!

Nizami ənənələrinin türk ədəbiyyatında yayılmasında Əlişir Nəvainin rolu

Nüşabə Araslı
AMEA-nın müxbir üzvü, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: nushabe.arasli@gmail.com
https://orcid.org/0000-0003-3341-1968

Annotasiya. Nizami Gəncəvinin dünyəvi şöhrət qazanan ölməz irsi bilavasitə olduğu kimi, Şərqin şairin ənənələrini davam etdirən görkəmli söz ustaları vasitəsilə də türk bədii fikrinə ciddi təsir göstərmişdir. Nizami ənənələrini yeni zəmində davam etdirib bu sahədə böyük şöhrət qazanan Əlişir Nəvai özünəməxsus şərəfli mövqeyi ilə xüsusilə seçilir. Özbək xalqının dahi mütəfəkkir sənətkarı Nəvai Nizaminin Şərq bədii fikir tarixinə gətirdiyi yüksək bəşəri idealları türk ədəbiyyatının özünəməxsus spesifik cəhətləri ilə uyuşduraraq, zəmanə və mühitin mənəvi istəyi ilə bağlı davam etdirib, onu türk xalqlarının şifahi ədəbiyyatı, ortaq məxəz və qədim türk abidələrindən gələn yeni əlavələrlə bir daha zənginləşdirmişdir. Təsadüfi deyildir ki, Nizami ədəbi məktəbinin türk davamçıları öz əsərlərində böyük şairin yaradıcılığından geniş bəhrələnmiş, Nizami ilə yanaşı, Nəvai adını da öz ustadları sırasında ehtiramla xatırlamışlar.
Açar sözlər: “Xəmsə”, türk xalqları, ədəbi irs, sələf, klassik ənənə, xalq ədəbiyyatı, bədii təsir

http://dx.doi.org/10.29228/edu.134
Məqaləyə istinad: Araslı N. (2020) *Nizami ənənələrinin türk ədəbiyyatında yayılmasında Əlişir Nəvainin rolu.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 38-46
Məqalə tarixçəsi: göndərilib − 09.07.2020; qəbul edilib − 16.07.2020

Alishir Navoi’s role in the spread of Nizami traditions in the turkish literature

Nushaba Arasli
Corresponding member of ANAS, Institute of Literature
named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: nushabe.arasli@gmail.com
https://orcid.org/0000-0003-3341-1968

Abstract. Nizami Ganjavi’s endless inheritance that gained worldly fame, influenced on Turkish artistic idea through outstanding word masters continuing poet’s traditions in the East. Alishir Navoi who continued Nizami traditions in a new base and gained an excellent reputation in this field differs with his peculiar glorious position especially. Genius writer-master of the Uzbek people Navoi combined the high human ideals brought by Nizami to the history of Eastern artistic idea with specific features of Turkish literature, maintained moral aspiration of that time and environment and enriched it with supplements from folk literature of Turkic people, common sources and ancient Turkish monuments. It is not accidental that Turkish followers of Nizami

literary school in their works benefited from the creativity of great poet, and remembered with respect Nizami and Navoi among their master teachers.
Keywords: "Khamsa", Turkic people, literary heritage, predecessor, classical tradition, folk literature, artistic influence/

http://dx.doi.org/10.29228/edu.134
To cite this article: Arasli N. (2020) *Alishir Navoi's role in the spread of Nizami traditions in the turkish literature.* «Comparative Literary Studies», Issue I, pp. 38-46
Article history: received − 09.07.2020; accepted − 16.07.2020

Giriş / *Introduction*

Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatları əsrlər boyu qarşılıqlı əlaqədə inkişaf edib daima bir-birini zənginləşdirmişdir. Tarixi-ictimai şərait, mənəvi istək və ədəbi ictimaiyyətin yaxından iştirakı ilə genişlənən belə çoxcəhətli əlaqələrin daha da möhkəmlənərək əbədiləşməsində isə müxtəlif əsrlərdə yetişən nadir sənət dahilərinin möhtəşəm irsləri misilsiz əhəmiyyət daşımışdır. Bu baxımdan XII əsr poeziyamızın ən parlaq siması olan Nizami Gəncəvinin yaradıcılığı xüsusilə səciyyəvidir.

Bədii yaradıcılığa bəşəriyyəti daima düşündürən yüksək humanist ideyalar gətirən böyük şairin dünyəvi şöhrət qazanan zəngin irsi türk xalqları ədəbiyyatlarında da geniş yayılmışdır. Şairin vətənində olduğu kimi, özbək, qıpçaq, uyğur, türkmən, tatar və türk ziyalıları Nizami sənətinə dərin rəğbətlə yanaşmış, şairin ənənələrini məhəbbətlə davam etdirmişlər. Hələ XIV əsrdən başlayaraq, onun "Xosrov və Şirin", "Sirlər xəzinəsi", "Yeddi gözəl" poemaları türk dillərinə tərcümə edilmiş, Nizami mövzularında orijinal nümunələr yaranmış, "Beşlik" nəzirələri meydana gəlmiş, Şərqin görkəmli sənətkarları "Xəmsə" müəllifləri kimi şöhrətlənmişlər.

Əsas hissə / *Main Part*

Nizami ənənələrini yeni zəmində davam etdirib bu sahədə böyük müvəffəqiyyət qazanan görkəmli söz ustaları içərisində özbək xalqının dahi mütəfəkkir şairi Əlişir Nəvai özünəməxsus şərəfli mövqeyi ilə seçilir. Klassik Şərq şeirinin özünəqədərki nailiyyətlərilə yaxından tanış olan şairin Nizami sənətinə sonsuz sevgi ilə müraciəti təsadüfi olmayıb, ilk növbədə Nizami sənətinə xas xəlqilik, ümumxalq işinə sədaqət, əməkçi xalqa ehtiram, qadın ləyaqətinə hörmət, insan hünəri, zəka və elmin qüdrətinə inam və başqa bu kimi keyfiyyətlərin Nəvainin də yaradıcılıq təbiətinə uyğun olub dahi özbək şairinin əsərlərində tərənnüm olunan yüksək bəşəri ideallarla yaxından səsləşməsi ilə bağlıdır. Bunun üçündür ki, sələfinin qələmə aldığı mövzuları yeni baxımdan işləyib onunla yaradıcılıq müsabiqəsinə girən şair sənət aləmində böyük uğurlar əldə edərək adını nadir düha sahibləri sırasında əbədiləşdirdi.

Nəvai "Xəmsə"si, qeyd olunduğu kimi, klassik Şərq poeziyasında meydana gələn "Xəmsə"lər içərisində ən ləyaqətli yerlərdən birini, daha doğrusu, birincisini tutur. Şairin doğma dilində (qədim özbək) yazılmış bu əsər yarandığı dövrdən başlayaraq, türkdilli xalqlar içərisində geniş yayılıb sevilə-sevilə oxunmuş və yüksək dəyərləndirilmişdir. Bu baxımdan Nəvai həm də öz sələfinin nüfuz dairəsinin daha geniş vüsət almasında və Nizami əsərlərinin dünyəvi şöhrətinin daha da artaraq yüksəlməsində müstəsna yeri olan qüdrətli sənətkar kimi diqqəti cəlb edir. Nəvai "Xəmsə"sinin türk xalqları ədəbiyyatlarında dəfələrlə işlənib özünə yeni-yeni xələflər tapması geniş tədqiqat tələb edən mürəkkəb mövzudur. Bu tədqiqatda Nizami ənənələrinin türk bədii fikrində yayılaraq ümumxalq sevgisi qazanmasında Əlişir Nəvainin mühüm rolu haqqında bəhs etmək nəzərdə tutulur.

Məlumdur ki, Nəvai tamamilə orijinal yol tutmuş, sələfinin əsərlərinin başlıca qaynaqlarını, şifahi ədəbiyyat nümunələrini gözdən keçirmiş, Nizami mövzularının, eləcə də şairin əsərlərinin türk xalq yaradıcılığında doğurduğu rəngarəng rəvayət və xalq hekayələrindən faydalanmışdır. Şair, Nizami əsərlərində türk xalqlarının həyat və məişətinin əksi, türk əhvali-ruhiyyəsi, baş verən hadisə və əhvalatlarda doğma zəminlə bağlı motivlərə də nəzər yetirərək sələfinin yaradıcılığındakı türkanə ruhu daha aydın tərzdə təqdim etməyə müvəffəq olmuşdur. Nəvai, poemalarının hamısında bu problemə toxunaraq əsərlərini türk dilində yazmaqla sələflərindən fərqləndiyini məmnuniyyət hissilə bildirmişdir. Şair özünün "Heyrətül-əbrar" adlı ilk poemasında özünəqədərki "Xəmsə" müəlliflərindən söz açarkən deyir:

Форси чу бўлди аларға адо,
Турки ила қилсам ани ибтидо.
Форси эл топти чу хурсандлиқ
Турк дағи топса барумандлиқ [1, s.54].

(Onlar fars dilində əsərlərini yazdılar. Mən türkcə onu yazmağa başladım. Fars xalqları sevinc (şadlıq) tapdı. Türk dəxi (ondan) faydalansın.)

Nəvai "Fərhad və Şirin" əsərində də bu mövzunu işləyən şairlərin hamısının Xosrovu baş qəhrəman seçib onun həyatı və məhəbbət sərgüzəştlərinə geniş yer verdiklərini bildirərək əsərini Fərhada həsr edəcəyini ayrıca vurğulayır:

Ани назм этки тарҳинг тоза бўлғай,
Улусқа майли беандоза бўлғай
Йўқ эрса назм қилғонни халойиқ
Мукаррар айламак сендин не лойиқ [2, s.41].

(Nəzmə onu çək ki planın təzə olsun. Xalq arzusuna uyğun olsun. Yoxsa xalqın nəzm etdiyini (yazdığını) təkrar eləmək sənə layiq deyil.)

"Leyli və Məcnun" əsərində də şair sələflərini xatırlayaraq mövzunu türk dilində qələmə aldığını bir daha diqqətə çatdıraraq bunun səbəbini də izah etməyə çalışır:

Ул тил била назм бўлди малфуз.
Ким, форси англар ўлди маҳзуз.
Мен туркча бошлабон ривоят,
Қилдим бу фасонани ҳикоят
Ким, шуҳрати чун жаҳонға тўлғай,
Турк элига доғи баҳра бўлғай.
Невчунки букун жаҳонда атрок.
Кўптур хуштабъу софи идрок [3, s.271].

(O dil ilə nəzm olan sözlərdən farsca başa düşənlər həzz aldılar. Mən türkcə rəvayəti başladım. Bu əfsanəni nəql elədim (söylədim) ki, şöhrəti cahanı tutsun, türk eli də bəhrələnsin. Çünki bütün dünyada xoştəbli, saf idraklı türklər çoxdur.)

Nəvai "Xəmsə"nin son iki poeması – "Səbeyi-səyyar" və "Səddi-İskəndəri"də də bu problemdən söhbət açmış, türk oxucularını fars dilində yazılan sənət əsərlərini ana dilində eşitməkdən məhrum olmaqdan qorumağı, türk dilində yazmaqla doğma xalqa yaxınlaşmağı şərəfli bir iş hesab etdiyini söyləmişdir.

Яна буким алар қилурда рақам,

Форсийни магарки эрди қалам
Ки, неким килк савти солди садо
Форсий лафз бирла топти адо.
Форсий билган айлади идрок,
Лек маҳрум қолдилар атрок.
Сен чу назмингни турктоз эттинг,
Форсий тилдин эҳтироз эттинг [4, s.303].

(Yenə kim yazdısa, fars dilində yazdı. Ki qələm nə səs saldısa, farsca sözlərlə ifadə olundu. Farsca bilən dərk elədi. Ancaq türklər məhrum qaldılar. Sən nəzmini türkcə etdiyin üçün fars dilindən çəkindin.)

Şair "Səddi-İskəndəri" əsərində də bu mövzu ilə bağlı dediklərini sanki yekunlaşdıraraq ana dilinin ifadə imkanlarından məharətlə bəhrələnməklə onun rəngarəng incəliklərini nümayiş etdirdiyini qürur hissilə söyləyir:

Қулоғим бу ҳолат аро бир хуруш
Ешиттики, дер эрди фаррух суруш
Санга онча Ҳақ лутфи воқеъдурур
Ки, то турк алфози шоеъдурур.
Бу тил бирла то назм эрур халқ иши,
Яқин қилмамиш халқ сендек киши.
Санга турк ақолимин айлаб рақам,
Азалда насиб айламиш якқалам.
Насиб этти айлаб сени марзбон,
Синони қалам бирла тиғи забон [5, s.54].

(Qulağım bu halətdə uğur gətirən bir mələyin dediyi bu sözləri eşitdi: Türk sözləri durduqca haqqın lütfü sənlə olacaq. Bu dildə şeir yazmağın xalq işi olduğunu sənin kimi heç kəs dərindən düşünməmiş. Sənə türk camaatı min söz qoşmuş, əzəldən sənə bunu mənsub etmişdir. Qələm xəncərilə dil qılıncı verib səni ölkə sahibi etmişdir.)

Qeyd etdiyimiz kimi, Nəvai "Xəmsə"sinə daxil əsərlərinin hamısında özünün böyük sələflərinin nailiyyətlərini doğma dildə davam etdirdiyini bildirmiş, yeri düşdükcə, türk dilinin incəlikləri, ifadə imkanlarının zənginliyindən söz açaraq onun üstünlüklərini göstərməyə çalışmışdır. Türk dilinin kamil sənət əsərləri yaratmağa qadir gözəl şeir dili olduğunu ardıcıl şəkildə təbliğ edən şair yazdığı misilsiz sənət nümunələrilə fikrini sübuta yetirərək türk şairlərinin də ilhamına qüvvət vermiş, onları ana dilində yazıb-yaratmağa ruhlandırmışdır.

Təsadüfi deyildir ki, xalqını, dilini böyük məhəbbətlə sevən şair "Fərhad və Şirin" poemasının son fəslində əsərlərinin türk ellərində sevilərək məşhurlaşdığını böyük razılıq hissilə oxuculara çatdırır.

Низомий олса Бардаъ бирла Ганжа,
Қадам Рум аҳлиға ҳам қилса ранжа.
Чекиб Хусрав дағи тиғи забонни,
Юруб фатҳ айласа Ҳиндустонни.
Яна Жомий ажамда урса навбат,
Арабда доғи чолса кўси шавкат.
Агар бир қавм, гар юз, йўқса мингдур,
Муайян турк улуси худ менингдур.
Олибмен таҳти фармонимға осон,

Черик чекмай Хитодин то Хуросон.
Хуросон демаким, Шерозу, Табрез
Ки, қилмишдур найи килким шакаррез.
Кўнгул бермиш сўзумга турк жон ҳам,
Не ёлғуз турк, балким туркмон ҳам [2, s.463-464].

(Bərdə ilə Gəncə Nizaminin olsa, Rum əhlinə həm qədəm qoysa, Xosrov da xəncər çəkib hücum edib Hindistanı alsa, yenə Cami Əcəmdə təbil vursa, Ərəbdə şövkət şeypurunu çalsa, əgər bir qövm (tayfa), əgər yüz, yoxsa min olsa, türk ulusu (elləri) mənimdir. Fərmanıma əməl edib Xətadan Xorasana qoşun çəkmiş. Qələmimin neyi Xorasan demə ki, Şiraz və Təbrizə onun şəkər saçmış, sözümə təkcə türk yox, türkmən də könül vermişdir.)

Onu da qeyd edək ki, Nizami ənənələri Nəvaiyə qədərki türk ədəbiyyatlarında da mövcud idi. Hələ XIV əsrdə özbək şairi xarəzmli Qütb, Aydınoğulular sülaləsindən İsa bəyin sarayında yaşayan Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxri, XV əsrdə Yusif Sinan Şeyxi, Məhəmməd Əfəndi Eşqi Nizaminin "Xosrov və Şirin", "Həft peykər" poemalarını türk dillərinə tərcümə etmiş, XV əsrdə yaşamış Heydər Xarəzmi Nizaminin "Məxzənul-əsrar"i müqabilində eyniadlı əsər müəllifi kimi tanınmışdır.

Bununla belə, Əlişir Nəvai özbəkcə yazdığı "Xəmsə" ilə türk ədəbi-bədii fikrində özünü qabarıq göstərən bu ənənəni daha da genişləndirdi. Şairin öz sələfləri, xüsusilə Nizami sənəti haqqındakı mülahizələri ölməz sənətkarı türk şairləri, eləcə də şeir-sənət aşiqlərinə daha yaxından tanıtmaqla ona olan xalq məhəbbətini daha da gücləndirdi. Türk şairləri ənənə əsasında qələmə aldıqları əsərlərində zəmanə, türk xalqlarının taleyi ilə bağlı mövzular qələmə almaqla öz orijinal istiqamətləri ilə fərqlənməyə başladılar. Bu hal türk xalqlarının şifahi ədəbiyyatlarına da öz təsirini göstərirdi.

Şifahi xalq ədəbiyyatında türk xalqına məxsus həyat tərzi, məişət özünəməxsusluqları, səciyyəvi etnik xüsusiyyətlər öz ifadəsini daha görümlü tərzdə tapırdı.

Türk ədəbiyyatının Behişti, Cəlili, Əhməd Rizvani, Həyati, Muidi və başqa "Xəmsə" yazarları Nəvai yaradıcılığından da bəhrələnmişlər. Fərhad, Şirin, Bəhram, Xosrov, İskəndər və başqa "Xəmsə" qəhrəmanları Türk epik şeirində türk mühiti, türkə məxsus həyat tərzi, adət və ənənələrlə bağlı yeni motiv və epizodların təsirilə orijinal səciyyəvi cizgilər əxz etmişlər.

Türk dilində yazan şairlərin "Xosrov və Şirin", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə" poemaları müqabilində ərsəyə gələn poemalarını Nizami əsərlərindən fərqləndirən cəhətlər çox zaman Nəvaini türk epik şeir yazarları ilə birləşdirir. Buna görədir ki, türk müəllifləri Nizami ilə yanaşı, Nəvainin də adını əsərlərində hörmətlə xatırlayır, əsərlərinə münasibət bildirirlər. Nümunə üçün türk məsnəvi şeirinin tanınmış nümayəndələrindən olan Taşlıcalı Yəhya "Xəmsə"sinə daxil "Gəncineyi-raz" əsərini götürək. Yəhya bəy Şərqin qüdrətli qələm sahibləri sırasında Nəvaini şeir-sənət bağının bülbülü adlandırır:

Bir veli söyledi bu sirri sahih,
Dedi her yüz yıl içinde sarih:
Aleme nazmile aftab misal
Yeddi seyyare edər ərzi-cəmal.
Kimi Sədi, kimi Əttar olur,
Hər biri Matle-ul envar olur.
Kimi Hafizvəş iruz saltanata
Lovhi mahfuz olur mərifata.
Kimi manəndı-Nizami tahkık
Nağl ider ahli-dile sırri-dakik.
Kimi Camivəş olur piri-kalam,

Olamaz kimsəyə yıglasnı mudam.
Nazm bağında Navai manend
Kimi bülbülvəş eder sovtı bülend [7, s.93].

(Bir müqəddəs bu sirri doğru söylədi. Yüz el içində cəldliklə dedi: Aləmə şeirlə günəş kimi yeddi ulduz camalını ərz elədi. Kimisi Sədi kimi, kimi Əttar olur. Hər biri "Mətləül-ənvar" olur. Kimi Hafiz kimi sultanlığa yetir, mərifətdə "Lövhi-məhfuz" olur. Kimi Nizami tək könül əhlinə dəqiq sirlər nəql edir. Kimi Cami kimi kəlam (söz) piri olur. Kimi də nəzm bağında Nəvai kimi bülbül tək uca səslə oxuyur.)

Taşlıcalı Yəhya yenə "Gəncineyi-raz"ında Nizami və onun görkəmli davamçılarının şeir-sənət aləmindəki əhəmiyyətli yerindən bəhs edərkən yazır:

Bagi-nazm eyledi alemde zühur,
Verdi her ahli-dile zövqü surur.
Kıldı ul bağı Nizami ziynat,
Rahmat ol ahli-kamala rahmat
Ki bənöfşe kibi ol şeyxi-rical
Kamətin qıldı übudiyyate dal.
Bə'də Xosrovi-xeyli-füsaha
Sunbuli-hindudur anda guya.
Yaraşur Camiye arbabi-nizam
Olsa zarrın kadeh ol bağda mudam.
Laleveş dağı-mahabbetle nihan
Verdi ol baga Navai ünvan [7, s.17-18].

Göründüyü kimi, şair ustad sənətkarları gözəl şeir bağının ziynəti olan çiçəklərlə müqayisə edərək deyir:

(Aləmdə nəzm bağı zühur etdi, hər əhli-dilə (ürək əhlinə) zövq və şadlıq verdi. O bağı Nizami ziynətləndirdi. O əhli-kamala rəhmət olsun ki, o ərlərin şeyxi kimi qamətini qulluq etmək üçün bənövşə kimi əydi. Sonra fasihlər dəstəsinin başçısı Xosrov sanki o bağda hind sünbülü idi. Nizam əhli olan Camiyə yaraşır ki, bağda qızıl qədəh (Nərgiz) olsun. Nəvai lalə kimi məhəbbət dağı ilə o bağda yerləşdi.)

Türk nağılları qədim dastanlarda da bədii əksini tapan vətənpərvər el qızlarının gözəllik və sədaqəti, azadlıqsevərlik, el-oba yolunda fədakarlıq, xalqa, vətənə məhəbbət, bu yolda dönməzlik, dəyanət, məhəbbət uğrunda əzmkarlıq, qəhrəmanlıq, xalq səadəti və başqa bu kimi yüksək bəşəri idealların türk ədəbi bədii fikrində geniş yayılmasında Nizami ilə yanaşı, Nəvai sənətinin də mühüm təsiri olmuşdur. Bu təsir "Xəmsə"dən xaric mövzularda yazılmış əsərlərdə də özünü aydın göstərir.

Türk məsnəvi şeirində "Cəmşid və Xurşid", "Xurşid və Fərəhşad", "Şam və Pərvanə", "Hüsn və Eşq", "Vərqa və Gülşah" kimi romantik eşq dastanları dediklərimizə misal ola bilər. Bu məhəbbət dastanları içərisində Nəvainin "Fərhad və Şirin"i xüsusilə səciyyəvidir.

Məlumdur ki, klassik Şərq ədəbiyyatında geniş yayılmış "Xosrov və Şirin" mövzusu türk xalqları ədəbiyyatlarında öz mənşəyindən daha çox uzaqlaşmağa başlamış, getdikcə Xosrov daha arxa plana keçərək, Fərhad əsər qəhrəmanı səviyyəsinə yüksəlmiş, Fərhadla Şirinin qarşılıqlı sevgisi, Fərhadın yaratdığı sənət əsərlərinin təsviri xalq ədəbiyyatında əsas məzmunu təşkil etmişdir. Bu, hər şeydən əvvəl, ustad sənətkarın epik şeirə gətirdiyi Fərhad obrazının təsir gücü ilə bağlı olub Nizaminin yüksək şair xəyalının vüsəti ilə izah olunsa da, Nizami ədəbi məktəbinin istedadlı davamçılarımdan olan Əlişir Nəvainin "Fərhad və Şirin" poemasının və onun xalq asayişi, el səadətinə dair arzularını ümumiləşdirdiyi Fərhad obrazının öz dərin köklərilə türk dünyası, türk xalqları içərisindəki geniş nüfuzu ilə bağlıdır.

Doğrudur, Nəvaidən öncə "Fərhadnamə" mövzusunda ilk poema yazan XIV əsr Azərbaycan şairi Arif Ərdəbili Şirvanda olarkən əldə etdiyi yazılı məxəzə istinadən ilk dəfə olaraq mövzuya yeni istiqamət verərək, Fərhadı baş qəhrəman səviyyəsinə yüksəldərək əsərin mərkəzində duran hadisələri onunla əlaqələndirmişdir. Ancaq Fərhadın sonrakı türk məsnəvi ədəbiyyatında əsas aparıcı qəhrəman kimi təsvir olunaraq, Nizami Fərhadının başlıca məziyyətlərinin onda toplanıb yaddaqalan bədii qəhrəman kimi təsvirində Nəvai poemasının rolu da böyükdür. Nəvai poemasının təsirilə Şahzadə Qorqud, Lamii, Şahı və başqa türk şairləri bu mövzunu yenidən işləyərək, "Fərhad və Şirin" müəllifləri kimi tanınmışlar.

Bursalı Mahmud Çələbi Lamiinin 1512-ci ildə qələmə aldığı və 5095 beytdən ibarət olan "Fərhad və Şirin" əsəri Bursa hakimi Fanarı Şəmşül Buxariyə həsr olunmuşdur. Əsərin əvvəlki fəsillərində müəllif Nəvainin "Fərhad və Şirin" məsnəvisini görən Bursa hakiminin ona Nəvainin "Xəmsə"sini Anadolu dilinə çevirməyi tapşırır. Lamii buna razı olmaq istəməsə də, şahın israrı qarşısında dayana bilməyib təklifi qəbul edir.

Lamii Nəvainin eyniadlı poemasını təxminən olduğu kimi, ancaq üslubunda bəzi dəyişikliklər edərək Anadolu türkcəsinə çevirir. Lamiinin özü Nəvai poemasını örnək alaraq məzmun və ideyaca onu təkrar etdiyini bildirir.

Nəvai dastanın məzmununa keçməzdən əvvəl yazır:

Қалам бағқи гули насринга чекдим
Ракам Фарход ила Ширинга чекдим
Мунга доғи зэрур эрди мааққул
Чиқармаг хар тикандин уиz тумангул
Зарури булди авзойига тағйир
Ки дилкаш бўлгай ушбу сахфа тасвир [6, s.14].

(Nəsrin gülünün yarpağına qələm çəkdim. "Fərhad və Şirin"i yazdım. Bunda ağılla fikirləşmək zəruri idi ki, tikandan yüz min gül çıxarasan. Vəziyyəti dəyişmək zəruri idi ki, bu səhifənin təsviri dilkəş (cəlbedici) olsun.)

Lamii isə Nəvainin bu misralarını cuzi üslub dəyişikliyi ilə belə təqdim edir:

Kalam bargi-quli-nasrina çekdim
Rakam Farhad ile Şirine çekdim
Egerçi kissai etmekde tamdid
Seraser eyledim ustada taklid
Muradınden kim ettim hüsni tebir
Gahi gösterdim üslubunda tağyir [8, s.88].

Nəsrin gulinin yarpağına qələm çəkdim, Fərhad ilə Şirini yazdım. Qissəni uzatmaqla bütünlüklə ustadı təqlid elədim. Məqsədini şərh etdiyim üçün hərdən üslubunda dəyişiklik etdim.

Poemaların məzmunca tutuşdurulması onların oxşar və fərqli cəhətlərə malik olduğunu göstərir. Lamii vasitəli yolla Nəvai əsərinin məzmun və ideya özəlliklərini saxladığı üçün əsər bir çox məqamlarda Nizami poemasına da yaxınlaşır.

Nizaminin "Məxzənül-əsrar"ına yazılan nəzirələr içərisində Rəhmi təxəllüsü XVI əsr türk şairinin "Güli-sədbərğ" əsərində müəllif mövzunun yazılı ədəbiyyatda işlənməsindən danışarkən xəyal aləmində olduğu zaman özünün səfalı bir bağçada qurulan bir məclisdə Nizami və onun görkəmli ardıcılları ilə xəyali görüşünü təsvir edərkən də Nəvaini xatırlayaraq yazır:

Sədrneşin Şeyx Nizami biri
Məst-i mey-i cam-i işkdə Cami biri.

Kişvər-i nazm-ı birisi Xosrovi
Sözdə Nəvaidur onun peyrovi.

Nəvai özünün ölməz əsərlərilə Şərq bədii fikrinin mənəvi zənginliklərini daha da artıraraq onları yüksək səviyyəyə çatdırdı. Şairin Nizami şəxsiyyətinə məhəbbəti, sələfinin əsərlərindəki insanpərvərlik görüşlərini yüksək dəyərləndirməsi türk şairlərinə Nizami əzəmətini tanıtdı. Türk şairləri Nəvainin Nizami ilə bağlı yürütdüyü maraqlı mülahizələri əsasında şairin əsərlərini incəliklərinə qədər daha diqqətlə öyrənməyə çalışdılar, onları öz dillərinə tərcümə etməyə başladılar. Nəticədə, türk ədəbiyyatı Nizami əsərləri ilə yanaşı, Nəvai sənətinin də fikri və poetik ecazları ilə bir daha zənginləşdi.

Nəticə / *Conclusion*

Nəvai əsərlərinin ədəbi təsiri bu gün də Türkiyədə, türk xalqları ədəbiyyatlarında öz təsirini göstərməkdə davam edir. Xalq yaradıcılığı ilə bağlı türk sənətkarları bu gün də xalq ədəbiyyatına söykənərək Nizami, Nəvai ənənələrindən bəhrələnməklə maraqlı sənət əsərləri yaradırlar. Görkəmli türk şairi Nazim Hikmətin "Bir aşk masalı", Ceyhun Qansunun "Fərhad ilə Şirin" poeması ölməz sənətkarlarımızın ümumxalq səadəti ilə bağlı yüksək bəşəri ideallarının heç vaxt köhnəlmədiyini, zaman keçdikcə yeni-yeni humanist görüşlərlə zənginləşərək bədii yaradıcılığı daima qidalandırdığını göstərir.

Ədəbiyyat / *References*

1. Alisher Navoiy, Hayrat ul – abror, Nashrg tayyorlovchi va masul muharrir: Vohob Rahmanov, Toshkent, 2020.
2. Alisher Navoiy, Farhad va Shirin, Nashrga tayyorlovci va masul muharrir: Vohob Rahmanov Toshkent, 2020.
3. Alisher Navoiy, Xamsa, Layli və Majnun Sabai Sayyor,Tola asarlar toplamı, Yettinchifild, Toshkent, 2012.
4. Alisher Navoiy, Sabai Sayyor, Nashrg tayyorlovchi va masul muharrir: Vohob Rahmanov, Toshkent, 2020.
5. Alisher Navoiy, Saddi İskandarıy, Nashrg tayyorlovchi va masul muharrir: Vohob Rahmanov, Toshkent, 2020.
6. Tashcalı Yahya, Çencineyi- Raz, RƏJ 5-286/5182.
7. A.S.Levend, Lamiinin " Ferhad u Şirin"i, Türk Dili Araşdırmaları Yilligi, c.1 N13, Ankara, 1964.

Роль Алишера Навои в распространении в турецкой литературе традиций Низами

Нушаба Арасли
Член-корреспондент НАНА, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: nushabe.arasli@gmail.com

Резюме. Завоевавшее мировую славу бессмертное наследие Низами Гянджеви посредством выдающихся художников слова Востока оказало сильное влияние на турецкую художественную мысль. Продолжая в новом преломлении традиции Низами, особо выделяется в

этой области завоевавший славу своей самобытностью Алишер Навои. Великий поэт и мыслитель узбекского народа Навои продолжил в соответствии с нравственными требованиями времени и среды принесённые Низами в историю художественной мысли Востока высокие общечеловеческие идеалы, соединив с присущими турецкой литературе специфическими особенностями, ещё более обогатил новыми внесениями устную литературу тюркских народов, исходящую от общих источников и древних турецких памятников. Не удивительно, что турецкие последователи литературной школы Низами в своих произведениях широко опирались на творчество великого поэта, упоминая в ряду своих учителей, наряду с Низами, имя Навои.

Ключевые слова: «Хамсэ», тюркские народы, литературное наследие, предшественник, классическая традиция, народная литература, художественное влияние

Əlişir Nəvai – dilçi-türkoloq

Möhsün Nağısoylu
Akademik, AMEA Nəsimi adına Dilçilik İnstitutu. Azərbayan.
E-mail: dr_mohsun@yahoo.com
https://orcid.org/0000-0003-0943-8888

Annotasiya. Böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvai bədii yaradıcılıqla yanaşı, elmi fəaliyyətlə də məşğul olmuş və bir sıra risalələr yazmışdır. Şairin ömrünün sonlarında qələmə aldığı "Mühakimətül-lüğəteyn" əsərində dilçiliklə, xüsusilə də türkologiya ilə bağlı bir sıra maraqlı və dəyərli fikirləri yer almışdır. Müəllif kiçikhəcmli bu əsərində türk dili ilə farscanı qarşılaşdırmış və doğma dilindəki yüz feilin farscada qarşılığının olmadığını qeyd etmişdir. Bundan əlavə risalədə etnoqrafik səciyyəli bir sıra sözlərin fars dilində qarşılığının olmadığı və bu səbəblə də onların eynilə həmin dilə keçdiyi də vurğulanır. Nəvainin bu əsərində bir dilçi-türkoloq kimi böyük maraq doğuran fikirlərindən biri də türkcənin bəzi morfoloji xüsusiyyətlərini, sözyaratma qüdrətini önə çəkməsidir. Bütün bunları qeyd edən Nəvai üzünü türkdilli soydaşlarına tutaraq, türkcənin bir sıra keyfiyyətlərinə görə farscadan üstün olduğunu göstərir və onları doğma dilində yazmağa səsləyir.
Açar sözlər: Nəvai, "Mühakimətül-lüğəteyn", türk, sart, feillər, söz yaradıcılığı

http://dx.doi.org/10.29228/edu.133
Məqaləyə istinad: Nağısoylu M. (2020) *Əlişir Nəvai – dilçi-türkoloq*. «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 47-53
Məqalə tarixçəsi: göndərilib – 19.06.2020; qəbul edilib – 22.06.2020

Alishir Navoiy – linguist-turkologist

Mohsun Nagisoylu
Academician, director of the Institute of Linguistics
named after Nasimi of ANAS. Azerbaijan.
E-mail: dr_mohsun@yahoo.com
https://orcid.org/0000-0003-0943-8888

Abstract. Great Uzbek poet and thinker Alisher Navoiy carried out artistic creativity and scientific activities and wrote a number of risales (letters). In the work "Mohakemat al-lugateyn" written by the poet at the end of his life was dealt with interesting and valuable thoughts about linguistics and turkology. Author in his work compared the Tukish language with Persian and noted that there is no equivalent of one hundred verbs of his native language in Pesrian language. In addition in the risales (letters) is emphasized that there is no equivalent of a number of ethnographic words in Persian language and for this reason they are transferred to that language as they were. One of Navoiy's interesting ideas in his work as linguist-turkologist is that he brought forward some morphological features and word-building power of Turkish languange. Navoiy showed to his Turkish-speaking compatriots that Turkish language for a

number of features is superior to Persian and called them to write in their native language.
Keywords: Navoiy, “Mohakemat al-lugateyn”, Turkish, sart, verbs, word-building.

http://dx.doi.org/10.29228/edu.133
To cite this article: Naghisoylu M. (2020) *Alisher Navoiy - linguist-turkologist*. «Comparative Literary Studies», Issue I, pp. 47-53
Article history: received − 19.06.2020; accepted − 22.06.2020

Giriş / *Introduction*

Dahi özbək şairi və mütəfəkkiri Əmir Əlişir Nəvai təkcə qardaş özbək xalqının deyil, eyni zamanda bütün türk dünyasının ən böyük söz ustalarından biridir. Nəvai hələ orta əsrlərdə türkcə danışan müsəlman Şərqinin geniş bir coğrafi məkanında, o sıradan Azərbaycanda böyük şöhrət qazanmış, bir sıra tanınmış Azərbaycan şairlərinin (məsələn: Kişvəri, Füzuli, Sadiqi və s.) yaradıcılığında silinməz izlər buraxmışdır. Nəvainin bütün türk dünyasında tanınması və sevilməsinin başlıca səbəblərindən biri bu böyük söz ustasının çoxşaxəli yaradıcılığında, xüsusilə də bədii əsərlərində doğma dilinə – türkcəyə üstünlük verməsi, məhz bu dildə dünya ədəbiyyatının nadir söz sənəti incilərini qələmə almasıdır. Bu baxımdan Nəvainin böyüklüyünə və yenilikçi bir sənətkar olmasına sübut olaraq qeyd etmək lazımdır ki, mütəfəkkir şair türk dilində, daha doğrusu, çağatayca böyük Azərbaycan şairi Nizami Gəncəvinin təsiri ilə ilk dəfə “Xəmsə” – beş poema yazmışdır. Bundan əlavə Nəvai türkcə ilk şairlər antologiyası – təzkirə olan “Məcalisün-nəfais”in müəllifi kimi tanınır.

Əsas hissə / *Main Part*

Nəvai türkcə yazmağı ilə fəxr etmiş və bu dildə qələmə aldığı əsərlərinin türkcə danışan bütün ölkə və diyarlarda, o cümlədən o zamankı Azərbaycanın paytaxtı olan Təbriz şəhərində böyük şöhrət tapdığını, “Xəmsə”nin ikinci məsnəvisi olan “Fərhad və Şirin” poemasının sonunda bu şəkildə ifadə etmişdir:

Агар бир қавм, гар юз, йўқса мингдур,
Муайян турк улуси худ менингдур.
Олибмен таҳти фармонимға осон,
Черик чекмай Хитодин то Хуросон.
Хуросон демаким, Шерозу Табрез
Ки, қилмишдур найи килким шакаррез.
Кўнгул бермиш сўзумга турк жон ҳам,
Не ёлғуз турк, балким туркмон ҳам.
Не мулк ичраки бир фармон йибордим,
Анинг забтиға бир девон йибордим.
Бу девон тутти ул кишварни андоқ
Ки, девон тузмагай дафтарни андоқ [9, s.525].

İstərsə bir olsun, istərsə min bir,
Bütün türk elləri ancaq mənimdir.
Xətadan başlayıb Xorasanadək,
Ellər fərmanımla ömür sürəcək.

Şiraz da, Təbriz də mənim yerimdir,
Orda şöhrətlənən öz şakərimdir.
Türk mənim sözümə könül can verib,
Bircə türk verməyib türkmən verib.
Hansı bir diyarə fərman apardım,
Onu almaq üçün divan apardım.
Divanla almışam dediyim yeri,
Belə fateh deyil, divanbəyləri... [5, s.305]

Nəvainin türklüyə, türk millətinə və türk dilinə olan sonsuz sevgi duyğuları "Mühakimətül-lüğəteyn" ("İki dilin qarşılaşdırılması") adlı risaləsində daha qabarıq şəkildə özünün parlaq ifadəsini tapmışdır. Nəvainin bu əsərində böyük mütəfəkkirin doğma dilinə olan sonsuz məhəbbəti, təəssübkeşlik hissləri ilə yanaşı, peşəkar bir dilçi-türkoloqun qədim elm sahələrindən olan dilçiliklə bağlı görüşləri də əks olunmuşdur. Cəmi dörd əlyazma nüsxəsi şəklində günümüzə qədər gəlib çatan kiçikhəcmli "Mühakimətül-lüğəteyn" əsəri [10, s.282] fars dili ilə türk dilinin ifadə imkanları və zənginlikləri baxımından qarşılaşdırılmasına, müqayisəsinə həsr olunmuşdur.

Qeyd etmək lazımdır ki, Nəvai gəncliyində dövrün çoxdankı ənənəsinə görə fars dilində lirik şeirlər (əsasən, qəzəllər) yazmağa başlamış, lakin çox keçmədən milli təəssübkeşlik duyğularının təsiri ilə əsərlərini doğma dilində qələmə almışdır. Ümumiyyətlə, qeyd edək ki, böyük sənətkarın qələmindən çıxan 32 əsərin düz yarısı – 16-sı türkcə, 16-sı isə farscadır [4, s.10]. "Mühakimətül-lüğəteyn" əsəri Nəvainin son əsərlərindən biri sayıla bilər. Belə ki, böyük sənətkar əsərin orta hissəsində öz yaradıcılığından bəhs açaraq, dörd divanının adını çəkərək onların "avazəsini" dünyanın dörddə birinə (mətndə: rüb'-i məskun) çatdırdığını qeyd edir. Nəvai sonra Nizami Gəncəvinin "Xəmsə" pəncəsinə pəncə urduğını" dilə gətirir və burada "Beşliy"in ilk poeması olan "Heyrətül-əbrar"ın adını çəkərkən yazır: "Şeyx Nizami ruhu "Məxzənül-əsrar"idin *("Sirlər xəzinəsi"ndən – M.N.*) başimğə dürlər saçıbdur [8, s.13].

Nəvai ölümündən iki il əvvəl – 1499-cu ilin dekabr ayında qələmə aldığı bu risaləsinə "Mühakimətül-lüğəteyn" adını qoymasının səbəbini açıqlayaraq yazır ki, məqsədim türk dilinin fəsahət və bəlağətini diqqətə çatdırmaqdır. Müəllif onu da xüsusi olaraq vurğulayır ki, bu risalədən sonra türk qələm sahibləri öz dilinin – türkcənin söz və ifadələrinin incəliklərinə vaqif olacaq, beləliklə də, farsca yazanların bu barədə dedikləri tənəli sözlərdən, danlaqlardan birdəfəlik qurtulacaqlar.

"Mühakimətül-lüğəteyn" əsərinin əvvəlində özünü "təkəllüm (*söz – M.N.*) əhli xirməninq xuşəçini (*başaq toplayanı* – M.N.) və söz dürr-i səmin-i məxzənininq əmini və nəzm gülistaninin əndəlib-i nəgməsərayi" kimi təqdim edən Nəvai sözdən bəhs açaraq yazır: "Söz dürrdür kim, anunq dəryası könqüldür və könqül məzhərdür (*yerdir* – M.N.) kim, cəmi-i məani-yi cüzv və küldür". Könülü insan qəlbini bu kiçik və böyük mənaların yeri adlandıran müəllif orada özünə məskən salan söz dürrünün ona sahib olan şəxsin nitqi (dili) vasitəsilə ortaya çıxdığını diqqətə çatdırır. Söz haqqındakı fikirlərini nəsrlə bildirən müəllif iki qitəsində onları nəzmlə də ifadə edir.

Nəvai yer üzünün yeddi iqlimində (qitəsində) yetmiş iki tayfanın (mətndə: *firqənin*) yaşadığını qeyd edərək onların sözlərinin (dillərinin) digərlərindən fərqləndiyini də vurğulayır. Bu məsələyə xüsusi diqqət yetirən müəllif yazır ki, hər xalqın (mətndə: *cəmaət*) müəyyən özəlliklərinə görə digərlərindən fərqlənən söz və ifadələri vardır. Ayrı-ayrı xalqlarda elə söz və ifadələr mövcuddur ki, digər tayfalarda onlar yoxdur. Əsərə müəyyən mənada giriş təsiri bağışlayan bu sözləri ilə müəllif doğma dili olan türkcəyə, onun bənzərsiz söz və ifadələrinə işarə edir.

Nəvai bundan sonra əsl mətləbə keçərək qeyd edir ki, bütün dillər (müsəlman Şərqi dilləri nəzərdə tutulur) içərisində fəsahət və bəlağət baxımından ən üstünü ərəb dilidir. Nəvai onu da xüsusi olaraq vurğulayır ki, Allah-taalanın möcüzəli kəlamı bu dildə nazil olubdur və Onun "rəsulininq əhadisi ol ləfz bilə varid bulubdur". Nəvaiyə görə, ərəb dilindən sonra əsl və mötəbər üç dil: türk, fars

və hindi dilləri vardır ki, onların da kökü Nuh peyğəmbərin üç oğluna: Yasəfə, Sama və Hama gedib çıxır. Bu üç qardaşdan Yafəsi Əbüt-türk (Türkün atası) adlandıran Nəvai yazır ki, Allah-taala onu peyğəmbərlik tacı və "risalət mənsəbi bilə" qardaşlarından üstün etdi. Türk, fars və hind dilləri Nuhun bu üç övladının arasında yayıldı. Ərəb dili və yazısından kəlam, hind dilindən isə uğursuz nitq ortaya çıxdığı üçün biri şərafətdə, digəri isə aşağı səviyyədə yer tutdu. "Qaldı türkiy əlfaz (*sözlər* – M.N.) bilə məqsud ədası və farsi ibarət bilə kəlam mənası".

Bu iki dili – türkcəni və farscanı qarşılaşdıran Nəvai yazır ki, türk sartdan (*şəhərdə yaşayan farsdan* – M.N.) daha fəhmli (anlaqlı), düşüncəlidir və "xilqəti daha saf və pak məxluqdur". Bununla belə, ədalət prinsipini, düzlüyü və həqiqəti bütün həyatı boyu gözləyən böyük mütəfəkkir onu da qeyd edir ki, fars ziyalıları elmi düşüncə və fikir məsələsində daha dəqiqdirlər. "Bu hal türklərin həqiqətcil, saf və düz niyyətlərindən, sartların isə elm və fənlərdə hikmət sahibi olmalarından doğur. Nəvai bu məsələ ilə bağlı fikrini yekunlaşdıraraq qeyd edir ki, söz və ifadə yaratmaqda türk sartdan üstündür. Maraqlıdır ki, Nəvai burada daha bir incə məsələyə toxunur: türklərin hamısı farscanı anlayır, hətta türk şairləri fars dilində gözəl şeirlər də yazırlar, sartlar isə türkcəni bilmirlər. Bu məlum fakt türklərin tarix boyu digər xalqlara böyük ehtiramla yanaşdıqlarını, onların dillərini bildiklərini, hətta farsca nadir sənət inciləri yaratdıqlarını sübut edir. Türkəsilli böyük söz ustalarından Əfzələddin Xaqani Şirvani, Nizami Gəncəvi və Mövlana Cəlaləddin Ruminin və digərlərinin yaradıcılığı buna ən yaxşı nümunə ola bilər. Elə Nəvainin özü də gəncliyində Fani təxəllüsü ilə farsca incə şeirlər yazmışdır və əsərdə bu faktı da dilə gətirir.

Nəvai "Mühakimətül-lüğəteyn" risaləsinin bu yerində əsl dilçi-türkoloq kimi çıxış edərək əsərinin başlıca məram və məqsədini, mətləbini açıqlayır. Müəllifin fikrincə, türklər daima öz dillərini təkmilləşdirmiş və bir sıra anlayışları ifadə edən xüsusi və nadir, bənzərsiz sözlər yaratmışlar. Nəvai bu fikrinə sübut olaraq fars dilində qarşılığı olmayan türkcə nə az, nə çox, düz yüz ədəd feili nümunə kimi verir. Yeri gəlmişkən qeyd edək ki, həmin yüz feildən çoxu orta çağlara aid Azərbaycan yazılı abidələrində işlənir.

Nəvai dilçi-türkoloq kimi qeyd edir ki, bu yüz feilin mənalarını sartların dilində yalnız təsviri yolla, yəni bir neçə söz və ya tərkib vasitəsilə vermək, anlatmaq mümkündür. Nəvai bu fikrinə sübut olaraq həmin sözlərin işləndiyi bir neçə şeiri diqqətə çatdırır. Həmin sözlər sırasında müasir ədəbi dilimizdəki *"ağlamaq"* feilinin incə məna fərqi ilə seçilən sinonimləri olan *inqrəmək, sinqrəmək, sıqtamaq, ögürmək, inçkirmək, yığlamaq, yığlamsınmaq* leksik vahidləri xüsusilə diqqəti çəkir. Müəllif incə məna çaları ilə fərqlənən həmin sözlərə nümunə olaraq türkcə kiçik şeir nümunələri verir ki, onlardan biri orijinalda belə səslənir:

Ol ay ki gülə-gülə ***qırağlattı*** *məni,*
Yığlattı *məni, demay ki,* ***sıqtattı*** *məni.*

Qeyd edək ki, bu şeir nümunəsindəki *qırağlattı, yığlattı* və *sıqtattı* feillərinin üçü də müasir Azərbaycan ədəbi dilindəki *ağlatmaq* anlamındadır, sadəcə olaraq, Nəvainin verdiyi örnəkdə bunlar incə məna fərqi ilə bir-birindən seçilirlər. Nümunədəki *yığlatmaq* feilinə orta əsrlər Azərbaycan yazılı abidələrinin çoxunda rast gəlirik, *sıqtatmaq* isə müasir ədəbi dilimizdəki *sızlatmaq* anlamındadır. Nəvai yuxarıdakı feillərdən heç birinin fars dilində qarşılığı olmadığını da ayrıca olaraq diqqətə çatdırır.

Nəvai türk dilindəki *yasanmaq* feilinin fars dilində *arəstə* və *arayeş* (bəzək, bəzənmə) kimi qarşılıqları olduğunu qeyd edərək yazır ki, bununla belə türkcədəki *bəzənmək* feilinin qarşılığı sartlarda yoxdur. Müəllif bu iki sözün eyni misra daxilində işləndiyini və *bəzənmək* feilinin *yasanmaq* leksik vahidinin mübaliğəsi anlamı daşıdığını da bir dilçi kimi diqqətə çatdırır:

İrür bəs çü hüsnü məlahət sanqa,
Yasanmaq-bəzənmək nə hacət sanqa.

Qeyd edək ki, *yasanmaq-bəzənmək* ifadəsi müasir ədəbi dilimizdə *bəzənib-düzənmək* şəklində işlənir.

Nəvainin aşağıdakı açıqlaması da türkcənin ifadə vasitələrinin zənginliyini sübut edir və böyük maraq doğurur. Sənətkar yazır ki, türklər *göz yaşı* və *ağlamaq* sözlərini çox vaxt *ah* və *isti nəfəs* (orijinalda: *dəm*) ifadələri ilə qoşa işlədir və *isti nəfəsi çaqına* (şimşəyə, qığılcıma), *ahı* isə *ildırıma* bənzədirlər:

Fəraqinq içrə ulus örtəməkqə, ey mahim,
Çaqındurur dəmimü ildırımdurur ahim.

Bu nümunəni verən Nəvai qeyd edir ki, farslarda *çaqın* və *ildırım* sözlərinin qarşılığı yoxdur. Onlar bu anlayışları ərəb dilindən aldıqları *bərq* və *saiqə* sözləri ilə ifadə edirlər. Müəllifin bir dilçi-türkoloq qələmindən çıxan bu sözləri onun fars və ərəb dillərini də incəliyinə qədər bildiyindən xəbər verir. Qeyd edək ki, *çaqın* sözü *şimşək* anlamında müasir türk dilində işlənir [6, s.164], lakin Azərbaycan dili üçün arxaik səciyyə daşıyır.

Nəvai "Mühakimətül-lüğəteyn" risaləsində türkcə sözlərin omonimliyindən də söz açır və bu qəbildən olan sözlərin şeirdə cinas yaratdığını da önə çəkir. Müəllif bu qəbildən olan sözlərə nümunə olaraq *at, it, tuş, tüz* (düz), *bar* (var), *kök* (göy) və s. kimi leksik vahidləri qeyd edir. Məsələn o yazır ki, *it* həm isimdir – heyvan adıdır, həm də *itmək* (yox olmaq) və *itələmək* anlamında işlənir. Qeyd edək ki, *itmək* feilinin ikinci mənası müasir ədəbi dilimiz üçün arxaik səciyyə daşısa da, türk dilində işlənir.

Nəvai sözügedən risaləsində, həmçinin etnoqrafik səciyyəli ayrı-ayrı türk sözlərinin incəliklərinə də toxunur və bu baxımdan fars dilinin yoxsulluğunu göstərir. Məsələn, müəllif yazır ki, türklərdə *ov ovlamaq* və *quş quşlamaq* bir-birindən incə məna fərqinə seçilir və bu məşğuliyyətlə bağlı sözlər də eyni deyil. Farslarda isə hər iki anlayış bir sözlə ifadə olunur: *şekar* (ov). Bundan əlavə türklər *keyikin* (maralın) erkəyinə *hünə*, dişisinə isə *qılçaqçı* deyərlər. Sartlarda isə *keyik* yalnız *ahu* və *gəvəzn* sözü ilə ifadə olunur. Nəvai türklərin quş ovuna aid sözlərdə də sartlardan üstün olduğunu qeyd edərək aşağıdakı çöl quşlarının adlarını göstərir və onların fars dilində də elə bu cür işləndiyini diqqətə çatdırır: *qulanurğa, yapalağ, quladölənək, çaylaq, toğday, çağruq, qılquyruq, qaraquş, tilbəquş, çığçığ* və s.

Müəllif türklərdə dəvə bozlamağının, qoyun munqraməyinin, inək inqrəməyinin, it boğuşmağı və ulamağının farslarda qarşılığı olmadığını da qeyd edir. Nəvainin bu qəbildən olan sözlər sırasında at cinsləri, atların yaşlarına görə adlarının çoxunun türkcədən farscaya keçdiyini də xatırladır. Müəllifin bu mövzuda verdiyi maraqlı bilgilərdən biri də sartların türklərdən götürdüyü yemək adları: *qaymağ, qatlama, bulamağ, qurut, ulaba, mantu, quymağ* və içki adlarıdır: *qımız, süzmə, baxsum, boza, tutmaç, umaç, küməç, talğan* və s.

"Mühakimətül-lüğəteyn"də Nəvainin türk dilinin morfologiyası ilə bağlı yüksək peşəkarlığı ilə seçilən fikirləri də öz əksini tapmışdır. Məsələn, müəllif qeyd edir ki, türklər bəzi feillərə *şin* hərfini artırmaqla iki adamın birgə hərəkətini ifadə edirlər. Məsələn: *çapmaq-çapışmaq, tapmaq-tapışmaq, qucmaq-qucuşmaq* və s. "Farsca danışan kəslər bəlağət və fəsahətdən dəm vursalar da, bu faydadan məhrumdurlar". Nəvai böyük iftixarla qeyd edir ki, bu cür sözləri yaradanlar "öz ustalıqları ilə sart söz ustalarını ötüb keçiblər".

Nəvainin türk dilinin morfoloji quruluş baxımından farscadan böyük üstünlüyü ilə bağlı fikirləri sırasında türkcədə feilin icbar növünün farscada birbaşa qarşılığının olmaması haqqındakı əsl dilçi peşəkarlığı ilə seçilən qeydləri də diqqətçəkicidir. Müəllif feilin bu növünün türk dilində -t morfemi ilə düzəldiyini qeyd edir: *elə+t, yaşur+t, yügür+t* və s.

Nəvai sözügedən risaləsində türklərdə söz yaradıcılığı məsələsi üzərində də dayanaraq türk dilindəki *-çı* şəkilçisi ilə düzələn bir sıra leksik vahidlərin qarşılığının farscada olmadığı üçün bu

dildə də eynilə işləndiyini yazır. Məsələn: *qorçı, yutçı, axtaçı, quşçı, barsçı, qoruqçı, tamğaçı* və s. Müəllif türklərdə işlək olan feili bağlama şəkilçisi *-gəc, -ğac* ilə ifadə olunan sözlərin (*yetgəc, itgəc, barğac* və s.) farslarda qarşılığı olmadığını da diqqətə çatdırır.

Nəvai türkcədən farscaya keçən sözlər sırasında *-laq* şəkilçisi ilə düzəlmiş aşağıdakı leksik vahidləri də qeyd edir: *qışlaq, yaylaq, quşlaq* və s.

Nəvai həmçinin *-vul* şəkilçisi ilə düzəlmiş və orta əsrlərdə türkcədə çox işlək olan aşağıdakı hərbi terminləri də diqqətə çatdırır: *heravul, qaravul, yanqavul, yasavul, bukavul* və s. Müəllif türk dilinin bu cür incəliklərini qeyd edərək təəssüf hissi ilə yazır ki, bütün bunlar indiyədək gizli qalıbdır və çoxlarına bəlli deyil.

"Mühakimətül-lüğəteyn" risaləsində Nəvainin yüksək milli təəssübkeşliyi və qızğın vətənpərvərlik duyğuları da qabarıq şəkildə öz ifadəsini tapmışdır. Mütəfəkkir şair ürək ağrısı ilə qeyd edir ki, türk dili bu cür kamil olduğu halda, türk gəncləri indiyədək fars dilində şeir yazıblar. "Əgər onlarda iki dildə yazmaq bacarığı vardırsa, öz dillərində daha çox, başqa dildə isə az yazmalıydılar". Nəvai bu sözləri qeyd etdikdən sonra, etiraf edir ki, o da gəncliyində fars dilinə meyil salıbdır. Yalnız "şüur sinninə" qədəm qoyandan sonra türk dilinə üstünlük verməyə başlamışdır.

Risalənin sonunda Nəvai özünün çoxşaxəli yaradıcılığına nəzər salaraq qələmindən çıxan əsərlər haqqında qısa bilgilər verir və "türk ulusunun fəsihlərini" (gözəl danışanları) onun yazdıqlarından fayda tapacağına ümidvar olduğunu qeyd edir.

Beləliklə, dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin ana dilində yazdığı "Mühakimətüllüğəteyn" risaləsi dahi söz ustadının digər elm sahələrində olduğu kimi, dilçilik, xüsusilə də türkologiya sahəsində də böyük bir bilgin olduğunu əyani şəkildə sübut edir.

Nəvainin bu gün də aktuallığını qoruyub saxlayan "Mühakimətül-lüğəteyn" əsəri hələ 1902-ci ildə böyük türkçü, "Dildə, fikirdə, əməldə birlik" şüarının müəllifi İsmayıl bəy Qaspıralının ön sözü ilə Baxçasarayda Azərbaycan dilində nəşr olunmuşdur. Türkçülük məfkurəsinin böyük ideoloqlarından olan Əli bəy Hüseynzadə 1916-cı ildə yazmışdır: "Mühakimətül-lüğəteyn" fars ilə türk dilləri arasında ədibanə və münəqqidanə bir mühakimə olub, türk dilinin fars dilindən varlı və mükəmməl olduğunu isbat etmək məqsədilə yazılmışdır" [1].

Onu da qeyd edək ki, 1926-cı ilin əvvəllərində Bakıda keçirilən Birinci Türkoloji Qurultay tədbirləri çərçivəsində böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin 500 illik (əslində 485 illik) yubileyi də qeyd olunmuş və görkəmli dilçi alim Bəkir Çobanzadə bu münasibətlə "Nəvai-dilçi" və "Nəvainin dili və dilçiliyi haqqında" adlı iki məqaləsini bu böyük söz ustadının "Mühakimətüllüğəteyn" əsərinin təhlili əsasında qələmə almışdır [3; s.9]. B.Çobanzadə yuxarıda adı çəkilən məqalələrindən ikincisində yazır: "Nəvainin dilçiliyi müəyyən əsaslar üzərində qurulmuşdur. O, türk dilinin qüvvətli, fars dilinin zəif nöqtələrini fərq etmişdir... Nəvainin dilçiliyində bu gün də qiymət veriləcək bir nöqtə (*incə məqam* – M.N.) varsa, o da onun türk dilindəki şəkilçilərə nəzər – diqqəti cəlb etməsidir" [3, s.229].

Nəticə / *Conclusion*

Son olaraq daha bir maraqlı faktı qeyd edək: Azərbaycançılıq məfkurəsinin böyük ideoloqlarından biri kimi tanınan Cavad Heyət dahi özbək söz ustasının sözügedən əsərinin təsirilə "Moğayesetol-loğəteyn" ("İki dilin müqayisəsi") adlı əsər yazmışdır. C.Heyət bu əsərində türkcənin bir sıra dil göstəricilərinə görə fars dilindən üstün olduğunu konkret faktlarla sübuta yetirməyə çalışmış və buna uğurla nail olmuşdur. Müəllif bu dəyərli kitabının sonunda fars dilində qarşılığı olmayan və mənası bir neçə sözlə ifadə olunan 1750 ədəd Azərbaycan türkcəsi sözünün siyahısını vermişdir. Bu siyahıda olan sözlərdən bəziləri kiçik fonetik dəyişikliklə fars dilində də işlənir [4, s.12].

Görkəmli Türkiyə ədəbiyyatşünası Əhəmd Kabaklı böyük özbək şairinin, əsasən, bu əsərini nəzərə alaraq yazmışdır: "Nevai, Türk Bilge Kağan və Kaşğarlı Mahmud'dan sonra tarih içinde en

şuurlu Türk milliyetçisidir" [7, s.149). Tanınmış türkoloq alim Turxan Gəncəi 1327/1947-ci ildə Nəvainin bu dəyərli risaləsini fars dilinə çevirərək Tehranda nəşr etdirmişdir [4, s.11].

Ədəbiyyat / *References*

1. Almaz Ülvi (Binnətova). Türk ədəbi dil məktəbinin elmi nəzəri əsasları: "Mühakimət ül-lüğəteyn" əsəri. "Kaspi" qəzeti, 2020, fevral.
2. Bəkir Çobanzadə. Nəvai-dilçi. Seçilmiş əsərləri. II cild. Bakı, "Şərq-Qərb".
3. Bəkir Çobanzadə. Nəvainin dili və dilçiliyi haqqında. Seçilmiş əsərləri. II cild. Bakı, "Şərq-Qərb".
4. Cavad Heyət. İki dilin müqayisəsi. Bakı, "Elm", 1991.
5. Əlişir Nəvai. Seçilmiş əsərləri. Bakı, "Öndər", 2004.
6. Türkçe-rusca sözlük. Hazırlayanlar: A.Baskakov ve b. Moskva, 1977.
7. Kabaklı Ahmet. Türk Edebiyatı. II cilt, IX baskı, İstanbul, 1994.
8. Alisher Navoiy. «Muxommat-ul-lughatayn». Nashrga tayerlovchi. Porso Shamsiev. www.ziyouz.com kutubxonasi.
9. Alisher Navoiy. Mukammal asarlar tuplami. Sakkizinchi tom. Farkhod va Shirin. Toshkent, 1991.
10. Kosim Sadikov. «Muxommat-ul-lughatayn» asari kulezmalarining choghishtirma taxlili. Alisher Navoiy ijodiy merosining umumbashariyat manaviy-marifiy taraggiyotidagi orni mavzusidagi II ananaviy xalqoro ilmiy-amaliy konferensiya materiallari. Toshken, "Ozbekiston", 2018.

Алишир Навои – языковед-тюрколог

Мохсун Нагисойлу
Академик, директор Института языкознания им. Насими НАНА. Азербайджан.
E-mail: dr_mohsun@yahoo.com

Резюме. Великий узбекский поэт и мыслитель Алишир Навои, наряду с художественным творчеством, занимался также научной деятельностью и написал ряд научных трактатов. В написанном поэтом в конце жизни сочинении «Мухакимат ал-лугатейн» имеется ряд интересных и ценных суждений относительно языкознания и в частности тюркологии. В этом небольшом по объёму сочинении автор при сопоставлении тюркского и фарсидского языков обнаруживает отсутствие в последнем эквивалентов ста глаголов, употребительных в родном языке. Помимо этого, в трактате отмечается отсутствие в фарсидском языке ряда тюркских слов этнографического порядка и вследствие этого перешедших в него без изменения. В этом сочинении крайне интересны заключения Навои как языковеда-тюрколога, который особо подчёркивает значение морфологических особенностей и многообразной словообразовательной функции тюркских языков. Как следствие этого, Навои, обращаясь к своим тюркоязычным соплеменникам, отмечает превосходство по ряду качественных особенностей тюркского языка перед фарсидским и призывает их писать на родном языке.

Ключевые слова: Навои, «Мухакимат ал-лугатейн», тюрк, сарт, глаголы, словообразование

Nəsimi və özbək ədəbiyyatı

Qulamhüseyn Əliyev
Filologiya üzrə fəlsəfə doktoru. Azərbaycan.
E-mail: alieva_zohra@mail.ru
https://orcid.org/0000-0001-7829-879X

Giriş / *Introduction*

Seyid İmadəddin Nəsimi insan ucalığı və gözəlliyinin böyük tərənnümçüsü kimi şöhrətlənmiş mütəfəkkir şairdir. Bu cəhətdən onun idealları dünyanın bir çox görkəmli humanist şair və filosoflarının yaradıcılığı ilə yaxından səsləşir. Nəsiminin özbək, türkmən, tatar, qazax, uyğur, türk, fars-tacik ədəbiyyatına təsiri xüsusi tədqiqat mövzusudur. Hələ sağlığında Türkiyədə, İraqda, Suriyada, xüsusən, Hələbdə şairin şeirlərinin əlyazması geniş yayılmışdır. Xətai, Füzuli, Həbibi və digər Azərbaycan şairləri Nəsiminin ədəbi irsindən faydalandıqları kimi, böyük özbək şairlərindən Lütfi, Nəvai və başqaları da bu ədəbi təsirdən kənarda qalmamışdır. Əlişir Nəvai (1441–1501) Nəsiminin yaradıcılığına böyük maraq göstərən dahi özbək şairidir. O öz əsərlərində dəfələrlə Azərbaycan şairlərindən Xaqaninin, Nizaminin, Nəsiminin, Şah Qasım Ənvərin və başqalarının adını çəkir.

Əsas hissə / *Main Part*

Türk dilində divan yaradan Nəsimi və Lütfi kimi sələflərinin bədii irsi Nəvainin ədəbi fəaliyyəti üçün bir hazırlıq məktəbi olub. O, "Nəsaimül-məhəbbət" və "Haləti-pəhləvan Məhəmməd" adlı əsərlərində ana dilində yaxşı şeirlər yazan Nəsimini böyük hörmətlə təqdir edir ki, bu da Azərbaycan şairinin yaradıcılığına dərindən bələd olduğunu göstərir. "Haləti-pəhləvan Məhəmməd" Nəvainin bioqrafik mövzuda yazdığı əsərlərindən biridir. Bu əsərdə "Küştügir" təxəllüsü ilə şeirlər yazan Məhəmməd Pəhləvanın Sultan Hüseyn Bayqaraya və şəxsən Nəvainin özünə bəslədiyi dostluq münasibətlərindən bəhs olunmuşdur. Nəvai yazır ki, iti hafizəsi və gözəl hazırcavablığı ilə Məhəmməd Pəhləvan hamını heyran qoyurdu. O, yazdığı şeirlərə özü musiqi bəstələyir, məlahətli səslə oxuyur, eyni zamanda, saray üçün qüvvətli güləşçilər hazırlayırdı. Xorasanda, Səmərqənddə, İraqda, Yaxın və Orta Şərq ölkələrində onu böyük hörmət və məhəbbətlə qarşılayırdılar.

Əlişir Nəvai yazır: "Bir dəfə mən möhkəm xəstələnmişdim. Məhəmməd Küştügir hər gün mənə baş çəkmək üçün yanıma gəlirdi. Bir gün o soruşdu ki, kim daha yaxşı yazır, sən kimi daha çox bəyənirsən?

Mən dedim:

- Mövlana Lütfi hamı tərəfindən bəyənilir... o, söz mülkünün soltanıdır.

O dedi:

- Nə üçün Seyid Nəsimini demədin?

Mən cavab verdim:

– Yadıma düşmədi, yadıma düşdüyü təqdirdə belə, Seyid Nəsiminin nəzmi başqa cürdür. O, bizim şeirlər kimi yazmamışdır. O, əsl təriqət şeirləri yazır və həqiqəti təqdim edir.

Bu sualı verməkdə sənin məqsədin dünyəvi şeirlər yazanları soruşmaq deyildimi?

Pəhləvan etiraz etdi və istehza ilə dedi:

– Heç rəvadır ki, Seyid Nəsiminin yanında Lütfiyə üstünlük verəsən. Halbuki Seyid Nəsiminin şeirləri zahirən məcazi olsa da, məna etibarilə əsl həqiqətin yolunu vəsf edir. Bunu deyib mənim bu gün səhər tezdən yazdığım şeiri əzbərdən, özünəməxsus bir ahənglə axıra qədər oxudu. Şeirin məqtəsində mənim təxəllüsüm var idi:

Gər Nəvai gözəllərin vəsfi üçün çəksə çoxlu əziyyət,
Nə etməli, bəxti qaraya hər zaman kədərdən pay düşür.

Məhəmməd Pəhləvan mənim təxəllüsümü Nəsimi ilə əvəz etmişdi, əslində, bu əvəzetmə yerinə düşürdü. Nəvaidən çox, Nəsimi uyğun gəlirdi..."

Ə.Nəvainin "Nəsaimül-məhəbbət" adlı əsərində də Nəsimi haqqında məlumat verilmişdir. O, şairin poetik məharətini yüksək qiymətləndirərək yazır ki, Nəsiminin şeiri müqabilində şeir yazanlarımız yoxdur. Təqlid əhli şairin məzhəbində qüsur olduğu iddiası ilə onu şəhid etdirdi, dərisinin soyulmasına hökm verdilər. Nəvaiyə görə, Nəsimi dərisi soyularkən aşağıdakı şeiri demişdir:

Qiblədir yüzün, nigara, qaşların mehrablar,
Surətin müshəf, vəli xalü-xətin erablar.
Şeirin axırıncı beytini belə təqdim edir:
Ey Nəsimi, çün müyəssər boldu iqbali-vüsal,
Qoy dərini soysa soysun, bu pəlid qəssablar.

Əlbəttə, Nəsiminin faciəli ölümü haqqında saysız-hesabsız rəvayətlərə nəzər yetirsən, Nəvainin də öz fikrində haqlı olub-olmaması məsələsi tədqiqatın diqqət mərkəzində durmalıdır. Nəsiminin ölüm ayağında məhz hansı şeiri yazdığı, hansı sözü dediyi orta əsrlərdən bəri dondan-dona girmiş rəvayətlər formasında zəmanəmizə gəlib çatmışdır. Nəvai şöhrətli bir şair kimi tanınarkən, Nəsiminin ölümündən 50 ilə yaxın bir vaxt keçirdi. Bu isə zaman etibarilə çox uzaq müddət deyildir. Nəsiminin ölümü haqqında Nəvai daha çox şey deyə bilərdi. Nəsiminin günahsız ölümü – uğrunda mübarizə apardığı ideyanın daha geniş təbliğinə səbəb olmuşdu. "Ənəlhəqq" ideyası Herat ədəbi mühitinə də təsir göstərmişdi. Şair və fazil insan Məhəmməd Küştügiri də Nəsimiyə bağlayan həmin bu ideya idi. Nəsimi "pəlid qəssablar" tərəfindən dərisinin soyulmasına razı olub, ancaq əqidəsi və məsləkinə toxunulmasına imkan verməyib. Bu isə orta əsrin teokratik ağalığına qarşı açıqdan-açığa meydan oxumaq idi.

Orta Asiya, xüsusilə özbək ədəbiyyatında Nəsimi yaradıcılığına bəslənən böyük ehtiramı digər ədəbi mənbələrdə də görə bilərik. Əlişir Nəvainin məktəb dostu Sultan Hüseyn Bayqaranın Nəsiminin faciəli ölümü haqqında ətraflı məlumatı olub. Onun şəxsi tapşırığı ilə "Məcalisül-üşşaq" adlı bir əsər yazılmışdır. Bu əsərdə "haqq aşiqi" Nəsimi haqqında ayrıca danışılır. Əmir Kəmaləddin Hüseyn tərəfindən yazılan "Məcalisül-üşşaq" əsəri Sultan Bayqaraya təqdim edilib. Professor Mirzağa Quluzadənin həmin əsərdən misal gətirdiyi bir parçada Nəsimi haqqında oxuyuruq: "Nəimi nəfəsindən gələn nəsimləri qoxulayan Əmir Seyid İmadəddin Nəsimi adı ilə məşhurdur. Qərib bir aşiq ... idi.

Cavanlıqda aşiq olmuş, bilikli və incə sözləri dərk edən bir adam idi... şairin sözünü anlamadılar. Onu cəzalandırmaq istədilər. Hələbdə zahiri üləmadan bir münkir ondan soruşdu: "Bu cavanın üzündə nə görürsən ki, bu qədər həyəcan və məstlik göstərirsən?" Cavab verdi ki, onun üzünün aynasında haqqın (Allahın) surətini müşahidə edirəm. Münkir dedi: "Biz də o cavanı görürük, bəs nə üçün o surət bizim gözümüzə görünmür". Şair söylədi: "Bu dövlət quşu sizin qabiliyyətinizi özünə yuva etmədi..."

Nəsimi yaradıcılığı ilə yaxından tanış olan özbək şairlərindən biri yuxarıda adını çəkdiyimiz Mövlana Lütfidir (1366–1465). Əlişir Nəvainin dediyinə görə, müasirləri içərisində cığatay türkcəsində ən yaxşı şeirlər yazan Lütfi olmuşdur. Nəvai onu "söz mülkünün sultanı" adlandırıb. Bildiyimiz kimi, Füzuli də onun:

"Ey əzəldən ta əbəd könlüm giriftarın sənin", – misrası ilə başlanan qəzəlinə təxmis yazmışdır. XIX əsrin ikinci yarısında Lənkəranda "Fövcül-füsəha" ədəbi məclisinin üzvlərindən İsmayıl Qasirin də Lütfinin "Xah inan, xah inanma" rədifli qəzəlinə nəzirəsi vardır. Məlum olan başqa çoxlu faktlar göstərir ki, özbək şairi Lütfinin də şeirləri Azərbaycanda geniş yayılmışdır. Lakin Yaxın və Orta Şərq xalqlarının ədəbi mühitində insan gözəlliyinin daha dolğun tərənnümü bilavasitə Nəsiminin adı ilə bağlıdır.

İnsana hörmət və məhəbbət təlqin etmək bəşəri bir duyğudur. Nəsiminin yaradıcılığında insana bəslənən məhəbbətin zəmanəsi ilə bağlı ictimai-siyasi-fəlsəfi kökləri vardır. Onun təbliğ etdiyi ideyalar sərhədləri aşmış, ölkələri fəth etmiş, özünə tərəfkeşlər tapmışdır. Mövlana Lütfi Orta Asiyadan Nəsiminin səsinə səs verərək insanı "yer üzünün allahı" kimi tərənnüm edən sənətkarlardan biridir. Lütfi də Nəsimi kimi insanı varlığın anası, həyatın yeganə yaradıcısı hesab edir. "Hər dəfə sənə baxarkən ah çəkirəm, səni görən kimi "Allah" deyirəm" – deyir.

Lütfi yaradıcılığında Nəsimi ilə ideyaca səsləşməni doğuran səbəb tarixi şəraitin özü idi. Höte Şiller haqqında danışarkən deyirdi ki, "onda toxunduğu bütün şeyləri nəcibləşdirmək istedadı var". Bu sözlər Nəsimi haqqında da deyilə bilər. Müstəbid əmrlər və hökmdarlar insan cəsədlərindən ehramlar düzəltdirərkən, Nəsimilər, Lütfilər "insana məhəbbət" ideyasını təbliğ edirdilər. Şahruxun və Uluqbəyin sarayını tərk edərək Krımı və Azərbaycanı səyahətə çıxan Lütfi çox güman ki, elə həmin vaxtlar hürufi ideyaları ilə daha yaxından tanış olmuşdur. Nəsiminin yaradıcılığında insan və onun sonsuz gözəlliyinin tərənnümü zahiri və ötəri xarakter daşımır. Məhəbbətin böyük gücünə əmin olan orta əsr humanist şairləri kimi, Nəsimi də bu fikirdə idi ki, məhz məhəbbətin qüdrəti sayəsində insan yer üzünü xoşbəxt bir diyara çevirəcəkdir. Xeyirxah əməllər müjdəçisi insanı layiq olduğu yüksəkliyə qaldırmaq kimi ictimai borcundan şərəflə çıxan müəllif insanın vəsfində onu Günəşlə, "Quran"ın ayələri ilə müqayisə edir, üzünü "surəti-rəhman" adlandırır:

Üzünü surəti-rəhman oxurlar,
Xəttini sünbüli-reyhan oxurlar.
Əzəldən çün üzündür Misri came
Üzünü sərbəsər quran oxurlar.

Özbək şairi Lütfü də insanın gözəlliyə heyran qalmaq keyfiyyətini məhz Nəsimi epitetləri ilə qələmə alır. Şair sutək içmək istədiyi bu gözəlliyi "dirilik suyu" adlandırıb. Bu sifətlərinlə sən "surəti-rəhmansan"– deyə insana müraciət edir:

Qanmam neçə kim baxsam sənin hüsnünə billah,
Su tək içməli dərman kim, çeşməyi heyvansan.

İstər ideya, istərsə, bədii təsvir vasitələri cəhətdən Nəsimi və Lütfi yaradıcılığında bir-birilə səsləşən şeirlər çoxdur. Bütün bunların bütövlükdə xüsusi tədqiqata ehtiyacı var. Nəsiminin və Lütfinin yaradıcılığında üslub və forma cəhətdən bənzərlik bəzən onları bir-birindən fərqləndirməyi belə, çətinləşdirir. Vahid transkripsiya əsasında yazdığımız aşağıdakı şeirlərin məqtələrindəki təxəllüs göstərilməsə, az qala, onların eyni sənətkar tərəfindən qələmə alındığını etiraf etmək məcburiyyətində qalarıq:

Nəsimi:
Dodağın qəndinə şəkər dedilər.
Cani-şirinə gör nələr dedilər.
Dedilər kim, dəhəni yaxdur anın,
Bixəbərlər əcəb xəbər dedilər.
Can demişlər dodağına hel-hel.
Bu sözü gör nə müxtəsər dedilər.
Şama bənzətdilər qara saçını,
Arizin nurinə səhər dedilər.
Şəbi-yelda durur saçın gecəsi,
Surətin bədrinə qəmər dedilər.
Ey Nəsimi, mühiti-əzəmsən
Gərci əlfazinə göhər dedilər.

Lütfi:
Püstədək ağzına şəkər dedilər
Qeyb sirrin nə müxtəsər dedilər.
Dedilər arizini ay ilə gün,
Tanrının nurinə nələr dedilər?
Yüzün alında qiyaməti görüb
Cəmiüş-şəms vəl-qəmər dedilər.
Qılğucu var demişlər ağzını,
Gör ki, yox yerdə nə xəbər dedilər.
Vəsfi zülfünlə ruha tuşladılar,
Hər neçə şam ilə səhər dedilər.
Tut qulaq Lütfinin ibarətinə,
Kim, onun ləfzinə göhər dedilər.

Nəsimi və Lütfi yaradıcılığında bu qəbildən olan "Ləylətül-qədrin səvadı zülfi-nurtabindədir" – mətləli qəzəlləri, "Susadı" rədifli, habelə başqa şeirləri də misal göstərmək mümkündür. Bu şeirlərdə istər məzmun, istərsə də forma cəhətdən bir-birini tamamlayan xüsusiyyətlər çoxdur. Qafiyə və rədiflərindəki oxşarlıqdan başqa, diqqət yetirilərsə, məzmun, ümumi ahəng, təsvir vasitələri etibarilə də bir-birilə yaxından səsləşən belə nümunələr bizə orta əsrlərdə görkəmli sənətkarların mövcud çətinliklərə baxmayaraq, bir-birindən yaradıcı şəkildə faydalandığını göstərir.

Nəsimi:
Leylətül-qədrin səvadı zülfi pürtabindədir
Vəzzühanın afitabı üzü məhtabindədir.
Ey xumarlı gözlərində fitnəyi uyur sanan,
Gözləri şol fitnədir kim, fitnəsi xabindədir.
Zülhayat oldu ləbindən Xızrü İsa ləyamut,
Gör bu qüdrət möcüzü kim, ləli sirabindədir

Lütfi:
Leylətül-meracının şərhi saçi-tabindədir
Qabü-qövseyn ittihadı qaşi mehrabindədir.
Gözləri hər quşa uykudin qoparır fitnələr.
Türfə məxmurəki, candan fitnələr xabindədir.
Xızrinin ayin yaşunmuş göydən enməz həm Məsih,
Netsin ol möcüz bu dəm, Yakuti serabindədir və s.

Nəsimi və Lütfinin "Susadı" rədifli qəzəllərində isə öz sevgilisi üçün darıxmış aşiqin vüsal həsrəti və ürək çırpıntıları tərənnüm edilmişdir. İxtisarla verdiyimiz beytlərə diqqət yetirək:

Nəsimi:
Ləblərin şərbətinə çeşmeyi-heyvan susadı,
Sulu incilərinə təşnə kimi can susadı.

... Necə qəhr eyləyəsən, aşiqinə rəhm eylə,
Ki, sənin rəhmətinə aşiqi-heyran susadı...

Lütfi:
Dilbəra, abi-həyat irnin üçün can susadı.
Bağrım örtəndi dağına biryan susadı...

Səlsəbilinin suyunə susayan əhli-əzab,
Xaki-payinə onuntək bu da heyran susadı.

Nəsiminin fars dilində yazdığı "Bəhrül-əsrar" adlı bir qəsidəsi də vardır. Həmin qəsidə yubiley günlərində Azərbaycan dilinə tərcümə olunub. Nəsimi bu qəsidəni məşhur hind şairi Əmir Xosrov Dəhləvinin "Dəryayi-əbrar" qəsidəsinə nəzirə yazmışdır. Nəsimidən sonra isə həmin qəsidəyə Əbdürrəhman Cami "Lüccətül-əsrar", Əlişir Nəvai isə "Töhfətül-əfkar" adlı nəzirə qələmə almışlar.

Əlbəttə, bu əsərlərdən misallar gətirib müxtəlif dövrlərdə yaşamış sənətkarların bir-birindən nəyi və necə öyrəndikləri haqqında söhbət açmaq mümkündür. Lakin biz faktları təqdim etməklə Azərbaycan və özbək ədəbi əlaqələrininin dərin köklərə malik olduğunu, həm də bu faktların tədqiqat üçün şəksiz əhəmiyyətini bir daha qeyd etmək istərdik. Doğrudur, Nəvai "Xəmsətül-mütəhəyyirin" və "Mühakimətül-lüğəteyi" əsərlərində yuxarıda göstərilən qəsidələr haqqında danışarkən Nəsiminin adını çəkmir, lakin həmin qəsidələri müqayisə edərkən məlum olur ki, bu əsərlər ideyaca bir-birinə yaxın sənətkarların gələcək nəslə mənəvi vəsiyyətnaməsi kimi səslənir.

Xüsusilə Nəsiminin "Bəhrül-əsrar"ı ilə Nəvainin "Töhfətül-əfkarı" ruhən bir-birinə çox yaxındır. Özbək şairinin Azərbaycan ədəbiyyatına və onun qüdrətli sənətkarlarının yaradıcılığına dərindən bələdliyi Ə.Xaqaninin "Qəsideyi-şiyyəsi"nə yazdığı nəzirədə də aydın görünür. Bildiyimiz kimi, Əmir Xosrov Dəhləvi də öz qəsidəsini Xaqanidə olduğu kimi, "Miratüs-səfa" adlandırmışdır. Onlardan sonra isə Ə.Çami "Cəlair-ruh", Ə.Nəvai isə "Nəsimül-xüld" adlı nəsirə qəsidələrini yaratmışlar. Nəvai "Mühəkimətül-lüğəteyn"də bu barədə maraqlı izahat vermişdir. Çox təəssüf ki, Xaqani yaradıcılığının gözəl tədqiqatçısı olan M.Sultanov Xaqaninin "Miratüs-səfa" qəsidəsinə nəzirə yazan bir çox şairin adını çəkdiyi halda, Nəvaini xatırlatmır. Halbuki Ə.Nəvai öz əsərlərində dəfələrlə Xaqani Şirvani haqqında ehtiramla danışır. Onu "xəlləqqül-məani", "nəzm bağçasının xoş nəğməkarı" adlandırır.

Nəticə / *Conclusion*

Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixində Nəsimi xüsusi bir mərhələ təşkil edir. Bu mərhələdə Nəsiminin mövqeyini müəyyənləşdirmək üçün xüsusi tədqiqata böyük ehtiyac vardır. Şərq ədəbiyyatında "Nəsimi" adı fədakarlıq rəmzi kimi dillər əzbəri olmuşdur. Təsadüfi deyil ki, Ürgəncli Əsiri adlı bir özbək şairi 1775-ci ildə Nəsimi haqqında ayrıca dastan yazıb. Çox maraqlı və orijinal məzmuna malik bu dastanın əsli özbək folklorşünası mərhum Hadi Zərifovun şəxsi kitabxanasındadır. Poemanın "Nəsimi" adlandırılması özbək alimləri arasında bir qədər şübhə doğurmuşdur. Ədalət naminə demək lazımdır ki, bu dastanda təsvir olunan hadisələr tamamilə Nəsiminin həyatı ilə əlaqədar məsələlərlə səsləşir. Xüsusilə Teymurilərin hürufilərə münasibəti poemada öz aydın bədii ifadəsini tapmışdır.

Nəsimi ideyalarının nəcib təsirini XVII əsrin sonu, XVIII əsrin əvvəllərində yaşamış özbək şairi Babarəhim Məşrəbin də yaradıcılığında görürük. Məşrəbin də taleyi Nəsiminin taleyi kimi olub. Gənc yaşlarından Xocənd, Daşkənd, Səmərqənd, Buxara, Bəlx və Hindistanı qarış-qarış gəzərək qələndər şair kimi şöhrətlənən Məşrəb yanıqlı qəzəlləri ilə könüllərə od-alov saçmış, insana hörmət və məhəbbət təbliğində ittiham edilərək ruhanilərin fitvası və Bəlx hakiminin hökmü ilə 1711-ci ildə Nəsimi kimi edam olunmuşdur. Müxtəsər danışdığımız bu faktlardan belə bir nəticə çıxır ki, Nəsimi bəşəri ideyaların keşiyində mətanətlə dayanan məğrur bir şair kimi, Orta Asiya xalqları içərisində, xüsusilə onu başa düşən, ona ideyaca bağlanan şeir, sənət sahibləri arasında böyük məhəbbət qazanan şairlərimizdəndir.

Nəsimi poeziyasının özbək ədəbiyyatındakı güclü əks-sədası qədim və zəngin bir tarixə malik olan Azərbaycan–özbək ədəbi əlaqələrinin ən maraqlı səhifələrindən birini təşkil edir.

1975

Əlişir Nəvai və Azərbaycan

Almaz Ülvi Binnətova
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: almazulvi1960@mail.ru
https://orcid.org/0000-0001-7991-3969

Annotasiya. "Əlişir Nəvai və Azərbaycan" adlı tədqiqat işi bir neçə istiqamətdə qruplaşdırılmışdır. "Əlişir Nəvai yaradıcılığının Azərbaycan ədəbiyyatına təsiri"; "Əlişir Nəvai yaradıcılığına Azərbaycan ədəbiyyatının təsiri"; "Azərbaycan ədəbiyyatşünaslığında Əlişir Nəvai irsinin öyrənilməsi"; "Azərbaycan və özbək dillərinin müqayisəli öyrənilməsində Əlişir Nəvai yaradıcılığının rolu və Ortaq türk ədəbi dilinin tədqiqi tarixində Əlişir Nəvai ədəbi irsinin yeri". Bu bölmələr daxilində sistemləşdirilən tədqiqatda əsas mənbə kimi Əlişir Nəvainin öz əsərlərinə isnad edilmişdir. "Əlişir Nəvai və Azərbaycan" mövzusu iki qardaş xalqın ədəbi əlaqələr tarixinin qızıl səhifəsi, bitib-tükənməyən araşdırma, tədqiqat qaynağı, ədəbi təsir, ədəbi ənənə, ədəbi simalar tarixinin ilkin mənbəyidir.
Açar sözlər: Əlişir Nəvai, Azərbaycan ədəbiyyatşünaslığı, ədəbi təsir, Ortaq türk ədəbi dil tarixi

http://dx.doi.org/10.29228/edu.143
Məqaləyə istinad: Binnətova A.Ü., (2020) *Əlişir Nəvai və Azərbaycan.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 59-67
Məqalə tarixçəsi: göndərilib – 14.04.2020; qəbul edilib – 20.04.2020

Alisher Navoiy and Azerbaijan

Almaz Ulvi Binnatova
Doctor of Philological Sciences, Institute of Literature
named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: almazulvi1960@mail.ru
https://orcid.org/0000-0001-7991-3969

Abstract. The research work named "Alisher Navoiy and Azerbaijan" was grouped in several directions. In the systematic research within the sections named "The influence of Alisher Navoiy's creativity on Azerbaijani literature", "The influence of Azerbaijani literature on the creativity of Alisher Navoiy", "Studying of Alisher Navoiy's legacy in Azerbaijani literary studies"; "The role of Alisher Navoiy's creativity in the comparative study of Azerbaijani and Uzbek languages and the place of Alisher Navoiy's literary heritage in the study of the common Turkish literary language" as a main source is based on the Alisher Navoiy's own works. The theme "Alisher Navoiy and Azerbaijan" is a golden page in the history of literary relations between two fraternal peoples, the source of research, literary influence, literary tradition and primary source in the history of literary figures.

Keywords: Alisher Navoiy, Azerbaijani literary criticism, literary influence, History of common Turkish literary language**.**

http://dx.doi.org/10.29228/edu.143
To cite this article: Binnatova A.U. (2020) *Alisher Navoiy and Azerbaijan.* «Comparative Literature Studies», Issue I, pp. 59-67
Article history: received – 14.04.2020; accepted – 20.04.2020

Giriş / *Introduction*

Böyük özbək şairi, türk dünyasının iftixarı, bəşəriyyətin dahi oğlu Əlişir Nəvainin ədəbi şəxsiyyəti və irsinin heyrətamiz xarakterdə məzmunu hələ çox əsrlərin tədqiqat mövzusu olacaq, öyrəniləcək və araşdırılacaqdır. Həyat məktəbdir deyiblər. Nəvai irsi elə bir yaradıcılıq məktəbidir ki, bu məktəbdən dərs alanlar Füzuli zirvəsi fəthinə qədər gedib çata biliblər. Əlişir Nəvai, belə demək mümkünsə, ilk dərslərindən birini, Azərbaycan ədəbiyyatından öyrənib – ustad dərsi alıb, Əlişir Nəvai Azərbaycan ədəbiyyatına ustadlıq edib, Əlişir Nəvainin elmi-ədəbi yaradıcılığı tədqiq edilərək, Azərbaycan ədəbiyyatşünaslığının önəmli səhifələrində xüsusi yer tutub.

"Özbək ədəbiyyatının görkəmli klassiki Əlişir Nəvainin böyük klassik kimi fəxrlə söz açdığı dahi Azərbaycan şairi Nizami Gəncəvi haqqında yazdığı aşağıdakı misralar eyni dərinlikdən axıb gələn çayların vahid məcrada birləşərək daha gur axınla irəli getməsinin etirafıdır:

Yalnız bu xəzinədən almışdır kamı,
O Gəncədə yatan böyük Nizami.
Gəncədə olsa da aramı onun,
Xəzinələr üstədir məqamı onun.
Ağız qapıları səs eyləmədən,
Könül xəzinəsini eylədi mədən.
O mədənə qapı-iki dodağı,
Bir kəsin dəyməsin ora ayağı.
O hikmət memarı söz yaradırkən,
Daş atan yaratmış onu əzəldən.

Nizaminin ölməz misraları önündə heyrətini ifadə edən Əlişir Nəvainin şeiriyyəti qarşısında dünya lirizminin fatehi Füzuli də həyəcanını gizlətmək fikrində olmayıb" [1, s. 4].

Əsas hissə / *Main part*

93 il əvvəl Bakıda Birinci Türkoloji Qurultay keçiriləndə Əlişir Nəvai adı bayraq olub, əsərləri nəşr edilərək Qurultay günü türk dünyasının görkəmli simalarına töhfə edilib, bayram şöləni Əlişir Nəvai adına qurulub. Bəli, Əlişir Nəvai Azərbaycanda belə bir uca taxtda əziz tutulub, bu gün də tutulur. "Əlişir Nəvai və Azərbaycan" adlı tədqiqatımızı bir neçə istiqamətdə qruplaşdırmağı münasib bildik.

- *Əlişir Nəvai yaradıcılığının Azərbaycan ədəbiyyatına təsiri*
- *Əlişir Nəvai yaradıcılığına Azərbaycan ədəbiyyatının təsiri*
- *Azərbaycan ədəbiyyatşünaslığında Əlişir Nəvai irsinin öyrənilməsi*
- *Azərbaycan və özbək dillərinin müqayisəli öyrənilməsində Əlişir Nəvai yaradıcılığının rolu və Ortaq türk ədəbi dilinin tədqiqi tarixində Əlişir Nəvai ədəbi irsinin yeri*

1. Əlişir Nəvai yaradıcılığına Azərbaycan ədəbiyyatının təsiri. Əlişir Nəvai fitrətən istedadlı olmaqla yanaşı, həm də çox təvazökar, kübar ədəbli böyük şəxsiyyət olub. Tədqiqata belə bir girişlə başlamağımız səbəbsiz deyil: "Əlişir Nəvai yaradıcılığına Azərbaycan ədəbiyyatının təsiri" tədqiqatı üçün heç bir mənbəyə, heç bir tədqiqatı arayıb-axtarmağa ehtiyac olmur. Mütəfəkkir şair təvazökarlıqla bütün əsərlərinin girişində və ya müəyyən məqamında isnad etdiyi, faydalandığı, ibrət götürdüyü, öyrəndiyi bütün əsərlərin – sənətkarların adlarını çəkir, onlardan nə öyrəndiyini, nələri götürdüyünü qeyd edir. "Əlişir Nəvai türk xalqları ədəbiyyatının yeni bir mərhələsinin dahi yaradıcısıdır. Məlum olduğu kimi, orta əsrlərdə, qədim dövrlərdə epik əsərlərin, ümumiyyətlə, bədii ədəbiyyatın, xüsusən poeziyanın fars dilində yazılması ənənəsi geniş yer tuturdu. Əlişir Nəvai fars dilini, ərəbcəni mükəmməl bilirdi və yüksək qiymətləndirirdi. Buna baxmayaraq, artıq XIII əsrdən İzzəddin Həsənoğlu, Qazi Bürhanəddinlə başlayan ümumtürk ədəbiyyatındakı milli ədəbiyyat uğrunda mübarizənin ən yüksək zirvəsi, mən deyərdim ki, orta əsrlərin əsas zirvələrindən biri Əlişir Nəvaidir. Əlişir Nəvai Nizami Gəncəvidən sonra, Məhəmməd Füzulidən isə əvvəl ümumtürk ədəbiyyatının zirvəsidir. Əlişir Nəvai Nizami Gəncəvini özünə ustad, müəllim kimi qəbul etmişdir. Məhəmməd Füzuli də Əlişir Nəvaidən özünün böyük ustadı, müəllimi kimi çox fəxrlə söz açmışdır. Bu bizim həm ortaq köklərimizin, ədəbiyyat ənənələrimizin nə qədər yaxın, doğma, hətta eyni olduğunu bir daha nümayiş etdirir" [2, s.4].

Bu mənada, "Əlişir Nəvai və Azərbaycan" mövzusunun tarixini araşdırmalı olsaq, az qala elə Nəvainin dil açıb sözləri yan-yana düzə bildiyi gündən olduğunu deyə bilərik. Bu misaldan, "Məcalisün-nəfais" ("Nəfis məclislər") əsərinə nəzər salaq: əsər belə bir mətnlə başlayır. "İlk olaraq, Mir Qasım Ənvar həzrətləridir, sirri mübarək olsun. Hər nə qədər rütbələri şairlik payından çox uca və vilayət sahibi kimsələr arasında vəsfləri ifadədən aşmışsa da, həqiqətlər və bacarıqlarını nəzm geyimində könülə xoş gəldiyi üçün nəzmə iltifat etmişlər. Təyəmmün səbəbi ilə bu müxtəsərə ("Məcalisün-nəfais"ə) onların şərəfli adları ilə başlandı. Mirinin əsli Azərbaycandandır və doğum yeri Sərab adlı kənddir. O zamanlar 3 ilə 4 yaş arasında idim. Əziz kişilər oxumamı istəyirdilər, bəziləri də şeir oxumama heyrət edərdilər" [3, s.292]. (Nəvai uzaq illərdə qalmış bir xatirə ilə böyük şairə hörmətini izhar etmiş olur: 3-4 yaşın arasında olarkən, əzizlərin (saray əhlinin) təklifi ilə Qasım Ənvarın farsca bir beytini əzbər demiş və məclis əhlinin məhəbbətini qazanmışdır). Qasım Ənvarın "Məcalisün-nəfais"də tutduğu yeri müəyyənləşdirərkən Rusuhi adlı orta əsr şairinin bir beytini təqdim etmişdir:

Kim o'lub macmara gardoni Attor,
O'lubdur sham'i majlisi Qosim Anvor.
Gulistoninda bulbuldir Xo'jandiy,
U bog'ning Sa'di bo'ldi nahl-bandi.
Horiminda edar javlon Tusiy.

Göründüyü kimi, müəllif burada Mir Qasım Ənvarı Əlişir Nəvainin "Nəfis məclislər"inin şamı – yanar çırağı adlandırıb. Yəni, bütün şairləri məhz onun – o şamın ətrafına toplayıb. Ustadına gözəl və layiqli təqdimatıdır. 770 sufi şeyx və alimlərdən bəhs edən "Nəsaimül-məhəbbət" əsərində də Mir Qasım Ənvardan dəfələrlə yazmış, 713-ü şəxs sıralamasında isə ayrıca hekayət [4, s.464-465] təqdim etmişdir. Əlişir Nəvai uşaqlığından ürəyində gəzdirdiyi bu məhəbbətinin nəticəsi kimi, sonralar Cam şəhərində dəfn olunmuş şair Qasım Ənvarın qəbri üzərində məqbərə tikdirmişdi. Əlişir Nəvai "Mühakimətül-lüğəteyn" [4, s. 506-533] əsərində qeyd edir: "Uşaqlığın möcüzələri", "Gəncliyin qaşdaşları", "Orta yaşın gözəllikləri", "Qocalığın faydaları" – bu dörd "Divan"ın şöhrətini çün dünyanın dörd yanına yaymışam, "Xəmsə" pəncəsinə pəncə vurmuşam. Əvvəlcə, "Möminlərin təşvişi" ("Heyrətül-əbrar) bağında təbim güllər açıbdır ki, ona "Sirlər xəzinəsi"ndən ("Məxzənül-əsrar") Şeyx Nizaminin ruhu başıma dürlər saçıbdır. Elə ki, xəyalım "Fərhad və Şirin" şəbistanına yol tutdu, Əmir Xosrovun nəfəsi ("Şirin və Xosrov") odundan çırağımı yandırdı. Eşqim "Leyli və Məcnun" ("Leylavü Məcnun") vadisinə baş vuranda, Xacə Himməti (öz) "Gövhərnamə"sindən yoluma

gövhərlər səpibdir. Qəlbimə "Yeddi səyyarə" ("Səbai səyyarə") hakim olanda, Əşrəfin "Yeddi gözəl"indəki ("Həft peykər") yeddi hurisima peşkəşimdə yaraqlanıb durdu. "İskəndərin divarları"nın ("Səddi İskəndər") xatirim mühəndisi əsasını salıbdır ki, onda da möhtərəm Cami öz "Hikmətlər kitabı"ndan ("Xiradnamə") yardım və imdad təbilini çalıbdır [4, s. 520-521; 5, s.14].

Nizami Gəncəvinin "Xəmsə"çilik ənənəsinə Əlişir Nəvai ərəb və fars səddini qıraraq türkcə cavab yazdı. Türk dilini həmin dillərin boyuna qaldırdı. Obrazlar, hadisələr oxşar olsa da, Nəvai öz dühası ilə yanaşdı: yeni rəng, yeni ruh, yeni çalar, yeni ahənglə öz nəqşibəndi baxışı ilə sözə yeni naxış vurdu. Əlişir Nəvai söz nəqqaşı olub. Yuxarıda da qeyd etdiyimiz kimi, şair "Xəmsə"sinin iki dastanının da mövzu sujetini Azərbaycanın böyük klassiklərindən Nizami Gəncəvi və Əşrəf Marağayıdan faydalandığını lütfkarlıqla qeyd edir.

"Xəmsə"sinin az qala, hər ritmində Nizami Gəncəviyə baş əyir, onun söz meydanına girmək, onun pəncəsinin üstünə pəncə qoymağın asan olmadığını yazır ("Fərhad və Şirin" dastanından). Bu meydanda Əlişir Nəvainin Nizami Gəncəvi yaradıcılığına– istedadına heyrətinin ifadəsi onun kübar ədəbinin lirik təcəssümüdür.

Bu meydanda sanma asandır durmaq,
Nizamilə pənçə pənçəyə vurmaq.
Nizamiyə pəncə uzatsa hər kəs,
Qırılar pənçəsi, murada yetməz
Şir pəncəsi gərək şirlə edə cəng,
Barı şir olmasa, qoy olsun pələng [6, s.17].

Teymurilər səltənətində təqib olunan, onun ideologiyasında qəbul edilməyən böyük İmadəddin Nəsimi yaradıcılığına münasibətini, əgər belə demək mümkün olursa, ona ehtiram və sayğısını Məhəmməd Pəhləvanın tərcümeyi-halı və şəxsiyyəti" əsərində Məhəmməd Pəhləvanın dili ilə – aralarında keçən dialoqdan- ədəbi üsuldan istifadə edərək fikrini bildirir:

"Dedi: Sualımız budur ki, şeirləri zaman səhifəsinə keçən türkcə şeir yazan şairlərdən hansı daha yaxşı söyləyib? Və sənin əqidəncə, hansına yaxşı deyə bilərik, sən kimi bəyənirsən?

Mən dedim: Hamısı yaxşı söyləyir, mən bəyənirəm.

Pəhləvan dedi: Sən qeyri-müəyyən və səmimi davranışını bir tərəfə qoy, doğrusunu söylə. Hamısını bəyənirəm deyirsən, amma hamısı bir deyil axı, əlbəttə aralarında fərq var.

Mən dedim: Mövlana Lütfi hazırda hər kəsin qəbul etdiyi, bəyəndiyi, bu qövmün ustadı və söz mülkünün sultanıdır.

Pəhləvan dedi: Nə üçün Seyid Nəsimini demədiniz?

Mən dedim: Xatirimə gəlmədi və əgər yadıma düşsə də, Seyid Nəsiminin nəzmi özgə rəngdədir, o zahir əhli şairləri kimi nəzm söyləmir, bəlkə həqiqət yolunda şeirlər yazır. Bu sualda sənin məqsədin məcaz yolunda söz söyləyən xalqdır".

770 sufi alim və şeyxlərdən bəhs edən "Nəsaimül-məhəbbət" ("Sevgi şehləri") əsərində İmadəddin Nəsimiyə yer ayırır: " İmadəddin Nəsimi rum və türkmən dilində şeir söyləyibdir və nəzmində həqiqət və ürfan həddən çoxdur. Bu yerlərdəki şeir əhlinin onun dərəcəsində şeir söyləyəni yoxdur. Həmin təqlid əhli (yəni, onun ətrafındakılar) onun məzhəbində nöqsan tapıb mühakimə edərək şəhid etdilər. Dərisinin soyulması haqqındakı hökm məşhurdur, edam vaxtı bu şeiri deyibdir:

Qiblədir üzün, nigara, qaşların mehrablar,
Surətin müshəf, vəli mişkin xətin e'rablar.

və bu şeirin təxəllüsü belə tamamlanır:

Ey Nəsimi, çün müyəssər oldu iqbalı vüsal,
Qoy dərini soysa soysun, bu palıd qəssablar [4, s.486; 7, s.204].

İmadəddin Nəsiminin vəfatından cəmi 24 il ötmüş Əlişir Nəvai doğulub. Bu mənada, İmadəddin Nəsiminin edam vaxtı dediyi misralar – şeir Əlişir Nəvainin bu əsərində yazdıqları daha doğru və dəqiq mənbə ola bilər. Əlişir Nəvai bu hadisəni, İmadəddin Nəsimi ağrısını, sözə tutulan bu divanın ağrısını təsadüfən qələmə almayıb. O, sözün qəhmərinə qalxıb və İmadəddin Nəsimiyə tutulan divanı tarixə bir daha həkk edib. İmadəddin Nəsimi sözünün təsiri Əlişir Nəvaiyə bu ağrıları yazdırıb. Beləliklə, qısa da olsa, bir neçə qeydlə Əlişir Nəvai yaradıcılığına Azərbaycan ədəbiyyatının təsiri məsələsinə nəzər saldıq.

Daha geniş səpgidə yanaşsaq, Əlişir Nəvainin Əfzələddin Xəqani, Nizami Gəncəvi, Mir Qasım Ənvar, İmadəddin Nəsimi, Arif Ərdəbili, Əşrəf Marağayi və bir çox klassiklərimizin yaradıcılığından təsirləndiyini, yuxarıda da xatırlatdığımız kimi, elə Əlişir Nəvainin öz əsərləri üzərindən şərh etmək olar.

2. Əlişir Nəvai yaradıcılığının Azərbaycan ədəbiyyatına təsiri: Ustadım Cənnət Nağıyevanın təbirincə desək, Əlişir Nəvai Nizami Gəncəvidən, İmadəddin Nəsimidən böyük heyranlıqla istifadə edibsə, XVI əsrdə Fuzulinin əsərlərində Nəvai ehtiramla yad olunub:

Olmuşdu Nəvaiyi-süxəndan,
Mənzuri-şahənşəhi-Xorasan [8, s.32].

Mir Cəlal "Füzuli sənətkarlığı" monoqrafiyasında yazır: "Ərəblərdə Əbu Nəvas, farslarda Xacə Hafız, özbəklərdə Əlişir Nəvai kimi məshur və böyük qəzəl ustadı olan şairlər yetişmişdir. Füzuli öz qəzəllərində bütün keçmiş ədəbi irsin nailiyyət və zənginliklərini inkişaf etdirmiş və öz dühası ilə Azərbaycanda lirik şeir sənətinin ən yüksək nümunələrini yaratmışdır. Şeirin dərdinə əlac etmək əzmində olan böyük sənətkar məhz məhəbbət dastanına müraciət edir, məhz Nizami, Nəvai kimi qüdrətli şairlərin toxunduğu mövzudan yazır" [9, s. 45; 258]. Əlişir Nəvai XV əsrdə butun turk aləminə təsir edən bir şair olub. Amma lirizmin ən yuksək numunələrini yaradan Fuzuli olub. Nəvaidən ustad dərsi alsa da, onun türk ədəbi məktəbindən keçsə də, lirizmin ən uca zirvəsini fəth edib. Əlişir Nəvainin "Görgəc" rədifli qəzəlinə yazdığı təxmisdən –

Könlüm açılır zulfu-pərişanını görgəc,
Nitqim tutulur qönçəyi-xəndanını görgəc.
Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dəlinir navəki-müjganını gorgəc [10, s.331].

Bu uca zirvə fatehinin ustadı Əlişir Nəvai yaradıcılığı o dövrün bütün qələm adamlarına öz təsirini göstərib. Birincisi, bəşəri mövzuları ilə ədəbiyyat meydanında onu arxa cərgədə qoyan elə bir sənətkar olmadığına görə, ikincisi, türk ədəbi məktəbinin qüdrətli söz varisi kimi, üçüncüsü, onun ədəbi təvazökarlığı və kübar mədəniyyəti (bu ifadələrin yuxarıda izahını şərh etmişdik). "Əlişir Nəvai yaradıcılığına Azərbaycan ədəbiyyatının təsiri" mövzunu təkcə Məhəmməd Füzuli ilə tamamlamaq fikrində deyilik. Teymurilər varisi Sultan Hüseyn Bayqaranın səltənəti dövründə Heratda elm, ədəbiyyat, tarix öz qızıl dövrünü fəth etmişdir. Bu yüksəlişin səsi-sədası bütün Şərqə yayılmışdı. Xorasandan, Mavəraünnəhrdən, Azərbaycandan, İraqdan, Rumdan, Hindistandan gənclər həmin səltənətin paytaxtı Herata elm, təhsil dalınca gəlirdilər. Bu gənclərin bir çoxu təhsildən sonra ya öz Vətənlərinə qayıdır, ya da elə Heratda qalıb ədəbiyyat aləmində püxtələşirdilər. Ədəbiyyat aşiqləri Əlişir Nəvainin qurduğu ədəbi məclislərə, ədəbiyyat məktəbinə gedib-gələrdilər.

Hətta mənbələrdən məlumdur ki, Hüseyn Bayqaranın övladlarına dərs verən gənclərdən biri Azərbaycandan Herata oxumağa gedən Ziya Təbrizi olmuşdur. Əlişir Nəvainin "Məcalisün-nəfais" əsərində də haqqında bəhs edilən məhz həmin Mövlana Ziya Təbrizidir. "Təzkireyi şüəra Azərbaycan" əsərində Ziya Təbrizinin 1521/22-ci illərdə Naxçıvanın Ordubad şəhərində doğulduğu qeyd edilir. Mövlana Ziya Hüseyn Bayqara səltənətinin son günlərinə qədər Heratda yaşamış, daha sonra Təb-

rizə getmiş və orada vəfat etmişdir. O, gözəl qəsidələr müəllifi kimi tanınıb, luğəz və müəmma janrında əsərləri çoxdur. Hətta qəsidələrindən birini Şahqərib Mirzəyə - S.H.Bayqaranın oğluna ithaf etmişdir. Bunlardan başqa, türk və fars dillərində xeyli qəzəl, qəsidə, müəmma və digər janrlarda yazdığı əsərləri vardır."Məcalisün – nəfais"də Əlişir Nəvai onu belə təqdim etmişdir: "Mövlana Ziya - Təbrizlidir. Qəlbə yaxın kişidir. Kiçik cüssəli olduğu üçün dostların nəşələnməsinə səbəb olur. Təhsil almaq üçün Herat şəhərinə gəldi və o əsnada şeirlə də məşğul oldu, gözəl şeirlər söylədi. Bu misralar onundur:

Əgər pərvanə bu gecə canından vaz keçərsə,
Bunda qəribə bir şey yoxdur,
çünki mumun ömür fidanının xəzanı gəldi" [3, s.345].

Sam Mirzə Səfəvi "Töhfeyi-Sam" təzkirəsində yazır: "Ziya Ordubadi – məşhur Azərbaycan şairi. Gənclik illərində Herata getmişdir, orada yüksək təhsilli və istedadlı şair kimi tanınmış, gözəl şeirləri ilə Əlişir Nəvainin şeir məclisinin üzvü olmuşdu. Özbək tədqiqatçı Cəlaləddin Jurayevin yazdığına əsasən, onun luğəz və müəmma janrından bəhs edən əsərləri ("Al-qoz" (luğəz haqqında), "Xall ul-muamma") İranın Qum şəhərindəki Ayətulla Maraşi adına kitabxanada saxlanılır (11271/II nömrə, 23 vərəqdən ibarətdir). Əsərin sonunda müəllifin adı belə möhürlənib: Mövlana Ziya Təbrizi [7, s.180-183].

XVI əsrdə Herat ədəbi məktəbinin – Əlişir Nəvai məktəbinin sorağı bütün Şərqdə geniş səs salır. Şeirə, elmə, sənətə maraq göstərən gənclər Herata – Əlişir Nəvai adına üz tuturlar. Və burada da (həm Əlişir dövrünün tarixçilərinin qeydlərinə, həm də Əlişir Nəvainin öz yazdıqlarına görə) onlar şeir-sənətin incəliklərini dərindən öyrənirlər. Hər zaman Əlişir Nəvainin yanında olan Əbdürrəhman Caminin yaradıcılığı və onların söhbətləri ilə yaxından tanış olurlar. Əlişir Nəvai "Məcalisün-nəfais" təzkirəsində onlardan bir neçəsinin (Ziyayi, Xülqi, Allahi, Bəsiri) adını çəkməklə yanaşı, o zaman onların məşhur misralarından da nümunələr vermişdi.

Akademik Həmid Araslının təbirincə desək, "Kişvəri üzərində məşhur özbək şairi Əlişir Nəvainin qüvvətli təsiri olmuşdur. Şair həmişə Nəvaini nümunə götürmüş, onun qəzəlləri səviyyəsində əsərlər yaratmağa çalışmışdır". Təbriz ədəbi mühitində tərbiyələnmiş, ona həsəd aparan şairlərin etinasızlığına dözməyən Kişvəri Əlişir Nəvaiyə pənah aparır. Gözəl şair və istedadlı xəttat ustadı kimi tanınan, Azərbaycan (türk) ədəbi dilinin formalaşmasında böyük təsiri olan Nemətulla Kişvəri Dilməqani Əlişir Nəvai taleyinə qibtə hissi ilə yazmışdır:

Kişvəri şe'ri Nəvai şe'rindən əksik iməs,
Bəxtinə duşsəydi bir Sultan Huseyni Bayqara [10, s.344].

Başqa bir qəzəlində Kişvəri yazır:

Nəvai himmətindən Kişvəri əhli-nəzər boldu,
Cəhan mülkün tutar şeiri nəzər bolsa Nəvainin [11, s.III].

Kişvəri yaradıcılığında Əlişir Nəvai şeirlərinə yazılmış nəzirələr onun "nəinki özünə qədərki anadilli poeziyadan, həm də ümumi türkdilli ədəbiyyatın ən mütərəqqi və böyük şairlərindən də bəhrələnməsini sübut edir [12, s.17].

Kişvəri divaninin hər beyti-əhli-dərd üçün,
Sanki bir peyki-Nəvaidir, Xorasandin gəlib [12, s.III].

3. Azərbaycan ədəbiyyatşünaslığında Əlişir Nəvai irsinin öyrənilməsi. Əlişir Nəvai yaradıcılığının Azərbaycan ədənbiyyatşünaslığında öyrənilməsi məsələsini iki istiqamətdə qeyd edə bilərik.

İlk olaraq, ədəbi təsir, daha sonra isə ədəbiyyatşünaslıq – tədqiqat məqalələrinin (monoqrafiyalarının) yazılması ilə.

2008-ci ildə bu sətirlərin müəllifi "Azərbaycan-özbək ədəbi əlaqələri" adlı monoqrafiyasını nəşrə hazırlayarkən Əlişir Nəvai yaradıcılığına, təbii ki, xeyli geniş səhifələr ayrılmışdı. Bu zaman "Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında" adlı tədqiqata xüsusi ehtiyac duyulduğunun fərqinə vardıq. Əlişir Nəvai irsinin Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi və tədqiqi məsələlərinə dair bir əsrlik tarixi vərəqləmək şansını "Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında" [10] adlı kitabı (məqalələr toplusu) ilə əldə etdik. Həmin kitabı 2009-cu ildə nəşr edərək ərsəyə gətirdik. Kitabda Ə.Həsənzadə, Əli Nazim, Firidun bəy Köçərli, İsmayıl Hikmət, Salman Mümtaz, Bəkir Çobanzadə, Səməd Vurğun, Həmid Araslı, Məmməd Arif, Məmməd Bəktaşi, Qulamhüseyn Əliyev, Sabir Əliyev, Q.Beqdeli, Məmmədağa Sultanov, Süleyman Rüstəm, Pənah Xəlilov, Cənnət Nağıyeva, Firuz Sadıqzadə, Ələkbər Ziyatay, Nüşabə Araslı, Kamil Vəliyev, Əbülfəz Rəhimov, Səadət Şıxıyeva, Tofiq Hacıyev və başqalarının məqalələri nəşr olundu. Eyni zamanda, kitabın sonunda Əlişir Nəvai haqqında yazılmış 110 kitab və məqalənin siyahısı göstərilmişdir. Bu nəşrdən keçən son 10 il ərzində Əlişir Nəvai haqqında daha xeyli tədqiqat işləri yazılmışdır. Bunlardan akademik İsa Həbibbəylinin, akademik Möhsün Nağısoylunun, akademik Teymur Kərimlinin, AMEA-nın müxbir üzvü Nüşabə Araslının, professor Ramiz Əskərin və bir çox başqa tanınmış alimlərin adlarını qeyd edə bilərik. Tərlan Quliyev şairin "Mizanül-övzan"ını, Ataəmi Mirzəyev "Cami, Nəvai və Füzuli yaradıcılığında şairin 40 hədis", Fuad Köprülünün "Əlişir Nəvai", Ramiz Əskərin "Əlişir Nəvayi və onun "Xəmsə"si" və s. adda xeyli kitablar nəşr olunmuşdur. Yuxarıda da qeyd etdiyimiz kimi, professor Cənnət Nağıyeva Əlişir Nəvai yaradıcılığı haqqında 4 monoqrafiya ("Əlişir Nəvainin Bakı əlyazmaları", "Azərbaycanda Nəvai", "Özbək ədəbiyyatında Füzuli ənənələri", " Nəvai və Cami əsərlərinin əlyazmalarının təsviri"), 60-dan yuxarı məqalə yazaraq nəşr etdirmişdir. Bu sətirlərin müəllifi də Əlişir Nəvai haqqında xeyli sayda məqalələr yazaraq kitab və dərgilərdə çap etdirmişdir. Hazırda 400 səhifəlik "Əlişir Nəvainin elmi-filoloji və nəsr əsərləri"nin məzmun şərhindən ibarət monoqrafiyası nəşrdədir.

4. Azərbaycan və özbək dillərinin müqayisəli öyrənilməsində Əlişir Nəvai yaradıcılığının rolu və Ortaq türk ədəbi dilinin tədqiqi tarixində Əlişir Nəvai ədəbi irsinin yeri: Orta əsr – Əlişir Nəvai dövr ədəbiyyatını öyrənərkən, tədqiq edərkən ümumtürk ədəbi dili ortaya qoyulur. Əslində Həsənoğlu, İmadəddin Nəsimi dili, Əlişir Nəvai və Məhəmməd Füzuli dili arasında anlaşılmaz bir söz, fikir, ibarə yoxdur. Bu klassiklərin ədəbi dillərini əsərləri üzərindən təhlilə cəlb etməklə illərdir arzuladığımız ortaq türk dilinin bünövrəsini görürük. AMEA Əlyazmalar İnstitutunun Nadir nüsxələr Fondunda Əlişir Nəvainin və Məhəmməd Füzulinin bir kitabda cəmlənmiş "Divan"ı vardır. Ədəbi irs uyğunluğu baxımından orta əsrlərdə klassiklərin əsərlərinin – "Divan"larının bir cilddə toplanması ənənəvi hal almışdı. Bu baxımdan Nəvai–Füzuli "Divan"larının bir cilddə toplanması da həmin ənənənin nəticəsi olaraq yaranmışdı. M.Sultanov. "M.Füzuli və Nəvai divanının birgə əlyazması", M.Adilov. "Nəvai və Füzulinin bir cild içərisində yazılmış "divan"ları haqqında", C.Nağıyeva "Nəvai və Füzulinin bir cildə tutulmuş divanlarının daha bir əlyazması" və A.Ülvinin "Nəvai və Füzulinin divanları bir cilddə" adlı məqalələri həmin əlyazmadan bəhs edir [13, s.159-163]. Cənnət xanım Nağıyeva o kitabın səhifələrini vərəqləyərək iki dahinin sözləri arasındakı fərqin olub-olmamasını şərh edərdi. Əlişir Nəvai dilinin bizim kənd ellərində indi də işlək dil olduğunu dönə-dönə qeyd edərdik. Buradan belə bir qənaətə gəlmək olur ki, ortaq dil yaratmaq istəyimizi - ədəbi dil üzərində istədiyimiz nəticəni əldə etmək istəyiriksə, klassikləri olduğu kimi elmə, ədəbiyyata, yazımıza qaytarmalıyıq. Əlişir Nəvainin 21 adda elmi-filoloji və nəsr əsərlərinin məzmun şərhini bir kitabda hazırlayarkən – ən işlək "lüğətim" elə Əlişir Nəvainin öz əsərləri oldu. Yəni, Əlişir Nəvai əsərlərini "tərcümə etdim", – deyə ortada bir fikir yoxdur. Elə ki, müasir dilimizə yaxınlaşdırmışıq, o zaman deyə bilərik ki, Əlişir Nəvaini tərcümə etdim. 2020-ci ilin ilk ayında Əlişir Nəvainin "Hikmətli sözlər"ini (həmkarlarım Yaşar Qasım və Akif Azalpla birgə) əl içi boyda bir kitabçada nəşr etdik [18]. Kitabçanın titul səhifəsində "tərcümə edənlər" deyə yazsaq da, ürəyimizə yatmadı. Çünki Əlişir Nəvai dili bütün

türk dünyasının dili, ortaq türk mədəniyyətimiz, ortaq tariximiz - ədəbiyyat tariximizin ən layiqli nümunəsidir.

Nəticə / *Conclusion*

Yekun olaraq qeyd edək ki, "Əlişir Nəvai və Azərbaycan" mövzusu iki qardaş xalqın ədəbi əlaqələr tarixinin qızıl səhifəsi, bitib-tükənməyən araşdırma, tədqiqat qaynağı, ədəbi təsir, ədəbi ənənə, ədəbi simalar tarixinin ilkin mənbəyidir. Əlişir Nəvai ölməzdir, o bütün türk dünyası, bəşəriyyət adına böyük tarixi, ədəbi simadır.

Ədəbiyyat / *References*

1. Akademik İsa Həbibbəyli. Dünya ədəbiyyatı üçün də əhəmiyyətli iş. Ülvi, A. "Özbək ədəbiyyatı (ədəbi portret cizgiləri, araşdırmalar"ı kitabına ön söz). Bakı, "Elm və təhsil", 2016.
2. Akademik İsa Həbibbəyli. Əlişir Nəvai – Ümumtürk ədəbiyyatında böyük zirvə. "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" beynəlxalq elmi konfransın materialları: Bakı, 16 noyabr, 2016. (Elmi redaktoru İsa Həbibbəyli, məsul redaktorları A.Ülvi, G.Aşurova). – Bakı, "Elm və təhsil", 2017.
3. Navoiy, Alişer. Tula asarlar tuplami, 10 jildlik, IX jild. Toşkent, Ğafur Ğulom nomidaqi naşriyet-matbaa ijodiy uyi, 2012, 768 bet. Б.
4. Navoiy, Alişer. Tula asarlar tuplami, 10 jildlik, X jild. Toşkent, Ğafur Ğulom nomidaqi naşriyet-matbaa ijodiy uyi, 2012, 692 bet. Б.
5. Nəvai, Əlişir. "Mühakimət ül-lüğəteyn". Azərbaycan türkcəsinə uyğunlaşdıran, ön söz və qeydlərin müəllifi, prof. Kamil Vəli Nərimanoğlu. Bakı, "Yurd", 1999.
6. Nəvai, Əlişir. Seçilmiş əsərləri ("Fərhad və Şirin" poeması). Bakı, "Öndər", 2004.
7. Ey Nəsimi, cahanı tutdu sözün... "Nəsimi 600" mövzusunda professor R.Azadənin xatirəsinə ithaf olunmuş III beynəlxalq elmi konfransın materialları. Bakı, "Elm", 2017.
8. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005.
9. Mir Cəlal: Füzuli sənətkarlığı (redaktoru ak.Həmid Araslı). Bakı, "Çaşıoğlu", 2018.
10. Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında (tərt.ed. A.Ülvi). Bakı, "Qartal", 2009.
11. Kişvəri. Türk divanı (Avtoqraf nüsxəsi). Tərtibat və müqəddimə: Məhəmmədəli Hüseyni; Mətni transfoneliterasiya edən və redaktoru: Paşa Kərimov. Bakı, "Nurlan", 2010. (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının qərarı ilə nəşr olunur).
12. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005. XX cilddə. III cild " (Bakı, Elm, 1984-cü il çapı əsasında təkrar nəşr)
13. Ülvi, A. Özbək ədəbiyyatı (ədəbi portret cizgiləri, araşdırmalar). Bakı, "Elm və təhsil", 2016.
14. Sultanov M. M.Füzuli və Nəvai divanının birgə əlyazması. Məhəmməd Füzuli. Elmi-tədqiqi məqalələr. Bakı, Azərnəşr, 1958.
15. Adilov M. "Nəvai və Füzulinin bir cild içərisində yazılmış "divan"ları haqqında". Adilov M. Azərbaycan paleoqrafiyası. Bakı, "Elm", 2009.
16. Nağıyeva C. Azərbaycanda Nəvai (monoqrafiya). Bakı, "Tural-Ə" Nəşriyyat Poliqrafiya Mərkəzi. 2001.
17. Ülvi A. "Nəvai və Füzulinin divanları bir cilddə" – Nəvai və Füzulinin divanları bir cilddə. Türkmənistan Elmlər Akademiyası Milli Əlyazmalar İnstitutunda "Əlyazmalar – milli irsin öyrənilməsi əsas mənbəyidir" adlı beynəlxalq elmi konfrans, Aşqabad, 13-14 mart, 2013 464 səh. (məqalə türkmən, rus və english dillərindədir)
18. Əlişir Nəvai. Hikmətli sözlər – Alisher Navoiy. Hikmatli so'zlar (Azərbaycan və özbək dillərində). Elmi redaktor: akademik İsa Həbibbəyli, tərcümə ed: Almaz Ülvi Binnətova (ön söz müəllifi), Yaşar Qasımbəyli, Akif Azalp. Bakı, 2020.

Алишер Навои и Азербайджан

Алмаз Ульви Биннатова
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: almazulvi1960@mail.ru

Резюме. Тема статьи «Алишир Навои и Азербайджан» сгруппирована по нескольким направлениям: «Влияние творчества Алишира Навои на азербайджанскую литературу», «Влияние азербайджанской литературы на творчество Алишира Навои», «Изучение наследия Алишира Навои в литературоведении», «Роль творчества Алишира Навои в сопоставительном изучении азербайджанского и узбекского языков и место его литературного наследия в истории исследования общетюркского литературного языка». Основным источником в систематизации этих направлений было обращение к произведениям самого Алишира Навои. Тема «Алишир Навои и Азербайджан» составляет золотую страницу в истории литературных связей двух братских народов и является единственным неисчерпаемым источником исследования литературного влияния и традиций, истории литературных личностей.
Ключевые слова: Алишир Наваи, азербайджанская литературоведения, литературное влияние, общетюркская история литературного языка

Əlişir Nəvai əlyazmaları AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında

Paşa Kərimov
Filologiya üzrə elmlər doktoru, Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: pasha_kerimov@list.ru
https://orcid.org/0000-0001-6813-9373

Annotasiya. Böyük özbək şairi Əlişir Nəvainin (1441-1501) Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafında müstəsna rolu olmuşdur. O, orta əsrlərdə Azərbaycan ədəbiyyatı ilə ən çox bağlı olan və Azərbaycan şairlərinin yaradıcılığına ən çox təsir etmiş Orta Asiya şairidir. Heç şübhəsiz, Nəvainin əsərlərinin orta əsrlərdə bir sıra türk xalqlarının nümayəndələri tərəfindən asanlıqla oxunub başa düşülməsi, əsərlərindəki humanizm ideyaları, dərin məna, yüksək sənətkarlıq onun yaradıcılığının geniş bir coğrafiyada – bütün Türküstandan başqa Azərbaycan, İran, Türkiyə və Hindistanda da yayılmasına səbəb olmuşdur. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Əlişir Nəvai əsərlərinin bir sıra dəyərli əlyazma nüsxələri mühafizə edilməkdədir. Bunların içində nəfis, bədii cəhətdən tərtib edilmiş, miniatür rəsmlər və ornamentlərlə bəzədilmiş əlyazmalar xüsusilə diqqəti cəlb edir. İnstitutda M-111/9010 şifri altında şairin divanının sağlığında, h.889-cu ildə (m./1484) köçürülmüş əlyazması vardır. Titul səhifəsindəki qeyddən məlum olur ki, əlyazmanın sahibi böyük özbək şairinin irsinə böyük hörmət və məhəbbətlə yanaşan naxçıvanlı Məhəmmədqulu ibn Həsən adlı bir şəxs olmuşdur. İnstitutda 107/2996 şifri altında saxlanan, Nəvainin "Məcalisün-nəfais" əsərinin nəfis və ən əski nüsxələrindən biri də maraq doğurur. Əlyazma ilk növbədə xəttatlıq və miniatür sənətinin tarixini öyrənmək baxımından diqqətəlayiqdir, onun Azərbaycanda aşkarlanması burada Nəvai sənətinə böyük ehtiramdan xəbər verir. Nüsxə h.965-ci ildə (m.1557) köçürülüb. Bu təzkirənin miniatürlü əlyazmasının tərtib edilməsi nadir hadisə hesab olunur. Nəvai əsərlərinin əlyazmaları məzmunca mükəmməl olduğu kimi, nəfisliyi, bədii tərtibatı baxımından da böyük maraq doğurur, Azərbaycanda şairin yaradıcılığına böyük məhəbbətlə yanaşıldığını göstərir.
Açar sözlər: Əlişir Nəvai, Azərbaycan, özbək, divan, əlyazma

http://dx.doi.org/10.29228/edu.136
Məqaləyə istinad: Kərimov P. (2020) *Əlişir Nəvai əlyazmaları AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondlarında*. «Müqayisəli ədəbiyyatşünaslıq», №1, səh. 68-72
Məqalə tarixçəsi: göndərilib − 01.05.2020; qəbul edilib − 06.05.2020

Manuscripts of Alishir Navai's works at the İnstitute of Manuscripts named after Mahammad Fuzuli of ANAS

Pasha Karimov
Doctor of Philology, Institute of Manuscripts
named after Muhammad Fuzuli. Azerbaijan.
E-mail: pasha_kerimov@list.ru
https://orcid.org/0000-0001-6813-9373

Abstract. The great Uzbek poet AlishirNavai (1441-1501) played an exceptional role in the development of Azerbaijani-Uzbek literary relations. He is a poet of Central Asia who is most closely connected with the literature of Azerbaijan in the Middle Ages and influenced the creativity of Azerbaijani poets. Nodoubt,easy reading and understanding by the representatives of a number of Turkic peoples in the Middle Ages, the ideas of humanism in Navai's works, the deep meaning and the high art have contributed to the spread of his creativity in a wide geography – not only in Turkestanbut also in Azerbaijan, Iran, Turkey and India. A number of valuable manuscripts of AlishirNavai's works are preserved at the Institute of Manuscripts named after MahammadFizuli of ANAS. Among them are the most elegant, artistic manuscript with decorations, miniature paintings and ornaments. The Institute has a manuscript of divan copied in hijri 889 (christianity 1484) under the m-111/9010 code, during the poet's lifetime. The caption on the title page shows that the owner of the manuscript was a man from Nakhchivan, Mahammadgulu bin Hasan, who treated the heritage of the great Uzbek poet with great respect and love. One of the finest and most original copies of the novel "Majalisun-nafais", kept under code 107/2996 at the Institute, is of great interest. The manuscript is, first of all, remarkable in the study of the history of calligraphy and miniature art, and its discovery in Azerbaijan is indicative of great respect for the Navai art. The compilation of the manusriptwith miniature for this tazkirah is a rare event. The manuscripts of Navai's novels are excellent in their content and are of great interest in their elegance and artistic design, and show a great love for the poet's creativity in Azerbaijan.
Keywords: Alishir Navai, Azerbaijan, Uzbek, divan, handwriting

http://dx.doi.org/10.29228/edu.136
To cite this article: Karimov P. (2020) *Manuscripts of Alishir Navai's works at the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS.* «Comparative Literary Studies», Issue I, pp. 68-72
Article history: received − 01.05.2020; accepted − 06.05.2020

Giriş / *Introduction*

Orta əsrlərdə Azərbaycan və özbək xalqları arasındakı əlaqələrin yaxınlığının əsas səbəbi onların eyni kökə, ənənəyə malik olmasında, Azərbaycan və özbək türkcəsinin vahid mənşəyində, iki xalqın ziyalıları arasındakı qırılmaz mənəvi bağlardadır. Böyük özbək şairi Əlişir Nəvainin (1441-1501) Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafında müstəsna rolu olmuşdur. O, orta əsrlərdə Azərbaycan ədəbiyyatı ilə ən çox bağlı olan və Azərbaycan şairlərinin yaradıcılığına ən çox təsir etmiş Orta Asiya şairidir.

Nizami Gəncəvi, İmadəddin Nəsimi, Əşrəf Marağayi, Qasim Ənvar kimi Azərbaycan şairlərinin əsərlərindən bəhrələnən, onların ədəbi irsinə böyük hörmət və məhəbbətlə yanaşan Nəvai bir sıra Azərbaycan şairlərinin-Kişvəri, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Rəhməti Təbrizi, Sadiq bəy Əfşar, Məhəmməd Əmani, Mürtəzaqulu xan Zəfər, Saib Təbrizi, Qövsi Təbrizi və başqalarının yaradıcılığına təsir etmişdir. Heç şübhəsiz, Nəvai əsərlərinin orta əsrlərdə bir sıra türk xalqlarının nümayəndələri tərəfindən asanlıqla oxunub başa düşülməsi, əsərlərindəki humanizm ideyaları, dərin məna, yüksək sənətkarlıq onun yaradıcılığının geniş coğrafiyada – bütün Türküstandan başqa Azərbaycan, İran, Türkiyə və Hindistanda da yayılmasına səbəb olmuşdur.

Əsas hissə / *Main Part*

Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunda Əlişir Nəvainin bir sıra çox dəyərli, tədqiqatçılar tərəfindən şairin ədəbi irsinin araşdırılmasında istifadə edilən əlyazmaları saxlanmaqdadır. Görkəmli nəvaişünas alim, professor Cənnət Nağıyevanın verdiyi məlumata görə, burada şairin müxtəlif redaksiyalarda tərtib edilmiş 37 tam əlyazma divanı mühafizə edilməkdədir [1, s.45].

İnstitutda M-274 şifri altında saxlanan əlyazma Azərbaycan-özbək ədəbi əlaqələrinin öyrənilməsi baxımından böyük maraq kəsb edir. Əsər Mərv şəhərində qırmızı, qara tuşla, incə nəstəliq xətti ilə Dövlətşah bin Hüseyn Sərəsxi tərəfindən köçürülmüşdür. Yarımbaşlıqlar qırmızı və qara mürəkkəblə yazılıb. Burada əvvəlcə, h.1054-cü ildə (m.1644) böyük Azərbaycan şairi Məhəmməd Füzulinin türk divanını köçürmüşdür [2, v.257 b-332a]. Sonradan h.1055-ci ildə (m.1645) Nəvainin şeirləri köçürülmüş, tərtibçi zaman ardıcıllığına riayət etmiş, böyük özbək şairinin şeirlər toplusunu əvvələ salmışdır [2, v.11 b-252b].

XVI əsrdə Nəvai və Füzulinin şeirlərinin bir əlyazma kitabında toplanaraq tərtib edilməsi, əlbəttə ki, təsadüfi olmamışdır. Əlyazmanın katibi və tərtibçisi, dövrün ədəbiyyat həvəskarları, ziyalıları, ədəbi ictimaiyyəti Füzuli sənətinin Nəvai yaradıcılığı ilə bağlı olduğunu, Nəvainin Azərbaycan ədəbiyyatına, Füzulinin özbək ədəbiyyatına güclü təsirini bilmişdir. Elə bu səbəbdən də iki qardaş xalqın ədəbi əlaqələrini belə parlaq surətdə əks etdirən möhtəşəm əlyazma kitabı meydana çıxmışdır.

Əlyazmalar İnstitutunda M-114/3010 şifri altında saxlanan, Nəvainin sağlığında, h.889-cu ildə (1484) köçürülmüş divanının titul vərəqindəki qeyddən məlum olur ki, bu nüsxə dahi şairin yaradıcılığına məhəbbət bəsləyən naxçıvanlı Məhəmmədqulu ibn Həsən adlı bir şəxsə məxsus olmuşdur. İncə ornamentli bu əlyazma, nəfis tərtibatı ilə seçilir. Şairin "Məcalisün–nəfais" əsərinin Əlyazmalar İnstitutunda M-107-2996 şifri altında saxlanan əlyazması xəttatlıq və miniatür sənətinin öyrənilməsi baxımından böyük maraq kəsb edir. Bu nəfis, əski əlyazmanın Azərbaycanda aşkar edilməsi ölkəmizdə Nəvaiyə olan böyük ehtiramın əlamətidir. H.965-ci ildə (m.1557) köçürülmüş bu əlyazma əsərin ən qədim nüsxələrindəndir [3]. Təzkirə əsərinin belə miniatürlü əlyazmasına hələ təsadüf edilməmişdir.

Tədqiqatçılar göstərirlər ki, şairin əsərlərinin Bakı əlyazmaları yalnız köçürülmə tarixinə və bədii tərtibatına görə deyil, eyni zamanda mətni əhatə etməsi, məzmun mükəmməlliyinə görə də seçilir [4, s.30].

Ə.Nəvainin "Xəzainül-məani" divanlar toplusunun professor Həmid Süleyman tərəfindən tərtib edilən mətnində bunu görə bilərik. Buraya daxil olan "Bədayeül-nihayə"nin mətnində Daşkənd nüsxəsindən 657, London nüsxəsindən 571, Paris nüsxəsindən 731, Bakı nüsxəsindən (şifri: M-301) 745 qəzəl istifadə edilmişdir.

Nəvainin az tapılan divanlarından olan "Nəvadirün-nihayə"nin h.1042-ci ildə (M-1632) Yusif ibn Molla Məhəmməd tərəfindən köçürülmüş əlyazması da Əlyazmalar İnstitutunda saxlanmaqdadır. Əsər haqqında danışdığımız "Bədayeül-bidayə" ilə bir kitab halında cildlənmişdir. Bu kitab da Azərbaycanda Nəvaiyə qarşı diqqət və məhəbbətin təzahürlərindən biridir. Əlyazmanın üzərində

onun Nəvai pərəstişkarı şair Mirzə Xəlilə məxsus olması haqqında hicri 1304-cü ilə (m.1886) aid qeyd vardır.

Araşdırmalar göstərir ki, XIX əsrdə Azərbaycan ziyalıları arasında Nəvai yaradıcılığına maraq daha da artmışdı. Bu dövrün ziyalılarının şəxsi kolleksiyalarında böyük özbək şairinin müxtəlif əsərlərinin dəyərli əlyazmaları olmuşdur. Nəvai divanının h.1052-ci ildə (m.1642) köçürülmüş əlyazmasının üzərində onun h.1237-ci ildə (m.1821) Mirzə Adıgözəl bəyə məxsus olması barədə qeyd vardır. Şairin divanının 1106-cı ildə (m.1694) köçürülmüş bəzəkli və miniatürlü əlyazması, həmçinin onun "Lisanüt-teyr" əsərinin h.944-cü ildə (m.1537) Məhəmməd ibn Əbdüllətif Hüseyni əl-Amidi tərəfindən köçürülmüş əlyazması görkəmli ədib Abbasqulu ağa Bakıxanovun kitabxanasında olmuşdur. Əldə olan məlumata görə, Nəvainin "Leyli və Məcnun" poemasının, bir sıra digər əsərlərinin də əlyazmaları A.Bakıxanovun şəxsi kitabları arasında olmuşdur [4, s.31].

Nəvainin dörd divanından seçilmiş şeirlər toplusunun Əlyazmalar İnstitutunda saxlanan bir əlyazmasının üzərində onun XIX əsrdə yaşamış məşhur ədib Həsən Əlqədariyə məxsus olması barədə qeyd vardır [5].

Digər bir divan əlyazmasının üzərində onun sahibinin məşhur pedaqoq Məhəmmədtağı Sidqi olması barədə qeyd vardır. Divanın h.1286-cı il (m.1869) tarixli nüsxəsinə Növrəs, Kəminə və s. şairlərin Azərbaycan və fars dillərində qəzəlləri daxil edilmişdir. Divanın B-29 şifrli əlyazmasına Qarabağ şairlərindən Məşədi Məhəmməd Bülbülün şeirlərinin əlavə edildiyini görürük.

Nəvai divanının mükəmməl nüsxələri Hacı Məhəmməd və Hacı Hüseyn Naxçıvani qardaşlarının kolleksiyasına daxil olmuşdur. Bu əlyazmalar hazırda qardaşların bütün şəxsi kitabları ilə bərabər, Təbriz Mərkəzi Kitabxanasında saxlanmaqdadır. Bunların içində Nəvai divanı, şairin dörd divanından toplanmış, 385 qəzəldən ibarət şeirlər toplusu diqqəti cəlb edir. Bu topluya yazılmış geniş müqəddimə böyük maraq doğurur.

Nəticə / *Conclusion*

Əlyazmalar İnstitutunda saxlanan cüng və məcmuələrin çoxuna Əlişir Nəvainin şeirlərinin daxil edildiyini görürük ki, bu da Azərbaycan ziyalılarının, oxucularının böyük özbək şairinin şəxsiyyətinə yaradıcılığına məhəbbətin göstəricisidir.

Ədəbiyyat / *References*

1. Nagiyeva Dj. Bakinskiye rukopisi Alishera Navoi. Baku, «Elm», 1986.
2. Nəvai Əlişir. Füzuli Məhəmməd. Divan. Əlyazma. ƏYİ. Şifri M-274
3. Nəvai Əlişir. Məcalisün-nəfais. Əlyazma. Şifri: M-107/2996.
4. Nağıyeva Cənnət. Azərbaycanda Nəvai. Bakı: "Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001.
5. Nəvai Əlişir. Divan. Əlyazma. ƏYİ. Şifri: M-84.

Рукописи произведений Алишера Навои в фондах Института Рукописей имени Мухаммеда Физули НАНА

Паша Каримов
Доктор филологических наук, Институт рукописей имени Мухаммеда Физули. Азербайджан.
E-mail: pasha_kerimov@list.ru

Резюме. Великий узбекский поэт Алишер Навои (1441-1501) сыграл исключительную роль в развитии азербайджанско-узбекских литературных связей. Он в средние века больше всех других поэтов был связан с азербайджанской литературой и больше всех повлиял на творчество азербайджанских поэтов. Нет сомнений в том, что лёгкость в прочтении произведений Навои представителями ряда тюркских народов, гуманистические идеи в его произведениях стали причиной широкого распространения литературного наследия поэта. Кроме всего Туркестана его стихи читали и любили в Азербайджане, Иране, Турции и Индии. В Институте рукописей имени Мухаммеда Физули НАН Азербайджана хранятся ряд очень ценных рукописей Алишера Навои. Среди них привлекает внимание художественно оформленные списки, где немало миниатюр и орнаментов. Под шифром М-111/9010 хранится рукопись дивана поэта, которая была переписана в 1484 году, когда ещё поэт был жив. Из заметки на титульном листе становится известно, что владетелем книги был большой поклонник творчества Навои, житель Нахчывана Мухаммедгулу ибн Хасан. Привлекает внимание художественно оформленная рукопись тазкире «Маджалисун-нафис» поэта, хранящаяся под шифром М-107/2996, которая была переписана в 1557 году. Эта рукопись привлекает внимание и с точки зрения изучения истории каллиграфии и оформления книг. Обнаружение этого списка в Азербайджане говорит о большом уважении и любви к творчеству поэта. Оформление тазкире миниатюрами довольно редкий случай в истории восточных рукописей. Рукописи Навои, хранящиеся в Институте рукописей имени Мухаммеда Физули НАН Азербайджана отличаются достоверностью и высокохудожественной оформленностью, что является показателем большого уважения и любви к личности и творчеству Алишера Навои.
Ключевые слова: Алишер Навои, Азербайджан, узбек, диван, рукопись

Sələflər və xələflər: Nəvai və Füzuli

Ataəmi Mirzəyev
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ataemi@rambler.ru
https://orcid.org/0000-0002-6136-2908

Annotasiya. Məqalədə Azərbaycan-özbək ədəbi əlaqələri tarixinə Əlişir Nəvai yaradıcılığı fonunda nəzər yetirilir. Qeyd edilir ki, hər bir sənətkarın yaradıcılığı sələf-xələflik münasibətləri fonunda araşdırılmalıdır. Çünki sənətkarın qiyməti onun əsərləri ilə sonra yaranan ədəbiyyatın inkişafına göstərdiyi təsirlə ölçülür. Nəvainin bir sənətkar kimi yetişməsində Azərbaycan ədəbiyyatının böyük rolu olmuşdur. O, Nizaminin "Xəmsə"sinə cığatay türkcəsində tam cavab yazan bir sənətkar kimi ədəbiyyat tarixində yer tutur. Nəvai Azərbaycan ədəbiyyatından bəhrələndiyi kimi, sonrakı dövrdə Azərbaycan ədəbiyyatında Nəvai təsiri də güclü olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan-özbək ədəbi əlaqələri tarixində Nəvai yaradıcılığı xüsusi mərhələ təşkil edir. Bir sıra sənətkarlar kimi, Füzuli yaradıcılığında da Nəvai təsiri güclüdür və bu təsir müxtəlif baxımlarda təzahür edir. Hər iki sənətkar arasındakı sələf-xələflik münasibətləri həm lirik, həm də epik sahədə müşahidə olunur. Füzuli bir sıra lirik şeirlərini Nəvai qəzəllərindən təsirlənərək ona cavab və nəzirə kimi yazmışdır. Eləcə də hər iki şairin "Leyli və Məcnun" poeması arasında da uyğunluqlar özünü göstərir ki, bu da onlar arasındakı sələf-xələflik münasibətlərini şərtləndirir. Məqalədə konkret nümunələr əsasında Nəvai və Füzuli yaradıcılığı arasındakı bağlılıq özünün təsdiqini tapır. Nəticə olaraq göstərilir ki, Azərbaycan-özbək ədəbi əlaqələri təkcə Füzuli yaradıcılığının özbək ədəbiyyatına təsiri ilə məhdudlaşmamalıdır. Nəvai yaradıcılığının Azərbaycan, o cümlədən Füzuli irsinə təsiri xüsusi öyrənilməli, hər iki sənətkarın yaradıcılığında nəzərəçarpan sələf-xələflik münasibətləri tədqiqat obyektinə çevrilmə-lidir.

Açar sözlər: Nəvai, Füzuli, "Xəmsə", "Divan", sələf, xələf

http://dx.doi.org/10.29228/edu.145
Məqaləyə istinad: Mirzəyev A. (2020) *Sələflər və xələflər: Nəvai və Füzuli.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 73-79
Məqalə tarixçəsi: göndərilib – 04.05.2020; qəbul edilib – 14.05.2020

Predecessors and followers: Navai and Fuzuli

Ataemi Mirzayev
Doctor of Philological Sciences, Institute of Literature
named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: ataemi@rambler.ru
https://orcid.org/0000-0002-6136-2908

Abstract. The article involves in Azerbaijan-Uzbek literary relations in the context of the creativity of Alishir Navai. It is noted that the creativity of each master should be

researched in the background of predecessor-follower relations. Because value of the master is measured by his influence on the development of literature created after him. The Azerbaijani literature has a great role in growing Navai as a master. It is known Navai also occupies a place as a master who wrote an equivalent of "Khamsa" by Nizami in in Chagatai turkish. As Navai benefited from the Azerbaijani literature, Navai's influence in Azerbaijani literature was strong in the following period. It is not accidental Navai's creativity is a special stage in the history of Azerbaijan-Uzbek literary relations. As some masters, Navai's influence is also strong in Fuzuli's creativity and Navai's influence appears in Fuzuli's creativity in different ways. The relations of predecessor-follower between both of them are observed both in lyrical and epic branch. Fuzuli had written his some lyrical poems as an imitative poem under the influence of Navai's ghazals. At the same time, there are similarities between the poem "Leyli and Majnun" by both poets that it points predecessor-follower relations between them. The article proves the affinity between Navai and Fuzuli's creativity on the basis of concrete examples. As a result it is showed that the Azerbaijan-Uzbek literary relations don't limit with the influence of Fuzuli's creativity on the Uzbek literature. It should be studied the influence of Navai to Azerbaijan, as well as on Fuzuli's heritage, and predecessor-follower relations in both poets' creative work should become an object of research.
Keywords: Navai, Fuzuli, "Khamsa", "Divan", predecessor, follower

http://dx.doi.org/10.29228/edu.145
To cite this article: Mirzayev A. (2020) *Predecessors and followers: Navai and Fuzuli.* «Comparative Literature Studies», Issue I, pp. 73-79
Article history: received – 04.05.2020; accepted – 14.05.2020

Giriş / *Introduction*

Tarixdə elə ədəbi şəxsiyyətlər vardır ki, mənsub olduğu xalqın ədəbiyyatını onsuz təsəvvür etmək mümkün deyil. Onun yaradıcılığı bütövlükdə böyük bir xalqın ədəbiyyatını təmsil edir; onsuz ədəbiyyatın forma, məzmun, mövzu və mündəricə zənginliyini, inkişaf meyillərini və təkamül tarixini bütün yönləri ilə öyrənmək imkan xaricindədir. Türk dünyasının iki ədəbi şəxsiyyəti – Əlişir Nəvai (1441-1501) və Məhəmməd Füzulinin (1494-1556) yaradıcılığı bu deyilənləri özündə tam şəkildə təcəssüm etdirir.

Məlumdur ki, hər bir sənətkarın böyüklük dərəcəsini müəyyən edən ən mühüm amillərdən biri onun özündən sonrakı ədəbiyyata təsiridir. Hər hansı bir ustad sənətkarın qiyməti onun özündən sonra yaranan ədəbiyyatın inkişafına göstərdiyi təsirlə ölçülür. Əsl sənətkar öz yaradıcılığı ilə ədəbiyyata elə bir ruh, elə bir istiqamət gətirir ki, bu, yaranmaqda olan ədəbiyyatın inkişafını yeni bir məcraya yönəldir, bir növ onun sonrakı inkişaf meyillərini müəyyənləşdirmiş olur. Nəvai və Füzuli məhz belə ədəbi şəxsiyyətlərdəndir. Özbək dili və ədəbiyyatı tarixində Əlişir Nəvainin yeri necə müəyyənləşirsə, Azərbaycan dili və ədəbiyyatı tarixində də Füzulinin mövqeyi o dərəcədədir.

Bəllidir ki, hər hansı bir sənətkarın ədəbi irsi onun yaradıcılığında sələf-xələflik münasibətlərinin öyrənilməsi kontekstində daha dəqiq qiymətini almış olur. Əks təqdirdə, şairin həqiqi dəyəri verilə bilməz. O da qeyd olunmalıdır ki, həm Nəvai, həm də Füzuli irsi indiyə qədər bu aspektdə gərəyincə araşdırılmamışdır. Doğrudur, bu məsələyə həm Azərbaycan, həm də özbək alimləri tərəfindən bir sıra tədqiqatlar həsr edilmişdir. Ancaq həmin araşdırmalarda daha çox Füzuli yaradıcılığının özbək ədəbiyyatına təsiri məsələsi diqqət mərkəzində olmuşdur. Füzuli yaradıcılığında Nəvai təsirinə o qədər

də diqqət yetirilmədiyi üçün problemin qoyuluşu və həlli baxımından fundamental araşdırmalara ehtiyac böyükdür.

Əsas hissə / *Main part*

Azərbaycan-özbək ədəbi əlaqələrinin genişlənməsində Nizami "Xəmsə"sinın rolu danılmazdır. Əlişir Nəvainin Nizami "Xəmsə"sinə cavab olaraq cığatay türkcəsində ilk dəfə "Xəmsə" yazması böyük ədəbi hadisə sayılır. Təsadüfi deyil ki, akademik Həmid Araslı bu barədə yazırdı: "Nəvai Azərbaycan ədəbiyyatı ilə ən çox ölməz "Xəmsə"si ilə bağlıdır" [1, s.661].

Azərbaycan-özbək ədəbi əlaqələri təkcə Nizami ilə bitmir. XV əsrin sonlarından artıq Nəvainin timsalında özbək poeziyasının Azərbaycan ədəbiyyatına göstərdiyi təsir özünü qabarıq göstərir. Bu baxımdan bir sıra sənətkarlar kimi, Füzuli yaradıcılığında da Nəvai şeirinin təsiri xüsusi çəkiyə malikdir. Azərbaycan-özbək ədəbi əlaqələri tarixində Nəvai–Füzuli yaradıcılığı yeni bir mərhələ təşkil edir. Təsadüfi deyil ki, Füzulinin müasiri olan Lətifi 1546-cı ildə tamamladığı təzkirəsində şair haqqında bunları yazır: "Nəvai tərzinə yaxın cazibəli bir tərzi və qəribə bir üslubu vardır" [2, s.180]. Eləcə də yenə Füzulinin müasiri Əhdi Bağdadinin 1563-cü ildə bitirdiyi "Gülşəni-şüəra" təzkirəsinin Füzuli haqqında olan hissəsində oxuyuruq: "...Göftari-Nəvai-ayini türkani-moğol yanında məzkur..." [3, s.241].

Füzuli yaradıcılığında Nəvai təsiri özünü müxtəlif baxımlardan göstərir. Nəzərə çarpan sələf-xələflik münasibətləri hər iki sənətkarın lirikasında özünü daha qabarıq göstərir. Təsadüfi deyil ki, Füzulinin türkcə divanının tənqidi mətnini hazırlamış türk alimi Əbdülbaqi Gölpınarlı yazırdı: "Füzuliyə təsir edən türk şairlərinin başında Nəvai gəlir" [4, s.XLIII]. Alim bu qeydindən sonra Füzulinin lirik şeirlər divanından qafiyə, rədif, vəzn və ahəng baxımından Nəvai irsi ilə səsləşən bir sıra beytlər təqdim edir. Həmin nümunələrə formal baxımdan yanaşan müəllif sadəcə faktları verir, onlarda ifadə olunan fikir, məna tutumu, ifadə tərzi, qoyulan məsələyə münasibət, onun həlli yönünə heç bir münasibət bildirmir. Şübhəsiz ki, alimin təqdim etdiyi beytlər hər iki şairin lirik şeirlər divanı arasındakı bağlılığın əyani göstəricisidir və həmin beytlərin sayını kifayət qədər artırmaq da mümkündür. Verilən nümunələrin təhlili, ifadə olunan fikir və məna tutumunun müqayisəsi onlar arasındakı bağlılığı daha aydın üzə çıxarır. Örnək olaraq aşağıdakı beyti nəzərdən keçirək. Nəvaidə:

Xurram oldi boğu bir quldin ichimda qam xanuz,
Kuldi xar yön ğonchavu kunqlum ishi motam xanuz [5, s.227].

Füzulidə:

Aləm oldu şad səndən, mən əsiri-qəm hənuz,
Aləm etdi tərki-qəm, məndə qəmi-aləm hənuz [6, s.143].

Nəvaidə beytin məzmunu belədir: bağ və yer üzü güldən şad oldusa, içimdə (canımda) hələ qəm var. Hər yer güldü, amma könlümün işi hələ matəmdir. Füzulidə isə həmin beytin nəsr variantı belədir: Aləm səndən (səninlə, sənin lütfünlə) şad oldu, mən (isə) hələ də qəm əsiriyəm. Aləm qəmi tərk etdi, məndə (isə) aləmin qəmi vardır.

Göründüyü kimi, hər iki beytdə ifadə olunan fikir bədii təzadlar üzərində qurulmuşdur. Bu təzadlar Nəvaidə təbiətlə aşiqin içindəki qəm, kədər arasında yaradılır. Hər yer gül-çiçəkdən gülsə də, aşiqin könlü matəm içindədir. Burada aşiqin qəm dəryasına batmasının səbəbi verilməmişdir, sadəcə gül fəslinin – təbiətin təsviri ilə qəm içində olan aşiqin vəziyyəti qarşılaşdırılmışdır. Füzulinin beytində isə Nəvaidə qoyulan məsələ bir növ inkişafda verilir. Burada lirik qəhrəmanın qəm dəryasına batmasının səbəbi göstərilir. Beytin anlamına görə, bütün aləmi sevindirən gözəl, aşiqə biganə olduğu üçün aşiq hələ də qəm əsiridir. Eləcə də bütün aləm sevgilisinin lütfü ilə qəmi tərk

etdiyi halda, aşiqdə bütün aləmin qəmi vardır. Yəni iztirab içində olan aşiq sevgilisindən vüsal istəsə də, hicran görür; bu səbəbdən sevgilisinin lütfü ilə aləmin tərk etdiyi qəm sevincdən məhrum olan aşiqin ürəyinə dolmuşdur.

Beləliklə, müqayisə göstərir ki, hər iki beyt arasında nəzərəçarpan bağlılıq təkcə formal xarakter daşımır, məzmun baxımından da müşahidə edilir. Füzuli divanından təqdim olunan bu nümunə də həm məzmun, həm də poetik cəhətdən Nəvai şeirindən seçilir və təqlid deyil, orijinal səciyyə daşıyır.

Nəvainin Nizami təsiri ilə yazdığı "Xəmsə"yə daxil olan əsərləri ilə tanışlıq göstərir ki, o, təqlid yolu ilə getməmiş, yeni bir formatda, yeni bir quruluşda, yeni bir məzmun və keyfiyyətdə orijinal sənət örnəkləri yaratmışdır. Həm lirik, həm də epik yaradıcılığında Nəvai yolu ilə gedən Füzuli də sənətə bu tələblə yanaşmış, özünəməxsus xüsusiyyətləri ilə seçilən əsərlər qələmə almışdır. Bu baxımdan şairin "Leyli və Məcnun" məsnəvisi diqqəti çəkir. Belə bir mövzuya girişməyin məsuliyyətini yaxşı dərk edən Füzuli özündən əvvəl "Leyli və Məcnun" yazan sənətkarları hörmətlə xatırlayır:

Şad etmiş idi Əbunüvası
Haruni-xəlifənin ətası.
Bulmuşdu səfayi-dil Nizami,
Şirvanşəhə düşüb girami.
Olmuşdu Nəvaiyi-süxəndan
Mənzuri-şəhənşəhi-Xorasan [7, s.30].

Nəvai "Leyli və Məcnun" mövzusuna müraciətinin səbəbini belə izah edir:

Chun forsi erdi nukta shavqi,
Ozraq edi anda turk zavqi.
Ul til bila nazm bo'ldı malfuz –
Kim, fors anglar o'ldi mahzuz.
Men turkcha boşlabon rivayat,
Qildim bu fasonani hikoyat –
Kim, shuhrati chun jahong'a to'lg'ay,
Turk eliga dog'i bahra bo'lg'ay.
Nevchunki, bukun johanda atrok.
Ko'ptur xushtab'-u sofi idrok [8, s.292-293].

Nəvaidən təxminən 53 il sonra "Leyli və Məcnun" məsnəvisini qələmə alan Füzuli də əsərin yazılma səbəbini belə əsaslandırır:

Mən xəstəyi etdilər nişanə
Bir rəng ilə tiri-imtəhanə.
"Lütf eylə! - dedilər, - ey süxənsənc!
Faş eylə cəhanə bir nihan gənc!
Leyli-Məcnun əcəmdə çoxdur,
Ətrakdə ol fəsanə yoxdur.
Təqrirə gətir bu dastanı,
Qıl tazə bu əski bustanı" [7, s.40].

Göründüyü kimi, hər iki sənətkarın "Leyli və Məcnun" mövzusuna müraciəti, demək olar ki, eyni məqsədə xidmət edir. Mövzunun türklər içərisində də yayılması, türklərin də ondan zövq alması

hər iki əsərin yazılmasında əsas məqsəd olmuşdur. Çünki bundan əvvəl yaranan əsərlər fars dilində yazıldığından türklər bu mövzunun zövqündən kənarda qalırdı.

Eyni vəziyyəti Nəvainin "Nəsayimül-məhəbbə min şəmayimil-fütüvvə", "Ərbəin", "Nəzmül-cəvahir" və digər əsərlərinin yazılma səbəbini izah edərkən də görürük. Şair mənsub olduğu xalqın fars dilində yazılmış əsərlərin faydasından kənarda qalmasını istəmədiyini bildirir və bu məqsədlə yeni bir əsər qələmə alırdı. Şairin "Ərbəin" əsərinə yazdığı müqəddiməyə diqqət edək:

Forsiydonlar aylabon idrok,
Oriy erdi bu naf`din atrok.
İstadimki, bu xalq ham bori
Bo'lmag'aylar bu naf'din oriy [9, s.43].

Füzuli də "Hədisi-ərbəin" tərcüməsinin müqəddiməsində əsərin yazılma səbəbini belə izah edir: "ümumfeyz üçün tərcümeyi-türki olunur" [9, s.46]. Eyni vəziyyəti şairin "Hədiqətüs-süəda" əsərinin yazılma səbəbi hissəsində də görürük.

Göründüyü kimi, hər iki sənətkarın məqsəd və niyyəti göz qabağındadır. Həm Nəvai, həm də Füzulinin eyni mövzuya müraciətetmə səbəbi Peyğəmbər kəlamlarına olan hörmət və ehtiram, onların əxlaqi-tərbiyəvi əhəmiyyəti və xalq arasında belə mövzulara olan tələbatın çoxluğu ilə bağlı idi.

Belə ki, hər iki sənətkarın "Leyli və Məcnun" poeması sələf-xələflik münasibətlərinin öyrənilməsi baxımından diqqəti cəlb edir. Füzulinin "Leyli və Məcnun" poemasını yazarkən, Nəvainin adını çəkməsi onun Nəvainin "Leyli və Məcnun"undan xəbərdar olduğunun əyani sübutudur. Eləcə də hər iki əsər arasında da müəyyən oxşar paralellər özünü göstərir ki, bunun da xüsusi tədqiqata ehtiyacı vardır. Hər iki məsnəvinin yazılma səbəbi eynidir; süjet və kompozisiya baxımından da onlar arasında uyğunluqlar çoxdur. Nəvainin əsərində hər bölmənin başlığının nəsrlə adlandırılması Füzulinin "Leyli və Məcnun"unda özünü daha yeni bir formatda göstərir. Belə ki, əgər Nəvaidə həmin başlıqlar adi nəsr cümləsi ilə verilirsə, Füzulidə bir-biri ilə qafiyələnən cümlələr şəklindədir. Nəvaidə: *Xazon yeli bog' zeboları hayoti sham'in o'churganda Layli hayoti bahorining gullarini ajal xazoni tundbodi ko'kka sovurub Macnunnung dog'i bulbuli ruhi badan qafasin gulbun uzra tashlab, ul havolang'on gul bargi so'ngincha havo tutqoni"* [8, s.259]. Füzulidə: *"Bu, Leylinin bahari-ömri xəzana irdigidir"* [7, s.208] və ya *"Bu, Leylinin anasına vəsiyyət etdigidir və dust yadi ilə dünyadan getdigidir"* [7, s.210].

Füzulinin "Leyli və Məcnun" məsnəvisinə qədər anadilli epik şeir nümunələrində fəsil başlıqları, adətən, fars dilində adlandırılırdı. "Dastani-Əhməd Hərami"də, "Yusif və Züleyxa"larda (Mustafa Zərir və Suli Fəqih), "Vərqa və Gülşah"da (Yusif Məddah), "Dəhnamə"də (Xətayi), eləcə də Füzulinin "Bəngü Badə" məsnəvisində eyni vəziyyət müşahidə edilir. Lakin Füzulinin "Leyli və Məcnun"unda artıq yeni bir forma özünü göstərir, yəni fəsil başlıqları ana dilində qafiyəli nəsr cümlələri şəklində verilir ki, bu da sonralar epik şeirdə (Məsihinin "Vərqa və Gülşa" məsnəvisində) bir növ ənənəyə çevrilmiş olur. Şübhəsiz ki, epik şeirdə fəsil başlıqlarının nəsr şəklində verilməsi Füzulinin "Leyli və Məcnun"u üzərində Nəvai təsirinin göstəricisi hesab edilməlidir.

Eləcə də Füzulinin "Leyli və Məcnun"unda anasının Leyliyə nəsihəti, anasının Məcnuna nəsihəti hissələri ilə Nəvainin əsərində yer alan nəsihətlər (atasının Məcnuna nəsihəti və s.) arasında da səsləşmələr çoxdur. Hər iki əsər arasındakı uyğunluqlar bir-biri ilə səsləşən misra və beytlərdə də müşahidə olunur ki, bunlar da xüsusi bir tədqiqatın mövzusudur.

Nəticə / *Conclusion*

Beləliklə, bütün bunlar göstərir ki, Azərbaycan-özbək ədəbi əlaqələrinin yaranması və inkişafında Nəvai yaradıcılığının xüsusi yeri vardır. Belə ki, XV yüzillikdən etibarən Azərbaycan ədəbiyyatında Nəvai ənənəsindən yaradıcı şəkildə istifadə olunmuş, sonrakı dövrlərdə də davam etmişdir. Yaradıcılığında Nəvai sənətinə böyük ehtiram göstərən Füzuli irsi bu günə kimi Azərbaycan və özbək alimləri tərəfindən başqa bir aspektdə araşdırılmışdır. Yəni daha çox Füzuli şeirinin özbək ədəbiyyatına göstərdiyi təsir əsas tədqiqat mövzusuna çevrilmişdir. Lakin hər iki şairin irsi ilə tanışlıq göstərir ki, Nəvai və Füzuli yaradıcılığı sələf-xələflik münasibətlərinin öyrənilməsi baxımından da xüsusi tədqiq olunmalı, bəhrələnmənin yeri və dərəcəsi müəyyənləşdirilməlidir. Füzuli yaradıcılığı ilə Nəvai sənəti arasındakı sələf-xələflik münasibətlərinin yeni təfəkkür işığında bütün yönləri ilə araşdırılması ədəbiyyatşünaslığımızın qarşıdında duran vəzifələrdəndir.

Ədəbiyyat / *References*

1. H.Araslı. Nəvai və Azərbaycan ədəbiyyatı. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, “Gənclik”, 1998.
2. Latifi Tezkiresi. Yayına hazırlayan: Dr.Mustafa İsen. Ankara, “Akçağ” yayınları, 1999.
3. Gülşen-i Şu’ara (Bağdatlı Ahdi). Yayına hazırlayan: Süleyman Solmaz. Denizli, 2009.
4. Fuzuli Divanı. Hazırlayan: Abdulbaki Gölpınarlı. Beşinci baskı. İstanbul: İnkilap Kitabevi, 2005, I-CXLI x.
5. Navoiy Alisher. Xazoyin ul-maoniy. Birinchi devon. Faroyib us-siğar. Toshkent, “Tamaddin”, 2011.
6. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə, I cild. Bakı, “Şərq-Qərb”, 2005.
7. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə, İİ cild. Bakı, “Şərq-Qərb”, 2005.
8. Navoiy, Alisher. Leyli va Majnun: dostan. Toshkent: G‘afur G‘ulom nomidagi nashriyot-matbaa ijodiy uyi, 2020.
9. A.Mirzəyev. Cami, Nəvai və Füzuli yaradıcılığında “40 hədis”. Bakı, “Sabah”, 1997.

Предшественники и преемники: Навои и Физули

Атаеми Мирзаев
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви. Азербайджан
E-mail: ataemi@rambler.ru

Резюме. В статье рассматривается история азербайджанско-узбекских литературных связей на основе творчества Алишира Навои. Отмечается, что творчество какого-либо поэта требует исследования на фоне преемственности предыдущих и последующих поколений. Потому что ценность творца измеряется влиянием его произведений на развитие созданной после него литературы. В творческом становлении А.Навои большая роль принадлежит азербайджанской литературе. Он занимает важное место в истории литературы как художник, написавший полное произведение на тюркском чагатайском в ответ на «Хамсэ» Низами. Как Навои опирался на азербайджанский язык, так в последующие периоды в азербайджанской литературе явно сильно влияние Навои. Не удивительно, что в истории азербайджанско-узбекских литературных связей творчество Навои составляет особый период. Как на целый ряд поэтов, Навои сильно повлиял на творчество Физули и это влияние рассматривается с различных точек зрения. Отношения предшественников и преемников прослеживаются как в

области лирической, так и эпической. Вдохновляясь газалями Навои, Физули написал в ответ ряд лирических стихов – назире. И в поэмах «Лейли и Меджнун» обоих авторов можно заметить сходство, что обусловлено отношениями предшественника и преемника. В статье на материале конкретных образцов творчества находит подтверждение связь Навои и Физули. В заключение отмечено, что азербайджанско-узбекские литературные связи не должны ограничиваться лишь влиянием творчества Физули на узбекскую литературу, а необходимо изучить влияние творчества Навои на азербайджанскую литературу, в том числе на наследие Физули, стать предметом исследования отношения предшественников и преемников, примечательные в творчестве обоих художников слова.
Ключевые слова: Навои, Физули, «Хамсэ», Диван, предшественник, преемник

Əlişir Nəvai yaradıcılığında Nizami Gəncəvi şəxsiyyətinə baxış

Zəhra Allahverdiyeva
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: zahra.allahverdiyeva@mail.ru
https://orcid.org/0000-0002-8697-0395

Annotasiya. Yaxın və Orta Şərqdə epik poeziyanın XII əsrdən sonrakı inkişafında Nizami Gəncəvi "Xəmsə"sindən alınmış mövzu və ideya, süjet, obraz və simvollar xüsusi rol oynamışdır. Şərqdə türk-islam mədəniyyətinin parlaq nümunəsi olan Nizami Gəncəvi əsərləri – "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" kimi mükəmməl sənət nümunələri olmaqla, əsrlər boyu Şərq xalqları ədəbiyyatının qarşılıqlı əlaqəli inkişafını tənzimləmişdir. Şərq ədəbiyyatında Nizami Gəncəvinin "Xəmsə"sinə cavab verən hər bir sənətkar öz əsərində Həzrəti Şeyx Nizami Gəncəvinin hikmət və fəzilətlərinin böyüklüyünə həsr olunmuş beytlərə xüsusi önəm vermişdir. Öz ustadının sənət qüdrətini böyük məhəbbətlə tərənnüm edən görkəmli sənətkarlardan biri də Mir Əlişir Nəvaidir. Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığı üzərində indiyədək Y.E.Bertels, A.S.Ləvənd, H.Araslı, V.Zahidov, Xoca Ahmadov, A.Xeyitmetov, S.Qəniyeva, S.Erkinov, S.Nazrullayeva, C.Nağıyeva, N.Araslı, D.Yusupova, G.Alpay və başqa müəlliflər tərəfindən əhəmiyyətli araşdırmalar aparılmışdır. Bu gün də problemin müstəlif aspektlərinin tədqiqata cəlb olunması müqayisəli ədəbiyyatşünaslığın aktual məsələlərindəndir. Əlişir Nəvai ilk öncə Şeyx Nizamini öz böyük ustadı, sənət müəllimi hesab etmiş, onun şəxsiyyət və sənətinə heyranlığını böyük bir zövq ilə vəsf etmişdir.
Açar sözlər: Nizami Gəncəvi, Əlişir Nəvai, şairin şəxsiyyəti,yaradıcılıq

http://dx.doi.org/10.29228/edu.161
Məqaləyə istinad: Allahverdiyeva Z. (2020) *Əlişir Nəvai yaradıcılığında Nizami Gəncəvi şəxsiyyətinə baxış.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 80-85
Məqalə tarixçəsi: göndərilib – 11.05.2020; qəbul edilib – 19.05.2020

View to personality of Nizami Ganjavi in the creativity of Alishir Navai

Zahra Allahverdiyeva
Doctor of Philosophy in Philology, Institute of Literature
named after Nizami Ganjavi of ANAS.
Azerbaijan. E-mail: zahra.allahverdiyeva@mail.ru
https://orcid.org/0000-0002-8697-0395

Abstract. Themes and ideas, as well as plots, images, metaphors, expressions and symbols taken from "Khamsa"by Nizami, played a special role in the subsequent development of epic poetry. Many perfect examples of poetry that came from the pen

of Nizami, such as “The Treasury of Mysteries”, “Khosrov and Shirin”, “Leili and Majnun”, “The Seven Beauties”, “Eskandar-nameh”, reflecting the level of development of Turkic Islamic culture – an important branch of the Eastern Renaissance, for many centuries regulated the interconnected development of the literature of the peoples of the East. It should be noted that the features of the connection among the works by Nizami and Navoi are found in Eastern anthologies. In the 20th century, works in the field of studying the connections of the creativity of two ingenious poets Nizami Ganjavi and Alishir Navai attracted the attention of such scientists as A.Krymsky, E.E.Bertels, H.Arasli, A.S.Levend, V.Zakhidov, Khoja Akhmedov, A.Kheitmetov, S.Ganieva, S.Erkinov, S.Nazrullaeva, J.Nagiyeva, N.Arasly, D.Yusupova, K.Alpay and others.
Keywords: Nizami Ganjavi, Alishir Navai, the personality of the poet, creativity

http://dx.doi.org/10.29228/edu.161
To cite this article: Allahverdiyeva Z. (2020) *View to personality of Nizami Ganjavi in the creativity of Alishir Navai.* «Comparative Literature Studies», Issue I, pp. 80-85
Article history: received – 11.05.2020; accepted – 19.05.2020

Giriş / *Introduction*

Yaxın və Orta Şərqdə epik poeziyanın XII əsrdən sonrakı inkişafında Nizami Gəncəvi “Xəmsə”sindən alınmış mövzu və ideya, süjet, obraz və simvollar xüsusi rol oynamışdır. Türk-islam mədəniyyətinin parlaq nümunəsi olan Nizami Gəncəvi əsərləri – “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl” və “İsgəndərnamə” kimi mükəmməl sənət nümunələrinin təsiri sayəsində əsrlər boyu Şərq xalqları ədəbiyyatının qarşılıqlı əlaqəli inkişafı tənzimlənmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbi məktəbinin türkdilli ədəbiyyata, o cümlədən Orta Asiyada yazıb-yaradan sənətkarların yaradıcılığına aktiv təsiri olmuş, bir çox sənətkarlar arasında sıx yaradıcılıq mübadiləsi yaranmışdır. VIII-IX əsrlərdən başlayaraq, Azərbaycanın görkəmli şair, filosof və alimlərinin, o cümlədən Əbu Zəkəriyyə Yəhya ibn Əli Xətib Təbrizi, Qətran Təbrizi, Əbül-üla Gəncəvi, Xaqani Şirvani, Əbu Nizam Məhəmməd Fələki Şirvani, Mücirəddin Beyləqani, Nizami Gəncəvi, Məhsəti Gəncəvi və sair sənətkarların əsərləri Xorasan, Bəlx, Mərv, Buxara, Səmərqənd, Herat, Kabul və başqa mədəniyyət mərkəzlərində mühüm təsir gücünə malik olmuşdur.

Əsas hissə / *Main Part*

Şərq ədəbiyyatında Nizami Gəncəvinin “Xəmsə”sinə cavab verən hər bir sənətkar öz əsərində Həzrəti Şeyx Nizami Gəncəvinin hikmət və fəzilətlərinin böyüklüyünə həsr olunmuş beytlərə xüsusi önəm vermişdir. Öz ustadının sənət qüdrətini böyük məhəbbətlə tərənnüm edən “Xəmsə” müəlliflərindən biri də XV əsrin görkəmli özbək şairi Mir Əlişir Nəvaidir.

Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığı üzərində indiyədək Y.E.Bertels, A.S.Ləvənd, H.Araslı, V.Zahidov, Xoca Ahmadov, A.Xeyitmetov, S.Qəniyeva, S.Erkinov, S.Nazrullayeva, C.Nağıyeva, N.Araslı, D.Yusupova, G.Alpay və başqa müəlliflər tərəfindən əhəmiyyətli araşdırmalar aparılmışdır. Bu gün də problemin müxtəlif aspektlərinin tədqiqata cəlb olunması müqayisəli ədəbiyyatşünaslığın aktual məsələlərindəndir.

Türk dünyasının iki böyük dahi sənətkarı – Şeyx Nizami Gəncəvi və Mir Əlişir Nəvai orta əsrlər dövründə islami ümumbəşəri ideyaların fəlsəfi məzmununu söz sənətinin ən incə obrazları vasitəsi ilə ifadə etməklə, həm də türk birliyinin nadir tarixi hadisəsinə çevrilmişlər. Nizami

Gəncəvinin ideya olaraq irəli atdığı məsələləri, gizli söylədiyi fikirləri Əlişir Nəvai böyük bir əzmlə davam etdirdi: "Utuz yilki oni Nizomiy demiş, Qorşimda erur ikki-uç yillik iş,- deyə türk dilində bütün dünyaya səs saldı.

Əlişir Nəvai öncə Şeyx Nizamini öz böyük ustadı, sənət müəllimi hesab etmiş, onun şəxsiyyət və sənətinə heyranlığını böyük bir zövq ilə vəsf etmişdir. Təsadüfi deyildir ki, XV əsrdə Dövlətşah Səmərqəndi özünün "Təzkirətüş-şüəra"sında Mir Əlişir Nəvainin sənətkarlığından bəhs edərkən buna xüsusi diqqət yetirərək yazmışdır: "Türkcədə Ariflər Şeyxi Nizaminin "Xəmsə" sinə cavab verməkdə, Allahın rəhməti olsun ki, bu böyük Əmirdən əvvəl heç kəs belə fəzilətə nail olmamışdır" [1, s.497]. Təzkirə müəllifi Nəvainin "Leyli və Məcnun" əsərinin bahariyyə hissəsindən nümunə verməklə, onun "təşbih və uca xəyallarının" öz ustadına bağlı olduğunu göstərməyə çalışmışdır:

مرز اوزره گیارسه برگه جوشن
شش پر گوترور باشغه سوسن
لاله ورقین بیریب صباغه
بقری قرا دیک اوچار هواغه *[1, s.497]*

Mərz[*] uzrə giyarsa bərgə - cuşən[**],
Şeşpər göturur başığa susən.
Lalə vərəqin birib səbağə
Bağri qəra[***] dək uçar həvağə.

Əlişir Nəvai Nizami yaradıcılığını Şərq poeziyasının mühüm mənbəyi, qiymətli bir məxəzi hesab etmişdir. Təkcə onu göstərmək kifayətdir ki, 1483-1485-ci illərdə yazdığı "Məcalisün-nəfais" təzkirəsinə fars və türkcə yazan şairləri daxil etmiş, farsca yazanları 8 məclisə, türkcə yazanları isə 7 məclisə ayırmışdır. Qeyd edək ki, bu təzkirəyə daxil olan şairlərin çoxu Türküstanın bir sıra regionları, Xorasan, Səmərqənd, Herat və Azərbaycan zəminində yetişən fars və türk dillərində yazan sənətkarlardır. Bu təzkirədə Nəvai Nizami haqqında ayrıca məlumat verməmişdir. Lakin Nizami Gəncəvi əsərlərinə yazılan nəzirə, yaxud tətəbbü əsərləri xüsusi qeyd etməyi özünə borc bilmişdir. Məsələn, Kirman mülkündən olan şairlərdən Xoca Əlaəddin haqqında belə qeyd edir: "...Məkkəyə aziməti zaman yolda Şeyx Nizaminin "Xəmsə"sinin əsas kitabı "Məxzənül-əsrar" vəznində kitab yazmışdır" [2, s.408].

Nəvai özünün "Xəmsə" yaradıcılığında Nizami Gəncəvinin şəxsiyyətini, dünyagörüşünü, yüksək sənətkarlıq keyfiyyətlərini, islam fəlsəfəsinin təməl ideyaları uğrunda mübarizəsini böyük məhəbbətlə qələmə almışdır. Məsnəvilərində şair Nizamini söz-sənət bilicisi hesab etmiş və özünün Şeyx Nizami mövzularını türk dilində yazdığı üçün fəxr etdiyini dönə-dönə qeyd etmişdir.

Əlişir Nəvai Nizami Gəncəvinin ilk poeması "Sirlər xəzinəsi"nə cavab olaraq yazdığı "Heyrətül-əbrar"əsərində öz ustadını ilk dəfə "Xəmsə" xəzinəsi yaradan böyük bir şəxsiyyət olaraq məhəbbətlə tərənnüm edir:

Ganja vatan,ko`ngli aning ganjxez,
Xotiri ganjur- u tili ganjrez.
Fikrati mizoni bo`lub xamsasanj,
"Xamsa" dema, balki degil panj-ganj.
Kaffayi mizon anga aflok o`lub,
Botmoni toshi kurai xok o`lub.
Tortsa yuz qarn xirad xozini,

[*] Mərz-zəmi
[**] Cuşən-zireh
[***] Bağrıqara – quş adı

Chekmagay oning ko`pidin ozini.
Xoni latoyifqa so`zi munqasim,
Durri maoniyğ`a tili muntazim
Nozim o`lub so`z durri serobig`a,
Charx "Nizomiy" yozib alqobig`a.
"Quddusa sirruh" – ne maonidur ul,
Ruhi qudus fayzi nishonidur ul [3, s.47]

("Onun vətəni Gəncə, könlü sirr xəzinəsi! Xatiri xəzinə, dili xəzinə tökən! Fikir mizanı ilə "Xəmsə" yaratmış, "Xəmsə" demə, bəlkə, beş xəzinə yox - Ona mizan tərəzi uca fələklər olub, Yer kürəsi onun batman daşıdır! Ağıl xəzinədarı yüz il çəksə də, Onun çoxundan azını çəkə bilməz! Lətafətdə sözü münqasim* Məna dürründə dili müntəzim.** Söz dürrü çeşməsinə nazim olub, Göylər adını (ləqəbini) "Nizami" yazıb! "Sirrini təqdis etdi" – nə mənadadır o! Müqəddəs ruhun nişanıdır o!")

Burada قدس سرّه – Sirrini təqdis etdi, - ifadəsi Qurani-Kərimdən təzmin olunmuşdur. Yəni: Nizamini söz sənətində bu qüdrətdə yaratmaqla Allah özünün varlığını, müqəddəsliyini təsdiq etmişdir.

Öz ustadı Nizamini insanlıq timsalı, sənətinin möcüzələri ilə qəlbi coşduran bir şair, ilahi hikmətlərə yiyələnmiş ali bu şəxsiyyət olaraq təsvir edən Nəvai onun Əmir Xosrov Dəhləvi ilə müqayisəsini də obrazlı şəkildə verir. Söz sənətində "Məxzənül-əsrar" kimi gövhərin və "Mətləül-ənvar" kimi ulduzun olmadığını poetik mənalandırmalarla tərənnüm edir. Hər iki sənətkarın "Xəmsə" yaradıcılığını "Xəmsəteyn" – "İki Xəmsə" adlandırır:

G`ayri hamul hinduyi chobuksuvor-
Kim, chiqarib xanjari hindiy iyor
Ganja shahi ganjfishon, payrav- ul,
Shah bu so`z iqlimi aro, Xusrov ul[3, s.48].

(Başqa çabuk atlı bir hindu ki, hindsayağı xəncərini çəkdi. Xəzinə saçan Gəncə şahını izləyən odur, Şah bu söz iqlimi ara Xosrov odur)

Şair öz əsərlərində Nizami Gəncəvinin sənət meyarlarını qorumağa, söz haqqında fikirlərində Nizami Gəncəvinin şəxsiyyətini daha qabarıq verməyə çalışır: Tushti chu rahrav bila payravğ`a so`z; Yetti Nizomiy bila Xusravğ`a so`z [3, s.52-53].

Nəvai "Xəmsə"yə daxil etdiyi ilk poemasında Nizami Gəncəvini izlədiyini – yolunun Nizami yolu olduğunu, həmçinin bir qolunun Əmir Xosrov və bir qolunun da Cami olduğunu etiraf edir:

Menki talab yolida qoydum qadam,
Bordur umidimki, chu tutsam qalam.
Yo`ldasa, bu yolda Nizamiy yolum,
Qo`ldasa, Xusrav bila Jomiy qo`lum[3, s.55].

(Mən ki tələb yoluna qədəm qoydum,Vardır ümidim ki, tutsam qələm. Yoldursa, bu yolda Nizamidir yolum, Qoldursa, Xosrov ilə Camidir qolum)

"Fərhad və Şirin" əsərində də həmçinin Nizami Gəncəvinin əzəmətini – fikir, ideya dominantlığını, üslubda söz incilərinin zənginliyi ilə seçildiyini göstərir, Söz sənətini xəzinəyə

* Münqasim-seçilmiş
** Müntəzim-nizamlı

bənzədən Nəvai Nizamini bu "məna xəzinəsinin valisi" adlandırır, eyni zamanda Gəncə adının "xəzinə"*** sözü ilə bağlı olduğuna da işarə edir:

Anıng bu ganjidin topmay kishi kom,
Nechukkim, ganjposhi Ganjaorom.
Agarchi Ganjada oromi oning,
Vale ganj uzra doim gomi oning [4, s.23].

(O, bu xəzinədən kam almışdır – necə ki, xəzinə başçısı Gəncədə yatır. Əgərçi onun aramı Gəncədədir, məqamı daim xəzinə üstündədir.)

Nəvai öz sənət müəlliminin savadının hər qətrəsini dürr saçan nura bənzədir. "Bu dürr ilə dəryalar dolar. Dürr nədir! Nizaminin söz gövhəri fəzl, ağıl mədənidir. Onun söz gövhərindən xəzinə daşısan, yenə də qurtarmaz", – deyir. Nəvainin təbirincə, Şeyx Nizami simurq quşu kimi yanır və ətrafa elm şöləsi saçır. Şair öz ustadının qüdrətini anlatmaq üçün onun əzəmətini "fil" obrazına təşbih edir. Nizami sənətdə elə nəhəng bir fildir ki, onunla pəncə-pəncəyə vurmaq olmaz:

Emas oson bu maydon ichra turmoq,
Nizamiy panjasiğ`a panja urmoq[4, s.26].

(Bu meydan içrə durmaq asan olmaz, Nizami pəncəsinə pəncə vurmaq asan olmaz.)

Əlişir Nəvai "Leyli və Məcnun" əsərində də başlanğıc hissələrdən sonra sözün tərifini verir və öz ustadı Nizami Gəncəvini yenə yad edir və türk dilində yazdığı bu əsərindən qürurlandığını bildirir:

Bu til bila kimsa topmadi kom,
Yuz ganjfishoni Ganjaorom.
Ayvoni sharaf nuhufta ganji,
Mizoni lutf xizonasanji[2, s.27].

Nəvai "Leyli və Məcnun" əsərində Nizaminin həm ilahi eşq haqqında fəlsəfi görüşlərindən, həm də zəngin və mürəkkəb üslub xüsusiyyətlərindən bəhrələnmiş, öz ustadının sənətini "fikir zivərli söz" adlandırmışdır. Nəvai öz ustadı Nizamini filosof - şair, elm, mərifət sahibi olaraq fəzilətdə Musaya, qənaətdə Ənqaya bənzədir:

Ham Turi fazilat uzra Muso,
Ham Qofi qanoat uzra Anqo[2, s.48].

Nəticə / Conclusion

Mir Əlişir Nəvai "Yeddi gözəl" əsərinin təsiri ilə yazdığı "Sabai-səyyar", və "İskəndərnamə" poemasına nəzirə olaraq yazılmış "Səddi-İskəndəri" məsnəvilərində, eləcə də "Xəmsə" mövzularından kənar yazdığı əsərlərində də Nizami Gəncəvinin ölməz sənətini böyük məhəbbətlə yad etmiş, onun şəxsiyyətini yüksək insanlıq nümunəsi olaraq daim uca tutmuşdur.

*** Xəzinə - qədim türkcədə "xınzır"-"xıncır", yəni varlı-dövlətli yer anlamındadır. İndi də xalq arasında bu söz işlənilir.

Ədəbiyyat / References

1. تذکرهٔ الشعرا، تالیف: دولتشاه سمرقندی، به اهتمام و تصحیح : ادوارد براون، تهران،1985
2. Alisher Navoiy. Layli va Majnun. To`la asarlar to`plami. Yettinchi jild. Xamsa. O`zbekiston Matbuat va axborot agentligi, Gafur Gulam nomidaği nashriyot-matbaa ijodiy uyi,Toshkent, 2012.
3. Alisher Navoiy.Hayrat ul-abror. A. Navoiy. Toshkent: Gafur Gulam nomidaği nashriyot-matbaa ijodiy uyi. 2020.
4. Alisher Navoiy.Farhod va Shirin: doston. A.Navoiy. Toshkent: Gafur Gulam nomidaği nashriyot-matbaa ijodiy uyi. 2020.

Взгляд на личность Низами Гянджевив творчестве Алишера Навои

Захра Аллахвердиева
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: zahra.allahverdiyeva@mail.ru

Резюме. Темы и идеи, а также сюжеты, образы, метафоры, выражения и символы, заимствованные из «Хамсе» Низами сыграли особою роль в последующем развитии эпической поэзии. Многие совершенные образцы поэзии, вышедшие из-под пера Низами, такие как «Сокровищница тайн», «Хосров и Ширин», «Лейли и Меджнун», «Семь красавиц», «Искендернаме», отражающие уровень развития тюркской исламской культуры – важной ветви восточного возрождения, долгие столетия регулировали взаимосвязанное развитие литератур народов Востока. Нужно отметить, что особенности связи творчества Низами и Навои обнаруживаются еще в восточных антологиях. В XX веке труды в области изучения связей творчества двух гениальных поэтов Низами Гянджеви и Алишера Навои привлекали внимание таких ученых, как А.Крымский, Е.Э.Бертельс, Г.Араслы, А.С.Левенд, В.Захидов, Ходжа Ахмедов, А.Хейтметов, С.Ганиева, С.Эркинов, С.Назруллаева, Дж.Нагиева, Н.Араслы, Д.Юсупова, К.Алпай и других.
Ключевые слова: Низами Гянджеви, Алишер Навои, личность поэта, творчество

Zahirəddin Məhəmməd Babur – ümumtürk mədəniyyətinin unikal hadisəsi

Bəxtiyar Məmmədov
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ferhad.memmedli@mail.ru
https://orcid.org/0000-0001-5663-7834

Annotasiya. Klassik ədəbiyyat tarixində bir çox misilsiz simalar özünəqədərki ədəbi-bədii təcrübənin mövcud ənənələrini zənginləşdirməklə, ümumtürk əhəmiyyətinə malik olmuş və özündən sonra dərin izlər buraxmışdır. XIV-XV əsrlər Mərkəzi Asiya xalqları tarixində xüsusilə fərqlənir. Teymurilər dövründə elm və mədəniyyət müxtəlif sahələrdə inkişaf etmiş və dünyaya məşhur alimlər bəxş etmişdir. Bu dövrə mənsub şəxsiyyətlərdən biri də Zahirəddin Məhəmməd Baburdur. Şair, yazıçı, tarixçi, coğrafiyaşünas, etnoqraf, ensiklopedik zəka sahibi kimi tanınan, Böyük Türk Dövlətinin yaradıcısı Z.Babur milli-mənəvi dəyərlərə söykənən çoxşaxəli yaradıcılığı ilə şöhrət qazanmış və adını ümumtürk ədəbiyyatının parlaq səhifələrinə yazmışdır. Zahirəddin Məhəmməd Babur yaşayıb-yaratdığı qısa, lakin mənalı ömründə məşhur "Baburnamə" əsərini, şeirlərindən ibarət olan "Divan"ını, əruz, nücum və musiqiyə aid risalələrini yaratmış, lirikasında qəzəl, rübai, qitə, tuyuq, məsnəvi, mətlələr və müəmmalara əsas yer vermişdir. Zahirəddin Məhəmməd Baburun türk dilində yazılmış "Baburnamə"si ilk memuar sayılmaqla ensiklopedik əsərdir. Üç əsas hissədən ibarət "Baburnamə" təkcə, özbək ədəbiyyatı tarixində deyil, həm də dünya ədəbiyyatı tarixində xüsusi yer tutur. Türk xalqları ədəbiyyatında nəsrin parlaq nümunəsi olan "Baburnamə" elmin müxtəlif sahələrinin öyrənilməsi üçün tarixi mənbədir və məqalədə mövzunun bu istiqaməti geniş şəkildə təhlil olunmuşdur.

Açar sözlər: Zahirəddin Məhəmməd Babur, "Baburnamə", ensiklopedik əsər, Teymurilər dövrü, Baburilər sülaləsi, lirik şeirlər, "Əruz haqqında traktat"

http://dx.doi.org/10.29228/edu.146
Məqaləyə istinad: Məmmədov B. (2020) *Zahirəddin Məhəmməd Babur – ümumtürk mədəniyyətinin unikal hadisəsi.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 86-91
Məqalə tarixçəsi: göndərilib – 01.06.2020; qəbul edilib – 09.06.2020

Zahiraddin Mohammad Babur – a unique event of all-Turkish culture

Bakhtiyar Mammadov
Doctor of Philosophy in Philology, Institute of Literature
named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: ferhad.memmedli@mail.ru
https://orcid.org/0000-0001-5663-7834

Abstract. In the history of classical literature, many incomparable figures have gained all-Turkish significance by enriching the existing traditions of the previous literary and artistic practice and have left deep traces behind them. The 14th and 15th centuries are especially varied in the history of the nations of Central Asia. During the reign of the Timurids, science and culture developed in various fields and gave renowned scientists to the world. One of the personalities of this period is Zahiraddin Muhammad Babur. Known as a poet, writer, historian, geographer, ethnographer, encyclopedic intellectual, the founder of the Great Turkish State Z.Babur became famous for his multifaceted creativity based on national and spiritual values and wrote his name in the bright pages of all-Turkish literature. During his short but meaningful life, Zahiraddin Mohammad Babur created the famous work "Baburnama", "Divan" consisting of poems, treatises on eruz, nucum and music, and he focused on ghazals, rubai, qita, tuyug, masnavi, proverbs and mysteriesin his lyrics. Zahiraddin Mohammad Babur's "Baburname" written in Turkish is considered to be the first memoir and is an encyclopedic work. "Baburname" consisting of three main parts, has a special place not only in the history of Uzbek literature, but also in the history of world literature. Baburname, a brilliant example of prose in the literature of the Turkish peoples, is a historical source for the study of various fields of science, and this aspect of the subject is extensively analyzed in the article.
Keywords: Zahiraddin Mohammad Babur, “Baburname”, encyclopedic work, Timurids period, Baburis dynasty, lyrical poems, “treatise about Aruz”

http://dx.doi.org/10.29228/edu.146
To cite this article: Mammadov B. (2020) *Zahiraddin Mohammad Babur – a unique event of all-Turkish culture.* «Comparative Literature Studies», Issue I, pp. 86-91
Article history: received – 01.06.2020; accepted – 09.06.2020

Giriş / *Introduction*

Türkdilli klassik ədəbiyyat tarixində bir çox misilsiz simalar və böyük əsərlər vardır ki, onlar özünəqədərki ədəbi-bədii təcrübənin mövcud ənənələrini zənginləşdirməklə özündən sonrakı bütün türkdilli ədəbiyyatın inkişafına ciddi təsir göstərmişdir. Bu baxımdan Zahirəddin Məhəmməd Baburun ədəbi şəxsiyyətinin və irsinin Azərbaycanda öyrənilməsini, araşdırılmasını və dilimizə uyğunlaşdırılaraq nəşr edilməsini elmi-ədəbi hadisə kimi dəyərləndirmək olar. Doğrudur, XX əsr boyunca özbək ədəbiyyatı kontekstində Nəvai irsi nisbətən geniş öyrənilmişdir. Zahirəddin Məhəmməd Babur yaradıcılığına isə klassik özbək ədəbiyyatı müstəvisində yanaşılmış, onun şəxsiyyəti və əsərləri tadqiqata cəlb olunmuş, klassik ədəbiyyat tarixindəki yeri və mövqeyi müəyyənləşdirilmişdir.

Mahmud Kaşğari (XI əsr) və onun "Divani-lüğətit-türk" əsəri, Yusif Balasağunlu (XI əsr) və onun "Qutadğu bilik" poeması, Əhməd Yəsəvi (XII əsr) və onun "Divani-hikmət"i, Yunis İmrə (XIII əsr) və onun divanı, İmadəddin Nəsimi (XIII-XIV əsrlər) və onun lirikası, Əlişir Nəvai (XV əsr) və onun "Xəmsə", "Nizamül-övzan", "Mühakimətül-lüğəteyn" kimi bir sıra əsərləri, Məhəmməd Füzuli (XVI əsr) və onun lirikası ilə bərabər, böyük özbək şairi, nasiri və alimi Zahirəddin Məhəmməd Babur (1483-1530) yaradıcılığı və onun "Baburnamə", "Risaleyi-əruz", "Xətti-Baburi" kimi bir sıra əsərləri də məhz ümumtürk əhəmiyyətinə malik nümunələr sırasına daxildir.

Mərkəzi Asiya xalqları tarixində Teymurilər dövrü (XIV-XV əsrlər) mədəniyyəti xüsusilə fərqlənir. Bu dövrdə elm və mədəniyyət müxtəlif sahələrdə inkişaf etdi, dünyada tanınan məşhur alimlər yetişdi. O dövrə mənsub həmin şəxsiyyətlərdən biri də zəngin yaradıcılıq irsi olan şair, yazıçı, tarixçi, coğrafiyaşünas, etnoqraf, ensiklopedik zəka sahibi, həm də uzaq Hindistanda Böyük Türk Dövləti qurmuş dövlət xadimi Zahirəddin Məhəmməd Baburdur. "Zahirəddin Məhəmməd Babur şəxsiyyət olaraq – bacarıqlı, qabiliyyətli, praqmatik düşüncəli siyasətçi kimi, dünya tarixində izi olan qüdrətli şəxsiyyətdir. O, üç yüz ilə qədər davam edən böyük bir imperatorluğun yaradıcısıdır. Babur və Baburoğullarının hakimiyyəti memarlıq, ədəbiyyat, fəlsəfə, din və elmin bir çox sahələrində yüksək zirvələr fəth edə bilmiş, davamlı böyük ənənələr yaratmışlar. Görkəmli dövlət xadimi Zahirəddin Məhəmməd Babur türk-özbək ədəbiyyatı tarixində Əlişir Nəvaidən sonra poeziyada uca bir məqamı kəşf etmişdir. O, poeziyanın demək olar ki, bütün janrlarında şeirlər yazmışdır. Baburun hazırlatdığı"Kabil divanı" (1519) və "Hind divanı" (152829-cu illər) dövrümüzə qədər gəlib çatmışdır" [1, s.4].

Əsas hissə / *Main part*

Zahirəddin Məhəmməd Babur gəncliyində Xoca Mövlana Qazidən təlim alıb, tarix, hərb işi, musiqi və ədəbiyyata daha çox maraq göstərib. 1495-ci ildə Baburun atası Axsi Qalasında uçurumun üstündə göyərçinləri seyr edərkən müvazinətini itirir, uçuruma yuvarlanaraq yıxılıb həlak olur. 12 yaşlı Z.M.Babur Fərqanə taxtına çıxaraq hakim olur. Zahirəddin Məhəmməd Baburun taxta çıxdığı vaxt Türküstanda və ətrafında siyasi görünüş belə idi: Səmərqənddə Baburun əmisi Sultan Əhməd Mirzə, Hisarda və Bədəxşanda dayısı Sultan Mahmud Mirzə, Monqolustanda babası Yunus xan, Kabildə II Uluğ bəy Mirzə, Heratda Hüseyn Bayqara hakimiyyət başında idi. Bu dövrdə Qızılbaşlara Şah İsmayıl Xətai, özbəklərə isə Şeybani xan hökmdarlıq edirdi. "Teymurilər səltənətinin əksəriyyət qismi Şeybani xanın hakimiyyətinə tabe idi. Zahirəddin Məhəmməd Baburun mühüm siyasi məqsədlərindən biri Mavəraünnəhrdəki mübarizələr nəticəsində dağıdılmış ölkəsini bərpa etmək idi. Bu məqsədlə 1495-1496-cı illərdə Zahirəddin Məhəmməd Babur Səmərqəndi işğal edir. Elə həmin əsnada Zahirəddin Məhəmməd Baburun kiçik qardaşı Cahangir Mirzə və onun dayısı Əndicanı öz hakimiyyəti altına almaq niyyətində idi" [2, s.9]. Zahirəddin Məhəmməd Babur Səmərqənddən tezliklə çıxıb Əndicana qayıtmağa məcbur olur. O, iki illik mübarizədən sonra öz məqsədinə çatır. 1499-cu ildən 1500-cü ilədək Babur Səmərqənd şəhərinə gedib, Şeybanilərlə döyüşdü və məğlub oldu. Nəticədə Daşkənddən geri çəkilmək məcburiyyətində qaldı. 1502-1503-cü illərdə Zahirəddin Məhəmməd Babur Yunus xanın köməyi ilə Əndican üzərinə yeni bir yürüş etdi. Amma bu yürüşlər də bir nəticə vermədi və bu dəfə o, Xorasana getdi. Zahirəddin Məhəmməd Babur 1503-1504-cü illərdə Kabil və Qəznə vilayətlərinə gedib, orada öz hakimiyyətini qurdu. Səfəvilər hökmdarı Şah İsmayıl Xətainin yardımı ilə Səmərqəndə növbəti yürüşü yenə uğursuzluqla nəticələndi. 1519-cu ildən başlayaraq Babur Hindistanı fəth etməyə başladı. Nəhayət, 1526-cı ilin baharında Hindistan şahı İbrahim Ludi üzərində qələbə qazandı və Hindistanda Baburilər sülaləsinin əsasını qoydu. Zahirəddin Məhəmməd Babur 26 dekabr 1530-cu ildə vəfat edib. Onun nəşi əvvəlcə Jamna dəryasının sol tərəfində yerləşən "Nurovşan" bağının mərkəzi hissəsində dəfn edilir [3]. 1533-cü ildə Baburun öz vəsiyyətinə görə, məzarı vaxtilə Kabildə özünün saldığı "Babur bağı"na köçürülür. Kabil şəhərinin mərkəzindəki Babur məqbərəsi o dövrün ən gözəl yadigarlarından biri hesab olunur. Zahirəddin Məhəmməd Baburun

vəfatından sonra Hindistanda böyük oğlu Humayun Mirzə (1531-1556), sonra isə digər oğlu Əkbər şah (1556-1606) taxta çıxır. Bu dövr Hindistan tarixinin ən çiçəklənən və xalqlar arasında dostluğun inkişafı ilə xarakterizə olunur. Onlardan sonra məmləkəti, Babur səltənətini Cahangir Mirzə (1605-1687) və onun oğlu Şah Cahan (1628-1658) idarə edərək, ata-babalarının işlərini davam etdirirlər. Bu dövr Hindistanda elm, mədəniyyət, xüsusən, əzəmətli memarlıq abidələrinin əsasının qoyulması ilə xarakterikdir. Sultan Övrəngzibin taxta çıxdığı zaman (1659-1707) ölkə xeyli inkişaf etsə də, imperatorluğa hücumlar və təqiblər çoxaldı. XIX əsrin ortalarına qədər gəlib çatan Baburilər səltənəti yavaş-yavaş dağılmağa başladı. Artıq bu sülalənin son nümayəndəsi II Bahadur Şahın (1837-1858) hakimiyyəti formal xarakter daşıyırdı. Zahirəddin Məhəmməd Baburun əsasını qoyduğu səltənət üç əsrdən artıq davam etdi və Hindistan tarixində mühüm rol oynayan mərkəzləşdirilmiş ərazidə müstəqil bir hakimiyyət imperatorluğa çevrildi. Dövlət taxtında əyləşən hökmdarlar – Babur şah, Hümayun şah, Əkbər şah, Səlim Cahangir şah, Cahan şah, Övrəngzibin şah Babur oğulları idi. Böyük siyasi xadim və alim Cəvahirləl Nehru Z.M.Babur haqqında fikirlərini belə ifadə etmişdir: "Z.M.Babur valehedici şəxsiyyət idi, İntibah dövrünün tipik hökmdarı, cəsur, bacarıqlı insan idi, o, incəsənəti, ədəbiyyatı sevirdi, həyatdan zövq almağı xoşlayırdı. Zahirəddin Məhəmməd Baburun Hindistana gəlməsi ilə böyük tərəqqi yarandı, yeni stimullarla həyata, incəsənətə və memarlığa nəfəs verdi, mədəniyyətin digər sahələri isə qarşılıqlı təmasa keçdi" [2, s.16].

Zahirəddin Məhəmməd Babur yaşadığı qısa, lakin mənalı ömründə dünyaca məşhur "Baburnamə" əsərini, şeirlərindən ibarət olan "Divan"ını, əruz, nücum və musiqiyə aid risalələrini yazmışdır. Zahirəddin Məhəmməd Baburun özbək ədəbiyyatında, türk şeirində, lirik janrın inkişaf etməsində böyük rolu olub. Onun lirik irsi, həcmcə o qədər böyük olmasa da, mövzu dairəsi, forma, üslub, bədii gözəlliyi və mükəmməlliyi ilə xüsusilə fərqlənir. Lirikasında qəzəl, rübai, qitə, tuyuq, məsnəvi, mətlələr və müəmmalar əsas yer tutur. Onun poeziyasının mühüm məziyyətlərindən biri şeirlərinin tarixi hadisələrlə qırılmaz bağlılığında və yaşadığı dövrün hadisələrinin sadə və oxunaqlı dildə yazılmasındadır.

Türkcə yazılmış ilk memuar "Baburnamə" Zahirəddin Məhəmməd Babura dünya şöhrəti gətirmiş ensiklopedik əsərdir. Bu əsər təkcə özbək ədəbiyyatında deyil, dünya ədəbiyyatı tarixində xüsusi yer tutur. Türk xalqları nəsrinin parlaq nümunəsi olan "Baburnamə" [4; 5] eyni zamanda elmin müxtəlif sahələri üçün bənzərsiz tarixi mənbədir. Məhz bu səbəbdən dünya alimlərinin diqqətini cəlb edib. Əsərdə geniş bir coğrafi regionun – Türküstan, Əfqanıstan və Hindistan xalqlarının siyasi, ictimai, iqtisadi və mədəni həyatının səciyyəvi cəhətləri öz əksini tapıb. "Baburnamə" üç əsas hissədən ibarətdir. Birinci hissədə müəllif Mavəraünnəhr haqqında bəhs edir, 12 yaşında ikən Fərqanə vilayətinin hökmdarı olması barədə söhbət açır. Əsərdə Zahirəddin Məhəmməd Babur doğma təbiəti incə şəkildə təsvir edir, öz atası Ömər Şeyxın canlı bədii portretini yaradır, onun əcdadları, ailə həyatı, xarakteri haqqında danışır. Bu hissədə sarayın tanınmış adamları, onların fəaliyyəti tarixi faktlar əsasında şərh edilir. Kitabın ikinci hissəsi Əfqanıstanda baş vermiş hadisələrə həsr edilib. Zahirəddin Məhəmməd Baburun Kabilə gəlməsi və bu şəhəri döyüşsüz ələ keçirməsi, daha sonra tədricən öz mülklərini genişləndirməsi, itaət etmək istəməyən əfqan qəbilələri ilə mübarizəsi, onları ram etməsi və Əfqanıstanda öz dövlətini yaratması haqqında söhbət açılır. Kitabın bu hissəsindəki fəsillər böyük ustalıqla yazılıb. Müəllif əsərə maraqlı xalq rəvayətləri daxil edib və bütün bu rəvayətləri parlaq şeir nümunələri ilə şərh edərək dolğunlaşdırıb. "Baburnamə"nin üçüncü hissəsində Zahirəddin Məhəmməd Baburun Hindistandakı həyatı daha geniş, ətraflı və tam şəkildə təsvir edilib. Bu hissədə XVI əsrdə Hindistanın siyasi, ictimai vəziyyəti haqqında etnoqrafik, tarixi və təbiətşünaslıq xarakterli geniş məlumatlar təqdim edilir. Bu dahi şəxsiyyətin ədəbi-elmi irsi müasir nəsillər üçün çox böyük tarixi-idraki və tərbiyəvi əhəmiyyət kəsb edir. Zahirəddin Məhəmməd Babur əruz elminin dərin bilicisi olub. Onun qələminə mənsub olan "Əruz haqqında traktat"ı (1523-1525) bu sahədə mühüm elmi mənbədir. Müəllif əruz janrında o zamana qədər məlum olmayan şeir olçülərini taparaq, sayını 44-ə qədər müəyyənləşdirmişdir. O, əruzun 21 bəhri və xeyli sayda vəzni haqqında geniş məlumatlar verməklə bərabər, həm də türkcə və farsca nümunələr əsasında şərh etmişdir. Halbuki Zahirəddin Mə-

həmməd Babura qədər əruzun şəkil ölçüləri belə ardıcıl və dərin təhlil olunmamışdır. Zahirəddin Məhəmməd Babur şah həm də istedadlı ilahiyyat alimidir. Onun müsəlman qanunçuluğu məsələlərinə həsr edilmiş məşhur "Mubayyani" əsəri fikrimizin sübutudur.

"Zahirəddin Məhəmməd Baburun yaradıcılıq imkanları onun böyük potensiala malik olduğunu göstərir: hazırlamış olduğu "Baburun xətti" əlifbası onun zəkasının kəşfidir. 1503-1504-cü illərdə yaradılmış 29 hərfdən ibarət olan bu əlifba ərəb əlifbasının islah edilmiş şəklidir. "Baburun xətti" müxtəlif türk dillərinə aid xüsusi əlifba idi. Zahirəddin Məhəmməd Babur öz əlifbasını həyata keçirmək üçün çox səy göstərib" [6, s.51]. Məsələn, "Baburnamə"dəki bəzi parçaları, oğlanları Hindol və Kamrana həsr etdiyi qitələri bu hərflərlə yazıb. Daha sonra Bədayinin "Müntəxəbat təvarix" əsərində "Qurani-Kərim"in "Baburun xətti" əlifbası ilə köçürülüb Məkkəyə göndərildiyindən bəhs edilir" [7, s.62].

Müstəqillik dönəmi bir sıra türk xalqlarının, o cümlədən Azərbaycan və özbək xalqının keçmiş mədəni irsini tam şəkildə üzə çıxarmaq və yetərincə öyrənmək sahəsində geniş imkanlar yaratdı. Artıq öz bədii qayələri, obrazları və əsərləri ilə ümumtürk maraqlarına xidmət edən böyük simaların, eyni zamanda Zahirəddin Məhəmməd Baburun yaradıcılığını yeni tələblər və həqiqi elmi yanaşmalar əsasında tədqiq etməyə yol açdı. Zahirəddin Məhəmməd Baburun həyat və yaradıcılığı N.İ.İlminski, A.Beveric, M.F.Köprülü, H.Araslı, V.Zahidov, İ.Sultan, S.Əzimcanova, Ə.Kayumov, Ə.Həyitmetov, N.Mollayev, S.Qəniyeva, Z.Məşrəpov, İ.V.Stebleva, H.Qüdrətullayev, İ.Haqqulov, A.Ü.Binnətova, R.Əskər, F.Bayat və başqa bu kimi tanınmış şərqşünas, türkşünas, ədəbiyyatşünas və baburşünasların diqqətini cəlb etmiş, onlar bu istiqamətdə maraqlı elmi araşdırmalar, sanballı tədqiqat əsərləri yazaraq bu görkəmli şəxsiyyətin tarixi xidmətlərini və mübarizələrlə keçən ömür yolunu işıqlandırmışlar. Zahirəddin Məhəmməd Baburun çoxşaxəli fəaliyyətinin və zəngin ədəbi irsinin öyrənilməsi zaman-zaman ədəbiyyatşünaslığın və şərqşünaslığın tədqiqat predmetinə çevrilmişdir. Bununla yanaşı, klassik ənənələri və ədəbi-bədii təcrübəni yeni tələblər əsasında tədqiq etməkdə və elmi-nəzəri cəhətdən ümumiləşdirməkdə çağdaş Azərbaycan ədəbiyyatşünaslarından akademik İ.Həbibbəyli, T.Kərimli, R.Əskər, N.Cəfərov, N.Araslı, A.Ü.Binnətova, Y.Qasımbəyli, özbək ədəbiyyatşünaslarından akademik B.Nəzərov, N.Kərimov, Y.İshaqov, Ö.Narmatov, Q.Yoldaşov, H.Baltabayev, D.Quranov, B.Kərimov və başqa görkəmli alimlərin fikir və mülahizələrində də Babur yaradıcılığına dönə-dönə müraciət olunur. Zahirəddin Məhəmməd Baburun əsərləri müxtəlif illərdə özbək və Azərbaycan dillərində nəşr edilmişdir.

Nəticə / *Conclusion*

Zahirəddin Məhəmməd Baburun yaradıcılığının araşdırılmasında "Baburnamə"yə kifayət qədər geniş yer verilir. Bunun səbəblərindən biri Baburun şah əsəri kimi onun ümumdünya şöhrəti qazanmasıdırsa, digər səbəb isə "Baburnamə"nin çoxsaylı nüsxə və tərcümələrindəki təqdirəlayiq mətləblərdir. Zahirəddin Məhəmməd Baburu "Baburnamə" kimi şah əsəri ilə yanaşı, həm də ümumtürk ədəbiyyatı və ədəbiyyatşünaslığında məşhurlaşdıran "Xətti-8 Baburi", "Mübəyyin", "Risaleyi-əruz" kimi elmi əsərləri və mütərcimlik fəaliyyətidir. Böyük Türk Dövlətinin yaradıcısı, hökmdar, şair, yazıçı, etnoqraf, coğrafiyaşünas və ensiklopedik zəka sahibi Zahirəddin Məhəmməd Babur milli-mənəvi dəyərlərə söykənən zəngin və çoxşaxəli yaradıcılığı ilə şöhrət qazanmış və adını ümumtürk ədəbiyyatının parlaq səhifələrinə yazmışdır.

Ədəbiyyat / *References*

1. İsa Həbibbəyli. Zahirəddin Məhəmməd Babur və Azərbaycan ["Zahirəddin Məhəmməd Babur və Azərbaycan" Beynəlxalq elmi konfransın (Bakı, 20 aprel 2018-ci il) materialları" kitabına ön söz], (redaktoru və nəşrə hazırlayan fil.e.d. Almaz Ülvi). Bakı, 2018.

2. Zahirəddin Məhəmməd Babur və XVI əsr özbək ədəbiyyatı: Əlişir Nəvai adına Dövlət Ədəbiyyatı Muzeyi ekspozisiyası əsasında qısa Məlumat kitabı ("Тошкент УзР ФА Давлат Адабиет музейи – 2008" nəşri əsasında Azəraycan dilinə tərcümə edən və nəşrə hazırlayan A.Ülvi). Bakı, 2019.
3. Zahiriddin Muhammad Bobur. Boburnoma. Toshkent, Yulduzcha, 1989.
4. Babur, Z.M. Baburnamə, cığatayca, türkcə və ruscadan tərcümə, ön sözün, qeydlər və izahların müəllifi R.Əsgər. Bakı, "Nağıl evi", 2011.
5. Babur, Z.M. Baburnamə, özbək dilindən tərcümə edən F.Bayatı. Bakı, "Avrasiya Press", 2011.
6. Ulvi, Almaz. "Boburnoma"nin Baku nusxasinin tavsifi va unda Alisher Navoyinin izlari. İlmiy toplam. Toshkent, "Bayoz" nashriyoti, 2018.
7. Ochilov, E . Barhayot siymolar. Toshkent. "O'zbekiston" nashriyoti, 2012.

Захираддин Мухаммед Бабур – как уникальноеявление общетюркской культуры

Бахтияр Мамедов
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: ferhad.memmedli@mail.ru

Резюме. В истории классической литературы многие несравненные фигуры обогатив существующие традиции предыдущей литературной и художественной практики приобрели общетюркское значениеи оставили за собой глубокие следы. XIV-XV века они особенно отличаются в истории народов Центральной Азии. Во времена правления Тимуридов наука и культура развивались в разных отраслях и принесламиру известных ученых. Одним из личностей этого периода является Захираддин Мухаммед Бабур. Известный как поэт, писатель, историк, географ, этнограф, интеллектуал энциклопедическими знаниями, основатель Великого Тюркского государства З.Бабур прославился своим многогранным творчеством, основанным на национальных и духовных ценностях, и увековечилсвое имя на ярких страницах общетюркской литературы. За свою короткую, но значимую жизнь З.М.Бабур создал знаменитую работу «Бабурнаме», состоящую из стихов «Диван», трактатов на эруз, нуджум и музыку, а в своих лирических произведенияхон сосредоточился на газелях, рубае, ките, туюге, маснави, пословицах и тайнах. «Бабур» З.М.Бабура, написанный на тюрском языке, считается первым мемуаром и энциклопедическим произведением. «Бабур-наме», состоящая из трех основных частей, занимает особое место не только в истории узбекской литературы, но и в истории мировой литературы. Блестящий пример прозы в литературе тюркских народов «Бабур-наме», является историческим источником для изучения различных областей науки, и этасторонатемы подробно анализируется в статье.
Ключевые слова: Захираддин Мухаммед Бабур, "Бабурнаме", энциклопедическое произведение, эпоха Тимуридов, династия Бабуридов, лирические стихи, трактат об арузе

Əlişir Nəvainin hikmətləri

Siracəddin Hacı
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi
adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: siraceddin-haci@rambler.ru
https://orcid.org/0000-0003-1981-025X

Annotasiya. Məqalədə Əlişir Nəvainin hikmətlərinin qaynaqları açıqlanmış, üç qaynaq göstərilmişdir: İslam mədəniyyəti, türk-islam ədəbiyyatı, türk folkloru. Müəllif Əlişir Nəvainin hikmətlərinin bədii özəlliklərini, dil, üslub xüsusiyyətlərini təhlil etmişdir. Məqalədə Əlişir Nəvainin söz, elm, ana və ata sevgisi, birlik, vəfa, ağıl, igidlik, eşq, aşiqlik, iman, sərvət, paylaşma, mərhəmət, səbir, dünya, axirət, tamah, ədalət, zülm, dost, düşmən, ləyaqət, qocalıq, təkəbbür, ədəb kimi məsələlərlə bağlı hikmətləri şərh olunmuşdur.
Açar sözlər: Əlişir Nəvai, hikmət, söz, elm, sərvət, insan, səbir

http://dx.doi.org/10.29228/edu.163
Məqaləyə istinad: Hacı S. (2020) *Əlişir Nəvainin hikmətləri.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 92-98
Məqalə tarixçəsi: göndərilib – 13.04.2020; qəbul edilib – 21.04.2020

Wise words of Alishir Navoi

Sirajeddin Haji
Doctor of Philosophy in Philology, Institute of Literature
named after Nizami Ganjavi.
Azerbaijan. E-mail: siraceddin-haci@rambler.ru
https://orcid.org/0000-0003-1981-025X

Abstract. In the article the sources of Alishir Navai's wisdom are explained and three sources are shown: Islam culture, Turkic-Islam literature, Turkic folklore. The author has shown the artistic features, language and style characters of Alishir Navai's wisdom. In the article some problems such as word, science, love of parents, unity, devotion, mind, bravery, love, infatuation, faith, wealth, sharing, mercy, patience, world, hereafter, mercenary, justice, oppression, friend, enemy, dignity, old age, arrogance, decency, etc. are explained in Alishir Navai's wisdom.
Keywords: Alishir Navai, wisdom, word, science, wealth, human, patience

http://dx.doi.org/10.29228/edu.163
To cite this article: Haji S. (2020) *Wise words of Alishir Navoi.* «Comparative Literature Studies», Issue I, pp. 92-98
Article history: received – 13.04.2020; accepted – 21.04.2020

Giriş / *Introduction*

Özbək türk ədəbiyyatının dahi irfan şairi, dəyərli alim, böyük dövlət xadimi, dilçi, filosof, arif, tərcüməçi Əmir Əlişir Nəvainin (1441-1501) hikmətləri "Xəmsə"sinə daxil olan əsərlərindən toplanmış, öncə üç dildə – özbəkcə, farsca, ərəbcə Daşkənddə [1], sonra Azərbaycan türkcəsində Bakıda çap olunmuşdur [2].

Şairin hikmətlərinin əhatə etdiyi mövzuları belə qruplaşdırmaq olar: sözün dəyəri, ana, ata sevgisi, birlik, elm, alim, vəfa, ağıl, hikmət, igidlik, eşq, aşiqlik, saleh əməl, iman, paylaşma, səbir, dünya, axirət, səxavət, tamah, halallıq, yaxşılıq, pislik, sağlamlıq, kin, paxıllıq, doğruluq, insan çeşidləri, ədalət, zülm, dost, düşmən, ləyaqət, gənclik, qocalıq, təkəbbür, ədəb...

Əsas hissə / *Main Part*

Əlişir Nəvai yuxarıda saydığımız məsələlərlə bağlı önəmli ölçülər vermişdir. Onun hikmətlərinin bir sıra qaynaqları var: şair hər şeydən öncə islami dəyərləri əsas götürmüşdür, aydın olur ki, o, Qurani-Kərimi, Allah Rəsulunun hədislərini dərindən bilir. Onun hikmətlərinin ikinci qaynağı zəngin türk-islam ədəbiyyatı, fəlsəfəsi, mədəniyyətidir.

Üçüncü qaynaq dəyərlərlə zəngin türk folkloru, etnoqrafiyasıdır. Şair bir sıra türk ata sözünün məzmununu olduğu kimi almış, onlara yeni bədii don biçərək mətnə məqsədəuyğun mənalar yükləmişdir.

Əlişir Nəvainin hikmətlərinin bir sıra özəllikləri var. Hər şeydən öncə bu hikmətlərin mövzu dairəsi genişdir. Şair demək olar ki, həyatın bütün sahələrinə aid ölçülər qoymuş, doğru yolu göstərən sözlər söyləmişdir.

Şairin hikmətlərinin ikinci özəlliyi də var, belə ki, biz bu hikmətlərdən Əlişir Nəvainin dərin alim, böyük filosof, güclü məntiq sahibi olduğunu öyrənir, insani kimliyini tanıyırıq. O, insanı çox sevir, ədalətli və mərhəmətlidir, insanları xeyirli işlərə təşviq edir, pisliklərdən çəkindirir, yoxsullara, kimsəsizlərə, yetimlərə, möhtaclara yardıma çağırır, deyir ki, siz məzlumların əlindən tutun ki, uca Allah da sizin əlinizdən tutsun. Əlişir Nəvai hikmətlərində insana iki dünya təsəvvürü verir, önəmlə vurğulayır ki, insan bu dünyada əkdiyini axirətdə biçəcək.

Əlişir Nəvainin hikmətlərinin üçüncü özəlliyi də var. Şair öyüd və nəsihətlərini zəngin məcazlarla təqdim etmiş, ideyanın (mesajın) yadda qalmasına, həyata daşınmasına yol açan obrazlara yer vermişdir.

Əlişir Nəvainin hikmətləri sırasında sözlə bağlı olanlar önəmli yer tutur. Şair deyir ki, söz insana verilmiş ilahi nemətdir, o, insanı başqa varlıqlardan seçir, ancaq insan sözün mənasını öyrənməlidir ki, faydası olsun. O, "Əvvəl düşün, sonra danış", "Sözü ağzında bişir, sonra çıxar" ata sözlərini bu biçimdə təqdim edir:

Sözü könlündə bişirmədən dilə gətirmə,
Və könlündə olan hər şeyi dilə yetirmə [2, s.26].

Əlişir Nəvai "Söz yarası qılınc yarasından acıdır" ata sözünə fərqli don biçir:

Könül sınsa bir zəban (dil) ağrısından,
Ağrısı çox olar can ağrısından [2, s.27].

Şair söz sərrafı kimdir sualına cavab verir, bu ölçünü qoyur: o, düz sözə meyil edər, ancaq hər doğru sözü demək də düz deyil.

Əlişir Nəvai yalançı adamı tanıdarkən diqqəti sözə yönəldir, deyir ki, bir adamın ki sözü yalandır, ona güvənmə, ağıllı ol, "deməli sözü de, deməməli sözü də ye".

Şair acı dili olan düşməni (doğrunu söyləyən düşməni) şirin dili olan zalım dostdan üstün tutur. Deyir ki, yalan söz insanın dəyərini itirməsinə səbəb olar:

Kim ki özü eylədi yalan sözün,
El yalan sayar onun qalan sözün [2, s.19].

Əlişir Nəvai mədəniliyin ölçüsü olaraq doğru sözü göstərir, yəni doğruları söyləyən mədəni insandır, yaxşı (doğru) söz qulağın sırğasıdır, dəyərli olmaq istəyirsənsə:

Faydasız sözü çox söyləmə,
Faydalı sözə naz eləmə! [2, s.14]

Düz sözü yalanla bəzəmə (örtmə),
Pak dili yalana bulama [2, s.14]

Əlişir Nəvainin ölçüsünə görə sözün mötəbəri, düzü, yaxşısı az olanıdır, "çox danışmaq sözü yerə vurmaqdır", çox yemək sağlamlığı, çox danışmaq da sözü öldürür:

İzzət diləsən, az de,
Səhhət diləsən, az ye [2, s.18].

Şair deyir ki, ya doğru danış, ya da sus, "düzü deyə bilməsən, yalan da danışma" [2, s.21].

Əlişir Nəvainin hikmətlərində elm, alim, cəhalət, cahil kimi məsələlər də önəmli yer tutur. O, insanları elm öyrənməyə çağırır, deyir ki, uca Allahın "oxu" əmrini yerinə yetirin, məqsədiniz elm öyrənmək olsun, o, sizə varlığın həqiqətini tanıdacaq, iki dünyanın səadət qapısının açarı elmdir. Şairə görə elm öyrənməyin, həqiqi alim olmağın əsaslarından biri səbirdir:

Az-az (addım-addım) öyrənən sonda azman olar,
Damla-damla toplanan ümman olar [2, s.13].

Səbir ilə çox düyünlər açılar,
Tələsəndə hədər yerə qaçılar [2, s.26].

Şair hikmətlərində elm öyrənməyin, alim olmağın ikinci şərtini də açıqlayır: bilmədiyini bilənlərdən soruş, utanma, təkəbbürlü olma, hər şeyi bilirəm demə, hər şeyi bildiyini düşünürsənsə, bil ki, elmə marağın ölmüş (öyrənməyin əsası maraqdır), inkişafın dayanmışdır:

Bilmədiyin soruşub öyrənən alimdir,
Ar edib soruşmayan özünə zalımdır [2, s.13].

Şairin elm öyrənmək, alim olmaqla bağlı üçüncü ölçüsü budur: elmi gəncliyində öyrən, "elm xəzinəsini gəncliyində doldur" [2, s.24].

Əlişir Nəvainin dördüncü ölçüsünə görə elm öyrənməyin, alim olmağın əsası düşüncədir, düşünməyi öyrənməkdir. Düşünməyin yolu da bilgilər, varlıqlar arasında doğru əlaqə qurmaq, nəticə çıxarmaqdır:

İnsan oğlu hansı arzusuna çatmışsa,
Bunu təfəkkürlə etmişdir [2, s.14].

Şair deyir ki, elm öyrənmək istəyirsənsə, ancaq öz ağlına arxayın olma, məsləhət yolunu seç, araşdır, soruş, elm məclislərinə get, hər gün yeni şeylər öyrən, çox oxu, oxuduğunu anlayaraq qazanca çevir.

Əlişir Nəvai insanları elmə təşviq etmək üçün yollar seçmişdir. Öncə elmin dəyərini anlatmış, İslam dininin elmə çox dəyər verdiyini açıqlamış, Allah Rəsulunun bir hədisini bədii dillə ifadə etmişdir:

Kim sənə bir hərf oxutdu haqq üçün zəhmət ilə,
Ödəmək asan deyil, haqqın min sərvət ilə [2, s.14].

Şairin insanları elm öyrənməyə təşviqinin ikinci yolu cəhalətin faciəsini göstərməkdir. O deyir ki, bütün pisliklərin səbəbi cəhalətdir. Cəhalət özünü, həqiqəti tanımamaq, həddini bilməməkdir. Şair cahil adamın əlamətlərini sayır: təkəbbürlüdür, xeyirlə şəri seçmək imkanını itirmişdir, doğru sözü dinləməz, məsləhətə ehtiyac duymaz, ehtiyacsız olduğunu düşünər, insanları xor görər... Sən cəhalət və cahillərdən qaç:

Kim ki cəhalət əhlinə yar olur,
Onun işi daim ahu-zar olur[2, s.23].

Əlişir Nəvainin ölçüsünə görə, cahil pisliklərə, harama, zülmə bulaşmış adamdır, ancaq yaxşılıqla yaxanı onun əlindən qurtara bilərsən.

Şairin insanları elmə təşviqinin üçüncü yolu da var. O, hikmətlərində alimlə cahili müqayisə edir:

Nə qalsa dünyada arifdən qalar,
Cahilin işi hey qalmaqal olar[2, s.22].

Bir avam təbibin ki şagirdi cəlladdır,
Biri zəhər, biri qılıncla "dad-fəryad"dır [2, s.22].

Əlişir Nəvai hikmətlərində alimə tərif vermişdir: o, doğrunu (həqiqəti) bilən, bildiyi ilə əməl edəndir.

Əlişir Nəvainin hikmətlərində önəmli yer tutan məsələlərdən biri də səxavətdir. O, insanın sərvət təsəvvürünü inşa edən ölçülər qoymuşdur: sərvət mülkiyyət deyil, uca Allahın əmanətidir, yığdığın deyil, payladığın sənindir, halalından qazan, halal işlərə xərclə, sərvətinin üzərində yoxsulların haqqı olduğunu bil, xəsis olma, israf etmə:

Xəzinə xeyirə olmasa yoldaş,
Onun ləbindən yaxşıdır qara daş [2, s.15].

Böyüklük səxavətdən bir nişanə(dir),
Səxavətsizi alçaldar zəmanə [2, s.16].

Kim ki səxavət əhdinə sadiqdir,
Həqiqi insan adına layiqdir[2, s.16].

Əlişir Nəvai sərvətin halal olmasına çox önəm verir, haram qazancın insanın və cəmiyyətin əxlaqını pozacağını söyləyir, "halal zəhmətlə qazanılan bir şahının müftə gələn xəzinədən yaxşı olduğunu" deyir:

Halal deyil şəfası, tikəsi də,
Nadürüstün əyridir kölgəsi də [2, s.21].

Bir quşun səxavətidirsə qanadı,
Yuvasına sonsuzdur iltifatı [2, s.21].

Yəni bir quş min bir zəhmətlə topladığı qidanı ana qayğısına möhtac olan balaları ilə paylaşdığı kimi, insan da əməyi ilə qazandığı halal sərvəti ehtiyac sahibləri ilə paylaşmalı, şəfqət, mərhəmət, ədalət, qardaşlıq duyğularını gücləndirməlidir.

Əlişir Nəvainin hikmətlərinin bir mövzusu da insanlıqdır. Şair bu məsələnin şərhində öncə insanın bu dünyadakı varlıq səbəbini izah edir, deyir ki, ey insan, sən yer üzünün xəlifəsisən, vəzifən xeyiri, bərəkəti, mərhəməti, ədaləti çoxaltmaq, insanları pis işlərdən çəkindirib, yaxşı işlərə yönəltməkdir. O, özünün bu dünyadakı varlıq səbəbini belə açıqlayır:

Nə yarlıq, nə aşiqlik həvəsimdir,
Əgər insan olsam, mənim bəsimdir[2, s.14].

Əlişir Nəvai hikmətlərində insanlığın əlamətlərini sayır, birinci sıraya düzlüyü qoyur:

Əgər düzdürsə, bir kimsənin işi,
Onun tərif ilə axı nə işi?[2, s.15]

Şair deyir ki, insanlıq başqasına zərər verməməkdir, kim zülm edirsə, onun qəlbi yoxdur. O, insanları iki yerə ayırır: yaxşılar və pislər. Onlar arasındakı fərqi göstərmək üçün meyvə obrazını seçir, meyvənin qabığı və içi var, pis insanlar qabıq, yaxşı insanlar içdir.

Əlişir Nəvainin ölçüsünə görə ləyaqət, ədəb, vəfa, həya insanlığın əsaslarıdır:

Ləyaqət tapmaz ədəbsiz adamlar,
Fələyin çərxi onları alçaldar [2, s.22].

Vəfasızda həya yox,
Həyasızda vəfa yox [2, s.13].

Əlişir Nəvai insana müraciət edir, insanların havası, suyu, dərmanı, qidası ol, elin qəmini çəkməyənin insanlıqda payı yoxdur. Şair ideyanın ifadəsi üçün "Özün üçün istəmədiyini başqası üçün də istəmə" ata sözünü bu biçimdə təqdim edir:

Özgəsinə görmə rəva heç nəyi,
Özünə heç rəva görmədiyin şeyi [2, s.26].

Əlişir Nəvai mərdliyi insanlığın ən önəmli göstəricilərindən biri kimi tanıdır. Şairə görə mərdliyin bəzəyi ağıl və hikmətdir. Mərd insan təmənna ilə iş görməz, o, acları doyurar, geyindirər, kimsəsizlərin əlindən tutar, onları darda qoymaz:

Mərd adam hər zaman bilər yerini,
Etdiyi mindirsə, deməz birini[2, s.19].

Əlişir Nəvai hikmətlərində yaxşılıq və pislik anlayışlarının tərifini vermişdir. Şair çox zaman bu iki anlayışı bir yerdə izah edir ki, həqiqət açıq biçimdə ortaya çıxsın. O, insana öyüd verir:

yaxşılıqla pislik arasında tərəddüd etmə, yaxşını seç, yoxsa iki gəmidən yapışan qərq olduğu kimi, sən də həlak olarsan. Şair yaxşılıq və pisliyin nəticəsini açıqlamaq üçün "Nə əkərsən, onu biçərsən" ata sözündən bu biçimdə yararlanmışdır:

Bibər əkən kəs acı bibər tapar,
Şəkər qamışı əkən şəkər tapar [2, s.24].

Adam möhür içrə nəyi gəzdirsə,
Vərəqdə də üzə çıxar o nəsnə [2, s.24].

Kimsə nə vaxt torpağa əksə buğda,
Ola bilməz ki, sonda yığsın arpa [2, s.24].

Əlişir Nəvai yaxşılıq və pislik anlayışlarına tərif verərkən "Özgəyə quyu qazan özü düşər" atalar sözündən də istifadə edir:

Kim ki quyu qazsa özgəyə əgər,
Qazdığı quyuya o özü düşər [2, s.28].

Əlişir Nəvai deyir ki, minnət qoymaq yaxşılığın savabını yox edər, kin duyğusu pisliyi çoxaldar, yaxşılıq könül rahatlığıdır, o, insana hüzur verər, tamah insanı yoldan çıxarar, rüsvay edər, çox yemək fitrəti pozar...

Əlişir Nəvainin hikmətlərinin dili məcazlarla zəngindir, o, ideyanın anlaşılması üçün xalq deyimlərinə yer vermiş, yaddaqalan obrazlar seçmişdir. Şair fikrini sadə bir dillə ifadə etmək üçün bu ata sözlərinin forma və məzmunundan yararlanmışdır: "Tək əldən səs çıxmaz", "Dama-dama göl olar", "Nə əkərsən, onu biçərsən", "Özgəyə quyu qazan özü düşər", "Artıq tamah baş yarar", "Tələsən təndirə düşər", "Əvvəl düşün, sonra danış", "Qılınc yarası sağalar, söz yarası sağalmaz", "Sözü ağzında bişir, sonra çıxar", "Yaxşılıq et, at dəryaya, balıq bilməsə də, Xaliq (Yaradan) bilər".

Nəticə / *Conclusion*

Bir məqalədə Əlişir Nəvainin bütün hikmətlərini təhlil etmək imkansızdır. Nəticə olaraq, onu deyə bilərik ki, şairin hikmətləri türk mədəniyyətinin ayrılmaz bir parçasıdır, içində dəyərlər var. Bu dəyərlər varlığı, insanı, həqiqəti tanımaq üçün önəmli ölçülər verir.

Ədəbiyyat / *References*

1. Alişer Navoiy. Xikmatlari. Toşkent, 2019.
2. Əlişir Nəvai. Hikmətli sözlər. Bakı, 2020.

Мудрые слова Алишира Навои

Сираджеддин Гаджи
Доктор философии по филологии, Институт Литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: siraceddin-haci@rambler.ru

Резюме. В статье раскрываются источники мудрых изречений Алишира Навои и упоминаются три источника: исламская культура, тюрко-исламская литература и тюркский фольклор. Автор исследовал художественные особенности языка и стиля крылатых слов Алишира Навои. В статье были проанализированы мудрые изречения Алишира Навои про слово, науку, родительскую любовь, единство, верность, мудрость, храбрость, любовь, веру, богатство, доброту, милосердие, терпение, мир, потусторонний мир, жадность, справедливость, угнетение, дружбу, вражду, достоинство, старость, высокомерие и порядочность.
Ключевые слова: Алишир Навои, мудрость, слово, наука, богатство, человек, терпение

Nizami xəzinəsi və Nəvai heyrəti

Təhminə Bədəlova
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: tehmine_b@mail.ru
https://orcid.org/0000-0001-8129-874X

Annotasiya. İctimai-siyasi, sosial, etik-əxlaqi məsələlərə o zamanadək müşahidə olunmayan tamam fərqli münasibət sərgiləyən Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi yaratdığı ölməz bədii söz abidələri ilə özünəqədərki "ədəbi ehkamları"n tilsimini sındırdı və nəinki Şərq, bütün dünya ədəbiyyatı miqyasında yeni, orijinal, əsas qayəsi insanlığın tərənnümü olan sənətkarlıq meyarlarını silinməz möhürü ilə - dahiyanə təfəkkür məhsulu olan sənət möcüzələri ilə təsdiqləmiş oldu. XIX əsrin ilk dönəmlərinədək Şərq ədəbiyyatının əsas mövzu istiqamətləri, sənətkarlıq kriteriyaları məhz Nizami Gəncəvi ədəbi məktəbinin ənənələri əsasında inkişaf etmişdir. Təkcə mənsub olduqları milli ədəbiyyatlarda deyil, dünya poeziyasında şərəfli yer tutan Şərqin bir çox düha sahibləri azərbaycanlı söz ustadını özünə müəllim bilmiş, onun qələmə aldığı mövzularda əsər yaratmaq istəyini belə, böyük imtahan və şərəfli iş hesab etmişlər. Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Əbdi Bəy Şirazi, Əşrəf Marağayi, Xacu Kirmani, İsmayıl Əbcədi və yüzlərlə sənətkar Azərbaycan şairinin ədəbiyyata gətirdiyi mövzu və motivləri, poetika sənətinin incəliklərini fərqli ədəbi-bədii mühitdə, fərqli təbii-coğrafi arealda öz milli mədəniyyətləri ilə sintezləşdirərək dünya ədəbiyyatı xəzinəsini ölməz əsərlərlə zənginləşdirmişlər. Ümumiyyətlə, Nizami Gəncəvi ədəbi məktəbi ənənələrinin davamı və inkişafında şairin ardıcıllarının da çox böyük rolu olmuşdur. Bu məktəbin ən məşhur və yaradıcılığı dünya miqyasında əhəmiyyət kəsb edən sənətkarlardan biri də XV əsr şairi, klassik özbək ədəbiyyatının banisi, ədəbiyyat və dövlət xadimi Əlişir Nəvaidir. Məqalədə Nizami Gəncəvinin "Məxzənül-əsrar" məsnəvisi və Əlişir Nəvainin ona nəzirə yazdığı "Heyrətül-əbrar" əsərinin müqayisəli təhlili verilmiş, özbək şairinin sələfi haqqındakı düşüncələri incələnmişdir. Tədqiqat zamanı hermenevtik üsuldan və tarixi-müqayisəli metoddan istifadə edilmiş, hər iki şairin məsnəvilərindən örnəklər gətirilmiş və mövzu ilə bağlı mövcud tədqiqatlardan, yeri gəldikcə, fikirlərimizi təsdiqləyən sitatlar verilmişdir.

Açar sözlər: Nizami, Nəvai, "Sirlər xəzinəsi", "Heyrətül-əbrar", nəzirə, cavab, təsir, ədəbi ənənə

http://dx.doi.org/10.29228/edu.139
Məqaləyə istinad: Bədəlova T. (2020) *Nizami xəzinəsi və Nəvai heyrəti.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 99-109
Məqalə tarixçəsi: göndərilib – 15.06.2020; qəbul edilib – 21.06.2020

Nizami's treasury and Navai's wonder

Tahmina Badalova
Doctor of Philosophy in Philology, Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: tehmine_b@mail.ru
https://orcid.org/0000-0001-8129-874X

Abstract. Azerbaijani thinker Nizami Ganjavi, who had a completely different attitude to social, political, public and ethical issues that had never been observed before, broke the spell of the "literary works" with his endless artistic monuments and not only in the East, but also in whole world literature has endorsed new, original mastery criterias that its basis was the praise of humanity with his indestructible stamp – art wonders being a product of genius thinking. Until the early 19th century the main subject of the Oriental literature, criterias for mastery had developed on the basis of only Nizami Ganjavi's traditions of literary school. Many geniuses not only in the national literature, but in the East having an honorable place in world poetry, accepted the Azerbaijani word master as their teacher, and were of the opinion that even writing on the topics he wrote, was a great exam and honorable thing. Amir Khosrov Dehlevi, Abdurrahman Jami, Alishir Navai, Abdi Bey Shirazi, Ashraf Maragayi, Haju Kirmani, Ismail Abdi and other hundreds of masters had enriched the treasury of world literature with everlasting works by synthesizing the topics and motives by the Azerbaijani poet and all niceties of poetry with their national cultures in a various environment and natural-geographical area. In general, the poet's contemporaries have a great role in development and continuation of Nizami Ganjavi literary school traditions. One of the most famous members of this school is a poet of the XV century, founder of the classic Uzbek literature, statesman Alisher Navai. The article analyzes the masnavi "The Treasury of Mysteries" by Nizami Ganjavi and the imitative poem "Hayrat ul-Abror" ("Wonders of Good People") by Alishir Navai comparatively, and examines the opinions of Uzbek poet about his predecessor. The hermeneutic and the comparative-historical methods have been used during the study, examples from masnavis by both poets have been given and cited from the available researches on the subject confirm our thoughts.
Keywords: Nizami, Navai, "The Treasury of Mysteries", "Hayrat ul-Abror" ("Wonders of Good People"), imitative poem, answer, influence, literary tradition

http://dx.doi.org/10.29228/edu.139
To cite this article: Badalova T. (2020) *Nizami's treasury and Navai's wonder*. «Comparative Literature Studies», Issue I, pp. 99-109
Article history: received – 15.06.2020; accepted – 21.06.2020

Giriş / *Introduction*

İctimai-siyasi, sosial, etik-əxlaqi məsələlərə, ədəbi-bədii qaydalara o zamanadək müşahidə olunmayan tamam fərqli münasibət sərgiləyən Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi yaratdığı ölməz söz abidələri ilə özünəqədərki "ehkamları"n tilsimini sındırdı və nəinki Şərq, bütün dünya ədəbiyyatı miqyasında yeni, orijinal, əsas qayəsi insanlığın tərənnümü olan sənətkarlıq meyarlarını

silinməz möhürü ilə – dahiyanə təfəkkür məhsulu olan sənət möcüzələri ilə təsdiqləmiş oldu. XIX əsrin ilk dönəmlərinədək Şərq ədəbiyyatının əsas mövzu istiqamətləri, sənətkarlıq kriteriyaları məhz Nizami Gəncəvi ədəbi məktəbinin ənənələri əsasında inkişaf etmişdir. Təkcə mənsub olduqları milli ədəbiyyatlarda deyil, dünya poeziyasında şərəfli yer tutan Şərqin bir çox düha sahibləri azərbaycanlı söz ustadını özünə müəllim bilmiş, onun qələmə aldığı mövzularda əsər yaratmaq istəyini belə, böyük imtahan və şərəfli iş hesab etmişlər. Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Əşrəf Marağayi, Xacu Kirmani, Əbdi Bəy Şirazi, İsmayıl Əbcədi və yüzlərlə sənətkar Azərbaycan şairinin ədəbiyyata gətirdiyi mövzu və motivləri, poetika sənətinin incəliklərini fərqli ədəbi-bədii, milli-mədəni və dini mühitdə, fərqli təbii-coğrafi arealda öz yerli mədəniyyətləri ilə sintezləşdirərək dünya ədəbiyyatı xəzinəsini ölməz əsərlərlə zənginləşdirmişlər.

Əsas hissə / *Main Part*

Nizami mövzu və süjetlərinin yayıldığı ərazinin genişliyi, onlara müraciət edən sənətkarların və yazılmış əsərlərin sayını göstərən rəqəmlər dünya ədəbiyyatının heç bir digər nümayəndəsinin yaradıcılığının təsir dairəsi ilə müqayisəolunmaz dərəcədə böyükdür. Və bu rəqəmlər, təbii ki, yalnız əldə edilə bilən əsərlərin sayını göstərir.

Professor Qəzənfər Əliyev şairin əsərlərinin yayıldığı coğrafi arealın əhatə dairəsinin böyüklüyünü vurğulayaraq yazırdı: "Nizami "Beşlik"inin mövzu və süjetləri Bosfordan Himalayadək çox geniş bir ərazidə ədəbi prosesin sərvətinə çevrilmişdir" [1, s.23]. Şairin yaradıcılığının İranda ən məşhur və yorulmaz naşiri və tədqiqatçısı Vəhid Dəstgirdinin bu xüsusda mübaliğəli də olsa, həqiqətdən uzaq olmayan fikri vardır: "...Əgər dünyanın bütün böyük kitab anbarlarında yaxşıca işləsək, Nizami əsərlərinin təsiri ilə yazılmış minlərlə məsnəvi-poema aşkar etmək olar" [1, s.8]. SSRİ EA-nın müxbir üzvü Y.E.Bertels də haqlı olaraq qeyd edirdi ki, əgər təkcə Nizamini təqlid edən yazıçıların adlarını saymaq istəsək, "o zaman biz Yaxın Şərq xalqlarının ədəbiyyatlarının bütün tarixini şərh etməli olardıq" [2, s.144]. Müxtəlif xalqların görkəmli söz və düşüncə adamlarından gətirilən bu sitatların sayını artıra da bilərik. Bütün bunlar Azərbaycan şairinin dünya ədəbi-fəlsəfi fikri tərəfindən qəbul edildiyini əyani şəkildə göstərməkdədir.

"Nizami üslubu", "Nizami tərzi", "Nizami mövzu və süjetləri" kimi ifadələrin ədəbiyyatşünaslıq elmində sabitləşməsi də şairin sözünün qüdrəti və hikmətinin dərinliyindən, ölməzliyindən xəbər verir. AMEA-nın müxbir üzvü Nüşabə Araslı "Nizami və türk ədəbiyyatı" monoqrafiyasında yazır: "Nizami irsini öyrənmək, şairin ədəbiyyata gətirdiyi qabaqcıl ənənələri davam və inkişaf etdirmək orta əsrlərdə mədəni tələbata, ədəbi-bədii inkişafın doğurduğu bir zərurətə çevrilmiş və az qala bütövlükdə klassik Şərq ictimai-bədii fikrinin inkişafında ədəbi zəmin rolu oynamışdır" [3, s.10].

Məlumdur ki, Nizami Gəncəvi ədəbi məktəbi ənənələrinin davam və inkişafında şairin ardıcıllarının çox böyük rolu olmuşdur. Bu məktəbin ən məşhur nümayəndələrindən və yaradıcılığı dünya miqyasında əhəmiyyət kəsb edən sənətkarlardan biri də XV əsr şairi, klassik özbək ədəbiyyatının banisi, dövlət xadimi Əlişir Nəvaidir. Akademik Teymur Kərimli özbək şairinin "Səddi-İskəndəri" məsnəvisindəki "İməs asan bu məydan içrə durmaq, / Nizami pəncəsinə pəncə vurmaq!" beytindəki fikirlərini şərh edərək yazır: "Dahi özbək şairi haqlıdır: Nizami məktəbinin yüzlərlə nümayəndəsi olsa da, onlar arasında dahi Azərbaycan şairinin səviyyəsinə yaxınlaşmaq az adama qismət olmuşdur ki, onlardan biri də Əlişir Nəvaidir" [4, s.22].

Türk xalqlarının yetirdiyi görkəmli şəxsiyyətlərindən olan Əlişir Nəvai ədəbi, fəlsəfi və nəzəri əsərləri ilə dünya elmi və bədii fikrini zənginləşdirən qiymətli xəzinə yaratmışdır. Nəvainin ictimai Xadim kimi fəaliyyəti, elm və sənət adamlarına himayədarlıq etməsi ilə yanaşı, türk dili və ədəbiyyatının inkişaflnda da əvəzsiz xidmətləri olmuşdur. Bu da, təbii ki, ilk növbədə sənətkarın türk dilinə böyük sevgisi və müasirləri fars dilində yazdığından doğma dilin ədəbiyyatdan kənarda qalmasından dolayı keçirdiyi narahatlıqla bağlı idi. Odur ki, Əlişir Nəvai o zaman ədəbiyyatda hələ də fars dilinin üstün mövqedə olmasına və özünün də fars dilini gözəl bədii örnəklər yarada biləcək

səviyyədə dərindən bilməsinə, fars dilində "Divan" bağlamasına baxmayaraq doğma ana dilində dünya ədəbiyyatının ən görkəmli nümunələri ilə yarışa biləcək möhtəşəm əsərlərini yaratdı və bununla da fars dilində yazan türk şairlərinə qarşı sanki "üsyan etdi", türk dilinin zənginliyini, əsl sənət və şeir dili olduğunu, ən dəruni incə hissləri ifadə etmək qüdrətinə malik olduğunu sübuta yetirən, ömrünün sonunda qələmə aldığı "Mühakimətül-lüğəteyn" əsəri ilə müasirlərini doğma dildə yazıb-yaratmağa ruhlandırdı. Dosent Zəhra Allahverdiyeva çox doğru olaraq qeyd edir ki, "...Nəvai Şərq-islam ədəbiyyatının fəlsəfi-ideya və poeziya estetikasını milli özünüdərk və türk dil faktoru ilə daha da zənginləşdirdi" [5, s. 292].

Nəvainin bir-birindən dəyərli 16 mənzum və 16 mənsur əsəri olsa da, onu elm və sənət aləmində daha çox tanıdan və yaşadan türk dilindəki ilk "Xəmsə"si, şeirlərinin toplandığı "Divan"ları, "Mühakimətül-lüğəteyn" əsəri və "Məcalisün-Nəfais" təzkirəsidir. Özündən əvvəlki maddi-mədəni və ədəbi irsi dərindən mənimsəyən özbək mütəfəkkiri sonrakı nəsil ədəbiyyatına da güclü təsir etmiş, Şərqin bir çox görkəmli qələm sahibləri – XV əsr şairlərindən Əhməd Paşa, Nemətullah Kişvəri, XVI əsr Azərbaycan şairi Məhəmməd Füzuli, XVII-XVIII əsrlərin türk şairi Əhməd Nədim, XVIII əsr türkmən şairi Məhtimqulu, XIX əsr türk şairi Ziya Paşa, qazax şairi Abay Kunanbayev, tatar şairi Abdulla Tuqay və başqa sənətkarlar Nəvai sənətinin təsirilə əsərlər yazmışlar. Akademik Həmid Araslının da qeyd etdiyi kimi, Nəvai Nizami yaradıcılığından necə istifadə edib qidalanmışdırsa, ondan sonra gələn sənətkarlar da Nəvai yaradıcılığından bəhrələnmişlər [6, s.674].

Şairin "Xəmsə"sinə daxil olan məsnəvilərin girişlərində yer alan fikirlərdən də göründüyü kimi, Nizami mövzularında əsər yazmaq özbək sənətkarı üçün öz qüdrətini, şairlik istedadını təsdiqləməyə imkan verən bir "yarış meydanı" idi. Nizami Gəncəvinin mövzu və süjetlərini öz əsərlərinə mənbə götürən bütün qələm sahibləri kimi, Nəvai də sələfinin qüdrətini, sözünün, kəlamının gücünü etiraf etmiş, onun səviyyəsində əsər yarada bilmək üçün Tanrıya üz tutaraq yardım istəmişdir. Şair üçün "Xəmsə" mövzularında əsər yaza bilmək – söz sənətinin hünərinə sahib olmaq deməkdir. Təsadüfi deyil ki, sözün tərifinə həsr etdiyi fəsildə deyir:

Ёраб ани халқ дил афрўзи эт,
Хаста Навоийга доғи рўзи эт [7, s.61].

(Yarəb, onu (sözü) xalqın ürəyini işıqlandıran et, Biçarə Nəvaiyə dəxi ruzi et)

Nizami Gəncəvi "Xəmsə"sinin ilk məsnəvisi olan "Məxzənül-əsrar" XII əsr Azərbaycan intibahının əsasını qoyan əsərlərdəndir. Nəvai "Xəmsə"sinin ilk əsəri, 1483-cü ildə qələmə alınmış "Heyrətül-əbrar" da Nizami "Xəmsə"sini açan məsnəviyə nəzirə olaraq yazılmışdır. Bəzən tədqiqatçılar "Heyrətül-əbrarın" üç əsərə – Nizami Gəncəvinin "Məxzənül-əsrar", Əmir Xosrov Dəhləvinin "Mətləül-ənvar" və Əbdürrəhman Caminin "Töhfətül-əhrar" əsərlərinə nəzirə olaraq yazıldığı fikrini irəli sürürlər [8, s.29]. Lakin Sovet şərqşünası Yevgeni Bertels Caminin əsərinin özbək şairinin eyni mövzudakı məsnəvisinə "hələ təsir etmədiyini" [9, s.213] yazır. Çox güman ki, alimin bu fikrə gəlməsinə səbəb hər iki əsərin yazılma tarixi arasındakı zaman məsafəsinin qısa, təxminən bir-iki il olmasıdır. Halbuki Caminin əsərinin yenicə yazıldığına baxmayaraq, (1481-1482) hər iki söz sənətkarının yaxın münasibətdə olduğunu və Nəvainin "Heyrətül-əbrar"ın Camiyə həsr olunmuş fəslində "Töhfətül-əhrar"ı oxuduğunu, ustadının kəlamına heyran qaldığını, ondan ilhamlandığını etiraf etdiyini, hətta Caminin əsərini Nizami və Dəhləvinin məsnəviləri ilə qarşılaşdırdığını, onun həcmcə əvvəlki iki məsnəvidən kiçik olsa da, məna yükü baxımdan dəyərli olmasına dair fikirlərini, "Heyrətül-əbrar"ı tərif edərkən onu eyni mövzuda daha əvvəl yazılmış məhz üç əsərə nəzərən qiymətləndirməsini və s. fikirlərini nəzərə alsaq, sözügedən təsirin mümkünlüyü tamamilə aydın olar.

Ул икини топса бўлур мунда ўқ,
Мунда туҳаф кўпки, ул иккида йўқ [7, s.53].

(O, oxunu (mili, iyi) tapsa, bunda ox (məhvər) olur (Nizami və Dəhləvinin məsnəvilərinin mənaları, məzmunu bunda gizlənmişdir), bunda töhfə(lər) *(tühəf-aztapılan qəribə qiymətli şey, əntiq şey kimi də tərcümə oluna bilər)* çoxdur, o ikisində yük - bar (varlıq üçün mövcud olan hər şey))

Gördüyümüz kimi, şair çarxın oxu (iyi) və silah ox; töhfə (bəxşiş) və yük (bar) sözlərini elə düzmüşdür ki, ikinci misradakı sözlər çarpaz şəkildə birinci misradakı sözləri izah edir. Sözün poetik imkanlarından bəhrələnən sənətkar "məani və ləfz" sənətinin gözəl nümunəsini yaratmışdır.

Nəvai sanki türk dilinin inkişafı uğrunda apardığı mübarizəni sələflərinin fars dilində yaratdığı "Beşlik"lərlə eyni səviyyədə dayanan, "onlarla pəncə-pəncəyə gələ bilən" "Xəmsə"si ilə davam etdirmiş və türk dilinin bədii imkanlarını illüstrativ şəkildə sübuta yetirmişdir. Şair özü də yazır ki, farsdilli xalqlar Nizami, Dəhləvi və Cami "Xəmsə"sini oxumaqdan məmnundurlar və o, eyni səadəti türk xalqlarına da bəxş etmək istəmiş və türk dilində ilk "Beşlik" xəzinəsini ərsəyə gətirmişdir.

Форси ўлди чу аларға адо,
Турки ила қилсам ани ибтидо.
Форси эл топти чу хурсандлиқ,
Турки доғи топса берумандлиқ [7, s.53-54].

(Onların əsərləri fars dilində yazılıb, Onu türk dilində başlasam. Fars xalqı ondan məmnunluq tapdı, Türklər dəxi iltifat tapsalar...)

Özbək şairi azərbaycanlı sələfinin əsərinin ideya və mövzusunu öz dövrünün ictimai-siyasi şəraitindən çıxış edərək işləmiş və nəzirənin tələblərinə uyğun olaraq arxetip əsərin vəzn və quruluşunu saxlamışdır.

3988 beytdən ibarət olan "Heyrətül-əbrar" şərti olaraq iki hissəyə ayrılmış altmış dörd başlıqdan ibarətdir. Əsərin əsas məğzini Nizaminin əsərindəki kimi 20 məqalət və oradakı fəlsəfi-nəzəri müddəaların əyani ifadəsi olan 20 hekayət təşkil edir. Əvvəlki 21 hissə (2 tovhid, 4 minacat, 5 nə`t, Nizami Gəncəvi, Xosrov Dəhləvi və Əbdürrəhman Camiyə həsr edilmiş 2 hissə, sözün fəzilətlərindən bəhs edən 2 hissə, Hüseyn Bayqaraya həsr edilmiş 1 hissə, könülün tərifinə 1 hissə, 3 "Heyrət" və Bəhaəddin Nəqşbəndiyə həsr edilmiş 1 hissə) "müqəddimə", başqa sözlə, ənənəvi rəsmi başlıqlardır. Məsnəvinin sonunda isə əsəri tamamlayan daha üç hissə verilmişdir. Şairin fəlsəfi düşüncələri və bədii təfəkkürünün aynası olan əsərdə onun dünya, həyat, insan və cəmiyyət, batini və zahiri aləm, qəlbin halları və s. haqqında düşüncələri tarixi hadisələr, əfsanə və rəvayətlərdən əxz edilmiş süjetlər vasitəsilə çatdırılmışdır. Yevgeni Bertelsin verdiyi qiymətə görə, Nizaminin "Məxzənül-əsrar"ına yazılmış nəzirələr içərisində ondakı siyasi kəskinliyi qoruyub saxlayan yeganə əsər "Heyrətül-əbrar"dır [9, s.213]. Həqiqətən də şair yüksək dövlət xidmətində olsa da, saray əyanı hesab edilsə də, dövründə geniş yayılmış sosial qüsurların ifşasından çəkinməmişdir.

Nəvainin də əsəri böyük sələfi kimi, "Qurani-Kərim"dən təzminlə başlayır. Nizami əsərini artıq aforizmə çevrilmiş aşağıdakı beytlə açır:

بسم الله الرّحمن الرّحيم **هست كليد در گنج حكيم** [10, s.1]

(Bismillahir-rəhman-ir rəhim – Həkimin (Allahın adlarından biri) xəzinəsinin qapısının açarıdır)

Yeri gəlmişkən, qeyd edək ki, beytin ikinci misrası Nizami ədəbi məktəbinin XVI əsrdə davamçısı Əbdi Bəy Şirazi tərəfindən çox maraqlı şəkildə təzmin edilərək gəncəli ustadın öz sənətinə şamil edilmişdir:

خامۂ نظمش ببيان سليم **هست كليد در گنج حكيم** [11, s.34]

Əgər Nizami "**بسم آالله الرحمن الرحيم**" ayəsini "*hikmət xəzinəsinin qapısının açarı"* adlandırırsa, ibrətamizdir ki, Əbdi Bəy Şirazi isə Nizaminin özünün doğrunu, gerçəkliyi bəyan edən "nəzm qələmini" "hikmət xəzinəsinin qapısının açarı", - deyə mədh edir.

Əlişir Nəvai isə "Heyrətül-əbrar"ı belə başlayır:

بسم الله الرّحمن الرّحيم ريسته غه چيكتى نيچه در يتيم

Бисмиллоҳир-раҳмонир-раҳим,
Риштаға чекти неча дурри ятим [7, s.5].

(Rəhmli və Rəhman Allahın adı ilə bir çox böyük incini (bir sədəf içində olan tək, böyük mirvarini) sapa (ipə) düzdü)

Təbii ki, Nəvai "dürri-yetim" deyərkən yazacağı "Xəmsə"ni təşkil edəcək məsnəviləri nəzərdə tutmuşdur. Yevgeni Bertels də şairin bu misralarını Nizami və Əmir Xosrovun "Beşlik"lərinə nəzirə yazmaq niyyətinin izharı kimi izah edir [9, s.213].

Nəvai də məsnəvidəki rəsmi-dini başlıqlara xüsusi diqqət yetirmiş və artıq qeyd etdiyimiz kimi, əsərə iki tövhid, dörd minacat və beş nə`t yazmışdır. Bu hissələrdən dərhal sonra isə şair özündən əvvəlki "Xəmsə" müəlliflərinin – Nizami və Dəhləvinin, dostu və müəllimi Caminin sənətindən söz açır, professor Xəlil Yusiflinin sözləri ilə desək, "onlara öz ehtiramını bildirməklə yanaşı, Şərqin adıçəkilən söz sənətkarlarının yaradıcılığına bir növ qiymət verir" [12, s.5]. Qeyd edək ki, özbək şairi bir qayda olaraq, hər bir əsərində Nizami Gəncəvini yad etməyi unutmamış və hər dəfə də onun sənətinə heyranlığını bildirmişdir. "Heyrətül-əbrar"da şair sələflərinə həsr etdiyi fəslin elə sərlövhəsindən başlayaraq ustadlarını dəyərləndirir: **"*Ҳазрати Шайхи Низомий мадҳидаким, назм мулкида зўр бозу сар панжаси била панж ганж нуқуду жавоҳирин олди ва Амири Хисрав таърифидаким, бу жавоҳир ва нуқуд тамаидин панжа анинг панжасиға солди*"** (*Həzrət Şeyx Nizami mədhində, nəzm mülkündə qüdrətli biləyi və pəncəsi ilə beş xəzinə nağd (hazırda meydanda olan) cəvahiri aldı və Əmir Xosrov tərifində, bu cəvahir və nağd həvəsi ilə pəncəsini onun pəncəsinə saldı)*. Gördüyümüz kimi, burada Əmir Xosrovun da Nizami davamçısı olduğu xüsusi qeyd edilmişdir. Daha sonra Nəvai ilk olaraq Nizami Gəncəvidən bəhs edərək onu "*Gözəl və aydın danışmaq qabiliyyəti olanların (söz sənətkarlarının) dəstəsinin başının tacı, Həqiqət xəzinəsinin tacının gövhəri, Fəzilət mədəninin gövhərinin əmanət saxlayanı, Bəlağət dənizi içərisində qiymətli gövhər və s."* adlandırır:

Хайли фасоҳат бошининг афсари,
Ганжи яқин афсарининг гавҳари.
Кони фазилат гуҳариға амин,
Баҳри балоғат аро дурри самин [7, s.46].

"Gəncə vətən, könli anın gəncxiz", – deyən Nəvai Nizaminin könlünün Gəncədə xəzinələr yaratdığını, özünün xəzinədar, dilinin isə xəzinəsaçan olduğunu söyləyir. Şairin gəncəli müdrikin "Xəmsə"sini dəyərləndirən misraları daha təsirli və ibrətamizdir. Nizami xəzinəsinə Nəvainin əsl heyrəti məhz bu parçalarda özünü büruzə verir:

Фикрати мизони бўлуб хамсасанж,
«Хамса» дема, балки дегил панж ганж.
Каффаи мизон анга афлок ўлуб,
Ботмони тоши кураи хок ўлуб [7, s.46].

(Onun fikir tərəzisi xəmsəçəkən oldu, "Xəmsə" demə, bəlkə pənc gənc (beş xəzinə) de. ("Xəmsə"ni çəkərkən) tərəzinin gözləri fələklər, çəki daşları isə Yer kürəsi oldu)

Zənnimizcə, Nizami sənətinin "çəkisini", "ağırlığını" bundan daha gözəl və heyrətamiz şəkildə ifadə etmək olmazdı. Hətta şair bədii təsvir vasitəsindən elə incəliklə və yerli-yerində istifadə etmişdir ki, mübaliğənin özü belə, tamamilə təbii görünür.

Тортса юз қарн хирад хозини,
Чекмагай анинг кўпидин озини [7, s.46].

(Ağıl xəzinədarı (yəni, elm, düşüncə sahibləri) onun "Xəmsə"sindəki dərin mənaları yüz əsr boyunca çəksə, yalnız çox az bir hissəsini (çoxundan azını) belə, çəkməyə, yəni dərin mənalarını açmağa, dərk etməyə nail ola bilməz)

(Beytlə bağlı bir məqamı diqqətə çatdırmaq istərdik: məsnəvinin rus dilinə tərcüməsində (qədim özbək dilindən V.Derjavin tərcümə etmişdir) tərcüməçi "қарн" sözünü "qərinə" (1 qərinə = 33 il) kimi çevirdiyindən misra "Не взвесить и не счесть за триста лет" ("Üç yüz ilə də çəkə və hesablaya bilməz") (https://librebook.me/smiatenie_pravednyh/vol1/2) kimi verilmişdir. Lakin "Alisher Navoyi Asarlari Tilining Izohli Lug'ati: IV"-də (https://archive.org/stream/AlisherNavoyi AsarlariTiliningIzohliLugatiIV) "қарн" sözünün mənası "əsr, dövr" kimi göstərilmişdir. Bəzən isə eyni söz "qəm" kimi oxunub izah edilmişdir. Lakin adını çəkdiyimiz "İzahlı lüğətdə" beyt eynilə bu şəkildədir).

Nəvai ustadının təxəllüsünün – "Nizami" adının da ona göylər – fələklər tərəfindən verildiyini və Allahın min bir xüsusiyyəti olduğu üçün bu adın (əbcəd hesabı ilə) da min birə bərabər olduğunu yazır:

Нозим ўлуб сўз дури серобиға,
Чарх «Низомий» ёзиб алқобиға [7, s.46].
(Nazim olub söz dürlərini incəliklə düzdüyü üçün çərx ona "Nizami" adını layiq bildi)

Növbəti beytlərdə şairin Nizaminin öz təxəllüsü ilə bağlı "Leyli və Məcnun"da verdiyi məlumata – "Nizami"nin əbcəd hesabı ilə 1001-ə bərabər olmasına dair işarəsindən də məlum olur ki, özbək şairi onun bütün əsərlərini dərindən bilmişdir. Nəvai, Nizami-Dəhləvi ədəbi münasibətlərinə də özünəməxsus şəkildə toxunmuş, "*Nizami harada çadır qurdusa, Dəhləvi orada qonaqlıq etdi; Dəhləvi artıq onun yolu ilə gedərək nə vardısa götürmüşdür, ondan sonra nəzirə yazanlara ancaq "zir-zibil" qalmışdır*" – deyə hind şairinin Nizaminin izi ilə getdiyini, onun ədəbi məktəbinin davamçısı olduğunu özünəməxsus şəkildə ifadə etmişdir.

Əsərin Camiyə həsr olunmuş fəslində də maraqlı müqayisələrlə qarşılaşırıq. Nəvai sələflərinin – Nizami, Dəhləvi, Cami və özünün əsərini qarşılaşdırır və maraqlıdır ki, "Məxzənül-əsrar"ı oda, "Mətləül-ənvar"ı havaya, "Töhfətül-əhrar"ı suya və "Heyrətül-əbrar"ı isə torpağa bənzədir.

Бўлса ўту сувў ҳаво дилпазир,
Ул аро туфроқ ҳам эрур ногузир [7, s.54].
(Od, su və hava məqbulluq tapdısa (könüllərə yol tapdısa), / Onların arasında topraq da lazımdır)

Sonrakı beytlərdə də müqayisələr davam etdirilir: sələflərinin əsərlərini sərv, gül və laləyə, öz əsərini isə oduna (ağaca); müvafiq olaraq – xəz, atlas, ipək və palaza (keçəyə); ləl, yaqut, dürr və kəhrəbaya bənzədir.

Сарву гулу лола харидори бор,
Лек ўтуннинг доғи бозори бор.
Бўлса хазу атласу иксун либос,
Ит жули қилмоққа ярар ҳам палос.
Лаъл ила ёқуту дур истар баҳо,
Лек сомонники чекар каҳрабо [7, s.55].

(Sərv, gül və lalənin xiridarı (alıcısı) var, Lakin odunun da bazarı var. Libası xəz, atlas və ipək olsa da, Palaz da it çulu qılmağa yarayar. Ləl ilə yaqut və dürrü baha istəyərlər, Lakin samanı (təkcə) kəhrəba cəlb edər)

Bu misralarda Şərqin zəngin düha sahiblərinin yaradıcılığına verilən yüksək qiymətlə yanaşı, onlarla eyni səviyyədə dayanan, sələflərinin "yolu ilə getdiyini, onları kölgətək izlədiyini" etiraf etməklə bərabər, bunu özünə şərəf işi sayan Nəvainin bir şəxsiyyət kimi uca, ali keyfiyyətlərə sahib olduğunun, incə əxlaqa yiyələndiyinin, təvazökarlıq və alicənablığın ən zərif məqamlarına vaqif-liyinin şahidi oluruq

Nəvai də Nizaminin əsərində olduğu kimi, sözün tərifinə ayrıca yer ayırmışdır. Burada diqqəti çəkən əsas məqam odur ki, Nizami dünyanın söz vasitəsilə var olması məsələsinə toxunsa da, ondan daha çox "ədəbi-nəzəri kateqoriya" kimi bəhs etmiş, "Söz qoşmağın fəzilətini", "ölçülü sözün, yəni nəzmin ölçüsüz sözdən, yəni nəsrdən daha üstün olmasını" incələmişdir və yeri gəlmişkən, deyək ki, şairin bu fikri qədim Şərq abidəsi "Qabusnamədə"ki "...nəsrdə işlənən sözləri şeirdə işlətmə, nəsr rəiyyətdir, şeir şah" [13, s.147] mülahizəsi ilə yaxından səsləşir. Akademik Teymur Kərimlinin də qeyd etdiyi kimi, "Nizami Gəncəli yetkin bir alim-şair kimi, mütəfəkkir, filosof-sənətkar kimi ədəbiyyatda, söz sənətində yeni üslub, yeni şivə yaratdığını, şeirə necə bir dəyər qazandırdığını çox gözəl bilirdi və bunun elmi-nəzəri əsaslarını da istedadlı bir ədəbiyyatşünas, şeirşünas kimi oxucunun diqqətinə çatdırırdı" [14, s.19].

Nəvai isə sözü "fəlsəfi" baxımdan dəyərləndirmiş, onun məna yükünün incəliklərindən bəhs etmişdir. Klassik poetik zövqün tələblərinə görə, özbək şairi də nəzmi daha yüksək qiymətləndirmiş, Tanrı kəlamının da nəzmlə əta olunduğunu, formasından, yəni hansı şeir şəklində yazılmasından asılı olmayaraq sözün mənasının, mahiyyətinin daha önəmli olduğunu ayrıca qeyd etmişdir.

Бўлмаса эъжоз мақомида назм,
Бўлмас эди тенгри каломида назм.
Назмда ҳам асл анга маъни дурур,
Бўлсун анинг сурати ҳарне дурур [7, s.61].

(Nəzmdə e`caz olmasaydı, Tanrı kəlamı nəzmlə olmazdı. Nəzmdə həm əsl yerdə mənadır, Surəti (forması) hər nə olursa-olsun)

Nəvai yazır ki, o kəs söz bəhrində qəvvas (mahir üzgüçü) ola bilər ki, məna gövhərinə sahib olsun, məna incilərinin sədəfini toplaya bilsin. Nəvaiyə görə, söz elə əcayib və şəfalı şərabdır ki, çıraq kimi könlün ən qaranlıq künclərini işıqlandıra bilər.

Məlumdur ki, "Məxzənül-əsrar"da əsas mətnə, yəni məqalət və hekayətlərə keçməzdən əvvəl Nizami öz məmduhu Ərzincan hakimi Bəhram şah ibn Davudu mədh etdiyi kimi, Nəvai də Xorasan hakimi Sultan Hüseyn Bayqaranın şərəfinə fəsil həsr etmiş, onun "kərəmindən də, qəzəbindən də" danışmışdır:

Ҳам карами баҳр ила кон офати.
Ҳам ғазаби мулки жаҳон офати [7, s.69].

(Həm kərəmi dəniz ilə mədənlərin (quyu) müsibətidir (yəni onların vura biləcəyi zərər qədər sonsuzdur), Həm qəzəbi cahan mülkünün bəlası, müsibətidir)

Şair burada "bəla, müsibət, zərər, ziyan" mənalarını verən "afət" sözünü müsbət və mənfi mənalarda məharətlə işlədərək bir beytdə istedadlı rəssam fırçası ilə Sultan Hüseynin dəqiq portretini yarada bilmişdir.

Nəvai Sultanı yalnız mədh etməklə, onun hünərlərini mübaliğəli şəkildə təsvirlə kifayət-lənməmiş, hökmdarın xalq qarşısındakı Tanrı tərəfindən əta edilmiş məsuliyyətindən, insana xas olan qüsurların dövlətin idarə edilməsinə vura biləcək zərərlərdən də geniş bəhs etmişdir. Şair üzünü

Sultana tutaraq deyir ki, hakimiyyət daimi olmadığı üçün bu fürsətdən istifadə et, xalqın güzəranını gözəlləşdir, müqəddəs borcunu yerinə yetir. Təbii ki, bu "ərkyana", cəsarətli tövsiyələrə Sultan Hüseyn Bayqara ilə Nəvainin hələ uşaqlıqdan çox yaxın münasibətdə olması faktı şərait yaradırdı. Böyük sələfi kimi Nəvai də insanı Tanrının yaratdıqlarının əşrəfi hesab edir, onun kamil və gözəl xəlq edildiyini bildirir, xüsusilə də elm və qələm sahiblərinə yüksək qiymət verir və ali humanist ideallara xidmət edən insanların ayrıca hörmət və ehtirama layiq olduqlarını göstərir.

"Məxzənül-əsrar"dakı "Gecənin vəsfi və könülə dalmaq" və iki xəlvət hissələrini "Heyrətül-əbrar"da könülün tərifinə həsr olunmuş fəsil və üç "Heyrət" "əvəzləyir" ki, şair burada sufizm fələsəfəsinin prinsiplərinin şərhini verir. Daha sonra isə nəqşbəndiyyə təriqətinin əsasını qoyan Şeyx Bəhaəddin Nəqşbəndidən də ayrıca bəhs edilir və bununla da rəsmi hissə başa çatır.

Məqalət və hekayətlərin məzmun və ideyasına gəldikdə isə, Yevgeni Bertels Nəvainin toxunduğu mövzularla Nizami və Dəhləvi mövzuları arasında "demək olar, heç bir ortaq cəhətlərin olmadığını" [15, s.130] yazsa da, zənnimizcə, Nizami və Nəvai məqalət və hekayətlərində istər mövzu, süjet, istərsə də ideya baxımından üst-üstə düşən kifayət qədər məqam və hissə vardır. Alim yuxarıdakı fikrinin ardınca Nəvaini sələflərindən "fərqləndirən" başlıca xüsusiyyəti səciyyələndirərkən yazır: "Nəvainin qarşısına qoyduğu vəzifə – əsas əxlaqi təlimləri işıqlandırmaq və cəmiyyət həyatında onların tətbiqini göstərməkdir" [15, s.130]. Fikrimizicə, bu cəhət – Nəvaini ustadlarından fərqləndirən deyil, bəlkə də əksinə, onlarla birləşdirən ümumi ortaq nöqtələrdən biridir. Təbii, Nəvai Nizami və Dəhləvinin eyni mövzudakı əsərlərinə yaradıcılıqla yanaşmış, onları eynilə təkrarlamamış, orijinal təfəkkür məhsulu olan məsnəvisində dövrünün siyasi-ictimai və sosial bəlalarının tənqidinə daha çox üstünlük vermişdir. Bununla belə, məqalət və hekayətlərdəki yaxınlığı da inkar etmək olmaz. Elə "Heyrətül-əbrar"dakı məqalət və hekayətlərin mövzusu ilə "Məxzənül-əsrar"dakı parçaları qarşılaşdırdıqda da bu oxşarlığın əyani şahidi oluruq. Misal üçün: birinci məqaləti (xatırladaq ki, Nizaminin əsərindəki ilk məqalat Adəmin – ilk insanın yaradılmasına dairdir) insan və onu bütün canlılardan üstün qılan imana həsr edən Nəvainin "*Султонул-орифинни ғамгин кўруб, муридиға савол тили очилғони ва ул шофий жавоблар била андуҳлуқ кўнглин холи қилғони"* ("Sultanül-arifini qəmgin görüb müridi sual dilini açdı və o, şəfalı cavablar ilə qayğılı könlünü boşaltdı") hekayəti Nizaminin elə birinci – "Umudsuz padşahın dastanı" ilə; nəzirədəki üçüncü – hökmdarın qəhrinin və ədlinin nəticələrini göstərən "Sultan və qarı" hekayəsi ilə Nizaminin "Sultan Səncər və qarı" hekayəsi, hətta buradakı mükalimələr, baş verən özbaşınalıqların təsviri; hər iki əsərdəki Adil Ənuşirəvana həsr olunmuş hekayətlərdəki oxşar motivlər; Nəvai dördüncü məqalətdə xalqın etimadını qazanıb onu aldadan din xadimlərini tənqid edirsə, Nizami eyni mövzuya "Xain sufi və hacının dastanı"nda əyanı aydınlıq gətirir; Nəvai də Nizami kimi hər bəhsin sonunda özünə müraciətən hekayətdən gəldiyi qənaəti bədii dillə ifadə etmişdir və s. Bütün bunlar özbək şairinin azərbaycanlı sələfinin mövzu və süjetlərini yeni ədəbi prosesin tələblərinə uyğun, yerli-milli çalarlarla zənginləşmiş şəkildə, fərqli və orijinal bədii ifadə tərzində işlədiyini göstərir.

Qeyd edək ki, "Heyrətül-əbrar"da Nizaminin sonrakı məsnəvilərində yer alan kiçik süjetli hekayələrlə və hətta qədim hind abidəsi "Kəlilə və Dimnə"dən gələn motivlərlə də səsləşən əhvalatların təsvirinə rast gəlmək mümkündür.

Nəticə / *Conclusion*

Nəvainin əsərində təbliğ və tərənnüm etdiyi əsas ideyalar – ədalət, yüksək əxlaq, doğruluq, saflıq, sədaqət – məhz Nizami Gəncəvi ədəbi məktəbinin sistemli şəkildə ədəbi əsərlərin mövzusuna çevirdiyi, müəyyənləşdirdiyi ədəbi prinsiplərin davamı və inkişafı idi.

Gördüyümüz kimi, dahi özbək şairi Əlişir Nəvai nəzirənin bütün qaydalarına ciddi şəkildə əməl etməklə yanaşı, mövzuya tamamilə orijinal yanaşmış və türk ədəbiyyatının ən möhtəşəm "Xəmsə" incisini yaratmışdır.

Ədəbiyyat / *References*

1. Gazanfar Aliyev. Temi i syujeti Nizami v literaturax narodov Vostoka. Moskva, «Nauka», 1985.
2. Yevgeni Bertels. Böyük Azərbaycan şairi Nizami. Bakı, SSRİ EA Azərbaycan filialının nəşri, 1940.
3. Nüşabə Araslı. Nizami və türk ədəbiyyatı. Bakı, "Elm" nəşriyyatı, 1980.
4. Teymur Kərimli. Nizami məktəbinin istedadlı şagirdi. "Yazıçı" ("Oğuz eli" qəzetinin ayrıca buraxılışı). Noyabr 2016-cı il. № 2(167).
5. Zəhra Allahverdiyeva. Nizami Gəncəvi və Əlişir Nəvai "Xəmsə"lərində konseptual-kulturoloji prinsiplər. Zəhra Allahverdiyeva. Klassik Azərbaycan ədəbiyyatına dair tədqiqlər. Bakı, "Elm və təhsil", 2017.
6. Həmid Araslı. Nəvai və Azərbaycan ədəbiyyatı. H.Araslı. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, "Gənclik", 1998.
7. Alishir Navoiy. Mukommal asarlar tuplami. Yigirma tomlik. Yettinci tom. Xamsa. Xayratul-abror. Toshkent, Üzbekiston SSJ "Fan" nashriyeti, 1991.
8. Serdar Bulut. Asya coğrafyasi'nın büyük edibi Ali Şîr Nevâî'nin hayatı, edebi kişiliği, eserleri ve Türk dili'ne katkıları. "Asya`dan Avrupa`ya Uluslararası Sosyal Bilimler Dergisi". Akademik Sosyal Araştırmalar. № 1, p. 23-41, Autumn 2017.
9. E.E.Bertels. Низами. E.E. Bertels. İzbranniyi trudi. 4 tomax. II t. Nizami i Fizuli. Moskva, İzdatelstvo Vostoçnoy literaturi, 1962.
10. نظامی گنجوی. مخزن الاسرار. متن علمی و انتقادی بسعی واهتمام عبدالکریم علی اوغلی علی زاده. باکو. نشریات فرهنگستان علوم جمهوری آذربایجان. ۱۹۶۰.
11. عبدی بیگ شیرازی. مظهرالاسرار. موسکو. "دانش".۱۹۸۶.
12. Xəlil Yusifli. Nizami Gəncəvi və onun "Sirlər xəzinəsi" poeması. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, "Adiloğlu" nəşriyyatı, 2011.
13. Qabusnamə. Tərcümə edən, qeyd və şərhlərin müəllifi Rəhim Sultanov. Bakı, "Şərq-Qərb", 2006.
14. Teymur Kərimli. Epik şeirə yeni şivə gətirən sənətkar. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Tərcümə edən Xəlil Rza. Bakı, "Şərq-Qərb", 2017.
15. E.E.Bertels. Nizami. E.E. Bertels. İzbranniyi trudi. 4 tomax. IV t. Navoi i Djami. Moskva, İzadatelstvo «Nauka» Glavnaya RedaksiyaVostoçnoy Literaturi, 1965.

Сокровищница Низами и смятение Навои

Тахмина Бадалова
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: tehmine_b@mail.ru

Резюме. Азербайджанский мыслитель Низами Гянджеви, предложивший абсолютно отличающееся от предшественников отношение к общественно-политическим, социальным, нравственно-этическим вопросам, своими бесценными стихами разрушил «художественные догмы», укоренившиеся до него в мировой, в том числе, восточной литературе. Его поэзия, являющаяся синтезом гениального мышления и соответствия высоким эстетическим критериям, обогатила мировую литературу новыми оригинальными произведениями, основная суть которых сводилась к воспеванию человека и человечности. До начала XIX

столетия основные темы и художественная составляющая сочинений представителей восточной литературы развивались по «нормативам», закрепленным школой словесности Низами. Многие известные литераторы Востока почитали Низами как учителя, считали для себя честью и великим испытанием создание произведений на темы, заимствованные из его творчества. Такие видные мастера пера, как Амир Хосров Дахлеви, Абдуррахман Джами, Алишер Навои, Абди Бей Ширази, Ашраф Марагаи, Хаджу Кирмани, Исмаил Абджади и многие другие пытались в иных литературно-художественных и географических условиях синтезировать темы и мотивы, привнесенные азербайджанским поэтом в литературу, с особенностями их родной культуры. Подобные попытки закончились рождением поэтических образцов, обогативших мировую сокровищницу литературы. В целом, последователи традиций Низами Гянджеви внесли весомый вклад в дело продолжения и в развитие направления, свойственного поэтической школе гениального мастера. Одним из самых известных последователей этой школы является основатель классической узбекской поэзии, поэт и государственный деятель Алишир Навои, живший в XV веке, чье творчество хорошо знают во всем мире. В статье проводится параллель между месневи (двустишие) «Махзанул-асрар» («Сокровищница тайн») Низами Гянджеви и поэмой «Хейратул-абрар» Навои, написанным как незире (подражание) к произведению азербайджанского поэта. В «Хейратул-абрар» можно найти размышления узбекского поэта о своем великом предшественнике. В ходе исследования автор пользовался герменевтическим и историко-сравнительным методами. Статья содержит ссылки на месневи обоих поэтов, а также некоторые научные работы по указанной теме. В случае необходимости отводится место цитатам, подтверждающим заключения автора.

Ключевые слова: Низами, Навои, «Сокровищница тайн», «Смятение праведных», незире, ответ, влияние, литературная традиция

Əlişir Nəvainin yaradıcılığında milli birlik idealı

Cavidə Məmmədova
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: cavi_e@yahoo.com
https://orcid.org/0000-0002-5878-2311

Annotasiya. Məqalə türk dünyasının böyük şairi Əlşir Nəvainin yaradıcılığına həsr olunmuşdur. Burada şairin yaradıcılğında ana dili və milli birlik idealının bədii əksi təhlil edilir. Eyni zamanda, məqalədə Nəvai yaradıcılığının orta əsrlər türk xalqlarının ədəbiyyatına təsirləri izah edilir. Mövzu ilə bağlı olaraq Azərbaycan şairi Kişvərinin yaradıcılığı da müqayisəli təhlilə cəlb edilir.
Açar sözlər: Əlişir Nəvai, özbək ədəbiyyatı, klassik poeziya, milli birlik, ana dili

The ideal of national unity in Ali-Shir Navai's creativity

Javida Mammadova
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: cavi_e@yahoo.com
https://orcid.org/0000-0002-5878-2311

Abstract. The article is devoted to the creativity of Ali-Shir Navai, the great poet of the Turkic world. The literary reflection of the National Language and the ideal of national unity in the creative works of the poet are analyzed in the article. At the same time, the article explains the influence of Navai's creativity on Medieval Turkish literature. The creativity of the Azerbaijani poet Kishvary is also included in the comparative analysis in this article.
Keywords: Alisher Navai, Uzbek literature, classical poetry, national unity, native language

Giriş / *Introduction*

Özbək klassik poeziyasının əhəmiyyətli səhifələrinə imza atmış, türk-islam ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Əlişir Nəvainin yaradıcılığı bir çox baxımdan əhəmiyyət daşımaqda, bu gün də bədii-fəlsəfi, ədəbi-mədəni mahiyyətini qorumada, ümumtürk milli-əxlaqi dəyərlərimizin mühafizəsində əvəzsiz xidmətini göstərməkdədir. Nizami Gəncəvinin davamçısı hesab olunan Əlişir Nəvainin yaradıcılığı təkcə klassik poeziyanın inkişafına təkan verməsi, poetik mükəmməlliyi və əxlaqi-tərbiyəvi keyfiyyəti baxımından deyil, həm də vətənpərvər mövqeyi, millət düşüncəsinə sahib ideya mahiyyəti ilə dövrünün böyük ədəbi hadisəsi olduğunu sübut etməkdədir.

Nizami Gəncəvinin bədii irsindən bəhrələnən və onu:

Şairlərin ən xoş kəlamıdır o,
«Xəmsə»ni yaradan Nizamidir o...
Xosrov Dəhləvidən başqa heç bir kəs
Nizami ardınca yol gedə bilməz [1, s.8].

Yaxud

Nizamiyə pəncə uzatsa hər kəs,
Qırılar pənçəsi, murada yetməz [2, s.9].

– deyə öyən Əlişir Nəvainin əsərləri özündən sonrakı müxtəlif türk şairlərinin yaradıcılığına ciddi təsiri ilə də onun Nizami məktəbinin layiqli varisi olduğunu, bu ədəbi ənənəni yaşadaraq gələcək nəsillərə ötürdüyünü sübut edir. Bu mənada Nəvainin yaradıcılığı özbək və Azərbaycan ədəbiyyatları arasında nəhəng ədəbi körpü olaraq dəyərləndirilə bilər. Bu məsələ Nəvai yaradıcılığının möhtəşəm bir ədəbi proses olmaqla yanaşı, hər şeydən əvvəl, milli birlik idealına xidmət edən ədəbi hadisə olduğunu bir daha sübut edir.

Əsas hissə / *Main part*

Nəvainin yaradıcılığında milli birlik idealına xidmət edən əsas mühüm məsələlərdən biri ana dili problemidir. "Öz xeyirxah məsləhətlərilə ölkənin siyasi qüdrətini möhkəmləndirməyə çalışan Nəvai, həyatı dəfələrlə təhlükədə olsa belə, yenə də əzmindən dönməyən bu alovlu vətənpərvər xüsusən özbək ədəbi dilinin təkmilləşməsi uğrunda daha ciddi mübarizə aparıb, bu dili Yaxın Şərqdə ən görkəmli dillər səviyyəsində şöhrətləndirmişdir" [3, s.3]. Ərəb və fars dillərini mükəmməl bilən, farsdilli türk ədəbiyyatından faydalanan şair, həm ana dilində əsərlər yazmağı üstün tutmuş, həm də müasirlərinə bu dildə yazmağı tövsiyə etmişdir. Ana dili şair üçün azadlıq, hakimiyyət, milli birlik anlamına gəlir:

Ya Rəbb, bir nəzər sal söz bağçasına
Sən bülbül lisanı vermisən ona.
Çatdır ucalığa sən bizim dili,
Susmasın bu bağın şeyda bülbülü!
Xüsusən, Nəvai bunəvanı sən,
Binəsib eyləmə mərhəmətindən! [1, s.4]

Şeirdə "dilin ucalığı" milli hakimiyyətin sonsuzluğunu, "şeyda bülbül" isə azad millətin şairini simvollaşdırır. Klassik şeirlərə xas ənənəvi bölümdə – böyük Allaha müraciət hissəsində də şair imanını ifadə edərək türk-islam əxlaqına mənsub görüşü nəzmə çəkir.

Qeyd etdiyimiz kimi, cığatayca mükəmməl klassik ədəbiyyat nümunələri yaradan şairin əsərləri bir çox türk xalqlarının bədii yaradıcılığına, o cümlədən də Azərbaycan ədəbiyyatına təsir göstərmişdir. Bu barədə Əlyar Səfərli yazır: "Məlumdur ki, 15-ci əsrdə Nəvainin təsiri geniş yayılmışdı, bir sıra Azərbaycan şairləri Nəvainin təsiri ilə şeirlər yazır, Nəvai şeirindən gələn özbək sözləri işlədirdilər" [4, s.7]. Nəvai şeirinin Azərbaycan ədəbiyyatına təsirlərini siyasi amillərlə bağlayan görkəmli alim daha sonra yazır: "Ümumiyyətlə, XV əsrdə özbək şeirinin Azərbaycanda yayılması mürəkkəb bir proses idi. Teymurilərin başqa ölkələrlə yanaşı, Azərbaycanı da işğal etmələri və özbək şeirinin özünün əldə etdiyi böyük nailiyyətlər bu işdə mühüm rol oynamışdır. Bir çox Azərbaycan şairləri Özbəkistanda olmuş, oradan Nəvai şeirinin təsirini Azərbaycana gətirmişlər. Şahqulu bəy, Süsəni bəy və b. adını xatırlamaq mümkündür" [4, s.7-8]. Görkəmli alimin yazdığı kimi, burada siyasi amillərin rolu danılmaz olsa da, bizcə, Nəvai şeirinin türk xalqlarının ədəbiyyatına təsiri həm də bu poeziyanın ruhundakı səmimiyyət və sevgidən irəli gəlməkdə idi. Fikrimizi Nəvai yaradıcılığında bu misralar sübut edir:

İstərsə bir olsun, istərsə min bir
Bütün türk elləri ancaq mənimdir.

Xətadən başlayıb Xorasanadək,
Ellər fərmanımla ömür sürəcək.
Şiraz da, Təbriz də mənim yerimdir,
Orda şöhrətlənən öz əsərimdir.
Türk mənim sözümə könül can verib,
Bircə türk verməyib türkmən verib.
Hansı bir diyarə fərman apardım
Onu almaq üçün divan apardım [2, s.296].

"Mənimdir" kəlməsi şairin yaradıcılığında milli birlik, milli özünüdərk idrakına səsləyən ifadələrindəndir. Müxtəlif şəhərləri divanı ilə fəth etdiyini yazması şairin könül, ruh fəthindən bəhs etdiyini və "mənimdir" kəlməsində sevgi və səmimiyyətin ifadə olunduğunu sübut etməkdədir.

Nəvainin yaradıcılığından təsirlənən şairlərdən bəhs edərkən ilk yada düşən, təbii ki, Kişvəri olur. Nəvainin "Sana", "Bar" qəzəllərini təxmis edərək ona ehtiramını ifadə edən şair:

Kişvəri şeiri Nəvai şeirindən əskik iməs
Bəxtinə düşsəydi bir Sultan Hüseyni Bayqara

– deyə həm də Hüseyn Bayqaranın Nəvai kimi şairin yetişməsindəki rolunu bir şair həssaslığı ilə yüksək dəyərləndirir. Bu da bir daha sübut edir ki, Nəvai şeirinin sevilməsi, və müxtəlif xalqların ədəbiyyatına təsiri yalnız bir siyasi amillə deyil, daha çox Nəvai poeziyasının humanist mahiyyəti və milli birlik düşüncəsinə sahib keyfiyyəti ilə bağlı olmuşdur. Kişvəri də "dahi özbək müasirinin hünərini qiymətləndirməyi bacarmağa qadir olan, qiymətləndirən bir şairdir" [4, s.8].

Bir məsələni də unutmaq olmaz ki, "XIII-XIV əsrlərdə Azərbaycan dilində şeir yazmağın dövrün əsas ədəbi ənənəsinə çevrilməsi orta əsr ədəbiyyatının poeziyaya gətirdiyi əsas yeniliklərdən biri idi" [5, s.189] və "XV-XVI əsrlərdə Azərbaycan poeziyası Şah Qasım Ənvar, Bədr Şirvani, Cahan Şah Həqiqi, Kişvəri, Həbibi tərəfindən də ana dilində yazılmış şeirlərlə sürətlə inkişaf etdirilmişdir" [5, s. 191]. Poeziyanın ana dilində yaranması həm də milli düşüncənin inkişafı ilə bağlı idi və bu amil də qardaş xalqların ədəbiyyatlarının qarşılıqlı zəmində inkişafına təkan verirdi. Başqa sözlə, anadilli poeziya və Nəvai şeirinin qüdrəti və səmimiyyəti bu təsirləri daha da qüvvət-ləndirmişdir.

Nəticə / *Conclusion*

Nəvai yaradıcılığının ana dili və milli birlik idealının bədii əksini bu nəticələrlə xarakterizə etmək olar:

Nəvai şeiri ilə cağatay dilinin sözləri ədəbiyyatımıza gəlir və ortaq dil keyfiyyətlərini dərinləşdirir.

Nəvai yaradıcılığı qədim dövr ədəbiyyatı ilə orta əsrlər ədəbiyyatı arasında körpü rolunu oynayır.

Nəvai yaradıcılığı özbək-Azərbaycan ədəbi əlaqələrini dərinləşdirir.

Nəvai yaradıcılığı milli birlik idealını, qardaşlığı təbliğ edir.

Nəvai poeziyası Nizami yaradıcılığında təbliğ olunan humanist milli-dini dəyərləri qoruyaraq, bütün türk xalqlarının vahid mənəvi mirası kimi dəyərləndirir.

Ədəbiyyat / References

1. Nəvai Ə. Yeddi səyyarə. (Tərcümə: Ə.Ziyatay) Bakı, 2006.
2. Nəvai Ə. Fərhad və Şirin. (Tərcümə: Ə.Vahid, M.Dilvazi, Ə.Ziyatay, M.Rahim, N.Rəfibəylinindir). Bakı, 2006.
3. Araslı H. Böyük şair. Nəvai Ə. Fərhad və Şirin. Bakı, 2006.
4. Səfərli Ə. Ön söz. Kişvəri. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004.
5. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019.

Идеал национального единствав творчестве Алишира Навои

Джавида Мамедова
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: cavi_e@yahoo.com

Резюме. Статья посвящена творчеству великого поэта тюркского мира Алишира Навои. В статье анализируется литературное отражение национального языка и идеала национального единства в творчестве поэта. В то же время в статье разъясняется влияние творчества Навои на средневековую турецкую литературу. В сравнительный анализ в статье также включено творчество азербайджанского поэта Кишвери.
Ключевые слова: Алишир Наваи, узбекская литература, классическая поэзия, национальное единство, родной язык

Əlişir Nəvai əsərlərinin Almaniyada tədqiqi

Xanım Zairova
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: czairova@yahoo.de
https://orcid.org/0000-0003-2965-0472

Annotasiya. Məqalədə özbək ədəbiyyatı nümunələrinin Almaniyada ilk tərcümələrinin tarixindən, habelə Əlişir Nəvainin yaradıcılığının tədqiqi və əsərlərinin tərcümələrindən bəhs edilir. XIX əsrdən bu günədək Nəvai yaradıcılığını tədqiq edən alman tədqiqatçılarının əsərləri nəzərdən keçirilir.
Açar sözlər: Əlişir Nəvai, özbək ədəbiyyatı, elmi-tədqiqat, tərcümə

http://dx.doi.org/10.29228/edu.162
Məqaləyə istinad: Zairova X. (2020) *Əlişir Nəvai əsərlərinin Almaniyada tədqiqi.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 114-117
Məqalə tarixçəsi: göndərilib – 01.06.2020; qəbul edilib – 09.06.2020

The study of the Alishir Navai's creativity in Germany

Khanum Zairova
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: czairova@yahoo.de
https://orcid.org/0000-0003-2965-0472

Abstract. The article deals with the history of the first translations of Uzbek literature in Germany, as well as the study and translation of the works of Alishir Navai. The works of German researchers which have been researching since the 19th century, about Alishir Navai's creativity are reviewed in the article.
Keywords: Alishir Navai, Uzbek literature, research, translation

http://dx.doi.org/10.29228/edu.162
To cite this article: Zairova Kh. (2020) *The study of the Alishir Navai's creativity in Germany.* «Comparative Literature Studies», Issue I, pp. 114-117
Article history: received – 01.06.2020; accepted – 09.06.2020

Giriş / *Introduction*

Özbək ədəbiyyatının Avropada, eləcə də Almaniyada tanınması 500 illik bir zaman kəsiyini əhatə edir. J.Vetzelin, Hammer-Purqştalın tərcümələri, H.Vamberinin, T.Mentselin tədqiqatları sayəsində Avropada özbək ədəbiyyatı ilə tanışlıq başlamışdır. G.Yungbauer, I.Lannerova, I.Sirtautas,

M.Spadou, T.Menzel, H.Ritter, C.Brockelmann, M.Hartmann, C.Schöning, V.Flaisher, G.Keller, I.Baldauf, Z.Kleinmihel, B.K.Heinkele, K.Rayhl kimi türkoloq alimlər özbək ədəbiyyatının Almanıyada tərcümə və tədqiq edilib öyrənilməsinə böyük töhfələr vermişlər.

Əsas hissə / *Main Part*

Özbək ədəbiyyatının ilk nümunələri XVI əsrdən alman dilinə tərcümə olunmağa başlanmışdır. Y.E.Bertelsin fikrincə, Nəvainin "Sabbai Sayyor" əsəri orta əsrlərdə alman dilinə tərcümə olunmuşdur [1]. Belə ki, Almaniyada özbək ədəbiyyatı ilk dəfə Johann Vetzlerin italyan dilindən alman dilinə etdiyi tərcümələr vasitəsilə tanınmağa başlamışdır [2]. XVI əsrin ikinci yarısında italyan Christofor Armeno yazdığı ikicildlik eposunda Nəvainin "Sabbai Sayyor" əsərindən "Bəhrom və Dilorom" hissəsinin süjetindən istifadə etmiş və bunun Nəvainin əsəri əsasında yazıldığını qeyd etmişdir. Əsər bir çox Avropa dillərində nəşr edilmişdir. XIX əsrin əvvəllərindən etibarən özbək ədəbiyyatının bir sıra nümunələri – "Oğuznamə", "Məhəbbətnamə", "Şəcərayi türk", "Baburnamə" kimi tarixi abidələri alman dilinə tərcümə edilir. Təqribən XX əsrin ortalarından isə Almaniyada Nəvai yaradıcılığı elmi tədqiqatlara cəlb edilməyə başlayır [3]. "Böyük bir şairin yenidən kəşfi" adlı məqalədə müəllif A.Kurella Nəvai yaradıcılığını belə qiymətləndirir:

"Wie die großen Männer der europäischen Renaissance, die die Literatur ihrer Völker von den Fesseln des Lateinischen befreiten und die Volkssprache zum Rang einer Literatursprache erhoben, ging Alischer Nawai auch bewusst und planmäßig an die Aufgabe heran, das Persische als Sprache „der Gebildeten" durch das Türkische zu ersetzen".

"Avropa intibahının böyük şəxsləri kimi, öz xalqının ədəbiyyatını latın dilinin zəncirindən azad edib, xalq dilini ədəbi dil səviyyəsinə yüksəldən böyük şəxsləri kimi Əlişir Nəvai də düşüncəli və planlı şəkildə fars dilini ali dil olaraq türk dili ilə əvəz etməyi qarşısına məqsəd qoymuşdu" [4, s.271].

Özbək ədəbiyyatı nümunələrinin alman türkoloqu S.Kleinmichelin elmi yaradıcılığında daha çox təsadüf olunur. S.Kleinmichel özbək ədəbiyyatı üzrə türkoloq olub, özbək dili və ədəbiyyatına dair bir çox tədqiqatların müəllifidir.

1991-ci ildə Berlində Dr.Ziqrid Klaynmichelin redaktəsində Türkiyədən Çinə qədər olan sahəni əhatə edən türkdilli yazıçı və şairlərin əsərlərindən ibarət olan "Etiraf et! Şərqin şairləri böyükdür – türk dilləri məkanından ədəbiyyat" adlı toplu nəşr olunmuşdur. Kitaba türkdilli ədəbiyyata dair "Müasir dövrün türkdilli ədəbiyyatları – mütaliəyə dəvət" (Die turksprachigen Literaturen der Gegenwart – eine Aufforderung zum Lesen) başlıqlı 25 səhifəlik ön söz yazmış Dr. Z.Kleinmichel Elçin (Azərbaycan), Temur Pulatov (Özbək), Nadim Gursel, Pinar Kür (türk), Valeh Rizayev (Azərbaycan), Pehlen Sobir (Uyğur), Oljas Suleymenov (qazax) və Otajon Taqanın (türkmən) yaradıcılığından nümunələr verilmişdir.

1993-cü ildə Kleinmichelin "Şərq poeziya ənənəsinin qırılması. 1910-1934-cü illərdə özbək dramaturgiyası və nəsrinin tədqiqi" [5], 1995-ci ildə "Özbəkcə – Çalışma kitabı: Leksika və qrammatika" [6], 2000-ci ildə Berlində ərəb kitabları oxuyan qadınların həyatı, fərqli baxışları və mənşəyi izah edilən sosial reallıqlara əsaslanan "Xorezmdə xalpa və Fərqanədə Atin Ayi" [7], 2016-cı ildə "Əyyub Peyğəmbər özünüittiham və protest arasında: Orta Asiya şeirləri" [8] əsərləri, 1997-ci ildə Berlində nəşr edilmiş "XX əsr özbək poeziyasının antologiyası"nda Z.Kleinmichelin "Çolponun Kleopatrası və zəncirlənmiş qadınları" və professor İ.Baldaufun "Colpon və Tovfiq Fitrat" adlı məqalələri nəşr olunmuşdur.

Almaniyada Əlişir Nəvai əsərlərinin tədqiqində də S.Kleinmichelin böyük rolu olmuşdur. Onun müxtəlif illərdə yazdığı "Əlişir Nəvai gülüş haqqında", "Əlişir Nəvai və Xizr", "Əlişir Nəvai və osmanlı şairləri", "Əlişir Nəvai və Əhməd Paşa" adlı məqalələri alman nəvaişünaslığında mühüm əhəmiyyət kəsb edir.

2001-ci ildə UNESCO-nun qərarı ilə görkəmli özbək şairi Əlişir Nəvainin 560 illiyi qeyd edilmişdir. Bir sıra Qərb ölkələrində şairin yaradıcılığına dair əsərlər meydana gəlmiş və əsərlərindən tərcümələr edilmişdir. Bu münasibətlə Almaniyanın Berlin və Fraye universitetlərinin türkoloqları tərəfindən simpozium düzənlənmişdir. Simpozium toplusuna "Mir Əlişir Nəvai – Keçmişə bir nəzər" (B.K.Heinkele), "Teymurun seçilmiş mənbələrində özbəklərin təsviri" (J.Paul), "Baburnamə"də Nəvai obrazı" (C.Schöning), "Mərkəzi Asiya xalqlarının nağıllarında Ə.Nəvai" (E.Taube), "XVI əsr çağatay osmanlı türk lüğəti "Abuşqa"da cağatay dilinin feil şəkillərinin osmanlıca əksi" (C.Römer), "Nəvainin "Leyli və Məcnun"u" (M.Kirchner), "Nəvai binəva" (S.Kleinmichel)," Mir Əlişir Nəvai dövründə sənət və arxitektura" (J.Gierlichs), "Nəvai əsərlərinin görünən və görünməyən tərəfləri" adlı (H.İsmailov) məqalələr daxil edilmişdir.

Topluda yer alan məqalələrdən biri də Dr. S.Kleinmichelin "Nəvai binəva" adlı məqaləsidir [9]. Məqalədə S.Kleinmichel Ə.Nəvainin bəzi qəzəllərini 7 qrupda tədqiq etmişdir:

1. Nəvai astanada
2. Nəvai başqaları haqqında
3. Nəvai gündəlik həyat haqqında
4. Nəvai kimin üçün şeir deyir
5. Melodiyaya, ilhama necə çatmaq olar
6. Qəzəllərin quruluşu haqqında
7. Şairin psevdonimi Nəvai kimi səslənir.

Nəticə / *Conclusion*

Göründüyü kimi, Nəvai yaradıcılığı dövründən asılı olmayaraq, hər zaman alman şərqşünaslığının, alman türkologiyasının tədqiqat obyekti olmuş, bu və ya digər mənada Avropa alimlərinin marağına səbəb olaraq, öz humanist mahiyyəti və təbliğ etdiyi milli əxlaqi dəyərləri ilə Avropa elminin diqqətini bir daha türk dünyasına cəlb etmişdir.

Ədəbiyyat / *References*

1. E.E.Bertels. Novai. Moskva.
2. Alischer Navoi: Sabbai Sayyor. Deutsch von J.Wetzel. Basel, 1583.
3. Brockelmann C., Nawoi's Biographien türkischer und zeitgenössischer Mystiker. In: Fück J.W. (Hrsg). Dokumenta islamica inedita. Berlin.
4. A.Kurella. Wofür haben wir gekämpft? Beiträge zur Kultur und Zeitgeschichte. Berlin, 1975.
5. S.Kleinmichel. Aufbruch aus orientalischen Dichtungstradition. Studien zur uzbekischen Dramaturgie und Prosa zwischen 1910 und 1934, 1993.
6. S.Kleinmichel. Usbekisch Übungsbuch. Lexik und Grammatik, Wiesbaden, Harrasowitz, 1995.
7. S.Kleinmichel. Halpa in Chorezm und atin ayi in Ferghanethal, Berlin, 2000
8. S.Kleinmichel. Hiob zwischen Selbstbezichtigung und Protest: Gedichte aus Mittelasien (19. bis 20. Jahrhundert), Wiesbaden. Reichert Verlag, 2016.
9. S.Kleinmichel. Ališir i- i be- Nawa. In: Kellner-Heinkele, Barbara (Hrsg): Mir Ališir Nawai. Akten des Symposiums aus Anlas des 560. Geburtstages und des 500. Jahres des Todes des Mir Ališir Nawai am 23.April 2001. Würzburg, 2003.

Изучение творчества Алишира Навои в Германии

Ханум Заирова
Доктор философии по филологии, Институт Литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: czairova@yahoo.de

Резюме. Статья посвящена истории первых переводов узбекской литературы в Германии, а также изучению и переводу произведений Алишира Навои. В статье рассматриваются работы немецких исследователей, которые с 19-го века занимались исследованием творчества Алишира Навои.
Ключевые слова: Алишир Наваи, узбекская литература, научные исследования, перевод

Yevgeni Bertelsin Əlişir Nəvai irsinin öyrənilməsinə töhfəsi

Yelena Teyer
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: helena.teer@gmail.com
https://orcid.org/0000-0001-8458-918X

Annotasiya. Məqalədə görkəmli şair və dövlət xadimi Əlişir Nəvai yaradıcılığının tədqiqi problemləri araşdırılmışdır. Əlişir Nəvai XV əsr böyük türk şairidir. O, başlıca əsərlərini çağatay ədəbi dilində yazmış və bununla da doğma dilin inkişafına böyük təsir göstərmişdir. Sovet şərqşünası Yevgeni Eduardoviç Bertels Nəvai yaradıcılığının əsas tədqiqatçılarından biridir. Görkəmli sövet şərqşünası olan Y.E.Bertelsin elmi fəaliyyəti bir çox fars və türk şairlərinin həyat və yaradıcılıqlarının öyrənilməsi ilə bağlıdır. O, Nəvai yaradıcılığı ilə 40 il məşğul olmuş, şair haqqında böyük monoqrafiya və çoxlu sayda məqalələr yazmış, görkəmli özbək mütəfəkkirinin tamamilə orijinal, özünəməxsus yaradıcılığa sahib olduğunu bildirən ilk Avropa alimlərindən olmuşdur. Ölümündən sonra alimin bütün əsərləri nəşr edilmişdir.
Açar sözlər: Nəvai, Bertels, rus şərqşünaslığı, Azərbaycan ədəbiyyatşünaslığı, müqayisəli ədəbiyyatşünaslıq

http://dx.doi.org/10.29228/edu.164
Məqaləyə istinad: Teyer Y. (2020) *Yevgeni Eduardoviç Bertelsin Əlişir Nəvai irsinin öyrənilməsinə töhfəsi.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 118-122
Məqalə tarixçəsi: göndərilib – 03.06.2020; qəbul edilib – 09.06.2020

Yevgeny Bertels' contribution to the study of Alisher Navoi's work

Yelena Teyer
Doctor of Philosophy in Philology, Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: helena.teer@gmail.com
https://orcid.org/0000-0001-8458-918X

Abstract. The article deals with the problem of studying the work of the outstanding poet and statesman Alisher Navoi. Alisher Navoi is a great Turkic poet of the XV century. He wrote his main works in the literary Chagatai language, on the development of which he had a great influence. The Soviet Orientalist Yevgeny Eduardovich Bertels was one of the leading researchers of Navoi's art. E.E.Bertels was a prominent Soviet Orientalist. His scientific activity is connected with the study of the life and work of many Persian and Turkic poets. He was engaged in Navoi's creative work for 40 years. He wrote a large monograph and many articles on Navoi. One of the first European scientists declared that this prominent Turkic poet's work was completely original and not imitative. After his death, all of his works were published.

Keywords: Navoi, Bertels, Russian Oriental studies, Azerbaijani literary studies, comparative literary criticism

http://dx.doi.org/10.29228/edu.164
To cite this article: Teer E. (2020) *Yevgeny Eduardovich Bertels' contribution to the study of Alisher Navoi's work.* «Comparative Literature Studies», Issue I, pp. 118-122
Article history: received – 03.06.2020; accepted – 09.06.2020

Giriş / *Introduction*

Böyük özbək şairi və dövlət xadimi Əlişir Nəvainin ədəbi irsi olduqca zəngindir. Onun 3150 qəzəli çox geniş yayılmışdır. Şairin yaradıcılığının zirvəsi beş epik poemadan – "Heyrətül-əbrar", "Leyli və Məcnun", "Fərhad və Şirin", "Səbey Səyyarə", "Səddi-İskəndər" məsnəvilərindən ibarət olan məşhur "Xəmsə"sidir. "Lisanüt-teyr" alleqorik poeması və "Məhbubil-qulub" fəlsəfi-alleqorik risaləsi də bu günümüzədək Türk ədəbiyyatı tarixində eyni mövzuda yazılmış bədii örnəklərin şah əsərlərindən hesab olunur. Nəvai həmçinin fars və türk dillərinin müqayisəsinə, cağatay dilinin bədii-mədəni dəyərlərinin əsaslandırılmasına həsr olunmuş "Mühakimətül-lüğəteyn", ədəbiyyat nəzəriyyəsi və şeir sənəti məsələlərinin tədqiqindən bəhs edən əsərlərin də müəllifidir.

Əsas hissə / *Main Part*

"Mühakimətül-lüğəteyn" Nəvainin vəfatından əvvəl yazdığı sonuncu əsəridir. Şair bu əsərində uzun illər boyunca ana dili uğrunda apardığı mübarizəsini və bu xüsusda yazdığı əsərləri ümumiləşdirmiş, türk dilinin bütün zənginliyini, incə və zərifliyini isbat etmişdir. O yazırdı: "Zənnimcə, mən türk xalqının ləyaqətli oğulları qarşısında böyük həqiqəti təsdiq etdim və onlar öz dillərinin və onun ifadə vasitələrinin əsl gücünü, türk sözlərinin əsrarəngiz keyfiyyətlərini dərk edərək, farsca şeir yazanlar tərəfindən dillərinə və danışıq tərzlərinə qarşı etinasızcasına edilən hücumlardan xilas oldular" [1, s.14].

Əlişir Nəvai həmçinin bioqrafik və tarixi əsərlərin də müəllifidir. Şairin müəlliminə həsr etdiyi "Xəmsətül-mütəhəyirin", müasirlərinin əsərlərindən ibarət "Məcalisün-Nəfais" təzkirəsi, "Mülük-ül əcəm" ("İran şahlarının tarixi") və "Tarixi-ənbiya və hükəma" ("Peyğəmbərlərin və müdriklərin tarixi") bu silsilədəndir.

Nəvainin əsərləri bir çox dillərə tərcümə edilmişdir. Onlar Yer kürəsinin istənilən guşəsində hər zaman oxucularda maraq və heyrət doğurmuşdur. Şairin əlyazmaları dünyanın bir çox kitabxanalarında qorunub saxlanılır. Bir çox ölkələrin şərqşünasları görkəmli şairin həyat və yaradıcılığını böyük ruh yüksəkliyi ilə araşdırmış və araşdırmaqda da davam edirlər. Onların arasında Azərbaycan, Özbəkistan, Türkiyə, İngiltərə və ABŞ-ın görkəmli şərqşünaslarının adları da vardır: H.Araslı, X.Zarifov, M.Köprülü, A.Hikmət, E.Braun, L.Eliot və başqaları.

Rusiyada Nəvainin öyrənilməsi XIX əsrin əvvəllərindən başlamışdır. Daha çox məşhur əsərlər sırasında İ.N.Berezinin "Türkiyə ədəbiyyatı müntəxəbatı"nı göstərmək olar. Həmçinin M.Nikitskinin 1856-cı ildə Sankt-Peterburqda nəşr olunmuş "Əmir Nizaməddin Əlişir - ədəbiyyat və dövlət xadimi kimi" əsərində Nəvainin bir qələm ustası və dövlət xadimi kimi şəxsiyyəti təqdim və təhlil edilmişdir. XX əsrdə Bartold Nəvai haqqında "Mir Əlişir və siyasi həyat" adlı böyük bir əsər yazmışdır. Y.E.Bertels sözügedən əsəri o dövrün "böyük nailiyyəti" [2, s.67] adlandırmışdır. Əsərdə dahi şairin tərcümeyi-halı ilə bağlı faktlar verilsə də, yaradıcılığı tədqiqatdan kənarda qalmışdır. Və qeyd etmək lazımdır ki, Y.E.Bertels Nəvainin tərcümeyi-halını yazarkən məhz bu əsərə istinad etmişdir.

Dünya şöhrətli alim Yevgeni Eduardoviç Bertels (1890-1957) sovet dövrünün görkəmli şərqşünaslarından biri olmuşdur. İxtisasca iranşünas və türkoloq olan Y.E.Bertels 1920-ci ildə Petroqrad Universitetinin Şərq fakültəsini İran filologiyası ixtisası üzrə bitirmişdir. 1939-cu ildə o, artıq Leninqrad Dövlət Universitetinin professoru və SSRİ Elmlər Akademiyasının müxbir üzvü idi. 1944-cü ildə isə İran, 1955-cü ildə Türkmənistan Elmlər Akademiyalarının müxbir üzvü olmuşdur. Elə həmin ildə – 1955-ci ildə Dəməşqdə Ərəb Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Alim "Ədəbiyyat ensiklopediyası" və "İslam ensiklopediyası"nın birinci nəşrinin müəlliflərindən biridir.

Y.Bertelsin Klassik Şərq ədəbiyyatının öyrənilməsindəki xidmətlərini qiymətləndirmək olduqca çətindir. Demək olar, təxminən qırx il ərzində o, özünün elmi fəaliyyəti ilə Şərq poeziyasının Firdovsi, Rudəki, Nizami Gəncəvi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Füzuli və başqaları kimi korifey sənətkarların yaradıcılığını inadla və incəliklərinə qədər araşdırmış və təbliğ etmişdir. Dərin ensiklopedik biliyi və tədqiq olunan problemə müqayisəli təhlil metodu ilə peşəkar elmi yanaşma əsasında alim bu dahilərin özünəməxsus orijinal cəhətlərini və böyük şairlik məharətlərini əsaslı dəlillərlə sübuta yetirmişdir.

Y.E.Bertels Nizami Gəncəvi və Əlişir Nəvai poemalarının orijinal mətnlərinin bərpası üçün olduqca böyük mətnşünaslıq işləri aparmış, "Xəmsə"nin elmi-tənqidi mətninin tərtibi istiqamətində hərtərəfli elmi-hazırlıq fəaliyyəti ilə məşğul olmuşdur.

Alimin elmi maraqları yalnız əlyazmaların mətninin öyrənilməsi ilə məhdudlaşmamışdır. Halbuki elə təkcə bu işin özü də elmə çox böyük töhfələr vermək üçün tamamilə kifayət idi.

Onun elmi tədqiqatlarının dairəsinə həmçinin Sufizm və sufi ədəbiyyat, Orta Asiyanın farsdilli ədəbiyyatı, Şərq xalqlarının qarşılıqlı mədəni və ədəbi əlaqələri kimi problemlər də cəlb edilmişdi.

Y.Bertels fars və türk dillərində yazıb-yaradan bir çox görkəmli müəlliflərin yaradıcılıqlarını müqayisə edərək onların hər birinin coğrafi və tarixi inkişafın fərqli xüsusiyyətləri ilə əsaslandırılmış özünəməxsusluğunu əyani şəkildə göstərmişdir. Alim yazırdı: "Fars ədəbiyyatının ayrı-ayrı hissələri arasında olduqca sıx əlaqələr olsa da, onu heç bir halda bütün coğrafi və xronoloji inkişafı müddətində tamamilə yekcins bir hadisə kimi araşdırmaq olmaz" [3, s.202].

Y.E.Bertels Nəvainin yaradıcılığına, özünün də dediyi kimi, qədim özbək dilindəki əlyazmalarla məşğul olarkən müraciət etmişdir. "Qalın qara üzlüklü, böyük formatlı, – deyə o xatırlayır, – kifayət qədər aydın, lakin səliqəsiz xətlə yazılmış əlyazma indiki kimi yadımdadır. Bu əlyazmasında həyatımda ilk dəfə Nəvainin "Lisanüt-teyr" əsərini tapdım" [2, s.450].

Bundan əlavə, alim Nəvainin yaradıcılığı ilə yaxından tanış olarkən şairin insanpərvərliyinə, yumşaq, "səciyyəvi türk yumoruna" [2, s.450] valeh olur. O, özü üçün bir həqiqəti kəşf edir ki, Nəvaini, yalnız məsnəvilərin məzmunu ilə tanış olmadan, sadəcə, fəsillərin adlarını oxuyan kəs tərcüməçi adlandırıla bilər.

Y.E.Bertelsin ölümündən dərhal sonra elmi ictimaiyyət onun irsini nəşr etmək qararına gəlir. Təəssüf ki, alimin, bütün ömrü boyu üzərində işlədiyi "Fars-tacik ədəbiyyatı tarixi" əsəri tamamlanmamışdı. Bundan əlavə, böyük elmi maraq kəsb edən bir sıra çap olunmamış əsərləri də qalmışdı. Odur ki, redaksiya heyəti cildlərə daxil ediləcək əsərləri elə bir ardıcıllıqla düzməyi qərara aldı ki, nəşr olunmamış əsərlər mümkün qədər tez işıq üzü görsün. "Fars-tacik ədəbiyyatı tarixi"nin yarımçıq qalmış fəsillərini daha əvvəllər çap edilmiş və alimin fikrincə, geniş ümumiləşdirmələr üçün baza rolunu oynayacaq tədqiqatları ilə tamamlayan bu nəşr isə bütövlükdə sanki onun xronoloji davamı idi.

Bunu nəzərə alaraq "Seçilmiş əsərlər"in birinci cildinə "Fars-tacik ədəbiyyatı tarixi"nin çap olunmamış fəsilləri daxil edilmişdir. 1962-ci ildə nəşr olunan və "Nizami və Füzuli" adlanan ikinci cildə Nizami Gəncəvinin həyat və yaradıcılığına aid böyük monoqrafiya, həmçinin Nizami və Füzuliyə həsr olunmuş məqalələr yer almışdır. Üçüncü cild "Sufizm və sufi ədəbiyyatı" adlanır və 1965-ci ildə nəşr olunmuşdur. Bu cild sufizmə, sufi terminologiyasına aid əsərləri və ayrı-ayrı sufi şairlərə həsr edilmiş məqalələri əhatə edir. Cilddə həmçinin alimin əvvəllər çap edilməmiş bir sıra əsərləri də dərc olunmuşdur. 1988-ci ildə "Seçilmiş əsərlər"in son – beşinci cildi – "İran ədəbiyyatı və mədəniyyəti tarixi" çapdan çıxdı. Kitabın adından da göründüyü kimi, o, iranşünaslığa aid

əsərlərin toplusudur. Bu əsərlərin mövzu əhatəsi olduqca genişdir. Onların bəziləri ilk dəfə idi ki, dərc edilirdi.

Əlişir Nəvai yaradıcılığı 1965-ci ildə nəşr olunmuş "Nəvai və Cami" adlı dördüncü cilddə təqdim edilmişdir. Cildə alimin artıq əvvəllər nəşr olunmuş və geniş elmi dairələrdə maraqla qarşılanmış "Nəvai" (Moskva, 1948) və "Cami" (Cami, 1949) monoqrafiyaları, həmçinin hər iki mütəfəkkirin yaradıcılığına aid o zamanadək işıq üzü görməmiş ayrı-ayrı məqalələr də daxil edilmişdir.

Beləliklə, tərtib olunmuş cild Orta Asiya xalqlarının XV əsr ədəbi həyatının geniş mənzərəsini əks etdirirdi. Burada həmçinin tacik və özbək xalqlarının sıx qarşılıqlı ədəbi əlaqələri də işıqlandırılmışdı. Mühüm bir məqam da o idi ki, cildə "Fars-tacik ədəbiyyatı tarixi"nin sonuncu fəsillərində yer alacaq əsərlər daxil edilmişdi.

Y.E.Bertels Əlişir Nəvai irsinin tədqiqinə çox böyük diqqət və həssaslıqla yanaşırdı. Onun elmi araşdırmaları və nailiyyətləri ilk növbədə ciddi mətnşünaslıq işinə əsaslanırdı. Alim yazırdı ki, "ədəbi abidənin nəşri – mexaniki və sırf texniki iş deyildir. Bu, mürəkkəb tədqiqat işinin xüsusi bir növüdür. Bu işə başlamazdan əvvəl nəşr olunan müəllifi öyrənməyə çalışmaq, onun ədəbiyyat tarixindəki yerini və hazırlanan əsərin onun yaradıcılığındakı yerini müəyyənləşdirmək lazımdır, həmin müəllifin leksikası haqqında, ona xas üslub barədə təsəvvür əldə etmək gərəkdir. Filoloq həm tarixçi, həm ədəbiyyatşünas, həm də dilçi olmalıdır; zəruri biliklərə yiyələnməsə, onun əsəri əvvəlcədən uğursuzluğa məhkum edilmiş olacaq" [4, s.242].

Alimin ən böyük xidmətlərindən biri də 1930-cu ildə Səmərqənddə Əlişir Nəvai "Xəmsə"sinin qədim əlyazmasını tapmasıdır. Onun fikrincə, sözügedən əlyazma "sanki avtoqraf təsiri bağışlayır: burada mətn ilk dəfə müəllifin dilindən səsləndiyi şəkildə verilmişdir" [2, s.453]. Bu əlyazmasının əsasında Nəvainin "Beş poema"sının həqiqi mətnini "onun bütün füsunkarlığı və zənginliyi ilə" bərpa etmək mümkün olmuşdur [2, s.453].

Nəvainin poetik sənətkarlığının tamamilə orijinal və özünəməxsus səciyyəvi xüsusiyyətlərindən bəhs edən ilk Avropa alimlərindən biri də Y.E.Bertelsdir. O yazırdı ki, "Nəvai poemaları Nizami poemalarının təkrarı deyildir. İki şairdən hansının daha yaxşı olduğunu söyləmək cəfəngiyyatdır. Onların hər biri öz dövrü üçün ədəbi sənətkarlığın ən yüksək zirvəsi olmuşdur. Böyük özbək şairi qarşısına olduqca yüksək vəzifə qoymuşdur. Nəvai dünyanın ən böyük şairi ilə yanaşı dayanmaq istəmişdir. Sənətkarın öhdəsindən gələcəyi çətinlikləri nəzərə alsaq, bu, son dərəcə cəsarətli fikir idi. Lakin onun qüdrətli istedadı bütün maneələri dəf etməyi bacardı və o, fəth etdiyi yerə haqqı olduğunu qəti şəkildə sübut etdi" [2, s.441].

Y.E.Bertels Əlişir Nəvainin "Lisanüt-teyr" və Əttarın "Məntiqüt-teyr" əsərlərini diqqətlə müqayisə edərkən, özbək şairinin əsərindəki hekayələrin 81%-nin onun orijinal təfəkkür məhsulu olduğunu müəyyənləşdirmişdir. Alim çox doğru olaraq belə bir nəticəyə gəlmişdir ki, bu, "mövcud materialdan orijinal əsər yaratmaq qabiliyyətinə malik böyük söz ustadının əsəridir. Lakin bu bədii istedadla yanaşı, biz böyük həyati təcrübəsi olan, yüksək təhsilli və bizim üçün daha dəyərlisi, ətrafındakı insanlara qarşı büsbütün sevgi ilə dolu və məhz bu sevgi naminə onların bütün nöqsanlarını bağışlamağı, unutmağı bacaran genişürəkli insanı da görürük [5, s.83].

Y.E.Bertels müqayisəli təhlil üzrə araşdırmalarını davam etdirərək Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi və Əlişir Nəvai qələmlərinə məxsus "Leyli və Məcnun" poemalarını qarşılaşdırmışdır. Üç poemanın diqqətli və incəliklərinədək müqayisəsi alimə Nəvainin hətta məsnəvinin əsas ideyasının seçimində də tamamilə orijinal olmasına dair nəticə çıxarmağa əsas vermişdir: "Nəvai qədim əfsanəni bəlli bir məqsəd üçün istifadə etmişdir: qəlbi həyat eşqi ilə dolu, arzu-istəkləri zərrə qədər də nəzərə alınmadan ailə qurmalı olan, adət-ənənələrin öz arxasınca sürüklədiyi gənclərin faciəsini göstərmək. Fikrimizcə, Nəvainin poemasının əsasında dayanan ideya, əsas "məzmun" da məhz budur" [2, s.430].

Y.E.Bertels Qərbi Avropa şərqşünaslarının Nəvai yaradıcılığının tərcümələrdən ibarət olmasına dair fikirlərini "cəfəngiyyat" adlandırırdı. Alim hesab edirdi ki, onlar nəinki Şərqdəki ədəbi prosesin bütün inkişaf yolunu anlamamış, hələ üstəlik və daha pisi "bu inkişafı anlamaq" istəməmişlər [2, s.431].

Nəticə / *Conclusion*

Elm daima inkişafdadır. Nəsillər bir-birini əvəzləyir. Sabah yeni alimlər nəsli yetişəcək. Onlar elmdə özlərinin yeni sözlərini deyəcəklər. Lakin elə alimlər var ki, əsərləri heç vaxt dəyərdən düşmür, onların elmə verdiyi töhfələr qədirbilən varislər tərəfindən hər zaman xatırlanacaqdır. Y.E.Bertels də belə alimlərdəndir. Və çox təqdirəlayiqdir ki, böyük alim dahi şairlə qarşılaşmış və onun yaradıcılığının gerçək əhəmiyyətini bütün dünyaya göstərmişdir.

Ədəbiyyat / *References*

1. V.Zaxidov. Alisher Navoi. V: Alisher Navoi. Poemi. İzd-vo “Xud. Literatura”, Moskva, 1972.
2. E.E.Bertels. İzbranniyi trudi. M., “Nauka”,1965. T.4: Navoi i Djami.
3. E.E.Bertels. Literatura na persidskom yazike v Sredney Azii. «Sovetskoye Vostokovedeniye», t. V, 1948.
4. E.E.Bertels. Voprosi metodiki podqotovki kriticheskix izdaniy klassicheskix pamyatnikov literaturi narodov Blijnego i Srednego Vostoka. Pervaya vsesoyuznoya konferensiya vostokovedov. Tezisi dokladov i soobsheniy, Tashkent, 1957.
5. E.E.Bertels. Navoi i Attar. Mir-Ali-Shir: sb. k pyatisotletiyu so dnya rojdeniya. Л.: İzd-vo AN SSSR. 1928.

Вклад Евгений Бертельса в изучение творчества Алишера Навои

Елена Теер
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: helena.teer@gmail.com

Резюме. В статье рассматривается проблема изучения творчества выдающегося поэта и государственного деятеля Алишера Навои. Алишер Навои большой тюркский поэт XV века. Главные свои произведения он написал на литературном чагатайском языке, на развитие которого оказал большое влияние. Советский востоковед Евгений Эдуардович Бертельс был одним из ведущих исследователей творчества Навои. Е.Э.Бертельс был видным советским востоковедом. Его научная деятельность связана с изучением жизни и творчества многих персидских и тюркских поэтов. Творчеством Навои он занимался 40 лет. Написал большую монографию и множество статей, посвященных Навои. Одним из первых европейских ученых заявил о совершенно оригинальном, не подражательном характере творчества этого выдающегося узбекского поэта. После его смерти все его труды были опубликованы.

Ключевые слова: Навои, Бертельс, русское востоковедение, азербайджанское литературо-ведение, сравнительное литературоведение

Nizami və Nəvai yaradıcılığında Fərhad surəti

Şəhla Məcidova
Filologiya üzrə fəlsəfə doktoru, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.
Azərbaycan. E-mail: shahla.majidova@mail.ru
https://orcid.org/0000-0003-3842-0361

Annotasiya. Şərqin iki böyük söz ustadı – Nizami Gəncəvi və Əlişir Nəvainin yaradıcılığına həsr olunmuş bu məqalədə onların yaratdığı Fərhad surətindən bəhs olunur. Hər iki şair Fərhad obrazında öz ideyalarını verməyə çalışmışdır. Əgər Fərhad obrazı Nizaminin "Xosrov və Şirin" poemasında ikinci plandadırsa, Nəvai sələfindən fərqli olaraq, onu öz poemasının baş qəhrəmanı etmiş və əsəri "Fərhad və Şirin" adlandırmışdır. Hər iki əsərdə Fərhad obrazı mərd, cəsur, eşqi yolunda özünü qurban verən fədakar aşiq olaraq yaradılsa da, fərqli xüsusiyyətləri də vardır.
Açar sözlər: sələf, insan, külüng, sədaqət, mükalimə, Bisütun, xəzinə, Çin, cəsarət

http://dx.doi.org/10.29228/edu.165
Məqaləyə istinad: Məcidova Ş. (2020) *Nizami və Nəvai yaradıcılığında Fərhad surəti.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 123-127
Məqalə tarixçəsi: göndərilib – 01.04.2020; qəbul edilib – 09.04.2020

The image of Farhad in the works of Nizami and Navai

Shahla Majidova
Doctor of Philosophy in Philology, Institute of Manuscripts named after Mohammad Fuzuli. Azerbaijan.
E-mail: shahla.majidova@mail.ru
https://orcid.org/0000-0003-3842-0361

Abstract. The article is dedicated to the work of two great east masters of – Nizami Ganjavi and Alisher Navai and Farhad character. Both poets tried to spread their ideas in the image of Farhad. If Farhad's character is in the foreground in Nizami's poem "Khosrov and Shirin", unlike his predecessor, Navai made him the protagonist of his poem and called his work "Farhad and Shirin". Despite the fact that in both poems the image of Farhad was created as a brave, courageous, selfless lover, there are also various features.
Keywords: predecessor, man, picker, fidelity, dialogue, Bisutun, treasure, China, courage

http://dx.doi.org/10.29228/edu.165
To cite this article: Majidova Sh. (2020) *The image of Farhad in the works of Nizami and Navai.* «Comparative Literature Studies», Issue I, pp. 123-127
Article history: received – 01.04.2020; accepted – 09.04.2020

Giriş / *Introduction*

Klassik Şərq ədəbiyyatının ən parlaq səhifələrindən birini də sələflər və xələflər mövzusu təşkil edir. Artıq əsrlərdir ki, bu mövzuda yazıb-yaratmış ədiblər öz ustadlarına – sələflərə sonsuz ehtiram və heyrətini onların əsərlərinə nəzirə yazarkən ifadə etmişlər. İlk sələflərdən biri kimi dahi Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209) adı öndə gedir, desək, yanılmarıq. Nizami, həqiqətən də bir səlef olaraq, özündən sonra bir məktəb qoydu ki, bu məktəbin davamçıları da onun adına layiq xələf oldular və əksəriyyəti öz "Xəmsə"sini yaradaraq, bu mövzuda yazılan əsərləri məzmunca daha da genişləndirdilər. "Xəmsə" yaradan Nizaminin xələflərindən biri də dahi özbək şairi Əlişir Nəvaidir (1441-1501).

Əsas hissə / *Main Part*

Nizamidən düz üç əsr zaman fərqi ilə yaşayan Nəvai "Xəmsə"sini yazarkən, Nizami əsərlərinin ümumi xüsusiyyətlərini saxlasa da, beşliyə daxil olan əsərlərinin məzmununda və obrazlarda fərqliliklər etmişdir. Bu baxımdan hər iki şairin yaratdığı Fərhad surəti diqqəti daha çox cəlb edir. Fərhad obrazı ilk dəfə olaraq, ədəbiyyatda Nizami tərəfindən "Xosrov və Şirin" poemasında yaradılmışdır. Lakin Nizami Fərhad haqqında çox az məlumat verir. Çünki Nizaminin əsərinin əsas qəhrəmanı Fərhad yox, Xosrovdur. Odur ki, onun kim və haralı olması qeyd edilmir, Fərhad sadəcə daşyonan, mahir bir sənətkar, külüngü ilə daşlarda, qayalarda əsrarəngiz təsvirlər yaradan bir memar olaraq verilib. O, hündür, cüssəli, yaraşıqlı bir gəncdir.

Dedi: "Fərhad adlı bir cavan vardır,
Usta mühəndisdir, bir sənətkardır.
...Külünglə başlarkən sənətkarlığa,
Yeri quş qayırıb yüklər balığa.
Qızıl bir rəng alır işindən güllər,
Daşlara dəmirlə Çin nəqşi çəkər.
Sənətinin səsi yayılmış Ruma,
Tişəylə qart daşı döndərir muma [1, s.183].

Nəvai isə Fərhadı sadəcə bir daşyonan kimi təqdim etmir, o, öz poemasında Fərhad surətini Nizami və Dəhləvi əsərlərindən tamamilə fərqli olaraq, bir şahzadə kimi təqdim edir. Lakin şahzadə olması onun zəhmətə, əməyə qatlaşmasına mane olmur. Nəvainin Fərhadı da cəsur, cəngavər və igiddir. Nəvainin Fərhadı Nizaminin Xosrovu kimi ən kiçik yaşlarından dövrünün bütün elm və fənlərini öyrənməklə məşğul olur. O, tədricən fəlsəfə, hikmət, heyət, nücum, riyaziyyat, ilahiyyat elmlərinə yiyələnir, ruhən və cismən hərtərəfli inkişaf edir:

Elmi vərəqlədi, elə ki, bir-bir,
Bildi dilavərlik silahı nədir.
O hər hansı işə meyil etsə əgər,
Çətinlik çəkmədən onu düzəldər.
...Elm dünyasında bir parlaq gövhər,
Qüvvət aləmində göstərər hünər.
Heç aydı özünü, əbcəd oxur tək,
Nəinki elmdə, gücdə də gerçək [2, s.37-38].

Fərhad həm də mətin, məğrur bir aşiqdir. "Xosrov və Şirin"də Fərhad süd arxı çəkdirmək istəyən Şirinə ilk baxışdan aşiq olur və bu eşqi uğrunda ölməyə belə hazır olur. Bu məhəbbət onu

xariqələr yaratmağa, hünərlər göstərməyə ruhlandırır. O, qısa bir müddətdə Şirin üçün süd arxını çəkir və təbii ki, bunun müqabilində heç bir mükafat gözləmir. Onun mükafatı Şirinin sevgisi olardı ki, bu da qeyri-mümkün idi. Şirin ona təşəkkürünü bildirib sırğalarını verəndə, Fərhad özünü təhqir olunmuş hesab edir:

Fərhad o xəznəyə deyib "Afərin!"
Alıb ayağına atdı Şirinin.
Tez çıxdı qəsrdən, qaçdı çöllərə,
Dəniztək göz yaşı axıtdı yerə.
Eşqini duyarlar deyə, qorxaraq
Mərdliklə gəzirdi insandan uzaq [1, s.187].

Qeyd etdiyimiz kimi, ümumi məzmun və quruluş baxımından Nizaminin "Xosrov və Şirin"i ilə Nəvainin "Fərhad və Şirin"i arasında oxşarlıq o qədər də çox deyil. Başlanğıcdan Nəvai öz əsərinin quruluşunun tərkib hissələrini tamamilə Nizamidən fərqli surətdə qoyduğu kimi, məhəbbət mövzusunda da fərqli mövqe tutmuşdur. Nizamidə Fərhad iş üçün saraya dəvət olunanda Şirini görüb aşiq olursa, Nəvainin əsərində Fərhad Şirinin xəyalını güzgüdə görüb aşiq olur:

Fərhadın xəyalı durduğu yerə,
Sürürkən atını o birdən-birə,
Onun gözlərinə baxdı o xəyal,
Bürüdü timsalı qəribə bir hal.
Yaralı maraltək ünü ucaldı,
Bir nalə çəkərək yıxılıb qaldı.
Fərhad onu belə gördüyü zaman,
Baxmaq həvəsilə dayandı bir an.
Yaxın gətirirkən güzgü timsalı,
Göründü dilbərin aytək camalı.
Öz timsalı kimi nalə çəkərək,
Fərhad yerə düşdü cansız cəsədtək [2, s.117].

Nizamidə Fərhadın sevgisi qarşılıqlı deyildi və Fərhad Şirinin Xosrovu sevdiyini bilirdi. Nizaminin Şirinindən fərqli olaraq, Nəvainin Şirini ilk görüşdə Fərhada aşiq olur, onu saraya aparıb eşq elan edir, aşiq və məşuqə sona kimi bu təmiz və ilk məhəbbətlərinə sadiq qalırlar.

Nizami Fərhadın daxili aləmini oxucusu qarşısında daha yaxşı açmaq, yüksək mənəvi dəyərlərə sahib olduğunu göstərmək üçün onu Xosrovla qarşılaşdırır, Fərhadın qətiyyəti və əzmi Xosrovla dialoqunda bütün aydın olur. Fərhadın işindən və Şirinə olan məhəbbətindən xəbər tutan Xosrov Fərhadı saraya dəvət edir, onu bu sevdadan çəkindirmək üçün müxtəlif yollara əl atır. Əvvəl ona var-dövlət, qızıl təklif edir, bu yolla heç nə əldə etmədikdə rəqibini sözlə susdurmaq istəyir. Lakin Xosrov burada da məğlub olur. Xosrovla Fərhadın deyişməsi səhnəsində Xosrovun xarakterindəki cılızlıq, Fərhadın isə mənəvi ləyaqəti və fədakarlığı daha qabarıq şəkildə üzə çıxır. Fərhadın daxili dünyasının nə qədər zəngin, nə qədər yüksək və nə qədər pak olduğunu hətta rəqib olsa belə Xosrov heyran qalaraq özü etiraf edir:

Xosrov nə nüktəni edirdisə yad,
Cavabı nüktəylə verirdi Fərhad.
Həzərata dedi: "Ta bu günəcən
Belə hazırcavab görməmişəm mən.
Madam ki, qızıldan qaçdı, çəkindi,
Daşla sınayarıq biz onu indi" [1, s.194].

Nəvainin də Fərhadı Xosrovla görüşür. Onun Xosrovla görüşünü Nəvai iki rəqibin üz-üzə gəlməsi kimi tərənnüm edir. Fərhad ilə Xosrovun mükaliməsini iki bərabərhüquqlu sərkərdənin danışığı kimi verir. Fərhad Xosrovun qarşısında əsir olsa da, öz mənliyini, vüqar və mətanətini itirmir. Xosrovun suallarına lazım bildiyi kimi cavablar verir:

Şah neçə çətinə çəkdi xitabı,
O qədər asanca verdi cavabı.
Fərhadı mərdanə bir natiq gördü,
O danışmayırdı, gövhər düzürdü.
Xosrovun qəlbinə od düşdü kindən,
Tutuşdu varlığı lap qəzəbindən [2, s.208].

Nizaminin Fərhadı Xosrovun qarşısında əyilmir. Xosrov onun qarşısına çətin bir şərt qoyur, ona Bisütun dağını çapıb oradan yol açmağı tapşırır ki, bu da çox çətin iş idi. Lakin Şirinə olan məhəbbəti Fərhadı bu işə başlamağa qol-qanad verir və işin öhdəsindən gəlir. Xosrov Fərhada məğlubiyyətini tək söz savaşında deyil, məhəbbətində də olacağını bildiyi üçün Fərhadı aradan götürməyi qərara alır. Bunun üçün silaha ehtiyac da qalmır. Sadəcə, Şirinin öldüyünü söyləmək yetər. Həyatından çox sevdiyi Şirini itirmək onunçün yaşamağın mənasızlığı demək idi və bu ayrılığa dözə bilməyən Fərhadın ürəyi partlayıb ölür:

Olmasın gündüzüm gecə nə sayaq?
Sönmüş bu dünyaya nur saçan çıraq!
Sönmüşdür çırağım, soyuqdur ahım,
Batıb getdi ahım, o son pənahım.
Şirinə ədəmdə qovuşaram mən,
Ədəm diyarına tez qoşaram mən."
Üzülüncə əli o dildarından
"Şirin! Şirin!" deyib, yazıq verdi can [1, s.207-208].

Eyni süjeti saxlayaraq, Nəvainin də Fərhadı Xosrovun məkrli niyyəti ilə öldürülür. Fitnəkar qarı Fərhadın yanına gedir. Xosrovla Məhinbanunun barışdığını, Xosrovun Şirinlə nikahı və Şirinin bu nikahdansa ölümü üstün tutub özünü öldürməsi xəbəri Fərhadı sarsıdır və Şirinsiz yaşamağın heç bir mənası qalmadığını söyləyir:

Çılğın bir nərəylə səsləndi Fərhad,
Dedi: "Könlüm evi edildi bərbad,
Bir quru canım var, yar aldı onu.
Aldı, atəşlərə saldı yar onu.
Duysun ki, nuş etdi könül qanımı,
Buraxsın möhnətdə üzgün canımı".
Söyləyib dünyadan əbədi getdi,
Ədəm dünyasına hərəkət etdi [2, s.259].

Fərhad "Xosrov və Şirin"də ikinci dərəcəli surətdir. Əsərdə yalnız bir hissədə görünür. Amma bu, Fərhadın oxucularda diqqətini cəlb etməyə, dərin rəğbət hissi oyatmağa da kifayət edir, onlarda özünə qarşı dərin sevgi hissi yaradır. Fərhad öz eşqinin böyüklüyü, məğrurluğu, yüksək mənəvi keyfiyyətləri ilə Xosrov surətindən daha çox yadda qalır.

Nəvai isə Fərhad obrazında öz xalqının, öz vətəninin qəhrəman oğlunu tərənnüm edir, həm də əməksevən, elmə, sənətə qiymət verən və öz qollarının qüvvəti ilə quruculuq işlərində fədakarlıqla çalışan, bütün ağır və çətin işlərin öhdəsindən gələ bilən bir zəhmətkeş insanın təsvirini vermişdir.

Nəticə / *Conclusion*

Hər iki əsərdə – həm "Xosrov və Şirin"də, həm də "Fərhad və Şirin"də böyük məhəbbətlə təsvir edilən Fərhadın cismani ölümü təəssüf doğursa da, yüksək keyfiyyətlərə sahib olmasını, sonda öz sevgisi uğrunda canını fəda etməsini onun mənəvi qələbəsi hesab etmək olar. Məhz bu mənəvi qələbə sonralar da onun digər əsərlərinin baş qəhrəmanı olması üçün bir zəmin yaratmışdır və onu simvola çevirmişdir.

Ədəbiyyat / *References*

1. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, "Yazıçı", 1982.
2. Əlişir Nəvai. Seçilmiş əsərləri. Bakı, "Öndər nəşriyyat", 2004.

Образ Фархада в творчестве Низами и Навои

Шахла Меджидова
Доктор философии по филологии, Институт Рукописей имени Мухаммеда Физули. Азербайджан.
E-mail: shahla.majidova@mail.ru

Резюме. Статья посвящена творчеству двух великих мастеров Востока – Низами Гянджеви и Алишира Навои и образу Фархада в поэмах этих поэтов. Оба поэта пытались распространить свои идеи в образе Фархада. Если образ Фархада находится на втором плане в поэме Низами «Хосров и Ширин», в отличие от своего предшественника, Навои сделал его главным героем своего произведения и назвал свою поэму «Фархад и Ширин». Несмотря на то, что в обеих поэмах образ Фархада создан как смелый, храбрый, самоотверженный любовник, также есть различные особенности.
Ключевые слова: предшественник, человек, кайло, верность, диалог, Бисутун, сокровище, Китай, смелость

Əlişir Nəvai və Fəxrinin əsərlərinin müqayisəli təhlili

Samirə Əliyeva
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: xedicealizade@mail.ru
https://orcid.org/0000-0002-9102-8169

Annotasiya. Məqalədə Əlişir Nəvainin "Fərhad və Şirin" əsəri ilə Fəxrinin "Xosrov və Şirin" əsərinin tərcüməsinin müqayisəli təhlili verilmişdir. Hər iki şairin Nizami kimi dahi bir sənərkarın əsərinə müraciət etməsi böyük istedad və cürət tələb edirdi. XIV əsrdə Aydınoğullar sülaləsindən olan İsa bəyin sifarişi ilə Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxri Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərini müəyyən əlavə və ixtisarlarla türk dilinə tərcümə etmişdir. Dünya şöhrətli şair Əlişir Nəvai də Nizaminin "Xosrov və Şirin" əsərinə müraciət edərək, əsərin süjet xəttini dəyişərək "Fərhad və Şirin" əsərini qələmə almışdır. Həm Nəvai, həm də Fəxrinin əsərləri bir-birindən kompozisiya və qəhrəmanlarının xarakterləri baxımından çox fərqlənir. "Xosrov və Şirin"ləri müqayisə etməklə işə başlayan Nəvai, mövzunun özündə dəyişiklik edərək, Xosrovun yerinə başqa əsərlərdə ikinci dərəcəli yer alan Fərhadı əsas qəhrəman kimi işləmişdir. Şair eşqi tərənnüm edən əsərində daha çox aşiqin iztirablarını ön plana çıxartmışdır. Fəxri isə Firdovsinin "Şahnamə"sinə müraciət edərək Nizaminin əsərində ixtisarlarla verilmiş hissələri - Bəhram Çubin və Xosrovun Rum səfərini daha ətraflı şəkildə vermişdir. Hər iki sənətkarın türk dilində qələmə aldığı türk ədəbiyyatı tarixində çox mühüm bir hadisə idi. Fars dilində yazılmış "Xosrov və Şirin" əsərinin türk dilinə tərcüməsi və bir əsr sonra yeni bir adla, tam fərqli süjet xətti ilə özbək şairinin interpretasiyasında yenidən işlənən "Fərhad və Şirin" türk xalqlarının bu möhtəşəm eşq dastanını doğma dildə oxumasına və daha da məşhurlaşmasına şərait yaratmış oldu.
Açar sözlər: Nizami Gəncəvi, Fəxri, Nəvai, "Xosrov və Şirin", "Fərhad və Şirin", tərcümə, tərcüməçi

http://dx.doi.org/10.29228/edu.138
Məqaləyə istinad: Əliyeva S. (2020) *Əlişir Nəvai və Fəxrinin əsərlərinin müqayisəli təhlili.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 128-135
Məqalə tarixçəsi: göndərilib – 04.05.2020; qəbul edilib – 18.05.2020

Comparative analysis of Alishir Navai and Fakhri's works

Samira Aliyeva
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: xedicealizade@mail.ru
https://orcid.org/0000-0002-9102-8169

Abstract. The article provides a comparative analysis of Alishir Navai's "Farhad and Shirin" with Fakhri's translation "Khosrov and Shirin". The appeal of both poets to the work of such a great artist as Nizami required a great talent and courage. In the XIV

century, under the request of Isa Bey from the Aydinoglu dynasty, Fakhraddin Yaqub bin Mohammed Fakhri translated the poem of Nizami Ganjavi's "Khosrov and Shirin" into Turkish. The world famous poet Alishir Navai also addressed Nizami's "Khosrov and Shirin" poem, changing the plot of the work and wrote his "Farhad and Shirin". Both Navai and Fahri's works differ greatly in composition and character of their heroes. Starting with comparing the poems "Khosrov and Shirin", Navai made changes on the theme and worked on the character of Farhad as the main hero, replacing Khosrov who was the main hero before. In his love poem, the poet brought to the forefront the afflictions of lovers. But Fakhri addressed to Firdovsi's "Shahnameh" and provided more details of the parts which were given in abbreviated form in Nizami's work which are "Bahram Chubin" and "Khosrov's Roman visit". It was a very important historical event in the history of Turkish literature, written by both artists in Turkish. The translation of "Khosrov and Shirin" poem into Turkish which was written in Persian and re-creation of "Farhad and Shirin" poem after a century with a new name, and a completely different plot line by interpretation of Uzbek poet, allowed the Turkish people to read and further popularize this magnificent love epic in the native language.
Keywords: Nizami Ganjavi, Fakhri, Navai, "Khosrov and Shirin", "Farhad and Shirin", translation, translator

http://dx.doi.org/10.29228/edu.138
To cite this article: Aliyeva S. (2020) *Comparative analysis of Alishir Navai and Fakhri's works.* «Comparative Literature Studies», Issue I, pp. 128-135
Article history: received – 04.05.2020; accepted – 18.05.2020

Giriş / *Introduction*

Şərq ədəbiyyatında məhəbbət mövzusunda yazılan əsərlər içərisində "Xosrov və Şirin" və ya "Fərhad və Şirin" əfsanələrinin motivləri əsasında yaranmış bədii örnəklər xüsusi yer tutur. Tarixi qaynaqlara əsaslanan və bir çox müəllif tərəfindən qələmə alınan hekayələr sırasına daxil olan, ilk dəfə Firdovsinin "Şahnamə"sində əksini tapan bu mövzunun tanınmasında, məşhurlaşmasında Nizami Gəncəvinin rolu danılmazdır. "Nizami mövzularına müraciət etmək, şairin qabaqcıl ideyalarından faydalanmaq bütün dövrlərdə zamanın nəbzini tutmaq, müasir həyatın tələblərilə ayaqlaşmaq xatirinə keçmişə qayıtmaq kimi bir məna daşımışdır [1, s.4]. Nizamidən sonra bu mövzuya müraciət edən sənətkarlar müəyyən dəyişikliklər – əlavə və ixtisarlarla yeni əsərlər ərsəyə gətirmiş, bəziləri isə məsnəvini öz dillərinə tərcümə etmişlər.

Əsas hissə / *Main Part*

"Xosrov və Şirin" əsəri bütün Şərqdə, türkdilli ölkələrdə böyük maraqla qarşılanırdı. Əsər farsca yazıldığından türk dilinə tərcümə olunmasına ehtiyac var idi. İlk dəfə bu məsuliyyətli işi Xarəzmli Qütb öz üzərinə götürərək, 1341-ci ildə "Xosrov və Şirin"i türk dilinə çevirərək Tini-Beke ithaf etmişdir. Qütbdən sonra Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxri 12 mart 1367-ci ildə Aydınoğullar sülaləsindən olan İsa bəyin sifarişi ilə bu ağır və şərəfli işə başlayır və poemanı türk dilinə tərcümə edir. Fəxrinin tərcüməsinin elm aləminə tanıdılmasında alman şərqşünası Barbara Flemmingin rolu danılmazdır.

Özbək xalqının böyük mütəfəkkir alimi, dövlət xadimi Əlişir Nəvai isə dahi sələfinin əsərindən ilhamlanaraq "Fərhad və Şirin" əsərini ilk dəfə çağatay türkcəsində qələmə almışdır. Nizami Gəncəvi və Xosrov Dəhləvinin əsərləri başda olmaqla, daha öncə yazılmış "Xosrov və Şirin"ləri müqayisə etməklə işə başlayan Nəvai, mövzunun özündə dəyişiklik edərək Xosrovun yerinə başqa əsərlərdə ikinci dərəcəli yer alan Fərhadı əsas qəhrəman kimi işləmişdir. Şair eşqi tərənnüm edən əsərində daha çox aşiqin iztirablarını ön plana çıxartmışdır.

"Xosrov və Şirin", yaxud "Fərhad və Şirin" məsnəvilərinə nəzər saldıqda, üçlü eşq hekayəsi ilə qarşılaşırıq. "Xosrov və Şirin"də əsas qəhrəmanlar Xosrov və Şirindir. Fərhad Şirinə olan sevgisindən Xosrovun hiyləsi ilə özünü öldürür. "Fərhad və Şirin"də isə Xosrov iki aşiqi ayıran bir xarakter kimi qarşımıza çıxır. Fərhada tələlər quran hökmdar kimi verilir.

Fəxri ilə Nəvainin əsərlərini birləşdirən əsas cəhət hər ikisinin türk dilində yazılmasıdır. Çünki əsərin türkcəyə tərcümə olunmasına və türk dilində belə bir əsər yazılmasına böyük ehtiyac var idi. Nizami kimi dahi bir sənətkarın əsərini tərcümə etmək və ya eyni mövzuya müraciət edərək süjet xəttini dəyişib yeni bir əsər yazmaq istedad və məsuliyyət tələb edirdi. Azərbaycanlı şairin xələfləri bunu öz əsərlərində etiraf etməkdən belə, çəkinməmişlər. Aydınoğullar sülaləsindən olan İsa bəy Fəxrəddin Yaqub ibn Məhəmməd Fəxridən əsəri türk dilinə tərcümə etməsini istədikdə şair öz fikrini bu cür ifadə edir:

Dedim şaha qulun haddi degül bu
Benim şirümde yoqdur rengi ne bu
Ki ol ulu sözine medhal edem
Ve ya bir müşkilin onun halı edem
Ki şiri doludur dürlü ibarat
Latayifdür seraser istiarat [2, s.62].

Fəxrinin yazdığı misralardan da aydın görünür ki, Nizaminin əsərini tərcümə etmək böyük diqqət tələb edən məsuliyyətli, çətin bir işdir və mütərcim o dövr üçün tarixi bir işə imzasını atmışdır.

Əlişir Nəvai isə "Fərhad və Şirin" əsərində "Qələmin tərifi, Nizami və Xosrov Dəhləvinin xatırlaması" bölümündə yazır:

Эмас осон бу майдон ичра турмоқ,
Низомий ранжасиға ранжа урмоқ.
Тутайким қилди ўз чангини ранжа,
Неким урди анинг чангига ранжа.
Керак шер оллида ҳам шери жанги,
Агар шер ўлмаса, бори раланги [3, s.18-19].

Bu meydanda sanma asandır durmaq,
Nizamilə pəncə-pəncəyə vurmaq.
Nizamiyə pəncə uzatsa hər kəs,
Qırılar pəncəsi, murada yetməz.
Şir pəncəsi gərək şirlə edə cəng,
Bari şir olmasa, qoy olsun pələng [4, s.17].

Dünya şöhrətli mütəfəkkir, böyük fikir adamı Nəvai dahi Nizaminin sənətini yüksək qiymətləndirərək, özünün ondan bir pillə aşağıda olduğunu qeyd etmişdir. Bunu etiraf etməkdən belə çəkinməyən sənətkar Nizami Gəncəvinin böyüklüyünü bir daha sübut etmiş olur.

Hər iki sənətkar özlərindən sonra əsərlərinin yadigar qalıb onların xatırlanmasını arzu edir. Nizami poemasını tərcümə etmək kimi çox çətin və məsuliyyətli işə girişməyə cəsarət etmədiyini

bildirən şairə İsa bəyin hökmdar Sultan Mahmudu, Firdovsi və onun "Şahnamə"sini xatırlatması da təsadüfi olmayıb, söz sənətinin tarixi əhəmiyyətini yüksək dəyərləndirdiyini, bədii sözün sənətkar və onun məmduhunun adının əbədiləşdirərək tarixdə qalmasında əvəzsiz rolunu dərk etdirmək məqsədini göstərir:

Oqinisar nice kim ola devran
Bu manidari olmaz hiç viran
Ölümdən sonra bizi edələr yad
Revanumuzu anup qılalar şad
Cihan durduqca adumuz qalısar
Qalursa malumuz yadlar alışar [2, s.263].

Nəvai də "Fərhad və Şirin" əsərini yazmazdan əvvəl bütün tarixi məlumatları toplayaraq, Nizamidən fərqli süjet xətti seçərək, əsərinin bütün dünyada tanınmasını, özündən sonra dəyərli bir yadigar qoyub getmək istədiyini aşağıdakı misralarda bildirir:

Агарчи назми дилкаш тушса масмуъ
Анинг афсонаси ҳам бўлса матбуъ.
Бурун жамъ эт неким бўлғай таворих,
Борида иста бу фархунда тарих.
Торилғай шояд андоғ бир неча сўз,
Сўз айтур элга ул ён тушмаган кўз [3, s.30].

Tarixdə nə varsa topla bir yerə,
Bir tarix yarat ki, tarixə girə.
Bəlkə, ondan tapdın elə gözəl söz
Ki, dəyməmiş olsun ona başqa göz,
Yazdığın nəzmə ver eylə yaraşıq,
Olsun əsərimə görənlər aşiq [4, s.25].

Həm Əlişir Nəvai, həm də Fəxri dahi, ölməz sənətkar Nizaminin yaradıcılığını yüksək qiymətləndirib ona olan ehtiramlarını ifadə edirlər. O dövrdə Nizami kimi bir şairin əsərini tərcümə etmək və ya onun mövzusundan yararlanaraq fərqli bir əsər yazmaq böyük cürət tələb edirdi:

Nizamidur qamu söz ehli fahri
İnanmazsan ona netsün bu Fahri
Nizami nazmı gevherdür bahasuz
Benüm şirum baqir puldur safasuz [2, s.279].

Вале жавфи аро юз маънавий ганж.
Анинг бу ганжидин тормай киши ком,
Нечукким га.нжроши Ганжа ором.
Агарчи Ганжада ороми онинг,
Вале ганж узра доим гоми онинг [3, s.16].

Yüz-yüz məna saçar xəznəsi birdən,
Yalnız bu xəznədən almışdır kamı.
O Gəncədə yatan böyük Nizami,
Gəncədə olsa da aramı onun,
Xəznələr üstədir məqamı onun [4, s.15].

Nəvai "Fərhad və Şirin" əsərində tam fərqli süjet xətti seçərək Fərhadı şah oğlu kimi təsvir edir və onu ən yüksək pilləyə qaldırır. Fərhad naz-nemət içərisində yaşamasına baxmayaraq, öz arzularını ifadə edən ideal insan kimi göstərilir. O, taxt-tacda, var-dövlətdə gözü olmayan xalqını sevən sadə bir insan kimi təsvir olunur.

Fəxridə isə Fərhad obrazı əsərə gec daxil olub, ikinci dərəcəli obraz kimi verilir. Şair Fərhada böyük hörmət və ehtiram bəsləyərək hekayənin 2642 beytdən ibarət olan birinci hissəsini "Şapur u Şirin", 1732 beytdən ibarət ikinci hissəsini isə "Şirin u Fərhad" adlandırmışdır.

Bunı oqıyan isterkim duta yad
Ki bunun adı dur Şirin u Ferhad [2, s.399].

Görünür, Fərhad obrazı ilk dəfə ədəbiyyata Nizami tərəfindən gətirilmişdir. Əslində mövzunun inkişafı üçün Fərhadın əsərə daxil edilməsi zəruri idi. Odur ki, fikrimizcə, Nizaminin istifadə etdiyi mənbələrdə (bəlkə də folklorda) Fərhad haqqında məlumat hər halda mövcud olmuşdur [5, s.147].

"Fərhad və Şirin"də eşq tamam fərqlidir. Fərhad Nizaminin Məcnununa bənzəyir. Çünki sevgilisi ilə üz-üzə gəlincə qüdrətini itirən, sevgisini Şirinə etiraf etməkdən belə çəkinməyən və onun qarşısında əyilə bilən obrazdır. Hətta Şirinin gözəlliyini görəndən sonra özündən belə gedir: Öz sevgisini Şirinə etiraf etməkdən belə çəkinmir:

Кўрунгач ул жамоли оламоро,
Анинг матлуби бўлди ошкоро.
Ҳамул эрдики мафтун бўлмиш эрди,
Кўруб кўзгуда мажнун бўлмиш эрди.
Бировким акс кўргач ҳуши кетса,
Ўзин кўргач не тонг, жон таркин этса
Чу Фарҳод ул Пари эрконни билди,
Чекиб ўтлуқ фиғон андоқ йиқилди [3, s.187].

Dünyalar bəzəyi o üz göründü,
Fərhad arzulayan bir qız göründü.
Güzgüdə görərək bir kərə onu,
Olmuşdu eşqinin sadiq məcnunu.
Görüb yar əksini qəşş etsə biri
Görərsə özünü qalarmı diri?
Fərhad ki, yarını tanıdı bildi,
Bir odlu ah çəkib yerə sərildi [4, s.153].

H.Araslı isə qeyd edir ki, Fərhadın məcnunvari təsviri və məktublaşması müəyyən dərəcədə Nizaminin "Leyli və Məcnun"unu xatırladır. Lakin Nəvai Fərhadın Sokratın yanına səfər etməsi, əjdaha, Əhrimən və s. ilə mübarizə, dərya səfəri kimi dəyərli və orijinal əlavələrlə poemanı fərqli şəkildə qurur [6, s.670].

Nəvainin əsərində Pərviz Xosrov iki aşiqin qovuşmasına əngəl olan Şirinlə evlənmək istəyən qəddar bir obraz kimi göstərilir. Xosrov Şirinin mədhini eşidərək ona aşiq olur. Məhinbanuya məktub yazaraq Şirini ondan istəyir. Şirin isə əgər belə bir şey olarsa, özünü öldürəcəyini bildirir. Bu vəziyyətdən hirslənən Xosrov qoşununu toplayaraq, Məhinbanunun yurduna hücuma keçir. Fəxrinin tərcüməsində isə tamam fərqli süjet xəttində verilir. Tərcümədə Bəhram Çubinlə olan münaqişələri verilir.

Şirin isə hər iki əsərdə öz gözəlliyi, qərarlılığı və iffəti ilə öz eşqinə sahib çıxması, bütün iztirablara, acılara dözən bir xarakter kimi qarşımıza çıxır. "Fərhad və Şirin"də Şirin aşiq olduğu

Fərhada qovuşmaq üçün onu gözləyir. Fərhad da öz sevgisinə sadiq qalaraq, məhəbbəti üçün əlindən gələni edir. Ancaq "Xosrov və Şirin"də isə Şirinə aşiq olan Xosrov nikahdan qaçaraq Məryəm və Şəkərlə evlənir. Əsərin sonuna doğru isə Şirinlə nikah bağlayır.

Hər iki əsərdə Xosrov öz oğlu Şiruyə tərəfindən öldürülür.

"Fərhad və Şirin" poemasında Məryəm, Şəkər, Rum səfəri, Barbəd, Nikisa, Bəhram Çubin kimi obrazlara yer verilməmişdir. Sadəcə, əsərin sonunda "Bəhramın Ərmən zəminə gəlməsi" hissəsində verilir. Ancaq burada Bəhram Çubin deyil, Fərhadın dostu Bəhramdan söhbət açılır. O, dostu Fərhadın qəbrini ziyarət etmək, qisasını almaq üçün gəlir:

Сенинг қонингга тортиб тиғи кинни,
Тенг этсам ер била Мағриб заминни.
Қазиб тоғини дарёсиға солсам,
Тенгиз суйини саҳросиға солсам.
Туман минг қоннинг ўлсам размсози,
Сенинг қонингга бўлғайму мувозиғ! [3, s.353-354]

Qalmasın deyərək yerdə nahaq qan,
Məğribi eylərəm yer ilə yeksan.
Uçurub dağını dəryaya töksəm.
Axıdıb suyunu səhraya töksəm,
Yüz min müqəssiri öldürsəm hərgah,
Qanının əvəzi olarmı, ey vah! [4, s.292]

Fəxri Nəvaidən fərqli olaraq mövzunun Nizami poemasında əksini tapmayan, yaxud ötəri toxunulmuş bəzi motivlərə, o cümlədən Xosrovun Rum səfərini, Bəhram Çubin münaqişələri ilə bağlı hissələrə daha geniş yer verərək tarixi qaynaqlara və "Şahnamə"yə daha çox yaxınlaşmaqla orijinaldan fərqlənmişdir. Hətta öz ustadı olan Nizamini bu mövzuda qınayır:

Acem dilince düzen düzdi işqin
Ne cengin zikr kıldı vu ne sülhin [2, s.266].

Hər iki əsərdə diqqəti cəlb edən və əsərin ən maraqlı hissələrindən biri də Xosrovla Fərhadın deyişmə səhnələridir. Hər iki müəllif bu hissələrdə heç bir dəyişiklik etmədən Nizamidə olduğu kimi vermişlər. "Fərhad və Şirin"də deyişənlərin – yəni Fərhadla Xosrovun hər ikisi də hökmdardır.

Деди: Қайдинсен, эй мажнуни Кимраҳғ
Деди: Мажнун ватандин қайда оғаҳ.
Деди: Недур санга оламда решағ
Деди: Ишқ ичра мажнунлуқ ҳамеша [3, s.251].

Dedi:- Ey divanə, haralısan sən?
Dedi:- Divanələr tanımaz vətən!
Dedi:- Nə seçmisən özünə peşə?
Dedi:- Rüsvayi-eşq olmaq həmişə [4, s.207].

Fəxrinin tərcüməsində hökmdar Xosrovla daşyonan Fərhadın dialoqu verilir. Bu dialoqun üstünlüyü ondan ibarətdir ki, sadə sənətkarın qorxmadan öz məhəbbəti uğrunda hazırcavablığından, ağlından və cürətindən xəbər verir:

Ne yerdensin dedi ön ona sordı
Bilişlik mülketinden dedi durdı
Eyitdi ona ne sanat bilürler
Dedi kim can satup qayğu alurlar [2, s.410].

Nəticə / *Conclusion*

Nəvai və Fəxrinin əsərlərinin bir-birindən kompozisiya və qəhrəmanlarının xarakterləri baxımından çox fərqli olduğunun şahidi olduq. Bənzərliklərin əsas nöqtəsi əsərin əsas qəhrəmanlarının adları, iki qəhrəmanın eyni zamanda Şirini sevməsi və Fərhadla Xosrovun ölüm səhnələridir.

"Xosrov və Şirin"də əsasən qadın məhəbbətinin tərənnümü yer alır. Ancaq "Fərhad və Şirin"də isə hər şeyini fəda edən, özü üçün heç bir şey gözləməyən, fədakarlığı ilə seçilən Fərhad obrazı ilə qarşılaşırıq.

Hər iki sənətkar Nizamidən bəhrələnsələr də, tamam fərqli əsərlər yazaraq türk xalqları ədəbiyyatlarının zənginləşdirilməsində xüsusi xidmətləri olmuşdur. Fars dilində yazılan "Xosrov və Şirin" əsərini türkdilli xalqların öz doğma dillərində oxumaları o dövr üçün çox mühüm hadisə idi.

Ədəbiyyat / *References*

1. Nüşabə Araslı. Nizami və Türk ədəbiyyatı. Bakı, "Elm", 1980.
2. Barbara Flemming. Fahris Husrev u Şirin. Eine Türkische Dichtung Von 1367. Wiesbaden, 1974.
3. Alisher Navoiy. Farxod va Shirin. www.ziyouz.com кутубхонаси.
4. Əlişir Nəvai. Seçilmiş əsərləri. Bakı, "Öndər nəşriyyat", 2004.
5. E.E. Bertels. Navoi. İzbranniyi trudı. 4 tomax. IV t. Navoi i Djami. Moskva, izd. «Nauka». Glavnaya Redaksiya Vostochnoy lit.
6. Həmid Araslı. Nəvai və Azərbaycan ədəbiyyatı. Azərbaycan ədəbiyyatı tarixi və problemləri. Bakı, "Gənclik", 1998.

Сопоставительный анализ произведений Алишира Навои и Фахри

Самира Алиева
Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: xedicealizade@mail.ru

Резюме. В статье приводится сравнительный анализ «Фархад и Ширин» Алишира Наваи с переводом «Хосров и Ширин» Фахри. Обращение обоих поэтов к творчеству такого великого художника, как Низами, требовало большого таланта и смелости. В XIV веке по просьбе Иса бека из династии Айдыноглу, Фахраддин Якуб бин Мухаммед Фахри перевел на турецкий язык поэму Низами Гянджеви «Хосров и Ширин». Всемирно известный поэт Алишир Наваи также обратился к поэме Низами «Хосров и Ширин», изменив сюжет произведения, и написал свой «Фархад и Ширин». Работы Наваи и Фахри сильно различаются по составу и характеру своих героев. Начав со сравнения стихов «Хосров и Ширин», Наваи внес изменения в тему и работал над персонажем Фархада в качестве главного героя, заменив Хосрова, который раньше был главным героем. В своей любовной поэме поэт выдвигает на первый план страдания влюбленных. Но Фахри обратился к поэме «Шахнаме» Фирдовси и предоставил

более подробную информацию о частях, которые были приведены в сокращенной форме в произведении Низами, а именно «Бахрам Чубин» и «Римский визит Хосрова». Это было очень важное историческое событие в истории турецкой литературы, написанное обоими художниками на турецком языке. Перевод написанной на персидском языке поэмы «Хосров и Ширин» на турецкий язык, и воссоздание поэмы «Фархад и Ширин» после столетия с новым названием и совершенно иной сюжетной линией в интерпретации узбекского поэта позволили турецкому читателю читать и дальше популяризировать эту великолепную любовную эпопею на родном языке.

Ключевые слова: Низами Гянджави, Фахри, Навои, «Хосров и Ширин», “Фархад и Ширин”, перевод, переводчик

Əlişir Nəvai ədəbi irsi Cənnət Nağıyevanın tədqiqatlarında

İlhamə Sultanova
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: silhame@inbox.ru
https://orcid.org/0000-0002-7743-6756

Annotasiya. Əlişir Nəvai ədəbi irsini tədqiq edənlərdən biri görkəmli alim Cənnət Nağıyeva olmuşdur. Onun "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı (XV-XIX əsrlər)" adlı doktorluq dissertasiyasından əlavə, Əlişir Nəvainin həyat və yaradıcılığına həsr etdiyi "Azərbaycanda Nəvai" monoqrafiyaları, "Əlişir Nəvainin Bakı əlyazmaları", "Nəvai ensiklopediyasının lüğəti", eləcə də onlarca məqalələri Azərbaycan, özbək və rus dillərində Bakıda və Daşkənddə işıq üzü görmüşdür. Bu fakt Cənnət Nağıyevanın Əlişir Nəvai irsinin öyrənilməsi ilə bağlı apardığı tədqiqatlarla özbək alimlərinin tanış olması və onlardan bəhrələnməsinə imkan yaratmışdır. Görkəmli ədəbiyyatşünas alim C.Nağıyevanın araşdırmalarında Ə.Xaqani, N.Gəncəvi, S.İ.Nəsimi, Ş.Q.Ənvar və başqa məşhur Azərbaycan klassiklərinin əsərlərinin mükəmməl əlyazmalarının Nəvai kitabxanasında saxlanılması qeyd olunur.
Açar sözlər: Əlişir Nəvai, Cənnət Nağıyeva, Nəvai kitabxanası, Nizami Gəncəvi "Xəmsə"si, Herat ədəbi-mədəni mühiti, Azərbaycan klassikləri

http://dx.doi.org/10.29228/edu.153
Məqaləyə istinad: Sultanova İ. (2020) *Əlişir Nəvai ədəbi irsi Cənnət Nağıyevanın tədqiqatlarında.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 136-141
Məqalə tarixçəsi: göndərilib – 20.03.2020; qəbul edilib – 01.04.2020

Alishir Navai's literary heritage in Jannat Naghiyeva's investigations

Ilhama Sultanova
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: silhame@inbox.ru
https://orcid.org/0000-0002-7743-6756

Abstract. Jannat Naghiyeva is one of the prominent scholars who researches Alishir Navai's literary heritage. Except her doctoral dissertation titled "Alishir Navai and Azerbaijani literature (XV-XIX centuries)", monographs "Navai in Azerbaijan" dedicated to Alishir Navai's life and creativity, "Alishir Navai's Baku manuscripts", "Vocabulary of Navai's encyclopedia", as well as the articles in Azerbaijani, Uzbek and Russian languages were published in Baku and Tashkent. This fact creates an opportunity for Uzbek scholars to be acquantied with Jannat Naghiyeva's researches on the study of Alishir Navai's heritage and benefit from them. In the investigations of prominent literary critic and scholar J.Naghiyeva is noted that best manuscripts of A.Khagani, N.Ganjavi, S.I.Nasimi, Sh.Q.Anvar and other famous Azerbaijani classics are held in Navai library.

Keywords: Alisher Navai, Jannat Naghiyeva, Navai library, Nizami Ganjavi's "Khamsa", Herat literary and cultural environment, Azerbaijani classics

http://dx.doi.org/10.29228/edu.153
To cite this article: Sultanova I. (2020) *Alishir Navai's literary heritage in Jannat Naghiyeva's investigations.* «Comparative Literature Studies», Issue I, pp. 136-141
Article history: received – 20.03.2020; accepted – 01.04.2020

Giriş / *Introduction*

Qədim Şərq ədəbiyyatının qüdrətli klassiklərindən biri olan Əlişir Nəvainin ədəbi fəaliyyəti və poetik yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə qırılmaz tellərlə bağlı olmuşdur. Bu dərin və çoxtərəfli ədəbi-mədəni münasibətlərin mahiyyətini müəyyənləşdirən başlıca xüsusiyyətlərdən biri odur ki, dahi sənətkarın bədii yaradıcılığının formalaşmasında Azərbaycan klassik ədəbiyyatı fəal iştirak etdiyi kimi, onun yaradıcılığının kamil dövründə bu misilsiz ədəbi-estetik mirasdan geniş miqyasda qidalanan və faydalanan da məhz Azərbaycanın şairləri və ədibləri olmuşlar.

Özbək xalqının böyük mütəfəkkiri və şairi Əlişir Nəvainin Azərbaycanla mənəvi və mədəni əlaqələrindən ətraflı bəhs edən alimlərimiz bu problemin ədəbiyyatşünaslığımızda araşdırılmasını aşağıdakı şəkildə səciyyələndirmişlər: "Görkəmli ədəbiyyatşünas və tanınmış alimlərimizdən Firidun bəy Köçərli, akademik Həmid Araslı, filologiya elmləri doktorları Pənah Xəlilov, Cənnət Nağıyeva, Süleyman Rüstəm, Xəlil Rza Ulutürk, Kamil Vəliyev və başqaları Əlişir Nəvai irsini tədqiq və tərcümə etmiş, Azərbaycan ədəbiyyatında və ədəbiyyatşünaslığında şərəfli, tarixi bir səhifə açmışlar. Azərbaycan ədəbiyyatşünaslığında nəvaişünaslıq səhifəsi əhatəli, dərin elmi məzmunda və kifayət qədər zəngin işlənmişdir" [1, s.44].

Əsas hissə / *Main part*

Akademik Həmid Araslıdan sonra Azərbaycan nəvaişünaslığına öndərlik edən görkəmli alim Cənnət Nağıyeva olmuşdur. Onun "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı (XV-XIX əsrlər)" adlı doktorluq dissertasiyasından [2, s.5] əlavə, Əlişir Nəvainin həyat və yaradıcılığına həsr etdiyi "Azərbaycanda Nəvai" monoqrafiyaları, "Əlişir Nəvainin Bakı əlyazmaları", "Nəvai ensiklopediyasının lüğəti", eləcə də onlarca məqalələri Azərbaycan, özbək və rus dillərində Bakıda və Daşkənddə işıq üzü görmüşdür. Bu fakt Cənnət Nağıyevanın Əlişir Nəvai irsinin öyrənilməsi ilə bağlı apardığı tədqiqatlarla özbək alimlərinin tanış olması və onlardan bəhrələnməsinə imkan yaratmışdır.

Yeri gəlmişkən, onu da xatırladaq ki, Cənnət Nağıyevanın çoxspektrli elmi fəaliyyətinin müxtəlif aspektləri, o sıradan Azərbaycan-özbək əlaqələri ilə ilgili tədqiqatları Azərbaycan ədəbiyyatşünasları tərəfindən yüksək dəyərləndirilmiş, onun adını Əlişir Nəvai ilə qoşa çəkmişlər. Görkəmli ədəbiyyatşünas Möhsün Nağısoylu Cənnət Nağıyeva haqqında yazdığı məqalələrdən birini elə belə də adlandırmışdır: "Adı Nəvai ilə qoşa çəkilən tədqiqatçı alim". Cənnət Nağıyevanın bu istiqamətdəki tədqiqatlarının elmi əhəmiyyətini yüksək dəyərləndirən müəllif yazır: "Azərbaycanın ən tanınmış qadın ədəbiyyatşünas alimlərindən biri olan, filologiya elmləri doktoru, professor Cənnət Nağıyevanın adı çox zaman dünya şöhrətli böyük özbək şairi Əlişir Nəvai ilə qoşa çəkilir. Axı bu böyük cəfakeş mətnşünas alim mənalı həyatının böyük bir hissəsini bütün türk dünyasının iftixarı olan Əlişir Nəvai irsinin tədqiqinə, Azərbaycandakı əlyazmalarının öyrənilməsinə və onun simasında özbək-Azərbaycan ədəbi əlaqələrinin araşdırılmasına həsr etmiş, bu sahədə sanballı əsərlər ortaya qoymuşdur" [2, s.6].

Cənnət Nağıyevanın bütövlükdə Azərbaycan-Türküstan, eləcə də Azərbaycan-özbək ədəbi əlaqələri sahəsindəki xidmətlərini yüksək dəyərləndirən ciddi ədəbiyyatşünaslardan biri də filologiya elmləri doktoru Paşa Əlioğludur. "Cami Azərbaycanda" adlı məqaləsində müəllif yazır: "Zəngin təcrübəyə malik görkəmli ədəbiyyatşünas Cənnət Nağıyeva Azərbaycan-Orta Asiya ədəbi əlaqələri ilə məşğul olan ən məhsuldar alimdir. Bu sahədə onun çoxsaylı əsərləri içərisində "Əlişir Nəvainin Bakı əlyazmaları", "Azərbaycanda Nəvai", 1990-cı ildə Daşkənddə çapdan çıxmış "Nəvai və Azərbaycan ədəbiyyatı" kimi sanballı monoqrafiyaların adını çəkməklə görkəmli alimin elmi maraq dairəsini müəyyən qədər təsəvvürə gətirmiş oluruq. Yalnız onu əlavə etmək istərdik ki, bütün bu tədqiqatlarında Cənnət xanım əlyazmalara istinad etmişdir" [2, s.11].

Cənnət Nağıyevanın Əlişir Nəvai irsi ilə bağlı apardığı araşdırmaları Həmid Araslıdan sonrakı alimlərimiz yüksək dəyərləndirirərək yazırlar: "Əlişir Nəvainin həyat və fəaliyyətinin, yaradıcılığının Azərbaycanda öyrənilməsi haqqında danışarkən, professor Cənnət Nağıyevanın xidmətlərini – bu istiqamətdə apardığı tədqiqatlarını, olduqca dəyərli, orijinal, dərin elmi əsaslara söykənən monoqrafiyalarını xüsusilə qeyd etmək lazımdır. Qeyd etmişdik ki, Nəvai əlində olan imkanlardan istifadə edərək zəngin şəxsi kitabxana yaratmışdır. Azərbaycan klassiklərinin əsərləri də bu kitabxanada layiqli təmsil olunurdu. Tədqiqatçı-alim Cənnət Nağıyeva "Klassiklərimizin əsərləri Nəvai kitabxanasında" adlı elmi-tədqiqat işində bu məsələni geniş şəkildə, bütün xırdalıqları ilə açmışdı [1, s.54-55].

Qardaş özbək xalqının dahi şairi və mütəfəkkiri Əlişir Nəvainin qədim Azərbaycan mədəniyyəti ilə sıx və çoxcəhətli əlaqələrindən bəhs edərkən onun bədii yaradıcılığından başqa, həmin dövrdə bütün Türküstanda məşhur olmuş kitabxanasının əhəmiyyətindən də bəhs etmək zərurəti yaranır. Nəvai və Azərbaycan ədəbi-mədəni əlaqələrinin öyrənilməsi tarixindən söz açarkən Cənnət Nağıyevanın "Klassiklərin əsərləri Nəvai kitabxanasında" adlanan məqaləsini [4]. yada salmaq məqsədə müvafiqdir. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Cənnət Nağıyeva bu məsələyə diqqəti yönəltmiş və bir sıra qiymətli elmi mülahizələrini irəli sürmüşdür. Tanınmış nəvaişünas həmin tədqiqatında bu məsələni qabardaraq aşağıdakıları qeyd edir: "Böyük özbək şairi Əlişir Nəvai zəngin ədəbi irsi, çoxcəhətli yaradıcılığı, qabaqcıl ideyaları və bədii sənətkarlıq qüdrəti ilə dünya ədəbiyyatında şərəfli yer tutur. Əsərlərindən aydın görünür ki, o, xüsusən Yaxın Şərq xalqlarınn ədəbi-fəlsəfi fikrini yaxşı mənimsəmiş, ərəb, fars və türk dillərində kitablardan ibarət zəngin kitabxana yaratmışdır" [3, s.50].

Nəvai kitabxanasının kitabdarı isə onun qardaşı, əmir ləqəbli Dərviş Əli idi. XV əsrin 70-80-ci illərdində Nəvai kitabxanasında faəliyyət göstərmiş məşhur xəttat və rəssamlardan biri isə, tarixi mənbələrə görə, Məhəmməd Nəqqaşdır [3, s.127].

Ümumən, dahi şair və mütəfəkkir Əlişir Nəvainin Sultan Hüseyn Bayqara sarayında vəzir işlədiyi dövrdə onun kitabxanasının imkanları daha da genişlənmiş, "öz dövrünün ən məşhur kitabdarları, xəttat və miniatürçü rəssamları bu kitabxanaya dəvət edilmiş, burada son dərəcə coşqun və intensiv yaradıcılıq mühiti mövcud olmuşdur" .

Məsələ bundadır ki, orta əsrlər Azərbaycan-Türküstan ədəbi əlaqələrinin yaddaqalan və parlaq səhifələrini əks etdirən əsərlər və əlyazmaları da məhz bu kitabxana divarları arxasında ərsəyə gəlmişdir. Nəvai kitabxanasında öz dövrünün məşhur sənətkarlarının əsərlərinin üzü köçürülür, onlar cildlənir və bu əsərlərin dünya səyahəti də məhz bundan sonra başlanırdı. İnkaredilməz həqiqətdir ki, bir çox Azərbaycan klassiklərinin, o cümlədən Əfzələddin Xaqani, Nizami Gəncəvi, Seyid İmadəddin Nəsimi, Şah Qasım Ənvar və başqa şöhrətli həmyerlilərimizin əsərlərinin əlyazma nüsxələri məhz Əlişir Nəvai kitabxanasında yaradılmış, onların dəfələrlə üzü köçürülmüş və həmin əsərlərin bugünümüzə qədər gəlib çatmasında Herat ədəbi mühitinin, Nəvai kitabxanasının unudulmaz tarixi missiyası və xidmətləri ümumtürk tarixinin qururverici mərhələlərindən birinə çevrilmişdir.

Nəvai kitabxanasının Şərq mədəni münasibətlərinin dərinləşməsində və zənginləşməsində mühüm rol oynadığını vurğulayan Cənnət Nağıyeva yuxarıda xatırlatdığımız məqaləsində yazır: "Qeyd etmək lazımdır ki, böyük miniatürçü rəssam Kəmaləddin Behzad Əlişir Nəvainin təsiri altında

yetişmiş və ən yaxşı əsərlərini məhz Heratda, bilavasitə onun köməyi ilə yaratmışdır. Bu dövrdə klassik şair və alimlərinin əsərlərinin üzünü köçürmək, ona bədii tərtibat vermək üçün sarayda böyük bir laboratoriya fəaliyyət göstərirdi. Burada müxtəlif növ kağızlar və mürəkkəblər hazırlanır, xəttatlar əlyazmalarının üzünü köçürür, cildçilər isə əlyazmalarını cildə tuturdular. Sarayda hazırlanan əlyazmalarının ən nəfisi, çox ehtimal ki, Nəvainin şəxsi kitabxanasının malı olurdu" [3, s.51-52]. Nəvai kitabxanasının XV əsr Türküstan mədəni mühitində oynadığı misilsiz rolu obyektiv qiymətləndirən alim fikirlərini davam etdirirək aşağıdakı mülahizələri nəzərimizə çatdırır: "Azərbaycan ədəbiyyatının ən gözəl nümunələri, xüsusən Xaqani, Nizami, Nəsimi, Şah Qasım Ənvar və başqa məşhur şairlərin əsərlərinin Orta Asiyada geniş yayılmasında, birinci növbədə, Nəvainin çox böyük rolu olmuşdur. Əlişir Nəvai mütaliəyə həddindən artıq həvəskar olduğundan və kitaba böyük qiymət verdiyindən, sevdiyi adama hədiyyə olaraq zəngin kitabxanasından kitab ayırıb verirmiş. Məsələn, Yağub Mirzə adamlarından Qazi İsaya Əbdürəhman Caminin və başqa sevdiyi şairlərin əsərlərini hədiyyə etmişdir. Bəzən də öz "Xəmsə"sinin xülasəsini köçürüb hədiyyə edərmiş" [3, s.52].

Nəvai kitabxanasının klassik Azərbaycan mədəniyyətinin üzvi bir hissəsinə çevrilməsi ilə bağlı Cənnət Nağıyevanın tarixi həqiqətlərə və məlumatlara istinad edərək irəli sürdüyü aşağıdakı mülahizələr həm tarixi, həm də müasir dövr nöqteyi-nəzərindən mühüm əhəmiyyət daşıyır: "Məlumdur ki, Orta Asiyanın bir sıra şəhərləri ilə yanaşı, 1510-cu ildə Herat da Şah İsmayıl Səfəvi tərəfindən işğal edilmişdir. Herat xəttatlıq məktəbinin yaratdığı ən gözəl əlyazmaları Ərdəbilə aparılmışdır. Saray kitabxanası bütünlüklə Ərdəbilə köçürülmüşdür. Ancaq A.Qriboyedovun qətlindən sonra həmin əlyazmalarının müəyyən qismi Rusiya dövlətinə verilmişdir. Peterburqda M.E.Saltıkov-Şedrin adına Dövlət kütləvi kitabxanasında saxlanılan həmin əlyazmalarının bir çoxu, daha doğrusu, Dornun kataloquna daxil edilmiş əlyazmalarının bir çoxu, çox ehtimal ki, Nəvai kitabxanasının inciləridir" [3, s.53]. Alim məşhur kitabxananın sonrakı tarixi taleyi haqqındakı mülahizələrini davam etdirərək aşağıdakıları vurğulayır: "Nəvai kitabxanasının kitablarını müəyyən etmək üçün Heratda üzü köçürülmüş və sonradan Ərdəbil kitabxanasına daxil edilmiş nüsxələri ayırd etmək lazım idi. Ərdəbildə Səfəvilər xanədanının mükəmməl kitabxanası olduğu və bu kitabxananın, xüsusən Şah İsmayıl Xətayi kimi görkəmli şair, mədəniyyət, ədəbiyyat hamisi və həvəskarı tərəfindən böyük qayğı və səy ilə zənginləşdirildiyi məlum bir həqiqətdir" [3, s.53]. Hətta "Şah İsmayıl Xətayi 1522-ci ildə rəssam Kəmaləddin Behzadın saray kitabxanası rəisliyinə təyin edilməsi haqqında xüsusi fərman da vermişdir" [4, s.326].

Cənnət Nağıyeva öz tədqiqatında haqlı olaraq Əlişir Nəvainin Azərbaycan klassikləri ilə yaradıcılıq əlaqələrini araşdırmaq baxımından son dərəcə maraqlı olan belə bir sual qoyur: "Belə bir sual meydana çıxır: Nəvai Nizami əsərlərini hansı əlyazmalarından oxumuşdur? Nəvai kitabxanasına Nizaminin hansı əsərləri daxil olmuşdur?" [3, s.52]. Müəllif bu mühüm suala cavab axtararaq aşağıdakıları qeyd edir: "Herat məktəbinin Ərdəbil kitabxanasında olan əlxətləri müəyyən edildikdən sonra Azərbaycan klassiklərinin əsərləri araşdırıldı. Bu kitabxanada Firdovsi, Ənvəri, Sədi, Hafiz və başqaları ilə yanaşı, Azərbaycan ədəbiyyatı nümayəndələrinin əsərləri də vardır. Bunlardan, ilk öncə, şairin ustadı Nizaminin aşağıdakı əlyazmalarını göstərmək olar" [3, s.55]. Haqqında söhbət açdığımız məqalənin elmi əhəmiyyəti ondan ibarətdir ki, müəllif Nizami Gəncəvi "Xəmsə"sinin dörd əlyazması barəsində bizə ətraflı və zərurui məlumatları verir. Nizami Gəncəvi "Xəmsə"sinin Nəvai kitabxanasında mövcud olmuş ən qədim əlyazması əsərin 1479-cu ildə üzü köçürülmüş nüsxəsi olmuşdur. Tədqiqatçı əlyazmanın paleoqrafik xüsusiyyətlərinə əsaslanaraq, onun Orta Asiya Herat məktəbinin nümunəsi olduğunu qeyd edir. Bu əlyazma nüsxəsinin mühüm tarixi əhəmiyyətini həmin əsərin bilavasitə Nəvainin rəhbərliyi altında üzünün köçürülməsi şərtləndirir. Nizami Gəncəvi "Xəmsə"sinin ikinci qiymətli əlyazması isə 1481-ci ilə aiddir. Bu əlyazmasının üzü isə Dərviş Məhəmməd Təqi tərəfindən köçürülmüşdür. Tarixi mənbələrdən məlumdur ki, Dərviş Məhəmməd Təqi Nəvai kitabxanasında fəaliyyət göstərən və dövrünün tanınmış əlyazma köçürən katiblərindən biri olmuşdur. Cənnət Nağıyevanın məqaləsində Nizami Gəncəvi "Xəmsə"sinin 1502-ci ildə və

1507-ci ildə üzü köçürülmüş nüsxələri haqqında da tarixi həqiqətlərə uyğun məlumatlar verilmişdir [3, s.55-56].

"Cənnət Nağıyeva öz araşdırmalarını ümumiləşdirərək belə bir nəticəyə gəlir ki, Əfzələddin Xaqani, Nizami Gəncəvi, Seyid İmadəddin Nəsimi, Şah Qasım Ənvar və başqa məşhur Azərbaycan klassiklərinin əsərlərinin mükəmməl əlyazmalarının Nəvai kitabxanasında saxlanılması və qorunması inkaredilməz həqiqətlərdir" [12, 13]. Azərbaycan klassiklərinin əsərlərinin vaxtilə Orta Asiya saraylarında və böyük şairlərin kitabxanalarında saxlanması onu göstərir ki, doğrudan da, Azərbaycan poeziyası və onun dünya şöhrətli klassiklərinin əsərləri hələ çox qədim zamanlardan geniş yayılmış, dərin hörmət və məhəbbət qazanmış, görkəmli sənətkarların yaradıcılığına qüvvətli təsir göstərmişdir. Bu hadisə bir daha onu sübut edir ki, "Azərbaycan və Türküstan xalqları arasında əsrlərdən bəri davam edib gəlməkdə olan qarşılıqlı həmkarlıq, yaradıcılq mübadiləsi, bütün sahələrdə mövcud olan qardaşlıq və əməkdaşlıq əlaqələri müxtəlif tarixi sınaqlardan çıxmış, mühüm mərhələlərdən keçmiş və bütün zamanlarda bizim mədəniyyətlərimizin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən təmayüllərdən birinə çevrilmişdir" [5; 6; 7].

Cənnət Nağıyevanın anadan olmasının 70 illiyində "Cənnət Nağıyeva. Biblioqrafiya (1927-2010)" kitabı [2] hazırlanıb nəşr olunmuşdu. Kitaba alimin elmi yaradıcılığının müxtəlif tərəflərini əhatə edən "Adı Nəvai ilə qoşa çəkilir" adlı giriş sözü Möhsün Hağısoylu [2, s.4-9], "Azərbaycanda Cami" adlı tədqiqat məqləsini Paşa Əlioğlu [2, s.10-15], "Sənədli yaddaşımızın tərcümanı" adlı məqaləni isə Nəsib Göyüşov [2, s.16-18], yazmışlar. Tərtibçilərin qeyd etdiyi kimi, "AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru, professor, istedadlı şərqşünas alim, Respublikanın Əməkdar mədəniyyət işisi Cənnət Mir Mustafa qızı Nağıyevanın (1927-2010) biblioqrafiyası 60 illik bir dövrün materiallarını əhatə edir. Alimin yaradıcılığında çap etdirdiyi əsərlər, dissertasiyalara rəhbərlik və opponentlik xüsusi yer tutur. Cənnət Nağıyeva yaradıcılığında ədəbi əlaqələrin xüsusi yeri var. O, özbək ədəbi əlaqələri sahəsində, xüsusi ilə Əlişir Nəvai, Əbdürrəhman Cami kimi klassiklərin əlyazmalarını, çap kitablarını və məqalələrini dərindən tədqiq edib öyrənmişdir. Onun ədəbi əlaqələrlə yanaşı, Azərbaycan ədəbiyyatının müxtəlif sahələrində tədqiqatları da mövcuddur. Bütövlükdə bu məqalələr həm xronoloji, həm də əlifba prinsipi əsasında biblioqrafiyada qruplaşdırılmışdır" [2, s.3].

Tələbələrindən Almaz Ülvi Cənnət Nağıyevanın elmi fəaliyyəti haqqında həm "Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər)" [1, s.54-59; s.75-77] adlı monoqrafiyasında geniş səhifələr ayırmışdır, həm də dövri mətbuat orqanlarında Azərbaycan və özbək dillərində məqalələr [8, 9, 10, 11, 12, 13] çap etdirmişdir.

Nəticə / *Conclusion*

Cənnət Nağıyevanın yuxarıda adıçəkilən əsərləri Əlişir Nəvai irsinin Azərbaycanda kifayət qədər geniş şəkildə öyrənilməsinə imkan verən qiymətli elmi tədqiqat kitablarıdır. Bu əsərlərdə Azərbaycan klassiklərinin özbək ədəbiyyatı tarixində yerini müəyyənləşdirən kifayət qədər material və faktlar var. Azərbaycan-özbək ədəbi-mədəni əlaqələrinin inkişafında, xüsusən, Azərbaycanda Əlişir Nəvai irsinin öyrənilməsində, nəvaişünaslıq elminin tərəqqisində ciddi xidmətləri olan görkəmli mətnşünas və ədəbiyyatşünas Cənnət Nağıyevanın zəngin elmi təcrübəsi və yaradıcılıq yolu Azərbaycan-özbək ədəbi əlaqələri tarixində müstəsna əhəmiyyətə malikdir.

Ədəbiyyat / *References*

1. Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, "Qartal", 2008.

2. "Cənnət Nağıyeva. Biblioqrafiya" (tərtibçilər: Aydın Xəlilov və Tahirə Nurəliyeva). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 23-24 noyabr 2011-ci il tarixli qərarı ilə nəşr olunur. Bakı, "Elm və təhsil", 2012.
3. Cənnət Nağıyeva. Azərbaycanda Nəvai. Bakı, "Tural-Ə" NPM. 2001.
4. Cənnət Nağıyeva. Klassiklərimizin əsərləri Nəvai kitabxanasında. "Ədəbiyyat və incəsənət" qəzeti, 10 yanvar 1976.
5. Cənnət Nağıyeva. Əlişir Nəvainin Bakı əlyazmaları. Bakı, "Elm", 1986.
6. Cənnət Nağıyeva. Özbək ədəbiyyatında Füzuli ənənələri. Bakı, "Nurlan", 2005.
7. Cənnət Nağıyeva. Nəvai yaradıcılığının Azərbaycanda öyrənilməsi tarixindən. "Elm və həyat", 1973, №12.
8. Olmos Ulviy. Ulu meros tadkikatlar obъyektı. – "Özbekiston adabiyot va sanat", 2011, 30 sentyabr (özbək dilində)
9. Olmos Ulviy. Navoiy meros Ozarbayjonda. "Til va adabiyot talimi" jurn, 2008, №10, 3-10 (özbək dilində)
10. Almaz Ülvi. Dahi Nəvai və Azərbaycan ədəbiyyatşünaslığı. "Filologiya məsələləri", 2007, №6.
11. Almaz Ülvi. Nəvai sehrində-inciyə dəryasında bir inci kimi. Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığı. Bakı, "Qartal", 2009.
12. Almaz Ülvi. Nəvai sehrində-inciyə dönən alim. "Kaspi", 03 aprel 2007.
13. Almaz Ülvi. Nəvaişünas alim Cənnət Nağıyeva. "Respublika", 19 may 2007.

Литературное наследие Алишира Навои в исследованиях Джаннат Нагиевой

Ильхама Султанова
Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: silhame@inbox.ru

Резюме. Одной из исследователей литературного наследия Алишира Навои была известный учёный Джаннат Нагиева. Помимо её докторской диссертации на тему «Алишир Навои и азербайджанская литература (XV-XIX вв.)», в Баку и Ташкенте вышли в свет на азербайджанском, узбекском и русском языках её монография «Алишир Навои в Азербайджане», статьи «Бакинские рукописи Алишира Навои», «Словарь энциклопедии Навои» и десятки других, посвящённые жизни и творчеству Алишира Навои. Этот факт создал условия для ознакомления и пользования узбекскими учёными исследований Джаннат Нагиевой о наследии Алишира Навои.
Ключевые слова: Алишир Навои, Джаннат Нагиева, Навоийская библиотека, «Хамсе» Низами Гянджави, Гератская литературно-культурная среда, азербайджанские классики

MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ – ƏDƏBİ ƏLAQƏLƏR

Məhəmməd Salihin "Şeybaninamə"əsəri Azərbaycan dilində

Əbülfəz Quliyev
AMEA-nın müxbir üzvü. Azərbaycan.
E-mail: ebulfez1950@mail.ru
https://orcid.org/0000-0002-4105-1002

Annotasiya. XV-XVI əsrlər Orta Asiya türk xalqlarının ədəbiyyatı tarixində mühüm yer tutur. Bu dövrdə cağatay ədəbiyyatında Əlişir Nəvai, Hüseyn Bayqara, Zahirəddin Babur, Məhəmməd Şeybani, Məhəmməd Salih kimi ədəbi şəxsiyyətlər yetişmişdir. XV əsrin sonlarında Orta Asiyada Teymurilər çox zəifləmişdi, ona görə taxt uğrunda mübarizə kəskin şəkildə qızışmışdı. Özbək əsilli Şeybani xan bu işdə xüsusilə seçilirdi. O, Şeybanilər dövlətini qurmuşdu və var gücü ilə bu dövlətin sərhədlərini genişləndirməyə cəhd göstərirdi. Şeybani xan cəsur sərkərdə olmaqla yanaşı, həm də gözəl təbi olan şair idi, divanı qalmışdır. Şeybani xan söz ustalarını, şairləri ətrafına toplamışdı. Onun sarayında olan şairlərdən biri də Məhəmməd Salih idi. Məhəmməd Salih hökmdarın bütün hərbi yürüşlərində iştirak edir,onun igidliklərini yazıya alırdı. Şairin qələmə aldığı "Şeybaninamə" məsnəvisi də bu hökmdara və onun döyüş meydanında əldə etdiyi zəfərlərin tərənnümünə həsr edilmişdir. Əruzun rəmel bəhrində yazılmış 4447 beytdən ibarət olan "Şeybaninamə" poemasının ancaq bir nüsxəsi zəmanəmizə qədər gəlib çıxmışdır. 1510-cu ildə üzü köçürülmüş "Şeybaninamə" məsnəvisinin yeganə əlyazma nüsxəsi Vyanadakı Avstriya Milli Kitabxanasında saxlanmaqdadır. Divan ədəbiyyatı nümunəsi olmasına baxmayaraq, bu əsərin dili sadə və oxunaqlıdır. Məqalədə Məhəmməd Salihin "Şeybaninamə" poemasını müxtəlif mənbələrdən Azərbaycan dilinə tərcüməsi əsasında tədqiqata cəlb edilmişdir.
Açar sözlər: "Şeybaninamə", cağatay dili, ədəbiyyat, şeir, Məhəmməd Salih

http://dx.doi.org/10.29228/edu.148
Məqaləyə istinad: Quliyev Ə. (2020) *Məhəmməd Salihin "Şeybaninamə" əsəri Azərbaycan dilində*. «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 142-148
Məqalə tarixçəsi: göndərilib – 04.05.2020; qəbul edilib – 18.05.2020

Muhammad Salih's work "Sheybaniname" in the Azerbaijani language

Abulfaz Guliyev
Corresponding member of ANAS. Azerbaijan.
E-mail: ebulfez1950@mail.ru
https://orcid.org/0000-0002-4105-1002

Abstract. The 15th and 16th centuries have an important place in the history of the literature of the Turkic peoples of Central Asia. During this period, such literary figures as Alisher Navai, Huseyn Baygara, Zahiraddin Babur, Mohammad Sheybani,

Mohammad Salih grew up in Chagatai literature. At the end of the 15th century, the Timurids in Central Asia were very weak, so the struggle for the throne intensified. Sheybani khan of Uzbek origin was especially distinguished in this case. He established the Sheybani state and tried his best to expand the borders of this state. Sheybani khan was not only a brave commander, but also a poet of beautiful inspiration. His collection of poems has survived to this day.Sheybani khan gathered masters of words and poets around him. One of the poets in his palace was Muhammad Salih. Muhammad Salih took part in all the military campaigns of the ruler and recorded his bravery. The poet's poem "Sheybaniname" is dedicated to this ruler and his victories on the battlefield. Only one copy of the poem "Sheybaniname" consisting of 4447 verses written in aruz has survived. The only manuscript of the Sheybaniname, copied in 1510, is kept in the Austrian National Library in Vienna. Despite the fact that it is an example of classic literature, the language of this work is simple and readable. Taking into account its literary significance, we have translated this valuable example of the classical Chagatai literary language from the original into our language and prepared it for publication.
Keywords: "Sheybaniname", Chagatai language, literature, poetry, Mohammad Salih.

http://dx.doi.org/10.29228/edu.148
To cite this article: Guliyev A. (2020) *Muhammad Salih's work "Sheybaniname" in the Azerbaijani language.* «Comparative Literature Studies», Issue I, pp. 142-148
Article history: received – 04.05.2020; accepted – 18.05.2020

Giriş / *Introduction*

Ədəbi əhəmiyyətini nəzərə alaraq klassik cağatay ədəbiyyatının dəyərli nümunəsi olan "Şeybaninamə" poemasını P.M.Melioranski, E.Şadiyev və Y.Kocasavaş nəşrləri əsasında əsəri dilimizə tərcümə edilərək tərəfimizdən çapa hazırlanmışdır. Əsər bir çox məziyyətləri baxımından əhəmiyyətli tarixi mənbədir.

Çingiz xan ölərkən (1259) öz mal-mülkünü övladları arasında böldü. Onun böyük oğlu Cağatay xanın payına düşən ərazi uyğurların yaşadığı yerlərdən Buxara və Səmərqəndə qədər olan əraziləri əhatə edirdi. Bu ərazi Cağatay ulusu adlanırdı. Bu ulus etnik və dini cəhətdən qarışıq idi. Bu əraziyə Mavərənnəhr də deyilrdi. Cağatay türkcəsi XIV əsrdən Orta Asiya türklərinin ümumi ədəbi dili mənasını ifadə etməyə başlamışdır. Cağatay türkcəsinin ən görkəmli nümayəndəsi Əlişir Nəvaidir. O, cağatay ədəbiyyatının klassik dövrünü təmsil edir [1, s.272]. J.Ekmann cağatay dili və ədəbiyyatının inkişafı tarixini aşağıdakı dövrlərə ayırır: 1. İlk cağatay dövrü (XIV-XV əsrlər). Nəvaiyə qədərki bu dövrün Səkkaki, Lütfi, Gədai, Yakini, Atai, Yusuf Amiri, Heydər Xarəzmi, Əhmədi kimi görkəmli ədəbi şəxsiyyətləri olmuşdur. 2. Klassik cağatay dövrü (XV-XVI əsrlər). Əlişir Nəvai, Hüseyn Baykara, Hamidi, Məhəmməd Salih, Məhəmməd Şeybani, Ubeydi, Babur kimi sənətkarlar bu dövrün nümayəndələridir. 3. Klassik dövrdən sonrakı dövr (XVII əsr). Bu dövrün əsas nümayəndəsi Əbülqazi Bahadırxandır. 4. Son cağatay dövrü XVIII-XIX əsrləri əhatə edir [2, s.139].

Əsas hissə / *Main part*

Klassik cağatay ədəbiyyatı XVI əsrdən etibarən Şeybanilərlə Orta Asiyada və Z.Babur ilə də Hindistanda iki istiqamətdə davam və inkişaf etmişdir.

Hindistanda Baburla davam etdirilən Çağatay ədəbi dili və ədəbiyyatı, qeyd edildiyi kimi, Orta

Asiya bölgəsində Şeybani xan, Bennai, Kamran Mirzə, Məhəmməd Salih, Bayram xan kimi önəmli şairlərlə XVIII əsrə qədər davam etdirildi.

Şeybani xana mənsub şahzadələrin idarəsindəki köçəri özbəklər XVI əsrin əvvəllərində Xarəzm və Mavərənnəhri, Hüseyn Bayqaranın ölümündən (m. 1438-1506) sonra da Xorasanı ələ keçirərək Teymurilər hakimiyyətinə son verdilər. 1510-cu ildə Səfəvi hökmdarının Şeybani xanı məğlub edib öldürməsindən istifadə etmək istəyən Babur, Mavərənnəhr və Xarəzmi özbəklərdən geri almağa çalışdısa da, müvvəffəq ola bilmədi. Baburun Hindistana köçüb burada Türk-Hind İmperatorluğunu qurması ilə Teymurilər sülaləsi varlığını qoruya bildi. Heratın önəmini yavaş-yavaş itirməsi ilə Şeybanilər idarəsində Səmərqənd, Buxara kimi şəhərlər yenidən önəm qazandı. Dövrün elm adamları və şairləri bu mərkəzlərdə toplanmaqla, buralar elm və mədəniyyət mərkəzləri halına gəldi. Şeybanilər dövründə cağatay yazı dili və ədəbiyyatı davam etdirildi.

Məhəmməd Şeybani xanın adı orta əsr qaynaqlarında çox zaman Şeybak, Şaybak şəklində, onun öz şeirlərində isə Şıban, Şibani şəklində işlənmişdir. Şeybani sözü ehtimal ki, Şahi-baxt adının təhrif olunmuş formasıdır . Onu da qeyd edək ki, son araşdırmalarda Şeybani sözünün ilkin variantının qədim türk sözü olan "çoban"dan gəldiyi haqqında fikirlər səslənməkdədir (Əkbər Nəcəf). Şaybak və ya Şeybani xan (1451-1510) Əbülxayır xanın (1428-1468) nəvəsi olub, şəcərəsi belədir: Şeybani ibn Budaq Sultan ibn Əbülxayır.

Bu savaş adamı maarif və mədəniyyət haqqında öz dövrünün ruhundan çox xəbərdar olan bir şəxsiyyət idi. O, eyni zamanda dövrünün şairlərinin əksəriyyətindən artıq dərəcədə qələm sahibi olmuşdur. Çünki şeirləri düşmənlərinin fikrinin əksinə olaraq, onun böyük bir iqtidar və gözəl təb sahibi olduğunu göstərməkdədir. Sultan Hüseyn Bayqaranın vəfatından sonra bir ovuc taxıla möhtac qalan bir çox üləma Məhəmməd Şeybani xandan himayə gördülər. O, üləmaları xidmətə alıb münasib vəzifələr verdi. Buxara, Səmərqənd, Daşkənddə məscidlər, mədrəsələrin abadlaşdırılmasını əmr etdi. Hətta səfərlərində də ətrafında bir çox üləma olmuş və bunlar ona hörmət və sədaqət gözüylə baxmışlar.

Məhəmməd Şeybani xan ərəbcə və farscanı yaxşı bilirdi və diqqətəşayan türkcə əsərləri də vardı. Onun saraydakı ədəbi məclislərinin bəzəyi olan Molla Bənnai dəyərli bir şair idi. Şeybani ədəbiyyatçıları, sənətkarları, alimləri himayə və onları təşviq edər, onların söhbətini axtarardı. Şeybani xanla bağlı məlumatda Z.V.Togan yazır ki, Şaybak xan və çağdaşı bəzi şairlər sayəsində türk lisanı hər yerdə həqiqətən rəsmi hökümət lisanı olmuşdur. Şaybak Xan Türküstanın türklərlə iskanı və Türk harsının istilası yolundakı məsailərində tamamilə nail olmuşdur. Bununla Şaybak xan Türküstanın ən qiymətli, ən əziz hökmdarlarından sayılmağa layiqdir [3, s.192].

Şeirlərində Şeybani təxəllüsündən istifadə edən Şeybani xan divan tərzi şeirləri ilə yanaşı, Əhmədi-Yəsəviyə böyük bir hörmətlə bağlılığı səbəbilə hikmət tərzində, heca vəzni ilə dördlüklər halında poetik nümunələr də yaratmışdır. Şeybani xanın klassik tərzdəki şeirlərində dilinin sadə, məcazlarının bəsit olduğunu ifadə edən K.Eraslan, "xüsusilə səs təqlidi mahiyyətindəki kəlmələrə çox yer verdiyinə, şəriətə, sünni əqidəyə sıx bağlı olmasına rəğmən həyatında şərab və musiqi aləmlərinə bolca yer verdiyinə və bu yaşayışını, Buxara, Türküstan, Səmərqəndin gözəlliklərini şeirlərində əks etdirdiyinə" işarə edir [4, s.343]. Şeybanilər dövründə ədəbi fəaliyyətlə bərabər dini fəaliyyətlər də önəmli bir yer tutmaqdaydı. K.Eraslanın da göstərdiyi kimi, bu dönəmdə hazırlanan "Qur'an" tərcümə və təfsirləri, Şeybani xanın "Bəhru'l-Xüdâ" adlı məsnəvisi, fiqhə aid risaləsi də bunu açıqca göstərməkdədir. M.Fuad Köprülü, "Şeybani-nâmə" sahibi Məhəmməd Salih kimi tərəfdarlarının iddiaları dərəcəsində bir şair olmadığı şübhəsiz olan Şeybani orijinal və səmimi mənzumələri, xüsusilə, Nəvai klassizminin yanında Yəsəviliyin ədəbi ənənələrinə bir yer vermək xüsusundakı səyi ilə cağatay ədəbiyyatının təkamülündə ihmal edilməyəcək bir simadır" demiş və "xüsusilə Məhəmməd Şeybani və Ubeydullah xanların milli dil ilə yaxından əlaqələndiklərini" gösrərərək bu dönəmdə bir sıra əsərlərin türkcəyə çevrildiyini, bir çox türkcə əsərin də yazıldığını ifadə etmişdir [1, s.311].

N.Devranın da haqlı olaraq işarə etdiyi kimi, "Şeybani-namə", tarixdə Şeybani xan haqqında yazılmış tək əsər deyildir. Molla Sədinin farsca "Fəthnameyi-Xani", Molla Bənnainin farsca "Şeyba-

ninamə”si, Ruzibek xanın “Səfərnameyi-Buxara”sı kimi əsərlərdə də köçəri xanların həyatları, məqsədləri və ideologiyaları təsvir edilmiş, amma Məhəmməd Salihin “Şeybaninamə”sindəki qədər geniş və dərin şəkildə işlənməmişdir. “Şeybaninamə” dastanının bu cəhətdən də Orta Asiyanın XVI əsr tarixinin öyrənilməsində ən dəyərli qaynaqlardan biri olduğu düşünülməkdədir [5, s.8].

M.F.Köprülünün də işarə etdiyi kimi, XVI əsr Çağatay şairləri arasında qərb elm aləmində ən çox tanınmış olanı Şeybani xanın zəfərlərini təsvir üçün yazdığı “Şeybaninamə” adlı mənzum xronika sayəsində Məhəmməd Salihdir [1, s.312]. XV əsrin ikinci yarısı və XVI əsrin birinci yarısında yaşayaraq, əsər verən cağatay şairlərindən Məhəmməd Salih, 1455-ci ildə Xarəzmdə doğulmuşdur. O, Xarəzm hakimi Nur Səid bəyin oğludur. Nur Səid bəy isə Teymur və Teymurilərə xidmət edən əmir Şah Məlikin oğludur. Bu zat, Əbu Səid Mirzə dövründə Xarəzm hakimi olub, Teymurilərin, bilavasitə Hüseyn Bayqaranın (1438-1506) hücumuna təhəmmül edə bilmədiyi üçün Herata çağrılaraq, İxtiyarü'd-din qalasında həbs edilir. Çox keçmədən Əbdürrəhman Caminin xahişi ilə sərbəst buraxılır və Mərvə hakim olaraq göndərilir, ancaq orada öldürülür.

Erkən yaşlarda yetim qalaraq həyatın bir çox çətinliklərinə məruz qaldığına görə, adıçəkilən əsərində işarə edilən Məhəmməd Salih də eynən atası Nur Səid bəy kimi Teymurilərdən mürüvvət və şəfqət görməmişdir. Əlişir Nəvai və Əbdürrəhman Cami kimi böyük ustadların tövsiyələrindən və ədəbi söhbətlərindən yararlanmaq ona hüzur versə də, Hüseyn Bayqara sarayından getməyə məcbur olur. Təxminən 1499-cu ildə Şeybani xanın yanına gəlir. Bu tarixdən sonra şair, Şeybani xanın yanında Teymurilərə qarşı da qılıncla və qələmlə mücadilə etməyə başlayır.

Nəsrulla Devrana görə, ümumi olaraq Məhəmməd Salihin əsər verməyə başladığı bu dönəmdə Mavərənnəhr və Xorasanda qarışıq sosial və iqtisadi şərtlər meydana gəlmiş və siyasi çəkişmələr zirvəyə çıxmışdı. Bir yandan Teymurilərin öz aralarındakı taxt qovğaları davam edərkən ,digər tərəfdən, Əbül-xayr xan və övladları başçılığında köçəri özbəklərin Teymurilərə qarşı savaşları hər keçən gün artmaqdaydı. Digər tərəfdən isə bəylərin öz aralarındakı çəkişmələr də artmışdı. Onlar da öz torpaqlarını genişləndirmək, sərvətlərini artırmaq üçün böyük səy göstərirdi. Bütün bunlar Teymur və ondan sonra Əbu Səid Mirzə hökmranlığı dönəmində zorla birləşdirilən mərkəzi dövlətin parçalara bölünüb, içəridən çökməyə başlamasına səbəb oldu. Bu daxili çəkişmələr, sonunda ölkəni viran etdi. Xalqı ağır həyat şərtlərinin girdabına itələdi. Bu səbəblə Teymurilərin xalq yanında etibarı düşdü. Dövlətləri də hər keçən gün gücünü itirdi [4, s.6].

Məhz belə bir zamanda Teymurilərin zəifliklərindən faydalanan Şeybani xan köçəri özbəklərin bir çox qəbiləsini öz komandanlığında birləşdirərək Mavərənnəhrə hücuma başladı və bu hücumlarda qalib gəldi. Teymuriləri heç sevməyən Məhəmməd Salih bu sırada vaxtı qənimət bilərək 1499-cu ildə Şeybani xan tərəfinə keçdi. Bunun ən önəmli səbəblərindən biri şairin Teymurilərdən atasının öldürülməsinin intiqamını almaq istəyi idi. Məhəmməd Salih Şeybani hüzurunda saray şairi və tarixçisi olaraq yer alırdı. Savaşçı və komandir olaraq savaşlara da getmişdir.

1504-cü ildə Məhəmməd Salih Şeybani xanın kiçik qardaşı Sultan Mahmud ilə Qunduz şəhərində yaşayırdı. Sultan Mahmudun vəfatından sonra isə öz istəyi ilə Buxaraya qayıtdı. Hicri 909-cu ildə Buxaraya hakim təyin edildi. Bu barədə tarixçi Xandəmir "Həbibü's-siyər" əsərində ətraflı məlumat vermişdir.

Şeybani xan Türküstan, Daşkənd, Fərqanə, Səmərqənd, Buxara, Hisar, Qunduz kimi şəhərləri alınca, Mərv və Xarəzmi almaq, ardından da Herata hücum etmək məqsədi ilə 1505-ci ldə Xarəzmə doğru yürüş etdi. Məhəmməd Salih bu savaşlarda komandir və dövlət adamı olaraq iştirak etdi. Bu əsnada ona Carcou hakimliyi verilmişdi. Məhəmməd Salih Carcuda qayda-qanun yaratdıqdan sonra Xarəzmə getdi.

Şeybani “Divan”da Məhəmməd Salihlə bağlı mənzumələrə yer verərək, ondan duyduğu məmnuniyyəti dilə gətirir, səslənərək içki məclisinə çağırır, onun içki təqdim etməsini istədiyindən və yenə onun xana yardım etdiyindən və s. bəhs edir.

E.Şadiyev Məhəmməd Salih haqqında yazır ki, Məhəmməd Salih, hakim təbəqəsinə mənsub bir ailə içində doğulub-böyüdüyü üçün yaxşı tərbiyə almışdır. İbtidai təhsilini aldıqdan sonra Heratda

Əbdürrəhman Caminin yanında təhsil görmüş, orada ərəb və fars ədəbiyyatını öyrənmiş, tarix və fəlsəfə ilə məşğul olmuşdur. Xəttatlıq sahəsində də mühüm nailiyyətlər əldə etmişdir [6, s.6].

Məhəmməd Salih atasının ölümündən (1469) sonra maddi və mənəvi çətinliklər çəkir, təhsili buraxır. Hüseyn Bayqara taxta çıxınca bir müddət onun sarayında (sonralar Buxara və Səmərqənddə), başqa hakimlərin sarayında xidmətdə olur. Hüseyn Bayqara tərəfindən də çox iltifat görməyən Məhəmməd Salih saraydakı vəzifəsindən ayrılaraq bu sıralarda (1499-cu ildə) Mavərənnəhri ələ keçirməyə çalışan Şeybani xanın xidmətinə girir. Şeybani xan onu səmimi qarşılayir və ona "əmirül-üləma" və "məliküş-şüəra" titullarını verir. O zamandan etibarən Məhəmməd Salih Şeybani xan tərəfində yer alaraq Teymurilərə qarşı mücadiləyə girişir. Məhəmməd Salih 1505-ci ilin sonlarında, yaxud 1506-cı ilin əvvəllərində Şeybani xan tərəfindən Nisa şəhərinə hakim təyin edilmişdir. Onun burada neçə il hakimlik etdiyi məlum deyil. Böyük ehtimalla, 1510-1511-ci ilə qədər, yəni Şeybaninin Şah İsmayıl tərəfindən öldürülməsinə qədər hakimlik etmmişdir, sonrasında isə Buxaraya gəlmiş və orada 1534-cü ildə vəfat etmişdir. Başqa bir qaynağın verdiyi bilgilərə görə isə, Şeybani xan Buxaranı ələ keçirincə Məhəmməd Salihi orada hakim təyin edir və sonrakı hərbi yürüşlərdə onun da iştirakını təmin edir. 1505-1506-ci ilə qədər Məhəmməd Salih Xarəzmdə Şeybani xanın hüzurunda olur. Məhəmməd Salih, lirik şeirləri ilə şöhrət qazanmışdır. Əlişir Nəvai, Zahirüd-din Məhəmməd Babur, Sam Mirzə, Lütfəli İbn Ağaxan (Atəşkədə), Xoca Həsən Nisari kimi zamanının məşhur şair və ədəbiyyatçıları bu böyük sənətkarın yaradıcılığına yüksək qiymət vermişlər. E.Şadiyev Məhəmməd Salihin ədəbi mirası haqqında çeşidli və bir-birinə zidd fikirlərin olduğundan söz edərək, araşdırmaçıların bəzilərinin şairin "Məcnun və Leyla", "Naz və Niyaz" adlı əsərlərinin olduğundan bəhs etdiklərini, bəzilərinin isə bu fikrə şübhə ilə baxdıqlarını, yenə müəllifi müəyyən olmayan "Tarixi-Qozide-Nusrətnamə"nin M.Salihə aidliyinin mübahisəli olduğunu göstərir [6, s.5-6].

Z.Baburun "Xatirat"ında göstərdiyi kimi, Məhəmməd Salih çağatayca və farsça şeirlər yazmış, bunları toplayaraq bir divan hazırlamışsa da, divanı indiyə qədər aşkar olunmamışdır. Onun günümüzə qədər gəlib çıxan yeganə əsəri "Şeybaninamə"məsnəvisidir.

Bu məsnəvi cağatay ədəbiyyatı tarixində mühüm hadisə sayıla bilər. Çünki dövrünə aid hadisələri əks etdirən realist xarakterli bir poemadır. Əsər Şeybani xanla Teymurilər arasındakı qanlı savaşları əks etdirir. M.Salih Şeybani xanın yürüşlərində iştirak etmiş və gördüyü dəhşətli hadisələri təsvir etmişdir. Bu baxımdan əsər bir cəngnamə səciyyəsi daşımaqdadır. Burada ordular arasında toqquşmalar, xalqın başına gətirilən müsibətlər müəyyən qədər realist boyalarla ifadəsini tapmışdır. Əruzun rəməl bəhrində qələmə alınmış məsnəvi Şeybani xanın dövrünə və fəaliyyətlərinə işıq tutması baxımından önəmlidir.

"Şeybani-namə" 80 babdan ibarət böyük bir məsnəvi olub dastanın birinci babı minacatdır. 15 babı lirik mənzumələrdir və qalan bablar da tarixi hadisələrin təsvirinə ayrılmışdır. Dastanın digər dastanlardan əsas fərqi budur ki, burada əsərin əsasına əfsanəvi hadisələr deyil, əksinə, şairin öz gözüylə gördüyü hadisələr alınmışdır. Beləliklə, bəhs edilən hadisələr uydurma olmadığı kimi, əfsanəvi qəhrəmanların həyatı və hərəkətləri ilə də əlaqəli deyildir. Qəhrəmanlar gerçəkdə yaşamış insanların özləridir. Əsərdəki bu insanlar iki qrupa ayrılmaqdadır: birinci qrupda biz Şeybani xan rəhbərliyində Sultan Mahmud, Teymur Sultan, Can-Vəfa, Urus bəy kimiləri görərkən, ikinci qrupda Hüseyn Bayqara rəhbərliyində Zəhirəddin Babur, Baki Tarxan, Bədüz-zaman, Sultan Əli, Xosrov Şah, Əbu'l-Muhsin, Çın Sufi kimi Teymuriləri görürük. Bunların koməyi ilə hicri tarixlə 905-dən 911-ə, miladi 1499-dan 1506-ya qədər olan savaşlar və çəkişmələr, bu arada xalqın yaşadığı dəhşətli hadisələr anlatılmaqdadır. Qeyd edildiyi kimi, müəllif Şeybani xanın bütün həyatını deyil, hicri 905-ci (m. 1499-1500) illərdə Xanın Buxaraya qarşı səfərə çıxmasından hicri 911-ci ildə (m. 1505-1506) Xarəzmi fəth etməsinə qədər olan illəri əhatə edir.

Dastan Şeybani xan ordusunun Buxara üzərinə hücuma hazırlaşması ilə başlayır. Şeybani xan bu yürüşdə Buxaranın qapısına böyük bir qüvvə ilə hücuma keçir və dəhşətverici savaşlar nəticəsində Buxara əmiri Baki Tarxanın əsgərlərilə Debüsi qalası yaxınlığında üz-üzə gəlir. Baki Tarxan Buxaraya sığınır və Şeybani xan tərəfindən orada mühasirəyə alınır. Ardından təkrar üç gün vuruşurlar. Nə-

ticədə Baki Tarxan təslim olmağa məcbur olur. Şeybani xanın ordusu Buxaranı yağmalayır. İnsanları kütlələr halında öldürür.

Bundan sonra Şeybani xan, Səmərqəndə doğru yürüş edir. Buxarada öz hakimiyyətini quran Şeybani xan Səmərqənd yolunda Kara-köl, Karşı şəhərlərinə də basqın edərək ələ keçirir. Bu əsnada Xəzər vilayətini də özünə bağlayır. Ardından Şeybani xan Səmərqənd şəhərini mühasirə edərək, Teymurilərdən yardım alan Babur Mirzə ilə çox böyük savaşlar edir. Mühasirə sırasında şəhərdə yaşayanlar çox çətin günlər yaşamağa başlayır. Çox sayda günahsız insan aclıqdan və susuzluqdan ölür. Şeybani xan şəhər xalqının yardım yollarını kəsir, uzun sürən mühasirədən sonra Babur Mirzəyə qalib gəlir. Babur Səmərqəndi qoyub gedir. Babura yardım etmək üçün gələn dayıları Tənbəl və Xanikə xan Şeybani xanın əsgərlərindən qorxaraq yoldan geri qayıdırlar. Ardından Şeybani xan Şahruxiyyə və Uratipeyə doğru yürüş edir.

Əsərin son hissələrində Şeybani xan tərəfindən Bəlx şəhərinin mühasirə edilməsi və Xosrov şahın qaçışı, Əndicandakı Tənbələ qarşı əsgər yollanması və nəhayət, Xarəzmdə Çın Sufi ilə sürdürülən cənglər anlatılmışdır. Əsərin sonu Şeybani xanın Xarəzm üzərində qazandığı qələbənin təsviri ilə tamamlanmaqdadır.

"Şeybaninamə"nin əldə bir əlyazması qalmışdır. 1510-cu ildə üzü köçürülən bu nüsxə Vyanada Avvstriya Milli kitabxanasında 1156 nömrədə qorunmaqdadır. Həmin nüsxəni German Vamberi alman dilinə tərcüməsi ilə 1885-ci ildə nəşr etdirmişdir. Daha sonra türkoloq P.M.Melioranski bu nüsxəni 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirmişdir. Bunun əsasında 1961-ci ildə əsəri Nəsrulla Dövran, 1989-cu ildə isə Erqaşali Şadiyev Daşkənddə nəşr etdirmişlər. 1990-cı illərdə türk dünyasına açıldıqdan sonra Türkiyədə bu sahədə araşdırmalara böyük önəm verilmişdir. Bu dövlət siyasətinin nəticəsi olaraq Türkiyə Cümhuriyyətinin bir sıra universitetlərində çağdaş türk ləhcələri və ədəbiyyatı ixtisasları fəaliyyətə başlamış, türk dünyası ədəbiyyatının daha əhatəli şəkildə öyrənilməsinə imkan yaranmışdır. Bu bağlamda İstinbal Universitetində Türkiyyat İnstitutu xüsusilə fərqlənməyə başladı. Bu elm ocağında indi həmin universitetin professoru olan Y.Kocasavaş Məhəmməd Salihin "Şeybaninamə" məsnəvisini geniş şəkildə araşdırmış və bu mövzuda doktorluq dissertasiyası müdafiə etmişdir.

Nəticə / *Conclusion*

Azərbaycan Resublikası da ikinci dövlət müstəqilliyinə qovuşduqdan sonra ölkəmizin türk dünyası ilə ədəbi əlaqələri xeyli genişlənmişdir. Xüsusilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda bu istiqamətdə xeyli iş görülmüşdür. İndi Orta Asiya xalqlarının ədəbiyyatı, özəlliklə özbək klassik ədəbiyyatı nümunələri tərcümə edilərək Azərbaycan ədəbi ictimaiyyətinə təqdim edilməsi istiqamətində çox səmərəli işlər görülür. Biz də bir neçə ildir Məhəmməd Salihin "Şeybani-namə" məsnəvisi üzərində tədqiqat apararaq [3; 4; 5] əsəri dilimizə tərcümə etdik.

Ədəbiyyat / *References*

1. F.Köprülü. Çağatay edebiyatı-İA, III c. MEB yay. İstanbul, 1993.
2. J.Eckmann. Harezm, Kıpçak ve Çağatay türkçesi üzerine araştırmalar. (hazırlayan prof.dr. O.F.Sertkaya), TDK yay. Ankara, 1996.
3. Z.V.Toğan. Bugünkü Türkili (Türkistan) ve Yakın Tarihi, I. İstanbul, 1989.
4. K.Eraslan. XVI. Yüzyıl Çağatay Edebiyatı, *Başlangıcından Günümüze kadar Böyük Türk Klasikleri,* IV c. İstanbul, 1984.
5. Muhammed Salih. Şayboniynoma. UzFA naşriyeti, Toşkent, 1961, naşrqa tayerovçi Nasrullo Davron.
6. Muhammad Salih. Şaybaniynama. Toşkent, Qafur Qulam nomidaqi adabiyet va sanat naşriyeti, 1989.

Произведение Мухаммеда Салиха «Шейбанинаме» на Азербайджанском языке

Абульфаз Гулиев
Член-корреспондент НАНА. Азербайджан
E-mail: ebulfez1950@mail.ru

Резюме. XV-XVI века занимают важное место в истории литературы тюркских народов Средней Азии. В этот период в чагатайской литературе выросли такие литературные личности, как Алишир Наваи, Гусейн Байгара, Захиреддин Бабур, Мухаммед Шейбани, Мухаммед Салих и др. В конце XV века в Средней Азии тимуриды были ослаблены, поэтому борьба за трон резко обострилась. В этом деле особенно выделялся узбек по происхождению Шейбани-хан. Он основал государство Шейбанидов и всеми силами пытался расширить границы этого государства. Шейбани-хан был не только храбрым полководцем, но и прекрасным поэтом, остался его диван. Шейбани хан собрал вокруг мастеров слова, поэтов. Одним из поэтов в его дворце был Мухаммед Салих. Мухаммед Салих принимал участие во всех военных походах правителя, писал об их подвигах. Поэма “Шейбанинаме”, написанная поэтом, также посвящена этому правителю и его победам на поле боя. Только один экземпляр поэмы “Шейбанинаме”, состоящей из 4447 бейтов, написанных на арузе рамал бахри, дошел до нашего времени. Единственный рукописный экземпляр меснави “Шейбанинаме”, который был переписан в 1510 году, хранится в Австрийской национальной библиотеке в Вене. Несмотря на то, что диван является литературным образцом, язык этого произведения прост и читаем. Учитывая его литературное значение, мы перевели этот ценный образец классического чагатайского литературного языка с оригинала на наш язык и подготовили его к печати.

Ключевые слова: «Шейбанинаме», чагатайский язык, литература, поэзия, Мухаммед Салих

Cəlil Məmmədquluzadə və özbək ədəbiyyatı

Həmidulla Baltabayev
Filologiya elmləri doktoru, Özbəkistan Milli Universiteti. Özbəkistan.
E-mail: hbaltabaev@mail.ru
https://orcid.org/0000-0002-0741-6653

Annotasiya. XX əsrin əvvəllərində bizim ölkəmizdə geniş vüsət alan cədid hərəkatından xəbərdar olan özbək ziyalılarına və Mahmud Xoca Behbudi, Münəvvər Qarı, Abdulla Əvlani, Əbdürrauf Fitrət, Abdulla Qədiri, Əbdülhəmid Süleymanoğlu Çolpan və başqa böyük ədiblər yaradıcılığı ilə yaxından tanış olan oxuculara Cəlil Məmmədquluzadəni məxsusi olaraq təqdim etməyə ehtiyac yoxdur. Çünki özbək satirik ədəbiyyatı və dramaturgiyası bu böyük ədibin yaradıcılığı ilə o qədər dərin mənəvi və bədii tellərlə bağlanıb ki, "Molla Nəsrəddin" jurnalının adını eşidəndə və ya "Ölülər" tragikomediyasını xatırlayarkən, dərhal Cəlil Məmmədquluzadənin möhtəşəm yaradıcılığı və obrazı gözlərimiz önündə canlanır. Buna baxmayaraq, dahi Azərbaycan ədibinin bilavasitə özbək ədəbiyyatı ilə bağlı yaradıcılıq xüsusiyyətlərini və həmin dövr ədəbi əlaqələrimizin inkişafında oynadığı təkrarsız rolu qısaca da olsa vurğulamağa ehtiyac hiss olunur. Təqdim olunan məqalədə Mirzə Cəlilin yaradıcılığı "Cəlil Məmmədquluzadə və özbək səhnəsi", "Molla Nəsrəddin" və özbək mətbuatı", "Cəlil Məmmədquluzadə və yeni əlifba məsələsi" və "Cəlil Məmmədquluzadə və özbək nəsri" kimi yarımbölmələr kontekstində araşdırılıb.
Açar sözlər: Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı, "Ölülər" əsəri Özbəkistan səhnəsində, Mirzə Cəlilin Özbəkistana səfəri, milli oyanış

http://dx.doi.org/10.29228/edu.152
Məqaləyə istinad: Baltabayev H. (2020) *Cəlil Məmmədquluzadə və özbək ədəbiyyatı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 149-156
Məqalə tarixçəsi: göndərilib –10.06.2020; qəbul edilib – 17.06.2020

Jalil Mammadguluzadeh and uzbek literature

Hamidulla Baltabayev
Doctor of Philological Sciences, National University of Uzbekistan. Uzbekistan.
E-mail: hbaltabaev@mail.ru
https://orcid.org/0000-0002-0741-6653

Abstract. There is no need to present Jalil Mammadguluzadeh specifically to Uzbek intellectuals being aware of widespread movement "Jadid" in our country in the early 20th century and readers knowing the creativity of Mahmad Khoja Behbudi, Munevver Qari, Abdulla Evlani, Abdurrauf Fitret, Abdulla Gadiri, Abdulhamid Suleymanoghlu Cholpan and other prominent writers. Since Uzbek satiric literature and dramaturgy have connected by so spiritual and artistic wires with this great writer's creative work that while hearing about "Molla Nasraddin" magazine or remembering "The Corpses" tragicomedy, Jalil Mammadguluzadeh's creativity and image come to mind. Despite

this, there is need to mention about creative features of the Azerbaijani writer related to the Uzbek literature and his role in the development of literary relations of that time. In the presented article Mirza Jalil's creativity is researched in the context of "Jalil Mammadguluzadeh and Uzbek stage", "Molla Nasraddin" and Uzbek press", "Jalil Mammadguluzadeh and new alphabet issue" and "Jalil Mammadguluzadeh and Uzbek prose".
Keywords: Jalil Mammadguluzadeh, "Molla Nasraddin" magazine, "The Corpses" in Uzbek stage, Mirza Jalil's visit to Uzbekistan, national awakening

http://dx.doi.org/10.29228/edu.152
To cite this article: Baltabayev H. (2020) Jalil Mammadguluzadeh and uzbek literature. «Comparative Literature Studies», Issue I, pp. 149-156
Article history: received – 10.06.2020; accepted – 17.06.2020

Giriş / *Introduction*

Türk xalqları ədəbiyyatlarında elə böyük ədəbi simalar vardır ki, onların yaradıcılığını təkcə bir milli ədəbiyyat müstəvisində tam və dolğun şəkildə öyrənmək mümkün deyil. Onların əsərlərində milli-məhəlli şərait, ictimai həyat və güzəran problemləri əks etdirilsə də, bu əsərlər həm milli, həm də ümumbəşəri mənaları və qayələri ifadə etdiyinə görə, bütün insanlığın əzəli və əbədi dəyərlərinin bədii salnaməsinə çevrilib. Məhz belə ulu sənətkarlardan və böyük ədiblərdən biri Azərbaycan demokratik ədəbiyyatının banisi, realist nəsrin, satira və publisistikanın misilsiz yaradıcısı, təkrarsız dramaturq Cəlil Məmmədquluzadədir.

XX əsrin əvvəllərində bizim ölkəmizdə geniş vüsət alan cədid (yenilikçi) hərəkatından xəbərdar olan özbək ziyalılarına və Mahmud Xoca Behbudi, Münəvvər Qarı, Abdulla Əvlani, Əbdürrauf Fitrət, Abdulla Qədiri, Əbdülhəmid Süleymanoğlu Çolpan və başqa böyük ədiblərin yaradıcılığı ilə yaxından tanış olan oxuculara Cəlil Məmmədquluzadəni məxsusi olaraq təqdim etməyə ehtiyac yoxdur. Çünki özbək satirik ədəbiyyatı və dramaturgiyası bu böyük ədibin yaradıcılığı ilə o qədər dərin mənəvi və bədii tellərlə bağlanıb ki, "Molla Nəsrəddin" jurnalının adını eşidəndə və ya "Ölülər" tragikomediyasını xatırlayarkən, dərhal Cəlil Məmmədquluzadənin möhtəşəm yaradıcılığı və obrazı gözlərimiz önündə canlanır. Buna baxmayaraq, dahi Azərbaycan ədibinin bilavasitə özbək ədəbiyyatı ilə bağlı yaradıcılıq xüsusiyyətlərini və həmin dövr ədəbi əlaqələrimizin inkişafında oynadığı təkrarsız rolu qısaca da olsa vurğulamağa ehtiyac hiss olunur.

Əsas hissə / *Main part*

Cəlil Məmmədquluzadə və özbək səhnəsi. XX əsr özbək və Azərbaycan ədəbi əlaqələrinin ən görkəmli tədqiqatçıları və mütəxəssislərinin fikrincə, Cəlil Məmmədquluzadə Özbəkistana iki dəfə (1916, 1924) səfər edib. 1914-cü ildə Daşkənddə Türküstan cədidlərinin fəal nümayəndələri tərəfindən təşkil olunmuş "Turan truppası"nın üzvləri Abdulla Əvlani, Qulam Zəfəri, Ş.Rəhimi, N.Xocayev və başqaları kimi teatr həvəskarları azərbaycanlı dramaturq və sənətkarlarla həmkarlıq əlaqələri yaratmağa nail olmuşdular [1, s.35].

"Ölülər" tragikomediyasının 1916-cı ilin 29 aprelindəki premyerasından xəbərdar olan [2] Abdulla Əvlani Cəlil Məmmədquluzadəyə məktub ("Mərdikar" imzası ilə) yazıb, əsəri özbək dilinə tərcümə etmək və onu səhnələşdirmək arzusunun olduğunu bildirir [3, s.255]. Bu məktuba cavab olaraq Cəlil Məmmədquluzadə yaxın dostu və silahdaşı Əliqulu Qəmküsarla (1880-1919) birlikdə "Ölülər" tragikomediyasının Orta Asiya şəhərlərindəki səhnə təcəssümündən gələcək gəlirlər hesabı-

na "Molla Nəsrəddin" jurnalının maliyyə vəziyyətini yaxşılaşdırmaq məqsədilə əvvəlcə Aşqabada, sonra isə Daşkəndə təşrif buyururlar.

Bu hadisənin çox böyük tarixi və milli-estetik əhəmiyyəti vardı. Məsələ bundadır ki, özbək tamaşaçısı Cəlil Məmmədquluzadəni öz milli səhnəsində görmək imkanı qazanmışdı. Böyük dramaturqun şöhrəti 1916-cı ildən əvvəl də "Çay dəstgahı", "Kişmiş oyunu" (hekayənin səhnə variantı) pyesləri vasitəsilə geniş yayılsa da, amma "Ölülər"in səhnəyə qoyulması ilə müəllifin bir dramaturq kimi tamaşaçılar arasındakı məşhurluğu birə-beş artdı. Dramaturqun razılığı alınandan sonra, Abdulla Əvlani "Turan" truppasının rejissoru N.Xocayev ilə "Ölülər"i səhnələşdirmək üçün məşqlərə başlayırlar.

1916-cı ilin iyun ayında Özbəkistana səfər edən Cəlil Məmmədquluzadə və Əliqulu Qəmküsar "Ölülər"in premyerasında iştirak edirlər. Tragikomediyadakı Şeyx Nəsrullah rolunu Əliqulu Qəmküsar, kefli İsgəndər rolunu isə əsərin tərcüməçisi – Abdulla Əvlani icra edir [3, s.256]. Cəhalət və onu meydana gətirən mühit, milli əsarət və əsirlikdən qurtuluş yolları haqqında düşünməyə vadar edən bu dəhşətli komediya premyeradan sonra da özbək səhnəsində dəfələrlə tamaşaya qoyuldu. Özbək tamaşaçısı təkcə "Ölülər" ilə tanış olmaqla kifayətlənmədi, Mirzə Cəlilin başqa əsərləri – "Anamın kitabı", "Dəli yığıncağı", "Danabaş kəndinin müəllimi" və dramaturqun başqa pyeslərinə də özbək rejissorları müraciət etdilər. Hətta yazıçının məşhur "Danabaş kəndinin əhvalatları" povesti də səhnələşdirilib, özbək tamaşaçılarına təqdim olundu.

Akademik İsa Həbibbəyli böyük yazıçının səhnə əsərləri haqqında "Mirzə Fətəli Axundzadənin dramatik əsərlərində cəmiyyəti islah etmək, Cəlil Məmmədquluzadənin əsərlərində isə mövcud hakimiyyətin tənqidi və dəyişdirilməsi ideyaları irəli sürülür. Mirzə Fətəli "qurban kimdir?", Mrzə Cəlil isə "günahkar kimdir?" sualına cavab axtarır", – deyə yazır [4, s.159-177]. Həmin dövr dramaturgiyası cəmiyyətdə qurban və müqəssir münasibətləri barəsində çox düşünürdü. Bu cəhətdən özbək dramaturqları Mahmud Xoca Behbudi, Abdulla Əvlani, Əbdurrauf Fitrət, Həmzə Həkimzadə Niyazi və başqalarının milli estetik axtarışalrı da mühüm əhəmiyyətə malikdir. Cəlil Məmmədquluzadə Türküstana ilk təşrifi zamanı Səmərqəndin tanınmış ziyalısı Məhəmməd Ağa Haşımova belə söyləmişdi: "Daşkənddə özbək qardaşlarımız məni çox yaxşı qarşıladılar, mənə səmimi hörmət və məhəbbətlərini izhar etdilər. Bizim xalqlarımız başqa mədəniyyətli xalqlardan xeyli geridə qalıb. Bunun isə əsas səbəbi odur ki, biz adətən öz nöqsanlarımızı və qüsurlarımızı görə bilmirik. Bu çatışmazlıqları və nöqsanları açıq-aydın göstərməyin vaxtı çoxdan çatıb. Bundan ötrü yalnız cürət və cəsarət gərəkdir" [5, s.77].

Cəlil Məmmədquluzadə bu cürət və cəsarəti təkcə ilk dəfə yüksək səviyyədə nümayiş etdirən deyil, eyni zamanda yəni bu mənəvi cəsarətin başqa türk xalqlarının oyanmasına səbəb olan misilsiz sənətkarlardan və ustadlardan biridir.

Cəlil Məmmədquluzadəyə qədər də Azərbaycanda dram sənətinin artıq formalaşdığını və onun səhnə təcəssümü sahəsində də Mirzə Fətəli Axundzadənin və davamçılarının nə qədər böyük işlər gördüyünü mütəxəssislər yaxşı bilirlər. Amma bütün bunlara baxmayaraq, bu kitaba yazdığı ön sözdə ustad akademik İsa Həbibbəylinin vurğuladığı kimi, Cəlil Məmmədquluzadənin dramaturgiya yaradıcılığı Mirzə Fətəli Axundzadə pyeslərindən dahi Hüseyn Cavidin dramatik faciələri yönündə inşa edilmiş özünəməxsus bir körpü rolunu oynadı. Bu mühüm və qiymətli estetik müşahidəni Əbdurrauf Fitrətin milli keçmiş və tarix haqqındakı tragik-dramatik əsərlərinə də aid etmək mümkündür və Əbdurrauf Fitrətin dramaturgiyasında da Mirzə Cəlil yaradıcılığının izlərini görmək və göstərmək çətin deyil. Burada, eyni zamanda onu da qeyd etmək yerinə düşər ki, Əbdurrauf Fitrət Mahmudxoca Behbudinin banisi olduğu özbək milli dram və teatr sənətinin, demək olar ki, bütün janrlarında əsərlər yazdı, özbək dramaturgiyasında həm Cəlil Məmmədquluzadə, həm də Hüseyn Cavidin missiyalarını yerinə yetirdi.

"Molla Nəsrəddin" və özbək mətbuatı. Cəlil Məmmədquluzadəni Türküstan və xüsusən də, Özbəkistan ədəbi-mədəni həyatı ilə dərindən bağlayan mənəvi mədəni tellər ilk növbədə "Molla Nəsrəddin" jurnalıdır. Məşhur jurnalın ilk nömrələrindən birində Cəlil Məmmədquluzadə yazırdı ki, "Molla Nəsrəddin" yalan danışa bilmir". Bu, adi bir xəbər deyildi, əlbəttə, jurnalın şüarı idi. Məhz bu

şüar – doğru sözü və həqiqətpərəstliyi nəticəsində jurnal özbək ziyalılarının evlərinə daxil oldu, özbək ailələrinin sevimli nəşrinə çevrildi. Təxminən elə bu vaxtlarda Daşkənddə nəşr olunmağa başlayan "Tərəqqi" qəzeti "Molla Nəsrəddin" jurnalı ilə həmkarlıq və yaradıcılıq əlaqələrini gücləndirmişdir. "Molla Nəsrəddin" jurnalının özünəməxsus və təkrarsız xüsusiyyətlərindən biri də budur ki, həmişə yaxın və uzaqdakı başqa mətbuat orqanları və nəşrlərə diqqət ayırıb, onlardakı bəzi mühüm xəbərləri öz oxucularına çatdırmağı lazım bilirdi. Məsələn, jurnal 1908-ci ildəki noyabr saylarının birində "Tərəqqi" qəzetindən alınmış "Qəribə halət" məqaləsini [6, s.462], həmin ilin dekabrında isə "Mətbuatımız" adlı Rusiya və İran münasibətlərinə dair xəbəri çap edərkən, ona "bu acı sözə daha nə deyə bilərəm", – deyə münasibət bildirmişdi [6, s.498]. Doğru söz və həqiqətpərəstlik jurnalın baş devizi olduğu üçün o, hər şeyi olduğu kimi göstərməklə kifayətlənməyib, həm də təsvir olunan hadisələrə açıq və cəsarətli münasibətini də ifadə edirdi. Bu söylədiklərimizdən başqa, jurnalda satirik gülüş və karikatura ifadə tərzi əsas inikas üsulu kimi müəyyən edilmişdi. "Molla Nəsrəddin"də müxtəlif satirik-komik üsullarla, təbii xalq gülüşü yolu ilə, bəzən təsirli yumor ilə və ya ictimai satira vasitəsilə təsvir edilən hadisə və vaqeələrə konkret münasibət bildirilirdi. "Molla Nəsrəddin"nin Buxara əmirliyinin həyatı ilə əlaqələrinin yaxşı və intensiv xarakter kəsb etdiyini jurnal səhifələrində işıq üzü görən onlarla məqalələrdən bilmək olar. Görkəmli Azərbaycan ədəbiyyatşünası Qulamhüseyn Əliyevin yazdığına görə, jurnaldakı bir məqalədə "Buxarayi şərif"də mətbəənin yoxluğundan söhbət açılırsa, başqa bir məqalədə maarifçi müəllim Mirzə Əbdülvahidin Üsuli-cədid məktəbləri Əmir tərəfindən bağlanması bəyan edilirdi [7, s.170-175]. "Teleqraf. Xüsusi müxbirimizdən" sərlövhəli məqalədə isə Buxara əmiri Seyid Əbdüləhəd xanın Rusiya kurortlarından birində istirahət etməsindən "Əbdülhəmid" adlı müxbir xəbər verirdi [8, s.442]. Sonra isə jurnalın ilk səhifəsində "Buxarada aclar" sərlövhəsi ilə bir tərəfdə ac-yalavac adamlar, o biri tərəfdə isə əmirin rus qızları ilə şənləndiyini əks etdirən şəkillər üz qabığına yerləşdirilmişdi [8, s.585]. Bu kimi onlarla faktlar [9, s.37-49] "Molla Nəsrəddin" jurnalının o dövrdəki Türküstana və ümumən, Orta Asiya türklərinin həyatına laqeyd olmadığını göstərməkdədir. Bax bu münasibət, yəni həyat həqiqətini sadəcə olaraq göstərmək deyil, həm də onu təhlil etmək, görünən və göstərilən vaqeələrdən millətin həyatına və taleyinə birbaşa dəxli olan ən mühüm cəhətləri anlamaq və dərk etmək məsuliyyətini ziyalılara başa salırdı [10, s.104-105]. Jurnalın özbək ədiblərinin və ziyalılarının həyatındakı və taleyindəki rolunu Abdulla Əvlani, Qulam Zəfəri, Qafur Qulam, Sabir Abdulla, Qeyrəti və başqa görkəmli özbək yazıçıları etiraf etmişlər. Cəlil Məmmədquluzadə yaradıcılığının və "Molla Nəsrəddin" jurnalının yayılma coğrafiyası barəsində görkəmli şair və tərcüməçi Osman Qoçqar aşağıdakıları qeyd edir: "Şərqin bir çox ölkələrində, Hindistandan Mərakeşə qədər jurnalın fəal oxucuları, abunəçiləri, könüllü müxbirləri vardı. Türkiyə, İran, özbək, tatar, türkmən, Dağıstan ədəbiyyatlarında demokratik dünyagörüşünün və təmayüllərin formalaşmasında jurnalın böyük təsiri olub". Eyni zamanda "Molla Nəsrəddin" səhifələrində tanınmış özbək şair və yazıçıları Abdulla Əvlani, Həmzə Həkimzadə Niyazi, Məhəmmədşərif Sufizadə, Siddiqi Səmərqəndi Əczi və başqalarının öz əsərləri ilə iştirak etməsi barəsində məşhur özbək ədəbiyyatşünası Şirəli Turdiyev xəbər verir [11, s.166].

"Molla Nəsrəddin" jurnalının uzun müddət uğurlu fəaliyyət göstərməsində onun baş mühərriri Cəlil Məmmədquluzadənin misilsiz xidmətlərini və cəsarətini ayrıca qeyd etməklə bərabər, bu jurnalın ərsəyə gəlməsində və nəşr edilməsində Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Ömər Faiq Nemanzadə, Üzeyir Hacıbəyli [12, s.16] və başqalarının fəal və yaxından iştirak etdiyini, onların əksəriyyətini özbək oxucuları məhz Molla Nəsrəddin vasitəsilə tanıdığını da xüsusi vurğulamaq yerinə düşər [13, s.25].

Jurnalın bu istiqamətdə fəaliyyəti təkcə Azərbaycan ədəbiyyatında realizmin dərinləşməsinə deyil, ümumən, türk xalqları ədəbiyyatında realist inikas tərzinin inkişafına təkan verirdi. Türk dünyasındakı yeni mətbuat orqanı kimi doğulan və məşhurlaşan "Molla Nəsrəddin" səhifələrində xalq öz qiyafəsini və əhvalını görürdü. Milli və mənəvi oyanışın isə hər bir xalqın öz taleyüklü problemlərinin dərki və həlli yollarından keçdiyi isə məlum həqiqətdir. O da məlumdur ki, "Molla Nəsrəddin" çərək əsrlik fəaliyyəti ərzində Tiflis (1906-1919), Təbriz (1920-1921) və Bakı (1922-1931)

şəhərlərində nəşr edilib. Məhz elə bu səbəbdən də jurnal Rusiyanın əli altında olan Qafqazı və İranı, Orta Asiya və Krımı, bu ərazilərdə yaşayan xalqların həyatı və güzəranını öz səhifələrində müntəzəm olaraq əks olunurdu. Jurnalın maraq və ehtiva dairəsi onun mündəricəsində və rubrikalarında da əks edirdi: "Molla Nəsrəddin"in teleqramları", "Poçt qutusu", "Qafqaz xəbərləri", "Xarici xəbərlər", "Ələmnamə", "İran xəbərləri", "Öz müxbirlərimizdən", "Cəhənnəm məktubları", "Qəribə xəbərlər", "Aclar" və sair.

"Molla Nəsrəddin" jurnalının XX əsrin əvvəllərindəki Türküstan və xüsusən də Özbəkistanda çıxan qəzet və jurnallarla əlaqələrindən bəhs edərkən Mir Cəlal Yusifzadənin mühərrirliyi ilə nəşr olunan "Buxarayi Şərif" (bu qəzetin mühərriri Azərbaycandan dəvət edilmişdi, 1912), Mahmudxoca Behbudinin mühərrirliyi ilə çıxan "Ayna" (1913-1915) və "Səmərqənd" (1913), U.Əsədullaxocayevin "Sədayi Türküstan" (1914), O.Mahmudovun mühərriri olduğu "Sədayi Fərqanə" (1914), Əbdürrauf Fitrətin Səmərqənddə fəaliyyət göstərdiyi zaman çap etdirdiyi "Hürriyyət" (1917-1918) və onlarla başqa nəşrlərlə sıx həmkarlıq əlaqələri saxladığını ayrıca qeyd etmək lazımdır. Həmin dövrdə meydana gələn bir çox qəzet və jurnallara, o cümlədən Daşkənd şəhərində 1923-cü ildən fəaliyyətə başlayan məşhur "Müştüm" ("Yumruq") jurnalının meydana gəlməsinə də "Molla Nəsrəddin" jurnalının qüvvətli təsiri olduğunu dəfələrlə qeyd etmişlər. Bu iki qardaş jurnalın ("Molla Nəsrəddin" və "Müştüm") fəaliyyəti və səmərəli həmkarlıq əlaqələri yaxın gələcəkdə ciddi elmi tədqiqatların mövzusu ola bilər.

Məlumdur ki, 1922-ci ilin noyabrın 2-sində "Molla Nəsrəddin"in ilk sovet nüsxəsi nəşr olunur. Sonralar jurnal "Allahsızlar cəmiyyəti"nin orqanına çevrildi. Bütün bunlara baxmayaraq, jurnal öz adını və öz mövqeyini zərrə qədər dəyişdirmədi. Məhz bu prinsipiallıq və xalqa sədaqət yolundakı sabitqədəmlik "Molla Nəsrəddin"in bütün türk xalqları mənəviyyatında, o cümlədən qardaş Özbəkistanın mənəvi həyatında öz mövqeyini daha da möhkəmləndirdi.

Cəlil Məmmədquluzadə və yeni əlifba məsələsi. Mirzə Cəlilin yaradıcılığında və ictimai fəaliyyətində yeni əlifba məsələsi xüsusi bir yer tutur. Azərbaycanda yaşamış özbək ədibi və alimi Xalid Səid Xocayevin yazdığına görə, 1924-cü ilin sentyabr ayında yeni əlifba məsələsi gündəmə gələn kimi, onun təbliği və təşviqi istiqamətində mühüm işlər həyata keçirmək üçün Yeni Əlifba Komissiyasının sədri Səmədağa Ağamalıoğlu, Cəlil Məmmədquluzadə, komissiyanın üzvləri Vəli Xuluflu, Xalid Səyid Xocayev xidməti səfərə çıxırlar, onlar Krımdan, Rusiyadan keçib oktyabr ayında Daşkəndə gəlib çatırlar [14, s.6].

Bu haqda Xalid Səid Xocayev yazır: "Krımlı yoldaşların çıxışlarından sonra məruzələrdə irəli sürülmüş bir çox qeyri-müəyyən və şübhəli məqamlara cavab vermək zərurəti yarandı. Birinci olaraq, Cəlil Məmmədquluzadə söz aldı və həmin məsələlərə münasibət bildirdi: "Biz yeni bir əlifba yaratmışıq. Ümid edirəm ki, siz də bu yeni əlifbanı qəbul edəcəksiniz və bizi öz məmləkətinizdən incik halda yola salmayacaqsınız" [14, s.6].

Görünür ki, Cəlil Məmmədquluzadə yenicə formalaşmış latın əlifbası əsasındakı yeni yazı sisteminin bir-birindən ayrılıb uzaq düşmüş türk xalqlarını birləşdirəcəyinə ümid bəsləyirdi. Daşkənd səfəri haqqında müəllif yenə aşağıdakıları yazır: "Nəhayət, üçmərtəbəli bir binanın qabağına gəlib dayandıq. Bura Türküstan Cümhuriyyəti Mərkəzi İcraiyyə Komitəsi idi. Səmədağa Ağamalıoğlu ilə Cəlil Məmmədquluzadəni də biz burada gördük. Özbək, qazax və türkmən elmi heyətlərindən olan nümayəndələr də onların yanında idi. Səmədağa yeni əlifba haqqında ətraflı məlumat verdi. Başçılıq etdiyi nümayəndə heyətinin Türküstana səfərinin səbəblərini izah etdi. O, dili və mətbuatı, mədəniyyəti bir-birinə yaxın olan xalqların ortaq bir əlifbaya sahibolma zərurətini də bütün iştirakçılara başa salmağa çalışırdı" [14, s.6].

Müəllif Mirzə Cəlilin türküstanlı tərəqqipərvər ədib, Milli universitetin əsasını qoymuş məşhur maarfçi Münəvvər Qarı ilə görüşündən bəhs edir. Münəvvər Qarı təkmilləşdirilmiş və türk dillərinin təbiətinə uyğunlaşdırılmış ərəb əlifbası tərəfdarı olsa da, Cəlil Məmmədquluzadənin yaradıcılığını və fəaliyyətini yaxşı bildiyinə görə, onun fikirlərini və təkliflərini hörmətlə qarşılayır. Beləliklə, Cəlil Məmmədquluzadə türk millətləri qarşısında duran mühüm işləri və vəzifələri yerinə yetirməklə bəra-

bər, söz sənətini, xüsusən, realist nəsri inkişaf etdirmək sahəsində də öz müasirləri üçün bir ustada və müəllimə çevrilmişdi.

Cəlil Məmmədquluzadə və özbək nəsri mövzusunda indiyə kimi özbək və Azərbaycan ədəbiyyatşünaslığında xüsusi tədqiqatlar aparılmayıb. Buna baxmayaraq, Cəlil Məmmədquluzadənin qissə və hekayələrindəki yumoristik gülüş, satirik və kinayəli ifadə tərzində əks edən mənalar özbək yazıçılarının satirik-yumoristik təhkiyə manerası ilə həmahəng olduğunu müşahidə etmək çətin deyil. Xüsusən, Abdulla Qədiri və Qafur Qulam nəsrindəki yumor və gülüşün, Abdulla Qəhhar hekayələrindəki ifşaedici və satirik təhkiyənin, sovet dövründə alimlərimiz vurğuladığı kimi, yalnız Qoqol və Çexovdan öyrənməyin nəticəsi səviyyəsində izah edilməsi həqiqi ədəbi mənzərəni obyektiv əks etdirmir. Burada türk xalqları həyatının təbii uyğunluğu və söz mədəniyyətimizin inkişaf tarixindəki həmahəngliklərini də yaddan çıxartmaq olmaz. Cəlil Məmmədquluzadənin böyük bir sənətkar kimi, xalq həyatındakı və güzəranındakı taleyüklü problemləri, xüsusən, xalqı əzən, kiçildən və məhvə doğru aparan sadəlövhlük, mütilik, kölə psixologiyasını məharətlə görüb göstərməsi və bu əxlaqi-mənəvi qüsurların yadların, özgələrin onu asanlıqla məhv etməsinə şərait yaratdığını müasirlərinə anlatmağa nail olması, ümumən, türk xalqları ədəbiyyatının ciddi uğurlarından biri kimi dəyərləndirilməlidir. Məhz bu mənada mən "Danabaş kəndinin əhvalatları"nın içində Abdulla Qədirinin Kəlvək Məxzumunu və Daşpolad Təcəngini təsəvvür edə bilirəm [15, s.90-100]. Zahirən Məhəmmədhəsən əmi ilə Xudayar bəy özbək ədəbi qəhrəmanlarına oxşamasa da, amma "Danabaş kəndinin əhvalatları" sanki özbək zəminində və həyatında baş verən kimi duyulur. Povestdəki Xudayar bəy obrazı bizə Qafur Qulamın "Hiyləyi şərri" hekayəsini və onun qəhrəmanlarını yada salır [16, s.87]. Məsələ bundadır ki, özbək yazıçısının hekayəsinin qəhrəmanı yalnız təzə arvad almaq üçün hiylə işlədirsə, Xudayar bəyin isə bütün həyatı fitnə-fəsad və hiyləgərlikdən ibarətdir. O, öz kürəkəninin anasını, yəni qudasını almağa belə utanıb xəcalət çəkmir, əksinə, onun mal-mülkünə sahib olmaq üçün yeni-yeni fitnə-fəsadlar fikirləşib tapır. Onun mal-dövlətinə sahib olandan sonra, daha başqa gəlinləri öz hiyləsinə qurban etmək barəsində düşünür və onları həyata keçirir. Bu cür hiyləgər tiplər sadə və avam kənd əhalisi arasında az tapılsa da, amma yazıçının böyüklüyü bundadır ki, onun əməllərini və mənəvi-əxlaqi cinayətlərini ardıcıllıqla açıb göstərməklə bu cür alçaq şəxslərin öz məqsədlərinə asanlıqla çatmasının əsas səbəblərindən biri kimi nadanlıq və cəhaləti göstərir, insanın əl-qolunu bağlayan şəraitin günahkar olduğunu cəsarətlə nümayiş etdirir.

Mirzə Cəlilin məşhur "Poçt qutusu" hekayəsi haqqında onlarla tədqiqat və məqalələr yazılıb. Hətta hekayənin qəhrəmanı Novruzəlini A.Çexovun məşhur "Yavuz niyyətli adam"ına ("Zloumişlennik") bənzədən tədqiqatlar da mövcuddur [17, s.397]. Bununla müəlliflər hekayə qəhrəmanını rus ədəbiyyatındakı "kiçik adamlar" sırasına aid edirlər və bu hal XIX əsrin ikinci yarısındakı Azərbaycan həyatı üçün də tipik hadisə olduğunu vurğulayırlar. Bu cəhətdən yanaşsaq, Novruzəlinin özbək "qohum"larından birini biz Abdulla Qəhharın "Keçmişdən nağıllar"ında müşahidə edirik. İki küpə qatığını satıb, qazandığı pula arvadını müalicə etdirmək istəyən Bəbəri oğurluq etməkdə şübhəli bilib, "pullar hanı?" – deyə soruşduqları zaman o, elə indicə satdığı qatığın pulunu soruşurlar, deyə cibindəki bütün pullarını çıxarıb təhvil verib, bununla da özünün "oğru olduğunu" təsdiq etmiş olur [18, s.160-165]. Onu "həbs edən" qarovul gəlib, "qapı bağlı deyildi ki, niyə çıxıb getmədin?!" – deyəndə "Özünüz həbs elədiniz, padşahın adamısız", – deyə cavab verir. Povestdə qıfıllanmamış bir hücrədə "həbs olundum" deyə oturub gözləyən Bəbər ədəbi obraz kimi bir qədər gec öz əksini tapmış olsa da, o, Novruzəlinin müasiridir. Bu kimi ədəbi müqayisələri çox gətirmək olar, amma onlara yalnız ədəbi təsir nəticəsi kimi yanaşmaq məqsədə müvafiq deyil, çünki bu müstəmləkə şəraitində yaşayan və əzilən xalqlarımızın, mütilik və qulluq psixologiyasının əsiri olan yazıq insanlarımızın bir-birinə bənzəyən, oxşar taleləridir. Cəlil Məmmədquluzadənin nəsri hər cür "izm"lərdən yüksəkdə durduğuna görə, xalq həyatına hədsiz yaxın və onun bilavasitə əksi olduğu üçün hər bir oxucu onun qissə və hekayələrində özünü və öz yaxınlarını görür, onlara yanır, acıyır, bütün bunlarla bərabər isə, böyük ədib öz oxucusuna özünü anlamaq zəruriliyini təlqin edir. Çünki yalnız özünü dərindən anlayanlar maarif və mərifətə, milli tərəqqi və yüksəlişə üz tutmağa özlərində güc tapa bilirlər.

Nəticə / *Conclusion*

İstedadlı şair və görkəmli tərcüməçi, mərhum Osman Qoçqarın tərcüməsində özbək oxucularına təqdim olunan böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin seçilmiş əsərlərinin özbəkcə ilk nəşri oxucunu yaxşılıq etməyə və alicənablığa səsləyir.

(Özbəkcədən çevirən: fil.e.d.Yaşar Qasımbəyli)

Ədəbiyyat / *References*

1. S.Aliev. Literaturniyi svyazi i uzbekskaya dramaturgiya. T: Fan, 1973.
2. "Yeni İqbal" qəzeti, 1916, 10 may, 304-cü say.
3. Bax: İstiriya obshestvenno-kulturnogo reformatorstva na Kafkaze i v Sentralnoy Azii (XIX-XX veka. Samarkand: MITSAI) 2012.
4. İ.Həbibbəyli. Böyük demokrat Cəlil Məmmədquluzadə (Bax: Ədəbi şəxsiyyət və zaman əsərləri, 10 cilddə. II cild. Bakı, "Elm və təhsil" 2017.
5. Bax: M.Q.Ataev. Schenicheskaya jizn proizvedeniy Дj. Mammatkuluzade. Baku, «Elm», 1991.
6. Molla Nəsrəddin. Qəribə halət. 1908, 30 noyabr. Molla Nəsrəddin. Satirik jurnal. On cilddə, II cild (1907-1909). Bakı, "Şərq-Qərb".
7. Q.Əliyev. "Molla Nəsrəddin" və özbək həyatı. Azərbaycan, 1966, №7.
8. Molla Nəsrəddin. Xüsusi müxbirimizdən. 1909, 29 noyabr. Molla Nəsrəddin. Satirik jurnal. On cilddə, III cild (1909-1910). Bakı, "Şərq-Qərb", 2017.
9. Ob uzbeksko-azerbaydjanskix literaturnix svyazax. Tvirchiskiye svyazi nachala uzbekskoy literaturi. Pod. red. E.A.Karimova. T., 1983.
10. A.Ülvi. "Molla Nəsrəddin" və özbək satirik ədəbiyyatı. Dil və ədəbiyyat. 2007, №4.
11. Sh.Turdiyev. Uzbeksko-azerbaydjanskie литературные связи начала XX века. Страница азербайджанско-узбекских literaturnix vzaimosvyazey. Baku, «Elm», 1983.
12. İ.Həbibbəyli. "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilik. Molla Nəsrəddin. Satirik jurnal. On cilddə. I cild (1906-1907). Bakı, "Şərq-Qərb", 2017.
13. T.Kərimli. Redaktordan. Molla Nəsrəddin. Satirik jurnal. On cilddə, I cild (1906-1907). Bakı, "Şərq-Qərb", 2017.
14. H.S.Xocayev. Yeni elifba yollarında eski hatira ve duyğularim. Ankara, 2006.
15. A.Qədiri. Kiçik əsərlər, 1969.
16. Qafur Qulam. Əsərlər. 10 cildlik, VI cild, 1972.
17. A.Rüstəmov, B.Nəbiyev, Y.Qarayev. Azerbaydjanskaya literatura. Kratkiy ocherk. Baku, 2005.
18. A.Kaxxor. Utmişdan ertaklar. Tanlaqan əsərlər, I cild. Bakı, 2015.

Джалил Мамедгулузаде и узбекская литература

Хамидулла Балтабаев
Доктор филологических наук, Национальный университет Узбекистана. Узбекистан.
E-mail: hbaltabaev@mail.ru

Резюме. Нет необходимости представлять Джалила Мамедгулузаде специально узбекским интеллектуалам, знающим о широко распространенном движении «Джадид» в нашей стране в начале 20-го века, и читателям, знающим творчество Махмада Ходжи Бехбуди, Муневера Кари, Абдуллы Евлани, Абдурауфа Фитрета, Абдуллы Гадири, Абдулхамида Сулейманоглу Чолпана и других выдающихся писателей. С тех пор как узбекская сатирическая литература и драматургия были соединены такими духовными и художественными связями с творчеством этого великого писателя, что, слушая о журнале «Молла Насраддин» или вспоминая траги-комедию «Мертвецы», Джалил Мамедгулузаде приходит на ум. Несмотря на это, необходимо упомянуть о творческих особенностях азербайджанского писателя, связанных с узбекской литературой и его роли в развитии литературных связей того времени. В представленной статье творчество Мирзы Джалила исследуется в контексте «Джалил Мамедгулузаде и узбекская сцена», «Молла Насраддин» и узбекская пресса», «Джалил Мамедгулузаде и новый алфавит» и «Джалил Мамедгулузаде и узбекская проза».
Ключевые слова: Джалил Мамедгулузаде, журнал «Молла Насраддин», «Мертвецы» на узбекской сцене, визит Мирзы Джалила в Узбекистан, национальное пробуждение

Qafur Qulam və Azərbaycan

Almaz Ülvi Binnətova
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: almazulvi1960@mail.ru
https://orcid.org/0000-0001-7991-3969

Məhəmmədəmin Tuxliyev
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: mtoxliyev24@gmail.com
https://orcid.org/0000-0002-7010-1507

Annotasiya. XX əsrdə Azərbaycan-özbək ədəbi əlaqələrinin mövcudluğu Azərbaycanda özbək ədəbiyyatının tanınmış ədəbi simalarının dərindən araşdırılması, öyrənilməsi və tədqiqatı ilə bağlı bir sıra məsələləri ortaya çıxarmışdır. Bu müstəsna hal ədəbi əlaqələrin inkişafına, ədəbi prosesin daha da zənginləşməsinə səbəb olmuşdur. Məqalədə özbək ədəbiyyatının məşhur siması olan akademik, şair Qafur Qulamın ağır həyatı, yaradıcılıq yolu və tərcümə dünyası işıqlandırılmışdır. Burada, həmçinin, Q.Qulamın Azərbaycan ədəbiyyatı ilə əlaqələrindən bəhs olunmuşdur. Xəlil Rza, Qabil, Qasım Qasımzadə, Səyavuş Sərxanlı, Nüsrət Kəsəmənli, Ağasəfa, Vaqif Hüseynov və digər şairlər tərəfindən Q.Qulam poeziyasının ana dilimizə çevirilməsi, P.Xəlilov və digər tədqiqatçılar tərəfindən Q.Qulam və Azərbaycan ədəbi əlaqələrinin tədqiqi kimi məsələlər məqalədə tədqiqat obyektinə çevrilmiş və geniş şəkildə əksini tapmışdır.
Açar sözlər: Özbək ədəbiyyatı, Azərbaycan-özbək ədəbi əlaqələri, Qafur Qulam, poeziya, tədqiqat

http://dx.doi.org/10.29228/edu.142
Məqaləyə istinad: Binnətova A.Ü., Tuxliyev M. (2020) *Qafur Qulam və Azərbaycan.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 157-163
Məqalə tarixçəsi: göndərilib – 04.05.2020; qəbul edilib – 12.05.2020

Gafur Gulam and Azerbaijan

Almaz Ulvi Binnatova
Doctor of Philological Sciences, Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan. E-mail: almazulvi1960@mail.ru
https://orcid.org/0000-0001-7991-3969

Mahammadamin Tuxliyev
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: mtoxliyev24@gmail.com
https://orcid.org/0000-0002-7010-1507

Abstract. Existing Azerbaijani-Uzbek literary relations in the 20th century caused some issues on studying and researching well-known literary personalities of Uzbek

literature in Azerbaijan. This case led to the development of the literary relations and enrichment of literary process. In the article is highlighted the hard life, creative work and world of translation of an academician, poet Gafur Gulam who is famous one of Uzbek literature. Here also it is dealt with G.Gulams relationship with the Azerbaijani literature. The issues such as translating G.Gulam's poetry into our native language by Khalil Rza, Gabil, Gasim Gasimzade, Seyavhush Sharkhanli, Nusret Kesemenli, Aghasefa, Vagif Huseinov and other poets, studying G.Gulam and Azerbaijani literary relations by P.Khalilov and other researchers, are reflected in the article.
Keywords: Uzbek literature, Azerbaijani-Uzbek literary relations, Gafur Gulam, poetry, research.

http://dx.doi.org/10.29228/edu.142
To cite this article: Binnatova A.U., Tukhliyev M. (2020) *Gafur Gulam and Azerbaijan.* «Comparative Literature Studies», Issue I, pp. 157-163
Article history: received – 04.05.2020; accepted – 12.05.2020

Giriş / *Introduction*

Özbəkistanın xalq şairi Qafur Qulam 1903-cü il mayın 10-da Daşkənddə ziyalı bir ailədə doğulmuşdur. Dayısı Mirzə Abdulla "Mirzə" təxəllüsü ilə tacik dilində şeirlər yazardı. Atası Qulam ağa da savadlı şəxs idi. Ana dilindən başqa tacik dilini də gözəl bilirdi. Ağır kənd həyatı, böyük bir ailəni dolandırmaq üçün ağır zəhmətlərə qatlaşan Qulam ağa 44 yaşında dünyasını dəyişmiş, beş uşağı yetim qalmışdı. Onda Qafurun 9 yaşı vardı, ailənin körpəsi isə 6 aylıq idi. Qafur Qulamın anası da özbəkcə, tacikcə yazıboxumağı bacarırdı, el ədəbiyyatını gözəl bilirdi. Poeziyasevərlər (ata-anası və dayısı) arasında böyüyən Qafur Qulam özbək və fars–tacik klassiklərinə kiçik yaşlarından maraq göstərməyə başlamışdı. O, sonralar yazırdı: "Mən öz mütaliəmə, biliklər əldə etdiyimə görə əvvəlcə atama, sonra isə anama borcluyam" [1, s.234].

Əsas hissə / *Main part*

O, ilk təhsilini mədrəsədə almışdır. Mütaliə ilə biliyini zənginləşdirib. 1923-cü ildən mətbuatda çıxış etməyə başlayıb. Qafur Qulam əvvəl müəllimliklə məşğul olub, sonra qəzet və jurnal redaksiyalarında işləyib. Sovet hakimiyyəti illərində isə o, akademikliyə qədər yüksələrək, Özbəkistan Elmlər Akademiyasının həqiqi üzvü seçilib (1943). Böyük Vətən müharibəsi illərində yazdığı "Sən yetim deyilsən" şeirini (1942) məhz həmin müharibədə ata-anasını itirmiş uşaqlara ithaf etmişdir və öz acı uşaq taleyini yenidən misralarda yaşamışdır:

Demə yetiməm,
Ey ciyərparam!
Eyləmə dərd, qəm,
Ol bir az aram [2, s.44].

Şair deyir ki, müharibə daha amansız, qansızdır, min fürsət güdür. Atasız qalsanız oxşaram sizi ata kimi, azad, qayğısız, firavan yaşayın. Təki kirpiyinizdən yaş süzülməsin – siz yetim deyilsiniz. Yetimliyin nə olduğunu bizdən soruşun. Qara-qorxulu, qızdırmalı, bir yuxu kimi yetimliyi keçirən lirik mən yaşadığı ağrılarına göynəyir – bir tumar əl, isti ana qucağına həsrətdən... qovrulur. Bu həsrət, bu istək müharibənin yetim qoyduğu uşaqlara əl uzadır. Əslində, bu əsərdə iki dövrün yaşantısı görünür. İnqilaba qədərki insan

həyatı və sovet dövrü adamı. Professor Pənah Xəlilov yazırdı: "Əhatəli yaradıcılığı olan şairin lirikasında surəti öz dili ilə danışdırmaq, zahiri portret yaradıb onun fərdi cizgilərinə xüsusi diqqət yetirmək, mükalimədən istifadə etmək, süjetin ardıcıl inkişafını izləmək, lövhə və əşyanın incə təfsilatına enmək səciyyəvi deyildir. Qafur Qulam hadisənin mahiyyətini açmağı, ona məna verməyi, təəssürat və düşüncələrini ön plana çəkməyi sevir. Onun lirikasında konkret təsvirdən qüvvətli ricətə adlamaq, keçmiş və gələcək haqqında mühakimə yürütmək, müqayisə etmək, ictimai məzmun daşıyan məsələlərdən öz şəxsi həyəcanlarına, öz tərcümeyi-halına, bəzən əksinə, fərdi-intim hiss və həyəcanlardan böyük ictimai ümumiləşdirmələrə meyil qüvvətlidir.... Qafur Qulamın hər şeirində tamamlanmamış bir poetik fikir vardır və müəllif əlvan təsvir vasitələrindən, priyomlardan həmin fikri vermək üçün istifadə edir" [3]. Azərbaycan dilində "Sən yetim deyilsən" şeiri ilk dəfə "Özbək ədəbiyyatı antologiyası"nda (1958) şair Qasım Qasımzadənin tərcüməsində, şair Əhəd Muxtarın tərcüməsində isə Q.Qulamın "Ömrün baharında" (1979) kitabında dərc olunub.

Qafur Qulamın zəngin ədəbi irsi var. Onun şeirləri, poemaları, hekayə və povestləri, rus və dünya klassiklərindən etdiyi tərcümələr yaradıcılığının əsasını təşkil edir. Nazim Hikmətin pyesləri, Vilyam Şekspirin "Otello"su, Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan"ı məhz Qafur Qulamın tərcüməsində özbək dilinə çevrilmişdir.

Qafur Qulam poeziyası, tədqiqatçılarının dili ilə desək, özbək ədəbiyyatına yeni ruh, yeni üslub gətirmişdir. Özbək tənqidinin tanınmış nümayəndələrindən İbrahim Qafurov şairin yaradıcılığını ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən araşdırarkən qeyd edir ki, Qafur Qulam yaradıcılığında üç məsələ həmişə diqqət mərkəzindədir. Bunlar – xalq və onun tarixi, insanı yer üzünün əşrəfi edən əmək, zəhmət və yaşadığı dövrün ictimai-siyasi ideologiyası. Şair həmişə bu ideyaları dərin etiqad və odlu məhəbbətlə tərənnüm edib. "O öz şeirlərində mədəni çayxanalardan tutmuş Türksib yollarınacan, köhnə cəmiyyətin qalığı kimi təzahür edən əyyaşlıqdan tutmuş, neft uğrunda aparılan gərgin mübarizəyəcən, qadın azadlığından tutmuş, ümumi məcburi təhsil məsələlərinəcən hamısını əhatə etməyə çalışıb... O, hər bir şeirində varlığın yeni bir cəhətini kəşf edir, orijinal bir poetik mənzərə cızır, rəsm edir" [4, s.6].

"Ustad" adlı bu məqalədə özbək poeziyasının Səməd Vurğunu adlandırdığımız görkəmli şair Qafur Qulamın poetik yaradıcılığı fəlsəfi düşüncələrlə araşdırılmışdır. Şairin yaradıcılıq xüsusiyyətləri, poetik obrazları, poeziyasının məna və məqsədi tədqiqat obyekti olaraq təhlil olunmuşdur. "Mən şərqli şairəm, ilham üfüqüm Kuril adalarından Afrikayacan!" – deyən şairin şeirləri dünyaya yayılmış və sevilmişdir. Çünki "lirik mən"in poetik ovqatı, poetik düşüncəsi bəşəriyyətin hər bir üzvünün ürəyindən keçən duygularla həmahəngdir. – "Əziz özbək xalqımdan böyük dünyaya salam!" – deyən şairin dünyaya estetik baxışları saf və düşündürücüdür. Qafur Qulamın bir qeydini təkrarlamaqla fikrimi yekunlaşdırmaq və dəqiqləşdirmək qənaətindəyəm: "Nabat soran uşaqlar şirinlik ləzzətinin öz ağızlarında uzun müddət qalmasını istəyirlər. Mən də çap olunmuş və indi çap olunan əsərlərimin canıma, ruhuma bəxş etdiyi zövq-səfanın uzun müddətli olmasını, imkan olsa, ömürlük olmasını istərdim" [5].

Qafur Qulam XXI əsrdə də böyük şəxsiyyət və istedadlı şair kimi parlayacaqdır. Müasir dövrün nəbzini tutan şair tarixiliyi unutmur, şeirlərinin – şair fikrinin, məntiqinin mayasını tarixdən götürür. Onun "Mən Şərqdənəm" başlıqlı şeirindəki əzəmət, qürur milli iftixardan, milli hissiyyatdan doğur. Vətən, xalq məhəbbəti onda güclü olduğundan xalq şairi kimi ucalıb, sevilib, şərəfli ömür yaşayıb. Bu məzmunu onun çox şeirlərində, bütövlükdə yaradıcılığında izləmək mümkündür. Qafur Qulamın əsərlərindən xeyli hissə Azərbaycan oxucusuna çatdırılmışdır. Xəlil Rza, Qabil, Qasım Qasımzadə, Məmməd Aslan, Səyavuş Sərxanlı, Əhəd Muxtar, N.Kəsəmənli, Ağacavad Əlizadə, Ağasəfa, Vaqif Hüseynov, İsgəndər Coşğun, Şəkər Aslan, Cavad Zeynal, Müzəffər Şükür – Azərbaycan ədəbiyyatında – poeziyasında dəstixəttləri olan bu şairlər Qafur Qulam şeirlərini ana dilimizə çeviriblər, müxtəlif mətbu orqanlarda, almanaxlarda dərc etdiriblər. Özbəkistanın Xalq şairi Qafur Qulam yaradıcılığında bizə doğma görünən bir xətt də vardır. Bu, onun Azərbaycanla bağlı şeirləridir. O, Azərbaycan poeziyası nümunələrindən də özbəkcəyə tərcümə etmişdir.

Qafur Qulamın "Bir-birinə şagird, bir-birinə ustad", "Qırx yaşlı Azərbaycan", "Səməd Vurğuna", "Azərbaycanlı pambıqçı qardaşlara", "Xəzər"... adlı şeirlərində Azərbaycana olan məhəbbəti, eşqi

müqəddəsdir, səmimidir, uludur. Xəlil Rzanın tərcümə etdiyi "Bir-birinə şagird, bir-birinə ustad" şeirində Qafur Qulam yazır:

Bakının günəşidir
sanki, otağımdakı [2, s.14].

Qəlbində türk ürəyi döyünən şairin Bakı istəyi təbiidir. Çünki bu misraları yazmamışdan hələ çox-çox qabaq o, başqa şeirində yazmışdır:

Türküstan yolları boyunca
ucalan heykəllər
Azadlıq uğrunda şəhid olanlara
ehtiramdır! [2, s.27]

Ardınca o, yenə inamla, əzmlə yazır:

Ürəklərdə pünhan qalan arzular
açacaq çiçək.
Xalqların, millətlərin
başı üstündə
Azadlıq yelləri əsəcək! [2, s.26]

Bu misralar Qafur Qulam poeziyasının rəmzi, Qafur Qulam əqidəsinin, iradəsinin, qəlbinin, vətəndaş ruhunun əzəməti, ölməz heykəlidir. Bu heykəl neçə ildir ki, daha uca görünür, qürurlu görünür. Bəlkə də şair xoşbəxtliyidir ki, mənən yaşadığı ömrünün 100-ündə azadlıq yelləri qəlblərdə ucalan heykəlini salamlayır.

Azərbaycanda sovet hakimiyyətinin qurulduğu 40-cı ilə həsr etdiyi "Qırx yaşlı Azərbaycan" şeirində də eyni hisslərin şahidi oluruq:

Nizami dühasının tükənməyən sərvəti,
Şərqdə neçə şairin yapışıbdır qolundan.
Füzuliyə, Vaqifə, Vidadiyə min hörmət,
Canlı klassikidir Səməd Vurğun bu əsrin [2, s.11].

"Sən Qafqaz ətəyində, mən Ceyhun sahilində", "Əlinin istisini duymasaydım əlimdə", "Nuşirəvan qəsritək, inan, gedərdik bada". Bu misraların kökündə tarixə bələd oxucu min bir eyham oxuya, duya bilər. Bəli, daha çox "partiya, Lenin" mövzularında yazan şairin nələrə toxunduğunu duymaya bilmərik. 1937-ci ildə "ilişməyən" şairin sənət qardaşı Səməd Vurğuna yazdığı bu misralarda ulu türk nəfəsi hiss olunur. "Səməd Vurğuna" şeirində şairin Azərbaycan ədəbiyyatının, torpağının tarixinə bələdçiliyi onun zəngin təfəkkürünə, dünyagörüşünə nümunədir.

Səməd Vurğun və Qafur Qulam dostluğu iki xalqın həm ədəbiyyatında, həm də ənənəvi ədəbi əlaqələrin yeni məcrada inkişafında böyük rol oynadı. Bu gündə Səməd Vurğunun ev muzeyində qorunub saxlanan əlyazma şəklində olan məktubunda qeyd etdiyimiz faktlar aydın nəzərə çarpır:

"Əziz qardaşım, Səməd!

Sənə sonsuz salam və ehtiramla. Sənin sonrakı müvəffəqiyyətlərini təbrik etməyimə icazə verin. Mənə göndərdiyiniz teleqramı aldım, təşəkkür! O, insan oğlu, mənə bax! Gərəkli tarixi ənənəsi olan bu iki xalqın ədəbiyyatı yenə davam etsin. Madam ki, sən Azərbaycan ədəbiyyatının böyük nümayəndəsisən, bu yoldakı təşəbbüsün, yəni hər iki ədəbiyyatın yenidən yaxınlaşması üçün əlaqəlilik əzmliliyi – rəhbərlik vəzifəsinin səndən başlanması lazımdır. Məndən sədr olmaz... Sözün qısası, şeirlərindən göndər, tərcümə

edərik. Mənim bu qəsdim, yəni bəzi şeirlərimi sizə göndərmək arzum yoxdur. Ey qardaş, bizə qonaq gəlməyinizi arzulayırıq. Məndən şeir və ədəbi Azərbaycana salam və hörmətlərim var. Salamatlığınızı arzu edirik.

Dostun Qafur".

"Azərbaycanlı pambıqçı qardaşlara" şeirindəki iki misralıq hikmət bir tarix salnaməsidir:

Nəvai, Füzuli yadigarıyıq,
Çoxları göz qoyur ülfətimizə [2, s.9].

Bu misraların hikmətini, şeirin yazıldığı zamanın ab-havasını duyub Qafur Qulama necə mütəfəkkir şair deməyəsən? Onun məzmun və mənaca zəngin yaradıcılığında dərin fəlsəfə, bəşəri hisslər vardır. O öz fəlsəfəsi ilə dövrün siyasi qurbanına çevrilməmək üçün səmavi düşüncələrin zirvəsinə qalxır. Qafur Qulam təkcə insan ömrünü yox, millət, xalq taleyini də filosof gözü ilə müşahidə edib. Onun işlətdiyi obrazlar, müqayisələr sadə və bəşəridir. Və bunlar o qədər dərin, o qədər məntiqli işlənib ki, müstəqillik dövrümüzdə o fəlsəfəni daha aydın duyuruq. Sətiraltı deyilən fikirlər bu gün necə də möhtəşəmdir, şairi bir daha yaşatmağa layiqdir. Bəli, o misraları yenidən oxuyarkən Qafur Qulamın XXI yüzillikdə də şair böyüklüyünün şahidi olacağıq. 1966-cı ildə cismani ömrü qırılmış şairin XXI əsrdə 100 illiyini qeyd edirik. Bu da əbədiyyətə üz tutan şanlı bir tarixdir.

Filologiya elmləri doktoru Xəlil Rza "Nəğməli Özbəkistan" almanaxının Ön sözündə qeyd edir ki, "Qafur Qulamın dərin daxili yanğıya və mütəfəkkir zəkasına malik poeziyasının xüsusilə Azərbaycanla bağlı nümunələrini həyəcansız oxumaq mümkün deyildir" [6, s.13]. Xalq yazıçısı, professor Ə.Cəfərzadənin "Ustad Qafur Qulamla görüş" məqaləsində Qafur Qulamın şəxsiyyət böyüklüyündən səmimiyyət dolu məhəbbətlə söz açılır. O böyük şair qəlbindən doğan poeziya alicənab şəxsiyyət xarakteri ilə vəhdət təşkil edir. Azərbaycan və Özbəkistan arasındakı qardaşlığı, tarixin dərin qatlarından süzülüb gələn böyük mənəvi yaxınlığı obrazlı şəkildə ümumiləşdirərək iki milləti "biri-birinə şagird, biri-birinə ustad" adlandırmışdır" [7].

Professor Pənah Xəlilov qeyd etmişdi ki, "Qafur Qulam Azərbaycan şeirinin qartalı Səməd Vurğun sənətinin cazibə qüvvəsinə heyran olub ona pərəstiş etməkdən başqa, eyni zamanda, Səməd Vurğunun taleyində öz taleyinə uyğunluq görür, onunla doğmalaşırdı. Əbədiyyatşünaslığımız indi bu iki sənətkarın görüşlərini, onların mək-tublaşması, yaxud bir-birinin surətini yaratmaq təşəbbüsünü qeydə almaq, biblioqrafik məlumat verməklə kifayətlənə bilməz, onları bağlayan mənəvi tellərə toxunmaq, onları qovuşduran amilləri açmaq lazımdır" [3].

Ağaran saçıma baxmayın belə,
Zülmət gecə kimi qaraydı onlar.
Qızım da sübhəcən tutmazdı qərar,
Qırx hörük hörərdi saçına elə.

İndi böyüyübdür, saçını kəsir,
Baxıb hirslənirəm, acıqlanıram.
Elə düşünürəm, elə sanıram,
Bağımda, bağçamda yad adam gəzir.

Oğlumun darağı çıxır cibimdən,
Böyük oğlan olub-qamətli, uca.
Yeyin addımının qəfil zərbindən,
Az qalır yer qaça, daş-divar uça.

Bağışla! – söyləyir Mühərrəm elə:
- Uşaqlar əvvəlki uşaqlar deyil.
Saçının ətrini aldım otuz il,
Bəs niyə töküldü belə? [2, s.31]

1949-cu ildə yazdığı bu şeirdəki saf və səmimi duyğular şair qəlbinin zəmanə övladlarına olan iradlarından, kövrəkliyindən təsirlənmişdir.

Nəticə / *Conclusion*

Özbəkistanın Xalq şairi Qafur Qulamın Azərbaycanın görkəmli yazıçı və şairləri Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Mirzə İbrahimov və başqaları ilə dostluq və yaradıcılıq əlaqələri ölkələrimizin və xalqlarımızın qardaşlıq və əməkdaşlığımızın parlaq və unudulmaz səhifələridir. Qafur Qulamın Azərbaycana, yazıçı və şairlərimizə həsr etdiyi şeirlər, göndərdiyi məktublar və Azərbaycandan aldığı məktublar gerçək bir qardaşlığın canlı nəfəsini yaşadır. Qafur Qulamın Azərbaycan dilində çap olunmuş kitabları ölkəmizdə böyük əks-səda doğurmuş və rəğbətlə qarşılanmışdır. Azərbaycan ədəbi elmi ictimaiyyəti Qafur Qulamın yaradıcılığına yüksək qiymət vermişlər.

Qafur Qulamların və Səməd Vurğunların yaşadaraq nəsillərdən-nəsillərə çatdırdığı Azərbaycan-Özbəkistan qardaşlıq və həmrəyliyi davam edir.

Ədəbiyyat / *References*

1. Koroglu. Uzbekskaya literatura. Moskva, 1976.
2. Qafur Qulam. Ömrün baharında (şeirlər). Bakı, “Yazıçı”, 1979.
3. Pənah Xəlilov. Azərbaycan-özbək ədəbi əlaqələrindən. Bakı, 05 iyun 1979-cu il.
4. İbrahim Qafurov. Sözün işığı: müasir özbək ədəbiyyatı haqqında düşüncələr (özbəkcədən çevirəni Yaşar Qasımov). Bakı, “Yazıçı”, 1979.
5. Adxam Akbarov, Qafur Qulam. Тошкент, «Fan», 1974.
6. Nəğməli Özbəkistan: şeir almanaxı (tərtib ed. Ə.Muxtar. Ön söz X.Rza). Bakı, “Yazıçı”, 1979.
7. Əzizə Cəfərzadə. Ustad Qafur Qulamla görüş. “Ədəbiyyat və incəsənət”, 18 may, 1979.
8. Qafur Qulam. Səməd Vurğun: şeir (tərcümə edəni Xəlil Rza). “Şərq qapısı”, 18 noyabr 1976.
9. Almaz Ülvi. Qafur Qulam və Azərbaycan. “Elturan” (İctimai-siyasi proseslər və Beynəlxalq əlaqələr Elmi araşdırmalar mərkəzi), 2002-2003, № 1-2.
10. Almaz Ülvi. Azərbaycan-özbək (çağatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, “Qartal”, 2008.

Гафур Гулам и Азербайджан

Алмаз Ульви Биннатова
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви.
E-mail: almazulvi1960@mail.ru

Мухаммедамин Тухлиев
Институт литературы имени Низами Гянджеви.
E-mail: mtoxliyev24@gmail.com

Резюме. В XX веке в азербайджано-узбекских литературных связях был выдвинут ряд проблем, связанных с углублённым исследованием и анализом в Азербайджане известных литературных личностей. Это явилось причиной исключительного развития литературных связей, ещё большего обогащения литературного процесса. В статье освещены тяготы тяжёлой жизни, творческий путь и переводческий мир выдающейся личности узбекской литературы, поэта, академика Гафура Гуляма. В статье также отражены и стали объектом исследования связи Г.Гуляма с азербайджанской литературой, переводы на азербайджанский язык поэзии Гафура Гуляма со стороны Халила Рзы, Габиля, Гасыма Гасымзаде, Сеявуша Сарханлы, Нусрета Кесеменли, Агасефы, Вагифа Гусейнова и других поэтов, вопросы изучения П.Халиловым и другими литературоведами литературных связей Гафура Гуляма с Азербайджаном.
Ключевые слова: Узбекская литература, азербайджано-узбекские литературные связи, Гафур Гулям, поэзия, исследование

Məhtimqulu Fəraqi və Əlişir Nəvai

İsmixan Osmanlı
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: iosmanli59@yahoo.com
https://orcid.org/0000-0002-9246-4712

Annotasiya. Türk dünyasının mütəfəkkir şairi Əlişir Nəvai (1441-1501) hələ sağlığında öz ədəbi məktəbini yaratmış görkəmli bir sənətkardır. Bu məktəbin yüzlərlə yetirməsi ustad şairin ədəbi irsindən yaradıcılıqla bəhrələnərək, gözəl ədəbi nümunələr yaratmışlar. Türkmən xalqının klassik şairi Məhtimqulu Fəraqi də hələ gənclik illərindən Nəvai yaradıcılığından ilhamlanaraq rəngarəng ədəbi nümunələri ilə öz dövrünün böyük sənətkarları sırasında ədəbi yerini tutmuşdur. Bu gün də türk dünyası klassik şairləri arasında bənzərsiz yaradıcılığı ilə seçilən Məhtimqulunun həm lirik, həm də kiçikhəcmli epik yaradıcılığında Nəvai irsinin təsiri aydınca hiss edilməkdədir. Bu məqalə Nəvai irsinin Məhtimqulunun ədəbi yaradıcılığına təsirinin tədqiqinə həsr edilmişdir. Müəllif bu təsiri hər iki şairin yaradıcılığından nümunələrlə göstərməyə çalışmışdır.
Açar sözlər: Əlişir Nəvai, Məhtimqulu Fəraqi, lirik şeir, epik yaradıcılıq, ədəbi təsir

http://dx.doi.org/10.29228/edu.155
Məqaləyə istinad: Osmanlı İ. (2020) *Məhtimqulu Fəraqi və Əlişir Nəvai.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 164-174
Məqalə tarixçəsi: göndərilib – 08.06.2020; qəbul edilib – 22.06.2020

Magtymguly Pyragy and Alishir Navoi

Ismikhan Osmanli
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: iosmanli59@yahoo.com
https://orcid.org/0000-0002-9246-4712

Abstract. The thinker-poet of the Turkic world Alisher Navoi (1441-1501) is a prominent figure who founded his own literary school during his lifetime. Hundreds of students of this school benefited from the literary heritage of this master poet, created beautiful literary examples. The classical poet of the Turkmen people, Magtymguly Pyragy, was inspired by Navoi's works from his youth and took a literary place among the great artists of his time with his literary works. Today, the influence of Navoi's heritage is clearly felt in both lyrical and epic works of Magtymguly, who is distinguished among the classical poets of the Turkic world for his unique work.
This article is dedicated to the study of the influence of Navoi's heritage on Magtymguly's creativity. The author has showed this influence with examples taken from the works of both poets.

Keywords: Alishir Navoi, Magtymguly Pyragy, lyric poetry, epic creativity, literary influence

http://dx.doi.org/10.29228/edu.155
To cite this article: Osmanli I. (2020) *Magtymguly Faragi and Alishir Navai.* «Comparative Literature Studies», Issue I, pp. 164-174
Article history: received – 08.06.2020; accepted – 22.06.2020

Giriş / *Introduction*

Türk dünyasının mütəfəkkir şairi Əlişir Nəvainin (1441-1501) əsərləri həm öz sağlığında, həm də özündən sonrakı türk dünyasının məşhur şairlərinin yaradıcılığına güclü təsir etmişdir. Böyük bir nəsil bu dahi söz ustadının ölməz poeziyasının təsiri ilə gözəl ədəbi nümunələr yaratmışdır. Türkmən klassik ədəbiyyatının bir çox görkəmli nümayəndələri də Nəvai yaradıcılığına dərin məhəbbət bəsləmiş, onun yaradıcılıq irsindən faydalanmışlar. Nəvaidən əsrlər sonra yazıb-yaratmış tanınmış türkmən şair və mütəfəkkirləri – Nurmühəmməd Əndəlib (1660-1740), Dövlətməmməd Azadi (1700-1760), Məhtimqulu Fəraqi (1724-1807), Mahmud Qaibi (1735-1810), Seyidnəzər Seyidi (1768 - 1830), Qurbandurdu Zəlili (1800-1852) və Molla Nəfəs (1810-1872), Oraz Aşiqi (1825-1870) Nəvainin yaradıcılığına dərindən bələd olmuş, bəziləri isə onun şeirlərinə təxmislər yazmışlar. Nəvainin ədəbi irsi türkmən ədəbiyyatının məşhur simalarından olan Məhtimqulu Fəraqinin poeziyasına xüsusilə güclü təsir etmişdir.

Əsas hissə / *Main part*

Məhtimqulu Fəraqi ilk təhsilini atası, klassik türkmən şairi Dövlətməmməd Azadidən almışdır. Onun Nəvai yaradıcılığı ilə ilk tanışlığı da bu vaxtdan başlamışdır. Belə ki, atası Azadi dövrünün məşhur şairi idi və Xivədə "Şirqazi" mədrəsəsində yüksək təhsil almışdı. Özbək dilini də yaxşı bilirdi. Bir qayda olaraq, həmin mədrəsənin məzunları türk və Şərq dünyasının bir çox görkəmli şairlərinin mədrəsədə tədris olunan əsərlərinin və ya mədrəsənin kitabxanasında olan başqa əsərlərin üzünü köçürüb özləri ilə vətənlərinə aparırdılar. Tədqiqatçılar tərəfindən müəyyən edilmişdir ki, Azadi də Nəvainin əsərlərinin əksəriyyəti ilə tanış idi, daha doğrusu onda böyük sənətkarın külliyatı olmuşdur. O özünün məşhur "Vəğzi-Azadi" adlı əsərini Nəvainin "Heyrət ül-əbrar" əsərinin təsiri ilə yazmışdır [1, s.294]. Onun başqa əsərlərində də Nəvainin "Xəzain ül-məani", "Məhbub ül-qülub" və başqa əsərlərinin təsiri hiss edilir [1, s.295-296]. Bütün bunlar güman etməyə əsas verir ki, Məhtimqulunun Nəvainin yaradıcılığı ilə ilk tanışlığı atasından aldığı ibtidai təhsil illərində baş vermişdir.

Dövlətməmməd Azadi Məhtimquluya ilk təhsil verdikdən sonra onu Niyaz Salih adlı müəllimin yanına göndərmişdir. Sonra o, XVIII əsrin inkişaf etmiş ən mədəni mərkəzlərində – əvvəlcə Türkmənistanın Xalac ətrafındakı Qızılayaq kəndində yerləşən İdris Baba mədrəsəsində təhsil almışdır. Gənclik illərində Şərqdə elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınan Buxaraya getmiş və oradakı "Kükəldaş" mədrəsəsində təhsilini davam etdirmişdir. Daha sonra Xivəyə getmiş və orada üç il, 1756/57-1760-cı illərdə "Şirqazi xan" mədrəsəsində yüksək təhsil almışdır [2, s.94-135].

Məhtimqulu Buxara və Xivə mədrəsələrində təhsil aldığı illərdə tələbələrə həmin mədrəsələrdə türk dünyasının böyük şairlərindən Şeyx Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Əlişir Nəvainin, Məhəmməd Füzulinin yaradıcılığı tədris edilirdi. H.Xanıkov Buxara mədrəsəsində oxudulan 13 kitabın, o cümlədən türk dilində olan aşağıdakı beş kitabın adını çəkir: "Divani-Fizuli", Əlişir Nəvainin "Lisan üt-teyr", "Divani-əmiri-Nəvai", "Hüveyda", "Qisseyi-divani-Məşrəb" [3, s.211].

Görkəmli türkmən alimi B.A.Qarrıyev Əlişir Nəvainin Məhtimquluya təsiri barədə yazmışdır: "Məhtimqulunun Mirəli Şir Nəvaini tanıması və onun bütün yaradıcılığı ilə tanış olduğu, onun yaradıcılığının təsirində olması şəksizdir, çünki Məhtimqulu kimi böyük şairin onu tanımaması heç mümkün deyil. Ondan başqa qədim dövrlərdə türkmən məktəblərinin hamısında Nəvainin "Çar divan"ını stabil oxu kitabı kimi keçildiyinə görə onu Məhtimqulunun da oxuduğu sözsüzdür. Beləliklə, Nəvainin Məhtimquluya hər tərəfdən yaxşı təsir etdiyini Məhtimqulunun humanist əsərlərində, Nəvainin əsərlərini yaradıcılıqla təqlid etməyində və onun öz ana dilini – türkmən dilini sevməsində (Nəvainin "Mühakimət ül-lüğəteyn"ini yada salın) axtarmalıyıq" [4, s.42]. Məhtimqulunun özü də dönə-dönə əsərlərini mütaliə etdiyi Şərq və türk dünyasının klasssikləri arasında Əlişir Nəvainin adını hörmətlə yad etmişdir. O, "San olsam" ("San bolsam") adlı şeirində Nəvaini "ustad" deyə yad etmiş və onun "Çar divan"ını, "Fərhad-Şirin" poemasını və rübailərini oxuduğunu göstərmişdir:

Əbu Seyid, Ömər Xəyyam, Həmədani,
Firdovsi, Nizami, Hafiz pərvanı,
Cəlaləddin Rumi, Cami əlvanı,
Onların yerində mənəm kən olsam.

Daməqandan gedən ustad Nəvai,
"Çar divan"ı, "Fərhad-Şirin", rübai,
Zahirəddin Babur "Mizan ül-əvzanı",
Qarşılarına gedib mən Məcnun olsam.

Oxuyub bildim Sədinin mən "Bustan"ını,
Gör, nə əcəb Xaqaninin "Mədain"ini,
İstərəm "Şahnamə", "Saqinamə"ni,
Xəlifə Ömər ilə Süleyman olsam [5, s.68-69].

Məhtimqulu "Xunlar tökərlər gözündən" ("Hunlar dökerler gözünden") adlı başqa bir şeirində yenə də Nəvainin adını Nizami, Firdovsi ilə bir yerdə çəkmişdir:

Dərdlilər dərdimi görsə, utanarlar özündən,
Təbib əhli çarə tapmaz, xunlar tökərlər gözündən.

...Eşitsə Nəvai, Nizami, Firdovsi qılan zarım,
Tərki-dünya eyləyib, hamısı keçər sözündən [5, s.159-160].

Şair "Gələndir" ("Gelendir") adlı başqa bir şeirində isə Əlişir Nəvainin adını Şeyx Füzuli və Hüseyn Bayqara ilə bir cərgədə çəkmişdir:

...Ol şeyxi Füzuliyə sözüm olsa bərabər,
Soltani-Hüseyin, Mir Əlişir dünyada davağər,
Fərhad ilə Şirin, Leyli ilə Məcnun diləvar,
Bar yurdu gəzib, seyri-Xorasana gələndir [6, s.403].

Əvvəlcədən qeyd etmək lazımdır ki, Məhtimqulunu Nəvaiyə bağlayan əsas səbəblərdən biri mütəfəkkir şairin ecazkar poeziyası idisə, digər bir səbəb isə hər ikisinin eyni fəlsəfi dünyagörüşə malik olmaları idi. Onların hər ikisi sufizmin nəqşibəndilik təriqətinin üzvləri idi.

Böyük Nəvai öz dövründə sufizmin nəqşibəndilik təriqətinin tanınmış davamçılarından olmuşdur. Mürşidi, bu təriqətin banisi, görkəmli sufi şeyxi Xacə Məhəmməd Bəhaəddin Nəqşbəndiyə

hörmət əlaməti olaraq özünün "Nəsayim ül-məhəbbət" (1496) əsərində onun haqqında daha geniş məlumat vermişdir [7, s.133-135].

Məhtimqulu da Nəqşibəndi təriqətinə ruhən bağlı olmuşdur. Şairin bu sufi təlimi ilə gecə-gündüz məşğul olduğunu "Divanə gəldi" adlı şeirində daha qabarıq şəkildə göstərmişdir:

Bir gün yatırdım şah Nəqşibəndi
Bəhaəddin adlı divanə gəldi.
Əsasın sürüyüb gəlmiş Buxaradan,
Haqq işığında məsti-məstanə gəldi [8, s.184].

Hətta şair öz şeirlərində yaradıcılıq ilhamını Bəhaəddin Nəqşibəndidən aldığını göstərmişdir:

Bir gecə yatırdım şah Nəqşibəndi
Kərəmi cuş eyləyib, bir nan gətirdi.
Sağ əlində gülgün badə şərabı,
Sol əlində təzə biryan gətirdi [8, s.185].

Məhtimqulu "Oyan dedilər" adlı məşhur şeirində yenə də Nəqşibəndi şəxsiyyətinə vurğunluğunu dilə gətirmişdir:

Ol Bəhaəddindir, o həm bir ərdir,
Biri Zəngi Baba – o da namdardır... [5, s.13]

Əsərlərindən məlum olur ki, Məhtimqulu mürşidi-piri olaraq Bəhaəddin Nəqşibəndinin təlimini seçmişdir. Hətta Bəhaəddin Nəqşibəndinin tərcümeyi-halını dərindən öyrəndiyi onun şeirlərindən də məlum olur. O, "Badi-səbanı görsəm" ("Bady-sabany görsem") adlı şeirində

Bəhaəddin, Mir Külal,
Zəngi Babanı görsəm, –

deyib Bəhaəddin Nəqşibəndinin Səmərqənddə dini elmləri öyrəndiyi, dövrün məşhur ülamələrindən olan ustadı Baba Səmmasinin ölümündən sonra ona ruhi tərbiyə vermiş Əmir Külalın adını çəkir [5, s.247].

Beləliklə, eyni fəlsəfi dünyagörüşə malik olmaları, onlar arasında fəlsəfi fikir və ideya yaxınlığı da Əlişir Nəvainin Məhtimqulu Fəraqi yaradıcılığına təsir etməsinə səbəb olmuşdur. Məhz bu səbəbdəndir ki, Məhtimqulu yaradıcılığında Nəvainin sufi məzmunlu fəlsəfi əsərlərininin təsiri daha çox hiss edilir.

Məhtimqulu kiçikhəcmli mənzum əsərlərini yazarkən, Əlişir Nəvai irsindən faydalanıb qiymətli mənzum əsərlər yazmışdır. Bu mənada yaradıcılığının bütövlükdə sənətkarlıq məziyyətlərini səciyyələndirən "Can içində" və "İçində" adlı alleqorik səpkidə yazılmış poemaları onun mənzum əsərləri içərisində xüsusi yer tutur. Sanki bir-birinin davamı olan bu poemaların qəhrəmanları quşlardır. Heç şübhəsiz, Məhtimqulu Fəraqi şair kimi püxtələşdiyi bir dövrdə qələmə aldığı bu əsərlərini Əlişir Nəvainin "Lisan üt-teyr" ("Quşların dili") əsərindən təsirlənərək yazmışdır. Bununla belə, qeyd etmək lazımdır ki, o özündən əvvəl bu mövzuda yazmış orta əsrin məşhur sufi fars şairi və mütəsəvvüfü Şeyx Fəridəddin Əttarın (1141-1221) farsca yazdığı "Məntiq üt-teyr" ("Quşların dili" və yaxud "Uçmağın məntiqi") adlı əsərindən də faydalanmışdır. Eyni zamanda Ziyaəddin Nəqşəbinin fars dilində yazdığı məşhur "Tutinamə" adlı alleqorik əsəri (1330) də hələ orta yüzillərdə bir sıra dillərə, həmçinin türkmən dilinə də tərcümə olunmuşdu. Mümkündür ki, Məhtimqulu Fəraqinin bu əsərdən də xəbəri olmuş və ondan da faydalanmışdır.

Məhtimqulu Fəraqinin həmin əsərlərinin təhlili göstərir ki, o, əsasən Nəvai yaradıcılığından bəhrələnmişdir və adları çəkilən poemalarını bilavasitə onun "Lisan üt-teyr" ("Quşların dili") əsərinin təsiri ilə yazmışdır. Hər iki şairin əsərlərinin müqayisəsi göstərir ki, Məhtimqulu Fəraqi "Lisan üt-teyr"in yazıldığı çağatay türkcəsini kifayət qədər yaxşı bildiyindən, Nəvainin əsərini orijinaldan mütaliə etmişdir. Belə ki, o, Buxarada "Kükəldaş mədrəsəsi"ndə və Xivədəki "Şirqazi xan mədrəsəsi"ndə öz dövrü üçün yüksək təhsil alarkən, çağatay türkcəsini mükəmməl öyrənmişdi və Əlişir Nəvainin yaradıcılığı ilə yaxından tanış olmuşdu [9, s.64]. Lakin görünür, Məhtimqulu Nəvainin "Lisan üt-teyr" ("Quşların dili") əsəri ilə tanış olana kimi, öz poemalarını yazmağa başlamamış və uzun zaman buna hazırlaşmışdır [9, s.83]. Şair poemalarını yazana qədər Nəvainin həmin əsərinin təsiri ilə bir neçə şeir də yazmışdır. Məsələn, Əlişir Nəvai həmin əsərində müqəddəs Kəbənin şeyxlər şeyxi Sənan və xristian gözəli ilə bağlı epizod yerləşdirmişdir. Məhtimqulu özünün "Yar səndən" adlı şeirini poemanın həmin hissəsinin təsiri ilə yazmışdır:

Şeyx Sənan tək dərin kədərə ulansam,
Şibli kimin toz-torpağa bulansam,
Kəbəyə gedib yeddi dəfə dolansam,
Ya Rəbb, xəbər bilərəmmi, yar, səndən? [11, s.161-162]

Başqa bir misal. Məhtimqulunun ayrı-ayrı şeirlərində Əlişir Nəvainin "Lisan üt-teyr" adlı əsərində adları çəkilən müqəddəslərin – Üveys Qarani, Zünnub əl-Misri, Əbu Yezid Bistəmi, Əbu Səid Məxneyi, Mənsur ibn əl-Xallac, Bəhaəddin Nəqşibəndinin adları çəkilir.

Bundan başqa, Məhtimqulu "Seyranda", "Tili senalı quşlar", "Nalış kılsam quşlar bile" və bir çox başqa şeirlərində quşların xasiyyətlərindən bəhs edir. Beləliklə, bu və ya digər oxşarlıqlar Məhtimqulu Fəraqinin Əlişir Nəvainin "Lisan üt-teyr" adlı əsəri ilə yaxından tanış olduğunu, "Can içində", "İçində" adlı poemalarını onun həmin əsərinin təsiri ilə yazdığını sübut edir [10, s.81-82]. Başqa bir dəlil isə, Əlişir Nəvainin əsərində adıçəkilən 20 quşdan Məhtimqulunun "Can içində" poemasında 10-unun adının çəkilməsidir [10, s.83].

Məhtimqulunun mənzum əsərləri Fəridəddin Əttarın "Məntiq üt-teyr" və Əlişir Nəvainin bu əsərə yazdığı "Lisan üt-teyr" adlı nəzirəsindən həm həcmcə, həm də məzmunca çox fərqlidir. Əttarın məsnəvi formasında yazdığı "Məntiq üt-teyr" əsəri 4400 beytdən artıq, Əlişir Nəvainin "Lisan üt-teyr" əsəri 3598 beytdir. Məhtimqulu Fəraqinin "Can içində" poemasındakı bəndlərin sayı Türkmənistanda nəşr edilmiş əsərlərində müxtəlifdir: Onun 1983-cü ildə Aşqabadda nəşr edilmiş "Seçilmiş əsərləri"ndə 68 beyt, 290 illik yubileyi ilə əlaqədar nəşr edilmiş ikicildlik "Seçilmiş əsərləri"nin birinci cildində 56 beyt, Bakıda tapılmış son "Divan"ında isə cəmi 50 beytdir. Əsərdəki bəndlərin müxtəlif sayda olmasının səbəbi şairin əsərlərinin müxtəlif illərdə yaddaşlardan toplanması ilə əlaqədardır. Şairin Bakıda tapılmış son "Divan"ı tədqiqatçılar tərəfindən daha mükəmməl hesab edildiyindən, poemanın cəmi 25 bənd – 50 beytdən ibarət olduğunu söyləmək olar.

Şairin "İçində" poeması isə 15 bənd – 30 beytdir. Poemaların həcminin az olmasına baxmayaraq, Məhtimqulu Fəraqi də sələfləri kimi alleqoriyanın geniş imkanlarından yaradıcılıqla bəhrələnərək, öz fikrini çatdıra bilmişdir.

Əvvəldə dediyimiz kimi, hər üç sənətkarı əqidə etibarı ilə birləşdirən sufizm idi və hər biri öz əsərində sufi ideyalarını təbliğ etmişdir. Əgər Fəridəddin Əttar "Məntiq üt-teyr" əsəri vasitəsilə təsəvvüfün vəhdəti-vücud nəzəriyyəsini irəli sürürdüsə, Əlişir Nəvai "Lisan üt-teyr" əsərində başda müdrik hökmdar olmaqla, ədalətli cəmiyyət yaratmaq fikrini irəli sürmüşdür. Məhtimqulu Fəraqi "Can içində" poemasında

Nəfsin deyər: "Xoş olsam,
Göyçəklərə tuş olsam,
Yesəm-içsəm, xoş olsam,
Yatsam eyvan içində", –

deyə [8, s.358] gününü eyş-işrətdə keçirmək istəyən insanları haqqa-ədalətə, doğru yola çağırmışdır:

Gedən yolun bilməsən,
Doğru yola gəlməsən,
Haqqı yada salmasan,
Qaldın arman içində [8, s.358].

Məhtimqulu Fəraqinin poeması Əlişir Nəvainin poemasından fərqli olaraq, sırf sufi məzmunlu deyil. Onun poemasında quşların – simvolik obrazların timsalında insanların ətraf aləmi dərk etməsi ön plana çəkilir və onlardakı yaxşı cəhətlər tərənnüm edilir [10, s.83]. Onun yaradıcılığında bu cür fərqin olması da təbiidir, çünki Məhtimqulunun məqsədi Nəvainin qabaqcıl ictimai-siyasi görüşlərini təkrarlamaq deyil, onları öz dövrünün şəraitinə uyğun olaraq daha da inkişaf etdirmək olmuşdur. Bu cəhətdən onun əsərlərində feodal müharibələrinə son qoyulması, mərkəzləşdirilmiş dövlətin yaradılması, ədalətli hökmdar məsələləri və s. daha xarakterikdir [12, s.9].

Şairin kiçikhəcmli "İçində" poemasında da bir neçə yırtıcı heyvanın, quşların, ev heyvanlarının xasiyyətləri haqqında alleqorik formada, yəni onların öz dilləri ilə qısaca məlumat verilir. Məhtimqulu bu iki poemasında iştirak edən quşların, heyvanların həyat tərzini olduqca düzgün təsvir etmişdir. "İçində" adlı poemada bülbül özü haqda deyir:

Bülbül deyər: "Can-tənim,
Bağ içində hər günüm,
Məclisdədir məskənim,
Sayrayıb, reyhan içində" [8, s.363-364].

"Can içində" poemasında durnalar qışda soyuqlar düşəndə isti ölkələrə, o cümlədən Hindistana uçub getdiklərini bildirirlər:

Durna deyir: "Pər açaram,
Bağdad suyun içərəm,
Qış Hindistana göçərəm,
Laləzaran içində" [8, s.359].

Beləliklə, bu poemalarındakı təsvirlər, bir daha təsdiq edir ki, Məhtimqulu onları yazana qədər uzun müddət quşların, ev heyvanlarının, vəhşi heyvanların həyat tərzini, xasiyyətlərini ətraflı öyrənmiş və sonra poemalarını qələmə almışdır. Şairin bir çox şeirləri də təsdiq edir ki, o, daim təbiətlə təmasda olmuş, böyük zəhmət hesabına təbiətdəki heyvanların həyatlarını öyrənmiş və öyrəndiklərini şeirlərində əks etdirmişdir [13, s.65-72]. "Seyran içində", "Badi səbanı görsəm", "Daşlar ilə", "Seyranda", "Dili sənalı quşlar" və s. şeirləri bunun ən bariz nümunələridir. "İçində", "Can içində" adlı poemalarında olduğu kimi, şairin bu və digər şeirlərində quşların xasiyyətlərinin təsviri əsas mövzudur. Tədqiqatçı R.Mustakovun fikrincə, dünyanı dərketmə və optimist notlarla zəngin bu şeirlərini şair mədrəsədə oxuduğu illərdən sonra yazmışdır [10, s.82]. Fikrimizcə, bu sözləri Məhtimqulunun "İçində", "Can içində" adlı poemalarına da aid etmək olar.

Əlişir Nəvai ədəbi irsi Məhtimqulu Fəraqinin kiçikhəcmli poemalarına olduğu kimi, lirik yaradıcılığına da güclü təsir etmişdir. Bu təsir özünü hər iki mütəfəkkir şairin ideya yaxınlığında, həm də eyni mövzuya münasibətlərində göstərir. Əlişir Nəvainin Məhtimqulu Fəraqinin lirik yaradıcılığına təsirindən bəhs etməmişdən əvvəl bir məsələ haqqında fikir bildirmək istərdik. Demək olar ki, bu mövzuya Özbəkistan və Türkmənistan alimlərinin əksəriyyətinin araşdırmalarında – elmi məqalələ-

rində, dissertasiya işlərində, monoqrafiyalarında, həmçinin iki qardaş xalqın ədəbi əlaqələrindən bəhs edən tədqiqat əsərlərində geniş yer verilib. Əksər tədqiqatçılar Nəvaiyə aid etdikləri

Odam borki, odamlarninq naqşıdir,
Odam borki, hayvan undan yaxşıdır –

məşhur aforizmi nümunə göstərirlər və Məhtimqulu Fəraqinin bu misraların təsirindən yaranmış

Adam bardyr, ony şalar çagyrdar,
Adam bar, zulm edip, garyp agyrdar –

beytini göstərirlər [14, s.10; 15, s.29; 16, s.51]. Bu tədqiqatlarda diqqəti çəkən məqamlardan biri də odur ki, tədqiqatçılar həmişə Məhtimqulu Fəraqinin yaradıcılığından nümunə gətirdikləri həmin beytlərin mənbəyini göstərirlər, Nəvaiyə aid etdikləri aforizmlərin (iki misranın) onun hansı şeirindən olduğunu, hansı kitabında olduğunu göstərmirlər. Tədqiqatlarda bu cəhət diqqətimizi cəlb etdi və Nəvainin külliyyatında bu misraları axtarmalı olduq. Bu beytləri Nəvainin heç bir əsərindən tapa bilmədik. Yeri gəlmişkən qeyd edək ki, Nəvainin hikmətlərinin toplanıb nəşr edilmiş 1968-ci il [17] və 2019-cu il [18] mötəbər nəşrlərdə də göstərilən beytlər yoxdur. Əgər həmin beytlər Nəvaiyə aid hikmətli söz (aforizm) olsa idi, müəlliflər onları həmin nəşrlərə salardılar.

Axtarışlarımız zamanı məlum oldu ki, Nəvainin adına çıxarılan həmin misralar Azərbaycan atalar sözləridir [19] və aşağıdakı bəndin ilk beytidir:

Adam var ki, adamların naxşıdır,
Adam var ki, heyvan ondan yaxşıdır,
Adam var ki, dindirərsən "can" deyər,
Adam var ki, dindirməsən yaxşıdır.

Azərbaycanlılar arasında dillər əzbəri olan bu atalar sözləri aşıqların, şairlərin də diqqətini cəlb etmiş, onlar da ondan təsirlənərək gözəl şeirlər yazmışlar. Onlardan XVI əsrin sonları – XVII əsrin əvvəllərində Güney Azərbaycanda yaşayıb yaratmış Azərbaycan aşıq şeirinin görkəmli nümayəndəsi Aşıq Abbas Tufarqanlının "Bəyənməz" rədifli şeiri daha məşhurdur. Bu şeirdə, hətta atalar sözünün iki beyti olduğu kimi öz əksini tapmışdır:

Adam var ki, adamların naxşıdı,
Adam var ki, anlamazdı, naşıdı,
Adam var ki, heyvan ondan yaxşıdı,
Dindirərsən, heç insanı bəyənməz [20, s.108].

Araşdırmamız göstərdi ki, Məhtimqulu Fəraqi Abbas Tufarqanlının məhz "Bəyənməz" rədifli şeirindən təsirlənərək gözəl sənət nümunələri yaratmışdır. Bu şeirin təsiri Məhtimqulu Fəraqinin bir çox şeirlərində hiss olunur. Tədqiqatçıların Məhtimqulunun "Dəyməz" rədifli şeirindən nümunə kimi göstərdikləri beytlərin olduğu

Adam vardır, onu şahlar çağırdar,
Adam var, zülm edib, qərib ağırdar,
Adam var, pər döşək yanın ağırdar,
Adam vardır, ağ kiz dızına dəyməz [5, s.489] –

bənd də və yenə də onun "Mal yaxşı" adlı şeirində

Adam qədrin bilməyib gəzən adamdan,
Ondan yenə otlayıb gəzən mal yaxşı [5, s.497] –

və ya "Düyşünə dəyməz" adlı şeirindəki

Ərlər var – min tümən yedirsən azdır,
Adam vardır – yeyən aşına dəyməz [5, s.402] –

beytləri Abbas Tufarqanlının həmin şeirinin təsiri ilə yazılmışdır. Abbas Tufarqanlının "Bəyənməz" rədifli şeirinin təsiri Məhtimqulu Fəraqinin başqa şeirlərində də hiss olunur. Məsələn, Məhtimqulu Fəraqinin "İli gözlər" adlı şeirindəki

Kimi nan tapmaz yeməyə,
Kimi yer tapmaz qoymağa,
Kimi don tapmaz geyməyə,
Kimi tirmə şalı gözlər [5, s.273] –

bəndi də Abbas Tufarqanlının "Bəyənməz" adlı şeirindəki

Adam var, dolanar səhranı, düzü,
Adam var, döşürər gülü-nərgizi,
Adam var, geyməyə tapammaz bezi,
Adam var, al geyər, şalı bəyənməz –

bəndi ilə səsləşir.

Bu cür nümunələrin sayını artırmaq da olardı. Amma mövzudan kənar olduğuna görə, gələcəkdə bu mövzuda ayrıca araşdırma da aparmaq olar. Burada əsas məqsədimiz uzun illər Türkmənistan və Özbəkistan ədəbiyyatşünaslığında səhvən Əlişir Nəvaiyə aid edilən şerin əslində Azərbaycan atalar sözü olduğunu göstərmək, Məhtimqulu Fəraqinin lirik yaradıcılığından gətirilən nümunələrin Abbas Tufarqanlının "Bəyənməz" rədifli şeiri ilə səsləşdiyini göstərmək idi.

Məhtimqulu və Navainin yaşadığı dövr çox keşməkeşli, təlatümlü dövr olmuşdur. Feodallar arasında çəkişmələr, müharibələr və onların sadə insanların həyatına etdiyi təsirlər hər iki mütəfəkkir şairin yaradıcılığında öz əksini tapıbdır. Hər iki şairin yaradıcılığının ana xəttini vətənpərvərlik, milli birliyə çağırış, dosta sədaqət və başqa humanist ideyalar təşkil edir. Vəfa, dosta sədaqət mövzusu Nəvainin doğma türk (çağatay) dilində yazdığı şeirlərinin toplandığı dörd divanından ("Çahar divan") ibarət "Xəzayin ul-məani" adlı əsərində – "Gərayib üs-siğər"də ("Uşaqlığın qəribəlikləri") "Dost" rədifli bir qəzəli [21], "Nəvadir üş-şəbab"da ("Gəncliyin nadirlikləri") "Dost" rədifli bir qəzəli [22], "Bədayi ül-vəsət"də ("Orta yaşın gözəllikləri") "Dost" və "Ey dostlar" rədifli iki qəzəli [23] vardır. Məhtimqulu Fəraqinin də "Ey dost" rədifli iki – "Set jan, ey dost" [5, s.150] və "Xəbər, ey dost" [5, s.150-151] qəzəlləri vardır. Məhtimqulunun "Ey dost" rədifli "Xəbər, ey dost" qəzəli məzmunca Nəvainin "Dost" rədifli qəzəlindən fərqlənsə də, forma cəhətdən ona daha yaxındır. Hər iki qəzəldə rədifdən əvvəlki sözlərin də qafiyələnməsi diqqəti cəlb edir.

Məhtimquluda:
Bir səhər düşmüş idi yadıma diyar, ey dost,
Can güvşünə yetişdi binagəh xəbər, ey dost.

Fəraqi, göz yerindən ağalyıb qan rəvan oldu,
Yerinə qaytar onu, gər dəysə, qubar, ey dost [5, s.150-151].

Nəvaidə:
Qıldı düşmən rəhm, bəs kim qıldı cəbr izhar dost,
Ey könül, düşmən tap indi, tutmağıl zinhar dost.

Hər zaman düşmənlərim azurdadır, ey dostlar,
Bəs ki, hər dəm yetirirəm zora azar dost [22, s.92].

Məhtimqulunun ülvi məhəbbətdən, sevgililər arasında sədaqətdən, vəfadan bəhs edən və dost kimi sevgilisinin nəzərdə tutulduğu "Ey dost" rədifli "Sət can, ey dost" adlı ikinci qəzəli məzmunca Nəvainin "Qərayib üs-siğər"dəki "Dost" rədifli qəzəlinə daha yaxındır.

Məhtimquluda:
Gözümə hərgiz sənsiz görünməz cahan, ey dost,
Nə cahan, bəlkə, təndə olsa gər set can, ey dost…

Vəslinə ümid edən üzmüş əlin canından,
Çeşmin – cəlladi-cahan, qaşındır kəman, ey dost [5, s.150].

Nəvaidə:
Vay kim, düşməndək oldu əhdindən biganə dost,
Düşmənim öldürsə, əhd etdim ki, tutmayın yanə dost...

Zülfünə düşsə Nəvai hali-şövqündən nə tong,
Dəmdən yox çarəsi hər quş ki, olar danə dost [21, s.108].

Məhtimqulunun Nəvaidən təsirlənməsi yalnız məhəbbətdən, sevgidən, vəfadan bəhs edən şeirlərində hiss edilmir. O, başqa məzmunlu şeirlərində də Nəvaidən təsirlənərək eynirədifli gözəl əsərlər yaratmışdır. Məsələn, Nəvainin "Tut", "Olmasa" ("Bolmasa"), "Yaxşıraq" ("Yaqşırak") qəzəllərinin təsiri ilə Məhtimqulu da "Yeldim tut", "Olmasa" ("Bolmasa"), "Yaxşıdır" ("Yaqşıdır") adlı şeirlərini yazmışdır. Nəvainin "Xəzayin ul-məani"nin "Nəvadir üş-şəbab"ında "Tut" rədifli iki [22, s.74-75], "Bədayi ül-vəsət"də isə bir qəzəli vardır [23, s.74]. Məhtimqulu Nəvainin bu qəzəllərinin təsiri ilə "Yeldim tut" qoşmasını yazmışdır [5, s.509-510]. Hər üç əsərin əsas qayəsini dünyada hər şeyin müvəqqəti olduğu, insanların öz istəklərinə uyğun yaşaya bilmədikləri, ölüm-itim və s. məsələlər təşkil edir. Bu zaman hər iki şair bir neçə əfsanəvi və tarixi şəxslərin həyatlarını nümunə göstərirlər. Məhtimqulunun öz şeirində Nəvainin qəzəllərində adları çəkilən şəxslərə üz tutması diqqəti cəlb edir.

Nəvaidə:
Bir ovuç su topmayin olsanq kerak çun taşnalab,
Bəhr ila bar fathida özüni Sikandar boldi, tut...

Ne Faridundin acar çun koldi, ne Camşiddin,
Haşamatinq Camşidu Afridunğa hambar boldi, tut [22, s.74].

Nəvaidə:
Təxti-cahin kişvəri-mülki Skəndər oldu, tut,
Xizr ömri həm bu mülk üzrə müyəssər oldu, tut.

Böylə mülkü-ömrdən son cinu, insu, vəhşi təyr
Hökmü-əmrinə Süleymandək müsəxxər oldu, tut.

Munça həşmət tapmağından sonra hər ədna qulun
Cah ilə miknətdə Qarunçə təvangər oldu, tut [23, s.74].

Məhtimquluda:
Suya, yelə hökmi keçən Süleyman,
Bax, onlardan nə nam qaldı, nə nişan,
Təşnə qalıb, yerin olsa çölüstan,
Dərya içrə mən İsgəndər oldum tut.

Yoldaş olsan dilə düşməz mur ilə,
Fərş tapmayan, bilə yatsan mar ilə,
İyrimi altı kərrə, yüz min ər ilə,
Qarun xəzinəsin ələ aldım tut [5, s.510].

Nəticə / *Conclusion*

Məhtimqulunun Nəvaidən təsirlənərək qələmə aldığı əsərlərinin sayı kifayət qədərdir. Bu da təsadüfi deyildir. Məhtimqulu dövrünün ən mütaliəli şairlərindən, Nəvai isə onun ən çox mütaliə etdiyi, öyrəndiyi şairlərdən biri olmuşdur. Məhtimqulunun əsərlərinin – siyasi, vətənpərvərlik, sufi məzmunlu şeirlərinin hərtərəfli təhlili göstərir ki, o, Nəvaidən çox təsirlənmiş və ədəbi yaradıcılığında ondan faydalanmışdır.

Ədəbiyyat / *References*

1. Turkman edebiyyatinin tarixi. I tom. Ashgabat, “Ilim”, 1975.
2. İsa Həbibbəyli, İsmixan Osmanlı. Məhtimqulu Fəraqi və Azərbaycan. Bakı, “Elm və təhsil”, 2019.
3. Opisaniye Buxarskogo xanstva, sostavlennoyo N.Xanokovim, 1843.
4. Türkmen edebiyyatının tarıxı. II tom. 2-ji kitap. XVII asır edebiyatı. Redaktorlar: B.A.Qarrıyev, A. Meredov, M.Övezqeldiev. Aşqabat, “Ilım”, 1976.
5. Magtymguly. Eserler ўygyndysy. II jiltde. I jilt. Çapa taўўarlan: Annagurban Aşyrow; redaktor: R.Godarow. Aşgabat, “Ylym”, 2013.
6. Magtymguly. Saýlanan eserler. N.Aşyrowun we G.Kulyýewin redaksiýasy bilen. Aşgabat: Türkmenistan Döwlet neşirýaty, 1957.
7. Alisher Navoiy. Nasoyim ul-muhabbat, Tola asarlar toplami. On jildlik. Oninci jild. Nashrga tayyorlovchilar: S.Ganiyeva, C.Rafiddinov, Q.Ergashev, E.Ochilov. Toshkent: G.Gulom nomidagi nashriyot-matbaa ijodiy uyi, 2013.
8. Magtymguly. Eserler ўygyndysy. II jilt. Çapa taўўarlan: Annagurban Aşyrow; redaktor: R.Godarow. Aşgabat, “Ylym”, 2013.
9. B.A.Karriyev. Maxtumkuli i Navoi. Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası), 1972, № 4.
10. R.Mustakov. Maxtumkulu i Navoi. Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası), 1984, № 5.
11. Məhtimqulu Fəraqi. Seçilmiş əsərləri. Türkmən türkcəsindən Azərbaycan türkcəsinə çevirən, izahların, lüğətin müəllifi və nəşrə hazırlayanı İsmixan Osmanlı. Bakı, “Elm və təhsil”, 2014.
12. X.Abdillayev. Maxtumkulu i uzbekskaya literatura. Avtoreferat dissertachii, predastavlennoy na soiskaniya uchennoy stepeni kandidata filologicheskix nauk. Na pravax rukopisi. Ashxabad, 19689.

13. A.B.Çarıqulıyeva. Maqtımqulınıň tebiqata sınçılıqı. Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası), 1961, № 1.
14. R.Z.İnogamov. İz istorii uzbeksko-turmenskix literaturnix vzaimosvyazey. Avtoreferat dissertatsii na soiskaniye uchennoy stepeni kandidata filologocheskix nauk. Na pravilax rukopisi. Tashkent, 1968.
15. Kadir Hodjayev. Traditsiyi Alishera Navoi v turkmenskoy literature. Avtoreferat dissertatsii na soiskaniye uchennoy stepeni kandidata filologocheskix nauk. Na pravilax rukopisi. Ashxabad, 1978.
16. Tvorchiskiye svyazi uzbekskoy literature. Tashkent, «Fan», 1983.
17. Alishera Navoi. Hikhmatlar. Tuyplovchi va suzboshi muallifi Solix Mutallibov. Tashkent: G.Gulom nomidagi badiiy adabiyat nashriyati. 1968.
18. Alishera Navoi hikhmatlari. Suzboshi, tabdil, tarjima, izoxlar muallifi муаллифи va nashrga tayerlovchi: Komiljon Raximov. Тошкент: «Fan» nashriyati, 2019.
19. Atalar sözləri. Tərtib edəni və ön sözün müəllifi: Mətanət Yaqubqızı. Bakı: "Nurlan", 2013.
20. Azərbaycan aşıq şeirindən seçmələr. İki cilddə. I cild. Tərtib edənlər: Axundov Ə., Abbaslı İ., İsmayılov H. Bakı, "Şərq-Qərb", 2005.
21. Alisher Navoiy. Xazoyin ul-maniy (Gərayib us-siğər). Tola asaralar toplami. 10 jildlik. I jild. Nashrga tayyarlovchilar: Hamid Sulaymon, Sayfiddin Rafiddinov. Toshkent: G.Gulam nomidagi nashriyyot-matbaa ijodiy uyi, 2013.
22. Alisher Navoiy. Xazoyin ul-maniy (Nəvadir uş-şəbab). Tola asaralar toplami. 10 jildlik. II jild. Nashrga tayyarlovchilar: Hamid Sulaymon, Ibrohim Haqqul. Toshkent: G.Gulam nomidagi nashriyyot-matbaa ijodiy uyi, 2013.
23. Alisher Navoiy. Xazoyin ul-maniy (Bədayi ul-vəsət). Tola asaralar toplami. 10 jildlik. III jild. Nashrga tayyarlovchilar: Hamid Sulaymon, Sayfiddin Rafiddinov. Toshkent: G.Gulam nomidagi nashriyyot-matbaa ijodiy uyi, 2013.

Махтумкули Фраги и Алишер Навои

Исмихан Османлы
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: iosmanli59@yahoo.com

Резюме. Мыслитель-поэт тюркского мира Алишер Навои (1441-1501) - видный деятель, основавший собственную литературную школу при жизни. Сотни учеников этой школы воспользовались литературным наследием этого мастера поэта, создали прекрасные литературные образцы. Классический поэт туркменского народа Магтымгулы Пирагия был вдохновлен работами Навои с юных лет и занимал литературное место среди великих художников своего времени своими литературными произведениями. Сегодня влияние наследия Навои отчетливо ощущается как в лирических, так и в эпических произведениях Магтымулы, отличившегося среди уникальных произведений классических поэтов тюркского мира. Эта статья посвящена изучению влияния наследия Навои на творчество Махтумкули. Автор показал это влияние на примерах, взятых из произведений обоих поэтов.
Ключевые слова: Алишер Навои, Махтумкули Фраги, лирические стихотворение, эпическое творчество, литературные действие

Səməd Vurğun və özbək ədəbiyyatı: "Son illərədək bilmirdik ki, Nəvai özbək şairidir"

Aslan Salmanov
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: aslan_salmansoy@mail.ru
https://orcid.org/0000-0001-6018-5551

Annotasiya. Məqalədə Azərbaycanın Xalq şairi Səməd Vurğunun əsərlərinin müxtəlif dillərə (ingilis, alman, çex, çin, monqol, bolqar, polyak, rumın, ərəb, fars və b.) tərcümə olunmasından və şairin dünya şöhrəti qazanmasında mühüm əhəmiyyət kəsb etməsindən bəhs olunur. Bununla yanaşı, böyük şairin beynəlxalq mövzularda yazdığı əsərləri, eləcə də dünyanın müxtəlif ölkələrinə səfərləri və bu səfərlərə həsr olunmuş bədii əsərlər və memuar ədəbiyyatı şairin beynəlxalq nüfuzunun artmasına köməklik göstərmişdir. Yaradıcılığında dünyada baş verən hadisələrə, ictimai-siyasi mövzulara yer verməsi Səməd Vurğunun misilsiz şöhrət qazanmasının səbəblərindən biri və əsərlərinin geniş vüsət kəsb etməsinə səbəb olmuşdur. Təqdim olunan məqalədə bütövlükdə ədəbi əlaqələr mövzusu, eləcə də S.Vurğunun bu istiqamətdəki fəaliyyəti, sovet dövründə məlum səbəbdən daha çox SSRİ xalqları ədəbiyyatı kontekstində tədqiq, təbliğ və təqdim edilmişdir.
Acar sözlər: S.Vurğun, planetar adam, ədəbi əlaqələr, türk xalqları ədəbiyyatı, özbək ədəbiyyatı, N.Gəncəvi, Ə.Nəvai, Q.Qulam

http://dx.doi.org/10.29228/edu.144
Məqaləyə istinad: Salmanov A. (2020) *Səməd Vurğun və özbək ədəbiyyatı: "son illərədək bilmirdik ki, Nəvai özbək şairidir".* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 175-183
Məqalə tarixçəsi: göndərilib – 02.04.2020; qəbul edilib – 15.04.2020

Samad Vurghun and uzbek literature: "until recent years, we did not know that Navai was an uzbek poet"

Aslan Salmanov
Doctor of Philological Sciences, Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: aslan_salmansoy@mail.ru
https://orcid.org/0000-0001-6018-5551

Abstract. The article deals with the translation of works by People's poet of Azerbaijan Samad Vurghun into various languages (English, German, Czech, Chinese, Mongol, Bulgarian, Polish, Romanian, Arabic, Persian and etc.) and the importance of these poet's translations in the world fame. In addition, great poet's works on the international themes, as well as his visits to different countries and artistic works about these visits and memorial literature have caused increasing his international reputation. He had included themes on political and social events around the world in his work and this factor caused him and his works to become famous. The presented article studies

and analyzes literary relations, as well as S.Vurgun's activity in this direction in the context of literature of the Soviet people.
Keywords: S.Vurghun, planetary man, literary relations, literature of Turkic people, Uzbek literature, N.Ganjavi, A.Navai, Q.Qulam.

http://dx.doi.org/10.29228/edu.144
To cite this article: Salmanov A. (2020) *Samad Vurghun and uzbek literature: "until recent years, we did not know that Navai was an uzbek poet"*. «Comparative Literature Studies», Issue I, pp. 175-183
Article history: received – 02.04.2020; accepted – 15.04.2020

Giriş / *Introduction*

Səməd Vurğun Azərbaycan xalqının dünya ədəbiyyatına bəxş etdiyi ən məşhur şair və planetar şəxsiyyətdir. Yaradıcılığa başlayandan "Aşiqəm insana və təbiətə" deyən S.Vurğunun poetik manifestində "dünya" və "Azərbaycan" qoşa qərar tutur: şair bir tərəfdən özünü "dünyanı düşünən milyonların şairi" elan edir, digər tərəfdən isə "uşaq kimi bağlı olduğu anası" – doğma Vətəni Azərbaycanı tərənnümdən doymur. Bu səbəbdən də şair elə ilk şeirləri mətbuatda çap ediləndən başlayaraq (1925) doğma yurdunda heç bir sənətkara nəsib olmayan tükənməz sevgi qazanmış, əsərləri müxtəlif dillərə (o vaxtkı İttifaqa daxil olan xalqlarla yanaşı, ingilis, alman, çex, çin, monqol, bolqar, polyak, rumın, ərəb, fars və b.) tərcümə olunmuş, 1930-cu illərin əvvəllərində, artıq Rusuiyanın müxtəlif şəhərlərində, Gürcüstanda, Dağıstanda, Ukraynada, Belarusiyada, Orta Asiyada, daha sonra isə, demək olar ki, bütün respublikalarda, eləcə də İranda, ərəb ölkələrində, Bolqarıstanda, İngiltərədə, Almaniyada, Polşada, Amerikada, Hindistanda, Pakistanda və s. ölkələrdə tanınmışdır.

Şübhəsiz, əsərlərinin müxtəlif dillərə tərcüməsi, şairin dünya şöhrəti qazanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Bununla yanaşı, böyük şairin beynəlxalq mövzularda yazdığı əsərləri və Moskvadakı xüsusi əhəmiyyətli tədbirlərdə çıxışları (məsələn, 1954-cü ildə SSRİ Yazıçılarının II qurultayında poeziya haqqındakı məruzəsi), eləcə də dünyanın müxtəlif ölkələrinə (Polşa, İngiltərə, Almaniya, Bolqarıstan və s.) səfərləri və bu səfərlərə həsr olunmuş bədii əsərlər (K.Simonovun "Dostum Səməd Vurğunun Londondakı ziyafətdə nitqi" poeması kimi) və memuar ədəbiyyatı şairin beynəlxalq nüfuzunun artmasına köməklik göstərmişdir.

Əsas hissə / *Main part*

S.Vurğunun misilsiz şöhrət qazanmasının səbəblərindən biri də yaradıcılığında dünyada baş verən hadisələrə, ictimai-siyasi mövzulara yer verməsi ("Ölüm kürsüsü", "Zəncinin arzuları", "Avropa xatirələri" silsiləsindən olan əsərləri və s.), başqa sözlə, əsərlərinin geniş vüsət kəsb etməsi ilə bağlı olmuşdur. Akademik M.Arifin də yazdığı kimi, "S.Vurğun– yaradıcılığına bəşəri duyğuların tərənnümü xas olan dünyamiqyaslı əsl sənətkar səviyyəsinə yüksəlmişdir. Parlaq milli şair kimi qalmaqda davam edən sonrakı Vurğun hər kəsin adından və hər kəs üçün danışa bilərdi. Bizə elə gəlir ki, onun bu illərdə (1940-cı illərin sonları 1950-ci illərin əvvəlləri nəzərdə tutulur–A.S.) İngiltərə, Almaniya və Amerika haqqında şeirlər yazması təsadüfi deyildi... Məsələnin mahiyyəti ondadır ki, S.Vurğun bədii fikrin və bəşəriliyin o miqyaslılığını əxz etmişdi ki, Qoqolun sözləri ilə desək, "çox-çox uzaqlardan – dünyanın hər yerindən görünürdü" [1, s.46].

Əlavə edək ki, şairin beynəlxalq mövzuda yazdığı əsərlərin bir qismi, hətta, bir çox ölkələrin xalqlarının dərs proqramlarına daxil edilmiş və məktəblərdə tədris olunmuşdur.

S.Vurğunun ünvanına müxtəlif illərdə, xüsusilə də 50 illik yubileyi və dünyasını dəyişməsi ilə əlaqədar Polşanın, Bolqarıstanın, Almaniyanın, İngiltərənin, Hindistanın, Pakistanın, Çinin, Monqolustanın, Koreyanın, Vyetnamın, İranın müxtəlif şəhərlərindən, ərəb ölkələrindən göndərilmiş məktubların, teleqramların əsilləri S.Vurğunun ev-muzeyində indi də qorunmaqdadır və bunlar da şairin dünya şöhrətinə şahidlik edir.

Sənədli mənbələrlə yanaşı, "canlı arxivlər" – şahidlər də S.Vurğunun adının hələ sağlığında zəmanəsinin böyük şairlərinin adı ilə yanaşı çəkildiyini, şöhrətinin, yalnız Sovet İttifaqında deyil, xarici ölkələrdə də yayıldığını, Avropa və Asiyanın görkəmli yazıçılarının bu böyük şəxsiyyəti, istedadlı şairi tanıdıqlarını, ədəbi fəaliyyətini maraqla izlədiklərini təsdiq edirlər. Xalq yazıçısı M.İbrahimov S.Vurğunun, hələ 1930-cu illərdə Moskva və Leninqrad kimi şəhərlərdə böyük şöhrət qazandığını, 1940-cı illərin əvvəllərində İrana səfər etdiyi zaman orada da "tanındığını, hörmət və məhəbbətlə yad edildiyini" xatırladır [2, s.103]. 1947-ci ildəki Hindistan səfərini qürurla xatırlayan görkəmli yazıçı dünya xalqlarının Azərbaycanı üç şeylə tanıdığına diqqət yönəldir: "Nizami, 1945-1946-cı illərdə İran Azərbaycanındakı demokratik hərəkat və Səməd Vurğun!" [2, s.104].

Şairin qələm dostları – N.Tixonov və A.Alimcanov isə (qazax şairi) S.Vurğunun Pakistanda, İranda, Asiyada, eləcə də ərəb ölkələrində "tanındığına və sevildiyinə" şahidlik edirlər. Xarici ölkə vətəndaşlarının Azərbaycanı S.Vurğuna görə tanımaları digər mənbələrdə də təsdiqlənir. Bir çoxları S.Vurğun deyəndə Azərbaycan, Azərbaycan deyəndə S.Vurğunu düşünmüşlər. "Bir dəfə "Azərbaycan" demək Azərbaycan, iki dəfə "Azərbaycan" demək isə Səməd Vurğundur" (V.Bayatlı) – kimi başa düşülmüşdür.

O vaxtkı İttifaqa daxil olan ölkələrin, eləcə də xarici dövlətlərin şairlərinin S.Vurğuna həsr etdiyi yüzlərlə şeir, haqqında yazdıqları məqalələr və memuar ədəbiyyatı da şairin dünyanın bir çox yerində – Uzaq, Yaxın və Orta Şərqdə, Qərbi və Şərqi Avropa ölkələrində yaxından tanındığı və sevildiyindən xəbər verir.

Bütün bu deyilənlər S.Vurğundan milli şair olmaqla yanaşı, bir planetar ədəbi şəxsiyyət kimi söz açmağa da imkan vermişdir. Bu təşbihdə nə yersiz təəssübkeşlik, nə də mübaliğə var – bu gerçəyi dünyanın bir çox nüfuzlu ziyalıları, alimləri (L.Araqon (fransız), V.Mey (ingilis), V.Brands (alman), İ.Emin (yuqoslav), A.Zayonçkovski (polyak), M.Zayonçkovski-Zaremba (polyak), X.Botev (bolqar), L.Balek (çex), D.Urianxay (monqol) və b.) monoqrafik tədqiqatları, məqalələri, bədii əsərləri və şair haqqındakı müdrik kəlamları ilə təsdiqləmiş, onu "Müasir dünya ədəbiyyatının iftixarı" (L.Araqon) hesab etmişlər.

Xatırladaq ki, hələ 65 il əvvəl ünlü türk şairi Nazim Hikmət də S.Vurğunu "poeziyamızın planeti" (dünyanın hər yerindən görünən Səyyarə) adlandırmış, bu planetin "Günəşinin, ulduzlarının heç zaman sönməyəcəyini" bəyan etmişdi.

S.Vurğun irsi, xüsusilə də onun yaradıcılığındakı milli kimlik və azərbaycançılıq ideologiyası ilə bağlı orijinal fikirlər söyləmiş böyük alim Yaşar Qarayev isə şairin planetarlığının parametrlərini obrazlı şəkildə şərh edib: "Şair (S.Vurğun – A.S.) kosmosun fəthi dövrünü görsəydi, ayrı heç nəyi yox, məhz kosmik peyki planetə müraciət etmək üçün ən münasib tribuna adlandırardı və həmişə olduğu kimi, Vurğun monoloqu belə bir tribunaya yenə də yaraşardı!

Şübhəsiz, Vurğun üçün ən böyük tribuna, kosmik orbitdən də uca xitabət kürsüsü isə poeziya idi. Məhz bu tribunadan şair bütün planeti görür və bütün planetdən görünürdü. Lakin daha mənalı olan odur ki, dünya və planet auditoriyasına da o, həmişə "Azərbaycan" monoloqu ilə müraciət edirdi. Vətəndaş və vətənpərvər şair üçün ana Vətənin adından uca poetik xitab yox idi. Bir sözlə, bütün dünya bu poeziyada öz əksini tapırdı. Lakin dünyanın da mərkəzi bu poeziyada – Azərbaycan idi" [3, s.413-414].

Bu bir neçə cümləlik mətndə filosof-tənqidçi ustad şairin şəxsiyyəti və yaradıcılığında yer alan həm milli, həm də bəşəri duyğulara kifayət qədər aydınlıq gətirmişdir. Yalnız bir məqamı bir qədər də qabartmağı lazım bilirik: bəzi əsərlərində, məsələn, 1927-ci ildə adsız qələmə aldığı bir şeirində (Bir qəlb ki...) olduğu kimi, S.Vurğunun "Qafqazda çırpınan qəlbinin, Altaya qoşması" oxucunu, xə-

yali də olsa, qədim türk yurduna – Altaylara səyahətə təşfiq edirdi. Bu kimi retrospektiv xatırlatmalar isə "bütün dünyanın əks olunduğu Vurğun poeziyasında" və ümumiyyətlə yaradıcılığında məxsusi yeri olan məkanlardan birinin də türkün coğrafiyası olduğundan xəbər verir.

Şairin, xüsusilə yaradıcılığının birinci mərhələsində – 1920-ci illərin ikinci yarısı və 1930-cu illərin əvvəllərində türkiyəli şairlərin yaradıcılığına müraciət etməsi, onların təsiri ilə əsərlər yazması və hətta, onlardan bəzilərinə şeir həsr etməsi (məsələn, T.Fikrətə), yaxud, onun "yolunu təqib etməsi"ni (O zaman Fikrəti təqib edərək...) dilə gətirməsi, gənclik illərində Türkiyənin romantik şairlərinin (Ə.Hamidin) təsiri altında olduğuna etdiyi işarələr də, eyni məqsədə – ümumtürk yaddaşının "ehyası"na – dirçəldilməsinə istiqamətlənmişdi. Lakin, milli-mənəvi yaddaşa bu və buna bənzər işarələr, təbii ki, o illərin "çekist ruhlu" tənqidçilərinin diqqətindən yayınmır, türkçülükdə ittiham edilən şairin başının üzərini elə həmin illərdən qara buludlar almağa başlayırdı ("Üzərimdə qara-qara; İlan başlı bulutlar var")...

S.Vurğunun türkiyəli şairlərdən təsirlənməsi, təbii ki, gənc şairin yaradıcılıq yolunun (ədəbi cərəyan mənsubluğunun) müəyyənləşməsinə də təsir etmişdir. Lakin, sovet ədəbiyyatşünaslığında bu ədəbi fakta, məlum səbəbdən ifrat ideoloji mövqedən yanaşılmış, onun türkiyəli şairlərdən (T.Fikrət, Ə.Hamid, R.Tofiq, N.Kamal, N.Hikmət və b.) təsirlənməsi 1930-cu illərin mətbuatında "zərərli bir meyil" – "burjua şairlərindən təsirlənmə" kimi qiymətləndirilmişdir–S.Vurğun bu fakta görə, qeyd etdiyimiz kimi, qınanmış və ittiham edilmişdir.

Türkiyəli şairlərin əsərlərinə marağı və sevgisi, vurğuladığımız kimi, şairin dünyagörüşünə, həyatı dərkinə, eləcə də yaradıcılığına təsir etmişdir. O, Tofiq Fikrətin "Göydən yerə" şeirinin təsiri ilə eyniadlı (sonrakı çaplarda "Ondan da gözəldir"), Rza Tofiqin təsiri ilə "Dilcan dərəsi", N.Kamalın təsiri ilə "Çənə söhbəti", Nazim Hikmətin təsiri ilə "Hərəkət" şeirini yazmış, əsərlərindən birində (avtobioqrafik əsər olan "Şairin həyatı" pyesində Polad – gənc Vurğun səhnəyə qoltuğunda Ə.Hamidin "Məqbər" əsəri daxil olur) gənclik illərində Ə.Hamidin təsiri altında olduğuna işarə etmişdir. 1930-cu illərdən türkçülüyə qarşı ciddi mübarizə başladıldığından və S.Vurğunun özü də millətçilikdə ittiham edildiyindən, təbii ki, onun da digər qələm yoldaşları kimi, türkə və türkçülüyə olan rəğbəti və bu istiqamətdəki fəaliyyəti təhlikə ilə üzləşmişdir. Şairin əsərlərində işlətdiyi "türk" sözləri (hətta, ilk çaplarında da "türk" getmiş) sonrakı nəşrlərdə başqa söz və ifadələrlə əvəzlənmişdir("Çevirdim ilk dəfə türkün dilinə" misrasının, əvvəlcə "Mən çevirdim Azərbaycan dilinə", daha sonra isə: "Çevirdim Vaqifin şirin dilinə" şəklinə salınması kimi; mövzu ilə bağlı ayrıca məqalə dərc etdirdiyimizdən [4, s.173-180] deyilənlərlə burada kifayətlənirik.

Lakin, şairin türk sevgisi soydan-gendən gələn bir hiss, duyğu olduğundan, təbii ki, unudula bilməzdi və unudulmadı da. Azərbaycançılıq ideologiyasına yansıtdığı türkçülüyü, türkə rəğbəti şair, o vaxtkı İttifaqın tərkibinə daxil olan müsəlman-türk xalqlarına, o sıradan Türküstan türklərinə həm bədii yaradıcılığında, həm elmi-ictimai fəaliyyətində, həm də şəxsi münasibətdə davam etdirdi. Məsələn, şair 1937-ci ildə "Şeirimizin ağsaqqalı" adı ilə görkəmli qazax aşığı C.Cabayevə həsr etdiyi şeirdə onun fərdi keyfiyyətlərini qabardaraq, ustad sənətkar kimi təqdim etməklə yanaşı, ortaq milli alətlərimizi (tar, saz, tənbur və s.) və ortaq mənəvi dəyərləri xatırladır. S.Vurğun başqa şeirlərində də Cambulun adını çəkmiş, ortaq dəyərlərə işarələr etmişdir. Yaxud, tatar şairi Musa Cəlilə həsr etdiyi şeirdə ("Mənim şair dostum, şair qardaşım") o, vətənpərvər şairə yad millətin nümayəndəsi yox, azərbaycanlı balası – qardaş kimi yanaşmış, onun göstərdiyi qəhrəmanlıqla azərbaycanlıların da başını ucaltdığını bildirmişdir.

Eyni ruh S.Vurğuna həsr edilmiş şeirlərə də hakimdir. Təxmini hesablamalara görə, S.Vurğuna mindən artıq bədii əsər (şeir, poema, dram, hekayə, povest, roman və s.) həsr edilmişdir ki, bunların bir qismini də türk-müsəlman şair və yazıçılarının qələmə aldıqları təşkil edir. Q.Qulamın, Zülfiyyənin, Şöhrətin, Q.Quliyevin, M.Auezovun, B.Kerbabayevin, A.Tokombayevin, Ə.Minskinin, M.Tursunzadənin, İ.Nuriyevin, R.Rıskulovun və b. sənətkarların S.Vurğuna həsr etdikləri əsərlərdə ustad şairə və Azərbaycana eyni müstəvidə və eyni məhəbbətlə yanaşıldığından, ortaq milli dəyərlər xatırladıldığından bu fakt bir tərəfdən qardaş xalqları daha da doğmalaşdırır, digər tərəfdən Azərbaycanın

da daha geniş arealda təbliği və tanınmasına səbəb olurdu.

Yeri gəlmişkən onu da xatırladaq ki, bütövlükdə ədəbi əlaqələr mövzusu, eləcə də S.Vurğunun bu istiqamətdəki fəaliyyəti, sovet dövründə məlum səbəbdən daha çox SSRİ xalqları ədəbiyyatı kontekstində tədqiq, təbliğ və təqdim edilmişdir. Xalqlar dostluğu ideyası o dövrün dövlət idarəçilik sisteminin prioritetlərindən biri olduğundan ədəbi əlaqələr də, bir qayda olaraq o vaxtkı İttifaqa daxil olan xalqların, xüsusilə də xristian xalqları, ilk növbədə rus-slavyan xalqları ilə dostluğu ehtiva edir, rus dəyərləri ümumilikdə sovet xalqlarının milli dəyərləri kimi təbliğ olunurdu. Müsəlman-türk xalqları arasındakı milli-mənəvi dəyərlərə isə "çeşidli" üsul və mexanizmlərlə (açıq və örtülü) məhdudiyyətlər qoyulurdu. Lakin, bu sərhədləri aşanlar da vardı və o böyük şəxsiyyətlər müsəlman-türk xalqları arasından çıxan ziyalılar, ədəbi avtoritetlər idi. Onlardan biri də sovet poeziyasının "ağsaçlı qartalı" S.Vurğun olmuşdur. Doğrudur, onun dostları arasında sovet xalqlarının, demək olar ki, bütün nümayəndələri (rus – A.Fadeyev, N.Tixonov, K.Simonov, M.Şoloxov; ukraynalı –P.Tıçina, M.Tank, Korneyçuk; gürcü – G.Leonidze, K. Kaladze və b.) var idi və məramları "Nə yaxşı ki, dünyada Səməd Vurğun var!" – olan bu görkəmli sənətkarlar da şairə ehtiramla yanaşmış, onunla dost olmağı özlərinə fəxarət saymışlar. Ona, təkcə, azərbaycanlılar yox, o vaxtkı İttifaqa daxil olan bütün xalqlar sonsuz sevgi və ehtiramla yanaşmışdır. Lakin, şairin müsəlman-türk xalqlarının nümayəndələri ilə dostluğunda (Q.Qulam, H.Alimcan, Şöhrət, M. Tursunzadə, Kerbabayev, Ə.Minski, R.Həmzətov və b.) və onların şairə münasibətlərində həm də soykökdən, qədim ənənələrdən, milli-mənəvi dəyərlərdən gələn bir məhrəmlik, doğmalıq da müşahidə olunurdu. Bu doğmalığı, artıq 1930-cu illərin əvvəllərindən o vaxtkı İttifaqın nüfuzlu şəxsiyyətlərindən birinə çevrilmiş S.Vurğun, müsəlman-türk ziyalılarının özlərinin də etiraf etdikləri kimi, onların doğma torpaqlarında olub (Daşkənddə, Kazanda və b. şəhərlərdə), ədəbiyyatları, mədəniyyətləri, tarixi şəxsiyyətləri haqqında milli təəssübkeşliyi gizlətmədən odlu-alovlu çıxışlar etmiş, ehtiyac olduqda soydaşlarından köməkliyini əsirgəməmiş, bəzilərini müəyyən "çətinliklərdən" də qurtarmışdır [5, s.63].

Əslində S.Vurğun bu təəssübkeşliyi ilə milli-mənəvi dəyərlərin aşağılandığı, "allahsızlar cəmiyyəti"nin hökm sürdüyü və "türk" sözünün belə yasaq edildiyi, bu ad altında Osmanlı türklərinin tanıdıldığı və ünvanına nifrət aşılandığı azman sovet imperiyası daxilində, belə demək mümkünsə, bir "müsəlman-türk birliyi" yaratmışdı. Həmin "qeyri-rəsmi qurum", o qədər də güclü olmayan bu mənəvi birliyin qorunması və genişlənməsinə müxtəlif vasitələrlə köməklik göstərirdi. Bununla da şair ideoloji çərçivələri yarıb, müsəlman-türk xalqları arasında milli-mənəvi dəyərlərin qoruyucusu missiyasını yerinə yetirirdi (S.Vurğunun daşıdığı bu missiyanı1980-ci illərdə və 1990-cı illərin əvvəllərində (xüsusilə də 20 Yanvar faciəsi zamanı) O.Suleymenov və müəyyən qədər də Ç.Aytmatov davam etdirmişdir).

Azərbaycan–Türküstan əlaqələrinin formalaşması və inkişafında ən etibarlı və çevik vasitələrdən biri də, qeyd etdiyimiz kimi, ədəbiyyat, bir qədər də dəqiq desək, ədəbi əlaqələr idi. Müsəlman-türk xalqları arasındakı ortaq tarixi-mədəni gələnəklər, ədəbi-nəzəri eyniliklər, yaxud, bənzərliklər– doğmalıq bu istiqamətdəki əlaqələrin dinamikliyi və əhatəliliyini, təbii ki, daha da artırırdı. Bu prosesə ədəbi və ictimai nüfuzu yüksək olan şəxsiyyətlərin daha böyük uğurlar qazandırdığı da danılmazdır–`Azərbaycan–Türküstan ədəbi əlaqələrinə S.Vurğun nüfuzunun qazandırdığı uğur kimi.

S.Vurğunun özbək ədəbiyyatı ilə əlaqələri, bizə məlum olduğuna görə, Nizami və Nəvai Yubiley Komitələrinin 1940-cı ilin 3 dekabrında Moskvada keçirilən yığıncağındakı çıxışı ilə başlayır. Şair burada hər iki sənətkarın yubileylərinə hazırlıqla bağlı çox ciddi problemlərə toxunur (yeri gəlmişkən: Nizami Yubiley Komitəsinin sədri görkəmli şair Səməd Vurğun, Nəvai Yubiley Komitəsinin sədri isə müasir özbək ədəbiyyatının yaradıcılarından olan Həmid Əlimcan seçilmişdi).

Şair çıxışında "moskvalı yoldaşlar"ın – rus ədəbiyyatşünaslarının, rusdilli mətbuatın Nizami və Nəvai irsinin təbliğində göstərdikləri laqeydliyi kəskin tənqid etməklə yanaşı, milli ziyalıların özlərini də günahlandırır. Bildirir ki, "...biz hələ geniş kütlələrin diqqətini nə Nizamiyə, nə də Nəvaiyə cəlb edə bilməmişik, onların yaradıcılığını bütün əzəməti ilə təbliğ edə bilməmişik" [6, s.39].

Başqa sözlə şair bu məsələdə həm azərbaycanlıları, həm də özbəkləri təqsirləndirir və əlavə edir ki, "Biz rus yoldaşlarımızdan tələb edirik ki, onlar bizim ədəbiyyatın tarixi ilə məşğul olsunlar, bu haqda yazsınlar və sairə... Bu, yaxşıdır. Lakin bu heç də o demək deyildir ki, biz özümüz–yerli yazıçılar, ədəbiyyatşünaslar, tarixçilər hamıdan çox və yaxşı tanıdığımız öz şairlərimiz haqqında rus mərkəzi mətbuatına yazmamalıyıq" [6, s.40].

Şair çıxış yolunu "yerli yoldaşlar"ın (özbəkləri və azərbaycanlıları nəzərdə tutur–A.S.) məqalələr yazıb, onları Moskvaya mərkəzi qəzet və jurnallara göndərməsində görür. Problemə ciddi yanaşan S.Vurğun, eyni zamanda, hazırlıq prosesini "bu işi sevən moskvalı yoldaşların qüvvələrinə arxalanmaqla" təşkil etməyi də lazım bilir [6, s.40].

S.Vurğun çıxışında Nəvainin yubileyinə hazırlıqla əlaqədar bir neçə ay əvvəl Daşkənddə keçirilən plenumdakı (1940) iştirakını da xatırladır* [7, s.711].

Daşkənd plenumunda "Nəvainin dövrünü və yaradıcılığını çox gözəl bilən və fəlsəfi mövqedən təhlil edən, yüksək mədəniyyətli gənc qüvvələrin məruzələri"ni qədərincə dəyərləndirən S.Vurğun, eyni zamanda Moskvada və Leninqradda Nəvai yaradıcılığını yaxşı bilən alimləri də üzə çıxarıb, onları "xalqın məişəti və tarixi, Nəvainin yaradıcılığı ilə yerindəcə tanış olmaq məqsədilə Özbəkistana, Daşkəndə səfərlərini təşkil etməyi" zəruri sayır [6, s.40].

Şair çıxışında həm özünün, həm də bütövlükdə xalqımızın Nəvai yaradıcılığı və şəxsiyyətinə tükənməz sevgisi və ehtiramını dilə gətirir və bildirir ki, "Mən və mənim yoldaşlarım son illərədək bilmirdik ki, Nəvai özbək şairidir, hər yerdə onun adı bir Azərbaycan şairi kimi çəkilirdi" [6, s.40].

S.Vurğun Ə. Nəvainin ən böyük xidmətlərindən birini bütövlükdə Şərq xalqlarının ədəbiyyatını fars dilindən təmizləməsində görür. O,"əzəmətli şəxsiyyət" adlandırdığı Ə.Nəvainin, yalnız böyük ədəbiyyat deyil, böyük dil yaratdığını da diqqətə çatdırır, əlavə edir ki, "Nəvai bir alim kimi, dilşünas kimi, tarixçi kimi çıxış edir. O, son dərəcə çoxcəhətli istedaddır" [6, s.40].

Ə.Nəvainin yubileyinin keçirilməsinə həsr edilmiş Daşkənd plenumuna bir daha qayıdan S.Vurğun çıxışının davamında deyir: "Mən Nəvaini dərya ilə müqayisə etdim və dedim ki, bizim bəzi alimlərimiz onun sahillərinə taxta qayıqlarda üzmək istəyirlər. Mənim zənnimcə, bu dəryaya müasir elm və mədəniyyət əsasında tikilmiş böyük bir gəmi salmaq lazımdır" [6, s.40-41].

S.Vurğun bütün çıxışı boyu Ə.Nəvainin adını ustadı N.Gəncəvi ilə yanaşı çəkir, "Nizaminin böyük şəxsiyyəti ilə çiyin-çiyinə böyük Nəvainin dayandığını" vurğulayır və dediklərinə bunları da əlavə edir: "Bəzi yoldaşlar deyirlər ki, biz Nizami ilə çox məşğul oluruq, Nəvai isə kölgədə qalır. Mən onların bu fikri ilə şərik deyiləm. Böyük insan heç bir zaman kölgədə qalmaz. Biz çalışırıq ki, onların hər birini xalqımıza bütün böyüklüyü ilə göstərək" [6, s.41].

Daha sonra S.Vurğun Azərbaycanda Nəvainin yubileyi ilə bağlı görülmüş və görüləcək işlərə aydınlıq gətirir. Ə.Nəvainin əsərlərinin xalqımıza çoxdan məlum olduğunu xatırladan S.Vurğun Azərbaycan yazıçılarının ən yaxşı qüvvələrinin bu böyük sənətkarın əsərlərinin tərcüməsi ilə məşğul olduğunu, "Fərhad və Şirin" poemasının bütünlüklə tərcümə edildiyini, jurnal və qəzetlərdə şairin yaradıcılığı ilə bağlı müntəzəm məqalələr çap edildiyini məmnunluqla yığıncaq iştirakçılarına çatdırır. Eyni zamanda Ə.Nəvainin lirik şeirlərinin nəşrə hazırlanacağını, "Leyli və Məcnun" poemasının tərcümə ediləcəyini, barəsində yaxşı bir kitab hazırlanacağını bildirir.

S.Vurğun N.Gəncəvinin yubileyinin 1941-ci ilin noyabrında Azərbaycanda qeyd ediləcəyinə, "sonra Bakıdan Xəzər dənizi və Orta Asiya dəmir yolu ilə Daşkəndə gedib, orada Nəvainin yubileyinin qeyd ediləcəyinə" [6, s.41] ümid edir. Lakin 1941-ci ilin iyununda başlanan Böyük Vətən müharibəsi bu arzunun reallaşmasına imkan vermir – hər iki böyük şairin yubileyi 1947-ci ildə qeyd edilir.

S.Vurğun çoxmillətli sovet poeziyasının 20 il ərzində keçdiyi inkişaf yolunun mərhələlərini elmi-nəzəri baxımdan əhatəli təhlil etdiyi Sovet yazıçılarının II qurultayındakı sanballı məruzəsində də

---

* *Qeyd edək ki, həmin tədbirdə S.Vurğunla birlikdə o illərin gənc alimi Həmid Araslı da iştirak etmiş və "Ustad" adlı xatirəsində bu barədə məlumat vermişdir.Müsəlman-türk xalqlarının ünlü simalarının da qatıldığı o tədbirdən S.Vurğunun, M. Şeyxzadənin, M.Tursunzadənin, H.Araslının, S.Ayninin və Q.Qulamın əks olunduğu bir foto-şəkil də yadigar qalmışdır. Bu nadir şəklin tarixçəsi və plenum haqqında H.Araslı xatirəsində söz açmışdır.*

("Sovet poeziyası haqqında") adını yenə Nizami ilə qoşa çəkərək, Nəvaini xatırlatmış, onların yaradıcılığında "öz zəmanəsinə görə yeni realist başlanğıc olduğunu görməyən vulqar ədəbiyyatçıların kökündən yanıldıqlarını" diqqətə çatdırmış, saray şairlərindən fərqli olaraq, məhz onların "əsl xəlqi və həqiqi poeziya yaratdıqlarını" vurğulamış və dediklərinə bunu da əlavə emişdir: "Əgər bizim uzaq keçmişdə yaşamış sələflərimizin yaratdıqları əsərlər tarixin, əsrlərin sınağından çıxa bilmişsə, bunu, hər şeydən əvvəl və başlıca olaraq onunla izah etmək lazımdır ki, onların əsərlərində böyük həyat həqiqəti dahiyanə tərənnüm edilmişdir" [6, s.338].

Şair adı çəkilən məruzəsində digər respublikaların sənətkarları ilə yanaşı, özbək poeziyası haqqında da (Q.Qulamın, Zülfiyyənin, M.Şeyxzadənin bəzi əsərlərinin timsalında) maraqlı fikirlər söyləmişdir [6, s.314; 316].

Məlumdur ki, S.Vurğun öz poetik məktəbini yaratmış Nizami, Füzuli, Sabir, R.Rza kimi çox istedadlı şairlərdəndir. Bu məktəbdən ilham alanlar, onun yaradıcılıq yolunu davam etdirənlər kifayət qədər – yeni dövr ədəbiyyatımızın aparıcı qolu və qüvvəsini təşkil edən ən istedadlı şairlərin sayı qədərdir (B.Vahabzadə, M.Araz, Ə.Kərim, X.Rza, H.Arif, H.Kürdoğlu, Ə.Kürçaylı, N.Xəzri, N.Həsənzadə və b.). Onlar özləri də Vurğun poetik məktəbinə mənsubluqlarından qürur duyduqlarını dəfələrlə dilə gətirmişlər, qələmə aldıqları əsərlərə ustadlarının meyarı ilə yanaşmış, onun kimi yazmağa, ona bənzəməyə çalışmışlar. S.Vurğun ədəbi məktəbinin ən istedadlı nümayəndələrindən biri olmuş M.Arazın, hətta belə bir fikir söylədiyi də məlumdur ki, "Bizlər ədəbiyyata Vurğun olmaq üçün gəldik, amma, heç birimiz Vurğun ola bilmədik".

Özbəkşünas alim Almaz Ülvi analoji prosesi dünya, o sıradan Orta Asiya (eləcə də özbək) şairləri arasında da müşahidə edir: "Sanki, özbək şairləri də Səməd Vurğun kimi yazmaq-yaratmaq bəhsində imişlər. Təkcə özbəklər yox, bütün Orta Asiya türkləri... Həm də, təkcə Orta Asiya yox, keçmiş SSRİ-nin bütün respublikaları, Avropa-Asiya ölkələri Səməd istedadına, vurğunluğuna, şeriyyətinə heyran qalmışdılar. Hamı onun kimi təbiətə, şeirə vurğun olmaq istəyirdi. Hamı "Azərbaycan" kimi yazmaq istəyirdi və hamı az qala bütün dünya "Azərbaycan"ı öz dilinə tərcümə etdi" [8, s.125].

Azərbaycan xalqının vizit vərəqinə çevrilmiş bu şeir, doğrudan da, dünyanın bir çox xalqlarının, o sıradan, müsəlman-türk xalqlarının dillərinə bir neçə dəfə (özbək dilinə – 5, qazax dilinə – 3 dəfə və s.) tərcümə edilmişdi. Özbək dilində şairin bəzi kitabları da ("Seçilmiş əsərləri" ,"Komsomol poeması" və b.) işıq üzü görmüşdür.

Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafında lap qədim dövrlərdən eyni kökdən qaynaqlanan dəyərlərlə yanaşı, bu iki xalqın ziyalıları arasındakı qırılmaz tellər, dostluq ənənələri də əhəmiyyətli rol oynamışdır. Və bu ənənə sonrakı əsrlərdə də dövrün görkəmli sənətkarları tərəfindən yeni kontekstdə davam etdirilmişdir. S.Vurğun – Q.Qulam dostluğu bu ənənənin ən parlaq nümunəsidir. Bu fakt Azərbaycan–özbək ədəbi əlaqələrinin S.Vurğun mərhələsinin də əsas istiqamətlərindən birini təşkil edir. Doğrudan da, "Özbək ədəbiyyatı haqqında düşünəndə dahi Nəvai gözlərimizin önünə gəlirsə, könlümüzü açırsa, "Səməd Vurğun və özbək ədəbiyyatı deyəndə ilk olaraq Qafur Qulamı xatırlamalı oluruq. Bu çox doğma və təbii haldır" [8, s.128].

"Səməd başdan-başa istedad idi. O, yalnız şeir üçün doğulmuşdu"–deyən və "dahi Səməd Vurğunu yetirdiyinə görə qədim Odlar yurdunu–Azərbaycanı "xoşbəxt ölkə" adlandıran Q.Qulamın S.Vurğuna olan sevgisi bütövlükdə özbək ədəbiyyatına yansımış, ustad şairə ehtiram Azərbaycana sevgi ilə eyni status qazanmış (Q.Qulamın Azərbaycan mövzusunda qələmə aldığı "Biri-birinə şagird, biri-birinə ustad", "Qırx yaşlı Azərbaycan", "Səməd Vurğuna", "Xəzər" və b. şeirlərində də) və bu fakt bir çox özbək şairinin bədii əsərləri və xatirələrində də geniş əks olunmuşdur.

"Biri-birinə şagird, biri-birinə ustad" adlı şeirində Azərbaycan və özbək mədəniyyətinin, ədəbiyyatının eyni mənbədən qaynaqlandığını, M.Füzuli və Ə.Nəvai, Müqimi və S.Ə.Şirvani kimi sənətkarları "biri-birinə həm şagird, həm də ustad" hesab edən şair Bakı və Daşkəndi (özbək və Azərbaycan türklərini) "eyni ana döşündən süd əmən əkizlər", başqa sözlə, "doğma qardaşlar" timsalında təqdim edir.

Özbək şairlərinin Azərbaycan sevgisi, bizim sənətkarlara, o sıradan S.Vurğuna ehtiramı və rəğbəti C.Cabarlının əsərlərində də yer almışdır. "Bakı səfəri" şeirində bu qardaş xalqların böyük sənətkarlarını xatırladan şair S.Vurğunla Q.Qulamın dostluğuna da məxsusi yer verir:

Qafur Qulam ilə qardaş kimiydi,
Bu sənət nəhəngi, o–söz mahiri.
Elə ki, dil açıb qonuşardılar,
Sapa düzülərdi söz cəvahiri.
Kəlamları müdrik, söhbətləri xoş,
Turan dünyasının iki şairi.

Azərbaycan tarixinə, mədəniyyəti və ədəbiyyyatına, qəhrəmanları və şairlərinə ehtiram, sevgi özbək şairləri A.Arifin, E.Vahidin, R.Pərvinin, G.Curayevanın, Səyyarın, R.Əbdürrəşidin əsərlərində də kifayət qədər yer almışdır.

S.Vurğunun, özbək ədəbiyyatı ilə yanaşı, digər müsəlman-türk şairlərinin əsərlərinə həm məzmun, həm də forma baxımından təsirinin aşkar göründüyü əsərlərə də təsadüf edilir: məsələn, kabarda-balkar şairi Q.Quliyevin "Sən nə tez getdin?!" şeirində ustad şairin məşhur "Şair, nə tez qocaldın, sən?!" adlı şeirindən, türkmən şairi Q.Seyitliyevin şairin beşlik formalarından (2-ci misranın 5-ci misrada təkrarlanması) bəhrələnməsi, B.Kerbabayevin "Qızlar aləmi" poemasının "Bəsti" poemasını, qazax şairi S.Seyfullinin "Göyçə tau" ("Göyçə dağ") əsərinin "Talıstan" poemasını xatırlatması, eləcə də S.Vurğunun "Vaqif" dramı ilə özbək şairi M.Şeyxzadənin "Cəlaləddin" pyesi arasında oxşarlıq olması vurğunşünaslığa bəlli faktlardır...

Nəticə / *Conclusion*

Beləliklə, araşdırmalar çox qədimlərdən – dastanlardan başlayıb, Nizami, Nəvai, Füzuli, "Molla Nəsrəddin" mərhələsindən keçərək, sovetlər dönəmində "spesifik ideoloji aspektləri" ilə davam edən, müstəqillik illərində isə milli-mənəvi dəyərlərin inkişafına geniş meydan açan Azərbaycan–Türküstan, eləcə də Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafında Səməd Vurğunun xüsusi xidmətləri olduğunu bir daha təsdiq edir. Bu əlaqələrin 1930-1950-ci illər dövrünü, düşünürük ki, S.Vurğun mərhələsi adlandırmaq daha doğru olardı. Azərbaycan ədəbiyyatının Vurğun dövrünün çox qiymətli sahəsi kimi diqqət çəkən bu mərhələ həm vurğunşünaslığın, həm də özbəkşünaslığın dəyərli səhifəsi kimi çıxış etməklə yanaşı, çağdaş Azərbaycan–özbək ədəbi-mədəni əlaqələrinin də çox qiymətli və zəngin qaynaqlarından biri kimi çıxış edir.

Ədəbiyyat / *References*

1. Məmməd Arif. Azərbaycan ədəbiyyatı tarixi (Qısa oçerk). Bakı, "Elm", 1971.
2. M.İbrahimov. Əziz xatirələr. Səməd Vurğun xatirələrdə. "Xan", 2016.
3. Y.Qarayev. Azərbaycan ədəbiyyatının Vurğun dövrü. Y.Qarayev. Seçilmiş əsərləri 5 cilddə, V c. Bakı, "Elm", 2016.
4. A.Salmanov. Səməd Vurğun yaradıcılığı türk xalqları ədəbiyyatı kontekstində. AMEA Nizami adına Ədəbiyyat İnstitutu, "Ədəbi əlaqələr" toplusu IX. Bakı, "Elm və təhsil", 2015.
5. V.Arzumanlı. Əbədiyyətə qovuşan sənət (Səməd Vurğun və SSRİ xalqları ədəbiyyatı). Bakı, "Gənclik", 1976.
6. S.Vurğun. Nizami və Nəvai yubiley komitələrinin iclasında çıxışı. S.Vurğun. Seçilmiş əsərləri 5 cilddə, V c. Bakı, "Şərq-Qərb", 2005.
7. H.Araslı. Ustad. H.Araslı: Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, "Gənclik", 1998.
8. Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri, Bakı, "Qartal", 2008.

Самед Вургун и узбекская литература: «до последних лет мы не знали, что Наваи был узбекским поэтом»

Аслан Салманов
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви. Азербайджан
E-mail: aslan_salmansoy@mail.ru

Резюме. Статья посвящена переводу произведений народного поэта Азербайджана Самеда Вургуна на различные языки (английский, немецкий, чешский, китайский, монгольский, болгарский, польский, румынский, арабский, персидский и др.) и важности этих переводов в мировая слава поэта. Кроме того, работы великого поэта на международную тематику, а также его визиты в разные страны и художественные произведения об этих посещениях и мемориальная литература привели к повышению его международной репутации. Он включил в свои работы темы, посвященные политическим и общественным событиям во всем мире, и этот фактор заставил его и его работы прославиться. В представленной статье исследуются и анализируются литературные связи, а также деятельность С.Вургуна в этом направлении в контексте литературы советских людей.
Ключевые слова: С.Вургун, планетарный человек, литературные отношения, литература тюркских народов, узбекская литература, Н.Гянджеви, А.Наваи, К.Кулам

“Molla Nəsrəddin” və özbək satirik ədəbiyyatı

Gülbəniz Babayeva
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulbeniz-babayeva@mail.ru
https://orcid.org/0000-0003-4094-4973

Annotasiya. Azərbaycan satirik mətbuatının zirvəsi olan “Molla Nəsrəddin” jurnalı 25 illik fəaliyyəti dövründə Yaxın Şərq və Orta Asiya xalqlarının həyatında baş verən ictimai-siyasi və ədəbi-mədəni hadisələri öz səhifələrində geniş işıqlandırmışdır. Jurnal Şərq dünyasında milli azadlıq hərəkatına təkan vermiş, xalqların müstəqillik uğrunda mübarizəsini müdafiə etmiş və onların haqq səsini dünyaya çatdırmışdır. “Molla Nəsrəddin” jurnalı digər türk xalqları ilə yanaşı, Özbəkistanda gedən prosesləri diqqətlə izləmiş və baş vermiş hadisələrə fəal münasibət bildirmişdir. Özbək satirik ədəbiyyatının formalaşmasında “Molla Nəsrəddin” jurnalının və mollanəsrəddinçilərin müstəsna rolu olmuşdur. Xüsusilə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir yaradıcılığının təsiri özbək satirik ədəbiyyatında geniş şəkildə əksini tapmışdır. Məqalədə bütün bu məsələlər diqqət mərkəzində saxlanılır, Cəlil Məmmədquluzadə realizminin gücü və Sabir satiralarının ideya və məzmun zənginliyi konkret faktlar əsasında təhlilə cəlb edilir, özbək ədəbiyyatının tanınmış nümayəndələrinin yaradıcılığına istinad edilir. Sabir yaradıcılığı ilə görkəmli özbək şairi Əczinin satiraları müqayisələr, paralellər əsasında şərh olunur. Tədqiqatda göstərilir ki, “Molla Nəsrəddin” jurnalının və mollanəsrəddinçilərin özbək satirik ədəbiyyatının təşəkkülü, formalaşması və inkişafındakı müstəsna rolu Azərbaycan və özbək ədəbiyyatşünaslarının diqqət mərkəzində olmuşdur.
Açar sözlər: “Molla Nəsrəddin” jurnalı, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, tənqidi-realist ədəbiyyat, satirik hekayə, satirik şeir, özbək ədəbiyyatı, S.Əczi, M.Sufizadə, Qafur Qulam

http://dx.doi.org/10.29228/edu.150
Məqaləyə istinad: Babayeva G. (2020) *“Molla Nəsrəddin” və özbək satirik ədəbiyyatı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 184-190
Məqalə tarixçəsi: göndərilib – 22.04.2020; qəbul edilib – 29.04.2020

"Molla Nasraddin" and uzbek satirical literature

Gulbaniz Babayeva
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: gulbeniz-babayeva@mail.ru
https://orcid.org/0000-0003-4094-4973

Abstract. “Molla Nasreddin”, the pinnacle of Azerbaijan's satirical press, has covered the socio-political, literary and cultural events in the lives of the nations of the Middle East and Central Asia during its 25-year history.The magazine gave impetus to the

national liberation movement in the Eastern world, defended the struggle of nations for independence and conveyed their true voice to the world. "Molla Nasreddin" magazine, along with other Turkic nations, closely followed the processes taking place in Uzbekistan and took an active part in the events. The "Molla Nasreddin" magazine and Mollanasraddin followers had an exceptional role in the formation of Uzbek satirical literature. In particular, the influence of the works of Jalil Mammadguluzadeh and Mirza Alakbar Sabir is widely reflected in Uzbek satirical literature. The article focuses on all these issues, analyzes the power of Jalil Mammadguluzadeh's realism and the richness of ideas and content of Sabir's satires on the basis of concrete facts, refers to the works of well-known representatives of Uzbek literature. It is shown that the exceptional role of the "Molla Nasreddin" magazine and Mollanasraddin followers in the formation, shaping and development of Uzbek satirical literature has been in the focus of attention of Azerbaijani and Uzbek literary critics.
Keywords: “Molla Nasraddin” magazine, Jalil Mammadguluzadeh, Mirza Alakbar Sabir, critical-realist literature, satirical story, satirical poem, Uzbek literature, S.Ajzi, M.Sufizadeh, Gafur Gulam

http://dx.doi.org/10.29228/edu.150
To cite this article: Babayeva G. (2020) *"Molla Nasraddin" and uzbek satirical literature.* «Comparative Literature Studies», Issue I, pp. 184-190
Article history: received – 22.04.2020; accepted – 29.04.2020

Giriş / *Introduction*

Azərbaycan satirik mətbuatının və XX əsr tənqidi-realist əbəbiyyatın zirvəsini fəth edərək böyük ədəbi məktəb yaradan “Molla Nəsrəddin” jurnalı bir əsrdən artıqdır ki, Yaxın və Orta Şərqdən başlamış bütün Qərb dünyasına qədər geniş arealda şöhrət qazanmışdır. “Molla Nəsrəddin” jurnalının nəşri Şərq dünyasında milli-azadlıq hərəkatına təkan vermiş, xalqların müstəqillik və demokratiya uğrunda mübarizəsini müdafiə etmiş və onların haqq səsini bütün dünyaya çatdırmışdır. İmperialist quvvələrin müstəmləkə siyasətinə qarşı çıxan “Molla Nəsrəddin” jurnalı İran, Türkiyə, İraq, Əfqanıstan, Hindistan kimi ölkələrin həyatında baş verən milli-azadlıq hərəkatına xüsusi diqqət yetirmiş, elmin, maarif və mədəniyyətin inkişafına öz mənəvi dəstəyini əsirgəməmişdir. “Molla Nəsrəddin” jurnalı fəaliyyəti boyunca daim diqqət mərkəzində saxladığı Orta Asiya xalqlarının ictimai-siyasi və ədəbi-mədəni həyatının işıqlandırılmasında böyük rol oynamışdır. Abdulla Qədirinin təbirincə desək, Orta Asiyada Azərbaycan ədəbiyyatını oxumayan, bilməyən sənətkar yoxdur. O, çox haqlı olaraq göstərirdi ki, biz həcvçiliyi “Molla Nəsrəddin”dən öyrənməliyik. Qədirinin “Mən qələm tutmağı ərəblərdən, qələmlə güldürməyi isə “Molla Nəsrəddin”dən öyrənmişəm” fikri jurnalın böyük bir missiyanın daşıyıcısına çevrildiyini göstərən maraqlı faktlardandır.

Əsas hissə / *Main part*

Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşrə başlayan “Molla Nəsrəddin” jurnalının Tiflisdə 370, Təbrizdə 8, Bakıda isə 363 nömrəsi çapdan çıxmışdır. Ümumilikdə bu satirik mətbuat orqanının 741 nömrəsi işıq üzü görmüşdür. Jurnal dərc olunduğu gündən (7 aprel 1906) 25 illik fəaliyyəti dövründə ardıcıl olaraq öz səhifələrində Şərq xalqlarının, o cümlədən Orta Asiya xalqlarının ictimai-siyasi həyatı ilə bağlı silsilə yazılar vermişdir. Jurnalın ətrafında birləşən böyük bir ədəbi qüvvə – Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Mirzə Ələkbər Sabir, Əbdür-

rəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əli Razi, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz, Bayraməli Abbaszadə və başqalarının yaratdığı satirik hekayə, satirik felyeton, satirik şeir, pamflet, oçerk, səyahətnamə, teleqraf xəbərləri və s. dərin məzmunlu satirik ədəbi nümunələr jurnalın çoxsaylı oxucuları tərəfindən maraqla qarşılanırdı. Jurnalın rəssamları Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə, Seyidəli Behzad, İsmayıl Axundov, Qəzənfər Xalıqov, Hüseyn Əliyev və başqalarının yüksək sənətkarlıqla yaratdıqları karikaturalar bütün xalqlarda əks-sədaya səbəb olduğu kimi, Özbəkistanda da maraqla qarşılanmış və orada təsviri sənətin, qrafikanın və karikatura janrının inkişafında müstəsna rol oynamışdır. "Molla Nəsrəddin" jurnalının Özbəkistanla sıx bağlılığını göstərən faktlardan biri də satirik məcmuənin vəkilləri və onun yayıldığı şəhərlərin adlarının qeyd olunması ilə bağlıdır. Jurnalın 1917-ci ildə dərc edilən 17-ci nömrəsində oxuculara vəkillər və onların missiyasını həyata keçirən idarə və təşkilatlar haqqında siyahı təqdim olunur: "Səmərqənddə "Zərəfşan" kitabxanası, Buxarada "Mərifət" şirkəti –Yaqubbayov və Nurcan İslambayov, Xokandda "Qeyrət" şirkəti, Daşkənddə Köhnə şəhərdə, "Məktəb" mağazasında Abdullah Ovlilani" [1]. "Molla Nəsrəddin"də əksini tapan bu məlumatdan da aydın olur ki, jurnal Özbəkistanda və onun ayrı-ayrı şəhərlərində geniş yayılmış və təbliğ olunmuşdur.

Özbək yazıçı və şairlərinin jurnalın nəşr olunduğu Tiflis, Bakı şəhərlərinə gəlməsi, Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirlə yaxından dostluğu iki xalqın satirik ədəbiyyatı və mətbuatı arasında bir körpüyə çevrilmişdir. Sonralar M.Ə.Sabirin Şərq ölkələrinə, İranın və Orta Asiyanın Xorasan, Səbzvar, Nişapur, Mərv, Aşqabad, Buxara, Səmərqənd kimi mədəniyyət mərkəzlərinə səyahətə çıxması və tanınmış özbək ziyalıları, şair və yazıçıları – M.Sufizadə, Raci, Şükuri, Əczi ilə görüşləri bu əlaqələri daha da möhkəmləndirmiş və Sabirin dərin müşahidələr əsasında yeni-yeni əsərlər yazmasına təminat yaratmışdır.

"Molla Nəsrəddin" jurnalının ümumbəşəri əhəmiyyətindən bəhs edən akademik İsa Həbibbəyli yazır: "Öz ətrafında mollanəsrəddinçi şairləri və yazıçıları birləşdirən "Molla Nəsrəddin" jurnalı nəinki ölkədə, Qafqazda, Türkiyədə, İranda, Orta Asiyada, Volqaboyunda... tənqidi realist və satirik ədəbiyyatın bayrağını ucaltmış, həm bu tipli ədəbiyyatın konsepsiyasını irəli sürmüş, həm də konkret ədəbi nümunələrini xalqa çatdırmışdı... Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində "Molla Nəsrəddin" jurnalı qədər geniş universal yaradıcılıq istiqamətlərini və böyük yaradıcı qüvvələri öz ətrafında cəmləşdirən ikinci bir uzunömürlü mətbuat orqanı olmamışdır. "Molla Nəsrəddin" Azərbaycanın, geniş mənada türk-müsəlman dünyasının ilk satirik və karikaturalı jurnalı kimi bədii yaradıcılığın və təsviri sənətin inkişafına xidmət edən yeni nəsil sənətkarlar ordusu meydana çıxarmışdır" [2]. Şərq aləmində ilk rəngli karikaturalı satirik jurnal kimi şöhrət qazanan "Molla Nəsrəddin" Orta Asiyada, xüsusilə Özbəkistanda da sevilə-sevilə oxunmuş və orada satirik ədəbiyyatın və mətbuatın inkişafına güclü təkan vermişdir. Jurnal öz səhifələrində özbək xalqının ictimai-siyasi və sosial həyatının, onun çoxəsrlik ədəbiyyatının və milli mətbuatının işıqlandırılmasına geniş yer vermişdir. Qarşılıqlı olaraq özbək ədəbiyyatı və mətbuatında "Molla Nəsrəddin" jurnalının ideoloji mübarizə üsulu, aydın tendensiyası, satirik üslubu, sadə və anlaşıqlı dili təqdir edilmiş və mətbuatda, ayrı-ayrı tədqiqatlarda, icmallarda işıqlandırılmışdır. Özbəkistan satirik mətbuatı "Molla Nəsrəddin" jurnalının geniş fəaliyyətini, onun zülm və istibdada, fanatizmə, cəhalətə qarşı kəskin mübarizəsini daim izləmiş və bəzən jurnalda dərc olunmuş yazıları və karikaturaları olduğu kimi, bəzən isə onlara nəzirə, parodiya və perifrazlar edərək öz səhifələrində çap etmişdir.

Şərq xalqlarının tarixində ilk satirik mətbuat orqanı kimi ədəbi məktəb yaradan "Molla Nəsrəddin" jurnalı Orta Asiya xalqlarının həyatında böyük intibaha və milli dirçəlişə səbəb olmuş, satirik mətbuatın yaranmasına zəmin hazırlamışdır. "Muştum" jurnalı yazır: "Molla Nəsrəddin"! Sən İrandan Şərqi Türküstana qədər, Azərbaycandan Tatarıstana, Başqırdıstandan, Qazaxıstandan Beynən – nehreynə qədər, hətta Krımdan Dağıstana qədər öz əlini uzatdın və qafil müsəlmanları yuxudan oyatdın" [3].

Əsrlərcə davam edən Azərbaycan–Özbəkistan ədəbi əlaqələri XX əsrin əvvəllərində yaranan və formalaşan "Molla Nəsrəddin" satirik jurnalının timsalında yeni mərhələyə qədəm qoydu. Jurnal zən-

gin və çoxşaxəli janrları, qeyri-adi üslubu, orijinallığı və bənzərsiz forma-struktur özəlliyi ilə bütün Şərq dünyasında əks-sədaya səbəb oldu. Mollanəsrəddinçilərin, xüsusilə də Cəlil Məmmədquluzadə və Sabir yaradıcılığına özbək xalqının və onun ziyalılarının hədsiz maraq göstərməsinin səbəbi onların jurnalın səhifələrində dərc etdirdikləri nəsr və nəzm nümunələrində hər iki xalq üçün ortaq olan taleyüklü problemlərin qabardılması və satirik bir dillə geniş oxucu auditoriyasına çatdırılması idi. Görkəmli özbək alimi, professor Həmidulla Baltabayev Cəlil Məmmədquluzadə irsinə yüksək qiymət vermiş, realist ədibin "Poçt qutusu" kitabının özbək dilinə tərcüməsini doğma xalqına böyük bir töhfə kimi dəyərləndirmişdir: "Biz böyük bir türk ağacının yarpaqları, meyvələriyik. Bu ağacın kökü birdir, o, bir kökdən qidalanır. Müasir insanlar öz kökünü, tarixini bilmək istəyir. Bu tarix istər azərbaycanlı olsun, istər özbək olsun, istər türk, qazax – hansı türk olur olsun, hamısı üçün bir tarixdir... Gələcəyə yaxınlaşmaq üçün mütləq keçmişi bilmək, keçmişlə bağlı olmaq lazımdır. Bu baxımdan "Poçt qutusu" olduqca əhəmiyyətlidir" [4].

Hər iki xalqın satirik ədəbiyyatındakı əlaqələri diqqət mərkəzində saxlayan görkəmli özbək ədəbiyyatşünası, akademik Vahid Abdullayev "Sabir və Əczi" məqaləsində Azərbaycan satirik poeziyasının zirvəsində qərarlaşan mollanəsrəddinçi şair Mirzə Ələkbər Sabirlə özbək şairi Səidəhməd Siddiqi Əczi yaradıcılığını müqayisələr, paralellər əsasında tədqiqata cəlb edir. Azərbaycan satiriki M.Ə.Sabirin Əczi yaradıcılığına təsirini konkret nümunələr əsasında şərh edir. Sabir satiralarının mövzu və ideya qaynaqlarını, dərin mündəricəsini, sənətkarlıq məharətini yüksək qiymətləndirərək onun özbək satirik ədəbiyyatı, mətbuatı və Əczi yaradıcılığı üçün zəngin bir mənbə olduğunu vurğulayır. V.Abdullayev Sabirin "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətinə diqqət çəkərək göstərir ki, Əczi Sabirin jurnalda dərc edilmiş bir sıra satirik şeirlərinə nəzirələr yazmış, şairin vətən, millət, azadlıq ideallarının Özbəkistanda müdafiəçisi kimi çıxış etmisdir. Şübhəsiz ki, Sabir ruhunun daşıyıcısı kimi çıxış edən Əczinin mollanəsrəddinçi şairin yaradıcılığına müraciəti təsadüfi deyildir. Çünki iki xalqı birləşdirən ümumi problemlər bu sənətkarları ruhən və mənən yaxınlaşdırmışdır. Əczinin Sabirin 1907-ci ildə qələmə aldığı "Bimərhəmət əyanlarına şükr, xudaya!" misralı şeirinə yazdığı parodiyada Azərbaycan satira məktəbinin ənənələri, dil, üslub və ifadə tərzi aydın şəkildə görünməkdədir:

Ammamalı şaytonlarınqa şükr, xudaya!
Bu fokidi-imanlarınqa şükr, xudaya!
Səd çəkməyə urfan yoluna amr eləmişlər,
Bu fikirli sultanlarına şükr, xudaya!
Öz keyfinə dünyanın təsəllüt edəcəklər,
Qazilərinə, xanlarına şükr, xudaya!
Çayxanalarda məktəb açıblar ramazanda
Ətfali-qəzəlxanlarına şükr, xudaya!.. [5].

V.Abdullayev araşdırmasında qeyd edir ki, M.Ə Sabirin 1911-ci ildə "Molla Nəsrəddin" jurnalında çap olunmuş "Vaqieyi-yubileykaranə" əsərinin təsiri ilə Əczi 1912-ci ildə "Yuxu" adlı şeirini yazmışdır. Tədqiqatçı iki satirik sənətkarın yaradıcılığı üçün səciyyəvi olan cəhətləri şərh edərək belə bir qənaətə gəlir: "Təkcə səmərqəndli Seyid Əhməd Əczi deyil, özbək və tacik xalqlarının inqilabçı şairlərindən Sədrəddin Ayni, Həmzə Həkimzadə və səmərqəndli Raci kimi yazıçılar da Sabir yaradıcılığına böyük hörmətlə yanaşmış, onun əsərlərindən ilham almış, Sabir şeirləri ilə həmahəng əsərlər yaratmışlar" [5].

Təsadüfi deyildir ki, Əczini "Özbək satirasının Sabiri" adlandırmışlar. Şairin Sabirin "Ey pul", "Əkinçi" , "Uçitellər" satiralarına yazdığı "Çervon", "Əkin yerlərinin dərdü-həsrəti", "Ziyalılar" şeirlərinə nəzirə və iqtibaslarında Sabir satiraları üçün xarakterik olan sətiraltı eyham, tipin öz dili ilə özünü ifşa üslubu və forma-sturuktur bənzərliyi Əczinin Sabir sənətindən yaradıcılıqla bəhrələndiyini göstərən maraqlı məqamlardır.

XX əsr Azərbaycan satirik ədəbiyyatının yaradıcıları haqqında məlumatlar Özbəkistan ədəbi-ictimai fikrində tanınmış və geniş yayılmışdır. Tədqiqatçı Toxtasın Cəlalov "Sabirin müasirləri arasında" sərlövhəli məqaləsində Heyrəti, Arəzi, Hacı Alim Qabulov (Həzlkeş) kimi özbək şairlərinin "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcılarından, xüsusilə M.Ə.Sabir satiralarından necə bəhrələndiklərini diqqət mərkəzində saxlayır və şahidi olduğu bir maraqlı məsələni – M.Ə.Sabirin "Hophopnamə"si oxunarkən özbək şairlərinin heyranlıqla bu satirik şeirlərin ecazkar gücü qarşısında təsirləndiklərini göz önündə canlandırır: "... Bundan sonra Arəzi özünün Sabir təsirində yazdığı "Pul" rədifli şeirini oxudu. Bu şeir 1916-cı ildə yazılmışdı. Sabirin özbək şeirinə təsirini görmək üçün bu şeir çox səciyyəvidir. Arəzi, Heyrəti və Həzlkeş Sabir yaradıcılığı ilə hələ "Molla Nəsrəd-din" məcmuəsindən tanış imişlər. "Molla Nəsrəddin" məcmuəsi Fərqanə ziyalıları arasında çox geniş yayılmışdır. Yaradıcılığının mühüm hissəsi satirik şeirlərdən ibarət olan Həzlkeş Sabiri özünün ustadı hesab edirdi. Arəzi və Heyrəti də satirik şeirlərində Sabirdən çox öyrənib ona nəzirələr yazmışdılar... Söhbətimiz yenə Sabirdən idi.

Heyrəti:

- Sabir Azərbaycan xalqının gözüdür, – dedi.

Arəzi isə bu fikri tamamladı:

- Həm də çox uzaqgörən gözüdür. O, Xəzər dənizinin uzaq sahillərindən Türküstan torpağındakı ictimai xəstəlikləri də görürdü" [6]. Doğrudan da, Sabirin və mollanəsrəddinçilərin məqsədi, nəinki Şərq xalqlarını, türk dünyasını, eləcə də bütövlükdə zülm, istismar məngənəsində əzilən və boğulan bütün azadlıqsevər insanları, bəşəriyyəti azad və xoşbəxt görmək idi.

Azərbaycan və Özbəkistan satirik ədəbiyyatının qarşılıqlı əlaqəsi və təsir dairəsinin araşdırılması "Molla Nəsrəddin" jurnalı nəşrə başladığı illərdən çağdaş dövrümüzə qədər davam etməkdədir. Bu proses zaman-zaman araşdırılmış və tədqiqat predmetinə çevrilmişdir. Keçən əsrin 60-cı illərində məşhur özbək şairi Qafur Qulam Mirzə Ələkbər Sabir poeziyasının onun yaradıcılığında oynadığı müstəsna rolundan bəhs edərək yazırdı: "Mən yeni-yeni yazmağa başladığım zamanlarda əlimə M.Ə.Sabirin "Hophopnamə"si düşdü. Onu bir neçə dəfə oxudum. Bu əsər mənə böyük təsir bağışladı. Bundan sonra mən də Sabir kimi... gizli imzalar ilə satirik şeirlər yazmağa başladım" [7].

Mirzə Ələkbər Sabir satiralarının özbək ədəbiyyatına və XX əsr satirik mətbuatına təsiri getdikcə geniş miqyas almış, mübaliğəsiz demək olar ki, bütövlükdə özbək satirik poeziyasının qanına və canına hopmuşdur. Tanınmış özbək şairi Qeyrəti də M.Ə.Sabirə ithaf etdiyi "Onun təsiri ilə" adlı məqaləsində bu önəmli məsələni faktlar əsasında şərh edərək yazır: "... Azərbaycan ədəbiyyatı tarixində yeni bir ədəbi məktəb yaradan Sabir yaradıcılığı bizə, qonşu respublika xalqlarının ədəbi yaradıcılığına da qüvvətli təsir göstərmişdir. Mən cavan vaxtlarımda Bakıdakı gündəlik mətbuat səhifələrində Sabir əsərlərinin təsiri ilə bir neçə şeir çap etdirmişəm. Bu şeirlər 1927-ci ildə "Maarif və mədəniyyət", "Komsomol" məcmuələrində dərc olunmuşdur. Özbəkistanda Sabir yaradıcılığının təsiri ilə əsərlər yazıldığı inqilabdan əvvəlki mətbuat səhifələrində, sonra da satirik "Muştum" jurnalında aydın görünməkdədir. "Muştum ətrafında toplaşan şairlərdən Q.Qulam, S.Abdulla, Xurşid, Həzlkeş, Fələngi və başqaları Sabirin "Nam alırız biz" və başqa bir çox şeirlərinə, bəhri-təvillərinə oxşatmalar yazmışlar. Bununla belə, Sabirin alovlu satirası, atəşin şeirləri özbək sovet ədəbiyyatının tərəqqisi və inkişafına böyük xidmət etmişdir" [8].

"Molla Nəsrəddin" jurnalının və Cəlil Məmmədquluzadə yaradıcılığının Özbəkistanda tanınması, böyük şöhrət qazanması, xalq tərəfindən rəğbətlə qarşılanması və sevilməsindən bəhs edən Həmidulla Baltabayev "Kaspi" qəzetinə müsahibəsində deyir: "Molla Nəsrəddin" jurnalı bütün türk elində ilk satirik jurnal olaraq tarixə düşüb. Bizdə də ona oxşar "Muştum" ("Yumruq") adlı satirik jurnal vardı, o, bu gün də nəşr olunur. Və biz onu "Molla Nəsrəddin"in qardaşı hesab edirik. Sizin "Molla Nəsrəddin" jurnalınız sayəsində Cəlil Məmmədquluzadə Özbəkistanda yaxşı tanınır və çox sevilir" [4].

Azərbaycan satira məktəbinin özbək satirik ədəbiyyatına böyük təsiri olduğu kimi, satirik mətbuatın da yaranmasına və formalaşmasına güclü təsir göstərmişdir. Belə ki, 1917-ci ildə Özbəkistan-

da nəşrə başlayan "Çayan" satirik jurnalında "Molla Nəsrəddin" ənənələri uğurla davam etdirilmişdir. Dövrün ab-havasını öz səhifələrində əks etdirən "Çayan" jurnalı milli istiqlal ideyalarını təbliğ edir, "Yaşasın xalq cümhuriyyəti!", "Yaşasın milli və mədəni müxtariyyət!" şüarlarını yaradıcılıq kredosuna çevirərək "Molla Nəsrəddin"in layiqli davamçısı kimi fəaliyyət göstərmişdir.

Azərbaycan və özbək satirik ədəbiyyatının qarşılıqlı şəkildə araşdırılması həmişə diqqət mərkəzində olmuşdur. Bu baxımdan Nazim Axundov, İsa Həbibbəyli, Akif Bağırov, Qulamhüseyn Əliyev, Yaşar Qasımov və başqalarının tədqiqat əsərlərini xüsusi qeyd etmək olar. Son onilliklərdə filologiya elmləri doktoru Almaz Ülvi Binnətovanın apardığı çoxşaxəli araşdırmaların bir istiqaməti də "Molla Nəsrəddin" jurnalının özbək satirik ədəbiyyatına təsiri ilə bağlıdır. O, hər iki xalqın satirik ədəbiyyatının tədqiqinin əsas parametrlərini göstərərək yazır: "XX əsr özbək satirası ilə Mirzə Cəlilin, Sabirin əlaqəsini üç görkəmli şairin – S.Əczi, M.Sufizadə və H.H.Niyazinin yaradıcılıqları ətrafında daha geniş, əhatəli öyrənmək mümkündür. Hər üç sənətkarın yaradıcılığı "Molla Nəsrəddin" məktəbindən rişələnmişdir. "Molla Nəsrəddin" dərc olunduğu zamanda, sonralar da Şərq satira məktəbinin ustadı sayılmışdır. Başqa sözlə desək, əldən-ələ gəzən bu mətbu orqan XX əsr Şərqində əzəmətlə ucalan böyük bir satira ehramının özülünü təşkil edir" [9, s.95].

Nəticə / *Conclusion*

XX əsr Azərbaycan satirik məktəbinin yaradıcısı "Molla Nəsrəddin" jurnalı Orta Asiya xalqlarının bir ideya ətrafında birləşməsində, realist satirik ədəbiyyatın və mətbuatın inkişafında misilsiz rol oynamışdır.

Jurnal türk dünyasında baş verən hadisələrə və qlobal problemlərə fəal münasibət bildirmiş, ictimai haqsızlığa, ədalətsizliyə, geriliyə, cəhalətə qarşı barışmaz mövqedə dayanmış, xalqların azadlığını, müstəqilliyini, demokratik hüquqlarını müdafiəyə qalxmış, səsini tərəqqipərvər bəşəriyyətin haqq səsinə qatmışdır.

Ədəbiyyat / *References*

1. "Molla Nəsrəddin" jurnalı, 1917, № 17.
2. Həbibbəyli İsa. Milli istiqlal carçısı. "Azərbaycan" qəzeti, 22 fevral 2019.
3. "Muştum" jurnalı. Daşkənd, 5 iyul 1924.
4. "Kaspi" qəzeti, 24 noyabr 2019.
5. Abdullayev V.A. Sabir və Əczi. "Kommunist" qəzeti, 29 may 1962.
6. Cəlalov Toxtasın. Sabirin müasirləri arasında. "Ədəbiyyat və incəsənət" qəzeti, 29 may 1962.
7. "Kommunist" qəzeti, 29 may 1962.
8. Qeyrəti. Onun təsiri ilə. "Ədəbiyyat və incəsənət" qəzeti, 12 may 1962.
9. Binnətova Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri. Bakı, 2008.

«Молла Насреддин» и узбекская сатирическая литература

Гулбаниз Бабаева
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: gulbeniz-babayeva@mail.ru

Резюме. «Молла Насреддин», вершина азербайджанской сатирической прессы, освещал социально-политические, литературные и культурные события в жизни народов Ближнего Востока и Центральной Азии за свою 25-летнюю историю. Журнал дал толчок национально-освободительному движению в восточном мире, защитил борьбу народов за независимость и передал их истинный голос миру. Журнал «Молла Насреддин» наряду с другими тюркскими народами внимательно следил за процессами, происходящими в Узбекистане, и принимал активное участие в этих событиях. Журнал «Молла Насреддин» и молланасреддинцы сыграли исключительную роль в формировании узбекской сатирической литературы. В частности, влияние произведений Джалила Мамедгулузаде и Мирзы Алекпера Сабира широко отражено в узбекской сатирической литературе. Все эти вопросы находятся в центре внимания статьи, сила реализма Джалила Мамедгулузаде и богатство идей и содержание сатиры Сабира анализируются на основе конкретных фактов, делаются ссылки на произведения известных представителей узбекской литературы. Произведения Сабира и сатиры известного узбекского поэта С.Айзи интерпретируются на основе сравнений и параллелей. Исследование показывает, что исключительная роль журнала «Молла Насреддин» и молланасраддинцев в становлении и развитии узбекской сатирической литературы была в центре внимания азербайджанских и узбекских литературоведов.

Ключевые слова: журнал «Молла Насраддин», Джалил Мамедгулузаде, Мирза Алекпер Сабир, литература критического реализма, сатирический рассказ, сатирическая поэзия, узбекская литература, С.Аджзи, М.Суфизаде, Гафур Гулам

Azərbaycan-özbək folklorunda ortaq janrlar

Azad Nəbiyev
AMEA-nın müxbir üzvü

Xülasə. Azərbaycan folklorşünaslığının aktual problemlərdən biri də türk xalqlarının folklor janr sisteminin, onların qarşılıqlı təsir və əlaqə formalarının tədqiq olunmasıdır. Türk xalqları, o cümlədən Azərbaycan və özbək xalqları zəngin folklor ənənələrinə malikdir. Bu xalqların şifahi ədəbiiyatında bir çox oxşar, müştərək sujet, motiv və obrazlar diqqəti cəlb edir. Təqdim olunmuş məqalədə hər iki xalqın folklorunda mövcud olan müxtəlif janrlar, onların qarşılıqlı əlaqəsi araşdırmaya cəlb olunmuşdur. Həmçinin Azərbaycan-özbək xalqlarının şifahi yaradıcılığındakı əlaqə, yaxud süjet oxşarlığının səbəbi bu xalqların tarixi birliyi, mədəni-ictimai əlaqələri kontekstində sərh olunmuşdur.
Açar sözlər: Azərbaycan və özbək xalqları, folklor, janr sistemi, qarşılıqlı əlaqə, müqayisəli tədqiqat, yaradıcılıq prosesi, tarixi birlik

Common genres in the Azerbaijani-Uzbek folklore

Azad Nabiyev
Corresponding member of ANAS

Abstract. One of the actual problems of Azerbaijani folklore is the study of the genre system of the Turkic nations, their interactions and forms of communication.Turkic nations, as well as Azerbaijani and Uzbek, have rich folklore traditions.Many similar, common subjects, motifs and images attract attention in the oral literature of these peoples. Relationship of different genres in the folklore of both nationswere investigated in this article. The connection in the oral literature of the Azerbaijani-Uzbek nations, or the reason for the similarity of the plot, was also explained in the context of the historical unity, cultural and social ties of these nations.
Keywords: Azerbaijani and Uzbek peoples, folklore, genre system, interaction, comparative research, creative process, historical unity

Giriş / *Introduction*

Azərbaycan-özbək folklorunda diqqəti cəlb edən maraqlı problemlərdən biri də janrlar sistemi, onların qarşılıqlı təsir və əlaqə formalarıdır. Məlum olduğu kimi, Azərbaycan və özbək folklorunda mövcud janrlar forma və məzmun cəhətdən olduğu kimi, ifadə tərzi, bədii ümumiləşdirmə, estetik məzmun və fəlsəfi mahiyyəti etibarı ilə də tamamilə oxşardır. Qarşılıqlı əlaqə təkcə bu iki qardaş xalqın folklorundakı janrlar və janrlar sistemində yox, hər bir xalqın şifahi söz sənətinin inkişafında özünəməxsus mərhələylə səciyyələnən ayrı-ayrı janrlar arasında da özünü aydın göstərir. Məsələn, özbək kuşikləri ilə mövcud-mərasim nəğmələri, atalar sözü və məsəllər, tapmacalar, nağıl və dastanlar arasında müəyyən qarşılıqlı əlaqə mövcuddur. Janrlar arasındakı əlaqəni mövcud çərçivədə qəbul etmək olmaz. Hər bir xalqın milli folklorunun əsasını təşkil edən janrların özünəməxsus xüsusiyyətlərini öyrənmədən, həmin xalqın şifahi sənəti haqqında ümumi nəticələrə gəlmək, folkloru düzgün təsnif etmək olmaz. Müqayisəli tədqiqat hər xalqın folklorundakı janrların bir-birinə əlaqə və təsirini

öyrənməklə yanaşı, onları digər xalqın folklorundakı eyni, yaxud oxşar janrla əlaqəsini öyrənməklə onun ictimai-tarixi zəminini də araşdırmağa imkan verir.

Əsas hissə / *Main part*

Milli folklorların tədqiqində janrlar sisteminin öyrənilməsi folklorşünaslığın diqqət mərkəzində olan vacib problemlərdəndir. Rus folklorunun ən görkəmli tədqiqatçıları folklorun təsnifi, janrlar, onların əlaqə və təsir məsələlərinin tədqiqi ilə ardıcıl məşğul olurlar.

Xalq ədəbiyyatının janrları və onların təsnifi ilə əlaqədar müxtəlif nəzəriyyə və mülahizələr olmasına baxmayaraq, "folklorşünaslar şifahi xalq ədəbiyyatı janrlarının təsnifinə dair məqbul konkret elmi münasibət müəyyən edə bilməmişlər. Qeyd etmək lazımdır ki, belə bir təsnifat yaratmaq asan deyil. İndiyədək bir çox təsnifat təklif edilmişdir".

Rus və slavyan xalqlarının folklorunda janrlar sistemi onların qarşılıqlı əlaqə və təsiri barədə çox yazılsa da, Azərbaycan-özbək folklorundakı janrlar sistemi müqayisəli şəkildə hələ araşdırılmamışdır.

Azərbaycan və özbək folklorunun növlərə və janrlara bölünməsində qəti fikir yoxdur. Məsələn, ayrı-ayrı tədiqiqatlar Azərbaycan-özbək nağıllarını müxtəlif şəkildə təsnif edir. Onları dəqiq təsnif etməkdə hələ müəyyən çətinliklə qarşılaşırlar. Hər iki xalqın dastanlarının təsnifində də eyni hal nəzərə çarpır.

Azərbaycan-özbək folklorunun, yuxarıda gördüyümüz kimi, eyni formalaşma prosesi keçdiyini nəzərə alsaq, onların təsnifində ciddi fərqlər görmərik.

İnqilabın qələbəsindən sonra tədqiqinə başlanan Azərbaycan-özbək folklor haqqında ümumilikdə bir sıra samballı tədqiqatların aparılmasına, hər iki xalqın milli folkloru haqqında qiymətli tədqiqat işlərinin yazılmasına baxmayaraq indiyədək təsnifat məsələsi əsas tədqiqat mərkəzi olmamış, müqayisəli tədqiqat isə demək olar ki, aparılmamışdır. Odur ki, Azərbaycan-özbək folklorunun müqayisəsi əsasında belə bir fikrə gəlmək olur ki, hər iki xalqın folklor əsərlərini növlər və janrlar üzrə təsnif etmək daha məqsədəuyğundur.

Növ dedikdə həyatı əks etdirmə forması – lirik, epik, dramatik, (janr dedikdə isə bədii forma tipi – bayatı, kuşik, nağıl, atalar sözü və s.) nəzərdə tutulmalıdır.

Dünya xalqlarının şifahi sənətini növlər və janrlar üzrə tədqiq edənlər bəzən janr müxtəlifliyini də əsas götürür, heyvanlar haqqında olan nağılla sehrli nağıl arasındakı fərqi janr müxtəlifliyi kimi izah edirlər. Lakin heyvanlar haqqındakı nağılla sehrli, yaxud məişət nağılı arasında janr müxtəlifliyi cəhətdən yox, insanı həyatı dərk etməsi baxımından və janrın spesifik inkişafı ilə bağlı müxtəliflik özünü daha çox göstərir, hər bir janr yarandıqdan sonra, onun həyatı əks etdirmə cəhətdən məhdudiyyəti uzun zaman davam edə bilməzdi. İnsanın ümumi inkişafı da onun bədii yaradıcılığında öz inikasını tapmalı idi. Totemizm yaradıcılıq mərhələsində meydana çıxan "Göyçək Fatma" (özbəklərdə "Çoban qızı") nağılı əsatiri təsəvvür yarandıqdan sonra təbii ki, öz əvvəlki formasında yarana bilməzdi. Hər dövrün öz yaradıcılıq nümunələri olmalı idi ki, sehrli nağıllar nağıl janrlarının yeni şəraitdə inkişafı ilə əlaqədar meydana çıxdı. Ona görə də Azərbaycan və özbək folklor nümunələri növlərə və janrlara ayrılmaqla yanaşı, hər janr mövzu-tematik cəhətdən də müəyyən qruplara bölünür.

"Azərbaycan-özbək folklorunun tədqiqində janrlar arasındakı iki başlıca cəhəti qeyd etmək lazımdır. Bu da hər iki xalqın şifahi söz sənətinin iki nitq forması – şeir və nəsrdən ibarət olmasıdır. Azərbaycan-özbək folklor nümunələrində bu iki forma paralel yaşamaqla yanaşı, bəzən növbələşir, bir-birini tamamlayır. Odur ki, folklorun epik növünə hər iki xalqda, yanıltmaclar, rəvayətlər, əfsanələr, atalar sözü və məsəllər, lətifələr, nağıl və dastanlar daxil edilməkdədir" [1, s.28-47].

Lirik növə isə ancaq şeirlə deyilmiş folklor nümunələri - əmək nəğmələri, kuşik, layla, bayatılar, qoşmalar, baxşı sözləri və s. daxildir. Şeirlə deyilmiş bütün nümunələr isə musiqi ilə bağlı olub ozan-aşıq, baxşı tərəfindən ifa olunur.

Hər iki xalqın folklorunda dramatik növə də təsadüf olunur. Burada o, sinkretik sənət kimi daha çox nəzərə çarpır. Zorxanalar, meydan tamaşaları, xalq oyun və dramları dramatik növə daxildir.

Azərbaycan-özbək folklorunda janrların təsnifi, onlar arasındakı qarşılıqlı əlaqə və təsir müxtəlif və çoxcəhətlidir.

Janrlar folklor çox müxtəlif cəhətdən əks etdirmək etibarilə geniş olduğu kimi, özünəməxsus fərdi cəhəti ilə seçilir. Hər bir janr arasında daxili əlaqə və vəhdət özünü göstərir.

Janrlar arasında bir sıra əlaqələr mövcuddur. Bunlar içərisindəki ən başlıcası kinetik əlaqədir. Məlum olduğu kimi, kiçik janrlardan böyük janrların yarandığı kimi, böyük janrlardan da kiçik janrlar törəmişdir. Məsələn, rəvayət, nağıl, atalar sözü, məsəl və s. yaranmışdır. F.İ.Buslayev, A.A.Potebiya, P.V.Vladimirov və başqaları bu əlaqəni başlıca hesab etmiş və göstərmişlər ki, hər şeydən əvvəl kiçik janrlar, onlardan isə böyük janrlar yaranmışdır. Lakin bu məsələ hələ öyrənilməmişdir (təbiidir ki, onu həll etmək vacibdir).

Azərbaycan-özbək folklorunda da yeni janrın yaranmasında kiçik janrlar əsas rol oynadığı kimi, yeni yaranan janrlar bəzən köhnə janrın özünə də təsir göstərmişdir. Bu təsirin aşağıdakı cəhətlərini qeyd etmək olar:

a) Bütün janrlar kiçik janrlardan törəmiş, lirik növün nəğmə janrı daha əvvəl meydana çıxmışdır;

b) Yeni janr yarandıqdan sonra əvvəlki janrla paralel yaşamışdır;

c) Yeni janr qarşılıqlı əlaqədar olduğu janrdan ayrı, müstəqil janr kimi formalaşır, əvvəlkindən folklore yaradıcılığında daha fəal iştirak edir;

d) Yeni janr əvvəlkini ya tamam məhv edir, ya o janrın özünü dəyişir, ya da onunla paralel yaşayır.

Janrların qarşılıqlı əlaqə və təsiri mürəkkəb tarixi, ictimai-siyasi şəraitlə sıx bağlı olub daimi inkişafda olan, xalqın həyat şəraiti ilə şərtlənən yaradıcılıq prosesidir.

Bu yaradıcılıq prosesi bir xalqın şifahi söz sənətində məhdud şəkildə qalmadığı kimi, tarixən eyni etnik şəraitə malik, yaxud ərazi baxımından nisbətən yaxın olan xalqların şifahi söz sənətini dəəhatə edir.

Azərbaycan və özbək folklorundakı janrlar bu cəhətdən iki xüsusiyyəti ilə əlamətdardır:

Birinci – Müəyyən tarixi, ictimai-siyasi idarə üslubu zamanı yaranan qədim janrlar eyni etnik qrupa daxil xalqların yaradıcılıq prosesi idisə, xalqların sonrakı inkişafı bu yaradıcılıq prosesini bir növ fərdiləşdirdi. Hər bir xalqın, o cümlədən Azərbaycan və özbəklərin milli folklorundakı janrlar arasında qarşılıqlı təsir və əlaqənin yeni forması meydana gəldi və yaradıcılıq ənənəsinə uyğun olaraq hər iki xalqın şifahi ədəbiyyatında janrlar sistemini yaratdı. Milli yaradıcılığa uyğun olaraq janrlarda fərqlər özünü göstərir.

İkinci – Janrların qarşılıqlı əlaqə və təsiri ilə yanaşı, yaxın ərazilərdə yaşayan xalqların folklor janrları qarşılıqlı əlaqə və təsirə məruz qaldı.

Azərbaycan, yaxud özbək folklorundakı janrlar öz aralarında qarşılıqlı əlaqə və təsirə məruz qaldıqları kimi, bu sənət iki qardaş xalqın milli şifahi söz sənəti kimi formalaşdıqdan sonra da qarşılıqlı əlaqə və təsir fəal şəkildə davam etmişdir. Əgər birinci xüsusiyyət daha qədim dövrləri əhatə edirsə, ikinci xüsusiyyət orta əsrlərdən sonra Azərbaycan-özbək xalqı arasındakı mədəni-iqtisadi əlaqələrin, xüsusən ticarət əlaqələrinin təsiri nəticəsində baş vermişdir.

Azərbaycan və özbək folklorunda janrlar arasındakı əlaqələrin əsas formaları və başlıca şəkilləri, bizcə, aşağıdakı cəhətlərlə şərtlənir:

Birincisi: şifahi xalq ədəbiyyatında yeni bir janrın (istər lirik, istərsə də epik növə daxil olan) yaranması üçün müəyyən yaradıcılıq təcrübəsi, yaxud müəyyən bir poetic janrın labüddüyü vacibdir (Azərbaycan-özbək folklorunda lirik növ və onun janrları daha əvvəl olduğundan janrlar arasındakı ilkin qarşılıqlı əlaqə və təsir də lirik növün janrları arasında olmuşdur).

İkincisi: insanın ictimai-siyasi həyatındakı intibahın köhnə janrın tələbləri çərçivəsinə sığa bilməməsi və bununla əlaqədar yeni janrın törəməsi üçün ictimai zərurətin meydana çıxması Köhnə janrla yeni janrın uzun müddət eyni coğrafi ərazidə və ozan-baxşı repertuarında yanaşı yaşaması.

Üçüncüsü: sabit xalq dilinin formalaşması və inkişafı, ayrı-ayrı janrların, yaxud o janrlarda yaranan nümunələrin görüş və etiqadları ilə əlaqəsi.

Dördüncüsü: mövzu, sujet və tematika yaxınlığı ilə bağlı qarşılıqlı əlaqə və təsir.

V.İ.Çiçerovun "К проблеме исторической и жанровой спесифики русских былинии исторических песен" əsərində göstərdiyi kimi, qarşılıqlı əlaqədə olan bütün janrlar bir-birinə təsir göstərir. Lakin bu təsir "hər bir janrın özünəməxsusluğuna xələl gətirmir". Rus folklorunda olduğu kimi, Azərbaycan və özbək folklorunda da janrlar arasında nə qədər qarşılıqlı əlaqə və təsir olsa da, hər bir janrın özünəməxsus fərdi xüsusiyyəti var ki, bu başqa bir janrla heç cür eyniləşə bilmir. Hətta qarşılıqlı əlaqə nəticəsində yeni janr yaranır. Lakin yeni yaranan janrın tələbləri yaradıcı janrın tələblərini təkrar etmir. Məsələn, bayatı ilə özbək xalq kuşikləri arasında forma və məzmun baxımından nə qədər bənzərlik olsa da, janr tələbi cəhətdən – qafiyə sistemi, bölgü və s. onlar bir-birindən əsaslı şəkildə fərqlənir.

Beşincisi: janrlar arasındakı qarşılıqlı əlaqə və təsir eyni zamanda forma və şəkillə sıx bağlıdır. Məsələn, forma və şəkil etibarilə, eyni olan holavarla sayaçı söz, yaxud bayatı, özbəklərdəki əmək nəğmələri ilə xalq kuşikləri məzmun etibarilə tamam başqadır, bu isə onların janr müxtəlifliyini təyin etməyə əsas verir.

Göründüyü kimi, "bu beş əsas prinsip janr və janrlar sistemini müəyyənləşdirməyə, Azərbaycan və özbək folklorunu daha elmi şəkildə təsnif etməyə imkan verir. Hər bir janrın öz spesifik xüsusiyyətindən danışmazdan əvvəl, belə bir cəhətə diqqət yetirmək lazımdır ki, bu gün ayrı-ayrı tədqiqatlarda, dərslik və dərs vəsaitlərində, hətta antologiyalarda şifahi ədəbiyyatın ayrıca bir sahəsi kimi götürülən uşaq folkloru lirik, epik və dramatik növün janrlarından ibarət bir sıra sahə kimi tədqiq edilir" [2, s.58-64].

Nəticə / *Conclusion*

"Azərbaycan-özbək folkloru əlaqələri" adlı tədqiqat əsərində "iki qardaş xalqın folklor əlaqələrinin geniş şəkildə öyrənilməsində, şübhəsiz ki, elm üçün əhəmiyyətli olan bir sıra məsələlərin araşdırılmasında, bu xalqların daha qədim dövrlərlə bağlı ədəbi və mədəni əlaqələrinin araşdırılmışdır. Azərbaycan-özbək folklor əlaqələri geniş bir dövrdən bəhs etdiyi kimi, çox zəngin folklor materiallarını da əhatə edir, bu tədqiqatda həmin materialların müəyyən qismindən danışılır. Əsərin məzmunu üç hissədə təqdim olunmuşdur – "Azərbaycan-özbək folklor əlaqələri tarixindən", "Azərbaycan-özbək folklorunda janrlar sistemi" və "Azərbaycan-özbək folklorunun bədii xüsusiyyətlərinə dair". Qeyd etdiyimiz bu fəsilləri müəllif üç inkişaf mərhələsinə ayıraraq şərh etmişdir: 1. İbtidai folklor yaradıcılığı. 2. Əsatir dövrü və orta əsr folklor yaradıcılığı. 3. Yeni dövr folklor yaradıcılığı. Əsərdə Azərbaycan-özbək şifahi xalq ədəbiyyatının müxtəlif janrları zəngin faktik materiallar əsasında elmi-nəzəri yaradıcılıq süzgəcindən keçirilmişdir" [3, s.13-14]. Azərbaycan-özbək folklor əlaqələrinin əsas amillərindən sayılan iki xalqın folklor süjetlərində tarixi birliklə bağlı ümumilik məsələsi də təhlil olunmuşdur *(Məqaləni filologiya elmləri doktoru, professor Ülkər Nəbiyeva təqdim etmişdir).*

Ədəbiyyat / *References*

1. A.Nəbiyev. Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr. "Dastanda qəhrəman süjetin ənənələri". Bakı, "Elm", 1985.
2. A.Nəbiyev. Azərbaycan-özbək folklor əlaqələri. Bakı, "Yazıçı", 1978.
3. A.Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, "Qartal", 2008.

Общие жанры в Азербайджанско-Узбекском фольклоре

Азад Набиев
Член-корреспондент НАНА

Резюме. Одной из актуальных проблем азербайджанской фольклористики является изучение жанровой системы фольклора тюркских народов, их взаимодействия и форм . Тюркские народы, в том числе азербайджанский и узбекский, имеют богатые фольклорные традиции. В устной литературе этих народов особое внимание привлекают многие сходные, общие сюжеты, мотивы и образы. В статье рассматриваются различные жанры в фольклоре двух народов и их взаимоотношения. А также, в статье, утверждается причина сюжетного сходства в устном творчестве азербайджано-узбекских народов в контексте исторического единства, культурных и социальных связей этих народов.
Ключевые слова: Азербайджанский и узбекский народы, фольклор, жанровая система, взаимодействие, сравнительное исследование, творческий процесс, историческое единство

Xəlil Rza Uluturk və özbək ədəbiyyatı

Obid Şofiyev
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr şöbəsinin doktorantı,
filologiya üzrə fəlsəfə doktoru. Özbəkistan.
E-mail: shofiyev@mail.ru

Annotasiya. Xəlil Rza Ulutürk Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında böyük şair və alim olmaqla yanaşı, həm də özbək ədəbiyyatının tərcüməçisi və tədqiqatçısı kimi tanınır. Özbək poeziyasını Azərbaycan dilinə Xəlil Rza qədər çox tərcümə edən ikinci bir sənətkarın adını çəkmək çətindir. Əvvəlcə böyük yazıçı Maqsud Şeyxzadənin həyat və yaradıcılıq yolunu Azərbaycan və özbək ədəbi əlaqələri müstəvisində araşdırmışdır. Araşdırmaları onun dəfələrlə Özbəkistanda olduğunu, orijinal mənbələrdən istifadə etdiyini və bir sıra özbək sənətkarları ilə dostluq etdiyini göstərir. Xəlil Rza yaradıcılığında tərcümə sənəti xüsusi yer tutur. "Dünyanın pəncərəsi" və "Turan çələngi" Xəlil Rza Ulutürkün zəhmətkeş və məhsuldar bir tərcüməçi olması ilə yanaşı, onun özbək ədəbiyyatından etdiyi tərcümələrin siyahısını sübut edir.
Açar sözlər: Xəlil Rza Ulutürk, Maqsud Şeyxzadə, Azərbaycan şeiri, özbək poeziyası, tərcümə

http://dx.doi.org/10.29228/edu.135
Məqaləyə istinad: Şofiyev O. (2020) *Xəlil Rza Ulutürk və özbək ədəbiyyatı*. «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 196-201
Məqalə tarixçəsi: göndərilib – 14.06.2020; qəbul edilib – 28.06.2020

Khalil Rza Uluturk and Uzbek literature

Obid Shofiev
Doctoral student of the Azerbaijan-Turkmenistan-Uzbekistan
Literary Relations Department of the Nizami Ganjavi Institute of Literature
of the ANAS, doctor of Philosophy in Philology. Uzbekistan.
E-mail: shofiyev@mail.ru
https://orcid.org/0000-0002-5658-352X

Abstract. Khalil Rza Uluturk is a great poet and scientist in the Azerbaijai literature and literary criticism, as well as is known as translator and researcher of the Uzbek literature. It is difficult to say a name of the second artist who translates Uzbek poetry as much as Khalil Rza into Azerbaijani. First of all, the great writer has studied the life and creativity ofMaksud Sheikhzada in the context of Azerbaijan-Uzbek literary relations. His researches shows that he has been in Uzbekistan many times, and used original sources and has been friends with several Uzbek masters. Art of translating takes a special place in Khalil Rza's creativity. "The Window of the World" and "Turan Garland" prove that Khalil Rza Uluturk was a hardworking translator with his translations from Uzbek literature.

Keywords: Khalil Rza Uluturk, Maksud Sheikhzade, Azerbaijani literature, Uzbek poetry, translation

http://dx.doi.org/10.29228/edu.135
To cite this article: Shofiev O. (2020) *Khalil Rza Uluturk and uzbek literature.* «Comparative Literary Studies», Issue I, pp. 196-201
Article history: received − 14.06.2020; accepted − 28.06.2020

Xalil Rizo Uluturk va O‘zbek adabiyoti

Obid Shofiev
Ozarbayjon Milliy Bilimlar Akademiyasi Nizomiy Gancavi nomli Adabiyot institutining
“Ozarbayjon-Turkmaniston-O‘zbekiston adabiy aloqalari” sho‘basining doktoranti,
filologiya boyuncha falsafa doktori. Ozbekiston.
E-mail: shofiyev@mail.ru
https://orcid.org/0000-0002-5658-352X

Xullas. Xalil Rza Uluturkni Ozarbayjon adabiyoti va adabiyotshunosligida o‘zbek adabiyotining tarjimoni va tadqiqotchisi sifatida tanishadi. Unga qadar o‘zbek she’riyati namunalarini ozarbayjon tiliga maromiga etkazib tarjima qilgan ikkinchi bir san’atkorni nomini keltirish amri maholdir. U ozarbayjon va o‘zbek adabiy aloqalari doirasida buyuk adib Maqsud Shayxzodaning hayot va ijodiy yo‘lini ilk bora keng shaklda tadqiq etdi. Maqola va tadqiqotlaridan ma’lum bo‘ladiki, u ko‘p marotaba O‘zbekistonda bo‘lib, asl manbalardan foydalangan, bir qator o‘zbek ijodkorlari bilan do‘stlik munosabatida bo‘lgan. Tarjimalik san’ati shoir ijodida o‘ziga xos o‘rin tutadi. “Qardoshlik gulchambari”, “Dunyo derazasi” nomli tarjima kitoblari Xalil Rza Uluturkning zahmatkash va mahsuldor mutarjim ekanligini tasdiqlab turibdi.
Kalit so'zlar: Xalil Rizo Uluturk, Maqsud Shayxzoda, Ozarbayjon adabiyoti, o'zbek she'riyati, tarjima

http://dx.doi.org/10.29228/edu.135
Maqolaga havola: Shofiyev O. (2020) *Xalil Rizo Uluturk va o'zbek adabiyoti.* "Qiyosiy adabiyotshunoslik", №1, p. 196-201
Maqola tarixi: joylangan − 14.06.2020; qabul qilingan − 28.06.2020

Giriş / *Introduction*

Xalil Rza Uluturkni Ozarbayjon adabiyoti va adabiyotshunosligida o‘zbek adabiyotining tarjimoni va tadqiqotchisi sifatida tanishadi. Unga qadar o‘zbek she’riyati namunalarini ozarbayjon tiliga maromiga etkazib tarjima qilgan ikkinchi bir san’atkorni nomini keltirish amri maholdir. U o‘tgan asrning 70-yillarining avvalida bu sohaga jiddiy kirishgan bo‘lsa-da, 60-yillar matbuotida ba’zi bir tarjima namunalariga duch kelamiz. Maqsud Shayxzodaning Xalil Rza Uluturk tarjimasidagi “Uyqu” (“Ozarbayjon”, 1969, №10, 183-b.), “Qayin daraxti”, "Faqat bir istisno", "Kelajak savollariga javob" (“Ozarbayjon”, 1970, №4, 112-114-b.), “Dengiz axloqi”, “Aks-sado” (“Ozarbayjon yoshlari”, 7 dekabrь 1978) she’rlari fikrimizni tasdiqlaydi.

U ozarbayjon va o‘zbek adabiy aloqalari doirasida buyuk adib Maqsud Shayxzodaning hayot va ijodiy yo‘lini ilk bora keng shaklda tadqiq etdi. Maqola va tadqiqotlaridan ma’lum bo‘ladiki, u ko‘p marotaba O‘zbekistonda bo‘lib, asl manbalardan foydalangan, bir qator o‘zbek ijodkorlari bilan do‘stlik munosabatida bo‘lgan. Olim bu yerda Maqsud Shayxzodaning oilasi bilan tanishib, uning shaxsiy arxivi bilan tanishish imkoniyatiga ega bo‘ldi. O‘z tadqiqotlari bilan Ozarbayjon adabiyotida o‘zbek adabiyotining yorqin sahifasini ochdi desak aslo xato bo‘lmaydi. Umuman olganda, uning ilmiy ishlari o‘zbek adabiyotshunosligi uchun ham ahamiyatlidir.

Əsas hissə / *Main Part*

Xalil Rza Uluturk Maqsud Shayxzoda ijodini ozarbayjon tiliga tarjima qildi. U 1969-1985-yillarda “Maqsud Shayxzoda poeziyasi va ozarbayjon-o‘zbek adabiy aloqalarining aktual muammolari” mavzuida doktorlik dissertatsiyasini himoya qilib, filologiya fanlari doktori ilmiy darajasiga ega bo‘ldi. Olim bu ishlari asosida 1978-yilda “Bilik” jamiyatida “Maqsud Shayxzoda” va 1980-yilda “Ilm” nashriyotida “Maqsud Shayxzodaning badiiy mahorati” nomli monografiyalarini nashr ettirdi. Ayni paytda, matbuot sahifalarida hisobsiz maqolalari, tarjimalari bilan muntazam ishtirok etib bordi. Asqarli Alizodaning “Milliy ideal mushohadasi” nomli asarida quyidagi satrlarga duch kelamiz: “U 1969-yildan boshlab shoirning (Maqsud Shayxzodaning – O.Sh.) umr yo‘ldoshi Sakina xonim bilan aloqa bog‘lab, shoirning arxivi, ijodiy laboratoriyasi bilan yaqindan tanishdi, bu orada o‘zbek tilini ham mukammal o‘rgandi”.

Uning tadqiqotlaridan shuni bilib olish mumkinki, u o‘n yildan ko‘p muddatda Maqsud Shayxzoda ijodini o‘rganish bilan mashg‘ul bo‘ldi. “San’at va iste’dodning g‘alabasi”, “San’atkor shuhratining siri”, “Buyuk san’at xazinasi”, “Xalq muhabbati”, “Poezziya maydonining yolg‘iz qahramoni”, “Ikki xalq farzandi”, “Madaniyat iftixori”, “Poezziya – xalqning parisidir”, “Qardosh xalqning ma’naviy boyligi”, “Saida – xushbaxtlik demakdir” (M.Shayxzodaning singlisi Saida Shayxzodaga bag‘ishlangan), “Ayub Shirinzoda” (Ayub Shirinzoda va M.Shayxzodaning do‘stligi haqida), “Shoirning sevgilisi” (M.Shayxzodaning umr yo‘ldoshi Sakina Shayxzoda haqida) va boshqa maqolalarida faqat Maqsud Shayxzodaning adabiy portreti va uning adabiy merosi tadqiq etilgan.

Xalil Rza Uluturkning “Men Sharqdan” yirik hajmli kitobida Boku, Moskva, Voronej, Rostov qamoqxonalarida kechirgan yillaridagi (26 yanvarь 1990 – 22 oktyabrь 1990) hayoti, iztiroblari, eng qiyin sharoitda, tahlikali zamonda ham o‘z aqidalariga sodiq qolganligi, vatanparvarlik, mardonavorligi aks etgan sahifalarni o‘qishimiz mumkin. Ayni paytda, bu to‘plamdan turk dunyosi namoyandalari asarlaridan qilingan ayrim tarjimalar ham o‘rin olgan. Bular orasida shoir, dramaturg, olim Maqsud Shayxzoda va buyuk bolqar shoiri Qaysin Quliev adabiy merosi qamrab olingani diqqatga sazovordir.

“Men Sharqdan” kitobidagi kirish maqolasi “San’atkor shuhratining siri”da olim Maqsud Shayxzodaning asarlariga yuksak baho beradi va o‘z fikrlarini boy faktlar bilan dalillaydi. Mana bu satrlarni o‘qisangiz bunga o‘zingiz ham amin bo‘lasiz: “Til o‘rganishda Shayxzodaning ayricha bir mahorati bor edi. Rus, fors, tojik tillarini yaxshi bilar, arabchadan xabardor, ozarbayjon va o‘zbek tillarida go‘zal she’rlar yozar, umuman olganda, u butun turkiy tillarni bilardi. Asarlarini rus tiliga o‘zi tarjima qilar edi. Qolaversa, u Nizomiy nomidagi Toshkent davlat pedagogika institutida o‘zbek adabiyoti tarixidan talabalarga saboq ham berardi. Shayxzoda Navoiy merosini tadqiq etishga kirishdi. Uning “Hayrat-ul-abror” dostoniga oid tadqiqoti qimmatli ishlardan sanaladi. Bu bilan cheklanmagan Shayxzoda “Bilim” jamiyatining da’vati bilan o‘zbek va rus tillarida ma’ruzalar o‘qishga ham imkoniyat topadi. Bu kishida shu qadar gumanistlik, hayotga, ijodga ishtiyoq kishini lol qoldiradi. U yuksak qalb egasi edi. M.Shayxzoda, A.Qahhor va Oybek – bu uch buyuk siymo, uch do‘stning qilgan ishlari, yaratgan betakror asarlari barchaga o‘rnak namunasi bo‘ldi”. Xalil Rza

Uluturkning bu qaydlari atoqli o‘zbek adabiyotshunosi, professor Hamid Sulaymonning xotiralari bilan hamohang bo‘lib, har ikkisi ham adabiyot fidoyisining adabiy portretini gavdalantirib bergan.

Bu kirish maqoladan so‘ng Shayxzodaning 41 she’ri va “Toshkentnoma” dostoni tarjimasini o‘quvchilarga taqdim etadi. Bu she’rlar ilgari matbuot sahifalari va boshqa almanax, kitob sahifalari orqali kitobxonlar hukmiga havola etilgan. Olim ularni hammasini bir joyda jamlaydi. “Uyqu”, “Sohildagi o‘ylar”, “G‘afurga maktub”, “Har soniyada”, “Yodindadur”. “Ustoz Lohutiyga”, “Ne rohatdir”, “Isyonkor insonning tabiati”, “Meni aka dedilar” "O‘rtoq Navoiy", "Xiyobon", "Yo‘q, men o‘lmayman", "Aks-sado", "Suv hikoyati", "Ilk sevgi", "Soxta", "Xorazmda qish bo‘lmas", "Xato", "Bulbul", "Binafsha", "Tovushlar" va boshqa she’rlarni keltirib o‘tish mumkin. Maqsud Shayxzoda "Navoiy" she’rida (1939) klassik o‘zbek shoiri Navoiyning badiiy obrazini mahorat bilan gavdalantirgan bo‘lib, uni Xalil Rza ham ozarbayjon tiliga san’atkorlik bilan tarjima qilgan.

“Toshkentnoma” lirik poemasi Shayxzodaning eng go‘zal asarlaridan biridir. Uning 1073-yilda ozarbayjon tilida nashr qilingan ikki jildlik “Tanlangan asarlari”da bu asar Ozarbayjon xalq shoiri Narimon Hasanzodaning tarjimasida berilgan. Shoirni asarning ilk tarjimoni sifatida e’tirof etish joiz. Lekin bu lirik poema Xalil Rza tarjimasida o‘zgacha bir tarovat kasb etadi. Tarjimon asarni erkin tarjima qilgan bo‘lib, go‘yo yangi bir asar yaratgandek taassurot qoldiradi. Asarning g‘oyasi, ma’no va mazmuni saqlansa-da, bu erda Xalil Rza Uluturkning o‘ziga xos uslubi, san’atkorligi namoyon bo‘lgan. SHu nuqtayi-nazardan qaraganda, Xalil Rza Uluturk qalbiga yaqin asarni tarjima qiladi va unda o‘zining poetik mahorati bilan o‘ziga xos joziba baxsh etadi. Hatto Shayxzodaning eng yirik asarlari bo‘lmish “Mirzo Ulug‘bek” (tarjimon Nabi Xazri) va “Jaloliddin Manguberdi” (tarjimon E.Borchali) dramatik asarlarini Xalil Rza Uluturk o‘ziga xos yo‘lda, uslubda tarjima qilib, nashr ettiradi. Albatta, bu tarjimada asarni avvalgi tarjimalaridan farqli jihatlari seziladi. Unda Xalil Rzaning tarjimonlik mahorati to‘la namoyon bo‘lgan deyish mumkin. Filologiya fanlari nomzodi, shoir Abbos Abdulla Xalil Rza Uluturkning “Qardoshlik gulchambari” tarjima alьmanaxining (kitobning mas’ul muharriri A.Abdulla) “So‘z boshi”sida shunday fikrlarni keltiradi: “Xalil Rza asarlarni originaldan tarjima qiladi va tarjima qilayotgan shoirining ijodiy mahorati, uslubi, ustun va zaif jihatlarini o‘rganadi, uning barcha asarlarini o‘qib chiqadi, bu bilan cheklanmay o‘sha xalqqning madaniyati, urf-odatlaridan ham xabardor bo‘ladi. Bu tarjimonga badiiy asarning ruhini, g‘oya va mazmunini, o‘sha millatning mentalitetini ifodashga qo‘l keladi. Uni Pushkinni ruschadan, Musa Jalilni tatarchadan, Maqsud Shayxzodani o‘zbekchadan, Firdavsiyni forschadan originalda tarjima etishi faktiyoq ulkan tarjimonlik mahoratidan darak berib turibdi. U aksar tarjimalarida sarbast, ya’ni erkin tarjima ustunlik qiladi. Umuman, Xalil Rzaning ushbu kitobi bilan tanishar ekanmiz, unda turli xalqlarning eng buyuk ijodkorlarining sara asarlari tarjima qilinganiga guvoh bo‘lamiz. Bu kitobda Pushkin ham, YUsuf Bolasog‘un ham, G‘afur G‘ulom ham bor. Muhimi, bu kitobda Xalil Rzaning shoirligi har qadamda seziladi. Ya’ni shoir Xalil Rza tarjimon Xalil Rzadan bir pog‘ona yuksakda turibdi”.

Maqsud Shayxzodaning 70 yilligi u yashab ijod etgan O‘zbekistonda keng tantanalar bilan nishonlandi. Yubiley arafasida asarlari nashr etildi, ilmiy anjumanlar tashkil etildi va h. Ozarbayjon ziyolilari, ilm ahli, shoir, yozuvchilar Shayxzodaning bu yubileyiga katta tayyorgarlik ko‘rdilar va shoirga ehtiromi yuksak ekanligini namoyon etdilar. Shoirning “Aks-sado” nomli kitobida uning eng go‘zal she’r va poemalari jamlangan bo‘lib, uni o‘zbek tilidan ozarbayjon tiliga respublikaning eng taniqli shoirlari tarjima qildi. “Aks-sado” shoirning ijodiy biografiyasini aks ettirgani bilan tadqiqot uchun boy material bera oladi. Bu shoirning eng sara, go‘zal she’rlari va dostonlari jamlangan yaxlit bir asardir. Qayd etish kerakki, avvalroq, ya’ni 1973-yilda Shayxzodaning she’rlar, poema va dramalaridan iborat “Tanlangan asarlari”ning ikki jildi ozarbayjon tilida nashr etilgan edi.

Xalil Rza 25 dan ortiq shoirning she’rlarini ozarbayjon tiliga o‘girdi. “Aks-sado” kitobidagi M.Shayxzodaning “Baxshi”, “Binafsha”, “Bir zamonlar”, "Mənim evlərim", “Kechir meni “yaxshi” de...” she’rlari va “Oqsoqol”, “Uchinchi o‘g‘il” poemalari Xalil Rza tarjiasida Ozarbayjon kitobxonlariga taqdim etildi. 141 sahifalik bu kitobdagi she’rlarni I.Safarli, V.Rustamzoda,

E.Borchali, M.Araz, M.Dilbazi, S.Almazov, I.SHukur. E.Ziyatay, F.Sohib, A.Zeynalli, M.Iskandarzoda, T.Bayram, S.Sarxanli, I.Tabdiq, Ag‘asafo, B.Azaro‘g‘li kabi shoirlar tarjima qilgan.

Umuman olganda, tarjimalik san’ati shoir ijodida o‘ziga xos o‘rin tutadi. “Qardoshlik gulchambari”, “Dunyo derazasi” nomli tarjima kitoblari Xalil Rza Uluturkning zahmatkash va mahsuldor mutarjim ekanligini tasdiqlab turibdi. Tarjima san’atining ilmiy-nazariy muammolaridan bahs etuvchi “SHoirlik va badiiy tarjima”, “Badiiy tarjima badiiy kashfiyotdir”, “Tarjima va badiiy til”, “Poetik tarjimada shoirlik ilmining zarurati” va boshqa maqolalarida u tarjima san’atini chuqur egallagani yaqqol ko‘rinadi. Yuqorida nolari qayd etilgan kitoblardan ma’lum bo‘ladiki, Xalil Rza Uluturk dunyo adabiyotini chuqur o‘rgangan va uning eng go‘zal namunalarini tilimizga mahorat bilan o‘girgan.

U “Dunyo derazasi” kitobida yunon, ojar, bolqar, chex, olmon, yapon, fransuz, ingliz, italyanь, afg‘on, hind, jami 28 xalqning poezziya namunalarini o‘girib, Ozarbayjon tarjima xazinasini yanada boyitdi. Bu kitobda ba’zi o‘lkalardan poetik namunalar borki, bu o‘lkalarning badiiy namunalari ilk marotaba Xalil Rza Uluturk tarjimasida o‘quvchilar hukiga havola etilgani bilan ulkan ahamiyat kasb etadi. Bu kitobdan avval nashr etilgan “Qardoshlik gulchambari” almanaxida o‘sha vaqtdagi SSSR xalqlarining poetik namunalari kiritilgan. Bu alьmanax 10 yildan so‘ng “Turon gulchambari” nomi bilan yanada mukammal, to‘liq shaklda nashr etildi. Kitobdagi asarlar turkiy tilli xalqlarning – o‘zbek, qozoq, qirg‘iz, qrim turklari, tatar; Qatron Tabriziy, Ganjaviy, Xoqoniy, Tusiy, Sayib Tabriziy, Vazeh, Shahriyor, Beqdash, Rudakiy kabi klassik Ozarbayjon mutafakkirlarining (fors tilidan tarjima) asarlaridan iboratdir.

Natija / *Conclusion*

Xalil Rza Uluturkning turkiy tilli xalqlarning mushtarak adabiy merosi bo‘lgan XI asrning yodgorligi “Qutadg‘u bilik” dostoniga murojaati uning muhtasha obidamizga muhabbatidan, qolaversa, asarda ko‘tarilgan muammolar, falsafa va siyosiy masalalarda yondashishda YUsuf Bolasog‘uniyning ilmiy va badiiy tafakkuridan hayratlanishi natijasidir desak yanglishmaymiz. Insonning ishq va ilm bilan bir butun holda yuksaklikka ko‘targan holda sharh etgan, uning qudratini nazm ila qalamga olgan muallif fikrlari Xalil Rza Uluturk qalbida olovlangan turkchilikka muhabbati bilan uyg‘undir. Bu asar odob, arkon, davlat, davlat birligi, inson qudrati va boshqa jihatlar haqidagi maktab, falsafa dunyosidir (bu borada monografiyaning ilk faslida batafsil yozilgan). Sakkokiyning “Ulug‘bek madhi” asari esa gumanistik ruh bilan sug‘orilgan, Maqsud Shayxzodaning “Mirzo Ulug‘bek” tragediyasi tarjima va tadqiq etarkan ularni tilimizga o‘girishga kuchli bir ehtiyoj sezadi. Bu ehtiyoj esa dunyoning eng buyuk astrologi, eng odil hukmdori Mirzo Ulug‘bek va uning saroyi shoiri Sakkokiy donoligiga muhabbatidan yaratilgandir (Almaz Ülvi ilə həmmüəllif).

Ədəbiyyat / *References*

1. Əlizadə Əsgərli. Milli ideal mücahidi. Bakı, “Elm”, 2005.
2. Xəlil Rza Ulutürk. Maqsud Şeyxzadənin bədii yaradıcılığı. Bakı, “Elm”, 1980.
3. Xəlil Rza Ulutürk. Maqsud Şeyxzadə. Bakı, “Bilik” cəmiyyəti, 1978.
4. Xəlil Rza Ulutürk. Mən Şərqəm. Bakı, “Elm”, 1994.
5. Xəlil Rza Ulutürk. Turan çələngi. Bakı, “Qaff –Poliqraf”, 2005.
6. Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri *(dövrlər, simalar, janrlar, təmayüllər).* Bakı, “Qartal”, 2008.
7. Almaz Ülvi. Xəlil Rza Ulutürk özbək ədəbiyyatının tədqiqatçısı və tərcüməçisi kimi. “Ədəbi əlaqələr. III toplu”. Bakı, “Qartal”, 2008.

Халил Рза Улутурк и узбекская литература

Обид Шофьев
Докторант Азербайджано-Туркмено-Узбекского отдела литературных отношений Института литературы имени Низами Гянджеви НАНА, доктор философии по филологии. Узбекистан.
E-mail: shofiyev@mail.ru

Резюме. В азербайджанской литературе и литературоведении знаменитый поэт и учёный Халил Рза Улутурк известен и как исследователь и переводчик узбекской литературы. Трудно назвать переводчика, сделавшего более переводов узбекской поэзии на азербайджанский язык, чем Халил Рза Улутурк. Вначале им были изучены жизнь и творчество известного писателя Магсуда Шейхзаде в сфере литературных связей Азербайджана и Узбекистана. Из его изысканий известно, что он неоднократно бывал в Узбекистане, использовал оригинальные литературные источники и дружил с рядом узбекских литераторов. В творчестве Халила Рзы переводческое искусство занимает особое место. Переведённые им на узбекский язык стихи «Окно в мир» и «Букет Турана», помимо подтверждения его как трудолюбивого и плодовитого переводчика, пополнили также список его переводов узбекской литературы.
Ключевые слова: Халил Рза Улутюрк, Максуд Шейхзаде, азербайджанская поэзия, узбекская поэзия, перевод

"Şeyx Sənan" mövzusunun yayılma trayektoriyası: Əlişir Nəvai

Lütviyyə Əsgərzadə
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr
https://orcid.org/0000-0002-8078-3484

Annotasiya. Hələ tarix yazılmadığı bir zamanda ərəb folklorunda yaranan və İslamla birlikdə Yaxın və Orta Şərqə yayılan mövzunun yayılma trayektoriyası çox əhatəlidir. Təsəvvüfü düşüncəni içinə alan mövzu; "Şeyx Sənan" əfsanəsi və Şeyx Sənan ismi Türk ədəbiyyatında, Divan şeirində; Yunus Əmrə, Nəsimi, Qazi Bürhanəddin, Füzuli, Şah İsmayıl Xətai, Bağdadlı Ruhi, Qövsi Təbrizi, XVIII əsrin əvvəllərində yaşayan Arpaəminizade Sami, Namiq Kamal, Seyid Əzim Şirvani yaradıcılığında tez-tez zikr edilib. Azərbaycanda Üzeyir Hacıbəyov "Şeyx Sənan" adlı opera, Mehdi bəy Hacınski "Şeyx Sənan əfsanəsi" adlı risalə (rus dilində), Hüseyn Cavid "Şeyx Sənan" adlı faciə, Fəxri Uğurlu isə "Şeyx Sənan" adlı hekayə yazıb. Məşhur hekayə yalnız Şərqdə deyil, Avropada da; Fransa, İngiltərə, İsveç, Avstraliya, Almaniya, Polşa tədqiqatçılarına və oxucularına da tanışdır. Q.Tassi əsəri 1857-ci ildə fransız dilinə tərcümə etmiş, ingilis alimi Eduard Braun "Məntiq-üt tayr"dən bəhs edərkən, Şeyx Sənanı ayrıca xatırlatmış", H.Ritter "Şeyx Sənan" hekayəsinin təhlilini vermişdir. Bu mövzuda yazılanlar içərisində Əlişir Nəvainin Şeyx Sənan qissəsinin də öz yeri var. "Şeyx Sənan" mövzusunun yayılma trayektoriyası izlənilən məqalədə (XII-XXI) Əlişir Nəvainin "Qisseyi-Sənan"ı araşdırılacaq.
Açar sözlər: F.Əttar, "Şeyx Sənan", Şərq, Avropa, tərcümələr, əsərlər, Əlişir Nəvai

http://dx.doi.org/10.29228/edu.156
Məqaləyə istinad: Əsgərzadə L. (2020) *"Şeyx Sənan" mövzusunun yayılma trayektoriyası: Əlişir Nəvai.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 202-211
Məqalə tarixçəsi: göndərilib – 03.03.2020; qəbul edilib – 13.03.2020

Spread areal of the subject "Sheikh Sanan": Alishir Navai

Lutviyya Asgarzadeh
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr
https://orcid.org/0000-0002-8078-3484

Abstract. Propagation and development trajectory of the theme of "Sheikh Sanan" emerging in Arab folklore and spreading with Islam and the Middle Eastis is very extensive. Subject that includes Sufi thought: the legend "Sheikh Sanan" and the name Sheikh Sanan are often found in the Islamic-Turkish literature, Divan poetry; Khagani Shirvani's, Yunus Emre's, Nasimi's, Gazi Burhanaddin's, Fuzuli's, Shah Ismail Khatai's, Baghdad Ruhi's, Govsi Tabrizi's, Arpaeminizade Sami's, Namik Kamal's,

Seyid Azim Shirvani's and M.Shahriyar's works. In Azerbaijan, Uzeyir Hajibeyov wrote the opera "Sheikh Sanan", Mehdi Bey Gadzhinsky – the treatise "The Legend of Sheikh Sanan", Huseyn Javid – the tragedy "Sheikh Sanan", and Fakhri Ugurlu – Sheikh Sanan. The famous work not only in the East, but also in Europe; in France, England, Sweden, Australia, Germany and Poland, is also known to researchers and readers. G.Tassi translated this work into French in 1857, and the English scientist Edward Brown, speaking of "Mantig-ut tayr", mentioned about "Sheikh Sanan", H.Ritter analyzed the novel "Sheikh Sanan". The story of Sheikh Senan by Alishir Navain has a special place among the works written on this subject. The article tracing the spread areal of the "Sheikh Senan" theme (XII-XXI) will be investigated by Alishir Navai's "Gisseyi-Sanan".
Keywords: F.Attar, "Sheikh Senan", East, Europe, translations, works. Alishir Navai

http://dx.doi.org/10.29228/edu.156
To cite this article: Asgarzadeh L. (2020) *Spread areal of the subject "Sheikh Sanan": Alishir Navai.* «Comparative Literature Studies», Issue I, pp. 202-211
Article history: received – 03.03.2020; accepted – 13.03.2020

Giriş / *Introduction*

İlk dəfə Şeyx Fəridəddin Əttarın "Töhfətül-moluk" adlı risaləsi vasitəsi ilə yazılı ədəbiyyata gətirilən Şeyx Sənan mövzusunun Yaxın və Orta Şərqdə yayılma və araşdırılma trayektoriyası genişdir. XII əsrdən XXI əsrə qədər uzun bir yol qət edərək böyük şöhrət qazanan "Şeyx Sənan" mövzusunun elmi fikirdə ərəb folklorunda yaranması və səlib yürüşləri dövründə bütün İslam aləminə yayılması fikri yer alsa da, bunun əksinə olan; İbn Səqqa-Şeyx Sənanın gürcüstanlı və Şeyx Sənanın ilk türk şeyxi olması kimi fikirlər də son zamanlar müxtəlif məqalələrdə yer alıb. Dəyişməyən bir şey var, o da mövzunun yarandığı gündən bu günə qədər diqqət mərkəzində olması (XII əsrdə yazılan mövzuya XXI əsrdə Fəxri Uğurlu "Şeyx Sənan" adlı hekayə yazıb), tərcümə vasitəsi ilə geniş şəkildə yayılıb, müxtəlif dillərdə; ərəb, fars, türk, rus, Azərbaycan və s. əsərlər; opera, risalə, məsnəvi, poema, qəzəl, şeirlər yazılmasıdır. Yaxın və Orta Şərqdə bu qədər məşhur olan "Şeyx Sənan" hekayəsi Avropa, Fransa, İngiltərə, İsveç, Avstraliya, Almaniya, Polşa tədqiqatçılarına və oxucularına da tanışdır. Hələ 1857-ci ildə Гarşin de Tassinin əsəri fransız dilinə tərcümə etməsi, ingilis alimi Eduard Braunun "Məntiq-üt- teyr"dən bəhs edərkən, tərsa qızına aşıq olmuş Şeyx Sənanı ayrıca xatırlatması", avstraliyalı alim J.Hammer və H.Ritterin "Şeyx Sənan" hekayəsini təhlil etməsi bunun bariz örnəyidir. Yaxın və Orta Şərq və Avropa olaraq mövzunun yayılma trayektoriyası kimi, araşdırma arealı da geniş və əhatəlidir.

Əsas hissə / *Main part*

İranlı Mənuçehr Mortozəvi və Əbdüləmir Səlimin fikrincə; "dastan ("Şeyx Sənan") o böyük şairin (Əttarın) yüksək xəyalının, zehni təəssüratının məhsulu" [1, s.133], "Şeyx Sənan şairin özü", hadisələrsə "şairin özünün başına gələnlərdir" [1, s.133]. Bəzi tədqiqatçılar hekayənin böyük sufi şair Fəridəddin Əttarın "xəyali uydurması" olması və Ə.Səliminin "Şeyx Sənan"da məqsəd şairin özüdür" [2, s.5] – fikri ilə razılaşsa da, "Şeyx Sənan mövzusunda əsər yazan ilk müəllifin Əttar olması fikri ilə razılaşmır [2, s.6]. İskəndər Palanın fikrincə, Şeyx Sənan mövzusu ilk dəfə "Qəzalinin Töhfət-ül - Molk" adlı əsərində işlənmişdir" [3, s.14]. İ.Palanın ortaya atdığı "mövzunun ilk dəfə Qəzali tərəfindən işlənməsi fikri ağılabatan sayılsa da, təsdiqini tapmayıb" [4, s.1574]. Mortəzəvinin "Şeyx Sənan"

əsərini Əttarın "yüksək xəyalının və zehni təəssüratının məhsulu hesab etməsi" [1, s.133] fikri ilə razılaşmaq mümkün deyil. Şeyx Sənanla əlaqədar təsvir olunan hadisələrin cərəyanı nöqteyi-nəzərindən "onun ilk folklor mənbələrini Ərəbistanda axtarmaq lazımdır", – fikrini yürüdən, "Şeyx Sənan motivlərinin ərəb folklorunda yaşaması haqqında müəyyən nəticələr əldə edən tədqiqatçı Z.Əkbərov yazır: "Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin vəfatının dörd yüz illiyi keçirilən zaman İraqdan dəvət olunmuş şərqşünas alim Hüseyn Əli Məhfuz "Şeyx Sənan" dastanının ərəb folklorunda yaşadığını bizə söylədi" [2, s.7].

Folklordan gələn hər şeyin həqiqətdən çox əfsanə, rəvayət kimi qəbul olunması faktdır, halbuki, folklor xalqın hafizəsində yaşatdığı tarixdir. Buna "yazılmayan tarix" də deyilir. Folklordan gələn "Şeyx Sənan" dastanı kimi, Şeyx Sənanın tarixi şəxsiyyət olmasına da şübhə ilə yanaşılır. Halbuki tarixi şəxsiyyətlərin zaman içərisində əfsanələşməsi hadisəsi çoxdur. Bu problem, bir çox tədqiqatçını düşündürmüş, araşdırmalar aparılmışdır. Uzun müddət keçmiş SSRİ tərkibində yaşayan ölkə olaraq Azərbaycanda tədqiqatların çoxu ideologiyanın hömranlıq etdiyi, Ərəb-İran-Türk mənbələrinə əl yetmədiyi bir zamanda aparıldığından birtərəfli araşdırılmış, yalnız müstəqilliyimizi qazandıqdan sonra qadağalar aradan qaldırılmış, tədqiqatçılara İran, Türkiyə və s. arxiv və kitabxanalarında araşdırma aparmaq imkanları yaranmışdır. Məlum olmuşdur ki, bu sualın cavabını tapmaqda Türkiyə arxiv və kitabxanalarında (İran məxəzləri Z.Əkbərovda daha çoxluq təşkil edir) istənilən qədər material; qamus, təzkirə, tərcümə, araşdırma, monoqrafiya və məqalələr var; Əhmədi Dasitan-i Əbdürrəzzaq, Gülşəhri "Mantıkut-tayr", "Mostarli Ziyai Şeyh Sənan məsnəvisi", "Şeyx Əbdurrəzzaq (Şeyx Sənan) dastanın Anadolu turkcəsindəki ilk cevirisi", Yusuf Babür "Şeyx Şənan qissəsinə dair", "Mütərcimi bilinməyən bir Şeyx Sənan məsnəvisi", Oğuz, İlhan "Gələnəyin yenidən ürətilməsi bağlamında Əttar, Gülşəhri və Əlişir Nəvainin məsnəvilərində Şeyx Sənan qissəsi" və s. Bu mənbələrdə "Şeyx Sənanın varlığı və tərsa qızı ilə eşqi haqqında bir-birinə oxşar, bir-birini tamamlayan, həmçinin bir-birindən fərqli, biri diğərinə zidd, maraqlı məlumatlar verilmiş, müxtəlif rəylər irəli sürülmüşdür; "bəzi azərbaycanlı, fars-tacik, özbək, türkmən, rus və fransız alimlərinin fikrincə, Şeyx Sənan əfsanəvi bir şəxsin adı" [2, s.6] olsa da, bəzi müəllflərin fikrincə, Şeyx Sənan tarixi şəxsiyyətdir [5, s.14]. Hətta Hüseyn Baykaraya görə, Şeyx Sənan Əttarın mürşüdüdür: "Deyirlər ki, o həzrətin (Əttarın) əyninə irşad xirqəsini geydirən Şeyx Sənan olmuşdur" [5, s.6-7]. Fəridəddin Əttarın da bir sufi şeyxi olması Hüseyn Baykaranın fikirlərinin doğruluq payını artırır. Məhəmməd Qeyasəddin "Qeyasolloğə" əsərində "Şeyx Sənanın yeddi yüz müridi olduğu, Əttarın da bu müridlərdən biri olması və Sənanla tərsa qızınını eşqi haqqında qısa məlumat verir; "Deyirlər ki, Qövsüləzzəmin bədduasından bir tərsa qızına aşiq olmuş və islam dinindən çıxmış, lakin sonradan qeyb aləmindən gələn hidayət onu qolundan qaldırmış, yenə əvvəlki kimi, kəşf və kəramət sahibi olmuşdur." Əttarın Şeyx Sənanın müridi olmasından Mövləvi Qulam Sərvər Lahuri, Əbdorrəhman ibn Əhməd də bəhs edib; "Sənan bir də özü ilə birlikdə yeddi yüz nəfər müridi olan bir şəxsin adıdır ki, o yeddi yüz müriddən dörd yüzü əsil, doğru, kamala çatmış müridlər idi. Xacə Şeyx Fəridəddin Əttar da o kamil müridlərdən biridir" [6, s.576]. Əttarın kamil mürid olması haqqında məlumatları onun tərcümeyi-halından bəhs edən təzkirə və qamus müəllifləri də təsdiq etmiş, onun sufiliyə başlaması, Beytül-haramı ziyarət etməsi, Ərəbistanda bir çox sufi mürşidi ilə görüşməsidən yazmışlar. Bunlar da Əttarın Ərəbistanda olarkən Şeyx Sənana müridlik etməsi faktını inadırıcı edir. Həzrəti Əli deyir: "Danış səni tanıyım." Bu baxımdan "bəzən övliyanın dilindən verilən bir cümlə onun mənəvi yolçuluğun hansı mərhələsində olması, hal və məqamları barədə təsəvvür yaradır, Həllac Mənsurun dilindən verilən "Mənimçün Bağdad və biyaban eyni bir şeydir", – cümləsi onun artıq vəhdət məqamına yetişməsindən, bəşəri sifətlərdən arınmasından xəbər verdiyi" [7, s.43] kimi, Əttarın din və təsəvvüfün bütün incəliklərindən bəhs edən, "İslam ensiklopediya"sı sayıla bilən "Təzkirətül-Övliya" əsərini yazması onun sufi alimi olması faktını təsdiq edir. "Təsəvvüfi traktat və lüğətlərin verdiyi bütün bilgilər açıq və gizli şəkildə" [7, s.43] əksini tapdığı "əsərdə övliyaların dili ilə ən incə irfani mətləblər, təsəvvüfi yolçuluğun səbr, şükr, təvəkkül, fəna, bəqa və s. məqamları, xəlvət, üzlət, təcrid, təfrid, vəcd, təvacüd və s. kimi irfani anlayışların daxili mənaları aydın və anlaşıqlı bir dillə açıqlanmışdır" [7, s.45]. Sənanın əslən haralı olması məsələsi

də hər zaman müzakirə obyekti olub, nədənsə tədqiqatçılar onu Ərəbistanda aramış, qədim zamanlardan Ərəbistanda Səna adlı şəhər və Suriyada Şam yaxınlığında Səna adlı qəsəbənin olması faktı üzərində durularaq Şeyx Sənanın Səna şəhərində (Yəmən) və ya Şam yaxınlığındakı (Suriya) Səna qəsəbəsindən çıxması ehtimal olunub. Həm Şərq, həm də Avropa ədəbiyyatşünasları; İbn Xəlikan, Əbu Səid və Şəmsəddin Sami [9, s.296; 10, s.14-19], Helmut Ritter [11, s.387] daha çox lüğət müəllifləri Səna şəhərinə və ya qəsəbəsinə mənsub olan şəxslərin "Sənai", "Sənani təxəllüsündən istifadə etdiklərini və bu təxəllüsü daşıyan şəxslərin içərisində məşhur din xadimlərinin; şeyxlərin, üləmaların olduğu qeyd edilir. Ş.Sami "Sənani" adı ilə məşhur olan bir din xadimi haqqında yazır: "Sənani (Əbubəkir Əbdürrəzzaq ibn Humam İbn Nafi) məşhur-üləma və hədisşünaslarından olub Sənalıdır..." [9, s.296]. Əbdürrəzzaq Sənani haqqında ilk geniş məlumatı verənlərdən biri Şəmsəddin Əbül Abas İbn Xəlikandır" [10, s.14-19]. İbn Xəlikan, Əbu Səid və Ş.Sami qeydlərində Sənada Əbdürrəzzaq adlı məşhur bir din adamının olduğundan bəhs edilib. Hətta "Sudi əfəndi Hafiz Şirazinin qəzəllərinin şərhində Şeyx Sənan deyərkən, Əbdürrəzzaq Yəmənini nəzərdə tutub." Alman tədqiqatçı Helmut Ritter isə, Sudinin Seyx Sənan haqqındakı şərhi ilə razılaşmır, "Sudi "Şərhi-Hafiz"də bizim şeyximizi (Şeyx Sənan) Əbdürrəzzaq Yəməni adlandırır. Hərgah o, bununla hicri 211-ci ildə vəfat etmiş ənənəvi Əbdürrəzzaq ibn Hümam Əs-Sənanini nəzərdə tutursa, onun ibn Səd 5/399, İbn Xəlikan tərəfindən verilmiş tərcümeyi-halında və "Təhdib-ət-təhdib"də əlifba sırası ilə adı göstərilən yerdə belə sərgüzəştlər haqqında heç bir şey deyilmir" [11, s.387]. Bir fikrə görə, "çox ehtimal ki, Sudi Gülşəhrinin yazdığı hekayənin təsiri ilə Şeyx Sənanın Əbdürrəzzaq olduğunu iddia edir. "Əhmədi və Ziyaiyə görə Şeyx Sənan - "Şeyx Əbddürrəzzaq"dır. Fikirlər haçalansa da, Sami, Sudi, Xəlkan kimi, "hekayədəki şəxsin Əbubəkr Əbdürrəzzaq bin Hümam bin Nafi olduğunu söyləyənlər daha çoxdur və "XIII və ya XIV əsrdə yaşaması ehtimal olunan Əhmədi, Yunus Əmrə və XVI əsr şairi Ziyainin mətinlərində "Əbdürrəzzaq" adının keçməsi, Şeyx Sənanın Əbdürrəzzaq Sanani ilə əlaqəsinin çox əskiyə dayandığını göstərilməkdədir" [4, s.1575]. A.Gölpınarlı, Yunus Əmrənin bir beytini açıqlarkən hekayənin mənşəyi mövzusunda "Nefehat"da Şeyx Hammad maddəsinde yer verilən bir hekayəni qısaca nəql edərək – "Əcaba Şeyx Sənan hekayəsi bu hadisədənmi yarandı?" – deyə sual edir. Hədisdə deyilir: "Şam alimlərindən biri İbn Saqqa və Abdülkadir Geylani ilə birlikdə Bağdada zamanın şeyxi möhtərəmini ziyarət etməyə gedirlər. Yolda gedərkən İbn Saqqa şeyxə cavabını bilməyəcəyi bir şeyi soruşmağı təklif edir. Abdülkadir Geylanidən başqa yanındakı iki nəfər bunu qəbul edirlər. Bağdada çatıb şeyxin hüzuruna çıxdıqlarında şeyx İbn Saqqaya "Görürəm ki, səndən dinsizlik alovu yüksəlir" – deyir. Aradan illər keçir, İbn Saqqa Rum məmləkətinə göndərilir. Orada padşahın qızına aşıq olur. Padşah qızını ona vermək üçün İbn Saqqanın xristiyan olmasını şərt qoşur, İbn Saqqa da bunu qəbul edir" [4, s.1572-1631]. Səid Nəfisinin fikrincə də, Şeyx Sənan dastanının məhz "İbn Səqqanın əhvalatına bir az qol-qanad verərək yaratmışlar." İbn əl Əsirin "Tarixi-kamil" əsərində İbn Səqqanın hekayəti bu şəkildə verilir: "Hicrətin 506-cı ilində Həmədanlı vaiz Yusif Əyyub oğlu Bağdada gəlmişdi. O, abid və zahid bir adam idi. Orada vəz etdiyi zaman din alimi olan İbn Səqqa adlı kişi yerindən durdu və onun qəlbini incidəcək bir məsələ soruşdu. Yusif ona dedi: "Otur, mən sənin danışığından kafərlik iyi duyuram. Mənə elə gəlir ki, sən öldüyün zaman islam dinindən başqa dində öləcəksən", "elə oldu ki, bir qədər keçəndən sonra İbn Səqqa Rum məmləkətlərinə getdi və orada xristian oldu" [12, s.174]. İbn əl Əsirin bu məlumatını ərəb tarixçisi İbn Xalkan da təsdiq edir. İbn Səqqanın rəvayətinin xülasəsi belədir: "Bu sözdən (Həmədanlı Yusifin İbn Səqqaya dediyi sözdən) bir müddət keçdikdən sonra, Rum padşahı tərəfindən xəlifənin yanına xristian elçi gəldi. İbn Səqqa elçinin yanına gedib, onu yoldaşlığa qəbul etməsini xahiş etdi. Əlavə olaraq bunu da eşitdirdi ki, islam dinini buraxıb, xristian dinini qəbul edəcəkdir.. elçi onu yoldaşlığa qəbul etdi, birlikdə Qəstəntəniyyəyə tərəf yola düşdülər. Ruma çatdıqda İbn Səqqa xristianlığı qəbul etdi və xristian olduğu halda öldü." İbn Səqqa ilə Şeyx Sənanın eyni adam olması fikri ərəb və fars tədqiqatlarında daha genişdir. Xəqani Şirvani Şabran qalasında həbsdə olarkən Rum qeysərinə məktub yazaraq ona yardım etməsini xahiş edərkən, İbn Səqqa – Şeyx Sənanı xatırlayır:

Səqqa oğlu kimi atım riqanı, teyləsanı?
Zünnar asım, bərnəs geyim, olum donuz çobanı? [13, s.149].

Şairin bu şeiri İranda müxtəlif varianlarda "Puri Səqqa – Şeyx Sənandır" şəklində şərh edilib; "Bədəl sazəm bezonnar o bebərnəs, Reda və teyləsan çun Puri Səqqa." Şeirində Şeyx Sənanı Saqqa oğlu adlandıran (qeyd edək ki, "Səqqa" Ərəb imperiyası zamanı şəhər su sahiblərinə verilən addır) Xaqaninin yaşadığı dövrü, anasının da bir nəsturi qızı olması, Borçalı ilə biolojik bağının və üçüncü kürəkəninin Borçalıdan olması və əsərlərində bir neşə dəfə Sənanın adını çəkməsindən görünür ki, şair Sənanın tərcümeyi-halını yaxşı bilirmiş.

Fəriddədin Əttar "Vəhdəti-vücud" fəlsəfəsi və "Şeyx Sənan" hekayəsi. Əsasını "vəhdəti-vücud" fəlsəfəsi təşkil edən "Şeyx Sənan" hekayəsinin məzmunu belədir: "Quşlar özlərinə şah seçmək qərarına gəlirlər. Bu zaman vaxtı ilə Süleyman peyğəmbərin elçisi olmuş Hüdhüd quşu deyir ki, onlara ancaq Qaf dağının arxasında gizlində yaşayan Simruğ şah ola bilər. Hüdhüdün məsləhəti ilə Simruğun yanına yola düşməyə hazırlaşan quşlar bu səfərdə hüdhüddən onlara bələdçi olmağı xahiş edirlər. Uçuş başlanır. Yol çox uzun və əziyyətli olduğundan quşlar bir az tərəddüd edirlər, bəziləri geri qayıtmaq istəyirlər. Hüddüd quşların geri dönmək istəyində haqlı olmadıqlarını sübüt etmək üçün onlara bir sıra hekayələr nağıl edir. Bu hekayələrdə əsasən, təsəvvüfi həqiqətlər söylənilir. Hüdhüdün quşları ikna etmək üçün danışdığı Şeyx Sənan hekayəsi də bunlardan biridir. Hekayədə danışılır ki, əlli il Kəbədə ibadətlə məşğul olan Şeyx Sənan bir neçə gün özünü yuxuda Ruma səfər edən görür. Bu yuxunun izi ilə bir neçə mürüdü ilə Ruma səfər edir. Rumu gəzib dolaşan Şeyx Sənan tərsa bir gözəlin önündə çaşıb qalır. Qız Şeyxin bütün ağlını və etiqadını əlindən alır, "Din evinə rəxnə" salır. Müridləri Şeyxi bu yoldan qaytarmaq üçün ona nəsihətlər versələr də, onu bu yoldan çəkindirə bilmirlər. Qızın eşqi Şeyxin qəlbini yandırıb-yaxır. Şeyx gözələ qəlbini açaraq, ona öz eşqini bəyan edir. Qız şeyxin yaşını yada salır, lakin şeyxin israrı qarşısında ona dinindən keçməyi, çərab içib, quranı yandırmağı, "zünnar" bağlamağı şərt qoyur. Tərsa qızına bütün tələblərini yerinə yetirəcəyini söz verən Şeyxi kilsəyə aparırlar. Müridlərin ah-fəğanına etina etməyən Şeyx şərab içməyi qəbul etsə də, digərlərini qəbul etmir. Şərab içən Şeyx onun təsiri ilə zünnar bağlayır, dərviş xirqəsini yandırır. Tərsa qızı ona bir il donuz güdməyi də söyləyir. Şeyx bir il də donuz çobanı olur. Şeyxin bu halını görən müridləri geri dönürlər. Bu zaman yolda şeyxin müridlərindən biri ilə rastlaşırlar, əhvalatı ona söyləyirlər. O şəxs müridləri Şeyxi yalnız buraxdıqları üçün danlayır. Müridlər Ruma geri dönüb Şeyxləri üçün 40 gün 40 gecə ibadət edirlər. Nəhayət, duaları qəbul olunur. Bir gecə müridlərdən birinin yuxusuna Məhəmməd Peyğəmbər girir və gülümsəyərək deyir ki, artıq Sənanın qəlbinə girən qubar silinmişdir, o, yenidən müsəlman olacaqdır. Müridlər Şeyxin olduğu yerə gələndə həqiqətən də, onu zünnarsız, nurlar içində görürlər. Əməlindən peşman olan Şeyx müridləri ilə birlikdə Kəbəyə tərəf gəlir. Bu zaman sevgilisi də onun ardınca gəlir və canını təslim edir. Şeyx Əttar qızın ölümünü belə səciyyələndirir: "O bir damcı idi, həqiqət dənizinə doğru getdi", yəni ölüm onu "məcazi aləmdən uzaqlaşdırıb həqiqətə-vücudi küllə apardı" (Gölpınarlı, 1968:). Şeyx Əttarın bu fikri Qurani-Kərimin 2-ci surəsinin (16)-cı ayəsində deyiliələrlə eyniyyət təşkil edir: "Həqiqətən biz onun (Allahın) tərəfinə qayıdacağıq" (İnna ileyhür raciun). "Quran"ın 55-ci surəsinin (26)-cı ayəsində isə yazılmışdır "onun (torpağın) üzərində olan hər kəs fanidir, köçəcəkdir" ("Mən əleyha külləfası") [15, s.2012]. "Mantık-üt-tayr"da Hüdhüd sufi müridi məqamındadır. Onun bu nağılı söyləməsi müridləri məqmında olan quşlara cəsarət verir, onlar əzmlə yollarına davam edirlər. Bu əziyyətli yolda quşların bəzisi yorğunluqdan, bəzisi aclıqdan ölür, yalnız 30 quş "dərgahın" qapısına çatır. Birisi gəlib qapını açır və onlara geri qayıtmalarını söyləyir. Sonra biri gəlir və onları içəri dəvət edir. İçəri girən quşların qarşısına yazılı kağızlar qoyulur, təklif olunur ki, oxusunlar. Quşlar kağzda bütün etdiklərinin yazıldığını görüncə heyrətə düşürlər. Bu anda Simruğ "təcəlla" edir. Onların gördükləri Simruğ ozlərindən başqası deyildi. Simruğda özlərini, özlərində isə Simruğu görən quşlar Simruğun ard-arda "təcəlla"etməsini görüncə heyrətdə qalırlar. Bu zaman bir səs duyurlar: "Siz buraya "Si mürğ" gəldiniz." Yolçular bundan sonra inanırlar ki, onların axtardığı gizli padşah – Simruğ elə özləridir [14, s.41]. "Simurğ qu-

şu" haqqındakı əfsanəyə görə, "Simruğ Qaf dagında yasayırdı. O, bés yüz ildən bir uçub Misirə gédir və burada günəs Allahı Ranın məbədinə gəlirdi. Lakin Simruğun bəxti gətirmirdi. Məbədə çatan kimi onu tutub yandırırdılar. Simruğ oddan alovdan qorxmurdu. Hər dəfə atəşə atılsa da, külün içərisindən dirilib çıxır, qırx gün Misirdə qalandan sonra uçub Hindistana gedirdi..." [16, s.121].

Təsəvvüfü düşüncəni içinə alan mövzu Türk ədəbiyyatında, Divan şeirində; Yunus Əmrə, İmadəddin Nəsimi, Qazi Bürhanəddin, Füzuli, Şah İsmayıl Xətai, Bağdadlı Ruhi, Qövsi Təbrizi, XVIII əsrin əvvəllərində yaşayan Arpaəminizadə Sami, Namiq Kamal, Əlişir Nəvai, Seyid Əzim Şirvani, Üzeyir bəy Hacıbəyov, Mehdi bəy Hacınski, Hüseyn Cavid, Fəxri Uğurli yaradıcılığında tez-tez zikr edilib. Sədi nə gözəl deyib: "O aləmə aşiqəm ki, bütün mövcudiyyat ondan yaranmışdır." Şeyx Sənan mövzusu və Şeyx Sənan ismi "bütün mövcudatın yarandığı aləmə aşiq olanların" yaradıcılığında tez-tez zikr edilir.

Boşnak şairi Mostarlı Ziyainin (XVI əsr), "Qisseyi Şeyx Abdürrəzzak" [17, s.11]. adlı əsəri isə bu mövzuda yazılmış ilk məsnəvidir və tədqiqatçıların fikrincə, Ziyainin bu məsnəvisi "Türk ədəbiyyatındaki Şeyx Sənan hekayələri içərisində, ən həcmlisi olduğu kimi, bir ədəbiyyat əsəri olaraq ən başarılısıdır" [4, s.1581].

Şəxsiyyət və hekayə olaraq həmişə diqqət mərkəzində olan Şeyx Sənan hekayəsi Əhmədinin, Gülşəhrinin, Ziyainin tərcüməsi ilə türk dünyasına yayılıb. Alman tədqiqatçı Hellmut Ritterin yazdığına görə, "Türkiyədə "Şeyx Sənan" dastanı yalnız Gülşəhri tərəfindən deyil, Zaifi və Fədai Dədənin tərcümələri ilə də yayılmışdır. 1939-cu ildə Türkiyədə Laləli adlı birisinin Əttarın "Şeyx Sənan" hekayəsini xatırladan əsərinə bənzəyən bir əsəri oxuyub" [11, s.387]. Şeyx Sənan hekayəsi Fəridəddin Əttarın "Mətiq-üt-teyr" örnək alınaraq Gülşəhrinin "Məntıq-üt-teyri" ilə yanaşı, özbək şairi Əlişir Nəvainin "Lisanü t-tayr"ində də mövzu olaraq işlənir. Fəriddəddin Əttarın "Şeyx Sənan" hekayəsinin Türk dünyasında geniş yayılmasında Gülşəhri və Əlişir Nəvainin tərcüməsinin böyük rolu olduğu fikri isə tədqiqatçılar tərəfindən qəbul ediləndir. Əlişir Nəvainin özü əsərini "tərcümə" [18, s.2] adlandırsa da, nəvaişünaslar bu fikirlə razılaşmır, əsəri orijinal sayırlar. Yalnız E.Blochet Ə.Nəvainin Nizami, Əttar, Husrəv, Cami kimi böyük İran şairlərinə nəzirə olaraq yazdığı məsnəviləri "bəsit bir tərcümə və təqlid adlandırıb" [19, s.95]. Blochetin bu fikri ilə qətiyyən razılaşmayan rus şərqşünası E. Bertels Əttarla Nəvainin "Lisan-üt-Teyr"ini qarşılıqlı araşdırib və Nəvainin əsərinin Əttarınkına görə daha ustalıqla yazıldığını qeyd edib" [20, s.24-82]. Şeyx Sənan hekayəsi Yaxın və Orta Şərqdə o qədər məşhur olmuşdur ki, bir çox təzkirə müəllifləri; Nəvai ilə müasir olan Sultan Hüseyn Baykara hətta müstəqil əsər kimi onu kitablarına salmışdır. O, "Məcalüsül-üşşaq"ın iyirminci məclisində Əttarın "Şeyx Sənan" hekayəsini bir neçə yerdə nəsrlə yazılmış müdaxilə ilə birlikdə "Zikri-həzrəti-Şeyx Sənan" başlığı altında yerləşdirmişdir" [2, s.30]. Əfqan oxucuları qissə ilə bu əsər vasitəsi ilə tanış olmuşdur. Qarşin de Tassi hind şairi Dekan, Vəcəddin və Məhəmməd İbrahim tərəfindən "Məntiqut-teyr"in hind və urdu dillərinə tərcümə olunduğunu göstərir" [21, s.17].

Fəridəddin Əttar, Gülşəhri və Əlişir Nəvai

Gülşəhrinin ən böyük və ən əhəmiyyətli əsəri "Mantık-ut-tayr"ıdır. Əhməd Kartal "Gülşəhrinin "Mantıkut-tayr"ını türkcəyə Əttardan edilmiş ilk tərcümə" hesab edir" [22, s.297]. Hekayəni ilk dəfə türk dilinə çevirənin Gülşəhri olmasından bəhs edənlər olsa da, hekayənin ondan əvvəl Əhmədi adlı bir şairin tərcümə etməsi haqqında da fikirlər var. Bu fikrin yaranmasına səbəb Gülşəhrinin bir misrasında etdiyi aşağıdakı qeyddir:

"Bir gişi bu dasitanı eylemiş,

İlle lafzın gey çepurduk söylemiş" (Birisi bu dastanı yazmıs, ancaq sozunu çox anlaşılmaz, qarışıq soyləmis). Gülşəhrinin bu qeydi hekayəni müasiri olan Əhmədi mahlaslı Mövləvi bir şairin yazdığı ehtimalını gücləndirməklə yanaşı, həm də "Gülşəhrinin Anadoludakı müstəqil olaraq yazılan ilk Şeyx Sənan qissəsini gördüyünü və onun dilini qüsurlu saydığından əsəri yenidən özünün tərcümə etdiyini təsdiq edir" [23, s.12-13]. Əttarın yazdığı, Əhmədi, Gülşəhri və Əlişir Nəvainin tərcümə etdiyi "Şeyx Sənan" qissəsinin yuxarıda verdiyimiz qısa məzmunu, hekayənin əsasını "vəhdəti-vücud" fəlsəfəsinin təşkil etməsi Gülşəhridən fərqli olaraq, Əttar və Nəvaidə eyni olsa da, hadisələrin baş ver-

məsi və yaşanmasında müəlliflərin anlatması, nəql etməsində də fərqlər yox deyil. Məsələn, Əttar, Gülşəhri və Nəvainin hekayələrində Şeyx Sənanın təqdimi və sonrakı hadisələrin təbii bir bütünlük içində verilməsinə baxmayaraq, fərqli nüanslar da diqqət çəkir. Əttarın Şeyx Sənan hekayəsində hadisələr Şeyxin bir neçə geçə ard-arda eyni yuxunu görməsiylə başlayır. Şeyx yuxusunda özünü Hərəmdən Ruma köçmüş, orada dayanmadan bir bütə səcdə edərkən görür. Dərvişlərinə həmən Ruma gedəcəklərini söyləyir və bərabər yola çıxırlar. Gülşəhridə isə, Şeyx bir gecə yuxusunda Hərəmdən Rum ölkəsinə gəldiyini, bir bütün qarşısında səcdə etdiyini görür. Yarənlərinə bu müşkülü həll etmək üçün Ruma getməli olduqlarını söyləyir və birlikdə Rum ölkəsinə gəlirlər. Həm Əttar, həm də Gülşəhri şeyx yuxusunda gördüyü bütü, yolda qarşısına çıxan keçilməsi çox çətin bir əngəl olaraq yozarlar. Bu əngəl keçilməzsə, yol uzanacaq, keçilirsə yol aydınlanacaqdır. Nəvaidə isə Şeyx yuxusunda özünü Rum ölkəsində bir kilsədə sərxoş bir bütpərəst olaraq görür. Alnına yazılmış olan bu bəladan qaça bilməyəcəyini düşünən Şeyx, zaman itirmədən Rum ölkəsinə getməyə qərar verir və yola çıxır. Şeyxlərinin Ruma getmək üçün yola çıxdığından xəbərdar olan mürüdləri də yoldaş olmaq üçün ona qoşulurlar. Əttar və Gülşəhridə şeyx və dərvişləri Rum ölkəsinə gələrək şəhəri gəzirlər. Nəvaidə isə şeyx və mürüdlərinin yolculuğundan daha ətraflı bəhs edilir. Yolculuq zamanı Şeyxin ruh halı təhlil edilir; könlündə qiyamətlər qopan Şeyx düşüncəli, kədərli və aşiqdir. Mürüdləri Şeyxin bu halının, öyrənmək üçün ona suallar verir, amma ondan cavab ala bilmir və Şeyxin bu qəribə hallarını anlaya bilmirlər. Anlaya bilmirlər ki Şeyxlərinin "könlige sevdalar tüşüp, Kim anı zayi kılurga yavuşup" [24, s.95]. Başqa bir örnək; Əttarda Şeyx xristian gözəli uca bir binanın önündən keçərkən üst qatdakı rəncərənin kənarında oturmuş ikən görür. Gülşəhridə isə gözəlin olduğu yerlə əlaqəli heç bir məlumat verilmir, yalnız onun Rum sultanının qızı olduğu söylənir.

Hər iki hekayədə də xristian gözəlin üzünü açdıqdan sonra şeyx atəşlərə düşüb yanır, gördüyü gözəlin eşqindən başqa, könlündən hər şey silinib gedir. Şeyxin bu halını görüncə, dərvişləri onun başına gələni anlasalar da, nə edəcəklərini bilmirlər. Şeyxlərinə nəsihət etsələr də, bunun heç bir faydası olmaz. Çünki Kəbənin ən etibarılarından olan Şeyx Sənan aşıq olmuşdur. Şeyx, axşama qədər qızın olduğu yerə baxıb durur. Nəvaidə isə, xristian gözəli görüncə könlündə atəşlər çıxan Şeyx Sənan, Əttar və Gülşəhrinin şeyxindən daha təmkinlidir. Nəvainin hətta özünü gözəldən yayındırıb Allaha yalvarır və davamlı dua oxuyur. Ancaq gözəl üzünü açınca hər şeyi unudur, əsasına söykənərək ayaqüstə ancaq dayana bilir. Divara söykənən Şeyx özü də düşdüyü hala çaşıb qalır. Artıq eşq Şeyxin qəlbinə nüfuz etmişdir. Çaş-baş qalan mürüdləri əl açıb Allaha yalvarırlar. Axşama qədər Şeyxin özünə gəlməsini gözləyirlər. Gözəlin qapısında eşq dərdindən alışıb yanan Şeyx Allahından bu qəmli gecənin nədən bitmədiyini soruşur. Bu vəziyyəti Əttar, Gülşəhri və Nəvai aşağıdakı beytlərlə dilə gətirir.

Əttar:
Omr kû tâ vasf-ı gam-hârî konem
Yâ be kâm hîşten-i zârî konem

"Ömür nerde? Tutayım da sevgilimi öveyim yahut muradıma ulaşmak için feryatlara koyulayım" [14, s.87].

Gülşəhri:
Akl kanı kim ögümi dirşürem
Nefs divin gönlüm içinden sürem [25, s.13].

Nəvai:
Köz kanı ol ay yüzige salguça
Ol kuyaş envarıdın nur alguça [24, s.101].

Hekayədə müridlərinin də Şeyxə münasibəti fərqlidir. Əttar və Gülşəhridə şeyxin fəryadını duyan dərvişləri onun başına toplaşır, eşq dərdindən qurtarması üçün şeyxlərinə nəsihətlər verirlər.

Şeyx də onların bu nəsihətlərinə cavab verir. Cavabdan məlum olur ki, Şeyxin xristian gözəlin eşqindən əl çəkməyə niyyəti yoxdur. Nəvaidə isə Şeyx bu söhbətlərdən əvvəl dərvişlərindən ona yardım etmələrini, onu öldürmələrini, yandırıb külünü hər yana sovurmalarını istəyir. Onlara, Siz siz olun, dünyada belə rüsvay olmayın, bir dəfə ölün, bir dəqiqədə yüz dəfə ölməyin deyir. Mürüdləri şeyxlərinin bu halı qarşısında nə deyəcəklərini bilməyib, göz yaşı tökür, nəsihət verməkdə davam edirlər. Əttar, Gülşəhri və Nəvainin hekayələrindəki yalnız bu bölümü araşdıranda belə onların ortaq tərəfləri ilə yanaşı, bənzər və fərqli tərəflərinin də olduğu, əsərin "tərcümə" deyil, orjinal əsər, tərcümə isə orijinal bir tərcümə olduğu görülməkdədir. Oğuz və İlhan araşdırmalarında Nəvainin də "Qisseyi Sənan"ını tərcümə adlandırır və Gülşəhrinin tərcüməsi ilə qarşılaşdıraraq, "Gülşəhrinin hekayənin məzmununa Nəvaiyə görə, daha çox bağlı qaldığını", "Nəvainin əsəri tərcümə edərkən əsas hadisələrdə dəyişiklik etməsə də, bəzi hallarda öz qənaətlərini də istifadə etdiyini", "məsnəviyə xristianlıq dininə aid bəzi xüsusiyyətlərlə rəng qatdığını" vurğulayır [26, s.181]. Məsələn, Gülşəhridə Şeyx belinə zünnar bağlamadan öncə vaftiz edilir. Eyni zamanda, Gülşəhridə Əttarın təsəvvüf eşqinə olan göndərmələri və hadisələri, təsəvvüfə görə yorumlama tərzi görülmür. Əksinə, Gülşəhrinin eşq məsələsində məcazi eşqə yönləndiyi görülməkdədir" [26, s.168-192]. Nəvaidə isə, təsəvvüf Əttardakı kimidir. Məsnəvilərdə yuxugörmə mötivindən istifadə edilməsi də fərqlidir. Gülşehridə Şeyx bir dəfə yuxuda bütə səcdə edərkən gördüyü halda, yuxugörmə Əttar və Nəvaidə dəfələrlə təkrarlanır. Əttar və Gülşəhridə büt Şeyx tərəfindən aşılması çox çətin olan bir əngəl kimi görülürkən, Nəvaidə bu qədər, tale kimi dəyərləndirilir. İkinci yuxu, Şeyxin dəyanətli dostunu gördüyü və Şeyxin qurtulmasına dair müjdənin verildiyi yuxudur. Əttar və Gülşəhridə Şeyxin dostu peygəmbərimizi yuxuda gördüyü halda, Nəvaidə ayıq ikən görür. Xristian gözəl tərəfindən görülən üçüncü yuxuda günəş dilə gəlib danışır. Gözələ yoldan çıxardığı Şeyxin doğru yolu bulduğunu, özünün də onun yolundan getməsini söyləyir. Bu yuxunu Əttarda Şeyx, Gülşəhri və Nəvaidə xristian gözəl görür. Bu zaman Nəvai, yuxuya xristianlıqla əlaqəli bir neçə mötiv əlavə edir. Gülşəhri Şeyx Sənanın-Əbdürrəzzaqın adına və məmləkəti olan Sanana qısaca toxunulurkən, Nəvai Şeyxin kəramətləri üzərində daha çox dayanır. Xristian gözəlin təsvirindən əvvəl kilsə və kilsə əhli verilir. Hər üç əsərdə də Şeyx Sənan və xristian gözəl bənzər lövhələrlə təsvir edilir. Eyni zamanda hər üç əsərdə zaman və məkandan istifadə bənzərlikləri ilə yanaşı, fərqliliklər də nəzərə çarpır. Əsərlərdə istifadə olunan məkanlar Hicaz və Rum ölkəsi, kilsə, bütxanə, mağara və atəşgahdır. Qeyd edək ki, Nəvaidə rast gəldiyimiz atəşgah Əttar və Gülşəhridə yoxdur. Dərvişlərin Şeyxləri üçün məşvərətə çəkildiyi məkan Əttar və Nəvaidə naməlum ikən, Gülşəhridə mağaradır. Əsərdəki məkan fərqlərindən biri də Şeyxin xristian gözəli içərisində görüb gözələ aşıq olduğu məkandır. Bu məkan Əttarda "uca bir məkan", Gülşəhridə "naməlum", Nəvaidə kilisədir. Nəvainin "Şeyx Sənan" qissəsi Əttarın "Məntiq-üt-tayr"ından az da olsa fərqlənir. Əttardakı kimi, Nəvaidə də xristiyan gözəl şeyxə qovuşduğu və müsəlman olduğu an ölür. Hər üç əsərdə incə fərqlərin olmasına baxmayaraq mövzu toxunulmaz olaraq qalır. Hər üç əsərdə əsas hadisələr Rum ölkəsində gerçəkləşir. Gülşəhrinin "Mantıkut-tayr"ı türk dilinə Əttardan edilmiş ilk tərcümə" olaraq qəbul olunduğu halda, Nəvainin əsərinin tərcümə olub-olmaması mübahisəlidir. Əhməd Kartala görə, "Gülşəhri də Əttarın əsərini eynilə tərcümə etməz" [22, s.299]. Həqiqətən də, hər üç əsəri incələdiyimizdə Gülşəhri və Nəvainin Əttarın əsərini fərqli şəkildə tərcümə etdiyi, Nəvainin eyni ilə Əttarda olduğu kimi, təsəvvüf düşüncəsi ilə, Gülşəhridə isə təsəvvüfdən fərqli olaraq eşqın məcazi anlamda verildiyi görülməkdədir.

Nəticə / *Conclusion*

Beləliklə, Əttar, Gülşəhri və Nəvainin "Lisanü t-Tayr"ını qarşılıqlı araşdırdıqda Nəvainin əsərinin Əttarınkına görə daha "ustalıqla" və təsəvvüfü duyğularla yazıldığı və özünəməxsus düşüncələrini də əlavə etdiyi üçün orjinala daha yaxındır. Hətta Nəvaişünaslar onun "Lisanü t-tayr"ından başqa, ayrıca "Qisseyi Sənan" adlı əsərinin olmasını da qeyd edirlər ki, bu fikir qəbul edilən deyil. Çünki Nəvai kimi böyük bir sənətkar "Lisanü t-tayr" əsərində "Şeyx Sənan" qissəsinə bu qədər

"mühim yer verdikdən sonra eyni mövzuda ikinci dəfə əsər yazıb", özü-özünü təkrar etməzdi. "Qisseyi-Şeyx Sənan" Nəvainin "Lisanü t-tayr" əsərindən götürülmüş qissədir. Ancaq çox zaman bu qissəni əsərdən götürüb ayrıca, müstəqil əsər kimi çap etmişlər. Gülşəhriyə nisbətən, Nəvainin məsnəvisi Əttarınkına daha yaxın, təsəvvüf ağırlıqlıdır. Çünki F.Əttarın "Məntiq-üt-tayr" traktatındakı "Şeyx Sənan" hekayəsini XII əsrdə Fəridəddin Əttar hansı duyğularla yazıbsa, Əlişir Nəvai də eyni təsəvvüfü düşüncə ilə tərcümə edib, bu zaman öz düşüncələrini də əlavə etməkdən çəkinməyib.

Ədəbiyyat / *References*

1. M.Mortozəvi. Nəşriyyəyi-danışkədəyi-ədəbiyyati-Təbriz. Təbriz, 1335, № 4.
2. Z.Əkbərov. Cavidin "Şeyx Sənan" faciəsi. Bakı, "İşıq", 1977.
3. İ.Pala. Ensiklopedik Divan şeiri lüğəti. İstanbul, Kapı Yayınları, 2011.
4. S.Yazar. "Mütərcimi bilinməyən bir Şeyx Sənan məsnəvisi/Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic Volume 5/4, 2010.
5. L.Əsgərzadə. "Tarixi əfsanə: "Şeyx Sənan". Üç Çizgi Dərgisi. 2017, Əskişəhər. Azərbaycanlılar dərnəyi yayınevi, Nisan. Mayıs-Haziran, say: 2.
6. Ə. İbn Əhməd. "Kəşfolloğat". Celde əvvəl, fars dilində.
7. F.Əttar. Təzkirətül-Övliya (tərtibçi, transfonliterasiya edən, ön sözün, qeyd və izahların müəllifi N.Məmmədli). Bakı, "Elm və təhsil", 2011.
8. F.Əttar. Mantıkut-Tayr (Çeviren: Mustafa Çiçekler), İstanbul, Kaknüs Yayınevi, 2006.
9. Ş.Sami. Qamus-əl Əlam, 4 cild. İstanbul, 1311, (Türk dilində).
10. İbn Xellikan, Wefayat el-Eyan ve Enbeyül u Ebnai-l-Zeman, Dare-l-Kutub el-ilmiyeh, I cild. Beyrut, 1998, peşgotin r.
11. H.Ritter. Dac меер дер зееле менш велт унт гот ин ден гешихтей дес Ф.Аттер. Лайден, 1965.
12. İbn əl Əsir. Əl-cuz ul-aşir min tarixi əl Kamil. Misir, 1886.
13. Xəqani Ş. Seçilmiş əsərləri. Bakı, 2004.
14. Gölpınarlı Abdülbagi. Fəridəddin Əttar Mantık Al-Tayr, İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2013.
15. Yıldırım S. Kuran-ı Hakim və Açıqlamalı Meali. İstanbul, Dəfinə Yay., 2012.
16. A.Qafqaziyalı. İran Türk ədəbiyyati antologiyası. Ərzurum, Atatürk Unversiteti yayınları, 2002. say: 122 Araşdırmalar Serisi: 47.
17. Mostarlı Ziyai Şeyx Sənan məsnəvisi (haz: Müberra Gürgendərəli), İstanbul, Kitabevi Yayınları, 2007.
18. Ali Şir Nəvayi (1995). Hikayet (Şeyh Sanan Dastanı, 1053-1067. Beyitlər arasında). Lisânü t-Tayr. (Haz. Mustafa Canpolat), Ankara.
19. E.Blochet. Les enluminures des manuscrist orientaux -turcs, arabes et persians de la Bibliotheque Nationale, Paris, 1926.
20. E.Bertels. Nəvai və Əttar. Sbornik Statey "Mi Ali-Şir", izd-vo AN SSSR, Leninqrad, 1928
21. Garshin de Tasi. Mantik Uter u lyo langa dez vuaza Faridaddin Attar, publik an person par, Parij, 1885.
22. A.Qartal. Əttarın Mantıkut-tayrı ilə Gülşəhrinin Mantıkut-tayrının Müqayisəsi, I.Kırşehir Mədəniyyət Araşdırmaları Bilgi Şöləni Bildirilər. Kırşehir, 2004.
23. Gulsehrī, Mantıqut – Tayr. (haz. Ləvənd Agah Sırrı). Tıpkıbasım, Ankara, 1957.
24. M.Canpolat. Ali Şir Nevai Lisanüt-Tayr. Ankara, Türk Dil Kurumu Yayınları, 1995.
25. Yavuz Kamal. Gülşəhrinin Mantıkut-Tayrı (Gülşen-name), T.C. Kültür ve Turizm Bakanlığı Kütüphaneler ve Yayımlar Genel Müdürlüğü (e-kitap).

26. N.Oğuz. E.İlhan. Ənənənin yenidən ürətilməsi bağlaminda Əttar, Gülşəhri və Əlişir Nəvainin məsnəvilərində Şeyx Sənan qissəsi. Uluslararası Sosyal Araştırmalar Dərgisi, cilt: 7, sayı: 35.

Распространение объекта «Шейх Санан»: Алишир Навои

Лютвия Аскерзаде
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

Резюме. Траектория этого предмета, возникшая в арабском фольклоре в то время, когда история еще не была написана и распространена вместе с исламом на Ближнем Востоке, очень обширна. Предмет, который включает в себя суфийскую мысль; Легенда о «Шейх Санан» и имя Шейх Санан в турецкой литературе, поэзия Дивана; Юнус Эмре, Насими, Гази Бурханаддин, Физули, Шах Исмаил Хатаи, Багдадли Рухи, Говси Табризи, Арпаеминизаде Сами, Намиг Камаль, Сейид Азим Ширвани, живший в начале 18 века, часто упоминаются в их работах. В Азербайджане Узеир Гаджибеков написал оперу «Шейх Санан», Мехди бей Гаджинский написал трактат «Легенда о шейх Санане», Гусейн Джавид написал трагедию «Шейх Санан», а Фахри Угурлу написал «Шейх Санан». Знаменитая история не только на Востоке, но и в Европе; Он также известен исследователям и читателям во Франции, Англии, Швеции, Австралии, Германии и Польше. Г.Тасси перевел эту работу на французский язык в 1857 году, а английский ученый Эдвард Браун, говоря о «Логическом утре», «отдельно упомянул шейха Санана», Х.Риттер дал анализ повести «Шейх Санан». История Шейха Санана Алишира Навои занимает свое место среди работ на эту тему. Статья (XII-XXI), которая следует траектории распространения темы «Шейх Санан», рассмотрит «Гисси-Санан» Алишира Навои.
Ключевые слова: Ф.Аттар, «Шейх Санан», Восток, Европа, переводы, произведения, Алишир Навои

Hüseyn Cavid və Əbdürrauf Fitrət yaradıcılıqlarında milli özünüdərk

Sənubər Səmədova
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: senuber_samedova@mail.ru
https://orcid.org/0000-0001-8467-8908

Annotasiya. Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixi qədim dövrlərdən başlayır. Həm Azərbaycan, həm də Özbəkistan ədəbiyyatında bu əlaqələrin zəngin ədəbi mənzərəsini əks etdirən çoxsaylı mənbələr mövcuddur. Azərbaycan-özbək ədəbi əlaqələrinin öyrənilməsi həmişə aktual maraq doğurub. Məqalədə bu münasibətlər üzərində aparılan tədqiqatlar vurğulanır və onlara yeni kontekstdə nəzər salınması təklif olunur.
Açar sözlər: Hüseyn Cavid, özbək ədəbiyyatı, ədəbi əlaqələr, Əmir Teymur, dramaturgiya, Azərbaycan-özbək ədəbiyyatı, Əbdürrauf Fitrət

http://dx.doi.org/10.29228/edu.166
Məqaləyə istinad: Məmmədov B. (2020) *Hüseyn Cavid və Əbdürrauf Fitrət yaradıcılıqlarında milli özünüdərk.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh.212-217
Məqalə tarixçəsi: göndərilib – 01.05.2020; qəbul edilib – 11.05.2020

National identity in the creativities of Huseyn Javid and Abdurrauf Fitrat

Sanuber Samedova
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: senuber_samedova@mail.ru
https://orcid.org/0000-0001-8467-8908

Abstract. The history of Azerbaijani-Uzbek literary relations dates back to ancient times. Both Azerbaijani and Uzbek literature contain numerous sources reflecting rich literary picture of these relations. Study of Azerbaijani-Uzbek literary relations has always been of topical interest. The article highlights researches on these relations and offers a look at them in a new context.
Keywords: Huseyn Javid, Uzbek literature, literary relations, Amir Teymur, dramaturgy, Azerbaijani-Uzbek literature, Abdurrauf Fitrat

http://dx.doi.org/10.29228/edu.166
To cite this article: Samedova S. (2020) *National identity in the creativities of Huseyn Javid and Abdurrauf Fitrat.* «Comparative Literature Studies», Issue I, pp. 212-217
Article history: received – 01.05.2020; accepted – 11.05.2020

Giriş / *Introduction*

XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanda və Türküstanda cərəyan edən hadisələr və ictimai-siyasi dəyişikliklər ədəbiyyatın qarşısında tamam başqa tələblər və vəzifələr qoyurdu. Bu tələb və vəzifələrin ən ciddiləri milli özünüdərk və milli dirçəliş təmayüllərinin bədii inikası ilə bağlı idi. Eyni zamanda yeni təmayülləri və qayələri geniş oxucu kütlələrinə çatdırmaq və aşılamaq üçün onları, minillik ədəbiyyatın, əsrlərin sınağından çıxmış həmişəyaşar ənənələri ilə uyğunlaşdırmaq lazım idi.

Azərbaycan və özbək ədəbiyyatlarının həmin dövrlərinin ən qabaqcıl ədəbi qüvvələri məhz bu tələb və vəzifələri yerinə yetirməli idilər. Yaradıcılıqları ilə tədqiqatımız üçün xüsusi əhəmiyyət kəsb edən Hüseyn Cavid də, Əbdürrauf Fitrət də mənsub olduqları ədəbi mühitin və ədəbi-bədii mübarizənin ön sıralarında gedirdilər. Burada ədəbi mühitin rəngbərəngliyi və müəyyən mənada mürəkkəbliyi ilə bağlı mühüm bir amili də qeyd etməyə ehtiyac duyulur. XX əsrin əvvəllərində, türkdilli ədəbi mühitdə, xüsusən, Azərbaycanda eyni təmayüllərə, o sıradan, milli dirçəliş və özünüdərk ideyalarına münasibətdə bir-biri ilə yarışan, sözün yaxşı mənasında bir-biri ilə mübarizə aparan müxtəlif ədəbi məktəblər və cərəyanlar da mövcud idi və onların bəzi ədəbi hadisələrə, xüsusən dil və üslub məsələlərinə münasibətləri bir-birindən fərqlənirdi.

Əsas hissə / *Main Part*

Bu nöqteyi-nəzərdən həm Cavidin, həm Fitrətin dili öz dövrü və mühiti üçün məqbul sayılmaqdan əlavə, həm də özündə milli özünüdərk ideyalarının yüksək bədii ifadəsi üçün vacib olan ünsürləri cəmləşdirmişdi. Ən mühümü, bu ünsürlər onların hər ikisinin dilini ortaq türkcəyə doğru aparırdı və bütün türkdilli xalqlar tərəfindən başa düşülməsini asanlaşdırırdı.

Hüseyn Caviddən fərqli olaraq, Əbdürrauf Fitrətin dilində İstanbul türkcəsinin izləri nisbətən az olsa da, ortaq türkcəyə can atmaq və yaxınlaşmaq baxımından yuxarıdakı elmi yanaşmanı müəyyən mənada Fitrətin bədii dili və üslubuna da aid etmək olar. Həm poetik dil və üslub baxımından, həm də yüksək mənəvi dəyərləri tərənnüm etmək baxımından milli özünüdərk qayələrinə xidmət etməklə yanaşı, Hüseyn Cavidin və Əbdürrauf Fitrətin ənənə və novatorluğun sərhədlərini və vəhdətlərini nümayiş etdirən şeirlərindən bir neçə paralel örnəyi nəzərdən keçirək. Bu paralel örnəklərdən birincisi Cavidin "Qız məktəbində" və Fitrətin "Müəllimlər yurduna" şeirləridir. Hər iki şeirdə Azərbaycan və özbək ədəbiyyatlarında artıq o zamana qədər güclü ənənə halını almış bir motiv – maarifin əhəmiyyəti, güc-qüdrəti tərənnüm olunur. Amma onlardan hər birinin ahəngindən tutmuş tərənnüm üsuluna qədər, bənd quruluşundan tutmuş yenilikçi obrazlarına qədər bir çox poetik məziyyətlərində, öz müəllifinin orijinallığı və özünəməxsusluğu göz önündədir. Öncə Cavidin "Qız məktəbində" şeirinə diqqət yetirək:

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
– Pəki, sənin anan, baban varmı?
– Var.
– Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
– Var əfəndim, var… lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
– Çox doğru söz… Bu dünyada sənin ən çox sevdiyin

Kimdir, quzum, söylərmisən?
– Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
– Sonra kimlər?
– Sonra onun göndərdiyi elçilər.
– Başqa sevdiklərin nasıl, yoxmu?
– Var...
– Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar… [1, s.49]

Azərbaycan poeziyası tarixində bir balaca məktəblinin elmə və təhsilə rəğbətini bundan səmimi və bundan təsirli ifadə edən ikinci bir nümunəyə rast gəlmək çox çətindir. Ən mühümü, Cavid qələminin özünəməxsus böyük qüdrəti ondadır ki, o, bu səmimi etiraf və rəğbəti adi məktəblinin deyil, məhz zəngin ailəyə mənsub məktəbli qızın dilindən səsləndirir. Bu məziyyət və ümumən şeirin aşıladığı dəyərlərin orijinal bir üsulla, azyaşlı məktəbli təfəkkürü üçün səciyyəvi və cəlbedici olan dialoq yolu ilə tərənnümü onun təsir gücünü qat-qat artırır.

Fitrətin "Müəllimlər yurduna" şeiri isə elmə və təhsilə rəğbəti tamam başqa üsulla, elm və tərəqqi düşmənlərinə, nadanlığa və cəhalətə qarşı üsyankar çağırışlar vasitəsiylə əks etdirir:

Arkadaşlar, gəlin, birgə cəhalətin evin yıxaq,
Elin gözün bağlı tutan qara pərdələri yırtaq.
Bizik bu gün maarifin aslanları, elm nərləri,
Gəlin, birgə türk elinə doğru – düzgün yollar açaq!
Elləri məhvdən qurtaran elmdir,
Bizi də bu gündən o qurtaracaq! [2, s.37].

İstər Azərbaycanda, istər Türküstanda, istər başqa türkdilli bölgə və məkanlarda elmin və maarifin yeni təhsil və tədris üsulunun tərənnümü və təbliği milli oyanış və özünüdərkə ən güclü təsir göstərən yollardan biri sayılırdı. Ona görə də Cavidin və Fitrətin yaradıcılığında bu ənənəvi mövzunun tərənnümü yeni-yeni çalarlar və xüsusiyyətlər kəsb edirdi.

Şair, şeir və ilham pərisi obrazları da, belə götürəndə, min illər ərzində Şərq poeziyasında ənənəvi obrazlardan hesablanırdı. Buna baxmayaraq, Hüseyn Cavidin "Şeir məftunu" və Əbdürrauf Fitrətin "Şair" şeirlərində həmin obrazların yeni qiyafəsi və cizgiləri çoxəsrlik ənənələri həm məzmun cəhətdən, həm forma cəhətdən zənginləşdirməkdə və yeniləşdirməkdə idi.

Əbdürrauf Fitrətin heca vəznində yazılmış "Şair" şeirində isə poetik mənzərə bir az başqa cürdür. Lirik qəhrəmanın öz sevgilisi ilə söhbəti əsasında qurulmuş poetik səhnənin birinci hissəsində o, başqa bir şairin sevgilisindən eşitdiyi sözlərdən təsirlənərək, öz ovqatını həmsöhbətinə aşağıdakı sətirlərlə çatdırmağa çalışır:

Bu gün ağlar otururdum, sən gəldin,
Bir şairin bir "sözünü" söylədin.
Mən o sözün ruhundakı izlərin,
Sənin gözəl gözlərindən oxudum.
Oxuduqca o izləri
Özüm üçün nə ümidlər toxudum!..
Ümidsiz həyatım çətindir, neynim,
Bax, o "sözü" şair yanına yazmış,
Bir məktubda könül izharın etmiş.
Ruhu üçün ondan mədəd diləmiş [2, s.31].

Müharibələrə və şərə qarşı, insanları, millətləri, dövlətləri bir-birindən ayrı salan münaqişələr və fitnə-fəsadlar əleyhinə həm Azərbaycan, həm özbək poeziyasında kifayət dərəcədə sanballı nümunələr vardır. Əlişir Nəvainin "Bir aləm istəyirəm ki..." qəzəlindən tutmuş Məhəmməd Füzulinin "Padişahi-mülk" qitəsinə qədər, adları rəmzi məna daşıyan "Bəngü-badə" və "Səydü səyyad" əsərlərindən tutmuş XX əsr Azərbaycan romantizminin başqa bir görkəmli nümayəndələri Məhəmməd Hadinin "Əhvali-intibah, yaxud insanların tarixi faciəsi" adlı poemasına qədər bir çox bədii nümunələrdə şərə və fitnə-fəsadlara, haqsızlıqlara və qardaş qırğınlarına qarşı qələmlə mübarizə geniş ənənəyə çevrilmişdir. Hüseyn Cavidlə Əbdürrauf Fitrət də bu ənənəni davam etdirərək bir çox poetik nümunələr yaratmışlar. Bu cəhətdən, Cavidin "Hərb və fəlakət" şeiri ilə Fitrətin "Öyüd" şeiri diqqətəlayiqdir. Hüseyn Cavidin "Hərb və fəlakət" şeiri həcmcə daha böyük, az qala yığcam poema həcmində bir poetik nümunədir. 1916-cı ildə, Birinci Dünya müharibəsinin ən qızğın dönəmində yazılmış və şairin 1917-ci ildə çıxan ikinci şeirlər kitabında ("Bahar şəbnəmləri") birinci yer almış bu şeirlə bağlı başqa bir ciddi məsələ üzərində dayanmaq lazım gəlir. Heç də təsadüfi deyildir ki, sovet dönəmində mövcud ideoloji qadağalar şəraitində "Hərb və fəlakət" şeiri Hüseyn Cavidin ən çox təqib və təzyiqlərə məruz qalan, ən çox təhrif olunan və ixtisara salınan əsərlərindən biri olmuşdur. Bunun səbəbini, həmin haqsızlıqların canlı şahidi olan Turan Cavid belə izah edirdi:

"Cavid yaradıcılığına bəzən, hətta kobud zorakılıq səviyyəsində müdaxilələr çox olub. Bu baxımdan təkcə "Hərb və fəlakət" şeirini xatırlatmaq bəs edər. Şeir əslində üç hissədən ibarətdir. 1958-ci ildə onun yalnız birinci hissəsi, 1984-cü ildə nəşr olunan dördcildlik "Əsərlər"də birinci və üçüncü hissələri çap olunub. "Hərb və fəlakət"in başlıca qayəsi isə onun ikinci hissəsində ifadə olunur" [1, s.5].

"Hərb və fəlakət" şeirinin əvvəlində "Anadolu hərbzadələrinə yardım münasibətilə" adlı müəllif qeydi var. Bu qeydin özü, bir tərəfdən, Hüseyn Cavidin bir millət mücahidi kimi böyük vətənpərvərliyinin parlaq sübutudursa, ikinci tərəfdən, qələmin qüdrətinin ağır və məsuliyyətli dönəmlərdə xalqın və millətin dərdlərinə müəyyən mənada məlhəm, təsəlli və təskin olduğuna dəlildir.

Şeir üç böyük hissədən ibarətdir. Birinci hissədə şair dəhşətli müharibə səhnələrinin ustalıqla təsviri ilə bərabər, eyni zamanda insanlığın faciəli taleyi ilə bağlı dərin fəlsəfi düşüncələrə dalır və bir sıra poetik sualların ardınca bəşər faciəsinə dair ciddi bədii ümumiləşdirmələr və xülasələrə nail olur.

Şeirin ikinci hissəsi, Turan Cavidin vurğuladığı kimi, onun "başlıca qayəsi"ni əks etdirdiyi üçün, üstəlik bizim mövzumuza hər mənada birbaşa əlaqədar olduğuna görə, bu hissə üzərində ətraflı dayanmalı olacağıq. Bu hissə, türkün tarixi qüdrətinin və Turanın şan-şöhrətinin tərənnümü ilə başlayır. Hüseyn Cavidin misilsiz poetik məharətinin bir özünəməxsusluğu da burada üzə çıxır. Belə ki, birinci hissədəki ağır və hüznlü məzmun üçün nisbətən təmkinli vəzni seçən həssas şair – ikinci hissədəki nikbin və qürurverici tarixi şan-şöhrətin təsviri üçün nisbətən yüngül və oynaq vəznə keçir:

Bir zamanlar şərəfli Turanın,
O cihani ğiryui qavğanın
Qəhrəman, bir güzidə evladı,
Türklərin anlı-şanlı əcdadı,
Saldırıb titrədirdi yer yüzünü,
Hökm edər, dinlətirdi hər sözünü,
Nə zaman kişnəsəydi türkün atı,
Qırılırdı bir ölkənin qanatı.
Həp krallar, prenslər, xanlar,
Ulu şahlar, kibirli xaqanlar,
Papalar, həp xəlifələr hər gün,
Diz çökərlərdi türkə qarşı bütün.
Çünki parlardı ərlərin qılıcı,
Həpsi qartal kibiydi saldırıcı.

Həpsi bir zevq alırdı qüvvətdən,
Ululuqdan, müzəffəriyyətdən [1, s.51].

"Hərb və fəlakət" məzmun–mündəricə zənginliyi baxımından Cavidin ən məşhur və ən sanballı şeirlərindən biridir. Bu şeirdə təkcə milli dəyərlərin tərənnümü deyil, ümumbəşəri duyğu və yaşantıların təsviri də kifayət qədər geniş yer tutur. Ümumən, Hüseyn Cavid humanizminin bir qanadını millilik təşkil edirsə, ikinci qanadını ümumbəşərilik müəyyənləşdirir. Ona görə də Cavid romantizmi özünün dərin xəlqi və humanist mahiyyəti ilə Azərbaycan ədəbiyyatını, bütün Şərq və dünya miqyasında şərəflə təmsil edə bilən böyük ədəbi hadisələrdən sayılır.

"Hərb və fəlakət" şeirində Cavid öz oxucularını yalnız millət taleyinin, faciəli mənzərələri ilə tanış etməklə kifayətlənmir, bu ağır faciələr girdabından çıxış yolunu da göstərir. Ümumiyyətlə, Hüseyn Cavid humanizminin ən səciyyəvi və ibrətamiz tərəflərindən biri də onun səmimi və həyata olan nikbinliyidir. Amma bu nikbinlik şairin bəzi müasirlərində olduğu kimi, şüarbazlıq və yersiz pafoslarla deyil, həyatın özündən gələn gərgin dramatizm və dərin psixologizm ilə müşayiət olunur.

"Hərb və fəlakət" şeirinin üçüncü və sonuncu hissəsi müəllifin milli oyanış, özünüdərk və həmrəyliklə bağlı poetik yaşantılarını və çağırışlarını əks etdirir: Şair öz xalqının və millətinin zülm və səfalət girdabından çıxış yolunu yalnız və yalnız milli birlikdə və həmrəylikdə görür.

Əbdürrauf Fitrətin milli birliyə, mübarizəyə çağırış mənasında "Hərb və fəlakət"ə paralel olan, amma həcmcə ondan xeyli dərəcədə yığcam olan "Öyüd" şeirində isə poetik yaşantının ifadəsi kifayət qədər fərqlidir. Fitrət xalq və millət faciəsi ilə bağlı öz təlatümlü duyğularını, çılğın könül çırpıntılarını vətənpərvər bir gəncə xitabən dilə gətirir. Cəmi 11 misradan ibarət olan bu lakonik poeziya nümunəsindən XX əsrin əvvəllərindəki millətpərvər Türküstan gənclərinin müstəmləkəçilik zülmünə qarşı mübariz əhvali-ruhiyyəsi və üsyankar əzmini hiss etmək çətin deyil:

Sənsən igid, sənin gözəl, nurlu gözündə
Bu millətin, səadətin, bəxtin oxudum.
Düşüncəndə, sükutunda həm də özündə
Bu yurd üçün qurtuluşun varlığın gördüm.

Durma, çalış, susma, yarış, əyilmə, yüksəl,
Ürkmə, saldır, qorxma, yapış, yorulma, cum!
El yolunda əngəl olan köhnə qara buludları,
Dağıt yaxıb, yırt biryolluq, rədd et hamısın!
Bacarmasan bu işləri,
Sənin üçün çox ayıbdı.
Yıxıl, gəbər, rədd ol! [2, s.45]

Şairin öz ümid yeri bildiyi, güvəndiyi qüvvəyə nisbətən sonuncu misrada ifadə olunmuş qəzəb və tüğyanının ona olan sonsuz məhəbbətindən və inamından irəli gəldiyini həssas oxucunun düzgün başa düşməsinə ümid edirik.

Bu illərdə çağatay (özbək) ədəbiyyatında pyes janrının inkişafında Əbdürrauf Fitrətin (1886-1937) xidmətləri xüsusilə təqdirəlayiqdir. Fitrət 1920-ci ildə tamamladığı «Hind ixtilalçıları» adlı tarixi pyesini öz ölkəsində senzuradan keçirə bilmədiyi üçün gizli yolla 1923-cü ildə Avropada-Berlində nəşr etdirmişdi. Bundan başqa, Fitrət «Əbu Müslüm», «Əbülfəz xan», «Teymurun məzarı» pyeslərini yazmış və bu əsərlərin də mövzusu tarixi hadisələri əks etdirirdi. Məhz bu əsərlərindəki milliyyətçilik, pantürkçülük və panislamçılıq meyillərində suçlanan Ə.Fitrət 1937-ci ildə həbs olundu və öldürüldü. «Teymurun məzarı», «Oğuz xan», «Çingiz xan», «Uluğ bəy» kimi tarixi əsərləri 1920-ci illərdən belə milli teatr səhnəsində oynandığı halda, 1991-ci ilə qədər nəşr üzü görmədi [2, s.205].

Nəticə / *Conclusion*

Beləliklə, milli oyanış və özünüdərk qayələrinin bədii ifadəsində ənənə və novatorluğun sərhədləri ilə bağlı Hüseyn Cavid və Əbdürrauf Fitrət poeziyasından nəzərdən keçirdiyimiz paralel örnəklər hər iki sənətkarın həm ənənə, həm novatorluq məsələsinə kifayət qədər həssaslıqla və yüksək məharətlə yanaşdığının şahidi oluruq. Sonda belə qənaətə gəlmək olar:

- Azərbaycan və özbək ədəbiyyatlarında, o cümlədən Hüseyn Cavid və Əbdürrauf Fitrət yaradıcılıqlarında milli özünüdərk və oyanış ideyalarının bədii ifadəsi, hər şeydən öncə, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanda və Türküstanda baş verən ictimai-siyasi hərəkat və hadisələrdən qaynaqlanırdı və dövrün, zamanın diktəsi və təsiri ilə sözügedən ictimai-tarixi gerçəkliyin əks-sədası idi.

- İstər Hüseyn Cavid yaradıcılığında, istər Əbdürrauf Fitrət əsərlərində milli oyanışı və özünüdərki əks etdirən şeiriyyət nümunələri həmin dövrdəki Azərbaycan və özbək poeziyalarının bədii cəhətdən sanballı nümunələri sayılmaqla bərabər, hər iki poeziyada milli özünüdərk qayələrinin bədii təşəkkülü və formalaşmasında olduqca mühüm rol oynamışlar. Hər iki sənətkarın, eləcə də hər iki ədəbiyyatın eyni mövzu və motivlərin tərənnümü ilə bağlı kəsişən və üst-üstə düşən ümumi cəhətləri olduğu kimi, bədii məharət baxımından özünəməxsusluqları və fərqli xüsusiyyətləri daha çoxdur. Bu əlamətlər onlardan hər birinin ümumən ədəbiyyat tarixində tutduğu yeri müəyyənləşdirməkdə daha mühüm rol oynayır.

- Milli özünüdərk və oyanış qayələrinin bədii ifadəsində Hüseyn Cavid dühası və Əbdürrauf Fitrət istedadı özlərinə qədərki ənənələri davam etdirməklə bərabər, bu ənənələri yeni-yeni motivlərlə və novatorluq nailiyyətləri ilə xeyli zənginləşdirdilər, eyni zamanda sözügedən qayələri və dəyərləri öz xalqlarının milli mənəvi mülkünə çevirdilər.

Ədəbiyyat/ *References*

1. H.Cavid. Əsərləri (5 cilddə), I cild. Bakı, 2007.
2. Almaz Qasım qızı Binnətova (Almaz Ülvi). Azərbaycan-özbək (cağatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, “Qartal”, 2008.

Национальное самосознание в творчестве Гусейна Джавида и Абдуррауфа Фитрата

Санубер Самедова
Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: senuber_samedova@mail.ru

Резюме. История азербайджано-узбекских литературных связей уходит в древние времена. Как в азербайджанской, так и в узбекской литературе существуют многочисленные источники, отражающие их богатую литературную картину. Исследование азербайджано-узбекских литературных связей, обладающих древней историей, являлось актуальным во все времена. В статье повествуется об исследовательских работах, отражающих данные связи, выражается отношение к ним в новом контексте.

Ключевые слова: Гусейн Джавид, узбекская литература, литературные связи, Амир Теймур, драматургия, азербайджано-узбекская литература, Абдуррауф Фитрат

Camal Kamal və Azərbaycan ədəbiyyatı

Eşqanə Babayeva
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: eshqane@mail.ru
https://orcid.org/0000-0002-4934-4168

Annotasiya. Camal Kamal 60-cı illər özbək poeziyasının nümayəndələrindəndir. Onun, "Süveyda", "Günəşin çeşməsi", "Təfəkkür" kimi şeir kitabları vardır. İncə lirik şeirləriylə yanaşı tərcümə ilə də məşğul olmuş, qərb və şərq ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini özbək dilinə tərcümə etmişdir. Camal Kamal Azərbaycan-Özbək ədəbi əlaqələrinin inkişafında önəmli rola sahib olmuşdur. Onun tərcümələrinin arasında Azərbaycan ədəbiyyatından nümunələr də böyük yer tutur. Məqalədə, Camal Kamalın yaradıcılığı, poetik irsi türk xalqları ədəbiyyatı və ədəbi əlaqələr kontekstində araşdırılmışdır.
Açar sözlər: Özbək ədəbiyyatı, poeziya, Camal Kamal, Azərbaycan ədəbiyyatı, ədəbi əlaqələr

http://dx.doi.org/10.29228/edu.149
Məqaləyə istinad: Babayeva E. (2020) *Camal Kamal və Azərbaycan ədəbiyyatı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 218-223
Məqalə tarixçəsi: göndərilib – 23.03.2020; qəbul edilib – 02.04.2020

Jamal Kamal and Azerbajani literature

Eshgana Babayeva
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: eshqane@mail.ru
https://orcid.org/0000-0002-4934-4168

Abstract. Jamal Kamal is one of the representatives of Uzbek poetry of the 60s. He has books of poetry such as "Suwayda", "Fountain of the Sun", "Thinking". Along with his delicate lyrical poems, he also translated works of prominent representatives of Western and Eastern literature into Uzbek. Jamal Kamal played an important role in the development of Azerbaijani-Uzbek literary relations. Examples of Azerbaijani literature are also included in his translations.
The article is examines the work of Jamal Kamal, in the context of literary relations.
Keywords: Uzbek literature, poetry, Jamal Kamal, Azerbaijani literature, literary relations

http://dx.doi.org/10.29228/edu.149
To cite this article: Babayeva E. (2020) Jamal Kamal and Azerbajani literature. «Comparative Literature Studies», Issue I, pp. 218-223
Article history: received – 23.03.2020; accepted – 02.04.2020

Giriş / *Introduction*

Müasir özbək poeziyasının görkəmli şəxsiyyətlərindən biri də, xalq şairi Camal Kamaldır. O, məşhur şair, gözəl tərcüməçi və alim kimi fəaliyyət göstərmişdir.

Çoxsahəli yaradıcılığa sahib olan C.Kamal, 1938-ci ilin aprel ayında Buxaranın Şafrikan rayonunun Çikaran kəndində dünyaya göz açmışdır. Keşməkeşli ömür yolu sürən şair, hələ körpəykən valideynlərini itirmiş, nənəsinin himayəsində böyümüşdür. Bu ağrı-əzab onun şeirlərində də öz əksini tapmışdır. Fil.e.d. Almaz Ülvi, yazıçının həyatının bu məqamına diqqət çəkərək yazır: "Camal Kamal nənə qucağında, nənə layla-bayatısında, nənə məhəbbətində böyüyüb. Əslində, Məhtabbibi nənənin dərdli zümzümələri onun körpə ürəyinə sığal olub, üç aylıq olanda atasını "xalq düşməni" damğası ilə, daha sonra 6 yaşında anasını itirən Camal Kamal üçün bu, acı nəğmələrin dadı məlhəm idi. Çünki ürəyinin gizli yerində axtardığı valideyn mehrini məhz bu bayatıların ruhunda, nəfəsində tapırdı.

Kimsə atasıyla görüşən zaman,
Baxıb məyus-məyus boyun bükərdim.
Ağrılar, acılar keçdi qəlbimdən,
Min dərdə qatlaşdım hər səhər-axşam.
"Salam, ata!" deyib, bircə dəfə mən,
Atılıb boynuna sarılmamışam,
Böyüdüm, düşmədi dilimdən adı,
Gözümdə yurd saldı möhnət, dərd-haray.
Eh, mənə bir yol da qismət olmadı,
Qoyam qabağına bir piyalə çay" [1, s.8].

Nümunədən də, göründüyü kimi xalq ədəbiyyatına sevgi, bağlılıq, şairin ruhunun bu ab-havada yoğrulmasından, nağıllar-laylalar zümzüməsi altında yetişməsindən irəli gəlir. İlk təhsilinə Çandırda İbn Sina adına məktəbdə başlayan C.Kamal, Buxara Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsindən məzun olmuşdur. Daha sonra Özbəkistan Milli Elmlər Akademiyasında aspiranturaya başlamış, 1971-ci ildə "Lirik poeziyada kompozisiya" mövzusunda dissertasiyasını uğurla müdafiə etmişdir. Beləliklə, elmi və bədii yaradıcılıqla məşğul olan Camal Kamal, həm ciddi elmi tədqiqat işləri aparmaqla, həm də bədii nümunələr verməklə Özbək ədəbiyyatında özünəməxsus yer tutmuşdur. O, eyni zamanda milli məsələləri gündəmə gətirən publisistik məqalələri ilə də diqqəti cəlb etmişdir.

Əsas hissə / *Main part*

Xalq şairi C.Kamal alimliyi ilə yanaşı, incə ruhlu gözəl şairdir. O, 60-cılar nəslinin görkəmli nümayəndəsi hesab olunur. C.Kamal ədəbiyyat aləminə 1968-ci ildə "Aləm girər ürəyimə" (Elem Kirer Yüregimge) adlı şeir kitabı ilə qədəm qoymuşdur. Bu kiçik kitabça ilə geniş oxucu kütləsi toplayan şair, daha sonra "Daş tüğyan" (1970), "Günəşin çeşməsi" (1975), "Təfəkkür" (1979), "Qədəh" (1980), "Süvayda" (1983) və s. kimi onlarla şeir kitabı dərc etmişdir. Vətən-yurd sevgisini özündə ehtiva edən bu şeirlərdə Əmir Teymur, Mirzə Uluğbəy, Babur, Əlişir Nəvai kimi tarixi şəxsiyyətlər dərin ehtiramla yad edilir.

Böyük Nəvainin baş lüğətində
Nə qədər mətləb var – gizli və aşikar
Sözlərin kəhkəşan səltənətində
Süveyda söylənən bir anlam da var [1, s.8].

– deyən şair, Nəvai sənətinə dərin rəğbətini ifadə edir. Şair, Uluğbəyə həsr etdiyi şeirində də, onun tarixi məkanını, - Bu mənzil yer deyil, səma tacıdır/ Bu elmin ocağı, bilik xəzinəsi, / Göylərin ən böyük yer dayağıdır [1, s.8] – deyə vəsf edir. Doğma yurduna, ocağına bağlılıq Camal Kamal poeziyasında vətəndaşlıq qayəsini təşkil edir. Onun qələmə aldığı şeirlər başdan-başa vətən, yurd sevgisi motivləri əsasında qurulmuşdur.

Şairin, "Dəm ötər, dəmlər ötər" şeiri də bu baxımdan diqqəti cəlb edir. Həyata, dünyaya fəlsəfi baxışlarla baxan şair, ilk öncə diqqəti zaman motivinə yönəldərək, onun fəlsəfi mahiyyətini açmağa çalışır. Təkrirdən məharətlə istifadə edən şair, misralar boyunca, ötüb keçən zamana həsrətini ifadə edərək,

Ötməyən kimdi, duran kimdi
Qalan kimdi, deyin? [2, s.188]

– sualı ilə oxucunu dərin düşüncələrə qərq edir. Şair göstərir ki, bir su kimi axan ömürdən geriyə yalnız əbədi duyğular qalır. Bəs bu əbədi duyğular nədir?! İncə ruhlu, lirik şairə görə ötməyən, bitib-tükənməyən, əbədiyyata qədər qalan sadəcə eşq duyğusudur.

Sönməyən bircə günəş,
Bir də eşqimdi mənim.
Ürəyimdə nə qədər
İzlər ötər, hisslər ötər [2, s.188].

Şeirdən bəlli olur ki, əslində bu eşq bir gözələ olan sevgi etirafı deyil, məhz vətənpərvər bir ziyalının dilinə, yurduna duyduğu ülvi məhəbbətidir. Son misraya diqqət yetirək:

El gözüm, dil də canım
Qurban olaq el və dilə,
El və dil vardısa.. candan
Süzülər, sözlər ötər [2, s.189].

Şairin, "Şahimərdan bülbülləri" şeirində də, gül, bülbül məfhumları altında, əslində daha dərin ictimai məzmun özünü ifadə edir:

Şahimərdan, gör necə
Xəndan imiş bülbüllərin.
Süd tək aydın hər gecə
Bir can imiş bülbüllərin.

Bağça-bağda ləhzə-ləhzə
Yandılar, odlandılar.
Ah, səməndər könlümə
Mehman imiş bülbüllərin [2, s.187].

Axıcı bir üslubla qələmə alınan şeirdə, vətən eşqiylə tutuşub yanan aşiqin yaralı qəlbinin fəryadı əks olunur. Şair, "Dəm ötər, dəmlər ötər" şeirində olduğu kimi, burada da, keçmiş gözəl günlərə həsrətini dilə gətirir, dərin hüznlə bütün bunların çeşmətək könlündə qaldığını ifadə edir. "Şahimərdan bülbülləri"ni klassik poeziyadakı gül-bülbül mövzusundan ayıran da elə bu nüansdır.

Şairin, "Geyimim, kəfənim" şeiri də milli duyğularla köklənmişdir. Şeirin ilk misralarında Camal Kamal, sələfləri kimi sözün qüdrətindən bəhs edərək, türk dilinin zərafətini vurğulayır. Şair bədii sənətkarlıq vasitələrdən məharətlə istifadə edərək, duyğularını ifadə edir. Şairə görə dil ağacının şah budağı məhz Türk dilidir. Şairin yaşamı da, ölümü də ana dilinin varlığına bağlıdır:

Xalqımın dili var, - hər sözü atəş,
Hər səsi, hər nəbzi mənə qol-qanad.
Əynimdə - geyimdir, beynimdə günəş,
Onsuz mən nəyəm ki? Quruca bir ad!

Sən dil ağacının şah budağısan,
Özbəkcəm, Türk dilim-zatım, nicatım.
Qorumaq çətinmiş, vəsf etmək asan.
Ölsəm - kəfənimsən, qalsam həyatım [2, s.190].

Camal Kamal, "Ölsəm – kəfənimsən, qalsam-həyatım" misralarıyla öz vətəndaşlıq mövqeyini ortaya qoyur. Ana dilini, doğma yurdunu gözbəbəyi kimi qoruyan şair, xalqın qanını soranlara, fitnə-fəsad çıxaranlara cəsarətlə qarşı çıxaraq, nifrətini bildirir. Onun, "Tarixdə" şeiri bu baxımdan maraq doğurur:

Xalqım, səni öldürmək istəyən
Zalımlar azmı tarixdə?
İlan kimi sürünərək yatan
Casuslar azmı tarixdə? [3, s.35]

Şeir boyu xalqın başına gətirilən fəlakətlər böyük bir acıyla əks olunur. Fil.ü.f.d., dos. T.Həşimova, "Milli-ideoloji məsələlər kontekstində Azərbaycan-özbək ədəbi əlaqələri" adlı monoqrafiyasında bu şeiri tədqiqata cəlb edərək yazır: "Camal Kamalın 1984-cü ildə qələmə aldığı bu şeir, sanki türk xalqlarının tarixinin yığcam xülasəsidir. Türk xalqlarının başına gətirilən müsibətlərin xalqların qanına susayan böyük imperiyalar tərəfindən törədildiyi, xainlərin xalqın taleyinə vurduğu zərbələr, "Gəldilər hamısı çörəyini yeyərək" misrasıyla həm məcazda, həm sözün həqiqi mənasında xalqlarımızın milli-mənəvi, maddi-mədəni cəhətdən talandığını, bütün bu təsirlərin türk xalqlarını məhvetmə siyasətindən qaynaqlandığını Camal Kamal məharət və cəsarətlə bəyan edir" [4, s.140]. Ümumiyyətlə, şairin bütün şeirlərində milli şüur, vətən sevgisi leytmotiv olaraq izlənir. Bu şeirlərin hər biri, axıcı üslubu, yüksək bədii sənətkarlığı ilə diqqəti cəlb edir.

Şairliyi ilə yanaşı Camal Kamal gözəl tərcüməçi kimi də tanınmışdır. Fars, rus və ingilis dilini incəliklərinə qədər bilən şair, 1986-cı ildə R.Fişin "Cəlaləddin Rumi" əsərini rus dilindən, 1994-cü ildə C.Ruminin "Uçmaq üçün qanad yox, amma uçacağam", 1994-2007-ci illərdə isə Məsnəvinin altı cildini fars dilindən [5, s.194-195], Şekspirin əsərlərini isə ingilis dilindən özbək dilinə tərcümə etmişdir.

Klassik Şərq və Qərb ədəbiyyatına dərinliklərinə bələd olan şair N.Gəncəvi, Y.Əmrə, M.C.Rumi, Ş.M.Şəbüstəri, İbn Sina, Ö.Xəyyam, U.Şekspir, O.Balzak, Bualo, A.S.Puşkin, S.Vurğun, B.Vahabzadə, X.R.Ulutürk kimi görkəmli şəxsiyyətlərin əsərlərini özbək türkcəsinə tərcümə etmişdir. Onun bu fəaliyyəti ədəbi əlaqələr baxımından xüsusi ilə əhəmiyyət kəsb edir. Qeyd edək ki, Azərbaycan-Özbək ədəbi əlaqələrinin inkişafında mühüm rolu olan şair, bir çox Azərbaycan ədibləri, xüsusi

ilə də B.Vahabzadə ilə möhkəm dost olmuşdur. O, B.Vahabzadənin bir sıra şeirlərini, eyni zamanda "Şəbi-hicran" və "Fəryad" poemasını da özbək dilinə tərcümə etmişdir [6].

Camal Kamal, dəfələrlə Azərbaycanda olmuş, şairlə bağlı müxtəlif tədbirlər, görüşlər keçirilmişdir. 2017-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şairin anadan olmasının 80 illiyi münasibətilə "Camal Kamal və Azərbaycan ədəbiyyatı" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Akademik İ.Həbibbəyli konfransı giriş sözü ilə açaraq, Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafından və Camal Kamalın müstəsna xidmətlərindən bəhs etmişdir. Konfransda, fil.e.d., A.Ülvinin "Ədəbiyyatın 60-cılar nəslinin görkəmli özbək nümayəndəsi C.Kamal", fil.e.d., Y.Qasımbəylinin "Çağdaş özbək poeziyasının baş canlı klassiki, xalq Şairi C.Kamal", institutun dissertantı S.Səmədovanın "C.Kamal yaradıcılığında Azərbaycan izləri", Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin həmsədri, fil.ü.f.d., dos. G.Aşurovanın "C.Kamalın həyat və yaradıcılığı", professor R.Niyozmetovanın "Ədəbiyyat tədrisinin aktual məsələləri haqqında" mövzularında məruzələri dinlənilmişdir [7]. Bundan başqa, 2017-ci il may ayının 31-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında, eyni zamanda Bakı Avrasiya Universitetində şairlə görüş keçirilmiş, C.Kamal Bakı Avrasiya Universitetinin Fəxri doktor diplomu ilə təltif edilmişdir [8, 9]. 2019-cu il oktyabrın 10-da isə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində, C.Kamalın, dahi şair Nizami Gəncəvinin özbək dilinə tərcümə etdiyi "Xəmsə"sinin təqdimatı keçirilmişdir [10].

Qeyd edək ki, C.Kamalın şeirləri dəfələrlə azərbaycan dilinə tərcümə edilərək, geniş oxucu auditoriyasına təqdim edilmişdir. Onun şeirlərini əsasən Əhəd Muxtar, bir qismini isə Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürk tərcümə etmişdir. Şairin, "Günəş çeşməsi" ("Quyaş Çeşmesi") şeir kitabı, 1989-cu ildə Azərbaycan dilinə tərcümə edilərək, Bakıda nəşr edilmişdir. B.Vahabzadə, Camal Kamal poeziyasından nümunələrin Azərbaycan oxucusuna təqdim etməyi özünə şərəf hesab etdiyini bildirərək kitabın önsözündə yazır: "..Mən C.Kamalın əsərlərini imkan olduqca dilimizə çevirmək və bu əsərlərdən ibarət kitab buraxmaq fikrinə düşdüm. Bu arzunu özbək dilini yaxşı bilən qələm yoldaşlarımdan Xəlil Rza və Əhəd Muxtara bildirdim və biz bu çətin, lakin səriştəli işə başladıq. Bu gün Azərbaycan oxucularına təqdim etdiyimiz bu toplu həmin arzuların nəticəsidir" [11, s.3]. Qeyd edək ki, kitabda şairin 53 şeiri və 2 poeması yer alır. Şeirlərdən 31-ni və poemaları Əhəd Muxtar, 16 şeiri Xəlil Rza, 6-sını isə B.Vahabzadə dilimizə tərcümə etmişdir. Bundan başqa, "Turan çələngi" kitabında da, X.R.Ulutürkün tərcüməsində şairin 10 şeiri oxuculara təqdim edilmişdir [12]. B.Vahabzadənin "Axı dünya fırlanır" kitabında isə şairin "Şahimərdan bülbülləri", "Dəm ötər, dəmlər ötər", "Nə əcəb afəti-cansan", "Geyimim, kəfənim" və "Aşiqanə" şeirləri Azərbaycan dilinə tərcümə edilmişdir.

Nəticə / *Conclusion*

Tədqiqat nəticəsində xalq şairi Camal Kamalın həm özbək, həm də Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutduğunu, ədəbi əlaqələrimizin inkişafında önəmli rola sahib olduğunu görürük. Sələflərini ehtiramla yad edən şair, klassik və modern şeiri birləşdirərək, bir çox yeniliklərə imza atmışdır. Onun yaradıcılığında türkçülük, vətən-yurd sevgisi, bir sözlə milli-mənəvi duyğular üstünlük təşkil edir. Alim, şair və tərcüməçi kimi fəaliyyət göstərən Camal Kamal Şərq və Qərb ədəbiyyatına dərindən bələd olmuş, görkəmli şəxsiyyətlərin əsərlərini özbək türkcəsinə tərcümə etmişdir. Bu fəaliyyəti ilə təkcə özbək ədəbiyyatına deyil, türk dünyasına misilsiz xidmət göstərmişdir. Qeyd edək ki, şairin şeirlərinin dilimizə tərcümə edilməsi, haqqında elmi və publisistik məqalələrin yazılması, dəfələrlə görüşlərin, tədbirlərin keçirilməsi Azərbaycan-Özbək ədəbi əlaqələrinin inkişafına və möhkəmlənməsinə böyük təkandır. Bu, eyni zamanda Camal Kamal poeziyasının Azərbaycan ədəbiyyatındakı önəmini göstərir.

Ədəbiyyat / *References*

1. A.Ülvi. Camal Kamal: Dünya 60-cılarının görkəmli özbək nümayəndəsi. "525-ci qəzet", 2017, 31 may.

2. B.Vahabzadə. Axı dünya fırlanır. Şeirlər, poemalar, tərcümələr. B.Vahabzadə. Bakı, "Yazıçı", 1987.
3. T.Kocaoğlu. Çağdaş Özbek Şiiri. Ankara, 1 şubat, 1996. https://dergipark.org.tr/tr/download/article-file/136356
4. T.Həşimova. Milli-ideoloji məsələlər kontekstində Azərbaycan-özbək ədəbi əlaqələri. T.Həşimova. Bakı, "Papirus", 2019.
5. A.Alimbekov. Özbekistan`da Celâleddîn Rûmî Eserlerinin Araştırılması. Dünyada Mevlâna İzleri Uluslararası Sempozyumu Bildiriler Serisi 2, Konya: Sümam Yayınları, 13-15 Aralık, 2007.
6. Bəxtiyar Vahabzadənin "Fəryad" əsəri özbək dilində. Bakı, 24 aprel 2019. http://medeniyyet.az/page/news/48377/Bextiyar-Vahabzadenin-Feryad-eseri-ozbek-dilinde.html
7. AMEA-da Özbəkistanın Xalq Şairi Camal Kamalın yubileyi qeyd olunub. Bakı, 1 iyun 2017. http://www.xalqcebhesi.az/news/culture/20649.html
8. Özbək şairi Camal Kamalın 80 illik yubileyi Bakıda qeyd olunub. Bakı, 31 may 2017. https://report.az/edebiyyat/ozbek-sairi-camal-kamalin-80-illik-yubileyi-bakida-qeyd-olunub/
9. Camal Kamal Azərbaycan ədəbiyyatının təəssübkeşidir. Bakı, 31 may 2017. https://azertag.az/xeber/Camal_Kamal_Azerbaycan_edebiyyatinin_teessubkesidir-1066271
10. Nizami Gəncəvinin özbək dilinə tərcümə olunmuş "Xəmsə"sinin təqdimatı keçirilib. Bakı, 10 oktyabr, 2019. http://www.science.gov.az/news/open/11252
11. C.Kamal. Günəş çeşməsi. C.Kamal. Bakı, "Yazıçı", 1989.
12. X.R.Ulutürk. Turan Çələngi. X.R.Ulutürk. - red. Ş.Salmanov. Bakı, "Elm", 1992.

Джамал Камал и Азербайджанская литература

Эшгана Бабаева
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви.
Азербайджан.
E-mail: eshqane@mail.ru

Резюме. Джамал Камал - один из представителей узбекской поэзии 60-х годов. Он является авторов стихотворных сборников «Сувейда», «Солнечный источник», «Мышление». Наряду с изящными лирическими стихами его перу принадлежат многочисленные переводы. Он перевел на узбекский язык произведения выдающихся представителей западной и восточной литератур. Джамал Камал сыграл важную роль в развитии азербайджано-узбекских литературных связей. Среди его переводов большое место занимают образцы азербайджанской литературы.
В статье рассматривается творчество Джамала Камала в свете поэтического наследия тюркских народов и литературных связей.
Ключевые слова: Узбекская литература, поэзия, Джамал Камал, Азербайджанская литература, литературные связи

ƏMİR TEYMUR ƏDƏBİYYATDA

XX əsr Azərbaycan və özbək ədəbiyyatında Əmir Teymur mövzusu

Təranə Həşimova
Filolologiya üzrə fəlsəfə doktoru, Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutu. Azərbaycan.
E-mail: tarana_nur@yahoo.com.tr
https://orcid.org/0000-0001-6823-037X

Annotasiya. Məqalədə Hüseyn Cavidin "Topal Teymur" əsərinin bədii-tarixi mahiyyətindən və özbək ədəbi mühitində əks-səda doğurmasından, müstəqillik dövründə Azərbaycan və özbək ədəbiyyatında Əmir Teymur obrazının tarixə yeni baxış müstəvisində yaranmasından bəhs olunur. Əbdürrauf Fitrət, Abdulla Aripov, Siracəddin Səyyid kimi özbək şairlərinin və müasir Azərbaycan yazıçısı Yunis Oğuzun yaradıcılığında Əmir Teymur obrazı ədəbi əlaqələr kontekstindən araşdırılır.
Açar sözlər: Özbək, Azərbaycan, müasir, milli, Əmir Teymur, Sovet İttifaqı

http://dx.doi.org/10.29228/edu.167
Məqaləyə istinad: Həşimova T. (2020) *XX əsr Azərbaycan və özbək ədəbiyyatında Əmir Teymur mövzusu.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 224-230
Məqalə tarixçəsi: göndərilib – 01.06.2020; qəbul edilib – 09.06.2020

The subject of Amir Teymur in the Azerbaijani and Uzbek literature of the 20th century

Tarana Hashimova
Doctor of Philosophy in Philology, Institute of Oriental Studies named after Ziya Bunyadov. Azerbaijan.
E-mail: tarana_nur@yahoo.com.tr
https://orcid.org/0000-0001-6823-037X

Abstract. The article considers the artistic and historical essence of the Huseyn Javid`s "Topal Teymur" and his admirable cognition in the Uzbek literary surround, as well as the appearance of the historical image of Amir Teymur in the history of Azerbaijan and Uzbek literature in the period of independence. The image of Amir Temur is explored in the context of literary research in the works of Uzbek poets such as Abdurraouf Fitrat, Abdullah Aripov, Siradjaddin Sayyid and famous Azerbaijani writer Yunis Oguz.
Keywords: Uzbek, Azerbaijan, modern, national, homeland, Amir Teymur, the Soviet Union

http://dx.doi.org/10.29228/edu.167
To cite this article: Hashimova T. (2020) *The subject of Amir Teymur in the Azerbaijani and Uzbek literature of the 20th century.* «Comparative Literature Studies», Issue I, pp. 224-230
Article history: received – 01.06.2020; accepted – 09.06.2020

Giriş / *Introduction*

Böyük türk coğrafiyasının tarixən işğallara məruz qalması onların özünümüdafiə, milli kimliyini təsdiq ideologiyalarının dirçəlməsi ilə nəticələnmişdir. Həqiqətə, tarixə söykənərək özünümüdafiə ideologiyasının dirçəlməsi və türkün tarixi şəxsiyyətlərini obrazlaşdırmaqla, milli kimliyə dönüş Azərbaycan və özbək ədəbiyyatında, xüsusilə şeirində tarixi həqiqətlərin bədii əksini yaratdı.

Əsas hissə / *Main Part*

Türk millətinin tarixindən qoparılmasına yönəlmiş siyasətin əsasını böyük türk hökmdarlarını, tarixi şəxsiyyətlərini, sərkərdələrini yetişən nəsillərə qəddar, zalım, qanlar tökən, yurdları viran qoyan talançı, mədəniyyətdən, elm və ədəbdən uzaq mənfi obraz kimi tanıdılması təşkil edir. Bu insanlıqdan uzaq, təkcə türk millətinin deyil, bəşəriyyətin tarixini hədəfləmiş siyasətlərə cavab olaraq, Azərbaycan və özbək ədəbiyyatında tarixi şəxsiyyətlərin həqiqətlərə söykənərək bədiiləşməsi insanlığın və bəşəriyyətin tarixinə sədaqət rəmzidir. Belə tarixi şəxsiyyətlərdən biri də 1370-1507-ci illər arasında mövcud olmuş Teymurilər dövlətinin banisi Əmir Teymurdur. Məlumdur ki, Əmir Teymur yeganə hökmdardır ki, fəth etdiyi torpaqlarda xalqın mədəniyyətinə toxunmurdu. Xalqın milli varlığı olan ana dilinə yasaq qoymurdu. Türk əmiri bilirdi ki, bir xalqı kökündən qoparmağın yolu dilindən keçir. Əmir Teymur isə bu qeyri-insani məqsəddən uzaq idi. Eyni zamanda öz dilinə, tarixinə böyük sevgilə dolu hökmdar qələmə alınan əsərlərin türk dilində yazılmasının tərəfdarı idi. "Əmir Teymur dövrünün türkcə ilk bədii əsəri tarixi fakt olaraq Əmirin özünün 1381-ci ildə uyğur əlifbası ilə yazılmış on bir sətirlik "Kitabəsi" sayılır" [1, s.1].

Ümumiyyətlə, türk övladlarını bir bayraq altında toplayaraq böyük bir dövlət quran Əmir Teymurun türk xalqlarının yaddaşında və bədii təfəkküründə özünəməxsus yeri vardır. Onun "Güc ədalətdədir" kimi məşhur bəşəri fikri yaşamın, ədəbiyyatın qayəsinə çevrilmişdir. Təsadüfi deyil ki, "İsmayıl bəy Qaspiralı Əmir Teymurun məşhur "güc ədalətdədir" sözünü özünün "Mükalimeyi salatın" əsərinə epiqraf kimi seçmiş, əsərdə Əmir Teymurun obrazını yaratmışdır" [2, s.4].

Hüseyn Cavidin "Topal Teymur" əsəri özbək ədəbi mühitində

Tarixçi, başqırd inqilabı və azadlıq hərəkatının öndəri Əhməd Zəki Vəlidi Toğan (1890-1970) hələ gənc ikən "Türk və tatar tarihi" adlı kitabında, eyni zamanda 1920-ci ilə qədər Kazan və Ufada çap olunmuş kitablarında Əmir Teymur haqqında, onun fəaliyyəti haqqında fərqli fakt və mülahizələr irəli sürdü. Qızıl Orda xanı Toxtamış və Əmir Teymur arasında döyüşlər, Əmir Teymurun zəfəri məsələlərinə yeni baxış müstəvisindən yanaşan Vəlidi Toğanın tarix elmində doğru və cəsarətli addımı ədəbiyyata da yol açmış oldu. Azərbaycan ədəbiyyatında İstanbulda təhsil alan, İstanbul ədəbi-elmi mühitindən bəhrələnən Hüseyn Cavid (1882-1941), Əmir Teymurun türk xalqlarının tarixində müstəsna müsbət rolunu ədəbiyyata gətirdi. 1925-ci ildə böyük Azərbaycan dramaturqu "Topal Teymur" əsərini qələmə alır. Əmir Teymur haqqında yazılan bədii-tarixi əsərlər içərisində ən mükəmməli Hüseyn Cavidin beşpərdəli dram əsəri hesab olunur. Millətinin, xalqının dininə, dilinə, tarixinə, milli-mənəvi sərvətlərinə sevgiylə dolu Hüseyn Cavid "Topal Teymur"u yaratmaqla tarixə söykənərək özünün milli düşüncələrini əks etdirdi. Böyük turançı, böyük türkçü Hüseyin Cavid Əmir

Teymurun – Teymurləngin müsbət xarakterinə, müdrik düçüncəsinə, ədalət prinsiplərinə diqqət verməklə türk millətinin tarixinə, qan yaddaşına, mücadilə salnaməsinə aydınlıq gətirdi. İstər Hüseyn Cavid, istərsə də Əmir Teymur şəxsiyyətini obrazlaşdıran digər şair və yazıçılar türkün tarixinə yönələn zərbələrin hardan gəldiyini gözəl anlayır, həqiqətləri sənətin diliylə üzə çıxarmağa çalışırdılar. "Topal Teymur" əsərində Hüseyn Cavid bütün yaradıcılığını birləşdirən eyni amala sadiq qalır. Onun qınaq obyekti ayrı-ayrı insanlar yox, insanları yetişdirən zaman və cəmiyyətdir, hadisələrin yaranma səbəbidir. Bu amaldan qaynaqlanaraq Əmir Teymurun sərkərdəlik istedadına, idarəçilik təfəkkürünə, hökmranlıq müdrikliyinə heyranlığını bildirən şair, onun istedad və bacarığının orta əsrlər mühitində solduğuna diqqət çəkir. "Topal Teymur" əsəri Əmir Teymurun 1402-ci ildə Ankara döyüşündə İldırım Bəyazidlə üz-üzə gəlməsindən bəhs edir. Əsərin "Topal Teymur" adlanması ilk olaraq insanda əsərdə Əmir Teymurun tənqid obyekti olacağı fikrini oyadır, lakin Hüseyn Cavidin millilik mahiyyətli bədii-fəlsəfi təfəkkürü əsərin süjet xətti boyu özünü göstərir. "Əmir Teymur və İldırım Bəyazidi qarşı-qarşıya gətirən dramaturq birinin axsaması, digərinin görmə qüsurlu olmasını türk dünyasını fəlakətə sürümələri ilə əlaqələndirir. Bu fəlakətin, qardaşın qardaşa qarşı çıxmasının düşmən ölkələrin güclənməsinə səbəb olmasını obrazların fiziki qüsuru ilə ümumiləşdirir. Topal Teymurun dilindən İldırım Bəyazidə – "Əgər dünyanın zərrə qədər dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı yox məmləkətlərə sənin kibi bir kor, bənim kibi bir topal müsəlləh olmazdı", – söyləyir [3, s.302].

Yaşadığı dövrdə müəyyən siyasi baxışların qurbanı olan yaradıcı insanların əsərləri qadağalar qoyulmasına baxmayaraq, xalqın mənəvi ehtiyacı olduğundan bütün sərhədləri, senzuraları aşa bilir. Azərbaycan-özbək xalqları eyni ictimai-siyasi vəziyyəti bölüşdükləri üçün istər Hüseyn Cavid, istər Əbdülhəmid Çolpan, Əbdürrauf Fitrət və digərlərinin dram əsərləri xalqın qan yaddaşı, tarixi kimliyinə söykəndiyi üçün sevilirdi, pyeslər tamaşaya qoyulur, əsərlər tərcümə olunurdu. Maraqlı ədəbi faktlardan biri odur ki, Hüseyin Cavidin yaradıcılığı, xüsusilə "Topal Teymur" əsəri özbək ədəbi mühitində, ədəbi əlaqələrdə mühüm hadisədir. Bu hadisənin təməl səbəbi isə milliliyə, tarixiliyə, qan-gen yaddaşına bağlılıq idi. 6 əsri adlayıb öz aktuallığını saxlayan Əmir Teymur şəxsiyyəti Hüseyn Cavid kimi vətənpərvər mütəffəkkiri cəlb etdiyi kimi, öz ata yurdunda, Özbəkistanda da şairlərin ilham qaynağına çevrilmişdir. Tanınmış özbəkşünas alim Almaz Binnətova özünün "Hüseyn Cavid və özbək ədəbi-mədəni mühiti" məqaləsində Hüseyn Cavidin "Topal Teymur" əsərinin Bakıda səhnəyə qoyulmaqla yanaşı, özbək ədəbi mühitinə yol alaraq Daşkənddə səhnələşdirilməsindən, bir müddət sonra isə tamaşaya qadağa qoyulmasından bəhs edir. Hüseyn Cavidin repressiya qurbanı olmasının əsas səbəbləri "Topal Teymur" və "Peyğəmbər" əsəri göstərilmişdir. Sovet ideologiyasına zidd olaraq Əmir Teymur obrazını böyük türk oğlu, ədalətli, bəşəri ideyalarla yaşayan, çoxtərəfli fəaliyyətə malik hökmdar kimi qələmə alması qoyulan qadağanın əsası idi. Maraqlıdır ki, dramaturqun 37-ci il repressiya qurbanına çevrilməsində dəlillərdən biri kimi "Topal Teymur" əsəri qeyd olunur və paralel olaraq özbək mütəffəkiri 37-nin qurbanlarından olan Əbdürrauf Fitrət də (1885-1938) 1919-cu ildə "Temur sag'anasi" əsərini yazmışdır. Əbdürrauf Fitrət yüksək sənətkarlıq bacarığına sahib ədib olaraq, Türküstanı sözü və əməlləri ilə azadlığa aparacaq Cədid hərəkatının, Cədid ədəbiyyatının öncüllərindən idi. Öz yüksək ideyalarının təbliği naminə mükəmməl bədii sənət örnəkləri yaradan Fitrət Əmir Teymur kimi cahana hökmranlıq edən sərkərdənin doğma torpaqlarının rus işğalına məruz qalmasını rahatlıqla qarşılaya bilməzdi. Eyni zamanda Fitrətin yaradıcılığında Əmir Teymura müraciətlə yazdığı şeirlərlə yanaşı, bu mövzuda məqalələri də vardır. Yazdığı məqalələrində Fitrət Əmir Teymuru Turanın qüdrətli hökmdarı kimi yad edir, məhəbbət və ehtiramını nümayiş etdirirdi. Professor H.Baltabayev Fitrətin yaradıcılığından bəhs edərkən, Əmir Teymurun adının sənətkarın otuzdan çox əsərində istifadə olunduğunu yazmışdır [1, s.25]. Eyni zamanda Fitrətin «O'g'uzxon», «Abulfayzxon" [5] əsərləri tarixi faktlar əsasında yazılmış bədii əsərlərdir.

Hüseyn Cavid, Əbdürrauf Fitrət, Əbdülhəmid Çolpan, Abdulla Qədiri və digər Azərbaycan və özbək ədibləri 37-ci illərin qurbanı oldular, sürgünlərdə məhv edildilər, kütləvi məzarlıqlara kömüldülər. Lakin özləri vaxtsız və amansızlıqla soyuq məzarlara kömülsələr də yaratdıqları

əsərlərlə tarixdə yaşamaq haqqı qazandılar. 1991-ci ildən ölkələrimiz müstəqillik qazandıqdan sonra əsərləri tirajlarla çap olundu, həyat və yaradıcılıqları tədqiqat obyektinə çevrildi, tərcümə olunaraq Azərbaycan, özbək səhnələrində həyat qazandı. “Dahi dramaturqun "Topal Teymur" pyesini 1992-ci ildə özbək dilinə çevirən istedadlı özbək şairi Usmon Kuçkar həmin əsəri 1998-ci ildə "Əmir Teymur" adı ilə "Cahon adabiyeti" ("Dünya ədəbiyyatı") ədəbi-bədii, ictimai-publisistik jurnalında özbək dilində dərc etdirmişdir [1, s.1]. Hüseyin Cavidin 130 illik yubileyi çərçivəsində istər Azərbaycanda, istərsə də Özbəkistanda xeyli işlər görüldü. Bu dövrdə Usmon Kuçkor Hüseyn Cavidin 130 illiyi günləri çərçivəsində "Şeyx Sənan" və "Səyavuş" əsərlərini də özbək dilinə çevirmişdir.

Müasir Azərbaycan və özbək ədəbiyyatında Əmir Teymur obrazı: Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra sovet dönəmində, sovet idealogiyasında Əmir Teymur, Nadir şah kimi tarixi şəxsiyyətlərin qaniçən, cəllad kimi təqdiminə son verildi, böyük Hüseyn Cavidin yüksək amallarının davamı olaraq Azərbaycan şeirində, nəsrində Əmir Teymur obrazı böyük türk xaqanı kimi yer aldı. Yazıçı Yunis Oğuzun uzun elmi-bədii axtarışlardan sonra qələmə aldığı “Əmir Teymur”unun “Zirvəyə doğru” tarixi romanında böyük cahangirin hakimiyyətə gəlməsi, türk qəbilələrini birləşdirməsi və Hindistana yürüşü əks olunur. Yazıçı Əmir Teymuru türk dünyasının birləşməsi, türk sərhədlərinin genişlənməsi üçün fəaliyyət göstərən böyük sərkərdə, təcrübəli diplomat və dövlət xadimi kimi təqdim edərək, türk xalqlarını vahid dövlət şəklində birləşdirmək istəyən Əmir Teymurun hökmdar fəlsəfəsinə aydınlıq gətirir. Son illərdə özbək şairi və tərcüməçisi Usman Kuçkarın tərcüməsində Yunus Oğuzun “Əmir Teymur”, “Şah arvadı və cadugər” romanları özbək dilində işıq üzü görmüşdür” [6].

Ölkələrimiz müstəqillik qazandıqdan sonra tanınmış özbək şairi Abdulla Aripov (1941-2016) 1996-cı ildə milli kimliyimizə dönüş motivli tarixi dram əsəri qələmə aldı. “Sahipqıran” adlı bu əsər böyük Əmir Teymurun mübarizə dolu həyatına, tarixi xidmətlərinə həsr olunmuşdur. Abdulla Aripov bu tarixi dram əsəri ilə geniş anlamda türk millətinin tarixinə işıq tutur, sovetlər dönəmində türkün tarixini saxtalaşdıranlara tarixi faktlarla, ədalət prinsipi ilə cavab verir. Əhməd Yəsəvi, Əmir Teymur, Yıldırım Bəyazid və digər türk millətinin nəhənglərinin obrazlaşdığı bu əsərdə, müəllif obyektiv şəkildə dövrləri, sərkərdələri, müdrikləri təqdim edə bilir. Bilərəkdən, düşünülmüş şəkildə türklərin arasına salınan nifaqların, fitnələrin əsl səbəblərini üzə çıxarır, tarixin ələyindən keçirib müasir oxucuya şeir diliylə çatdırmağa çalışır. Əsərdə Əhməd Yəsəvi ilə Əmir Teymur obrazlarını qarşılaşdıran şair bu dialoqla türkün düşmənlərinə, tarixinə, milli kimliyinə, mədəniyyətinə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə kölgə salanlara mesaj səsləndirir:

Orijinal:
Niyet kançe cazibeli bolsa hem,
Temur, Kilıç bilen murad hasil bolmağı güman ...
Tilimiz bir, dinimiz bir, iymanlmız bir.
Bir hil yumuş yüklenmişdir ikkimizge hem ...
Sen fiğ bilen, men söz bilen başkardık uni.
Birak sening yonğmgni yakley almeymen [7, s.614].

Tərcümə:
Niyyət hər nə qədər cazibəli olsa da,
Qılıncla muradın gerçəkləşməsi şübhəli,..
Dilimiz bir, dinimiz bir, imanımız bir,
Eyni vəzifəmiz var ikimizin də
Sən qılıncla, mən söz ilə artıq bunu.
Ancaq sənin üsulunu bəyənmirəm (tərc T.H.).

Şair bu qarşılaşdırma ilə bəyan edir ki, türk sərkərdəsi fitnələrin, fəsadların nəticəsi olaraq qılınca əl atsa da, türkün müdriki onun qılınca əl atmasını dəstəkləməyəcək qədər alidir, bəşəri ideallara sadiqdir. Abdulla Aripov məşhur "Özbəkistan, Vətənim mənim" şeirində də digər türkün böyükləri ilə bərabər, Əmir Teymurdan bəhs edir:

Temur tig'i etmagan joyni
Qalam bilan oldi Alisher.
Dunyo bo'ldi chamanim manim,
O'zbekiston, Vatanim manim [8].

Teymurun qılıncının uzanmadığı yeri
Qələmlə aldı Əlişir Nəvai,
Dünya oldu çəmənim mənim,
Özbəkistan, Vətənim mənim.

Müasir Azərbaycan və özbək ikitərəfli ədəbi əlaqələrində Özbəkistanın Xalq şairi Siracəddin Səyyidin fəaliyyəti xüsusi əhəmiyyətə malikdir. O, 1958-ci ildə Özbəkistan Respublikasının Surxandərya vilayətində anadan olub. 1980-ci ildə Daşkənd Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. İlk kitabı "Ruhum xəritəsi" (1984) Qafur Qulam adına Ədəbiyyat və sənət nəşriyyatında nəşr olunub. Siracəddin Səyyidin böyük özbək mütəfəkkirlərinə, sərkərdələrinə həsr etdiyi şeirlərin ruhunda bir yenilənmə vardır, tarixə yeni baxış şeirlərinin əsas qayəsinə çevrilir. O, "Əmir Teymurun heykəli qarşısında" (2000) şeirində Sovetlər dövrünün sadəcə işğalçı, talançı kimi tanıtdığı böyük Əmir Teymurun ruhu qarşısında hesabatını verir. Tarixin bütün suallarının cavabının elə tarixdə aranmalı olduğunu şeir diliylə ifadə edir:

Ədalət daim belə:
yavaş-yavaş yüksələr.
Yamanlıq əzəl-əbəd
yer təkində gizlənər.
Ədavət ilə gələn
indi hər hansı bir güc,
Əmir Teymur heykəlinə
dəyib parçalanacaq [9].

Siracəddin Səyyidin 1983-cü ildə qələmə aldığı "Səmərqənddə" şeiri də şairin tarixlə söhbətidir. Şəhər boyu gəzən şair daşların yaddaşında, sükutun səsində mədəniyyət beşiyi Şərqi arayır. Şeirin Sovet dövründə qələmə alınmasına baxmayaraq, Əmir Teymuru, Uluğbəyi cəsarətlə tarix və mədəniyyət yaradanlar sırasında anır şair:

Registanda gəzərkən tənha
Oluram qədim xəyallara qərq.
Hardasan, yüz əsrlik daşlardamı?
Qəmli naxışlardamı,
Məqbərələrdəmi və ya
Qəbirlərdəsənmi, Şərq?
Məni təqib edir tarixi sükut,
Bütün dahilərin ağlar köksümdə.
Axşamdır. Əmir Teymur babamın adın
Pıçıldayaraq gedirəm taksidə (1983) [9].

Nəticə / *Conclusion*

Əmir Teymurdan sonra Teymuroğulları Uluğbəy, Hüseyn Bayqara, Babur və Cahanşah şanlı bir tarix yaratmışlar. Təkcə nəslinin tarix səhnəsində 488 il hökmranlıq etdiyi qüdrətli türk hökmdarı, zamanında yeddi dünya hökmdarı adlanan Əmir Teymur şəxsiyyətinin tarixi faktlar əsasında ədəbiyyatda əks olunması keçmişlə gələcək arasında körpü yaradır. "Turan"ı gerçəkləşdirmiş sərkərdənin obrazı türk xalqlarının milli təfəkkürünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Türk dünyasının böyük oğlu Əmir Teymurun ədəbiyyatda, sənətdə obrazlaşdırılması son iki əsrdə daha aktıvdir. Elmin, texnologiyanın sürətlə inkişaf etdiyi, geniş və ciddi araşdırmaların aparılmasının daha asanlaşdığı bir dövrdə Əmir Teymurun savadsız olduğu, kəsilən başlardan hasarlar ucaltdığı kimi təsdiqini tapmayan fikirlər inandırıcı deyildir. Savadsız bir insan alim və müdriklərin rəğbətini qazana bilməz, digər aspektdən arxeologiya elminin inkişaf etdiyi bir dövrdə kütləvi qətliamların mövcudluğu çoxdan elmə məlum olardı. Əmir Teymurun nəvəsi Uluğbəyin dünyanın axın etdiyi böyük kitabxanaları inşa etdirməsi faktı, Əmir Teymur nəslinin elmə, mədəniyyətə böyük önəm verdiyinin nümunəsidir. Türkün şərəf dolu tarixini ədəbiyyatda yaşadan Hüseyn Cavidlər, Əbdürrauf Fitrətlər soyuq məzarlara gömülsələr də, yaratdıqları əsərlər, obrazlar müasir ədəbiyyatımıza işıq tutaraq yeni ədəbi əsərlərin qayəsinə, motivinə çevrilmişdir. Türkün şəcərəsinə, tarixi şəxsiyyətlərə müraciət, tarixi hadisələrin müasir planda yüksək səviyyədə bədii əksi Azərbaycan və özbək ədəbiyyatında ortaq mövzuları ehtiva etməklə ədəbi əlaqələrin bədii tərcümə, bəhrələnmə kimi qollarına yol açmışdır.

Ədəbiyyat / *References*

1. Almaz Binnətova. Hüseyn Cavid və özbək ədəbi-mədəni mühiti. "Xalq qəzeti", oktyabr 2012.
2. Mehman Həsən. Ə.Fitrət və H.Cavid yaradıcılığında tarix və müasirlik, H.Cavidin130 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları, 28-29 noyabr 2012.
3. Hüseyn Cavid. Əsərləri, 5 cilddə, III cild. Bakı, "Lider", 2005.
4. H.Baltabayev. Timur sağanasini izleb, Milli tikleniş qəzeti, 20 avqust 1996.
5. http://www.wikiwand.com.uz.Abdurauf_Fitrat
6. https://azertag.az/xeber/Yazichi_publisist_Yunus_Oguzun_Daskendde_ozbek_dilinde_chap_edilmis_Amir_ Teymur_romaninin_teqdimati_kechirilmisdir-35013, 12.04.2018.
7. Yaman Ertuğrul. Özbek Türklerinin şairi Abdulla Aripov, s. 611-638, http://www.tdk.gov.tr, 13.10.2017.
8. http://sherlaruz.com/news/o_zbekiston_abdulla_oripov/2014-03-09-670
9. Yaşar Qasımbəyli. Siracəddin Səyyidin şeirləri, https://525.az/site/?name=xeber&news_id=14034#gsc.tab=0, 17. 04.2018.

Тема Амира Теймура в Азербайджанской и узбекской литературе 20-го века

Тарана Хашимова
Доктор философии по филологии, Институт Востоковедения им. Зия Буньядова. Азербайджан.
E-mail: tarana_nur@yahoo.com.tr

Резюме. В статье рассматривается художественно-историческая сущность произведения Гусейна Джавида «Топал Теймур» и его восхитительное познание в узбекской литературной среде, а также появление исторического образа Амира Теймура в истории Азербайджана и

узбекской литературы в период независимости. Образ Амира Теймура исследуется в контексте литературного исследования в творчестве таких узбекских поэтов, как Абдурауф Фитрат, Абдулла Арипов, Сираджаддин Саййид и известного азербайджанского писателя Юнис Огуза.
Ключевые слова: узбекский, азербайджанский, современный, национальный, Амир Теймур, Советский Союз

Yunus Oğuzun "Əmir Teymur" romanında Hökmdar və zaman

Elnarə Qaragözova
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: e.garagozova.bsu@gmail.com
https://orcid.org/0000-0002-7356-3280

Annotasiya. Azərbaycan ədəbiyyatında Əmir Teymurun bədii obrazı intensiv işlənmişdir. Yunus Oğuzun "Əmir Teymur" romanında Əmir Teymur "ümumtürk xaqanı" kimi təsvir olunur. Yunus Oğuzun yaratdığı Əmir Teymur obrazı yalnız hökmdar kimi deyil, bir insan kimi də oxucunun rəğbətini qazanır. Romanın xarakterik cəhəti yazıçının tarixi həqiqətə və tarixi faktlara sadiq qalmaqla yanaşı, həm də oxucunu diqqətdə saxlamasıdır. Yazıçının digər romanlarında olduğu kimi, "Əmir Teymur" romanında da obrazın dinamikliyi oxucunu tarixi auraya kökləyir.
Açar sözlər: roman, tarix, siyasət, türk, hökmdar

http://dx.doi.org/10.29228/edu.168
Məqaləyə istinad: Qaragözova E. (2020) *Yunus Oğuzun "Əmir Teymur" romanında hökmdar və zaman obrazı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 231-235
Məqalə tarixçəsi: göndərilib – 06.07.2020; qəbul edilib – 13.07.2020

Ruler and time in novel "Amir Teymur" by Yunus Oghuz

Elnara Garagozova
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: e.garagozova.bsu@gmail.com
https://orcid.org/0000-0002-7356-3280

Abstract. The image of Amir Teymur is widely developed in Azerbaijani literature. Amir Teymur is presented as "all Turkic khagan" in Yunus Oghuz's two part novel "Amir Teymur". The image of Amir Teymur created by Yunus Oguz arouses the reader's sympathy not only as a ruler but also as a human being. One of the characteristic features of Yunus Oguz's novel is that the writer, while remaining faithful to the historical truth and historical facts, first of all pays attention to the reader. As in other novels of writer, in the novel "Amir Teymur" the dynamism of the image can tune the reader to the historical aura.
Keywords: novel, history, politics, Turkish, ruler

http://dx.doi.org/10.29228/edu.168
To cite this article: Garagozova E. (2020) *The image of ruler and time in Yunus Oghuz's novel "Amir Teymur".* «Comparative Literature Studies», Issue I, pp. 231-235
Article history: received – 06.07.2020; accepted – 13.07.2020

Giriş/ *Introduction*

Tarixi roman janrı dünya ədəbiyyatında mühüm yer tutur. Ədəbiyyatşünaslıqda çox zaman tarixi romanları simbioz janr hesab edirlər. Belə ki, bu janrı seçən yazıçı həm bədii təxəyyülü, həm də faktları birləşdirərək eyni dərəcədə həm ədəbiyyata, həm də tarixə söykənən mətn yaradır.

Tarixdəşəxsiyyətin rolu, insan faktoru tarixi romanların əsas mövzularından biridir. "Tarixi romanda əsas məsələ böyük tarixi hadisələrin təsviri deyil, həmin hadisələrdə iştirak edən insanların obrazının yaradılmasıdır. Bu o deməkdir ki, biz həmin tarixi reallığa mənsub insanların davranışını, düşüncə tərzini şərtləndirən sosial və insani motivləri anlamalıyıq." [1, s.44]

Əsas hissə / *Main part*

Ədəbiyyatda tarixi şəxsiyyət – hökmdar obrazının müxtəlif rakurslardan işıqlandırılması tendensiyası izlənilir. Azərbaycan ədəbiyyatında geniş işlənən Əmir Teymur obrazının yaradılması prosesində də zaman-zaman müxtəlif meyillər, istiqamətlər özünü göstərmişdir. Əksər bədii əsərlərdə "işğalçı hökmdar" obrazında təsvir olunan Əmir Teymur Yunus Oğuzun iki hissədən ibarət "Əmir Teymur" romanında (I kitab – "Əmir Teymur: Zirvəyə doğru", II kitab –"Əmir Teymur: Dünyanın hakimi") "ümumtürk xaqanı" kimi təqdim edilir. Romanın məhz "Əmir Teymur" adlanması da təsadüfi deyil: "Planetlərin Xoşbəxt Düzülüşünün Hökmdarı (doğulanda ulduzların uyğun düzülüşünü göstərən titul), Dünya Fatehi, Əsrin İmperatoru, Yeddi İqlimin Məğlubedilməz Sərkərdəsi. Lakin bütün bu titulların fövqündə dayanan bir ad – Allahın Qamçısı, Teymur adı ona daha çox yaraşırdı" [2, s.9]. Romanın proloqunun sonundakı incə bir nüans – Əmir Teymurun qulağına gələn qurd səsi ilə reallıqda eşitdiyi azan səsinin paralelləşdirilməsi də onun türk-islam dünyasının böyük fatehi olduğuna işarədir. Əmir Teymur islam dininə mənsub olmaqla yanaşı, öz türk kökünü də yaddan çıxarmır. Hökmdar dini inanclardan həm də ordunu qələbəyə ruhlandırmaq, öz fateh obrazına əsgərlərdə şüuraltı, psixoloji inam yaratmaq üçün məharətlə istifadə edir: "Sabah sübh tezdən Böyük Əmir yürüşə başlayacaq. Bu axşam o dədə-baba qaydasına uyğun olaraq sonuncu ayini, şaman dualarını həyata keçirəcəkdi. Əmir Teymur qatı islamçı olsa da, yürüşqabağı bütün öncəgörənləri həmişə başına yığar, çox zaman isə onları özü ilə döyüşə apararDı. Dualar islamda da vardı və mömünün ən yaxşı silahı hesab olunurdu. Hökmdar öz yuxularına da çox üstünlük verər və onlara istinad edərdi. Bununla yanaşı, qədim türk adətlərindən irəli gələn ayinləri də yerinə yetirərdi. O, həm də öz əsgərlərinə bütün dinlərin və yozmaların onun tərəfində olduğunu, ona xeyir-dua verdiyini göstərmək istəyirdi. Bu öz uğurlu təsirini göstərir, ən azı əsgərin qələbəyə inamını artırırdı." [3, s.53]

Yunus Oğuzun yaratdığı Əmir Teymur obrazının əsas cizgilərindən biri hökmdarın şəyird məqamında təsviridir. Romanda biz yalnız hökmdar Teymurla deyil, həm də Seyid Bərkənin istedadlı şəyirdi Teymurla tanış oluruq. Məhz bu nüansla müəllif ustada hörmətin önəmini göstərir, ustadının nəsihətlərini hər şeydən üstün tutan Əmir Teymurun hakimiyyətinin, qələbələrinin əsasında məhz elmin, biliyin dayandığını, qılıncla qələmin vəhdətinin qələbənin təminatçısı olduğunu vurğulayır. Əmir Teymur Sultaniyyədə olarkən nəvəsi Uluqbəylə sufi məclisində olur, nəvəsinə bu məclisdə eşidib-gördüklərini yadda saxlamasını, gələcəkdə bunun ona çox lazım olacağını söyləyir. Nəvəsi Uluqbəylə, eləcə də oğlu Şahruxla söhbətlərindəƏmir Teymur oxucu qarşısına bir hökmdar kimi deyil, həm də bir müəllim, ustad kimi çıxır. O yalnız öyrənən deyil, həm də öyrədəndir. Yunus Oğuzun

Əmir Teymurun xarakterik xüsusiyyəti onun daim gələcəyə can atan, yalnız indini deyil, gələcəyi düşünən, gələcək üçün irs qoymaq istəyən bir hökmdar, cahangir olmasıdır.

Yunus Oğuzun yaratdığı Əmir Teymur obrazı yalnız hökmdar kimi deyil insan kimi də oxucuda özünə qarşı rəğbət hissi oyadır. Əmir Teymur romanda həm də bir həyat yoldaşı, ata, baba, qayınata kimi təsvir edilir. Onun həyat yoldaşları ilə təmkinli davranışı, oğullarına qarşı sərt olduğu qədər də mehriban olması, nəvələrinə hədsiz məhəbbəti, gəlininə nəvazişkar, qayğıkeş münasibəti Əmir Teymuru bir insan kimi də oxucunun gözündə ucaldır. Qarabağda ordusu ilə birgə qışlayarkən sevimli nəvəsi Uluqbəylə birgə bir çobana qonaq olan Əmir Teymur çobanı sadəliyi ilə heyrətləndirir. O, böyük əmiri nəvəsi ilə əylənən, fərəhlənən baba obrazında görür, hökmdarın nəvəsinə qoyunlar barədə verdiyi məlumatlara təəcüblənir və bir anlıq qarşısındakını bir hökmdar kimi yox, sadə bir insan kimi, doğma adam kimi qəbul edir. Romanın maraqlı obrazlarında biri olan tacir Ağbaba Sultan Bəyazidin qəbulunda Sultanın Teymurun necə bir insan olması haqqında verdiyi suala bu şəkildə cavab verir:

"Əmir Teymur ona tabe olmayanlara qarşı çox qəddardır. Tabe olmadınsa, axırına çıxmayana qədər rahatlıq tapmayacaq. Bu zaman onun üzünü görməsən yaxşıdır. Hər yan dağılar, hər yan yandırılar.

Mərhəmətlidir, ona görə ki, əfv edə bilir. Ən qatı düşmən də onun qarşısında diz çökdükdə, günahını boynuna aldıqda, səhvini etiraf etdikdə, onu bağışlayır, var-dövləti əlindən tamam almır.

Xəsisdir, ona görə ki, bir quruşunun da qədrini bilir, hamısının hesabatını aparır. Boşuna para xərcləməz. Özü istəməsə, heç kimə heç nə verməz. Bütün tutduğu yerlərin haqq-hesab dəftərini özü yoxlayır.

Səxavətlidir, ona görə ki, yığdığını müəyyən işlərə, məscidlərin tikilməsinə, bəxşişlərin verilməsinə xərcləyir.

Güclüdür, ona görə ki, məğlubedilməz ordusu var. Onun ordusu onun yumruğu kimi bir şeydir. İstəyəndə hamısını birdən yumur, hamısını birdən açır. Orduda elə qaydalar qoyub ki, hətta təzə gələn döyüşçü də onun əmrini sözsüz yerinə yetirir-ölümə getmək olsa belə. Gücü həm də onun başındadır. Çıxılmaz vəziyyətlərdə onun başı o qədər dəqiqliklə işləyir ki, təəccüb etməyə bilmirsən.

Zəifdir, ona görə ki, o, təkdir. Məvrannəhrdə onu əvəzləyəcək insan, başqa bir əmir yoxdur. Yaxınlarına, ətrafına böyük sevgisi var. Onların başına bir iş gələndə üzülür, bir neçə gün özünə gələ bilmir.

Nifrəti böyükdür, ona görə ki, sevdiyi iş, onun qoyduğu qaydalar pozulanda bağışlamır, hətta ən yaxını olsa belə. Onun sevgisi ilə nifrəti arasında ipək pərdə qədər məsafə mövcuddur" [3, s.196].

Əsərdə Əmir Teymurun ədalət prinsiplərinə sadiqliyi və qanunun aliliyinə xalqda inam yaratmaq üçün atdığı addımlar onun hakimiyyətinin əsasını, gücünün mənbəyini təşkil edir. Səmərqənd bazarının darğasının edamı zamanı bu özünü aşkar şəkildə göstərir. Yürüşə hazırlıq haqqında Səmərqənd hakimi Davud bəydən məktub alan darğa tamahına məğlub olur və döyüşüçün lazım olacaq xammalı daha sonradan baha satmaq üçün tacirlərə yürüş olmayacağını deyərək malları ucuza alıb öz anbarına yığır, bazarda süni qıtlıq və qiymət artımı yaradır. Darğanın və köməkçisinin edam edilməsi qərarını verən Əmir Teymur kiçik siyasi nüansı da diqqətdən qaçırmır. Xalqın onun ədalətindən şübhəyə düşərək yaxın adamı Davud bəyi qoruduğunu, darğanın edamında zərrə qədər də olsa haqsızlıq olduğunu düşünməsinə yol verməmək üçün darğadan xəbərdarlıq məktubu alıb-almadığını soruşur. Yalnız darğanın vaxtında xəbərdarlıq məktubu almasına baxmayaraq, bilərəkdən, tamah məqsədilə bazarda narazılıq və qıtlıq yaratdığına əmin olduqdan sonra edam yerinə yetirilir. "Əmir yaxın qohumunun boğazının kəndirdən qurtulduğunu başa düşüb dərindən nəfəs aldı. Ancaq Davud bəyin sözlərini darğa da təsdiqləməli idi. Əks təqdirdə paytaxt əhalisi bu hərəkəti düzgün başa düşməzdi. Odur ki, mühafizəçilərin köməyi ilə ayaqüstə güclə duran darğanın üstünə qışqırdı:

- Söylə, Davud bəy düzmü deyir? Göndəribmi sənə belə bir kağız?

Darğanın boynu üstündə güclə dayanan başı təsdiq əlaməti kimi tərpəndi. Bundan sonra Əmirin qırmancı qətiyyətlə darğaya və köməkçisi Ballıya tərəf uzandı:

- Kim fərmanımı pozarsa, hər kim ki xalqı çapıb talayarsa, ölkəyə xəyanət edərsə, haqqın üstünü örtərsə aqibəti belə olacaq. Haqqın divanından qurtulmaq olmaz! Mən qərarımı elan edirəm: asılsınlar!

Buna bənd imiş kimi birdən meydanı sürəkli alqış səsləri bürüdü. Əmirin şəninə alqış nidaları qopdu.” [3, s.27]

Oxucu eyni ədaləti Teymurun oğlu Miranşaha münasibətində də görür. Miranşahın Azərbaycanda törətdiyi əməllərdən, əhalinin zülmə məruz qalmasından xəbər tutan Əmir Teymur oğlunu cəzalandırmaq üçün Azərbaycana gəlir. Hökmdar deyilənlər sübuta yetirildikdən sonra Miranşahı – doğma oğlunu edam etmək qərarına gəlir. Ata ürəyi ağrıyır, ancaq hökmdar qəlbi ədalətsizliyi qəbul edə bilmir. Onu bu sərt qərardan yalnız Miranşahın ağlının yerində olmaması ilə bağlı həkim rəyi döndərir.

Yunus Oğuz romançılığının xarakterik xüsusiyyətlərindən biri yazıçının tarixi həqiqətə, tarixi faktlara sadiq qalmaqla yanaşı, ilk öncə oxucunu diqqətdə saxlamasıdır. Belə ki, Yunus Oğuz tarixi romanda ilk növbədə ideya faktorunu əsas götürür. Əsas məqsəd tarixi və tarixi hadisənin oxucuya çatdırmalı olduğu ideyanı düzgün ifadə etməkdir. Yazıçı tarixin mesajını müasir oxucuya aydın çatdırmaq üçün əsəri tarixi interyerin, leksikanın ekzotikası ilə yükləmir. Yunus Oğuzun özü də müsahibələrindən birində bu məsələyə toxunaraq bildirir ki, “Çox zaman mənə müraciət edirlər ki, orta əsrlər dövründən yazdığım romanda niyə o dövrün sözlükləri yoxdur? Mən o dövrün sözlərindən heç birini işlətmirəm. Mənə bunu deyəndə bildirirəm ki, olmaz! Soruşurlar niyə? Deyirəm ki, mən XV əsrin insanları üçün yazmıram ki! Mən müasir insanlar üçün yazıram. Dili başa düşən insanlar üçün yazıram. XV əsrin sözlüklərini yazsam, gərək onun açıqlamasını da verəm. Açıqlamanı da verəndə oxucularda yoruculuq yaradır.” [5]

Nəticə / *Conclusion*

Yunus Oğuz romançılığının əsas uğuru müəllifin qəhrəmanlarını olduqca canlı, koloritli yaratması ilə bağlıdır. Yazıçının digər romanlarında olduğu kimi, “Əmir Teymur” romanında da obrazın koloriti, dinamikliyi oxucunu tarixi auraya kökləyə bildiyindən, əlavə leksik ştrixlərə, arxaizmlərə ehtiyac qalmır, romanda dövrün nəfəsi hiss olunur, əsəri mütaliə edənlər ilk səhifələrdən həmin tarixi dövrün bir hissəsinə, Əmir Teymurun silahdaşına çevrilirlər.

Ədəbiyyat / *References*

1. Lukacs Georg. The Historical Novel. Harmondsworth, 1969.
2. Castin Marozzi. Dünya fatehi Teymur. Bakı, “Qanun”, 2012.
3. Yunus Oğuz. Əmir Teymur: Zirvəyə doğru. Bakı, “Apostrof”, 2011.
4. Yunus Oğuz. Əmir Teymur: Dünyanın hakimi. Bakı, “Apostrof”, 2012.
5. Yunus Oğuz: “Tarix gələcək üçün bir işıqdır” https://news.day.az/society/420361.html

Правитель и время в романе Юнуса Огуза «Амир Теймур»

Эльнара Гарагозова
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: e.garagozova.bsu@gmail.com

Резюме. Образ Амира Тимура широко распространился в азербайджанской литературе. В романе Юнуса Огуза Амир Тимур представлен как «каган всех тюрков». Образ Амира Тимура, созданный Юнусом Огузом, вызывает у читателя симпатию не только как правителя, но и как человека. Одной из характерных черт романа Юнуса Огуза является то, что писатель, оставаясь верным исторической правде и историческим фактам, прежде всего обращает внимание на читателя. Как и в других романах писателя, в романе «Амир Тимур» динамичность образа настраивает читателя на историческую ауру.
Ключевые слова: роман, история, политика, турецкий, правитель

YENİ ÖZBƏK ƏDƏBİYYATI: AZƏRBAYCANDAN BAXIŞ

Siracəddin Səyyidin poetik dünyası

Bədirxan Əhmədli
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: bedirxan@mail.ru
https://orcid.org/0000-0001-9402-0835

Annotasiya. Məqalədə özbək ədəbiyyatının görkəmli nümayəndəsi Siracəddin Səyyidin yaradıcılığı araşdırılır. Göstərilir ki, S.Səyyid poeziyası özbək ədəbiyyatını bir çox komponentlər baxımından inkişaf etdirmişdir. Onun poeziyasında özbək xalqının tarixi, bugünü, və mənəviyyatının bədii xəritəsi yaradılır. Yurd sevgisi, vətənçilik, xalqın tarixi keçmişini və bugünü tərənnüm edilir. Teymurləng, Babur, Nəvai haqqında yazdığı şeirlərində şəxsiyyətin tarixdəki roluna qiymət verməyə çalışmışdır. Siracəddin Səyyidin yaradıcılığı forma baxımından da zəngin və çoxsəslidir. O, həm klassik formadan (qəzəl), həm xalq şeiri üslubundan, həm də sərbəst şeirdən istifadə etmişdir.
Açar sözlər: Siracəddin Səid, şair, özbək, poeziya, poetik inikas, vətənçilik

http://dx.doi.org/10.29228/edu.147
Məqaləyə istinad: Əhmədli B. (2020) *Siracəddin Səidin poetik dünyası.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 236-241
Məqalə tarixçəsi: göndərilib – 08.06.2020; qəbul edilib – 19.06.2020

The poetic world of Sirajaddin Said

Badirkhan Ahmadli
Doctor of Philological Sciences, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: bedirxan@mail.ru
https://orcid.org/0000-0001-9402-0835

Abstract. In the article is studied Sirajaddin Seyyid's creative work – one of the prominent representatives of the Uzbek literature. It is showed that S.Seyyid's poetry developed the Uzbek literature in terms of some components. In his poetry is reflected artistic map of history, current state and spirituality of the Uzbek people. It is also glorified love for homeland, patriotism, and past and today of the nation. In his poems about Teymurleng, Babur, Navoi he tried to evaluate the role of personality in the history. Creativity of Sirajaddin Seyyid is rich and diverse in terms of form. He used the classic form (ghazal), the style of folk poetry, and the free poem as well.
Keywords: Sirajaddin Said, poet, Uzbek, poetry, poetic reflection, patriotism

http://dx.doi.org/10.29228/edu.147
To cite this article: Ahmadli B. (2020) *The poetic world of Sirajaddin Said.* «Comparative Literature Studies», Issue I, pp. 236-241
Article history: received – 08.06.2020; accepted – 19.06.2020

Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatı özünün inkişaf tarixinin təxminən beş yüz illik tarixini çağatay ədəbiyyatı ilə iç-içə inkişaf etmiş və bir-birindən bəhrələnmişdir. Mənbəyini klassik ədəbiyyatdan götürən qarşılıqlı əlaqələr bu gün də davam etməkdədir. Müasir özbək şair və yazıçıları, ədəbiyyatşünasları arasındakı elmi, bədii təmaslar tarixi əlaqəni yeni müstəviyə çıxarmaqda əsaslı rol oynayır. Çağdaş özbək poeziyası ədəbiyyatının görkəmli nümayəndələri Abdulla Arif, Erkin Vahid, Rauf Parfi, Çolpan Erqaş, Oman Mətcan, Osman Qoşqar, Mirpolad Mirzə, Xurşid Dövran, Münəvvər, Eşqabil Şükür, Əziz Səid, İqbal Mirzə, Rauf Sübhan, Yəhya Tağa, A.Kutbiddin, Məhəmməd Yusif, Nadir Xalbotayev və başqalarının şeirləri özbək poeziyasının çağdaş mənzərəsini ifadə edir.

Əsas hissə / *Main part*

Son illərdə Azərbaycan-özbək ədəbi əlaqələri bir qədər də genişlənmiş, qarşılıqlı tərcümələr edilmiş, konfranslar keçirilmişdir. Dövrü ədəbi əlaqələr kontekstində araşdıran filologiya elmləri doktoru, professor Almaz Ülvi Binnətova belə bir doğru qənaətə gəlir: “Müstəqillik dövrü Azərbaycan və özbəkistanın yeni tarixini, ədəbiyyatını və mədəniyyətini eyni məqsədlər yolunda, eyni ideallar uğrunda səfərbər etdiyindən Azərbaycan-özəbək ədəbi əlaqələri sovet dövründən fərqli olaraq, daha çox iki müstəqil ədəbi mühitin, iki mədəniyyətin qarşılıqlı münasibətləri yenidən qurmaq, unudulmuş qədim ənənələri yenidən üzə çıxarmaq təmayülü əsasında inkişaf etməyə başladı” [1, s.134].

Çağdaş ədəbi əlaaqələri inkişaf etdirən özbək ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Siracəddin Səiddir (Sirojiddin Sayyid). Onun yaradıcılığı çağdaş Azərbaycan-özbək ədəbi əlaqələrinin miqyasını genişləndirir və yeni mərhələdə onu ən yaxşı şəkildə təmsil edir. Özbəkistanın Xalq şairi Siracəddin Səid 1958-ci ildə Surxandərya vilayətində anadan olub. 1980-ci ildə Daşkənd Dövlət Universitetinin Jurnalistika fakultəsini bitirib. Ədəbi mühitə «Ruhun xəritəsi» (1984) adlı ilk kitabı ilə qədəm qoyub. Bugünədək istedadlı şairin 20-ə yaxın kitabı müxtəlif nəşriyyatlarda çap edilib. «Sevgi məmləkəti» (1987), «Qoru» (1990), «Mehr qalır, məhəbbət qalır» (1992), «Yandım» (1994), «Evindəki beşiklər» (1996), «Vətəni öyrənmək» (1996), «Yiyəsi var yurd» (2001), «Vətən əbədidir» (2001), «Könül fəsli» (2007), «Yaşasın yağışlar» (2007) və başqa kitabları ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. 2008-ci ildə «Şərq» nəşriyyatı görkəmli şairin ikicildlik seçilmiş əsərlərini nəşr edib. Şairin tərcümə sahəsində də fəaliyyəti vardır: rus şairi Andrey Voznesenskinin "Mangu rizq" əsərini özbəkcəyə tərcümə etmişdir. S.Səyyidi Azərbaycana yaxınlaşdıran həm də milli ədəbi mühitimizə yaxın olmasıdır. Çağdaş Azərbaycan poeziyasının bir çox nümunələrini özbək dilinə uğurla çevirib. Buna görə də şairi Azərbaycanda yaxşı tanıyırlar; şeirləri dilimizə tərcümə edilir. Yaşar Qasımbəyli şairin bir neçə şeirini dilimizə çevirib.

Siracəddin Səidin poeziyası bədiilik, mövzu, problematika və forma baxımından zəngin və rəngarəndir. Şairin bədii estetik təfəkküründə özbək xalqı, onun tarixi, bugünü, mənəviyyatı başlıca yer tutur. Yurd sevgisi, vətənçilik, xalqın tarixi keçmişini və bugününü tərənnüm, yaradıcılığının ana xəttidir. "El və el balası", "Böyük ipək yolu", "Vətən", "Vətən üçün, millət üçün, xalq üçün", "Vətən yaddaşı" və b. onlarla şeirlərində vətəni tərənnüm edir. Lakin bu tərənnüm patetik şəkildə baş vermir, qəlbinin dərinliklərindən gəlir, ona olan vurğunluğunu ifadə edir:

Yurtim, menga zar kerakmas zarlaringdan,
Kipriklarim unsalar bas gardlaringdan.
Men bir nasim bo"lib keldim, men bir nasim,
Aytib o"tsam deyman ko"hna dardlaringdan.
Menga dunyo kerakmas, bir xas yetar,
Yassaviylar yotgan aziz yerlaringdan [2, s.120].

"Vətən mahnısı" şeirində "Mən Vətəni sevərəm, Təndə canəmdır Vətən. Ulduzları gözümdür, Osmonimdir Vətən", – deyə vətənə özünün məhəbbətini ifadə edir. Vətənin böyük bir tarixi keçmişə malik olmasına diqqət çəkir. Vətənin azadlığı ona hər şeydən əzizdir:

Kipriklarim varaqlar,
Oy sahfalar charaqlar.
Toshlari ham yaraqlar,
Nur bayonimdir Vatan.

Tog'i - Buxoriy bobom,
Bog'i - bahoriy bobom.
Temur - suvoriy bobom,
Shohjahonimdir Vatan.

Menda ko'pdir hur niyat,
Eng azizi - Hurriyat.
Sharafing – abadiyat
Sharaf - shonimdir Vatan [3, s.65] .

"Vətən üçün, millət üçün, xalq üçün" şeirində bütün poetik ruhuyla xalqına, millətinə bağlılığını poetik dərketmədə göstərə bilmişdir:

Jahotaning bayrağı həm qoradır,
İnsan yashar yoruğlik barhaq ucun
Hər oğul-qız bilsang jigarporadır –
Vatan uchun, millat uchun, xalq uchun.

...Bobolaring xokin borib surishtir,
Tuğları-yu tığrolani kor kuchin,
Umrları boshdan oyoq kurashdır
Vatan uchun, millet uchun, xalq uchun [4, s.94-95].

Şairin vətən haqqında yazdığı şeirlərlə yanaşı, özbək xalqının tarixində mühüm rol oynayan tarixi şəxsiyyətləri haqqında da yazmışdır. Xüsusilə, Teymurləng, Zahirəddin Məhəmməd Babur, Əlişir Nəvai, eləcə də vətənin tarixi məbədləri, hər torpağı, daşı haqqında yazdıqları keçmişi yaşatmaq baxımından təqdirəlayiqdir. Şair keçmişə bugünün və dünənin gözü ilə baxaraq ülvi hisslərini, duyğularını bildirir. Bu şeirlər gənc nəsildə vətən hissini, fəxarət duyğusunu, mənəvi-əxlaqi keyfiyyətini bir qədər də artırmış olur. Bəzən şair vətənlə Nəvai anlayışını birləşdirir, vətəni Nəvaidə görür, onu hər şeydən yüksəkdə tutur:

Diriliyin zəngi Nəvai,
Böyüklüyün rəngi Nəvai.
İşıqlandı ziyasız aləm,
Türk ellərinin danı Nəvai.
Beş əsrlik röyadır dünya,
Beş əsrlik çini Nəvai.
Bir ümmandır ibtidası yox,
Yoxdur onun sonu — Nəvai.

Tarix kimi qədimdən qədim
Zaman keçər, yeni Nəvai.
Vətən kimi sərhədi sonsuz,
Vətən kimi mənqu Nəvai [5].

(Tərcümə Yaşar Qasımbəylinindir)

"Əmir Teymurun heykəli qarşısında" kiçik şeirində böyük fatehi ədalət mücəssəməsi kimi təqdim edir. Tarix bizdən uzaqlaşdıqca, onun dəyəri daha da artır, ona düzgün qiymət verməyə çalışırıq. Şair də Əmir Teymurun obrazını poetik şəkildə yaradır, heykələ dönmüş bu böyük sərkərdənin kimliyini təqdim edir və "ədavət ilə gələn hər hansı bir gücün" Əmir Teymur heykəlinə dəyib parçalanağacığını bildirir:

Ədalət daim belə:
yavaş-yavaş yüksələr.
Yamanlıq əzəl-əbəd
yer təkində gizlənər.
Ədavət ilə gələn
indi hər hansı bir güc,
Əmir Teymur heykəlinə
dəyib parçalanacaq [5].

(Tərcümə Yaşar Qasımbəylinindir)

Siracəddin Səid Babur obrazına da tez-tez müraciət etmiş və buunla da bu tarixi şəxsiyyəti bədii düşüncədə yaşatmaq yolunu tutmuşdur. Onun şeirlər kitabından birinin Babura həsr edilməsi də təsadüfi deyil. "Yüz oh, Zahirəddin Məhəmməd Babur" kitabında toplanan şeirlərdə Baburun həmişəyaşar obrazını yaratmışdır:

Buncha uzun oh tortdingiz, oh Bobur,
Muttahamlar dunyosida shoh Bobur.
Andijonu Hindu – yetti iqlimda
Topilmadi Sizga bir dodxoh, Bobur.
Ollohimning dargohlari keng, lekin
Sig"dirmadi Sizni bu dargoh Bobur.
Kecha uzun, manzil olis, yo"l uzoq,
Sizga faqat yolg"iz oy hamroh, Bobur.
Nonko"r beklar, beoqibat mirzolar,
Kimlar Sizga qazmadilar choh, Bobur! [5]

Şair bu şeirlərində Baburu özbək xalqının tarixində ən böyük simalardan biri, mərd, qorxmaz, bacarıqlı bir sərkərdə, eyni zamanda şair, ədib, tarixçi və müəllim kimi qələmə verir. Bu şeirlərdə şair Babur ömrünü Vətən ömrü ilə birləşdirir, yanaşı tutur.

Siracəddin Səid "Əbədi adlar" şeirində Buxara şəhərinin obrazını yaradır. Tarixi hadisələr ünvanı olan bu şəhərin keçmişini və bugününü təsvir edir. Buxaranın yer üzündə daim qalacağını və yaşayacağını ifadə edir

Əbədi əsəcək Termiz yelləri,
Ta ki nur saçırlar Termiziləri.
Öpür bu torpağı nə qədər can var,

Həzrət Yəsəvi var - Türküstan var.
Amudəryaları əbədi, əzim,
Mənquverdiləri mənqu Xarəzm.
Ulu Teymurxanın şövkəti, şanı,
Şəhrisəbz, Səmərqənd - cahan eyvanı.
Dünyanın şanına bir şan qoşublar,
Keçdilər Baburlar, bir də Məşrəblər.
Gərçi fələklərə fəğan etdilər,
Onlar Vətən adın asiman etdilər [5].

Siracəddin Səyyidin yaradıcılığında lirik, fəlsəfi motivlər də əsas yer tutur. "Dəvə qəbirləri", "Mən doğulanda", "Ələmli dünya", "Pəhləvan Mahmud", "Qardaşım" və s. onlarla şeirləri çağdaş özbək poeziyasının ən yaxşı nümunələridir. Bu şeirlərdə şairin yaratdığı poetik obrazlar öz orijinallığı ilə seçilir. Bu obrazlar haqqında Azad Şərafəddinov yazır: "Onun şeirlərini poetik obrazlarsız təsəvvür etmək mümkün deyil. Poetik obrazlar poetik ifadə vasisətilə fikrin deyimini daha görümlü edir. Siracəddinin şeirləri orijinal poetik düşüncə üzərində qurulmuşdur". Bu cəhətdən "Mən doğulanda" şeirinə nəzər salaq. Şeir sərbəst vəzndə yazılıb. Şair özünün doğulması ilə indiki həyatı arasında müəyyən müqayisələr apararaq poetik qənaətlərə gəlir:

Mən doğulanda
mənim anam-bahar çoxdan var idi.
Dünyada artıq var idi ildırımlar.
Mənim qardaşlarım olan onlar
tonqallar yandıraraq
dağları dolanırdılar.
O gün nə qədər daş dil açdı
ola bilər yalnız mənə tanış oan bir dildə
üzü qırışlı qayalar göz yaşı axıtdı.
Hansı hərfi ilk dəfə dediyim yadımda deyil.
(Nə vaxtsa bu barədə qardaşlarım danışarlar)
Mən doğulan gün — nə böyük xoşbəxtlik!
Ağaclardan cəsədlər deyil
süd cürdəkləri asılmışdı… [6]

Siracəddin Səidin poetik yaradıcılığı həm də vəzn baxımından zəngin və çoxsəslidir. O, xalq şeiri üslubunda və sərbəstdə yazdığı kimi, klassik poetik formalarda da yazmış və qəzəl formasını inkişaf etdirmişdir. Həm də qəzəllərindəki dili və üslubu bizə daha yaxın və doğma görünür. Bu da ədəbiyyatımızın ortaq keçmişindən irəli gəlir. Bu cəhətdən şairin "Mən eşq əhlinin ahu fəğanıyla yandım" qəzəlini göstərmək olar:

Mən eşq əhlinin ahu-fəganıyla yandım,
Qəlb evinin atəşiylə ükdəsiylə yandım.

Hayatını sevgiylə geçirsə də aşiqlər,
Sevgim verdim, ama telafiylı yandım.

Zordu bu yol, sıkıntıyla izharına yetişdim,
Sizlər onun yolunda, mən isə yanında yandım.

... Əzəl dünyada qəzəlin mətləsi budur,
Başladım hər işi, ama sonunda yandım [6].

Nəticə / *Conclusion*

Çağdaş özbək ədəbiyyatının görkəmli nümayəndəsi Siracəddin Səyyidin yaradıcılığı milli poeziyanı mövzu, problematika və forma baxımından daha da zənginləşdirir.

Ədəbiyyat / *References*

1. Almaz Ülvi. Azərbaycan-özbək (çığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, "Qartal", 2008.
2. Sirojiddin Sayyid. So‘‘z yo‘‘li. 1-kitob. T., 2008.
3. Sirojiddin Sayyid. So‘‘z yo‘‘li. 2-kitob. T., 2008.
4. Sirojiddin Sayyid. Matonat manzumasi. Toshkent, Mashhur-press, 2018
5. http://www.avanqard.net/index.php?action=static_detail&static_id=55749&fb_comment_id=540566876039865_827540547342495
6. https://www.google.az/search?source=hp&ei=swdeXo2-O9HBmwX2_r-wAw&q=sirac%C9%99ddin

Поэтический мир Сираджаддина Сейида

Бадирхан Ахмадли
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: bedirxan@mail.ru

Резюме. В статье изучается творчество Сираджаддина Сейида – одного из выдающихся представителей узбекской литературы. Показано, что поэзия С.Сейида развивала узбекскую литературу с точки зрения некоторых составляющих. В его поэзии отражена художественная карта истории, современное состояние и духовность узбекского народа. Это также прославленная любовь к родине, патриотизм, прошлое и сегодня нации. В своих стихах о Теймурленге, Бабуре, Навои он пытался оценить роль личности в истории. Творчество Сираджаддина Сейида богато и разнообразно по форме. Он использовал классическую форму (газель), стиль народной поэзии, а также свободное стихотворение.
Ключевые слова: Сираджаддин Саид, поэт, узбек, поэзия, поэтическое отображение, патриотизм

Maqsud Şeyxzadə haqqında xatirələr

Gülşən Kəngərlinskaya
A.Bakıxanov adına Tarix İnstitutu. Azərbaycan.
E-mail: gulshan27@mail.ru
https://orcid.org/0000-0001-5791-4813

Görkəmli özbək şairi Maqsud Şeyxzadə keşməkeşli taleyə malik olan böyük mütəfəkkir ədəbi simalardan biridir. O, Özbəkistanın qüdrətli şairi, Azərbaycanın tanınmış övladıdır. Maqsud Şeyxzadə üçün Özbəkistan da Azərbaycan kimi doğma vətəndir. Bədii yaradıcılığa Azərbaycanda başlamış Maqsud Şeyxzadə Özbəkistanda məşhur sənətkar kimi şöhrət qazanmışdır. Maqsud Məsim oğlu Şeyxzadə 7 noyabr 1908-ci ildə Ağdaş şəhərində anadan olmuşdur. O, ilk təhsilini Ağdaşda "Əhmədiyyə" ibtidai məktəbində, daha sonra isə Muxtar Əfəndinin 1906-cı ildə açdığı "Rüşdiyyə" məktəbində almışdır. Görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Nəriman Nərimanov 1918-ci ildə Ağdaşda ezamiyyətdə olarkən, təşkil edilmiş bir tədbirdə 10 yaşlı Maqsud öz şeirini söyləmiş, bu hadisə ədibin diqqətini cəlb etmişdir. Nəriman Nərimanovun təqdimatı ilə "Kommunist" qəzetinin 1921-ci ilin 21 dekabr tarixli sayında 13 yaşlı Maqsudun üç şeiri dərc olunmuşdur. Bakı Darülmüəllimində – Pedaqoji Məktəbində təhsil alan Maqsud Şeyxzadə Hüseyn Cavid, Abdulla Şaiqin dərslərini dinləmiş, onlardan aldığı millət, ədəbiyyat və türkçü – anadan olmasının 110 illiyi münasibətilə məruzələr, məqalələr və fotolar toplusu 4-lük ideyaları onun vətənpərvər gənc şair kimi formalaşmasında mühüm rol oynamışdır. Cəmi iyirmi yaşında ikən millətçi damğası ilməvvəlcə Dağıstana, oradan da Özbəkistana sürgün edilmiş Maqsud Şeyxzadə qısa müddətdə özbək dilini öyrənmiş, bu dildə şeirlər və məqalələr yazmışdır. Özbək ədəbiyyatının görkəmli klassiki Əlişir Nəvai haqqında yazıb mətbuatda çap etdirdiyi məqalə onun ədəbi mühitdə tanınmasına səbəb olmuşdur. Özbəkistan elmi-ədəbi mühiti Maqsud Şeyxzadənin yetişib formalaşmasında mühüm ədəmiyyətə malik olmuşdur.

O zaman onun şəxsiyyət kimi böyüklüyünü, poeziyasını, özbək ədəbiyyatı üçün gördüyü işləri, dramaturji istedadının böyük əhəmiyyətini dərk etmək üçün mən hələ çox kiçik idim. Ancaq babam Maqsud Şeyxzadənin və nənəm Səkinə xanımın Daşkənddən bizə gəlişinin necə böyük sevinc və bayram hissi yaşatdığını xatırlayıram.

Bizim ailəmiz – anam Kamilla xanım, atam Fuad bəy, anamın xalası Taci xanım (Səkinə nənəmizin bacısı) və qardaşım Rüstəm Bakıda, babam və nənəm isə Daşkənddə yaşayırdılar. Və ildə bir, yaxudda iki ildə bir dəfə babam və nənəm öz doğma vətənlərinə və sevimli şəhərlərinə – Bakıya gələrdilər. Bu hadisə ailəmiz üçün əsl bayrama çevrilərdi. Bütün ailə – anamın xalası Taci xanım (biz ona "nənə" deyə müraciət edərdik), xalam Alimə xanım anamla birlikdə Azərbaycan mətbəxinə aid dadlı yeməklər hazırlayardılar. Taci nənəm çox gözəl şəkərbura, paxlava, şorqoğal bişirərdi. Əgər bu şirniyyatlar hazırlanırdısa, üstəlik, hələ Novruz bayramı deyildisə, bilirdik ki, Qağa və Xalacan tezliklə bizə gələcəklər. Biz babamızı Qağa, nənəmizi isə Xalacan deyə çağırırdıq.

Babamla bircə dəfə ünsiyyətdə olan adam onun həddən artıq sadəliyinin və təvazökarlığının şahidi olardu. Özü də bu xarakterini cəmiyyətin bütün təbəqələrindən və müxtəlif peşə sahiblərindən olan adamlar deyərdilər. Uşaqlarla rəftarı daha heyrətamiz idi. Təkcə bizimlə – nəvələri ilə deyil, tanımadığı belə, yenicə gördüyü uşaqlarla da xoşrəftar idi. Necə deyərlər: "uşaqla uşaq, böyüklə böyük idi".

Qohumumuz Almaz xanım İsrafilova öz xatirələrində yazır: Maqsud Şeyxzadənin həyat yoldaşı Səkinə xanım Astarada anadan olmuşdu. O, anamın xalası qızı idi. Buna baxmayaraq, Özbəkistanda yaşadığı müddətdə heç vaxt Astaraya gəlməmişdi. 1964-cü ildə Bakıda yazıçıların mədəniyyət günləri keçirilirdi. Özbəkistandan Maqsud Şeyxzadə gəlmişdi. Dekadadan sonra 3 günlük həyat yoldaşı Səkinə xanım ilə birlikdə qohumları yoluxmağa Astaraya gəldilər. Astara, oranın əhalisi, təbiəti Maq-

sud Şeyxzadənin çox xoşuna gəlmişdi. O, gedəndə söz verdi ki, gələn il məzuniyyətini Astarada keçirəcək. "Mən dünyanın bir çox ölkələrini gəzmişəm, amma buranın təbiəti, xüsusən təmiz havası mənim çox xoşuma gəlir". Vəd etdiyi kimi, 1962-ci ildə Astaraya Səkinə xanımın xalası qızıgilə gəldilər və bir ay orada istirahət etdilər. Onların Astarada olduqları müddətdə onları ziyarət etmək üçün rayonun bir çox ziyalıları və sadə adamları (onunla) bizim evimizə gəlirdilər. Maqsud Şeyxzadə çox sadə bir insan idi. O, gündüzlər əhalinin arasında olurdu, onlarla söhbətlər edirdi. Heç bir kəsin qəlbinə toxunmayırdı. Onların həyat tərzi ilə maraqlanırdı. Gecələr isə ay işığından, dəniz tərəfdən gələn mehdən zövq alaraq yazırdı. Bir gün Maqsud Şeyxzadə ilə rayonun əhalisi arasında mədəniyyət evində raykom katibinin (icra başçısı) təşəbbüsü ilə görüş keçirtmək təklifi gəldi. Maqsud Şeyxzadə etiraz etmədi. Görüş günü o, Astaraya aid bir gözəl şeir yazdı. Həmin şeirdə Astaranın gözəlliyi və mənim anamın Hacıbəylinin simasında İki xalqın oğlu Maqsud Şeyxzadə 165 oranın qadınlarının qonaqpərəst, səmimi olduqlarını əks etdirdi. Maqsud Şeyxzadənin Astarada olduğu müddətdə Azərbaycanın görkəmli bəstəkarı Oqtay Kazımov da Astarada idi. O, bizə gəlib onunla yazdığı şeirə musiqi bəstələdi. Demək olar ki, həmin mahnı 1-2 saat ərzində yarandı. Maqsud Şeyxzadə ilə görüşdəki rəsmi hissədən sonra, möhtəşəm bədii hissə oldu və həmin bədii hissədə "Astara" mahnısı səsləndi. Mahnının məzmunu belə idi: "Astaranı bir görən onu heç vaxt unutmaz". Sonralar bu mahnı respublikanın Əməkdar artisti Anatolu Qəniyev tərəfindən radio və televiziyada səslənib məhşurlaşdı. Bu mahnının sözləri şüar kimi böyük bir lövhədə daimi Lənkəranın qurtaracağı, Astaranın başlanğıcında vurulmuşdu. Astarada olduğu müddətdə respublikanın Əməkdar artisti, mərhum Lütfəli Abdullayev "Ulduz" kinosunda çəkilirdi, gəlib tez-tez Maqsud Şeyxzadəyə baş çəkirdi.

Maqsud Şeyxzadə – şair və pedaqoq, geniş və zəngin ruhlu, hamı ilə tez dil tapan, hər kəsə kömək əlini uzadan bir ziyalı idi. Sözü və əməli bir olan insan idi. Özbəkistan və Azərbaycanda neçə aztəminatlı azərbaycanlı gənc ali təhsil alarkən, bizim babamız onlara həm mənəvi, həm də maddi dəstək göstərmişdi. Baş vermiş belə bir hadisə Özbəkistanda hamıya məlum idi. Ananın tək böyütdüyü, imkansız bir tələbəyə hər ay öz cibindən təqaüd verirmiş. Babam rəhmətə gedəndən sonra bu yardım – təqaüd kəsilir. Ana instituta gəlib etirazını bildirir ki, oğlunun təqaüdünü niyə kəsiblər? Və o zaman məlum olur ki, bu məbləği Maqsud Şeyxzadə öz hesabından həmin tələbəyə ödəyirmiş.

1977-ci ildə Asəf Zeynallı adına Musiqi Məktəbini bitirdikdən sonra mən təhsilimi davam etdirmək qərarına gəldim. Sənətşünas olmağı çox arzu edirdim. Daşkənd Dövlət Universitetində təhsilimi davam etdirmək seçimim təsadüfi olmamışdı. Məhz bu universitetin tarix fakültəsində "İncəsənətin nəzəriyyəsi və tarixi" ixtisası var idi. Bu yöndə təhsil postsovet məkanında – Moskva, Leninqrad və Kiyev şəhərlərində də var idi.

Babamın ikinci vətəni məhz Daşkənd idi. O vətən ki, babam onu sevir, onunla fəxr edirdi və özbək poeziyasının və dramaturgiyasının inkişafında çox böyük xidmətləri olmuşdur. Məni tanıyan, bilən hər kəs çox ünsiyyətcil olduğumu söyləyir. Bu, həqiqətən belədir və mənə elə gəlir ki, bu xasiyyətim babamdan keçib.

İlk səyahətim hələ altı aylıq olarkən valideynlərimlə məhz Daşkənd şəhərinə olmuşdur. Sonralar bütün uşaqlıq illərimdə nənəm ilə birlikdə səmimi insanları olan günəşli şəhərdə çox olmuşam. Odur ki, anamla birgə qərarımız qəti oldu: təhsilimi Daşkənddə davam edəcəyəm.

Bu xatirələrimi indi sizinlə bölüşərkən, sadəcə, o zaman keçirdiyim hissləri sizə çatdırmaq istəyirəm, indi də düşünürəm ki, görəsən onda haqlımı olmuşam? O zamanlar orta ümumtəhsil (texnikum) və peşə məktəblərini əla qiymətlərlə bitirən abituriyentlər ali məktəblərə qəbul zamanı iki imtahan verirdilər. Və əgər iki imtahandan "əla" qiymət alardılarsa, seçdikləri fakültəyə qəbul olunardılar. Məni də iki imtahan gözləyirdi: tarix və ədəbiyyat. Tarix imtahanını verib "əla" qiymət aldıqdan sonra ədəbiyyat imtahanı üzrə qəbul komissiyası sədrinin qarşısında imtahan biletinin suallarına, əlavə suallara cavab verdim. Əlavə suallar Azərbaycan poeziyası və nəsrindən oldu. Cavabım imtahan komissiyası sədrinin xoşuna gəldi və mənə gözlənilməz sual verdi: "Axı siz niyə filologiya fakültəsini seçmirsiniz? Elə bu dəqiqə qərar verin və biz sizi filologiya fakültəsinə qeyd edək". Mən tə-

şəkkürümü bildirib, bu təklifdən imtina etdim. Axı mən tarixi və sənətin tarixini öyrənmək istəyirdim.

Uşaqlıq və gənclik illərində babam Qağa və nənəmlə bağlı xatirələrim çoxdur. Onlardan eşitdiyim bəzi məsəllər vardır ki, son vaxtlara kimi elə bilirdim ki, bunlar atalar sözüdür. Sən demə, bu kəlmələr sadəcə, babamın öz deyimləri idi. Məsələn, "sağlığında kor Fatı, öləndə badamgözlü bacım hey".

Ali təhsilimə 1977-ci ildə Daşkənddə başladım. O zamanlar tələbələri pambıq yığmağa aparırdılar. 1978-ci ildə mən də hamı kimi pambıq yığımına getdim. İlk yığdığım pambıq cəmi 200 qram gəldi. Çünki mən yalnız pampığın liflərini yığmışdım, digər tələbələr isə qozalarla birlikdə yığmışdılar, odur ki, onların yığdıqları çəki ağır gəlirdi. Noyabrın 1-ci həftəsi idi, dayım böyük qazanlarla gəldi. Bütün tələbələri aşa qonaq elədi. Həmin il noyabrın 7-də babamın 70 illik yubileyi qeyd edilirdi. Dayım mənə geri qayıtmaq üçün icazə alanda hamı bildi ki, mən Maqsud Şeyxzadənin nəvəsiyəm. Mənə qarşı hörmət, diqqətcillik, isti münasibət bir az da artdı. Özbək xalqı çox sadə və istiqanlı, səmimi bir xalqdır. O vaxta qədər yalnız rəfiqəm Gülşad Daşməhəmmədova bilirdi ki, mənim babam kimdir. Çünki onun babası – Özbəkistanın Xalq şairi Aybək ilə mənim babam bir yerdə işləyib, yazıb-yaradıblar.

Bu günə qədər də biz Gülşadla dostluq edirik. Dostluq etməyi bacarmaq, insanları sevmək, qiymətləndirmək bizə babamızdan keçib. Tələbəlik illərində yoldaşlarımı Bakıya qonaq gətirirdim. Bizim ailədə babalarımız, valideynlərimiz və biz, 3-cü nəsil də bir-birimizlə yaxın dostluq əlaqəsi saxlayırıq. 5 il bir yerdə təhsil aldıqdan sonra tale bizi ayırsa da, biz bu günə qədər bir-birimizi axtarırıq, isti münasibətlərimizi saxlayırıq. Təkcə Gülşadla deyil, digər tələbə yoldaşlarımızla da əlaqə saxlayıram.

Babam Maqsud Şeyxzadənin xarakterinin daha bir cəhətindən – illər boyu davam edən dostluq etmək xarakterindən danışmaq istərdim.

Biz – onun nəvələri, uşaqlıqdan bütün Özbəkistanda məhşur olan bu adları eşidirdik: Aybək, Həmid Əlimcan, Zülfiyyə və başqaları. Bunlar Özbəkistanın məşhur şair və yazıçılarının adlarıdır.

Gözəl qadın, istedadlı şair və dərin zəkalı Zülfiyyə apanı tanımaq və görmək də mənə qismət olmuşdu, hətta onların evində çox tez-tez olurdum. Səbəbi isə sadə idi. Zülfiyyə ananın nəvəsi Gülşad (o həm də Aybəyin oğul nəvəsi idi) həmin dövrdə Zülfiyyə nənəsi ilə qalırdı və biz bir yerdə Daşkənd Dövlət Universitetinin tarix fakültəsində eyni qrupda təhsil alırdıq. Aramızda möhkəm dostluq münasibətləri var idi. Bu da çox təbii idi. Çünki bu, həqiqi, saf dostluq münasibətlərinin əsasını bir əsr əvvəl babalarımız və nənələrimiz qoymuş, valideynlərimiz, daha sonra biz – nəvələr davam etdirirdik. Həmid Əlimcanın və Zülfiyyə apanın qızı Ülkər Əlimcanın namizədlik dissertasiyasının mövzusu Maqsud Şeyxzadənin yaradıcılığına həsr edilmişdi.

Mən Ülkər apa və Amanbəy Daşməhəmmədovların (Aybəyin böyük oğlu) qızları Gülşad və Lalə ilə baxmayaraq ki, ayrı-ayrı ölkələrdə, hətta qitələrdə yaşayırıq, bu günə qədər dostluq edirik. Bu kitabın özbək dilində ərsəyə gəlməsində Lalə Daşməhəmmədovanın əməyi var.

Niyə bütün bunları sizlərə danışıram, sadəcə mənim, qardaşımın, xalam uşaqlarının ədəbiyyata, qiraətə böyük həvəsimizin hardan qaynaqlandığını izah etmək üçün. Sözsüz ki, valideynlərimizdən ötürülüb. Anam Kamilla xanım, xalam Alimə xanım və dayım Rasim bəy sadəcə olaraq seçdikləri peşənin kamil biliciləri deyildilər, onlar həm də zəngin mütaliəli idilər. Bu il 84 yaşı tamam olan dayımız Rasim bəy indi də fəal oxucudur. Təsadüfmü?! Əlbət ki yox! Körpəlikdən atalarının çox, həm də müxtəlif dillərdə mütaliə və tərcümə etdiyini görürdülər. Əlbəttə, bu böyük nümunə bizim üçün bir məktəb idi. Maqsud Şeyxzadə nəinki müxtəlif dillərdə mütaliə edirdi, həm də bir çox dildə şeir və pyeslər də yazırdı. Bütün türk xalqlarının nümayəndələri ilə onların öz dilində danışırdı. Atalarının öz həmkarları, dost və qohumları tərəfindən necə hörmətlə qarşılandığını, sevildiyini, həmçinin atalarının insanları necə sevdiyini, həmişə onlara kömək etdiyini görən övladlar, mədəniyyət və poeziya abhavası olan bir evdə tərbiyə almışdılar.

Mən babamla, nənəmlə həmişə öyünmüşəm, bu gün də öyünürəm ki, belə bir ailənin övladı olmuşam.

İndi isə, qardaşım Rüstəm Kəngərlinskayanın babamızla bağlı xatirələrini sizlərlə bölüşürəm: “XX əsrin 70-ci illərinin əvvəllərində orta məktəbi bitirdikdən sonra mən Nəqliyyat İnstitutunun tikinti fakültəsinə daxil olmaq üçün Daşkəndə gəldim. Mən öz dayımgildə qalırdım. Həftədə 2-3 dəfə nənəm Səkinə xanımın yanına gedirdim və ona təsərrüfat işlərində kömək edirdim. Səkinə xanım 4 otaqlı mənzildə tək yaşayırdı. Burada bir otaq var idi-babamın kabineti və həmişə açarla bağlı olardı. Nənəm belə deyirdi ki, kabineti bağlı saxlamaqla Maqsud Şeyxzadənin sağlığında yaşayıb yaratdığı o ab-havanı, atmosferi qoruyub saxlamaq istəyir.

Tədris ilinin sonunda seçdiyim ixtisas ürəyimcə olmadığı üçün, Daşkənd Dövlət Universitetinə qəbul olunmaq qərarına gəldim. Və öz qərarımı gizli saxladım. Müvəffəqiyyətlə qəbul imtahanı verib şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsinə qəbul olundum. Sentyabr ayında tələbə biletləri paylandı və mən Səkinə xanıma həqiqəti açıqladım. O, tələbə biletini əlində saxlayıb xeyli susdu.

Mən soruşdum ki, seçimim onun xoşuna gəlməyibmı? O, o biri otağa keçib əlində açarla qayıtdı. Kabinetin qapısını açıb məni içəri dəvət etdi və dedi: "bundan sonra sən burada çalışacaqsan".

Mən onda anladım ki, o, ürəyində ümid edirdi ki, mən nə vaxtsa babamın ərəb dilində olan saysız-hesabsız yazılarını və qeydlərini araşdıra bilərəm. İlk dəfə kabinetin kandarına ayaq basanda, məni çulğalayan hisslərdən yerimdə dondum. İlk hiss-heyrət idi: kitablar, kitablar, kitablar. Onlar hər yerdə idi: çoxlu sayda rəflərdə, yazı masasının, jurnal masasının, stullar və qotuqlu oturacaqların üzərində. Bir də çoxlu sayda əlyazmaları ilə dolu papkalar, izahlı və xarici dil lüğətləri vadı. Özü də kitablar müxtəlif dillərdə idi. Axı Maqsud Şeyxzadə səkkiz dil bilirdi.

İkinci hiss – fərəh hissi idi. Mən ilk adam idim ki, babamın ölümündən sonra Səkinə xanım kabinetə daxil olmağa icazə verirdi. Mənim babam Maqsud Şeyxzadə ilə bağlı parlaq uşaqlıq xatirələrim var. 1964-cü ilin payızında babam nənəmiz Səkinə xanımla Daşkənddən Bakıya gəlmişdilər. Bir gün babam Qaqa (biz onu belə çağırırdıq) məni evimizin yaxınlığındakı Dzerjinskiy adına parkda gəzintiyə dəvət etdi. Qürur hissi var idi. Mən çox müqəddəs və qeyri-adi bir şeylərə toxunurdum. Bir az tərəddüd də var idi. Mən babama aid olan əşyalara toxunmağa qorxurdum. İçimdə məni illər uzunu rahat buraxmayan bir hiss var idi. Bu, küskünlük və haqsızlıq hissi idi. Taleh niyə babama belə qısa ömür yazıb?. Maqsud Şeyxzadənin özbək xalqı üçün böyük xidmətləri olmuşdur. Həmişə bu xalqı çox sevmiş və Özbəkistanı ikinci vətəni adlandırmışdı. Azərbaycanı öz vətəni adlandırıb, həmişə sevib, heç zaman unutmayıb. Biz həyətin içindən keçdik. Biz nümunəvi olan dəmiryolçuların həyətində yaşayırdıq. Hər yerdə oturacaqlar, insanların istirahəti üçün xüsusi oturacaqlı guşələr, uşaqlar üçün meydançalar var idi. Həmçinin yay kinoteatrı da var idi. Biz babamla söhbət edə-edə qırmızı guşənin, hardakı təqaüdçülər oturub nərd, domino, dama oynayırdılar, yanından keçirdik. Siz fikirləşin ki, orda necə hay-küy vardı? Qaqa məndən soruşur ki, bu nə "yığıncaqdır"? Qeyd etməliyəm ki, bu günə qədər mən babamı yad insanlarla ünsiyyətdə görməmişdim. Bu dəfə babam "qırmızı guşə" yə daxil oldu. Biz daxil olan kimi sakitlik çökdü və hamı bizə baxdı. Babam özünü təqdim etdi və nərd oynamaq istəyini bildirdi. Dərhal ona yer verdilər və oyun başladı. Mənim heç ağlıma da gəlməzdi ki, mənim babam belə həvəskar oyunçu imiş. Babam o vaxt çəkdiyi kazbek papirosunu çıxartdı və ətrafdakılara da təklif etdi. Qutu bir an içində boşaldı. Qaqa məni çağırıb qulağıma pıçıldadı ki, evə gedib dörd qutu da gətirim.

10 dəqiqədən sonra mən papiroslarla qayıdanda, məndə elə təəssürat oyandı ki, babam ömrü boyu bu məhəllədə yaşayıb və bu insanları yaxşı tanıyır. Uşaq olduğum ücün mən o zaman dərk eləmirdim ki, mənim babam unikal xarakterə malik idi. Onun isti və açıq təbiəti insanları o dəqiqə özünə cəlb edirdi. Babamgil Daşkəndə qayıdandan sonra hələ uzun müddət "Maqsud bir də Bakıya nə vaxt gələcək", – deyə soruşurdular.

Özbək dramaturgiyasına baxış

Mehman Həsənli
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: mehman.hesen@gmail.com
https://orcid.org/0000-0003-3036-2646

Annotasiya. XX əsrin əvvəllərində türk dünyasının mühüm mərkəzlərindən biri olan Özbəkistanda maarifçi cədidçilik hərəkatı geniş vüsət almışdır. Bu prosesin ən fəal iştirakçılarından biri Mahmudxoca Behbudi olmuşdur. Mahmudxoca Behbudi özbək cədidizminin banilərindən biri hesab olunmuş, ölkəsində mətbuatın inkişafında müstəsna xidmətlər göstərmişdir. Məqalədə XX əsrin əvvələrində Özbəkistanda ictimai-mədəni mühit araşdırmaya cəlb edilmişdir. İlk özbək dramı olan Mahmudxoca Behbudinin "Pədərkuş" (Ata qatili") pyesinin ideya-məzmun xüsusiyyətləri tədqiq edilmişdir.
Açar sözlər: Mahmudxoca Behbudi, özbək dramaturgiyası, cədidizm, teatr, maarifçilik

http://dx.doi.org/10.29228/edu.169
Məqaləyə istinad: Həsənli M. (2020) *Özbək dramaturgiyasına baxış.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 246-250
Məqalə tarixçəsi: göndərilib – 16.03.2020; qəbul edilib – 24.03.2020

A view to the Uzbek dramaturgy

Mehman Hasanli
Doctor of Philosophy in Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: mehman.hesen@gmail.com
https://orcid.org/0000-0003-3036-2646

Abstract. One of the significant centres of Turkic world in the early 20th century that got a wide scope in Uzbekistan was Jadidism movement. Mahmudkhoja Behbudi was one of the active representatives of this process. Mahmudkhoja Behbudi considered as a founder of Uzbek Jadidism and had great services in the development of press in his country. In the article social-cultural environment in Uzbekistan at the beginning of the 20th century has been studied. Idea-content features of the drama "Pederkush" ("Father Killer") by Mahmudkhoja Behbudi which is the first Uzbek drama, has been researched.
Keywords: Mahmudhoja Behbudi, Uzbek dramaturgy, Jadidizm, theatre, enlightenment

http://dx.doi.org/10.29228/edu.169
To cite this article: Hasanli M. (2020) *A view to the Uzbek dramaturgy.* «Comparative Literature Studies», Issue I, pp. 246-250
Article history: received – 16.03.2020; accepted – 24.03.2020

Giriş / *Introduction*

XX əsrin əvvəllərində dünyada baş verən hadisələr Türküstanın ictimai-mədəni həyatına da təsir göstərmişdir. 1904-cü ildə başlanan rus-yapon müharibəsi və Rusiyanın məğlubiyyəti, 1905-ci ildə imperiya əleyhinə etiraz dalğasının başlanması və bunların nəticəsi olaraq, Çar II Nikolayın 17 Oktyabr Manifesti ilə tabe millətlərə söz, vicdan və mətbuat azadlığının verilməsi, Birinci Dünya müharibəsi və Türküstanda imperiya əleyhinə başlanan milli hərəkat, 1917-ci il Fevral və Oktyabr inqilabları, nəhayət, bu ilin 27 noyabrında Türküstan Muxtariyyatının elan olunması və daha sonra bolşeviklər tərəfindən ləğv olunması bu dövr üçün mühüm əhəmiyyət kəsb edən hadisələrdən idi. XX əsr boyu özbək ədəbiyyatında sadaladığımız hadisələrin əks-sədasını duymaq mümkündür. Ümumilikdə, XX əsrin əvvəlləri türk xalqlarının həyatında mühüm tarixi mərhələ kimi səciyyələnmişdir. Bu dövrdə rus işğalında olan Qafqaz, Türküstan və Volqaboyu türklərində eyni məzmun kəsb edən fikir axınları meydana çıxmışdır.

Əsas hissə / *Main part*

XX əsrin ilk illərindən başlayaraq, Türküstanda cədid hərəkatı geniş yayılmağa başlamışdır. Cədidizm "üsuli-cədid" (yeniləşmə) məktəblərinin adından götürülmüş və daha sonra türk xalqlarını əhatə edən genişmiqyaslı ictimai, siyasi və mədəni hərəkata çevrilmişdir. Cədidizmin yaranma dövrü ilə bağlı tədqiqatçıların müxtəlif fikirləri mövcuddur. Məsələn, tatar cədidizminin tədqiqatçılarından biri – Damir İsxakov (və bir sıra başqa tatar tədqiqatçılar) Tatarıstanda cədidizmin XVIII əsrdən yarandığını əsaslandırmağa çalışmışlar. İsxakov bu fikrini Rusiyanın Tatarıstanı daha əvvəl işğal etdiyi ilə əlaqələndirmişdir. Hətta cədidizmin Əlişir Nəvai ilə başladığını iddia edən tədqiqatçılar da vardır. Buna baxmayaraq, əksər mütəxəssislər hərəkatın XIX əsrin ikinci yarısında yarandığını qəbul etmişlər. Cədid ideyalarının yayılmasında ədəbiyyat mühüm rol oynamışdır. Təsadüfi deyil ki, bir çox tədqiqatçılar özbək ədəbiyyatının inkişaf tarixini iki dövrə bölürlər:

1. Cağatay dövrü
2. Cədid dövrü

Bu bölgü özlüyündə cədidizmin özbək bədii düşüncəsində oynadığı mühüm rolu ifadə etməkdədir. XX əsrin əvvəllərindən etibarən, Türküstanın həyatında başlıca hərəkata çevrilən cədidizm özünün ən mükəmməl ifadə formasını ədəbiyyatda tapdı. İlk əvvəl "üsuli-cədid" məktəblərinin yaranması ilə başlayan hərəkat, daha sonra milli mətbuatın, milli teatrın yaranması ilə yeni mərhələyə yüksəldi.

XX əsrin əvvəllərindən başlayaraq cədid hərəkatının Türküstanda geniş bir hərəkata çevrilməsində əhəmiyyətli rol oynayan şəxsiyyətlərdən biri də Mahmudxoca Behbudi olmuşdur. Özbək ədəbiyyatından bəhs edən bir çox müəlliflər onu Türküstan cədidizminin banisi hesab etmişlər. Hələ əsrin əvvəllərində Behbudinin təşəbbüsü ilə Səmərqənddə "üsuli-cədid" məktəbləri fəaliyyətə başlamışdır. Yeni məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunmuş və Behbudi həmin məktəblər üçün bir neçə dərslik yazmışdır. Onun "Risaleyi əsbabi savad", "Risaleyi coğrafiyayi ümumi", "Risaleyi coğrafiyayi Rusiy", "Kitab-ül ətfal", "Əməliyati İslam", "Tarixi İslam" dərslikləri ötən əsrin əvvəllərində çap olunmuşdur.

1905-ci ildən Türküstanda geniş mətbuat şəbəkəsinin qurulmasında Behbudi yaxından iştirak etmiş, bir sıra qəzet və jurnalların təsisçisi olmuşdur. Türküstanda mərhələli şəkildə inkişaf edən maarifçi cədid hərəkatı məktəb və mətbuatdan sonra teatrın yaranma zərurətini meydana çıxarmışdır.

Əslində, XIX əsrin 60-70-ci illərində Türküstanda teatr fəaliyyətə başlamışdı. Əsasən rus və Qərb müəlliflərinin əsərlərinin rus dilində nümayiş olunduğu bu cür teatr tamaşaları kütləvi xarakter daşımamışdır. Bu tipli tamaşalarda hədəf olaraq yüksək elita – bəylər, xanlar və onların yerini tutacaq övladları seçilmişdir. Yerli elitanı bu cür "mədəni" fəaliyyətə cəlb etməklə imperiya rəhbərliyi öz maraqlarına cavab verən və yerli idarəetmədə uğurlu ola biləcək kadrlar hazırlamağı qarşılarına

məqsəd qoymuşdular. Bu isə milli teatrın yaranması demək deyildi. Çünki bunun üçün hələ milli hərəkat kifayət qədər formalaşmamışdı.

Türküstanda dramaturgiyanın və teatrın yaranmasında Azərbaycan və tatar maarifçilərinin rolu əvəzsizdir. Tatar rejissorları hələ 1904-cü ildə Namiq Kamalın pyesini Türküstanda tamaşaya qoymuşdular [1].

Azərbaycandan gələn teatr qrupları 1911-ci ildən etibarən Mirzə Fətəli Axundzadənin, Nəriman Nərimanovun və digər tanınmış ədiblərimizin əsərlərini Türküstanın ayrı-ayrı vilayətlərində səhnədə nümayiş etdirmişlər. Özbək dramaturgiyasından bəhs edən tədqiqatçılar ilk dram əsəri olan "Pədərkuş"un səhnəyə qoyulmasında Azərbaycandan gələn rejissor Əliəsgər Əliəsgərovun xidmətlərini qeyd etmişlər. Bu barədə Ayna dərgisinin 14-cü sayında yazılmışdır: "Namangen yaşlarıge ve muhterem Aliasgar efendige teşekkür kılınır. Semerkandda hem birinçi Türk tilinde koyulgen tiyatruge üç-tört sene ilgeri Aliasgar cenabları sebeb bolıb edi. Türkistanda Aliasgar efendini tiyatru koymagen şehri az kaldı ve kalganlarıge hem gayret etib koysa yahşı bolur" [1, s.24].

Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri 1916-cı ildə Daşkənddə şərqşünas Samoyloviçin rəhbərliyi ilə Əvlani tərəfindən Azərbaycan dilindən farscaya tərcümə olunaraq tamaşaya qoyulmuşdur. Tamaşa böyük marağa səbəb olmuşdur.

Müəllifin "milli faciə" adlandırdığı pyes 3 pərdə, 4 səhnədən ibarət "Pədərkuş" (Ata qatili) pyesi 1911-ci ildə yazılmışdır. Lakin senzura əsərin tamaşaya qoyulmasına icazə verməmişdir. Dramı senzuradan keçirmək üçün Behbudi əsəri Borodino savaşında Rusiyanın fransızlar üzərində qələbəsinin ildönümünə həsr etdiyini qeyd etmişdir. Pyes yalnız iki ildən sonra, 1913-cü ildə Tiflisdə çap olunmuşdur. Nəşr olunandan sonra pyesin səhnəyə qoyulması daha bir il ləngimişdir. Behbudi ortaya çıxan çətinliklərdən bəhs edərək yazmışdır: "Türküstanda bekar adam yoxdur ki, xalq üçün işləsin. Bekar kişi yoxdur ki, teatr səhnəsinə çıxıb "məsxərəbazlıq" etsin" [2, s.165].

Pyes ilk dəfə olaraq Səmərqənddə 1914-cü ilin yanvar ayının 15-də səhnədə nümayiş olunmuş və həmin gün professional özbək teatrının yaranış günü kimi tarixə yazılmışdır.

"Pədərkuş" növbəti dəfə 1914-cü ilin fevralında Əvlaninin "Turan" truppası tərəfindən Daşkənddə tamaşaya qoyuldu. Yerli mətbuat həmin günü "tarixi gün" adlandırdı. "Turan" truppası tamaşanı 1914-1916-cı illərdə Türküstanın ayrı-ayrı bölgələrində dəfələrlə nümayiş etdirdi. Əsər bir tərəfdən inqilab illərində milli təfəkkürün formalaşmasında mühüm rol oynadı, digər tərəfdən "Pədərkuş"la professional özbək teatr və dramaturgiyasının əsası qoyuldu. "Turan" truppasının üzvlərindən biri olan Samoyloviç tamaşa haqqında təəssüratlarından bəhs edərək yazırdı: "Türküstanda yeni ədəbiyyat meydana gəldi. Bu, məni çox xoş etdi.... Yeni ədəbiyyatın mərkəzi - Səmərqənd.... Öz qələmdaşlarının baş ilhamçısı Səmərqəndli müfti Mahmudxoca Behbudi oldu" [2, s.166].

Mahiyyət etibarilə eyni ictimai-sosial məsələlər, imperiyanın hakim olduğu coğrafiyada – həm Türküstan, həm də Qafqaz maarifçi ziyalılarının ideyalarında və mübarizə hədəflərində oxşarlıqlar vardır. Buna görə də Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin əsərləri ilə Əbdürrauf Fitrətin, Mahmudxoca Behbudinin əsərləri arasında ideya və məzmun baxımından yaxınlıqlar çoxdur. Azərbaycanda dramaturgiya Mirzə Fətəli Axundzadənin dram əsərləri XIX əsrin ortalarında yarandı. Behbudinin "Pədərkuş" əsəri isə 60 il sonra, cədidizm hərəkatının genişləndiyi bir vaxtda meydana çıxdı. "Pədərkuş" pyesi Mirzə Fətəli Axundzadənin dram ənənəsinin ideya-məzmun baxımından uğurlu davamıdır. Xalqı inkişafdan geri qoyan cəhalət hər iki ədibin yaradıcılığında əsas tənqid hədəfi kimi götürülmüşdür.

Çar imperiyası işğal etdiyi və əsasən türklərin yaşadığı coğrafiyada savadsız və asan idarə olunan cəmiyyət qurmaq niyyətində idi. Türküstan general-qubernatoru Kuropatkin məktublarının birində rəhbərliyə yazırdı: "Biz yerli xalqı, tərəqqidə, məktəbdə rus həyatından 50 il geridə tutduq" [3, s.49]. Kuropatkinin bu fikri Çar imperiyasının yerli xalqlara qarşı yürüdülən geriçi imperiya siyasətinin mahiyyətini açıqlamış olur. Eyni fikir rus rəhbərlərindən biri M.Muropiyev tərəfindən belə vurğulanmışdır: "Müsəlmanların təhsilində əsas məqsəd onları ruslaşdırmaqdır... İkinci prinsip isə İslamı pozmaqdır" [4, s.371].

Ümumilikdə türk xalqlarına yönələn bu tip siyasət maarifçilik hərəkatında oxşar motivlərin yaranmasına səbəb olmuşdur. Çar imperiyası işğal etdiyi torpaqlarda möhkəmlənmək üçün ilk növbədə xalq içində nüfuzu olan bəyləri və din xadimlərini aradan götürməyə başladı. Əvəzində bu vəzifələri pulla satmağa başladı ki, bu da sonradan Mirzə Cəlilin, Sabirin, Behbudinin əsərlərinin ifşa hədəfində məhz din xadimləri və geriçi siyasət yürüdən bəylərin olması ilə nəticələndi.

Türküstanda genişlənən cədid hərəkatının aparıcı nümayəndələri türk xalqının geri qalmasının əsas səbəbini təhsildə görürdülər. Çünki yüksək təhsil sistemi daha yüksək təfəkkürlü fərdlərin və onları birləşdirən cəmiyyətin mövcudluğu demək idi. Cədidçilər yeni və dünyəvi təhsil sisteminin tətbiqinə çalışırdılar. Bu baxımdan Behbudinin "Pədərkuş" dramı cədidçilərin təhsil haqqında olan baxışlarını əks etdirir. "Pədərkuş"da təsvir olunan Domulla və Ziyalı obrazları, xüsusilə də Domulla müəllifin mütərəqqi ideyalarının, o dövrdə fəal təbliğat aparan cədidçilərin ümumiləşdirilmiş obrazıdır. Onların Bəylə elm və təhsil haqqında söhbətləri əsərin əsas məğzini təşkil edir. Bəy Türküstanın yerli idarəçiliyinin tipik rəhbərlərindən biridir. Onun oğlu Daşmurad da dövrünün "elita"sına xas cahil və savadsız yeniyetmədir. Domullanın dili ilə Behbudi Qərbin inkişaf etmiş təhsil sistemindən danışır. Qafqazda, Volqaboyunda da yeni təhsil sisteminin formalaşdığını vurğulayır. Təhsilin inkişafına dair verilən bütün təklifləri Bəy qətiyyətlə rədd edir.

Əsərdə Domulla ilə Bəyin söhbəti təsvir olunur. Domulla, Bəyə dünyanın inkişafından, təhsilin zərurətindən bəhs edir. Qafqazda, Volqaboyunda artıq yeni inkişafla ayaqlaşmaq üçün atılan addımlardan danışır. Yeganə oğlu Daşmuradın oxumaq, təhsil almağının zəruri olduğunu bildirən Domullaya Bəy heç qulaq asmaq da istəmir. Onun fikrincə, var-dövlət olduğu halda, oxumağa gərək yoxdur. Eyni mövzu Bəyin Ziyalı ilə söhbətində davam edir. Ziyalı Bəydən kasıb uşaqların oxuması üçün kömək istəyir. Qeyri-türk, qeyri-müsəlman uşaqlarının elmdə, təhsildə irəli getdiyini və yerli əhalinin onlardan çox geri qaldığını ürək yanğısı ilə bildirir. Lakin Ziyalının yanıqlı nitqinin qarşılığında Bəyin xorultu səsi eşidilir. Ziyalı göz yaşlarını axıdaraq evi tərk edir və türküstanlıları Allaha tapşırır. Nəticədə isə cahilliyindən quldurların təsiri altına düşən Bəyin oğlu Daşmurad öz atasının evinə basqın edir və padarkuşa – ata qatilinə çevrilir. Daşmuradın Bəyi öldürməsi savadsızlığın məntiqi nəticəsi kimi, əxlaq və qanun pozğunluğuna səbəb olur.

Mahmudxoca Behbudi teatrı "İbrətnamə" adlandırırdı və milli təfəkkürün formalaşması üçün ən önəmli yol olduğunu vurğulayırdı. "Pədərkuş" həcm etibarilə kiçik də olsa, özbək milli düşüncəsinin, maarifçiliyinin inkişafında mühüm rol oynadı. Cədidizmin inkişaf mərhələsində meydana çıxan dramaturgiya və teatr özündən əvvəlki ideya və fikirləri ümumiləşdirərək gələcək inkişafa möhkəm özül hazırladı. Bu özülün baş memarlarından biri Mahmudxoca Behbudi oldu.

Cədidçilərin xalqa yaxınlaşmasına, maarifçi ideyalarının xalq içində kütləvi yayılmasında teatr mühüm vasitəyə çevrilmişdir. Behbudidən sonra Hacı Muinin "Bəy və Xidmətkar", Həkim Niyazinin "Zəhərli həyat", Abdulla Qədirinin "Bəxtsiz Kiyav", Abdulla Əvlaninin "Vəkillik asanmı?", Qulam Zəfərinin "Bəxtsiz şagird", Əbdülhəmid Çolpanın "Bəy", Əbdürrauf Fitrətin "Begican", "Mövludi-Şərif", "Xurşid bazarı", "Qara Xatun" və s. dram əsərləri meydana gəlmişdir.

Daha sonrakı illərdə özbək dramaturgiyasını Həkim Həimzadə Niyazi "Qəhrəman oğuz", "Fərqanə faciələri", "Muxtariyyət", "Şuranın üsyanı", "Çoban sevgisi", "Hücum" və başqa pyesləri ilə zənginləşdirmişdir. Onun xüsusilə, "Bəy və muzdur" dramı, "Maysaranın işi" komediyası və "Çadranın sirləri" faciəsini tədqiqatçılar yüksək qiymətləndirmişlər. O, həmçinin Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafında müstəsna xismətlər göstərmişdir. Professor Pənah Xəlilov H.H.Niyazinin fəaliyyəti haqqında yazır: "Həmzə Həkimzadə Niyazi arxivində saxlanan sənədlərin təsvirinə həsr olunmuş "Həmzə Həkimzadə Niyazi" kitabında elan və ya afişaları qalmış Azərbaycan tamaşalarından ikisinin adı çəkilir: "Ac həriflər", "Əvvəli hənək, axırı dəyənək" ...Niyazinin bizə gəlib çatan pyesləri ilə Azərbaycan dramaturqlarının əsərləri arasında bir doğmalıq, oxşarlıq və müştərəklik vardır. Bu cəhətdən Niyazini Nəriman Nərimanovla, Əbdürrəhim bəy Haqverdiyevlə, Cəfər Cabbarlı ilə müqayisəli öyrənmək üçün diqqətəlayiq material gözə çarpır" [5, s.189].

İkinci Dünya müharibəsi illərində Kamil Yaşenin "Aftab xanım", "Qəsbkarlara ölüm!", İzzət

Sultanın "Qartalın Pərvazı", Həmid Əlimcanın "Muqamma" pyesləri tarixi mövzuda uğurlu dram nümunələridir. Kamil Yaşen özbək dramaturgiyasının inkişafında mühüm xidmətlər göstərmiş və onun "Darmadağın", "General Rəhimov", "Namus və məhəbbət" pyeslərinin daxil olduğu kitab 1979-cu ildə Bakıda nəşr edilmişdir.

Nəticə / *Conclusion*

XX əsrdə Azərbaycan-özbək ədəbi əlaqələrinin formalaşmasında dramaturgiya və teatr əvəzsiz rol oynamışdır. Əsrin əvvəllərində əsası qoyulan bu ənənə daha sonra sovet dövründə inkişaf edərək zənginləşmişdir. Azərbaycanda özbək, Özbəkistanda isə Azərbaycan dram əsərləri tərcümə olunmuş, teatrlarda nümayiş edilmişdir.

Ədəbiyyat / *References*

1. Şühret R. Cedid Dramaturgiyası, Toşkent, 1997.
2. Milliy uyğonış davri Özbek adabiyatı, Toşkent: Manaviyat, 2004.
3. Fatma Açık. Özbek türk şairi, yazarı, dil bilimcisi ve düşünürü Abdurauf Fıtrat. "Kök" dergisi, sayı: 4, 2002.
4. Dilorom Alimova. Mustabid Tüzimnin Özbekistan Milli Baylıklarını Talaş Siyaseti: Tarih şahidliği ve sabakları. Toşkent: Şark, 2000.
5. Pənah Xəlilov. Həmzə Həkimzadə Niyazi və Azərbaycan ədəbiyyatı. Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr. Bakı, Elm, 1985, 279 s.
6. Almaz Ülvi. Azərbaycan-özbək ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, "Qartal", 2008, 326 s.

Вид на узбекскую драматургию

Мехман Гасанлы
Доктор философии по филологии, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: mehman.hesen@gmail.com

Резюме. Одним из значительных центров тюркского мира начала XX века, который получил широкое распространение в Узбекистане, было движение джадидизма. Махмудходжа Бехбуди был одним из активных представителей этого процесса. Махмудходжа Бехбуди считается основоположником узбекского джадидизма и оказал большую помощь в развитии прессы в своей стране. В статье исследована социокультурная среда в Узбекистане в начале XX века. Идео-контентные особенности драмы «Педеркуш» («Отец-убийца») Махмудходжи Бехбуди, первой узбекской драмы, были исследованы.

Ключевые слова: Махмудходжа Бехбуди, узбекская драма, джадидизм, театр, просвещение

Çağdaş özbək şeirinin görkəmli nümayəndəsi Osman Əzim

Xatirə Bəşirli
Filologiya üzrə elmlər doktoru, Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. Azərbaycan.
E-mail: bashirli58@mail.ru
https://orcid.org/0000-0002-5599-6322

Annotasiya. Osman Əzim müasir Özbək ədəbiyyatının tanınmış şairlərindən, yazıçılarından və ssenaristlərindən biridir. Müasir özbək ədəbiyyatının bu böyük şairi təxminən 40 ilə yaxındır ki, ədəbi yaradıcılıqla məşğuldur. O, bir çox nəşriyyatlarda, redaksiyalarda çalışmış və milli teatrlarla əməkdaşlıq etmişdir. Lirik şeirləri ilə oxucularının qəlbində taxt quran Osman Əzim sevgi və fəlsəfi mövzularda bir çox əsərlər yazmışdır. Əsərləri bir çox xarici dillərə, o cümlədən Azərbaycan, rus, ingilis, fransız, türk, gürcü, alman, polyak, eston, tacik, qazax və s. tərcümə olunmuşdur.
Açar sözlər: müasir özbək ədəbiyyatı, lirik poeziya, fəlsəfi poeziya, vətənpərvərlik, milli dirçəliş

http://dx.doi.org/10.29228/edu.140
Məqaləyə istinad: Bəşirli X. (2020) *Çağdaş özbək şeirinin görkəmli nümayəndəsi Osman Əzim.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 251-256
Məqalə tarixçəsi: göndərilib – 02.06.2020; qəbul edilib – 08.06.2020

Osman Azim the great poet of modern Uzbek poetry

Khatira Bashirli
Doctor of Philology, National Museum of Azerbaijan Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: bashirli58@mail.ru
https://orcid.org/0000-0002-5599-6322

Abstract. Osman Azim is one of the greatest poets, writers and screenwriters of modern Uzbek literature. This great poet of modern Uzbek literature has been engaged in literary creation for nearly 40 years. He worked for many publishing houses, editorial offices, and cooperated with national theatres. Osman Azim, who established the throne in the heart of his readers with lyric poems, has written many works on love and philosophical topics. His works have been translated into many foreign languages, including Azerbaijan, Russian, English, French, Turkish, Georgian, German, Polish, Estonian, Tajik, Kazakh and ets.
Keywords: modern Uzbek literature, lyric poetry, philosophical poetry, patriotism, national revival

http://dx.doi.org/10.29228/edu.140
To cite this article: Bashirli Kh. (2020) *Osman Azim the great poet of modern uzbek poetry*. «Comparative Literature Studies», Issue I, pp. 251-256
Article history: received – 02.06.2020; accepted – 08.06.2020

Giriş / *Introduction*

70-ci illər özbək ədəbiyyatının ən önəmli isimlərindən biri olan Osman Əzim Məhəmməd Rəhman, Yoldaş Eşbek, Xurşid Dövran, Şövkət Rəhman, Tilək Cörə, Mətnəzər Əbdülhəkim, Sədrəddin Səlim, İkram Aatamurad kimi istedadlı şairlər nəslinə mənsubdur. Həmin dövrdə geniş vüsət alan milliləşmə, yeniləşmə hərəkatında fəal iştirak etmiş, özbək poeziyasının müqtədir şairlərindən birinə çevrilmişdir. Şair, yazıçı, dramaturq, publisist, kinossenarist Osman Əzim 1950-ci ildə Surxandərya vilayətinin Boysun rayonunda dünyaya gəlmişdir. İlk və orta təhsilini doğma yurdunda alan Osman Əzim daha sonra Daşkəndə gələrək, Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuş, 1972-ci ildə həmin universitetdən məzun olmuşdur. Universiteti bitirdikdən sonra Osman Əzim müxtəlif qəzet və jurnallarda jurnalist kimi fəaliyyət göstərmiş, daha sonra bir çox nəşriyyatda redaktor, baş redaktorun müavini vəzifələrində çalışmış, respublika radiosuna verilişlər hazırlamış, 1976-1989-cu illərdə dövlət radioverilişlərində redaktor, böyük redaktor və baş redaktor vəzifələrində işləmişdir.

Əsas hissə / *Main Part*

Özbəkistan Yazıçılar İttifaqının üzvü olan Osman Əzim 1989-1990-cı illərdə Yazıçılar İttifaqının Daşkənd vilayət bölməsində məsul katib işləmişdir. Osman Əzim 1991-1994-cü illərdə bir müddət Özbəkistan Respublikası Prezidentinin aparatında şöbə müdiri, məsləhətçi və nəhayət, dövlət müşaviri vəzifələrində çalışmışdır. 2003-cü ildən bu günə qədər Özbək Milli Akademik Dram Teatrında ədəbi əməkdaş kimi işləməkdə və əsasən yaradıcılıqla məşğul olmaqdadır.

Osman Əzim ədəbi yaradıcılığa tələbəlik illərindən başlamış, ilk qələm təcrübələrini o dövrün qəzet və jurnallarında çap etdirmişdir. Hələ tələbəlik illərində yazdığı əsərləri ilə ədəbi-ictimaiyyətin rəğbətini qazanmış, o dövrün məşhur şairləri Erkin Vahidovun, Abdulla Aripovun, Rauf Pərfinin diqqətini çəkmiş, gənc şair və yazıçılar arasında özünəməxsus üslubu, dəsti-xətti ilə seçilmişdir.

Osman Əzimin ilk şeir kitabı jurnalist işlədiyi illərdə, "İnsanni tuşiniş" adı ilə 1979-cu ildə çap edilmişdir. Eyni ildə onun ikinci şeir kitabı "Halət" işıq üzü görmüşdür. Osman Əzim dövri mətbuatda yazdığı çoxsaylı publisistik məqalələri ilə bərabər, ədəbi yaradıcılıqla da məşğul olmuş, 80-90-cı illərdə məhsuldar işləyərək bir-birinin ardınca bir neçə şeir kitabı nəşr etdirmişdir. Məsələn, şairin 1980-ci ildə "Aqibət", "Güzgü", 1985-ci ildə "Surat" və "Dairə", 1987-ci ildə "İkkinçi aprel", 1989-cu ildə "Baxşıyanə", 1990-cı illərdə "Qaroyib əjdərha", "Oyanış azabı" (1991), "Fucca" (1994), "Uzun gecə" (1994), "Var imiş, yox imiş" (1995) kimi kitabları işıq üzü görmüşdür. Osman Əzim 80-90-cı illər Özbək ədəbiyyatında ən məhsuldar işləyən və kitabları bir-birinin ardınca çıxan tək-tük şairlərdən biridir. Şeirləri o qədər səmimiydi ki, onlara mahnılar qoşulmuş, gənclərin dilində əzbərə dönüşmüşdür:

Şamda qurbaqalar
Aytdi aşulə.
Kunduz surnay çaldi
Çirillovuqlar.
Endi кunduzlarim
Yaz bilan tola,

Men xuşbaxt кezəmən
Bağda koylakçan,
Baxarmi? Кetqandir...
Etmaymən pərva.
Özimça koşiklar
Aytqanim-aytqan,

Endi tunlarimdan
Ketdi savuklar.
Umrim otqanini
Sezmay, xuda-ya [1, s.74].

Yeni əsrin əvvəllərində də Osman Əzim yaradıcılıqla məşğul olmuş, "Payız" (2001) şeir kitabı və "Cadu" (2003) kimi nəsr əsəri nəşr edilmişdir. Ancaq onun XX əsrin sonu ilə XXI əsrin əvvəllərində daha çox dram əsərləri, hekayə, roman və kinossenarilər yazdığı məlumdur. Belə ki, Osman Əzim 90-cı illərdən başlayaraq, "Bəxtli uşaqlıq", "Sənədli film üçün sujet" kimi radiopyeslər yazdıqdan sonra 1997-ci ildə "Bir qədəm yol", "Gündüzsüz gecələr", "Bazar" kimi nəsr əsərləri yazdı. Onun "Alpamışın qayıdışı" (1998), "Qəzəl" (2000), "Vaxt quşu" (2002), "Ötgən zaman həngamələri" (2003) kimi pyesləri və 2000-ci ildə yazdığı 2 seriyalı "Alpamış" filminin ssenarilərinin da müəllifi olduğunu bilirik.

İstər şeirləri, istər nəsr əsərləri, istərsə də pyesləri ilə şöhrət qazanan Osman Əzimin yaradıcılığı tənqidçilər və ədəbiyyatçılar tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2000-ci ildə Özbəkistanın Xalq şairi fəxri adına layiq görülmüş, dəfələrlə ilin ən yaxşı şeir kitabı nominasiyasını qazanmış və "Afərin" mükafatı, həmçinin daha öncə 1982-ci ildə V.Mayakovski adına Ümumittifaq mükafatına layiq görülmüşdür.

Tanınmış özbək şairi Osman Əzimin yaradıcılığı respublikanın sərhədlərini aşmış, şeirləri ingilis, fransız, alman, polyak, makedon, türk, rus, gürcü, eston, litva, tacik, qazax, qırğız və Azərbaycan dillərinə tərcümə edilmiş, şeirlərinə musiqi bəstələnmişdir.

Bütün Sovetlər İttifaqında olduğu kimi, 60-cı illər özbək ədəbiyyatında da yeni bir dövr idi. 60-cı illərin gətirdiyi nisbi sərbəstlik, müxtəlif sosial təbəqələrə müraciət yeni bir ədəbiyyatın yaranmasına səbəb oldu. XX əsrin 60-cı illərində ədəbiyyata yeni nəfəs gəldi. Böyük bir ədəbiyyatçılar nəslinin ədəbi prosesə gəlişi istər nəsrdə, istərsə də poeziyada qeyri-adi tərəqqiyə səbəb oldu. Ancaq bu çoxcəhətli inkişaf da kortəbii şəkildə olmamışdır. Belə ki, bütün Sovetlər İttifaqında olduğu kimi, özbək ədəbiyyatında da 60-70-ci illərdə ədəbi-estetik axar dəyişdi, etik-estetik problemlər, milli-mənəvi dəyərlər önə çıxdı.

Bu dövrdə özbək ədəbiyyatına Erkin Vahidov, Abdulla Aripov, Aman Mətcan, Rauf Pərfi, Məhəmməd Əli, Maruf Cəlil, Çolpan Erqaş, Camal Kamal kimi şairlər gəldi. Onlar ötən əsrin 30-cu illərində repressiya edilən Çolpan və Fitrətin yolunu davam etdirdilər. 60-cı illər şairlərinin müstəqil təfəkkürü yeni nəsil milli şairlərin yetişməsi üçün zəmin oldu, 70-80-ci illərdən sonra özbək ədəbiyyatına həqiqət və ədalət çeşməsindən su içən yeni bir dalğa gəldi: Şövkət Rəhman, Osman Əzim, Tahir Qəhhar, Osman Qoşqar, Əzim Süyün, Məhəmməd Yusuf, Xurşid Dövran, Rauf Sübhan, Əbdüzəli Qütbiddin, Əziz Səid, Yəhya Tağa və başqaları idi. Həqiqəti açıq demək, milləti müstəqillik üçün ayağa qalxmağa, savaşmağa çağırış bu dövrün şair və yazıçılarına məxsus başlıca özəllik idi. Belə ki, millət dərdini açıq deyən Osman Əzim "Saratanda" adlı şeirində deyirdi:

Sonğeklere kadar işlemiş kış soğuklarına baharda isyan eder bir yaprak
Ama baharı karşılamağa bizde yok bir kuvvet [2, s.36].

Osman Əzim poeziyası özünün milliliyi, sadəliyi və ən əsası da səmimiyyəti ilə seçilir. Şeirin bütün janrlarında və həm sərbəstdə, həm klassik əruz üslubunda, həm də hecada yazan şair eyni dərəcədə uğurlu olmuşdur. Onun şeirlərində hiss və həyəcan yüksək səviyyədədir. Şeirlərində döyüşkənliklə və hüzn-kədər, sevinc, ümumbəşəri olanla milli ünsürlər iç-içədir. Buna görə də Osman Əzimin hər şeir kitabı oxucular üçün yeni bir dünya olmuşdur, çünki şair şeirlərinin ruhuna daxili aləmini, insan sevgisini, həyəcanını qata bilmişdir. Osman Əzimin hər bir şeiri sanki yeni bir poetik tapıntıdır, yeni bir kəşfdir. Misal olaraq, onun "Kuz keçəsi" ("Payız gecəsi") şeirinə diqqət etmək yetərlidir:

Xəzanrez. Kuz yetdi yürəkkə –
Məramni buzdi.
Şamalda şavullab daraxtlar
Tunqa tapaldi...

Zəfəran yılduzlar kolmakdə –
Kokdə xəm kuzmi?
Neqadir yiğladi bir adam –
Konqil yaraldi [1, s.18].

Osman Əzimin 1995-ci ildə çapdan çıxan "Saylanma" [3, s.21] ("Seçilmiş əsərləri") adlı şeirlər kitabı ədəbi mühitdə böyük əks-sədaya səbəb oldu. Kitabda gedən şeirlər Osman Əzimin XX əsrin son rübündəki özünəməxsus şairlərdən biri olduğunu göstərdi. Onun 2001-ci ildə işıq üzü görən "Kuz" ("Payız") şeirlər kitabı isə ədəbi tənqid tərəfində böyük rəğbətlə qarşılandı. Bu kitabdakı şeirlər özbək poeziyasının son illərdə nəşr olunan yaxşı nümunələri kimi oxucular tərəfindən qarşılandı. Osman Əzimin onlarca şeir kitablarına girən şeirləri, poemaları duyğularla, cazibədarlıqla dolu olub oxucuların qəlbini fəth etdi.

Osman Əzim ilk şeirlərindən başlayaraq, 1990-cı illərə qədər insanın daxili dünyasını riqqətə gətirən əsərlər yazdı. Bu əsərlərində dövr, ictimai həyat, insanın cəmiyyətdəki yeri, zamanın ağır şərtləri və s. kimi mövzular ön plana çıxdı. Onun "Sərbədarlar qoşugu" adlı şeiri bu cəhətdən spesifikdir. Bu şeirdə başını dar ağacına söykəyən bir qrup xalq qəhrəmanının həyatı və onların ən ağır zamanlarda, ölümlə üz-üzə qaldıqları anda keçirdikləri hiss və həyəcanı verilmişdir. Bu qəhrəmanların haqq yolunda, ədalət uğrunda mübarizələri, bu yoldan dönmədikləri adıçəkilən şeirdə bədii boyalarla təqdim edilmişdir:

"Qayt", dedingiz, "qalb", dedik,
"Ayt", dedingiz, "haq", dedik.
Boshimiz dorda turib,
"Jon", demadik, "xalq", dedik,
"Jon", demadik, "xalq", dedik [3, s.73].

Ancaq 80-ci illərin sonlarından başlayaraq, şeirlərindəki hadisələrin və zaman-məkan qavramının üstünlük təşkil etdiyi mövzuların yerini aşiqanə ruhlu şeirlər alır:

Her gece
Xatıran kalbime döner
Fetheder
Bir anda
Can ve cismimi
Dışarı çıkarım
gece aydınlık…
O anda
Ağlarım
Söylerken ismini… [4]

Aşiqanə şeirlər şairin ilk dövr yaradıcılığında da güclü idi. Ona görə də zamanla bu şeirlər yerini fəlsəfi dərinlikli poeziyaya buraxdı. Osman Əzim yaradıcılığının bu ikinci dövrü tamamilə yeni ruhlu şeirlərlə, insan varlığının müxtəlif tərəflərini ortaya qoydu. Bu, onun yaradıcılığının yeni bir dövrə qədəm qoyduğundan xəbər verirdi [5, s.997-1008].

Osman Əzimin yazdığı yüzlərcə şeir və poemaları sadəcə mövzu, janr, üslub, poetik formasına görə deyil, həm də coşğunluğu, romantikliyi və eyni zamanda mübarizliyi ilə əlahiddə əhəmiyyətə malikdir. Bununla bərabər, onun əsərlərində güclü dramatizm, estetiklik, faciəvilik kimi xüsusiyyətlər oxucunu həyəcana gətirir. Onun şeir və poemalarında vətən eşqi, ana yurda heyranlıq, vətən sevgisinin xalq təsəvvürü, gələcəkdə ola biləcək hadisələrdən doğan təşviş, gah müasir mövzularda, gah tarixi-müqayisəli tərzdə, gah folklor ənənələri ruhunda özünün dərin realist ifadəsini tapmışdır:

Vatan sevgisinde birinci ada,
Birinci çatmaga pay yeter manqa.
Burda birincilik: Vatan yolunda
Birinci ölmegi öyretir manqa [6, s.94].

Bunu onun bir az avtobioqrafik ruhlu şeiri də təsdiq edir:

Oynaq-oynaq, ağır-ağır axmaqda ömrüm.
Gah göz yumub, gah üfüqdə batmaqda ömrüm
Var canını sədəqə eylə şeirə, qoşuğa
Siz yox edən sururları tapmaqda ömrüm [7, s.58].

Osman Əzim bəzən çox sadə görünən həqiqətlərdə də dərin mətləblər axtarır, məsələləri fəlsəfiləşdirir. Aşağıdakı nümunədə onun 1 aprel gününə həsr etdiyi şeirində olduğu kimi:

Men yorulub sanqa söykəndim, hakiket,
Saat zil çalmakta
Ayıtışım, gel.
Qorkma,
Keçti, bitti bir günlük dehşet
Bugün İkinci aprel,
Gerçek
İkinci aprel… [8, s.30]

Onu da qeyd etmək lazımdır ki, müstəqillik dövrü Azərbaycan və özbək ədəbiyyatlarının milli mövzular baxımından ən zəngin dövrlərindən biridir. Bu dövrdə ədəbiyyatın, konkret olaraq poeziyanın əsas mövzusunu Sovetlər İttifaqını tərifləyən bayağı şeirlərin yerinə həqiqi həyat, cəmiyyət məsələləri, xalqın əsl duyğu və düşüncələri, milli məsələlər təşkil edir. Osman Əzim bir şeirində sərbəstlik, azadlıq fikirlərini poetik simvollarla belə anlatmışdır:

Men şunday yaraldim:
Gullarim qalblarga solmas həyajon.
Mevamqa heç kimninq tuşmaqan mehri,
Barqim çumoliqa bolmas sayabon.
Sumbatim egri,
Alvida! Men endi maqsadqa yetdim
Baqdaşlar, sonq yolqa kuzatinq, qani...
Men atin bolqani uzlatqa ketdim,
Men ketdim, dostlarim, alov bolqani [9].

80-90-cı illər şeiriyyətindəki yeniliklərə diqqəti yönəldən müəllif fikirlərini Abdulla Arif, Erkin Vahidov, Rauf Pərfi Öztürk, Həlimə Xudaverdiyeva, Osman Əzim, Şövkət Rəhman, Dilək Çörə, Yoldaş Eşbek, Məhəmməd Yusif, Xurşud Dövran və başqa istedadların ciddi poetik uğurları ilə əsaslandırır. Məqalənin özünəməxsus bir cəhəti ondan ibarətdir ki, onda müəllif qardaş ölkə şairlərinin Azərbaycan xalqının taleyinə münasibətini də yaddan çıxarmır [10, s.205].

Osman Əzimin yaradıcılığının başlanğıcı 70-80-ci illərə təsadüf etsə də, o bir şair kimi üçüncü dövrün, yəni müstəqillik dövrünün şairidir. Sovetlər dövrünün rus təsirindən qurtarmaq, milli haqları müdafiə etmək, 1960-1990-cı illərin şeirinə məxsus üstü qapalı ifadə tərzindən sözü sərbəst söyləməyə keçid; azadlıq, türklük, vətən sevgisi kimi mövzuları işləməklə, milli poeziyanın yeni mərhələsinin əsasını qoymaq Osman Qoşqar, Tahir Qəhhar, Həlimə Xudayberdiyeva, Yoldaş Eşbek, Osman Əzim kimi sənətkarlara qismət oldu. Bir sözlə, ədəbiyyat, konkret olaraq poeziya rəmzi-metaforik dildən sərbəst deyim tərzinə keçdi. Düzdür, Osman Əzim lirik bir şair kimi daha çox sevgi, təbiət təsviri, aşiqanə və sufiyanə şeirləri ilə seçilən bir şair olduğu üçün siyasi mövzulara o qədər də aşina olmadı. Onun şeirləri Həlimə Xudayberdiyeva, Yoldaş Eşbek, Şövkət Rəhman, Osman Qoşqar kimi türklük davası ilə yoğruldu. Ancaq yeni nəsil şairlərinin çoxu kimi, Osman Əzimin də şeirlərində milli düşüncələr hər zaman ön planda olmuşdur:

Asmanqa ham atqum taş,
Gunahkar bolsa quyaş.
Gunahkar bolsa quyaş,
Qaytib tuşmaqaydir taş.
Asman ham bolib qanim,
Qaytib tuşsa, ne qamim!
Bir taş tuşsa tuşibdi,
Tağdek başimqa manim [9].

Nəticə / *Conclusion*

Müasir özbək ədəbiyyatının tanınmış şairi, dramaturqu, nasiri və ssenaristi Osman Əzim ömrünün ən məhsuldar dövrünü yaşayır. Onun yaradıcılığı çoxəsrlik özbək ədəbiyyatının zirvələrindən birini təşkil edir.

Ədəbiyyat / *References*

1. Azim Usman. Kuz. Toşkent: Adabiyot va sanat, 2001.
2. Şerif Babahan Muhammed, İbrahimova Şahine. "20. Yüzyıl Özbək şiirinde bahar", Kardeş Kalemler yıl 7, sayı 75, 2013.
3. Çağdaş Türk Edebiyatları-II. Hazırlayan: Y.Akpınar, F.Ağca. Eskişehir: Anadolu Üniversitesi, 2013.
4. Kocaoğlu Timur. Çağdaş Özbek Şiiri (1996). http://www.tdk.gov.tr/images/1996_01_01_Kocaoglu.pdf.
5. Oba Emin. "Bağımsızlık Devri Özbek Edebiyatı", Turkish Studies 9/3, 2014.
6. Azim Usmon. Saylanma. Toşkent, "Şarq", 1995.
7. Azim Usmon. Uyqaniş azobi. Toşkent, "Şarq", 1991.
8. Azim Usmon. 2 aprel. Toşkent, 1988.
9. zarnews.uz › post › usmon-azim-bir-tosh-tusha-tus.
10. Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri. Bakı, "Qartal" , 2008.

Осман Азимвеликий поэт современной узбекской поэзии

Хатира Баширли
Доктор филологических наук, Национальный Музей Азербайджанской Литературы им. Низами Гянджеви. Азербайджан.
E-mail: bashirli58@mail.ru

Резюме. Осман Азим является одним из величайших поэтов, писателей и сценаристов современной узбекской литературы. Этот великий поэт современной узбекской литературы занимается литературным творчеством почти 40 лет. Он работал во многих издательствах, редакциях, сотрудничал с национальными театрами. Осман Азим, основавший трон в сердце своих читателей лирическими стихами, написал много работ на тему любви и философии. Его работы были переведены на многие иностранные языки, включая азербайджанский, русский, английский, французский, турецкий, грузинский, немецкий, польский, эстонский, таджикский, казахский и другие.

Ключевые слова: современная узбекская литература, лирическая поэзия, философская поэзия, патриотизм, национальное возрождение

ƏDƏBİYYATŞÜNASLIQ

Azərbaycan-özbək əlaqələrinin böyük tədqiqatçısı akademik Həmid Araslı

Cənnət Nağıyeva
Filologiya elmləri doktoru.

Annotasiya. Məqalədə XX yüzil Azərbaycan-özbək ədəbi əlaqələrinin görkəmli tədqiqatçısı akademik Həmid Araslının böyük özbək şairi Əlişir Nəvai yaradıcılığına münasibətindən bəhs edilir. Ötən əsrin 30-cu illərinin ortalarından etibarən 80-ci illərə qədər – təxminən yarım əsrlik bir dövr ərzində H.Araslı Ə.Nəvai yaradıcılığı ilə fasiləsiz olaraq məşğul olmuşdur. O, öz elmi əsərlərində Nəvai yaradıcılığını tədqiq etdiyi kimi, böyük sənətkarın Azərbaycan ədəbiyyatı ilə əlaqələrini də dərindən öyrənmişdir. Ustad ədəbiyyatşünasın olduğu "Leyli və Məcnun" teması özbək dilində" "Nizami və Nəvai", "Nəvai və Azərbaycan ədəbiyyatı", "Əlişir Nəvai və yaradıcılığı", "Böyük özbək şairi", "Əmir Əlişir Nəvai" və s. məqalələri Azərbaycan-özbək ədəbi əlaqələrinin araşdırılması tarixinin yadda qalan səhifələridir. Məqalədə akademik H.Araslının təkcə Azərbaycan ədəbiyyatşünaslığında deyil, həm də qardaş özbək ədəbiyyatşünaslığında bir ustad kimi mühüm mövqeyə malik olduğu da vurğulanır.
Açar sözlər: Azərbaycan-özbək ədəbi əlaqələri, XX yüzil Azərbaycan Nəvaişünaslığı, akademik Həmid Araslı

Senior researcher of Azerbaijani-Uzbek relations, academician Hamid Arasli

Jannat Naghiyeva
Doctor of Philological Sciences.

Abstract. In the article is dealt with attitude of academician Hamid Arasli, the prominent researcher of Azerbaijani-Uzbek literary relations of XX century to the creativity of Alisher Navoiy, a great Uzbek poet. Since the mid-30s of last century to 80s, nearly for half a century H. Arasli was engaged with A.Navai's creativity. In his scientific works he studied Navoiy's creativity as well as his relation with Azerbaijani literature. The theme "Leyli and Majnun" of literary critc, "Nizami and Navoiy", "Navoiy and Azerbaijani literature", "Alisher Navoiy and his creativity", "Great Uzbek poet ", "Amir Alisher Navoiy" and others articles in Uzbek language are memorable pages in the research history of Azerbaijani-Uzbek literary relations. In the article is emphasized that H.Arasli has an important place as a master not only in Azerbaijani literary criticism but in fraternal Uzbek literary criticism, too.
Keywords: Azerbaijani-Uzbek literary relations, 20th century Azerbaijani poetry, academic Hamid Arasli

Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatının, xüsusən də, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqində və nəşrində akademik Həmid Araslının xidmətləri elm aləminə, xalqımıza bəllidir. Həmid müəllimin orta əsrlər Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsindəki xidmətlərindən kifayət qədər bəhs edilib. Məlum olduğu kimi, poeziyadan danışarkən ilk öncə türk aləmində iki böyük sənətkarın adı çəkilir. Bunlardan biri XV yüzillik şairi Əmir Əlişir Nəvai, digəri isə dilimizdə misilsiz poetik nümunələr yaradan Məhəmməd Füzulidir. Bu iki sənətkarın yaradıcılığının tədqiqindən söz açarkən tədqiqatçılar içərisində ilk öncə Həmid müəllim anılır.

1940-cı il dekabr ayının 3-də Nizami və Nəvai yubiley komitələrinin iclasında Səməd Vurğun Nəvai yaradıcılığını dərya ilə müqayisə edir və göstərir: "Bizim alimlərimiz onun sahillərinə taxta qayıqlarla üzmək istəyirlər. Mənim zənnimcə, bu dəryaya müasir elm və mədəniyyət əsasında tikilmiş böyük gəmi salmaq lazımdır" [1]. Nizami kimi böyük şəxsiyyət ilə çiyin-çiyinə dayanmış Nəvai yaradıcılığının Azərbaycanda tədqiqinin öhdəsindən Səməd Vurğunun qarşıya qoyduğu səviyyədə akad. H.Araslı gəlmişdir.

Həqiqətən, öz qiymətli elmi-tədqiqat əsərlərinə görə, Həmid müəllimin adı Azərbaycan ədəbiyyatşünaslığında olduğu kimi, özbək ədəbiyyatı tarixi səhifələrində də layiqli yer tutur. Özbək ədəbiyyatına aid ayrı-ayrı əsərlərindən, məqalələrindən əlavə, Azərbaycan ədəbiyyatı tarixindən bəhs edən əsərlərinə nəzər salanda görürük ki, Həmid müəllim bir çox şairlərin yaradıcılığından söz açarkən, orada özbək ədəbiyyatına, özbək şairinə, ədəbi əlaqələrə aid ötəri də olsa mühüm bir fikir söyləmiş, özbək xalqının ədəbiyyatına öz münasibətini bildirmişdir.

Əsas hissə / *Main part*

Həmid müəllim məqalələrində, xüsusilə Füzuliyə aid kitablarında Füzulinin özünə müəllim hesab etdiyi, qəzəllərini təzmin etdiyi Lütfi haqqında fikir söyləmiş, Əhmədidən, Ətaidən, Sultan Hüseyn Bayqaradan danışmış, lakin onun ən çox sevdiyi, tədqiq etdiyi şair Əlişir Nəvai olmuşdur.

Hələ 30-cu illərin axırlarında, şairin yubileyi ərəfəsində Nəvainin milliyyətini dəqiqləşdirmək üçün birinci növbədə Həmid müəllimə müraciət edilmiş, bu məsələyə aid öz fikrini bildirməyini xahiş etmişlər. Həmid müəllim öz fikrini yazılı surətdə ifadə etmişdir. Yazı belə başlanırdı: "Böyük özbək şairi Əlişir Nəvai..." Bu sözləri prof. Həmid Süleyman və Həmid Araslının özü həmişə böyük iftixarla yad edirdilər.

Azərbaycan və özbək xalqlarının türk dillərində danışmaları, eyni dinə bağlı olmaları, etnik və tarixi inkişaf cəhətdən aralarında qüvvətli bənzəyiş və yaxınlıqları onlar arasındakı ictimai ünsiyyəti daha da asanlaşdırmış, keçmişdə olduğu kimi, sonralar da, dövrümüzdə də əməkdaşlığın ardıcıl olmasını təmin etmişdir. Özbək və Azərbaycan alimləri biri digərinin sənətkarlarını, şairlərini öz doğma sənətkarları kimi sevmiş, tədqiq etmişlər.

Həmid müəllim şair təbiətli bir alim idi, həm özbəkcə, həm də azərbaycanca çoxlu əzbər şeir bilirdi.

Azərbaycanda Nəvai irsinin tədqiqi hələ 1907-ci ildə "Dəbistan" jurnalının fəaliyyəti ilə başlamış [2, s.34], sonralar "Dirilik" jurnalının 1914-1916-cı il nömrələrində dalbadal "Məşahir" seriyasından şairə aid məqalələr dərc edilmişdir. Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi"ndə [3] Nəvai şeirlərindən nümunələr verilmiş, Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları"nda, Seyid Əzim, Salman Mümtaz, Həsənəli Qaradaği, Əlabbas Müznib və Əli Nazimin yazılarında, bir çox başqa Azərbaycan müəlliflərinin kitablarında, əlyazmalarında Nəvaiyə aid, onun yaradıcılığına aid çox tədqiqlərə rast gəlmək olar. Dövrümüzün alimlərindən akad. M.Arif Dadaşzadə, prof. Mübariz Əlizadə, M.S.Sultanovun və başqalarının Nəvaiyə aid bir sıra elmi və elmi-kütləvi məqalələri də çap edilmişdir.

Azərbaycanda Nəvai həmişə sevilib, hətta sovet hakimiyyəti dövründə bu böyük özbək şairinə aid ilk tədqiqat əsəri 1926-cı ildə Bakıda nəşr edilib. Lakin Nəvai irsinin dərindən və ardıcıl şərhi, tədqiqi Həmid müəllimin elmi fəaliyyəti ilə əlaqədar olmuş, onun yaradıcılığında yüksək səviyyəyə çatmışdır.

1940-1948-ci illərdə Nəvai yaradıcılığının Azərbaycan ədəbiyyatı ilə əlaqələrini işıqlandıran məqalələr meydana çıxır. Akademik Həmid Araslı özünə qədərki müəlliflərdən fərqli olaraq, yalnız təzkirələr əsasında deyil, şairin öz əsərləri əsasında özbək şairinin Azərbaycan ədəbiyyatı ilə qarşılıqlı yaradıcılıq əlaqələrini şərh etməyə çalışmışdır. Həmid Araslının Nizami yubileyi ilə əlaqədar yazmış olduğu "Leyli və Məcnun" teması özbək dilində" [4, s.230], "Nizami və Nəvai" [5], Nəvainin anadan olmasının 500 illiyi münasibətilə "Nəvai və Azərbaycan ədəbiyyatı" [6, s.83; 7], "Əlişir Nəvai və yaradıcılığı" [8], "Böyük özbək şairi" [9], "Əmir Əlişir Nəvai" [10] və başqa məqalələri Nəvai bədii irsinin ədəbi-tarixi əhəmiyyətini və onun Azərbaycan poeziyasına faydalı təsirini işıqlandırır.

Həmid Araslı "Böyük özbək şairi" adlı məqaləsində sənətkarın həyatı, təhsili, əsərləri, Nizami ilə əlaqəsi, Kişvəriyə təsiri, Azərbaycan ədəbiyyatında ona nəzirələr yazılması haqqında qısa məlumat verir. "Əmir Əlişir Nəvai" məqaləsində Sultan Hüseyn Bayqara ilə ictimai, siyasi əlaqəsindən, şairin vəzirliyindən, xalqına xidmətindən və s. bəhs edir. "Nizami və Nəvai" də isə bu iki "Xəmsə" müəlliflərinin "Xosrov və Şirin" poemalarından danışır və poemaların qısa müqayisəsini verir.

Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixi köklərini öyrənməkdə, xalqımızı özbək mədəniyyəti ilə tanış etməkdə və onun qiymətli nümunələrini öyrənib təbliğ etməkdə H.Araslının "Nəvai və Azərbaycan ədəbiyyatı" adlı məqaləsi çox qiymətlidir. Müəllif burada əsasən Nəvainin Nizami mövzusunda yazdığı poemalardan danışaraq, hər iki sənətkarın poemalarını müqayisə etməklə kifayətlənməyib, Nəvai haqqında yazan özbək alimlərinin əsərlərinə də nəzər salır və sübut edir ki, "Nəvai Nizami məktəbinə daxil olan böyük sənətkarların ən görkəmlisidir... Nəvai dahi bir sənətkar olaraq Nizami temalarını orijinal surətdə işləmiş və sujeti özünəməxsus bir yol ilə inkişaf etdirmişdir" [11, s.90].

Bütün dahi sənətkarlar, qüvvətli qələm sahibləri kimi, Əlişir Nəvai də həyatda bütün çətinliklərlə, bir çox haqsızlıqlarla qarşılaşmalı olmuşdur. Bununla belə heç bir əzab-əziyyət, təqib bu böyük insanı, müdrik vətənpərvəri xalqına xidmətdən çəkindirə bilməmişdir. Nəvai, bir tərəfdən qüdrətli qələmi, ciddi elmi-ədəbi fəaliyyəti, digər tərəfdən məsləhətləri ilə dövlət işlərinə təsir göstərərək, öz vətəninin və xalqının inkişafına çalışmışdır. Böyük şair sarayda fəaliyyət göstərdiyi üçün onun vəziyyəti daha mürəkkəb olmuşdur. Akademik H.Araslının 1948-ci ildə yazdığı "Əlişir Nəvai" [12] adlı məqaləsində bütün bu məsələlər ətraflı şərh olunub.

Ümumiyyətlə, H.Araslının Nəvai haqqında yazdığı məqalələrdə şairin həyatı və ədəbi irsi ilə bağlı müxtəlif aktual məsələlər haqqında məlumat verilir. Nəvainin həyat yolu, Nəvainin lirikası, Nəvainin "Xəmsə"si, Nəvai və əsrimiz kimi məsələlərdən bəhs edən yuxarıdakı məqalə məhz bu cəhətdən əhəmiyyətlidir. H.Araslının "Əlişir Nəvai və yaradıcılığı" adlı digər bir məqaləsində Nəvai şeirinin qabaqcıl ideya motivləri, onun sənətkarlığı və novatorluğu məsələləri təhlil olunur.

Məlumdur ki, özbək mədəniyyəti tarixində ana dilinə dərin məhəbbət bəsləyən, bu dildə əsərlər yazan tərəqqipərvər şairlər, alimlər Nəvaidən əvvəllər də olmuşdur. Lakin Nəvai istər bədii əsərlərində, istərsə də elmi yaradıcılığında özbək dilinin zənginləşməsi, təkmilləşməsi uğrunda şüurlu mübarizəyə girişmiş və böyük işlər aparmışdır. Məqalədə bu məsələ ətraflı işıqlandırılır. Bundan sonra Nizami və Nəvai poemaları müqayisə edilir. "Xosrov və Şirin" poemasındakı orijinal cəhətlər meydana çıxarılır. Nəvainin nəinki Nizami, Marağalı Əşrəf və Qasım Ənvar kimi Azərbaycan şairlərinin irsindən bəhrələndiyi, özündən sonra gələn Azərbaycan şairlərinin yaradıcılığına təsiri də göstərilir.

Akademik H.Araslının Özbəkistanda və Daşkənddə də Nəvaiyə aid bir çox məqalələri çap edilmişdir: "Nəsimi və Nəvai" [13], "Nəvai və Azərbaycan ədəbiyyatı" [14], "Nəvai mirasının öyrənilməsi tarixindən" [15] və s.

Həmid müəllim bu məqalələrində ən əvvəl Nəvainin Azərbaycan şairlərinə münasibətini, Nizamini, Əşrəfi və b. şairləri qiymətləndirməsini göstərdikdən sonra Nəvainin Azərbaycan ədəbiyyatına təsirindən, xüsusilə Xülqi, Allahi, Ziyayi kimi şairlərin Heratda təhsil almasından, Şah İsmayıl sarayında yaşayıb-yaradan şairlərin şeirlərində özbək dili ünsürlərinin artıq dərəcədə olduğundan, Nəvai nəsrinin təsiri nəticəsində Sadiq bəyin təzkirə yazmasından, sonralar isə Cənnəti, İbrahim Tahir Musayevin Nəvai şeirlərini tərcümə etmələrindən bəhs edir.

Həmid müəllim yalnız özbək ədəbiyyatını, Nəvai yaradıcılığını tədqiq etməklə kifayətlənməmişdir. Daşkənddə Nəvai muzeyinin yaradılmasında, Özbəkistan üçün yüksək ixtisaslı kadrların hazırlanmasında onun böyük xidmətləri olmuşdur. Akad. V.Y.Zahidov, prof. Həmid Süleyman, Səmərqənd universitetinin professoru akad. Vahid Abdullayev, akad. Ə.P.Qəyyumov, fil. elmləri doktoru, prof. Səidə Narzullayeva, fil.e.doktoru, prof. Sadir Erkin və onlarla görkəmli alimlərin hazırlanmasında Həmid Araslının bir müəllim və ustad kimi xidmətləri bugün də unudulmayıb. Vəfatından bir qədər əvvəl də Həmid müəllim Daşkənddə bir özbək aliminin doktorluq dissertasiyasının müdafiəsində rəsmi opponent kimi çıxış etmişdir. Özbəkistan alimlərinin bir çoxu indi də Həmid müəllimi "ustazım" deyə xatırlayırlar.

Bir neçə on illər ərzində Həmid müəllim Nəvai xatirəsinə həsr edilmiş ənənəvi elmi konfransların iştirakçısı olmuş, məzmunlu məruzələrlə çıxış etmişdir. Yadımdadır, bir-iki il idi ki, konfransa getməmişdi. 1983-cü ildə mütləq konfransda iştirak edəcəyinə söz vermişdi. Nəvainin təvəllüdü günü də Həmid müəllimin təvəllüdü kimi fevral ayındadır. Konfrans fevral ayının 9-da oldu. Həmid müəllim orada iştirak edə bilmədi.

Növbəti konfransda dedilər ki, 1983-cü il konfransından keçən bir il müddətində Şərəf Rəşidoviç Rəşidov, akad. H.Araslı, akad. V.Zahidov həyatdan getmişlər. Konfrans başlamazdan əvvəl alimlərin biri sədrdən soruşmuşdu: "Bu üç nəfərdən kimin adını birinci çəkəcəksən? Sədr cavab verdi: "Əlbəttə, Həmid Araslının". Sonra əlavə etmişdi: "Həm yaşda, həm də elmdə Həmid Araslı onlardan böyük idi".

Akademik İzzət Ataxanoviç Sultanovun sədrliyi ilə bütün iştirakçılar hüznlü sükutla Həmid müəllimin xatirəsini yad etdilər.

Nəticə / *Conclusion*

Akademik H.Araslının özbək ədəbiyyatının tədqiqində xidmətləri yüksək qiymətləndirilmiş, ona Özbəkistanın Əməkdar elm xadimi kimi şərəfli ad verilmişdir.

Həmid müəllim ədəbiyyata, elmə xidmətlərini məqalələrlə, məruzələrlə hərtərəfli şərh etmək mümkün deyil.

Alimin həyat və yaradıcılığının tədqiqinə aid ayrıca, sanballı bir elmi-monoqrafik əsər yazılsa, bu, onun xidmətlərinin geniş ictimaiyyətə çatdırılmasına, şübhəsiz, kömək edə bilər. Biz əminik ki, Həmid müəllimin əziz xatirəsi vətənində olduğu kimi, Özbəkistanda da onun qələm yoldaşlarının, dostlarının və tələbələrinin qəlbində daima yaşayacaqdır.

Ədəbiyyat / *References*

1. Yubiley komitələri iclasının stenoqrafik yazısı (Nizami adına Ədəbiyyat İnstitutunun arxivi).
2. Ə.A.Həsənzadə. Təracumi-əhval (məşahir). "Dəbistan" jurnal., 1907, №3.
3. Ədəbiyyat məcmuəsi. Müntəxibi və naşiri: Fərhad Ağazadə.
4. Nizami. Bakı, Azərnəşr, 1940.

5. “Ədəbiyyat qəzeti”, 12 mart 1940.
6. “Revolyusiya və kultura” jurnalı, 1940, №7.
7. “Kommunist” qəzeti. 5 may 1948.
8. “Azərbaycan müəllimi” qəzeti. 13 may 1948.
9. “Pioner” jurnalı, 1948, №5.
10. “İnqilab və mədəniyyət”, 1948, №5.
11. “Azərbaycan” jurnalı (ərəb əlifbası ilə). Bakı, 1946, №9.
12. “Azərbaycan”qəzeti(ərəb əlifbası ilə). Bakı, 1947, №49.
13. Həmid Araslı. Nəvai və Azərbaycan ədəbiyyatı. “Revolyusiya və kultura”, 1940, №7.
14. Həmid Araslı. Nəvai. “Azərbaycan müəllimi” qəzeti. 13 may, 1948.
15. “Quliston” (özbəkcə). Daşkənd, 1940, №1.

Известный исследователь азербайджанско-узбекскихсвязей академик Гамид Араслы

Джаннат Нагиева
Доктор филологических наук.

Резюме. В статье говорится об интересе известного исследователя XX века Гамида Араслы к творчеству выдающегося узбекского поэта Алишира Навои. С середины 30-х до 80-х годов прошлого века – почти полувековой период – Гамид Араслы не прекращал заниматься изучением творчества А.Навои. Статьи известного литературоведа «Тема «Лейли и Меджнун» на узбекском языке», «Низами и Навои», «Навои и азербайджанская литература», «Алишир Навои и его творчество», «Великий узбекский поэт», «Амир Алишир Навои» и др. с подробным анализом творчества А.Навои составляют незабываемые страницы истории исследования азербайджанско-узбекских литературных связей. В статье подчёркивается высокое значение академика Г.Араслы не только для азербайджанского, но и для братского узбекского литературоведения.
Ключевые слова: азербайджано-узбекские литературные связи, азербайджанское навоиведение XX века, академик Гамид Араслы

Görkəmli özbək ədəbiyyatşünas alimi, professor Həmidulla Baltabayev

Şirindil Alışanov
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: shirindil_alishanov@yahoo.com
https://orcid.org/0000-0002-8646-1128

Annotasiya. Məqalədə özbək alimi Həmidulla Baltabayevin elmi tədqiqatlarından bəhs olunur. Həmidulla Baltabayev təkcə özbək ədəbiyyatına deyil, bütövlükdə türk xalqları ədəbiyyatına yaxından bələddir. O, ədəbiyyat nəzəriyyəsi, klassik filologiya, estetika və sənətşünaslıq, dərslik və dərs vəsaitləri, tərcüməçilik sahəsində çox böyük mütəxəssisdir. Onun nəşr etdirdiyi monoqrafiya və məqalələrdə ədəbi prosesi dəqiq təhlil edərək ümumiləşdirmələr aparılır. Həmidulla Baltabayevin "XX əsr özbək ədəbiyyatşünaslığı və Fitrətin elmi irsi" adlı doktorluq dissertasiyası nəzəri estetik fikrin tarixinə həsr olunub. Onun yaradıcılığında klassik irsin dövrləşdirilməsi, poetikası, dəyərləndirilməsi üstünlük təşkil edir.
Açar sözlər: Həmidulla Baltabayev, ədəbi ənənə, "Müasir nəsrin üslubi axtarışları (70-ci illər)", nəzəriyyəçi, ədəbiyyatşünas, Şərq tarixi abidələri, Fitrətin ədəbi irsi

http://dx.doi.org/10.29228/edu.170
Məqaləyə istinad: Alışanov Ş. (2020) *Görkəmli özbək ədəbiyyatşünas alimi, professor Həmidulla Baltabayev.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 262-265
Məqalə tarixçəsi: göndərilib – 29.04.2020; qəbul edilib – 06.05.2020

Prominent Uzbek scientist of literary studies, professor Hamidulla Baltabayev

Shirindil Alishanov
Doctor of Philology, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: shirindil_alishanov@yahoo.com
https://orcid.org/0000-0002-8646-1128

Abstract. The article discusses the scientific researches of the Uzbek scientist Hamdulla Baltabayev. Hamidulla Baltabayev is well acquainted not only with Uzbek literature, but also with the literature of the Turkic peoples. He is a great specialist in the field of literary theory, classical philology, aesthetics and art studies, textbooks and translation. He analyzes and summarizes the literary process in his monographs and articles. Hamidulla Baltabayev's doctoral dissertation titled "Uzbek literary criticism of 20th and the scientific heritage of Fitrat" is dedicated to the history of theoretical-aesthetic idea. Periodization, poetics and evaluation of the classical heritage dominate in his creativity.

Keywords: Hamidulla Baltabayev, literary tradition, "Stylistic researches of modern prose (70s)", theorist, literary critic, Oriental historical monuments, Fitrat's literary heritage

http://dx.doi.org/10.29228/edu.170
To cite this article: Alishanov Sh. (2020) *Prominent Uzbek scientist of literary studies, professor Hamidulla Baltabayev.* «Comparative Literature Studies», Issue I, pp. 262-265
Article history: received – 29.04.2020; accepted – 06.05.2020

Giriş / Introduction

Sovet dönəmində türk xalqlarının ədəbi-mədəni əlaqələri hakim ideologiyanın qəlibləri və sərhədləri çərçivəsində öyrənilsə də, postsovet məkanında qarşılıqlı ədəbi ünsiyyətin intensivliyi və məhsuldarlığı təkzibolunmazdır. Türk-müsəlman xalqlarının tarixinin, dilinin, ortaq düşüncə qaynaqlarının tədqiqində sovet senzurasının müəyyən etdiyi sərhədlər hüdudunda aparılan tədqiqatlarda, ədəbi-mədəni abidələrin tərcüməsi sahəsində ortaq dəyərlərin elə qatları üzə çıxırdı ki, bunlar müasir humanitar elmlərin metodoloji nailiyyətləri zəminində düşünən, yeni tipli alimlərin formalaşmasına zəmin yaradırdı. Türk xalqlarının müasir ədəbiyyatşünaslıq elmini təmsil edən görkəmli alimlərdən biri də özbək alimi, professor Həmidulla Baltabayevdir.

Əsas hissə / Main Part

SSRİ adlı böyük bir imperiya dağıldıqdan sonra bir müddət özünəqapanma, ədəbi-tarixi təcrübəni ifrat dərəcədə inkar meyilləri meydana çıxdı. Yeri gəldi-gəlmədi ədəbi-nəzəri fikrin bütün nailiyyətlərini inkar ovqatı, klassik mənəvi sərvətləri az qala təriqətlərin bədii tribunası kimi təbliğ edən yazılar meydan suladı. On il öncə Səmərqənddə Əlişir Nəvai irsi fonunda klassik irsin tədqiqinin problemlərinə həsr edilmiş beynəlxalq konfransda tanış olduğum professor Həmidulla Baltabayevlə tarixi elmi təcrübə ilə müasir elmi-siyasi reallıqları, elmi demokratizmi bir axarda birləşdirmək mənasında baxışlarımız üst-üstə düşdü. Elmi əməkdaşlığımız və səmimi dostluğumuz da həmin vaxtdan başladı.

Həmidulla Baltabayev bu gün təkcə özbək ədəbi-nəzəri fikrini yox, türk xalqları ədəbiyyatşünaslığını dünyanın mötəbər elmi kürsülərindən təmsil etmək səlahiyyəti qazanmışdır. Onun elmi maraq dairəsi genişdir. Az qala ədəbiyyatşünaslığın bütün istiqamətlərini əhatə edir: ədəbiyyat nəzəriyyəsi, klassik filologiya, estetika və sənətşünaslıq, dərslik və dərs vəsaitləri, dünya ədəbi-nəzəri fikrinin görkəmli nümunələrindən tərcümələr. Bu istiqamətlərdəki uğuru onun elmi-nəzəri potensialı, yorulmaz tədqiqatçılıq səriştəsinin bəhrəsidir.

Professor H.Baltabayevin istər klassik irs, istərsə də yeni və ən yeni dövr ədəbiyyata baxışlarında nəzəri tutum dərhal seçilir. O, klassiklərin fonunda müasir hərəkatda baş verənləri ədəbi ənənə və modern müstəvisində müşahidə edə və dəyərləndirə bilir. İlk sanballı "Müasir nəsrin üslubi axtarışları (70-ci illər)" adlı monoqrafiyasında özbək nəsri 60-80-cı illər sovet nəsrinin kontekstində araşdırılır, nəsrin üslubi axtarışlarında klassik təhkiyə ənənələrini, gerçəkliyi poetik duyum yaddaşının üslub komponenti kimi müəyyənləşməsini doğru olaraq 70-ci illər nəsrinin uğuru kimi dəyərləndirir. Ötən əsrin 70-ci illərində üslub kateqoriyası geniş aspektdə öyrənilirdi. M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun dörd cilddə nəşr etdiyi sanballı tədqiqatda dünya ədəbiyyatının tarixi təcrübəsi dövriyyəyə gətirilirdi. Hələ o zaman rus və xarici ədəbiyyat kafedrasına rəhbərlik edən H.Baltabayev özünü nəzəriyyəçi ədəbiyyatşünas kimi təsdiq etdi. 1982-1992-ci illər arasında üslub mövzusunda nəşr etdirdiyi monoqrafiya və məqalələr məcmuəsi onun ədəbi prosesin estetik mənzərəsini yaratması, ədə-

bi-bədii yeniliyin nəsrin hüdudlarında müşahidə və ümumiləşdirmələri tədqiqatçının fərdi yaradıcılıq imkanlarının təsdiqi idi. Təsadüfi deyil ki, o, ilk monoqrafiyasını da belə adlandırmışdı: "İstedad və üslub". Bu əsərdə mənə daha maraqlı görünən tədqiqatçının yaradıcılıq psixologiyası ilə bədii əsərin poetik strukturu arasındakı bağlılıqları doğru müşahidə etməsi və bunun fərdi üslubun müəyyənləşməsindəki rolunu elmi cəhətdən əsaslandırmasıdır.

Həmidulla Baltabayevin tədqiqatlarının əsas istiqamətlərindən biri ədəbi-nəzəri fikir tarixidir. O, özbək ədəbiyyatında bu problemi dünya nəzəri fikrinin kontekstində öyrənir. Bu sahədəki ən sanballı tədqiqatları öyrənib. Bunu həmmüəllifi olduğu "Ədəbi-estetik təfəkkür tarixi" (Daşkənd, 2013) əsəri də təsdiq edir. Bu kitabın strukturu, əhatə etdiyi elmi ədəbiyyat və tədqiqat prosesində Şərq tarixi abidələri ilə müqayisələr onun maarifləndirici missiyasına orijinal əlavələr kimi də əhəmiyyətlidir.

Professor H.Baltabayevin "XX əsr özbək ədəbiyyatşünaslığı və Fitrətin elmi irsi" mövzusunda doktorluq dissertasiyası da nəzəri-estetik fikrin tarixi təkamül problemlərinə həsr olunub. Nəzəri fikir tarixinin tədqiqi araşdırıcıdan yüksək elmi hazırlıq, humanitar elmlərin metodologiya məsələlərinə dərindən bələdlik tələb edir. Yuxarıda dediyimiz kimi, Həmidulla müəllim bu baxımdan hazırlıqlı alimdir və onun əsəri 1996-cı ildə monoqrafiya kimi nəşr olunduqdan sonra öz ölkəsində, həmçinin Türkiyədə yüksək dəyərləndirildi. Bu əsərin mühüm üstünlüyü onda idi ki, Stalin repressiyasının qurbanı olan universal təfəkkürlü bir şəxsiyyətin irsi elmi zəmin seçilmişdi. Fitrət böyük tarixçi, dilçi, şair olmaqla yanaşı, ədəbiyyatın nəzəri məsələlərinə, o cümlədən Əhməd Yəsəvi, Əlişir Nəvai, Babur, Firdovsi, Xəyyam haqqında əsərləri özbək ədəbiyyatşünaslığının klassik nümunələri idi. H.Baltabayev Fitrətin ədəbi irsini özbək ədəbi-ictimai düşüncəsinin, milli özünüdərkin daşıyıcısı və ifadəsi kimi səciyyələndirir.

H.Baltabayev 1998-ci ildən etibarən Özbəkistan Milli Universitetində Klassik ədəbiyyat kafedrasına rəhbərlik edir. Onun son iyirmi ildəki elmi fəaliyyətində klassik irsin dəyərləndirilməsi, dövrləşdirilməsi və poetikası kimi problemlər aparıcı yer tutur. Sufizmin qaynaqları, nəzəriyyəsi və tarixi, həmçinin klassik Şərq poetikasına dair elmi-praktik, müntəxəbat səciyyəli kitabları professor H.Baltabayevi Özbəkistanda, Türkiyədə bu sahənin seçilən mütəxəssisi kimi tanıtmışdır. Onun bu sahədəki tədqiqatlarının yekunlarını özündə ehtiva edən məqalələri ABŞ, Rusiya, Almaniya, Yaponiya, Çin, Hindistan və digər ölkələrdə nəşr edilmişdir. H.Baltabayevin "Orta Asiya ədəbi tarixinin öyrənilməsinin metodoloji əsasları və onun dövrləşdirilməsi prinsipləri" mövzusunda 2010-cu ildə AMEA-da keçirilən beynəlxalq konfransdakı məruzəsində irəli sürülən müddəalar bu tədbirdə iştirak edən dünyanın bu sahədə tanınmış mütəxəssislərinin diqqətini cəlb etdi. Onun belə bir tezisi aktual olaraq qalmaqdadır ki, müəyyən bir xalqın ədəbiyyatının tarixi təkamülünü və onun dövrləşdirmə prinsiplərini təyin edərkən ictimai-siyasi sistemdən daha çox milli ideologiyaya əsaslanmaq gərəkdir. H.Baltabayevin nüfuzlu "Akademiçeskie tetradi" jurnalında dərc edilmiş "Şərq Orta əsrlərində Mərkəzi Asiya mütəfəkkirlərinin estetik irsi" məqaləsi onun yaxşı bələd olduğu tarixi faktları estetik düşüncənin müəyyən tarixi coğrafi hüdudlarda yerini və rolunu izah etməyə yardımçı olur.

H.Baltabayevin göstərilən istiqamətlərdəki fəaliyyəti onun məhsuldar tərcüməçiliyi ilə paraleldir. Tərcümə etdiyi klassik və müasir müəlliflər, onların tərcümə üçün seçilən əsərləri göstərir ki, H.Baltabayev öz araşdırmalarında ciddi nəzəri irsə əsaslanır. Bu irsin vacib saydığı nümunələrini özbək ictimaiyyətinə təqdim edir. V.Belinski, N.Çernışevski, R.Bart, V.Şklovski, Eyxenbaym, L.Barxes, Y.Borev və b.

Bu gün böyük bir enerji ilə elmi-pedoqoji işlə məşğul olan professor H.Baltabayevin son on ildə Azərbaycanla yaxın, səmərəli yaradıcılıq əlaqələri yaranıb və öz bəhrələrini verməkdədir. Azərbaycan-özbək ədəbi əlaqələrinin müasir elmi-demokratik meyarlar, yeni arxiv materialları əsasında tədqiqində onun müstəsna xidmətləri vardır. Son illər AMEA-nın keçirdiyi konfrans və yubiley tədbirlərində onun təmiz Azərbaycan dilində, özü də müasir ədəbiyyatşünaslıq üslubunda məruzələri rəğbətlə qarşılanır. Ötən il Cəlil Məmmədquluzadə haqqında yeni faktlara söykənən məqaləsi onun Azərbaycan-özbək ədəbi-elmi əlaqələrinin keyfiyyətcə yeni mərhələsindən xəbər verir.

Professor H.Baltabayev Hüseyn Kürdoğlunun "Seçilmiş əsərləri"ni Özbəkistanda çap etdirdi. Bu kitaba yazdığı ön sözdə bir daha təsdiq etdi ki, o, Azərbaycan ədəbiyyatının klassikləri ilə yanaşı, müasirlərinin də yaradıcılığına bələddir, XX əsr Azərbaycan poeziyasını təmsil edən nəsillərin yerini, ədəbi gedişatdakı rolunu doğru müəyyənləşdirir.

Professor H.Baltabayevin Almaz Ülvi və Yaşar Qasımbəylinin yazdıqları kitabdakı akademik İsa Həbibbəyli haqqında ön sözü onun Azərbaycan ədəbiyyatına, Azərbaycan elminə səmimi ehtiramı oldu. Kitab özbək oxucusunda İsa Həbibbəylinin məhsuldar bir tədqiqatçı kimi yaradıcılığının əsas istiqamətləri haqqında dolğun təsəvvür yaradır.

Bu sətirlərin müəllifini prof. H.Baltabayevlə bağlayan onun əsl elm fədaisi, yüksək əxlaqi-mənəvi keyfiyyətləri, səmimiliyi, təvazökarlığıdır. Mənim üçün çox xoşdur ki, ikimiz də Rusiya Estetika və Azad Sənətlər Akademiyasının üzvüyük. Hər ikimiz Y.Borevi öz ustadımız kimi tez-tez yad edirik. Həmidulla onun "Estetika" kitabını özbək dilinə çevirib nəşr etdirdi. Onunla Səmərqənddə, Buxarada və Bakıdakı görüşlərimizin predmeti Azərbaycan-özbək ədəbi əlaqələrini yeni səviyyəyə qaldırmaqdır. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ötən il Azərbaycana böyük sevgisinin təzahürü olan fəaliyyətini nəzərə alıb onu "İlin alimi" adına layiq gördü.

Professor Həmidulla Baltabayev Azərbaycanda keçirilən ən mötəbər elmi tədbirlərin arzu olunan qonağı, sanballı elmi nəşrlərdə əsərlərinə yer ayrılan görkəmli alimdir.

Видный узбекский ученый - литературовед, профессор Гамидулла Балтабаев

Ширидил Алишанов
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: shirindil_alishanov@yahoo.com

Резюме. В статье говорится о научных исследованиях узбекского учёного Хамидуллы Балтабаева. Учёный известен как глубокий знаток не только узбекской литературы, но и литературы тюркских народов в целом. Он широкий специалист в области литературной критики, классической филологии, эстетики и искусствоведения, учебников и учебных пособий, перевода. При помощи точного анализа изданных им монографий и статей делается обобщение литературного процесса.

Ключевые слова: Хамидулла Балтабаев, литературная традиция, «Стилевые поиски современной прозы (70-е годы)», теоретик, литературовед, восточные исторические памятники, литературное наследие Фитрата

Professor Şöhrət Siracəddinov – müasir özbək Nəvaişünaslığının görkəmli nümayəndəsi

Əlizadə Əsgərli
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: alizade.asgerli@gmail.com
https://orcid.org/0000-0002-5792-3741

Annotasiya. Müstəqillik dövrü qardaş Özbəkistanın elmi-mədəni həyatında yeni dövrün əsasını qoyanlardan biri də görkəmli alim, Azərbaycan elmi-mədəni mühitində yaxşı tanınan professor Şöhrət Siracəddinovdur. Məlumdur ki, Azərbaycanda olduğu kimi, Özbəkistanda da 1990-cı illərin əvvəllərindən etibarən ictimai və humanitar elmlərin öyrənilməsi istiqamətində yeni təmayüllər ərsəyə gəlməyə başladı. Özbək nəvaişünaslığına həmin dövrdə bir sıra istedadlı gənclər qədəm qoydu. Onlardan biri də Şöhrət Siracəddinov idi. Bu alim nəvaişünas bir çox tədqiqatların müəllifi olduğu kimi, eyni zamanda dərsliklər və dərs vəsaiti də yazmışdır. Professor Şöhrət Siracəddinovun xarici ölkələrdəki həmkarları və filoloq alimlərlə birlikdə dərsliklər və dərs vəsaitlərinin yaradılmasına da ciddi fikir verdiyini müşahidə etdik. Bu məqalədə professor Şöhrət Siracəddinovun elmi və ictimai fəaliyyəti ilə yanaşı, Azərbaycan elmi-ictimai həyatına dair məlumatlar diqqətə çatdırılır.
Açar sözlər: özbək ədəbiyyatı, ədəbiyyatşünaslıq, ədəbi əlaqələr, Şöhrət Siracəddinov, nəvaişünas

http://dx.doi.org/10.29228/edu.171
Məqaləyə istinad: Əsgərli Ə. (2020) *Professor Şöhrət Siracəddinov – müasir özbək Nəvaişünaslığının görkəmli nümayəndəsi.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 266-272
Məqalə tarixçəsi: göndərilib – 26.05.2020; qəbul edilib – 08.06.2020

Professor Shohret Sirajeddinov – a prominent representative of modern Uzbek Navai studies

Alizade Asgarli
Doctor of Philological Sciences, Institute of Literature named
after Nizami Ganjavi. Azerbaijan.
E-mail: alizade.asgerli@gmail.com
https://orcid.org/0000-0002-5792-3741

Abstract. One of the prominent scholars who laid the foundation of a new period in the scientific-cultural life of Uzbekistan in the period of independence is Shohret Sirajaddinov, well-known professor in the scinetific-cultural environment of Azerbaijan. It is known that from the early 1990s, in the study of social and humanitarian sciences new trends emerged in Uzbekistan, as in Azerbaijan. At that time, a number of talented young people entered the Uzbek Navai studies. One of them was Shohret Sirajeddinov. This scholar, Navai researcher was the author of numerous

investigations, textbooks and teaching aids. We observed that professor Shohret Sirajeddinov also paid great attention to the development of textbooks and teaching aids together with colleagues and philosopher scientists in foreign countries.In this article are dealt with scientific and social activity of professor Shohret Sirajeddinov and the informations about scientific and public life of Azerbaijan.
Keywords: Uzbek literature, literary criticism, literary relations, Shohret Sirajeddinov, Navai researcher

http://dx.doi.org/10.29228/edu.171
To cite this article: Asgarli A. (2020) *Professor Shohret Sirajeddinov – a prominent representative of modern Uzbek Navai studies.* «Comparative Literature Studies», Issue I, pp. 266-272
Article history: received – 26.05.2020; accepted – 08.06.2020

Giriş / *Introduction*

Özbəklər geniş coğrafiyada yaşayan türk xalqları içində qədim və zəngin ədəbiyyatı ilə seçilən xalqlardan biridir. Özbək ədəbiyyatının zirvəsində, heç şübhəsiz ki, Əlişir Nəvainin zəngin bədii irsi durmaqdadır. Hər zaman olduğu kimi bu gün də qardaş özbək ədəbiyyatşünaslığında aparılan tədqiqatlarda Əlişir Nəvainin həyatı, mühiti və yaradıcılığının öyrənilməsi xüsusi yer tutur. Buna görə də qardaş Özbəkistanda və dünyada ayrıca nəvaişünaslıq istiqaməti formalaşmış və bu xəttin görkəmli nümayəndələri hər zaman olmuş və olmaqdadır. Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, filologiya elmləri doktoru, professor Şöhrət Siracəddinov öz zəngin elmi fəaliyyəti ilə özbək nəvaişünaslığını yeni mərhələyə yüksəldən tanınmış alimlərdən biridir. Onun nəvaişünaslığa dair tədqiqatları təkcə Özbəkistanda deyil, dünyanın bir çox ölkələrində ciddi elmi mənbə kimi qəbul edilməkdədir. Professor Şöhrət Siracəddinov 1990-cı illər Özbəkistan ictimai-humanitar elmləri sahəsində mühüm nailiyyətlər əldə edib və yeni elmi təmayüllərin yaradılması istiqamətində müstəqillik dövrü özbək elmi-mədəni fikrinə böyük elmi töhfələr verib. O, ən yeni dövr özbək nəvaişünaslığının görkəmli yaradıcılarından biridir.

Əsas hissə / *Main Part*

Professor Şöhrət Siracəddinov – 23 iyun 1961-ci ildə Özbəkistan Respublikası Səmərqənd Vilayətinin Kattakurqan rayonunda dünyaya gəlmişdir. 1978-1984-cü illərdə Daşkənd Dövlət Universitetinin (hazırda Özbəkistan Milli Universiteti) Şərq fakültəsində oxumuş, fars-ingilis dilləri və ədəbiyyatı ixtisası üzrə filoloji təhsil almışdır. Şərq fakültəsində müəllim kimi elmi-pedaqoji fəaliyyətə başlamış, sonra isə Səmərqənd Dövlət Universitetində müəllimlik fəaliyyətini davam etdirmişdir.

Görkəmli alim 1998-2002-ci illərdə İmam Əl-Buxari Beynəlxalq Fondu sədrinin müavini vəzifəsində çalışmış, 2003-2005-ci illərdə Dünya İqtisadiyyatı və Diplomatiya Universitetinin Fəlsəfə və dünya mədəniyyəti kafedrasının professoru və kafedra müdiri vəzifəsinə seçilmişdir.

Professor Şöhrət Siracəddinov 2005-2012-ci illərdə Özbəkistan Dövlət Xarici Dillər Universitetinin Birinci prorektoru, 2012-2014-cü illərdə Səmərqənd Dövlət Xarici Dillər İnstitutunun rektoru vəzifəsinə təyin edilmişdir.

2014-2016-cı illərdə Mirzə Uluqbəy adına Özbəkistan Milli Universitetinin rektoru vəzifəsində çalışan tanınmış elm və tədris təşkilatçısı 2016-cı ildən Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektorudur.

Professor Şöhrət Siracəddinov mühüm dövlət vəzifələrində çalışmış tanınmış elm təşəkilatçısıdır. Eyni zamanda o, şərqşünas və filoloq alim kimi özünü daha geniş miqyasda təqdim etməyi bacarmışdır. Təsdüfi deyil ki, professor Şöhrət Siracəddinov 14 monoqrafiyanın, 6 dərslik və dərs vəsaitinin, 200-ə qədər elmi, elmi-kütləvi və tədris-metodik məqalənin müəllifidir.

Professor Şöhrət Siracəddinov 1991-ci ildə Səmərqənd Dövlət Universitetinin akademiki Batır Vəli Xocayevin rəhbərliyi ilə *"XIX əsr Kattakurqan şairləri yaradıcılığında Əlişir Nəvai ənənələri"*, 1998-ci ildə professor Həmid Süleymanov adına Əlyazmalar İnstitutunun Dissertasiya Şurasında – *"XV-XIX əsrlərdə yaradılmış fars mənbələri Əlişir Nəvainin həyat və fəaliyyəti üzrə"* mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. Dəyərli tədqiqat əsərləri ilə o, nəvaişünaslığına qiymətli töhfələr vermişdir.

Təkcə namizədlik və doktorluq işləri ilə deyil, professor Şöhrət Siracəddinov daha sonrakı illərdə də nəvaişünaslığın beynəlxalq miqyasda inkişafı üçün özünün məzmunlu tədqiqatlarını davam etdirmişdir. Onun xarici ölkələrdəki əlyazma fondlarında fəaliyyəti hesabına nəvaişünaslıq yeni mənbələr və qaynaqlarla zənginləşmişdir. Bu istiqamətdə Şöhrət Siracəddinov 2002-2003-cü illərdə Böyük Britaniyanın Oksford Universitetində Bodlean kitabxanası, Britaniya Muzeyi və Oksford Universiteti nəzdindəki Şərqşünaslıq İnstitutu Əlyazmaları Fondunda Əlişir Nəvainin həyatı və əsərləri ilə bağlı çoxsaylı əlyazmaları araşdırmışdır.

2011-ci ildə apardığı yeni araşdırmaların nəticəsində o, *"Əlişir Nəvai: mənbələrin müqayisəli-tipoloji, tekstoloji təhlili"* adlı qiymətli monoqrafiyanı ərsəyə gətirmişdir. Müstəqillik dövrü özbək elmi-nəzəri fikrinin mühüm nailiyyətlərindən biri olan bu monoqrafiya ilə Şöhrət Siracəddinov görkəmli şair Əlişir Nəvainin XV əsrdən günümüzə qədərki Mərkəzi Asiya, İran, Türkiyə və Hindistandakı farsdilli, türkdilli əlyazmalarını aşkara çıxarmış, onları təhlilə cəlb edərək nəvaişünaslığın zənginləşməsinə qiymətli töhfə vermişdir. Onun ardıcıl axtarışları və səyləri nəticəsində nəvaişünaslığın salnaməsinə həm çoxsaylı nadir əlyazmalar əlavə olunmuş, həm də əldə olunmuş əlyazmaların müqayisəli təhlili nəticəsində yeni elmi-nəzəri müddəalar meydana çıxmışdır. Bu məqsədlə professor Şöhrət Siracəddinov Avropa və Şərq dillərində yazılmış elmi qaynaqları da diqqətlə öyrənərək təhlildən keçirmiş və bütün bunların əsasında nəvaişünaslığın əhatə dairəsini genişləndirmişdir. Monoqrafiyada elmi təhlillər üç istiqamətdə aparılmışdır: *Mənbəşünaslıq-tekstoloji təhlillər* görkəmli şair haqqında bütün ədəbi-elmi qaynaqların siyahısı xronoloji olaraq təqdim edilmişdir. XV əsrin ikinci yarısından XX əsrə qədərki mənbələrdə şairin həyat və fəaliyyətinə aid 100-ə qədər əlyazma əsəri, 300-ə yaxın əlyazma və daşbasma nüsxələri öyrənilərək, müqayisəli-tənqidi və tipoloji-tekstoloji meyarlar əsasında təhlil edilərək dəyərləndirilmişdir.

İkinci *elmi-tənqidi istiqamət* mövcud ədəbi-bədii xülasələrin tənqidi surətdə təftişi, sənətkarın həyatı və irsinin mənbələr, əlyazmalar əsasında bərpası ilə bağlıdır.

Üçüncü istiqamət XV-XIX əsrlərdə Mərkəzi Asiya, İran, Türkiyə və Hindistanda Əlişir Nəvaiyə münasibət, həmin dövrdə müxtəlif müəlliflərin şairin tərcümeyi-halı və ədəbi və ictimai-siyasi fəaliyyətinə yanaşma meyarları, obyektiv və subyektiv prinsiplərinin müəyyənləşdirilməsi ilə əlaqəlidir. Professor Şöhrət Siracəddinov bu yöndə xeyli yeni məlumat, ədəbi sənədlər və hökmlər, habelə mədhiyyə nümunələrini üzə çıxarıb, Əlişir Nəvainin bioqrafiyasını və biblioqrafiyasını bərpa etmək kimi məsuliyyətli işi böyük uğurla yerinə yetirmişdir. Beləliklə, monoqrafiyada Əlişir Nəvainin mükəmməl elmi tərcümeyi-halı və yaradıclığının bütöv və sistemli elmi mənzərəsi canlandırılmışdır.

Professor Şöhrət Siracəddinov elmi-pedaqoji istiqamətdə qiymətli dərslik və dərs vəsaitləri yazmışdır. Onun *"İslam fəlsəfəsinə giriş: kəlam elmi"*, *"Dinlərin tarixi"* dərslikləri hazırda Özbəkistan Beynəlxalq İslam Akademiyası və Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunda, *"Nəvaişünaslıq: özbək ədəbiyyatının fəlsəfi qaynaqları"*, *"Mətnşünaslığın xüsusiyyətləri"*, *"Mətnşünaslıq dərsləri"*, *"Bədii tərcümənin əsasları"* dərslikləri isə Özbəkistan Dövlət Dünya Dilləri Universiteti və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetlərində əsas dərslik kimi istifadə olunmaqdadır. Qeyd edək ki, *"Bədii tərcümənin əsasları"* Özbəkistanın dövlət müstəqilliyi şəraitində yaradılmış ilk bədii tərcümə dərsliyidir.

2016-cı ildən görkəmli alimin elmi-ictimai fəaliyyətində yeni mərhələ başlayıb. Professor Şöhrət Siracəddinovun *rektor kimi fəaliyyəti* Əlişir Nəvai adına Dövlət Özbək Dili və Ədəbiyyatı İnstitutunda, habelə respublikanın elmi-ədəbi və mədəni mühitində böyük canlanmaya səbəb olmuşdur. Elm təşkilatçısı Şöhrət Siracəddinovun təşəbbüsü ilə Özbək Dili və Ədəbiyyatı Universitetində Ədəbi mənbəşünaslıq və mətnşünaslıq, Tərcümə nəzəriyyəsi və praktikası, Xarici dillər qruplarında özbək dili, naşirlik işi, Türkologiya, bələdçi müşayiəti, tərcüməçilik, kompüter linqvistikası, sinxron tərcümə, kompüter qrafikası və dizayn kimi tədris istiqamətləri və ixtisaslar təşkil edilmişdir. Hazırda Universitetdə Türk Dili və Mədəniyyəti mərkəzi, Rus Dili və Mədəniyyəti Mərkəzi, Beynəlxalq Dil Mərkəzi, Çin Dili və Mədəniyyəti Mərkəzi, Koreya Dili və Mədəniyyəti Mərkəzi, Məhəmməd Füzuli adına Azərbaycan Mədəniyyət Mərkəzi, habelə başqa beynəlxalq statuslu mərkəzlər fəaliyyət göstərir. Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti Rusiya, MDB dövlətləri, Çin, Yaponiya, ABŞ, Türkiyə, Koreyadakı ali təhsil müəssisələri ilə əməkdaşlıq edir.

Xüsusilə, professor Şöhrət Siracəddinov Özbəkistan və Türkiyə, habelə türkdilli dövlətlərin elmlər akademiyaları və ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini genişləndirib. Alimin təşəbbüsü ilə Türkiyənin bir çox Universiteti, o cümlədən İstanbul Mədəniyyət Universiteti, Mərmərə, Afyon, Uşak, Hacı Bayram Vəli, Karabük, Bandırma Universitetləri, habelə Türk Dil Qurumu, Türk Ədəbiyyatı Vəqfi, Türk Dünyası Tədqiqatları Vəqfi, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Azərbaycan Dillər Universiteti, Naxçıvan Dövlət Universiteti, Tatarıstan Respublikasının Kazan Federal Universiteti, Tatarıstan Elmlər Akademiyası, Başqırdıstan Elmlər Akademiyası, Qazaxıstandakı Qumilyov adına Avrasiya Milli Humanitar Universiteti, Əbu Nasir Fərabi adına Qazaxıstan Dövlət Universiteti ilə geniş əlaqələr quraraq ortaq elmi-mədəni tədbirlər həyata keçirməyə nail olmuşdur.

Rusiya Federasiyasının Moskva Dövlət Universiteti, Moskva Beynəlxalq Münasibətlər İnstitutu, Moskva Dövlət Linqvistika Universiteti, Nijni-Novqorod Linqvistika Universiteti, Tümen Universiteti və MDB məkanındakı başqa universitetlərlə geniş həmkarlıq, işgüzarlıq əlaqələri yaradılmışdır. Daşkənd Özbək Dili və Ədəbiyyatı Universiteti, eyni zamanda ABŞ, Yaponiya, Koreya, Çin Xalq Respublikası, Hindistan, Böyük Britaniya, Almaniya, Fransa, Əfqanıstan və dünyanın başqa ölkə universitetlərində özbək dilinin öyrədilməsi və tədrisi işlərini həyata keçirmiş, proqramlar hazırlayıb nəşr etdirmişlər.

Professor Şöhrət Siracəddinov bu sahədə ölkə alimləri ilə birlikdə dərsliklər və dərs vəsaitlərinin yaradılmasında bütün qüvvə və bacarığını sərf edir. Hazırda Türkiyə Universitetləri ilə magistrlər üçün proqramlar, turizm, kompüter qrafikası və dizayn, eləcə də türk dillərinin tədrisi üzrə birgə layihə proqramları hazırlayaraq tətbiq edilir. Universitetdə 2018-ci ildə keçirilmiş Özbək dili və beynəlxalq türkologiya konfransı türkdilli xalqların dili, ədəbiyyatı və mədəniyyətini öyrənmək və təbliğ etmək məqsədinə xidmət edib. 2016-cı ildən isə "Əlişir Nəvai və XXI əsr" mövzusunda ənənəvi beynəlxalq konfranslar keçirilib. 2019-cu ilin avqustunda keçirilmiş "Özbək ədəbiyyatı və onun beynəlxalq miqyasda öyrənilməsi məsələləri" mövzusundakı beynəlxalq konfrans isə ədəbi-mədəni həyatın humanitar problemlərinə həsr olunub.

Professor Şöhrət Siracəddinov regional və beynəlxalq elmi mühitdə geniş fəaliyyət imkanlarına malikdir. Bu səbəbdən görkəmli ədəbiyyatşünas və mətnşünas alim Özbəkistan Respublikasının ədəbiyyat istiqaməti üzrə birinci dərəcəli Dövlət Mükafatı laureatıdır, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının 21 fevral 2020-ci il tarixli qərarı ilə professor Şöhrət Siracəddinova Fəxri doktor elmi dərəcəsi verilmişdir. Oksford İslam Tədqiqatları Mərkəzinin fəxri üzvü (Böyük Britaniya), Mərkəzi Asiya Tədqiqatları Beynəlxalq Assosiasiyanın həmsədri (Koreya), Avrasiya Türk Araşdırmaları İnstitutunun elmi məsləhətçisi (Koreya), Daşkənd Dövlət Şərqşünaslıq İnstitutu, Özbəkistan Dövlət Xarici Dillər Universiteti və Özbəkistan Milli Universiteti nəzdindəki doktorluq şuralarının üzvü, Özbəkistan Respublikası Etnoqrafiya Komissiyası sədrinin müavinidir. "Xarici Filologiya" (2012-2014), "Özbəkistan Milli Universitetinin xəbərləri" (2014-2016), "Altun

bitikləri" (2018-ci ildən) "Beynəlxalq Özbəkistan dili və mədəniyyəti" (2019-cu ildən) elmi jurnallarının baş redaktoru və redaksiya heyətinin üzvüdür. Habelə professor Şöhrət Siracəddinov AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müqayisəli ədəbiyyatşünaslıq, AMEA-nın Türkologiya" (Azərbaycan), "The Journal of Eurasian Turkic Studies" (Koreya), "The World of Central Asia/ Inter National Journal of Humanities" (Özbəkistan), "Dünya ədəbiyyatı" (Özbəkistan), "Зvezda Boctoкa" (Özbəkistan), "İmam Buxari Sabokları" (Özbəkistan),"Filologiya məsələləri" (Özbəkistan), "Yer üzü" (Özbəkistan), "Yashlıq" (Özbəkistan), Özbəkistan EA Dil, Ədəbiyyat və Folklor İnstitutunun "Özbək dili və ədəbiyyatı" jurnallarında redaksiya heyətinin üzvüdür.

Qeyd etdiyimiz kimi, professor Şöhrət Siracəddinov təkcə alim kimi deyil, eyni zamanda Özbəkistanda elmin təşkili və idarəolunmasında da çox yüksək səviyyədə iştirak etməkdədir. Onun hazırda rəhbərlik etdiyi Daşkənd Özbək Dili və Ədəbiyyatı Universiteti ilə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun qarşılıqlı sıx əməkdaşlığı vardır. Bu qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində professor Şöhrət Siracəddinov mühüm xidmətlər göstərmişdir. Belə ki, o, 2015-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri" şöbəsində olmuş, *"Azərbaycan-özbək ədəbi əlaqələri"* mövzusunda konfransda elmi məruzə ilə çıxış etmişdir. Qarşılıqlı müqaviləyə əsasən professor Şöhrət Siracəddinovun rəhbərlik etdiyi universitetdə *Məhəmməd Füzuli adına Azərbaycan Mərkəzini* yaradılmışdır. Eyni zamanda *Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Əlişir Nəvai Ədəbiyyatşünaslıq Mərkəzi* açılmışdır

Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, filologiya elmləri doktoru, professor Şöhrət Siracəddinov elmi-təşkilati fəaliyyəti ilə Özbəkistanda və onun hüdudlarından kənarda, o cümlədən Azərbaycan elmi-ictimai mühitində də yaxşı tanınır. 21 fevral 2020-ci ildə AMEA-nın birinci vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə İnstitutun əməkdaşları, habelə Özbəkistanın Azərbaycandakı səfirliyi və Daşkənddən gəlmiş qonaqlar: professor Şöhrət Siracəddinov, Nurbay Cabbar, Bakijon Tuxliyev, Alimcan Dövlətov və Özbəkistan Yazıçılar Birliyinin sədr müavini, şair Nadir Xalbutayev Əlişir Nəvainin Bakıdakı heykəli önünə əklil qoyub, xairəsini hörmətlə yad ediblər. Eyni zamanda institutumuzun "Azərbaycan–Türkmənistan–Özbəkistan ədəbi əlaqələri" şöbəsinin nəzdində Əlişir Nəvai Ədəbiyyatşünaslıq Mərkəzi açılıb və *"Əlişir Nəvainin ədəbi və elmi irsinin öyrənilməsi"* mövzusunda Beynəlxalq elmi konfrans keçirilib. Konfransın sonunda akademik İsa Həbibbəyli Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Siracəddinova Ədəbiyyat İnstitutunun Fəxri doktoru diplomunu və mantiyasını təqdim edib.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti arasında inkişaf etməkdə davam edən elmi əməkdaşlıq və dostluq əlaqələri çoxəsrlik Azərbaycan-Özbəkistan əlaqələri müstəqillik dövrünün salnaməsinə yeni və parlaq səhifələr əlavə edir, gələcək daha yüksək ortaq elmi-mədəni fəaliyyətə doğru böyük irəliləyişlərə işıq salır.

Professor Şöhrət Siracəddinov aşağıdakı elmi əsərlərin müəllifidir:

– She`riyatdainson ruhiykamoloti talqini. Samarkand, "Zarafshon" nashriyoti, 1996.

– Kattaqo`rg`on:kecha vabugun. Samarqand, "Zarafshon" nashriyoti, 1994, (hammualliflikda).

– Navojiy navosidan bahra olub. Samarqand, "Zarafshon" nashriyoti, 1996.

– Ummon (Nojiy hayoti va ijodi). Samarqand, "Zarafshon" nashriyoti, 1996.

– XV-XVI asrlar tarixiy va tazkira-esdalik asarlarida Alisher Navoiy hayoti va faoliyati talqini. Samarqand, Zarafshon nashriyoti, 1997.

– Mavlono Lutfuollah manoqibi. "İmom al-Buxoriy" nashriyoti, 2002.

– So`fi Olloyor ilohiyoti. Toshkent, "İmom al-Buxariy" nashriyoti, 2001.

– Buyuk allomalar ijodida ahillik va bag`rikenglik g`oyalari. Toshkent, JİDU nashriyoti, 2005, (hammualliflikda).

– O`zbekiston: dinlararo hamjiatlik – tinchlik garovi. Toshkent, JİDU nashriyoti, 2005, (hammualliflikda).

– Peace and Tolerance. Training manual (Tinçlik va bağrikenqlik atamalari izoxli luğati). Toşkent, JİDU naşriyoti, 2005, (hammualiflikda).
– Reliqiy mira. Taşkent, JİDU nashriyoti, 2006.
– O`rta Osiyo diniy-falsafiy ta`limotlari. Toshkent, O`zR FA Falsafa va huquq instituti, 2007, (hammualliflikda).
– Bag`rikenglik-dinlarning ma`rifiy asosi. Toshkent, TDShI nashriyoti, 2010.
– Islom falsafasiga kirish: Kalom ilmi. Toshkent, "Iqtisod-moliya" nashriyoti, 2008.
– Ilm va taxayyul sarhadlari. Toshkent, Yangi asr avlodi, 2011.
– O`zbek mumtoz adabiyotining falsafiy sarchashmalari toshkent, Yangi asr avlodi, 2011.
– Alisher Navoiy: manbalarning qiyosiy-tipologik, tekstologik tahlili. Toshkent, Akademnashr, 2011.
– Badiiy tarjima asoslari Toshkent, "Mumtoz so`z" nashriyoti, 2011, (hammualliflikda).
– Интерпретация художественного текста Самарканд, СамДЧТИ, 2014, (хаммуал-лифликда).
– O`zbek matnshunosligi qirralari: matn, tahlil və tajriba Toshkent, 2015, (hammualliflikda).
– Navobaxsh baytlar jozibasi. Toshkent, "Bayoz" nashriyoti, 2017, (hammualliflikda)
– Navo`i the great Tashkent, Gafur Gulam, 2018.
– Navoiyshunoslik. Toshkent, Tamaddun, 2011 (hammualliflikda).
– Navoiy aqidalari. Toshkent, 2019.
– Matnshunoslik saboqlari. Toshkent, Akademnashr, 2019.
– Hijriy va milodiy yillarni o`zaro tabdil qilish usullari. Toshkent, Muharrir, 2019.

Nəticə / *Conclusion*

Göründüyü kimi, Daşkənd Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Siracəddinov özbək ədəbiyyatşünaslıq elmini öz ölkəsində və beynəlxalq miqyasda yüksək səviyyədə təmsil edir. O, özbək Nəvaişünaslığının görkəmli yaradıcılarından biridir. Məhz professor Şöhrət Siracəddinovun yaratdığı elmi əməkdaşlıq körpüləri Özbəkistan elminin dünya elmi fikrinə inteqrasiya olunması sahəsində geniş üfüqlər açmışdır.

Professor Şöhrət Siracəddinov Azərbaycan alimlərinin yaxın dostu və silahdaşıdır. Azərbaycanda nəvaişünaslığın inkişafına böyük dəstək verən professor Şöhrət Siracəddinov Özbəkistanda füzulişünaslığın yeni mərhələyə çatdırılmasına geniş imkanlar yaradır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Daşkənd Özbək Dili və Ədəbiyyatı Universiteti arasındakı elmi əlaqələr xalqlarımızın tarixi qardaşlığının yeni dövrdəki əməli təzahürüdür.

Biz professor Şöhrət Siracəddinova möhkəm cansağlığı, elm-tədris, ədəbi-mədəni əlaqə və ictimai fəaliyyət sahəsində daha böyük yaradıcılıq uğurları arzulayırıq.

Профессор Шохрат Сираджаддинов – известный представитель современного узбекского Навоиведения

Ализаде Асгарли
Доктор филологических наук, Институт Литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: alizade.asgerli@gmail.com

Резюме. Одним из основоположников новой эпохи периода независимости в научно-культурной среде братского Узбекистана является широко известный в научно-культурной

среде Азербайджана профессор Шохрат Сираджаддинов. Как известно, в Узбекистане, как и в Азербайджане, с начала 1990-х годов развились новые тенденции в изучении общественных и гуманитарных наук. В этот период в узбекское навоиведение вступил целый ряд талантливой молодёжи. Одним из них был Шохрат Сираджаддинов. Автор множества исследований по навоиведению, этот учёный написал также учебники и учебные пособия. Также говорится, что профессор Шохрат Сираджаддинов придаёт серьёзное значение созданию учебников и учебных пособий вместе со своими зарубежными коллегами, учёными филологами. В статье наряду с научной и общественной деятельностью профессора Шохрата Сираджаддинова к вниманию привлечены сведения относительно его участия в научно-общественной жизни Азербайджана.

Ключевые слова: узбекская литература, литературоведение, литературные связи, Шохрат Сираджаддинов, навоивед

Xalid Səid Xocayev və onun "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri

Şəbnəm Babayeva
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ssebnembabyeva@gmail.com
https://orcid.org/0000-0002-6132-950X

Annotasiya. Məqalədə özbək əsilli Azərbaycan alimi Xalid Səid Xocayevin "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsərinin yeni nəşrinin araşdırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur. X.S.Xocayevin əsərinin əsas qayəsini yeni əlifba yolundakı böyük mədəni və inqilabi hərəkat, bu hərəkatın ilk dövrünün bir sıra çətinlikləri təşkil edir. Əlifba məsələsinin XIX əsrin ortalarından başlayaraq uzun bir zaman kəsiyini əhatə etməsi və XX əsrin əvvəllərində bu problemin genişlənərək mədəni hərəkat səviyyəsinə qalxması müstəsna haldır. Əsrlərdir kiçik bir qığılcım şəklində başlayan bu problem başladığı nöqtədə qalmamış və geniş sürətdə yayılaraq xalqımızın vətənpərvər ziyalıları tərəfindən işıqlandırılmışdır.
Açar sözlər: Xalid Səid Xocayev, Azərbaycan-özbək ədəbi əlaqələri, memuar, əlifba məsələsi, islahat, türkçülük, Türkoloji Qurultay

http://dx.doi.org/10.29228/edu.172
Məqaləyə istinad: Babayeva Ş. (2020) *Xalid Səid Xocayev və onun "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 273-277
Məqalə tarixçəsi: göndərilib – 10.06.2020; qəbul edilib – 22.06.2020

Khalid Said Khojayev and his work "Old memories and feelings on the new alphabet"

Shabnam Babayeva
Institute of Literature named after Nizami Ganjavi. Azerbaijan.
E-mail: ssebnembabyeva@gmail.com
https://orcid.org/0000-0002-6132-950X

Abstract. The purpose of the article is to study the new edition of the book by "Old memories and feelings of the ways new alphabet" by Uzbek-language Azerbaijani scholar Khalid Said Khojaev. The major cultural and revolutionary movement of the new alphabet is the main focus of Khojaev's work. The fact that the Alphabet issue covers a long period of time since the middle of the 19th century, and the problem has expanded to the level of cultural movement in the early 20th century. This problem, which began in the form of a small spark for centuries, has not remained at the point where it began, and has been widely spread by the patriotic intelligentsia of our people.
Keywords: Khalid Said Khojaev, Azerbaijani-Uzbek literary relations, memoir, the alphabet, reformation, Turkism, Turkology Congress

http://dx.doi.org/10.29228/edu.172
To cite this article: Babayeva Sh. (2020) *Khalid Said Khojayev and his work "Old memories and feelings on the new alphabet".* «Comparative Literature Studies», Issue I, pp. 273-277
Article history: received – 10.06.2020; accepted – 22.06.2020

Giriş / *Introduction*

XX əsr Azərbaycan dilçiliyinin görkəmli simalarından olan Xalid Səid Xocayev şəxsiyyəti, ədəbi-elmi fəaliyyəti, dərin düşüncəsi, atdığı doğru addımları ilə milli tarixi yaddaşlara həkk olunmuşdur. Xalid Səid 1888-ci ildə Özbəkistanda dünyaya gəlmişdir. İlk təhsilini mədrəsədə almış, daha sonra isə İstanbul Universitetində təhsilini davam etdirmişdir. Universiteti bitirib vətəninə qayıtsa da, sonrakı taleyi onu həmişəlik Azərbaycana bağlamışdır. Əslən özbək olan Xalid Səid Xocayev SSRİ EA-nın Azərbaycan filialında elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

"X.S.Xocayev ixtisaslı linqvist şərqşünaslardan biridir. O, təkcə türk dillərini deyil, ərəb, fars, rus dillərini də gözəl bilirdi" [1]. Xalid Səid Xocayev dilçiliyimizin üslubiyyat, müqayisəli qrammatika və dil tarixi kimi sahələrinin hər birinə aid ilk dərsliklərin müəlliflərindən biri olmuşdur. Onun elm aləminə 14 əsəri məlumdur: "Osmanlı, özbək, qazax dillərinin müqayisəli sərfi"; "Müxtəsər üslubiyyat"; "Türk məktəbi üçün rus dili"; "Müfəssəl sintaksis"; "Türk dilinin tarixi qrammatikası"; "Cığatay ədəbiyyatı haqqında mühazirələr"; "Türk ədəbiyyatı nəzəriyyəsi"; "Türküstan tarixinin qısa icmalı"; "Orxon kitabələrinin izahlı tədqiqi" və s. Bunu da xüsusi qeyd etmək lazımdır ki, inkişaf etmiş dünya türkologiyası tarixində Mahmud Kaşğarinin "Divani Lüğət-it Türk" əsəri ilk dəfə Xalid Səid tərəfindən dilimizə tərcümə edilmişdir. Azərbaycan və özbək xalqının tarixində daima belə şəxsiyyətlər mövcud olmuş və bu şəxsiyyətlər hər iki xalqın ölməz sənətkarı kimi böyük bir irs qoyub getmişlər. Dediyimiz bu fikri əsaslandırmaq üçün Maqsud Şeyxzadə və Xalid Səidin adlarını çəkə bilərik. Əslən özbək olub bütün həyatını, elmi-ədəbi fəaliyyətini Azərbaycana həsr etmiş Xalid Səid şəxsiyyəti və əslən azərbaycanlı olub Özbəkistan şairi, dramaturqu, dilçi, ədəbiyyatşünası kimi yüksək qiymətləndirilən Maqsud Şeyxzadə şəxsiyyəti...

Əsas hissə / *Main Part*

X.S.Xocayev şəxsiyyətinin yaradıcı taleyini bir yazıda sonadək qələmə almaq mümkün deyil. "Bolşevik quruluşu üçün təhlükəli hesab edilən böyük Turan düşüncəli ziyalıların həbsi 1937-ci ilin yanvar ayından başlayaraq kütləvi hal almışdı. Onlara verilən min bir zillətin, döyülmələrin, ailələrini hədələmələrinin nəticəsində istədikləri "şər-böhtan" dolu sənədlərə imza atdırırdılar" [2, s.51-52].

Kitab Xalid Səid Xocayevin "Yazıçı tərəfindən bir neçə söz" adlı məqaləsi ilə açılır. Bu yazı həm özbək, həm Azərbaycan dillərində verilmişdir. Özbək və Azərbaycan dillərində verilmiş başqa bir yazı Bakı Darülfununun Şərq fakültəsi müdərrislərindən Əziz Qubaydullinin "Xalid Səid haqqında" təqdimatıdır. Özbək dilində tərtib olunan hissənin sonluğunda "Xalid Səid Xocayevin həyatı və əsərləri" adı altında Mustafa Tokerin yazısı yer almışdır. Mustafa Toker bu yazısında Əsgər Quliyev və Ziya Bünyadov kimi alimlərin əsərlərindən bəhrələnmiş və sitatlar gətirmişdir. Azərbaycan dilində olan hissənin ön sözü Xalid Səid Xocayevin Torontoda yaşayan 95 yaşlı qızı Bəhicə Məmmədovaya məxsusdur. "Xoşbəxtəm ki, Xalid Səid kimi qeyri-adi şəxsiyyətlər unudulmayır. O, mənim atamdır" adlı ön sözdə Bəhicə xanım atasının həyat və yaradıcılığı ilə bağlı bir sıra faktları işıqlandırmışdır. Əsərin son sözünü isə qızı Bəhicə xanımın I Bakı Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın Rəyasət Heyətinə təbrik məktubunun (2016) mətni təşkil edir.

"Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri 3 hissədən ibarətdir: 1. Bakı-Krım-Moskva; 2. Moskva-Türküstan; 3. Türkoloji qurultay. Bakı-Türkmənistan-Özbəkistan. Bakı-Krım-

Moskva adlı birinci hissə "Haraya və nə üçün gedirik" yarımbaşlığı ilə başlayır və bu hissədən etibarən Xalid Səidin xatirələri fonunda qələmə alınan dövrün fövqəladə vəziyyəti və bu vəziyyətdən çıxmaq üçün keçilən yollar əks olunur. Bu hissə "Mineralnı-Rostov", "Rostov-Ağməscid", "Ağməscid", "Ağməscid-Baxçasaray", "Ağməsciddə ilk iclas", "Ağməscid-Sevastopol", "Sevastopol yolunda", "Ağməscidə doğru", "Maarif evində" kimi yarımbaşlıqlardan ibarətdir.

"Moskva-Türküstan" adlı ikinci hissədə "Türküstanın hüdudları və coğrafi mövqeyi", "Daşkənddə", "Qonaqlıqda yeni əlifba məsələsi", "Daşkənd kəndlərində bir cəvəlan", "Daşkəndə ümumi bir nəzər", "Yeni və Əski Daşkənd", "Əski şəhərdə maarif", "Daşkənddə həyat və sənət", "Daşkəndə tarixi bir nəzər" hissələri, Türkoloji Qurultay. Bakı-Türkmənistan-Özbəkistan adlı üçüncü hissədə isə "Türkoloji qurultay lazımdır", "I Ümumi Türkoloji Qurultay", "Qurultay açılarkən", "Qurultaydan sonra", "İkinci dəfə Türküstana doğru", "Bakıdan hərəkət", "Krasnovodsk qarşısında", "Aşqabada doğru", "Annagəldi baba ilə kiçik bir müsahibə", "Türkmənistanda yeni əlifba məsələsi", "Aşqabada ümumi bir nəzər", "Səmərqəndə doğru", "Özbəkistan daxilində", "Səmərqənd şəhərində", "Yeni əlifba ilə bağlı təşəbbüslər", "Maarif Komissarlığında", "Komissarlar Şurasının sədri yanında", "Firqə məsul katibi yanında", "Elmi Şurada qərar", "Bir qərarın nəticəsi", "Əski şəhərdə bir cəvəlan", "Səmərqəndə tarixi bir nəzər" adlı hissələr yer almışdır. Son hissə "Türküstanda istifadə edilən müxtəlif əlifbalar və onlara tarixi nəzər" adlı yarımbaşlığın təqdimi ilə bitir.

Bolşevik dövlətinin qurduğu tələni bilməyən türkoloqlar, fədakar ziyalılar XX əsrin 20-ci illərində I Bakı Türkoloji qurultayının keçirilməsi təşəbbüsünə müsbət hal kimi yanaşırlar. "Əslində bu tarixi məqamın iki cəbhəsi var idi: *rus imperiyası və böyük türk aydınları - Turan yolçuları*. Bu pusqudan tam xəbərsiz türk aydınları elə ilk gündə məqsədlərini ortaya qoydular. Bir-birilərinin elmindən, ədəbiyyatından, yazı-pozusundan xəbər tutmaq üçün ortaq əlifba, ortaq dil məsələsinin həlli yollarını düşünərək həyata keçirmək konsepsiyasının hazırlığına başladılar" [2, s.44]. Tədqiqatlardan məlum olduğu kimi, bu işin bütün ağırlığı Səmədağa Ağamalıoğlu, Xalid Səid Xocayev və Bəkir Çobanzadə kimi ziyalıların çiyinlərinə düşmüşdür. Bu fakt əsər boyu özünü təsdiqləmiş, ortaq türk dili və əlifbası uğrunda ön cəbhədə dayanan məhz adını çəkdiyimiz ziyalılar olmuşdur.

Yeni əlifbanın ilk mücahidi kimi tanınan, Yeni Əlifba Komitəsinin sədri Səmədağa Ağamalıoğlunun, "Molla Nəsrəddin" jurnalının müdiri olan Mirzə Cəlil Məmmədquluzadənin, Yeni Əlifba Komitəsinin üzvü Vəli Xuluflunun və böyük dilçi alim, işçi (fəhlə) fakültəsi və milirasion texnikumunun dil və ədəbiyyat müəllimi Xalid Səid Xocayevin psixologiyası, düşüncələri, bu yolda gerçəkləşən bütün fəaliyyətləri əsər boyu bütün hadisələrin gərgin axarında təsvir olunmuşdur. Mədəni inqilab mübarizləri hesab olunan bu şəxslərin əlifba problemi ətrafında apardıqları çoxsaylı müzakirələri diqqətəlayiqdir. "1920-ci ildə Azərbaycan işçi və kəndliləri inqilab etməyə müvəffəq oldular. Burada hər şeydən çox maarif məsələsi vardı. Bu məsələyə inqilabın ilk günündən etibarən ciddi bir şəkildə girişildi. Məktəblər açılmağa başladı. Yaşlı işçi və kəndlilər gecə kurslarına yazılır, uşaqlar məktəblərə doğru axışırdılar; ancaq bunların qarşısına çıxan böyük bir əngəl vardı: kurslarda, məktəblərdə dərslər əski ərəb əlifbası ilə keçilirdi. Bu əlifbadan qısa bir müddətdə və arzuolunan formada istifadə etmək olmurdu" [4, s.179]. Xalid Səidin dilindən verilən bu ümumi mənzərənin həlli yolu islahat aparmaqda idi. Bunun fərqində olan Azərbaycan ziyalıları ölkədəki vəziyyəti görür və bu problemin həlli yolunu tapmaq üçün fikir mübadiləsi aparırdılar. Əsərdə əsas məsələ əlifba islahatı ətrafında gedən müzakirələr olsa da, burada, eyni zamanda mətbuat məsələsi də ön plana çəkilmiş və problemin mətbuat aspekti də xüsusi olaraq işıqlandırılmışdır. Yeni əlifba tərəfdarlarını düşündürəcək ən əsas məsələ türk xalqları arasında mətbuat mübadiləsi idi. Qonşu cümhuriyyətlərlə olan münasibətləri itirməmək üçün nəşriyyat idarələrinin yeni əlifba tərəfdarlarına qarşı çıxması çətinlik törədən əsas amil sayılırdı. O dövrdə demək olar ki, bütün türk xalqlarında – osmanlı, kazan, özbək və s. arasında bu məsələ qaldırılmışdı. 1924-cü ilin sentyabr ayında verilən qərara əsasən, yola düşən səfər heyətinin gördüyü işlər, keçib getdikləri məmləkətlər və burada baş tutan yığıncaqların hər biri ən xırda detalına qədər təsvir olunmuşdur. "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsərinin daha bir özəlliyi bundan ibarətdir ki, Xalid Səid bu əsərlə yalnız öz əməyini, fəaliyyətini deyil,

tarix səhifəmizdə özünəməxsus rolu olan simaların – Səmədağa Ağamalıoğlunun, Mirzə Cəlilin, Vəli Xuluflunun, Dağıstanın, Türkmənistanın elm və siyasət adamlarının fəaliyyətini, bu məsələlər ətrafında etdikləri çıxışları, onların düşüncə və davranışlarını xüsusi boyalarla əks etdirmişdir.

Birinci hissənin əsas düyünlü nöqtəsi, məhz Ağməsciddə baş tutan iclas idi. Burada keçirilən xüsusi iclasın məzmununu əlifba problemi ətrafında Ağməscidin məsul işçiləri, maarif xadimləri ilə azərbaycanlıların əsas heyətinin müzakirələri təşkil edir. İclasda qoyulan problem əlifbayönümlü olsa da, burada həmçinin tatar xalqının bir sıra ictimai problemləri də müzakirə edilmişdir. Səmədağanın iclasda etdiyi çıxışlar, əsasən tarixiyönümlülüyü ilə seçilirdi və o öz çıxışında XIX əsr Azərbaycan ədəbiyyatının, maarif və mədəniyyətinin, habelə, tarixinin inkişafında müstəsna xidmətləri olan M.F.Axundovun adını çəkərək deyir: "Axundov, deyəsən, bundan altmış il qabaq əlifba məsələsini qaldırdı, mümkün olan çarələrə əl atdı. Çox heyf ki, meydana bir nəticə çıxara bilmədi. O zaman bunu həyata keçirmək mümkün deyildi" [4, s.193]. Daha sonra Səmədağa Ağamalıoğlunun dilin strukturu, yazı və imla məsələlərinə aydınlıq gətirməsi elmi baxımdan önəmli hadisə idi.

İclasda iştirak edən Teymurcan, Həsən Səbri, Osman və digərlərinin çıxışlarına azərbaycanlı heyətin bütün üzvləri izah gətirmiş və son olaraq böyük alim, vətənpərvər Xalid Səidin hərtərəfli izahları, səlis və anlaşıqlı nitqi, hadisələrə düzgün yanaşma bacarığı və Azərbaycan heyətinin ümumilikdə tutduğu doğru yol sayəsində adlarını çəkdiyimiz bu şəxslərin mövqeyi dəyişmiş və yeni əlifba islahatını qəbul etmək məqamına gəlib çatmışlar.

Azərbaycan səfər heyəti Moskva-Türküstan xəttilə irəliləyərək, XX əsrdə yaranan ayrı-ayrı cümhuriyyətlərə – Qazaxıstan, Tatarıstan, Buxara, Xivə, Başqırdıstan, Türküstan ellərinə səfər etmiş və əlifba islahatını genişləndirərək, bütün türk xalqlarını bir fikir və amal ətrafında mübarizəyə cəlb etmək fikrini əsas məqsəd kimi qarşıya qoymuşlar. Əsərin ikinci hissəsini məhz bu cümhuriyyətlərlə keçirilən görüşlər təşkil edir. Əvvəlcə, 1906-cı ildən etibarən inqilaba qədər tərəqqipərvər gənclərə rəhbərlik etmiş bir adam olan Münəvvər qarı ilə görüş keçirilmiş, bu maarifpərvər şəxslə söhbət işin gedişatına müsbət təsir göstərmişdir. Çünki Daşkənddə ilk dəfə üsuli-cədid məktəbi açmış bu şəxs vasitəsilə Türküstan gənclərinin yeni əlifba barəsindəki fikirlərinə dair məlumat əldə etmək mümkün idi.

Münəvvər qarının sözləri arasında biz "Tərcüman" qəzetinin redaktoru, İsmayıl Qaspiralının adı ilə qarşılaşırıq. Məktəbi millətin nicat yolu kimi qəbul edən İsmayıl Qaspiralı 1884-cü ildə ənənəvi məktəblərdən fərqlənən təhsil ocağı açdı. Yeni üsulla fəaliyyət göstərən bu məktəbdə tətbiq olunan təcrübə özünü doğrultdu – şagirdlər qısa müddət ərzində oxuma və yazmağa müvəffəq oldular. İ.Qaspiralının təhsildəki islahatı tədricən bir sistem kimi formalaşdı və "üsuli-cədid" – yəni "yeni üsul" adını aldı. Cədizm adı ilə tariximizə iz salan bu hadisə elə bir növ səfər heyətinin mübarizə apardığı iş ilə paralellik təşkil etmişdir.

Əsərin üçüncü hissəsində Xalid Səid əlifba məsələsinin son mərhələsi olan qurultaya hazırlıq mərhələsini və qurultayda baş verən prosesləri təsvir edir. 1924-cü ilin axırlarında Azərbaycan, Dağıstan, Zaqafqaziya türkləri, Başqırdıstan Cümhuriyyəti yeni əlifbanı qəbul edəcəklərinə dair söz vermişdilər. Bunlarla yanaşı, Türküstan Cümhuriyyəti şübhə içində idi. Qazaxıstan və Tatarıstan isə əlifba islahatını qəbul edə bilməyəcəklərini qəti şəkildə bildirmişdilər. Bütün bunları nəzərə alaraq, ümumi bir qurultay çağırılmasının gərəkli olduğu artıq tam anlaşılmışdı.

1926-cı ilin yanvarına qədər davam edən qurultay hazırlıqlarına Səmədağa Ağamalıoğlu ciddi cəhdlə hazırlaşır, türkologiya və türk ədəbiyyatı ilə məşğul olur, osmanlı, cığatay ədəbiyyatını araşdırır, ərəb dili ilə qarşılaşdığı hər an "yazıq türk uşaqları, yazıq!" - deyə heyfsilənirdi. Bütün bu çətinliklərə qarşı səfər heyəti daha ciddi çalışır və nəhayət, Ümumittifaq Mərkəzi İdarələrinin nəzər-diqqətini bu məsələyə cəlb etməyi bacarır, qurultayın çağırılması barədə qərar qəbul edilir. "Qurultayda əlifba məsələsi, imla-orfoqrafiya problemi, termin məsələsi, tədris-metodika məsələsi, qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri, türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi, ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri kimi məsələlər nəzərdə tutulmuşdu" [2, s.45].

Nəticə / *Conclusion*

1926-cı ilin 26 fevral – 6 mart tarixində baş tutan qurultayda uzun müddət görülən işlər bir yekun qərara bağlandı. Qurultayda gedən bütün müzakirələrin yekunu olaraq, latın əsası üzərinə qurulan yeni türk əlifbasının hər cəhətdən ərəb əlifbasından üstün olduğu qəbul edilmişdir. Lakin bu əlifbanın qəbul edilib həyata keçirilməsi hər cümhuriyyətin öz ixtiyarına buraxılmışdır. Və bu qərar qurultaydan sonra bir sıra çətinliklər yaratmış, cümhuriyyətlər arasında qərara alınan latın əsası üzərində qurulan yeni türk əlifbasına keçid vaxtı tənzimlənməmişdir. Məhz bu kimi problemləri həll etmək üçün daha sonra Xalid Səid yenidən Türkmənistan və Özbəkistana göndərilmiş, böyük alim, vətənpərvər şəxs bu səfərindən böyük nailiyyətlərlə geri qayıtmışdır. Səfər boyu baş verən bir sıra çətinliklərə baxmayaraq, onlar bu yola çıxarkən, qarşılaşa biləcəkləri bütün halları göz önündə tutmuş və ona uyğun addımlar atmağa çalışmışlar.

Ədəbiyyat / *References*

1. Nazilə Səfərova. Alim və tərcüməçi. Ədəbiyyat və incəsənət, Bakı. 1987, 31 iyul.
2. Almaz Ülvi. Özbək ədəbiyyatı (ədəbi portret cizgiləri, araşdırmalar, müsahibələr, yol qeydləri). Bakı: “Elm və təhsil”, 2016.
3. Ziya Bünyadov. Xalid Səid Xocayev. İstintaq işi №12493. Azərbaycan müəllimi, 1990, 10 yanvar.
4. Xalid Səid. Yeni əlifba yollarında əski xatirə və duyğularım (Azərbaycan və özbək dillərində). Daşkənd, “Mumtoz soz”, 2020.

Халид Саид Ходжаев и его произведение «Старые воспоминания и мои ошущения о новом алфавите»

Шабнам Бабаева
Институт литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: ssebnembabyeva@gmail.com

Резюме. Целью статьи является изучение новой редакции книги азербайджанского ученого на узбекском языке Халид Саида Ходжаева «Старые воспоминания и мои ошущения о новом алфавите». Культурное и революционное движение на новом алфавите является основным направлением работы Ходжаева. Факт, что проблема алфавита охватывает длительный период времени с середины 19-го века, и проблема расширилась до уровня культурного движения в начале 20-го века. Эта проблема, которая возникла в виде маленькой искры на протяжении веков, не осталась на том месте, где она возникла, и была широко распространена патриотической интеллигенцией нашего народа.

Ключевые слова: Халид Саид Ходжаев, азербайджано-узбекские литературные связи, мемуары, реформа алфавита, тюркизм, Тюркологический Конгресс

BƏDİİ TƏRCÜMƏ MƏSƏLƏLƏRİ

Özbəkistanda Azərbaycan ədəbiyyatının tərcüməsi və təbliği: qədim dövr və müasir mərhələ

Qulu Kəngərli
Azərbaycan.
E-mail: gulu_kengerli57@mail.ru
https://orcid.org/0000-0002-5892-5706

Annotasiya. Azərbaycan ədəbiyyatı nümunələri başqa türkdilli ölkələrdə olduğu kimi, Özbəkistanda da çox böyük maraqla qarşılanır. Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi klassiklərin əsərləri Özbəkistanda çox böyük tirajla nəşr olunub. Özbək yazıçı, şair və tərcüməçilərinin Azərbaycan ədəbiyyatına müraciət etməsi heç də təsadüfi deyildir. İstər klassik, istərsə də müasir yazıçı və şairlərin əsərlərinin özbək dilinə tərcümə edilməsi eyni soyköklü, adət və ənənələrin oxşarlığı, eyni zamanda əsərlərin dəyərli olması ilə bağlıdır. Həsənoğlunun, Seyid Əzim Şirvaninin, Mirzə Fətəli Axundovun, Molla Pənah Vaqifin, Mirzə Ələkbər Sabirin, Hüseyn Cavidin, Səməd Vurğunun, Rəsul Rzanın əsərlərini özbək oxucuları böyük maraqla oxuyurlar. Məqalədə özbək ədəbi irsinin formalaşmasında Nizami, Füzuli, Nəsimi yaradıcılığının böyük təsiri olduğu qeyd edilir. Azərbaycan ədəbiyyat nümunələrinin özbək dilinə tərcümə edilməsində Maqsud Şeyxzadənin, Mirəziz Əzəmin, Razzak Əbdürrəşidin, Cumaniyaz Cabbarovun, İbrahim Qafurovun, Usman Kuçkarın, Feyzi Şahismayılın, Tahir Qəhharın, Kərim Bəhriyevin, Mamatkul Hazratkulovun çox böyük zəhməti olub.

Açar sözlər: Özbəkistan və Azərbaycan ədəbiyyatı, klassiklərin özbək dilinə tərcüməsi, Nizami və özbək ədəbiyyatı, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Maqsud Şeyxzadə

http://dx.doi.org/10.29228/edu.137
Məqaləyə istinad: Kəngərli Q. (2020) *Özbəkistanda Azərbaycan ədəbiyyatının tərcüməsi və təbliği məsələləri: qədim dövr və müasir mərhələ.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 278-285
Məqalə tarixçəsi: göndərilib − 10.04.2020; qəbul edilib − 17.04.2020

The issues of promotion and translation of the Azerbaijani literature in Uzbekistan: ancient period and modern stage

Gulu Kangarli
Azerbaijan.
E-mail: gulu_kengerli57@mail.ru
https://orcid.org/0000-0002-5892-5706

Abstract. The Azerbaijani literature as in other Turkic-speaking countries is also well received in Uzbekistan. Works by such classics as Nizami Ganjavi, Imadaddin Nasimi,

Mahammad Fuzuli have been published with a large circulation in Uzbekistan. It is not accidental Uzbek writers, poets and translators' appealing to the Azerbaijani literature. Translation of works by both classic and modern writers and poets into Uzbek is related to same lineage, similarity of traditions, at the same time value of the works. Works by Hasanoghlu, Seid Azim Shirvani, Mirza Fatali Akhundov, Molla Penah Vagif, Mirza Alakbar Sabir, Husein Javid, Samad Vurghun, Rasul Rza are read with a great interest by Uzbek readers. In the article is noted a great influence of Nizami, Fuzuli and Nasimi's creativity in formation of Uzbek literary heritage. There is an undeniable role and great service of Maksud Sheikzadeh, Miraziz Azamin, Razzak Abdurrajid Jumaniyaz Jabbarov, Ibrahim Gafurov, Usman Kuchkar, Feyzi Shahismayil, Tahir Gahhar, Karim Bahriyv, Mamatkul Hazratkulov.
Keywords: literature of Azerbaijan and Uzbekistan, translation of works by classics into the Uzbek language, Nizami and Uzbek literature, Mahammad Fuzuli, Imadaddin Nasimi, Maksud Sheikzadeh

http://dx.doi.org/10.29228/edu.137
To cite this article: Mirzayev A. (2020) *The issues of promotion and translation of the Azerbaijani literature in Uzbekistan: ancient period and modern stage.* «Comparative Literature Studies», Issue I, pp. 278-285
Article history: received – 10.04.2020; accepted – 17.04.2020

Giriş / *Introduction*

Qədim dövr

Özbəkistanda Azərbaycan ədəbiyyatına və mədəniyyətinə həmişə böyük maraq olub, keçmişdə də, indi də...

Azərbaycanın klassik ədəbiyyatına maraq isə hədsiz dərəcədədir. Özbəklər Nizami Gəncəvini, İmadəddin Nəsimini, Məhəmməd Füzulini az qala özbək ədəbiyyatının nümayəndələri hesab edirlər. Özbək ədəbiyyatşünaslarının yazdığına görə, öz dövründə Türküstanda Nizamini də, Nəsimini də, Füzulini də tanıyıb və oxuyublar. 1882-ci ildən başlayaraq Füzulinin əsərləri Özbəkistan nəşriyyatlarında böyük tirajla 60 dəfədən çox nəşr olunub.

Özbək muğam ustaları qədimdə də, indi də Nizaminin, Füzulinin qəzəlləri üstündə bəlkə də Azərbaycanda oxunan qədər muğam ifa edirlər. Özbəkistanda ədəbiyyatşünaslar, şairlər, yazıçılar bu şairləri, həmçinin Seyid Əzim Şirvanini, Mirzə Cəlili, Mirzə Ələkbər Sabiri orijinaldan oxumağa üstünlük verirlər. Özbəkistanda çalışdığım müddətdə neçə-neçə ədəbiyyatşünas, şair və yazıçı Bakıdan Nizaminin, Nəsiminin, Füzulinin, Şirvaninin, Sabirin və digər şairlərimizin kitablarını Azərbaycan dilində gətirməyi xahiş edib. Özbəkistanda AzərTAC-ın Orta Asiya üzrə müxbiri kimi çalışdığım 20 ildə hər dəfə Bakıya məzuniyyətə gedəndə və Daşkəndə qayıdanda buradan Azərbaycana, Azərbaycandan isə Özbəkistana çoxlu kitab aparıb gətirmişəm.

Əsas hissə / *Main Part*

Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının dövrümüzə qədər çatan ən qədim tərcümələrindən biri XIV əsrin ortalarında yaşamış Qızıl Orda şairi Qütb Xarəzminin cığatay türkcəsinə tərcüməsidir.

Qütb Xarəzmi təxminən 1341-1342-ci illərdə Nizaminin "Xosrov və Şirin" əsərini cığatay dilinə çevirən ilk türk şairi olub. Qütb tərcümədən sonra öz müasiri, dövrünün hökmdarı, şahzadə Tini bəyi və onun arvadı Məleykə xanımı mədh edib, sonra da kitabın ana dilinə tərcüməsinin səbəbini yazıb. Qütb bu işi Tini bəy və onun arvadı Məleykənin xahişi ilə yerinə yetirdiyini bildirib. Qütb poemanın əvvəlində dahi Nizami Gəncəvinin əsərlərini mütaliə etdiyini, bu poemalardan ilham aldığını vurğulayır.

Qütb yazır: "Mən Nizami kimi sözləri sıraya düzdüm, qazan kimi qaynadaraq bu tərcüməni başa çatdırdım. Mən Nizaminin balı ilə halva bişirdim".

Filologiya elmləri doktoru Almaz Ülvi "Özbək ədəbiyyatında və əbəbiyyatşünaslığında Nizami, Nəsimi və Füzuli ənənələri" məqaləsində yazır: "Qütb tərcümə zamanı poemaya təzə hadisələr daxil etmişdir və buna görə də Nizami əsərinin özbək variantı bir növ orijinal kimi səslənir". Beşcildlik "Özbək ədəbiyyatı tarixi" kitabında da Nizaminin özbək ədəbiyyatının inkişafındakı müsbət təsiri xüsusi qeyd edilmişdir.

Qütbün tərcüməsi haqqında 1921-ci ildə fransız alimi Jan Deni "Grammaire de la lanque turque" adlı əsərində ilk dəfə məlumat verərək fikir söyləmişdir. Jan Deni əsərin fars dilində yazıldığından, Qütb Xarəzmi tərəfindən "şərq türkcəsinə" (cığatay türkcəsinə) çevrilməsindən söhbət açıb, əsər haqqında yığcam məlumat verib.

Özbək ədəbi və mədəni irsinə təsirində və formalaşmasında Nizaminin, Nəsiminin və Füzulinin böyük rolu olub və bu danılmazdır. Biz bunu böyük özbək şairlərinin əsərlərində də görürük. Belə ki, böyük özbək şairi Əlişir Nəvai Nizaminin əsərlərini bədii söz sənətinin zirvəsi hesab edib. Özbək yazıçısı Aybəyin yazdığı kimi, "Dünyada adları Nizami qədər məşhur olan şairlər çox deyil. Nizami Şərq xalqlarının mədəniyyətində müstəsna yer tutur. Böyük Nizaminin əsərləri müsəlman Şərqində ədəbiyyatın inkişafına çox böyük təsir göstərib. Bir çox özbək şairi Nizami ideyalarının tərəfdarı olmuş, şair kimi ustalığı ondan öyrənmişlər. Nizami bizim böyük şairimiz Əlişir Nəvai üçün şair kamilliyinin zirvəsi idi". Elm aləminə bu da məlumdur ki, Əlişir Nəvai dövründə Xarəzm şairi Heydər Xarəzmi ustadı saydığı Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasını tərcümə edib və özü də "Məxzənul-əsrar" adlı əsər yazıb.

Özbək şairi Seyfi Səra isə Azərbaycan şairi Həsənoğlunun yeganə qəzəlini özbək dilinə çevirib. Akademik Həmid Araslı qeyd edir ki, "bütöv yaradıcılığı gəlib bizə çatmayan Azərbaycan şairi Həsənoğlunun öz ana dilində yazdığı yeganə qəzəlinə özbək şairi Seyfi Səranın tərcümələr məcmuəsində təsadüf olunmuşdur. Müəllif bu kitabda həm Həsənoğluna yazdığı nəzirəni, həm də şairin öz qəzəlini vermişdir. Bu fakt elm aləminə məlum olsa da, şairin "Süheyl və Güldürsün" poeması ilk dəfə "Özbək ədəbiyyatının tarixi" (I cild) kitabında geniş şərh olunmuşdur".

Almaz Ülvi adıçəkilən məqaləsində yazır: "Yazıçı-dramaturq Kamil Yaşen qeyd edir ki, "Azərbaycan-özbək ədəbi münasibətləri Nizami Gəncəvinin yaşadığı dövrdən qol-budaq atmaqdadır. Minillik tarixi olan Nizaminin "Xəmsə"si Özbəkistanın da qiymətli ədəbi xəzinəsi sayılır. Böyük şairin vəfatından on illər sonra Orta Asiyanın monqollar tərəfindən işğal olunduğu dövrdə Xarəzmdə naməlum özbək müəllif "Müftahul-ədl" adlı bədii əsər yaratmışdır. Bu əsərin əsasını Nizaminin "Şah və iki bayquş" haqqında hekayəti təşkil edirdi. Özbək ədəbiyyatına Nizaminin təsiri belə başlamışdı".

Sovet dövrü

Sovet dövründə Azərbaycan ədəbiyyatının özbək dilinə tərcüməsi təxminən 1920-ci illərdən başlayıb. Müxtəlif illərdə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir və digər şairlərin əsərləri Daşkənddə və Səmərqənddə nəşr olunub.

A.Ülvinin "Azərbaycan-özbək (cığatay) ədəbi-əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər)" kitabında qeyd edildiyi kimi, 1947-ci ildə Özbəkistan Dövlət Nəşriyyatı Nizaminin poemalarından parçaları "Güldəstə" adı ilə ayrıca kitab kimi nəşr edib. O dövrdə Özbəkistan mətbuatında da Nizami-

nin qəzəlləri, “Yeddi gözəl”, “Leyli və Məcnun”, “İsgəndər və çoban” və digər əsərləri çap olunub. Böyük özbək şairi Məhəmməd Rza Agahi Xivə xanı Firuzun sifarişi ilə Nizaminin “Yeddi gözəl” poemasını nəsrlə tərcümə edib və həmin əsər Agahinin 1980-ci illərin sonlarında yeni nəşr olunan dördcildlik külliyyatına daxil edilib. 1983-cü ildə Daşkənddə Nizaminin özbək dilində böyük tirajla “Seçilmiş əsərləri” kitabı nəfis tərtibatda çap edilib. Toplunun tərtibçisi, Ön sözün müəllifi və tərcüməçisi professor Şahislam Şahməhəmmədovdur. Kitabda böyük şairin həyatı və yaradıcılığı haqqında ətraflı məlumat verilir. Topluya Nizami Gəncəvinin qəzəlləri, rübailəri, qəsidələri, qitələri, hikmətli sözləri, həmçinin “Sirlər xəzinəsi”, “Yeddi gözəl” poemalarından parçalar salınıb.

Keçmiş SSRİ dövründə Özbəkistanda Azərbaycan ədəbiyyatı nümunələrinə geniş yer verilib. Şairlərimizin və yazıçılarımızın yaxından dostluğu da bu işə böyük təkan verib. Belə ki, Azərbaycan ədəbiyyatı Özbəkistanda, özbək ədəbiyyatı isə Azərbaycanda böyük tirajla çap olunub.

Məşhur şair, dramaturq, ədəbiyyatşünas və tərcüməçi Maqsud Şeyxzadə 1927-ci ildə Özbəkistana gəlib, ömrünün sonunadək burada yaşayıb, Nizami Gəncəvi adına Daşkənd Pedaqoji İnstitutunun müəllimi olub. Şairin “Cəlaləddin Manquberdi” və “Mirzə Uluqbəy” faciələri, “Daşkəndnamə”, “Ağsaqqal” poemaları Özbəkistanda çox məşhurdur. Daşkənddə şairin altı cildlik seçilmiş əsərləri çap olunub. Maqsud Şeyxzadə Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Mirzə Fətəli Axundovun, Hüseyn Cavidin, Səməd Vurğunun, Rəsul Rzanın əsərlərini özbək dilinə tərcümə edib.

Sovet dövründə Maqsud Şeyxzadədən başqa Mirəziz Əzəm, Rəzzaq Əbdürrəşid, Cuməniyaz Cabbarov, İbrahim Qafurov, Osman Qoçqar, Feyzi Şahismayıl, Tahir Qəhhar, Kərim Bəhriyev, Məmətqul Həzrətqulov və başqaları Azərbaycan ədəbiyyatından nümunələri özbək dilinə çeviriblər.

Rəzzaq Əbdürrəşid 1968-1988-ci illərdə Səməd Vurğunun şeir və poemalarını, “Vaqif” dramının daxil olduğu bir neçə kitabı o zamankı “Gənc qvardiya” nəşriyyatında çap etdirib. O həmçinin Molla Pənah Vaqif, Rəsul Rza, Nəbi Xəzri və Cabir Novruzun əsərlərini özbək dilinə çevirib.

İbrahim Qafurov Mirzə İbrahimovun “Pərvanə” romanını (Mirəziz Əzəmlə birgə), Süleyman Rəhimovun “Məhtəban” povestini və bu yazıçıların digər əsərlərini tərcümə edərək çap etdiriblər.

Mirəziz Əzəm 1980-1990-cı illərdə Nizami Gəncəvinin, Bəxtiyar Vahabzadənin, Nəriman Həsənzadənin, Mirvarid Dilbazinin, Məmməd İsmayılın, Zəlimxan Yaqubun, Vaqif İbrahimin, Firuzə Məmmədlinin şeirlərini “Cahan ədəbiyyatı”, “Şərq ulduzu” və digər ədəbi jurnallarda çap etdirib.

Məmətqul Həzrətqulovun tərcüməsində Anarın “Dantenin yubileyi” əsəri və “Gürcü familiyası”, “Ötən ilin son gecəsi”, “Zəncir” hekayələri özbək dilində çap olunub.

1967-1970-ci illərdə Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanı Daşkənddə özbək dilində iki cilddə çap edilib. Birinci cildi Nəzirə Əliyeva, Möhsün Həmidov və Rüstəm Kamilov, ikinci cildi isə Nəzirə Əliyeva, Möhsün Həmidov çevirib.

Camal Kamal 1980-ci illərdə Bəxtiyar Vahabzadənin “Şəbi-hicran” poemasını və “Fəryad” dramını, Xəlil Rzanın “Səmərqəndim” şerini orijinaldan özbək dilinə tərcümə edib.

Anarın “Ağ liman” povesti 1978-ci ildə Daşkənddəki “Qafur Qulam” nəşriyyatında İbadulla Cahangirov və Bəxtiyar Eraneşin tərcüməsində çap olunub.

O illərdə Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, Mirzə Ələkbər Sabirin, Səməd Vurğunun, Süleyman Rüstəmin, Mirvarid Dilbazinin əsərləri nəşr olunub.

Müstəqillik illəri

Müstəqilliyin ilk illərində də şair və yazıçılar, ədəbiyyatşünaslar Azərbaycan ədəbiyyatına böyük maraq göstərib. Şair və tərcüməçi Osman Qoçqar, Feyzi Şahismayıl, Tahir Qəhhar, İbrahim Qafurov, Mirəziz Əzəm, Rəzzaq Əbdürrəşid, Cuməniyaz Cabbarov, Məmətqul Həzrətqulov, Babaxan Şərif, Erqaş Açilov, Gülbahar Aşurova, Rüstəm Cabbarov, Obid Şəfiyev, Şəhla Qasımova və başqaları Azərbaycan yazıçı və şairlərin əsərlərini özbək dilinə çeviriblər.

Mirzə İbrahimovun “Güləbətin” povesti Feyzi Şahismayılın tərcüməsində “Cahan ədəbiyyatı” jurnalının 2004-cü il 4-cü sayında çap olunub.

2005-ci ildə isə Nizami Gəncəvinin "Leyli və Məcnun", "Xosrov və Şirin" poemaları Alimcan Buriyevin farscadan özbək dilinə tərcüməsində Özbəkistandakı diaspor təşkilatı olan Azərbaycan Milli Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə ayrıca kitab halında nəşr olunub.

2007-ci ildə isə Feyzi Şahismayıl Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" romanını "Cahan ədəbiyyatı" jurnalının 12-ci sayında çap etdirib.

2009-cu ildə Azərbaycanın Özbəkistandakı Səfirliyinin təşəbbüsü ilə A.Ülvinin "Azərbaycan-özbək (cığatay) ədəbi-əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər)" (2008) və "Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında" (2009) kitablarının rəsmi şəkildə təqdimatı keçirilmişdir.

2010-cu ildə Azərbaycanın Özbəkistandakı Səfirliyinin təşəbbüsü ilə Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabı Daşkənddəki "Özbəkistan" nəşriyyatında özbək dilində çap olunub. Kitabı rus dilindən Numon Rəhimcanov tərcümə edib.

Erqaş Açilov 2009-cu ildə "Şərq" nəşriyyatında Füzulinin "Qəmzəsin sevdin, könül" kitabını Azərbaycan türkcəsində, həmin il "Rübailər" kitabını "Özbəkistan" nəşriyyatında özbək dilində çap etdirib. Topluya Xəqani Şirvaninin, Nizaminin, Nəsiminin, Füzulinin rübailərinin bir hissəsi toplanıb. Erqaş Açilov Osman Qoçqarla birgə Nəsiminin qəzəllərini də özbək dilinə çevirərək və 2012-ci ildə "Özbəkistan" nəşriyyatında çap etdirib. E.Açilov Füzulinin fars və türkmən dillərindən "Qəlb gövhəri" kitabını özbək dilinə tərcümə edib və 2014-cü ildə "Hilal-nəşr" də çap olunub.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ədəbi əlaqələr sahəsində böyük iş görür, şair və yazıçılarımızın əsərlərinin özbək dilinə tərcüməsi işini həyata keçirir. Mədəniyyət Mərkəzinin layihəsi ilə son illərdə böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"si iki variantda nəşr edilib. Alimcan Buriyevin tərcüməsində "Xəmsə" bir kitabda işıq üzü görüb. 2017-2019-cu illərdə isə AMM bu istiqamətdə daha bir layihəyə imza atıb. Özbəkistanın Xalq şairi Camal Kamalın tərcüməsində "Xəmsə" ayrı-ayrı kitab şəklində Daşkənddə nəfis tərtibatla çap olunub. 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunması ilə əlaqədar Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə böyük şairimiz İmadəddin Nəsiminin "Dünyanı sevirəm" adlı kitabı nəşr edilib. Qəzəlləri tanınmış şair Tahir Qəhhar çevirib.

2019-cu ildə Qənirə Paşayevanın "Qapını aç" adlı toplusu, 2020-ci ildə şəhid-şair Ülvi Bünyadzadənin "Əlvida", Eluca Atalının "Gecikən oyuncaq" kitabları Xasiyət Rüstəmin tərcüməsində nəşr olunub. "Kitab dünyası" qəzeti müntəzəm olaraq Azərbaycan şair və yazıçılarının əsərlərini çap edir. Qəzetin Azərbaycan Respublikası üzrə əlaqələndiricisi A.Ülvinin bu işdə böyük əməyi vardır: Anar, İsa Həbibbəyli, Ramiz Rövşən, Nizami Cəfərov, Sabir Rüstəmxanlı, Qənirə Paşayeva, Rüstəm Behrudi və başqa görkəmli yazıçı, şair və alimlərlə təşkil edib hazırladığı müsahibələr həmin qəzetin səhifələrində dərc olunmuşdur. Eyni zamanda, Azərbaycan-özbək ədəbi əlaqələri mövzusunda xeyli sayda məqalələrin, şeir və hekayələrin çapına da nail olmuşdur.

Ədəbiyyatımızın yaxın dostu, tanınmış özbək şairi və tərcüməçisi mərhum Osman Qoçqarın Daşkənddə "Həyəcana qərq olan dunya" (1982), "Əks-sədası olmayan sədalar" (1986), "Yuxulu minarə" (1987), "Ağır karvan" (1991), "Çəməngul" (1996), "Şərq" şeirlər kitabları, "Qovulma" dastanı, "Imam Buxari" dramı və digər əsərləri çap olunub.

Osman Qoçqar tərcüməçilik fəaliyyətinə şair və yazıçılarımızın hekayə və şeirlərini çevirməklə başlayıb. Xalq yazıçısı Yusif Səmədoğlunun "Qətl günü", Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Mən, sən, o və telefon" və Elçinin "Baladadaşın ilk məhəbbəti", "Baladadaşın toy hamamı", "Toyuğun diri qalması" kitablarını, Ülvi Bünyadzadənin hekayələrini özbək dilində nəşr etdirib. Anarın "Dədə Qorqud" kinopovesti və adıçəkilən əsərlərin əksəriyyəti "Cahan ədəbiyyatı" jurnalında çap olunub.

Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə yazıçı-publisist, əməkdar jurnalist Elmira Axundovanın Daşkənddəki "Məşhur press" nəşriyyatında özbək dilində çap olunan "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" ("İlhom Aliyev. "Ozgarishlar jarayonidagi Prezident tasviri") kitabının tərcüməçiləri Osman Qoçqar və özbək alimi Şakir Dalimovdur.

Jurnalist, yazıçı və tərcüməçi Rüstəm Cabbarov ortayaşlı yazarlar və tərcüməçilər arasında ən istedadlı qələm sahibidir. O, bir çox Azərbaycan yazıçılarının povest, hekayə və romanlarını özbək dilinə çevirib. Tərcümələrinin bir hissəsini baş redaktoru olduğu "Darakçi" qəzetində, həmçinin ölkənin ədəbi qəzet və jurnallarında dərc etdirib, sonra isə kitab halında nəşrinə nail olub. R.Cabbarovın tərcüməsində Azərbaycan yazıçılarının "Ömürdən uzun gecə" hekayələr toplusu, İlqar Fəhminin "Aktrisa" romanı, Vaqif Sultanlının "Ölüm yuxusu" povest və hekayələr kitabı, Yunus Oğuzun "Atabəy Eldəniz" romanı, Varisin "Sənə inanıram" romanı özbək dilində işıq üzü görüb.

Şəhla Qasımova Azərbaycan ədəbiyyatını özbək və rus dilinə tərcümə edən şairdir, fəaliyyətinə görə, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü seçilib. Onun özbək və rus dilində 10-dan artıq tərcümə kitabı Daşkənd, Bakı və Sumqayıt şəhərlərində nəşr edilib.

Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Şəhla Qasımovanın tərcüməsində Leyla Əliyevanın "Dünya yuxutək əriyir" kitabı özbək dilində (Daşkənd, 2018) çap olunub. Şəhla Qasımova həmçinin Firuz Mustafanın "Dəniz köçü" kitabı özbək dilində (Daşkənd, 2017), "Ağ rəqs" kitabı rus dilində (Bakı, 2019), "Ad günü" kitabı rus dilində (Bakı, 2019), Süleyman Hüseynovun "And" romanı (rus dilində), "Özbək şeir çələngi" (Azərbaycan və özbək dillərində, AMM-nin layihəsi, Daşkənd, 2018) kitablarının tərcüməçisidir.

Bundan başqa onun tərcümələri Özbəkistanın "Звезда Востока", Şərq ulduzu", "Gülüstan", "Səadət", "Cahan ədəbiyyatı" jurnallarında, Azərbaycanın "Литературный Азербайджан", "Зеркало", "Вышка" və digər nəşrlərində çap olunub.

Özbəkistanda Azərbaycan ədəbiyyatını tərcümə edən gənc tərcüməçilər nəsli də yetişməkdədir. Belə ki, Rəhmət Babacan, Mirzahid Müzəffər, Obid Şəfiyev, Gülbahar Aşurova, Gülnaz Sattarova, Şahsənəm Sappiyeva və başqaları Azərbaycan şair və yazıçılarının şeir və hekayələrini özbək dilinə çevirirlər. Şahsənəm Sappiyeva Anarın "Ağ qoç, qara qoç" povestini özbək dilinə çevirib və bu ilin ikinci yarısında kitab halında nəşr olunacaq.

* * *

Azərbaycanlıların Orta Asiya və Qazaxıstana sürgün edilməsi ilə əlaqədar Daşkənddə "Sürgün" sənədli filmi çəkilib (Qulu Kəngərlinin ssenarisi əsasında). Orta Asiyada yaşayan tanınmış azərbaycanlıların həyatı və fəaliyyəti ilə bağlı tədqiqatlar davam edir.

Son 10 ildə Azərbaycan yazıçı və şairlərinin, alimlərinin kitabları özbək dilinə tərcümə edilərək kitab halında çap olunmuşdur.

Nəşr edilən kitablar:

- Sabir Rüstəmxanlı. "Göy tanrı" romanı. – Daşkənd, "Şərq" nəşriyyatı, 2010, tərcümə edən: Osman Qoçqar;
- İlqar Fəhmi. "Aktrisa" romanı. – Daşkənd, 2010, tərcümə edən: Rüstəm Cabbarov;
- Hidayət Orucov. "Dağların mahnısı" (şeirlər). – Daşkənd, 2011, tərcümə edən: Osman Qoçqar;
- Anar, "Qırmızı limuzin" (hekayələr). – Daşkənd, 2012, tərcümə edənlər: Rüstəm Cabbarov, Erkin Osmanov;
- "20-ci əsr Azərbaycan poeziyası antologiyası" (almanax). – Daşkənd "Turan-İqbal" nəşriyyatı, 2013, tərcümə edən: Babaxan Şərif;
- Hüseyn Kürdoğlu (şeirlər). – Daşkənd, "Mümtaz söz" nəşriyyatı, 2014, tərcümə edən: Osman Qoçqar;
- Yunus Oğuz. "Əmir Teymur" (roman). – Daşkənd, "Yeni əsr övladı" nəşriyyatı, 2013, tərcümə edən: Osman Qoçqar;
- Yunus Oğuz. "Şah arvadı və cadugər" (roman). – Daşkənd, "Yeni əsr övladı" nəşriyyatı, 2015, tərcümə edən: Osman Qoçqar;

- Yunus Oğuz. “Sultan Alp Arslan” (roman). – Daşkənd, “Mümtaz söz” nəşriyyatı, 2016, tərcümə edən: Osman Qoçqar;
- Yunus Oğuz. “Atabəy Eldəniz” (roman). – Daşkənd, “İstiqlal nuru” nəşriyyatı, 2018, tərcümə edən: Rüstəm Cabbarov;
- Yunus Oğuz. ”Ovçu” (roman). – Daşkənd, “Zəmin nəşr”, 2019, tərcümə edən: Gülbahar Aşurova;
- Anar. “Mən, sən, o və telefon” (povest və hekayələr). – Daşkənd, “Dövr Press” nəşriyyatı, 2016, tərcümə edən: Osman Qoçqar;
- Elçin. “Seçilmiş əsərlər” (roman, povest və hekayələr). 2-cilddə. – Daşkənd, “Global Books” nəşriyyatı, 2017, tərcümə edən: Osman Qoçqar;
- Cəlil Məmmədquluzadə. “Poçt qutusu” (hekayə və felyetonlar). – Daşkənd, “Mümtaz söz” nəşriyyatı, 2019, Ön sözün müəllifi akademik İsa Həbibbəyli, naşiri və son söz müəllifi professor Həmidulla Baltobayev, tərcümə edən: Osman Qoçqar;
- Pərvin. “Qar yağacaq” (hekayələr). – Daşkənd, “Extremum Press” nəşriyyatı, 2015, tərcümə edən: Babaxan Şərif;
- Vaqif Sultanlı. “Ölüm yuxusu” (povest və hekayələr). – Daşkənd, “Yaradıcılıq-press” nəşriyyatı, 2017, tərcümə edən: Rüstəm Cabbarov;
- “Müasir Azərbaycan poeziyası antologiyası” (almanax). – Daşkənd, “Ekstremum Press” nəşriyyatı, 2016, tərcümə edənlər: Osman Qoçqar, Şəhla Qasımova;
- “Ömürdən uzun gecə” (Azərbaycan yazıçılarının hekayələr almanaxı). – Daşkənd, “Dövr Prezz” nəşriyyatı, 2014, tərcümə edən: Rüstəm Cabbarov;
- Hüseyn Cavid. “Seçilmiş əsərlər” (“Əmir Teymur”, “Şeyx Sənan, “Səyavuş”, “Peyğəmbər” Daşkənd, “Təfəkkür qanadı” nəşriyyatı, 2018, tərcümə edənlər: Osman Qoçqar və Tahir Qəhhar;
- Firuz Mustafa. “Dəniz köçü” (povest və hekayələr). – Daşkənd “İstiqlal nuru” nəşriyyatı, 2018, tərcümə edən: Şəhla Qasımova;
- Qulamhüseyn Əliyev. “Azərbaycan-özbək ədəbi əlaqələri” (Ön sözün müəllifi Almaz Ülvi və Gülbahar Aşurova). – Daşkənd, “Məşhur press” nəşriyyatı, Azərbaycan və özbək dillərində 2019, tərcümə edən: Osman Qoçqar;
- Varis. “Sənə inanıram” (roman). – Daşkənd, “Yeni əsr övladı” nəşriyyatı, 2020, tərcümə edən: Rüstəm Cabbarov.

Nəticə / *Conclusion*

Özbəkistanla Azərbaycan ədəbi əlaqələri hələ ta qədim dövrlərdən başlayaraq bu günədək davam edir. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzulinin əsərləri özbək dilinə tərcümə olunaraq, çox böyük tirajla nəşr olunmuşdur. Onu da qeyd edək ki, bu iki xalqın ədəbiyyatlarının birbirinə təsiri olmuşdur.

Ədəbiyyat / *References*

1. Qulamhüseyn Əliyev. Azərbaycan-özbək ədəbi əlaqələrinə dair. “Azərbaycan” jurnalı, 1964-cü il, say 10.
2. Almaz Ülvi. Özbək ədəbiyyatında və əbəbiyyatşünaslığında Nizami, Nəsimi və Füzuli ənənələrii. “Dil və ədəbiyyat” Beynəlxalq elmi-nəzəri jurnal, BDU, 2007, say 5 (59).
3. Almaz Ülvi. Nizami Gəncəvinin yaradıcılığı və özbək ədəbi-elmi fikri. “Xalq” qəzeti, 2012, 29 sentyabr.
4. Almaz Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi-əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). Bakı, “Qartal”, 2008.

Вопросы перевода и продвижения Азербайджанской литературы в Узбекистане: древний период и современный этап

Кулу Кангарли
Азербайджан.
E-mail: gulu_kengerli57@mail.ru

Резюме. Как и в других тюркоязычных странах, образцы азербайджанской литературы встречаются в Узбекистане с большим интересом. Произведения классиков Низами Гянджеви, Мухаммеда Физули, Имадеддина Насими издаются в Узбекистане большими тиражами. Обращение узбекских писателей, поэтов и переводчиков к азербайджанской литературе отнюдь не случайно. Перевод на узбекский язык произведений классиков и современных писателей и поэтов обусловлен этнической близостью обычаев и традиций и их художественной ценностью. Узбекские читатели с большим интересом обращаются к произведениям И.Гасаноглу, Сеид Азима Ширвани, Мирзы Фатали Ахундова, Молла Панах Вагифа, Мирза Алекпер Сабира, Гусейна Джавида, Самеда Вургуна, Расула Рзы. В статье отмечается значительная роль влияния творчества Низами, Физули, Насими в формировании узбекского литературного наследия. Большие заслуги в переводе образцов азербайджанской литературы на узбекский язык принадлежат Магсуду Шейхзаде, Миразизу Аземи, Раззаку Абдуррашиду, Джуманиязу Жаббарову, Ибрагиму Гафурову, Усману Кучкару, Фейзи Шаисмаилу, Тахиру Гаххару, Кариму Бахриеву, Маматкулу Хазраткулову.
Ключевые слова: узбекская и азербайджанская литература, перевод классиков на узбекский язык, Низами и узбекская литература, Мухаммед Физули, Имадеддин Насими, Магсуд Шейхзаде

Osman Qoçqarın tərcümə yaradıcılığı

Yaşar Qasımbəyli
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: yashargasimov@mail.ru
https://orcid.org/0000-0002-6122-226X

Annotasiya. Məqalədə görkəmli özbək şairi və mütərcimi Osman Qoçqarın tərcümə yaradıcılığından bəhs edilir. Klassik və çağdaş Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrinin əsərlərini məharətlə özbəkçəyə çevirən müəllifin bu yöndəki ədəbi fəaliyyətini müstəqillik dövrü Özbəkistan-Azərbaycan ədəbi əlaqələrinin əhəmiyyətli səhifələrindən biri hesab etmək olar. Azərbaycan klassik poeziyasının bir çox qiymətli nümunələri ilə yanaşı, XX yüzil Azərbaycan nəsrinin Mirzə Cəlil, Mir Cəlal, İsmayıl Şıxlı, İsa Muğanna, Sabir Əhmədov, İsi Məlikzadə, Yusif Səmədoğlu, Elçin, Anar, Ağamalı Sadiq və başqa bir sıra görkəmli nümayəndələrinin yaradıcılığını Özbəkistan oxucularına çatdıran zəhmətkeş qələm sahiblərindən biri məhz Osman Qoçqardır. Xüsusən, Cəlil Məmmədquluzadənin povest və hekayələri, Hüseyn Cavidin "Seçilmiş əsərləri", Yusif Səmədoğlunun "Qətl günü" romanı, Elçinin "Seçilmiş əsərləri"nin iki cildliyi, Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" və "Sizsiz" romanları Osman Qoçqarın tərcüməsində özbək oxucularına təqdim edilmiş və böyük uğur qazanmışdır. Tanınmış şair və tərcüməçinin orijinal poetik yaradıcılığında da Azərbaycan mövzusu mühüm yer tutmuş və türk dünyasının mənəvi-estetik dəyərlərinin təbliği və tərənnümünə geniş yer verilmişdir. Osman Qoçqarın bir sıra şeirləri, o cümlədən "Sizsiz" romanının motivləri əsasında yazılmış "Xəzər ağısı" lirik poeması ana dilimizə çevrilmiş və dəfələrlə nəşr olunmuşdur.

Açar sözlər: Osman Qoçqar, bədii tərcümə, Özbəkistan-Azərbaycan ədəbi əlaqələri, Mirzə Cəlil, Hüseyn Cavid, Yusif Səmədoğlu, Elçin, Anar

http://dx.doi.org/10.29228/edu.141
Məqaləyə istinad: Qasımbəyli Y. (2020) *Osman Qoçqarın tərcümə yaradıcılığı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 286-295
Məqalə tarixçəsi: göndərilib – 12.06.2020; qəbul edilib – 24.06.2020

Osman Gochgar's translation creativity

Yashar Gasimbeyli
Doctor of Philological Sciences, Institute of Literature named
after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: yashargasimov@mail.ru
https://orcid.org/0000-0002-6122-226X

Abstract. The article deals with a prominent Uzbek poet and translator Osman Gochgar's translation creativity. Literary activity of the author, who translated works by classic and modern representatives of the Azerbaijani literature into the Uzbek

language, can be considered one of the most important stages of Uzbekistan-Azerbaijan literary relations in the independence period. Osman Gochgar is one of hardworking those who along with some valuable samples of Azerbaijan classic poetry conveyed some outstanding writers' creativity such as Mirza Jalil, Mir Jalal, Ismail Shikhli, Isa Mughanna, Sabir Ahmadov, Isi Malikzade, Yusif Samadoghlu, Elchin, Anar, Aghamali Sadig and others to Uzbek readers. Especially, narrative and stories by Jalil Mammadguluzadeh, "Selected works" by Husein Javid, "The day of the Murder" by Yusif Samadoghlu, the two volumes of "Selected works" by Elchin, novels "The Sixth Floor of the Five-Story Building" and "Without you" by Anar have been presented in Osman Gochgar's translation to the Uzbek readers and got great success. The theme Azerbaijan has occupied an essential place in well-known poet and translator's original poetic creativity and he promoted moral-aesthetic values of Turkic literature. Several poems by Osman Gochgar, as well as the poem "Elegy of Caspian" written on the basis of motives of the novel "Without you" have been translated into our native language and published many times.
Keywords: Osman Gochgar, artistic translation, Uzbekistan-Azerbaijan literary relations, Mirza Jalil, Husein Javid, Yusif Samadoghlu, Elchin, Anar

http://dx.doi.org/10.29228/edu.141
To cite this article: Gasimbeyli Y. (2020) *Osman Gochgar's translation creativity.* «Comparative Literature Studies», Issue I, pp. 286-295
Article history: received – 12.06.2020; accepted – 24.06.2020

Giriş / *Introduction*

Görkəmli özbək şairi və tərcüməçisi Osman Qoçqarın ədəbi fəaliyyətindən söz açmaq faktiki olaraq çağdaş Özbəkistan-Azərbaycan ədəbi münasibətlərindən bəhs etmək deməkdir. Bir şair kimi 70-ci illərdən yaradıcılığa başlayan, şeir və poemaları ilə ədəbi ictimaiyyətin rəğbətini qazanan Osman Qoçqar 80-ci illərdən etibarən ta ömrünün son günlərinə qədər tərcüməçilik işini də uğurla davam etdirmişdir. Tanınmış şairin orijinal yaradıcılığı ilə bərabər, Azərbaycan ədəbiyyatından çevirdiyi əsərlər də ona kifayət qədər nüfuz və ədəbi populyarlıq qazandırmışdır.

Əsas hissə / *Main Part*

I

Osman Qoçqarın Azərbaycan ədəbiyyatının qədim və çağdaş klassiklərindən – Seyid İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Mikayıl Müşfiq, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Vaqif Səmədoğlu, Hüseyn Kürdoğlu, Fikrət Sadıq, Abbas Abdulla, Fikrət Qoca, Cabir Novruz, Sabir Rüstəmxanlı, Siyavuş Sərxanlı, Ramiz Rövşən, Vaqif Cəbrayılzadə, Vaqif Bəhmənli, Dilsuz və başqa tanınmış şairlərdən çevirmələri ötən əsrin 80-90-cı illərinin poetik prosesində müəyyən iz qoymuşdur. Osman Qoçqarın XX yüzil Azərbaycan nəsrinin say-seçmə nümunələrini qardaş özbək dilində səsləndirməsi də ədəbi əlaqələr tariximizin qürurverici səhifələri sayılmalıdır. Mirzə Cəlil, Mir Cəlal, İsmayıl Şıxlı, İsa Hüseynov, Yusif Səmədoğlu, Sabir Əhmədov, İsi Məlikzadə, Elçin, Anar, Ağamalı Sadiq, Aqil Abbas və başqa böyük nasirlərimizin yaradıcılığından nümunələri də ilk dəfə Osman Qoçqar özbəkcəyə çevirməyə təşəbbüs

göstərmişdir. Azərbaycan dilini mükəmməl bilən və ədəbiyyatımıza sözün həqiqi mənasında yaxşı bələd olan, mütərcim məsuliyyətini və tarixi missiyasını dərindən dərk edən Osman Qoçqarın bilavasitə orijinaldan müvəffəqiyyətlə tərcümə etdiyi bir sıra əsərlər isə – Mirzə Cəlilin "Danabaş kəndinin əhvalatları" povesti və 25 hekayəsi [1], Hüseyn Cavidin "Şeyx Sənan" və "İblis" faciələri [2], Yusif Səmədoğlunun "Qətl günü" romanı [3], Elçinin ən məşhur povest və hekayələrindən ibarət iki cildliyi [4, 5], Anarın "Sizsiz" və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanları [6] və başqa çox böyük zəhmət hesabına ərsəyə gəlmiş çevirmələri müasir Özbəkistan tərcümə sənətinin qızıl fonduna daxil olmuşdur.

Özbəkistan-Azərbaycan ədəbi əlaqələri və tərcümə sənəti tarixində silinməz iz qoymuş Osman Qoçqar 1953-cü ildə Özbəkistan Respublikası, Buxara vilayətinin Şafirkan rayonunda dünyaya gəlmişdir. Orta məktəbi əla qiymətlərlə və qızıl medalla bitirən Osman Səttar oğlu Qoçqar 1970-ci ildə Daşkənd Dövlət Universitetinin Özbək filologiyası fakültəsinə qəbul olunmuşdur. 1975-ci ildə Daşkənd Dövlət Universitetini Fərqlənmə diplomu ilə başa vuran gənc Osman bir neçə il öz təhsil aldığı orta məktəbdə müəllimlik etmiş, 70-ci illərin sonunda isə Daşkənd şəhərində Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında redaktor kimi əmək fəaliyyətini davam etdirmişdir. Osman Qoçqarın bir ədəbi işçi, nəşriyyat və mətbuat xadimi kimi də fəaliyyət tarixi çox zəngindir. O, müxtəlif illərdə "Özbəkistan", "Gənc qvardiya" nəşriyyatlarında, "Yaşlıq" ("Gənclik") və "Cahan ədəbiyyatı" jurnalları redaksiyasında, "Çolpan", "Şərq" və "Mənəviyyat" nəşriyyatlarında müxtəlif vəzifələrdə çalışmışdır. Görkəmli tərcüməçinin sonuncu iş yeri "Cahan ədəbiyyatı" jurnalı idi. XX yüzilin əvvəllərində qızğın fəaliyyət göstərən bu jurnalın səhifələrində Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinin sıx-sıx işıq üzü görməsi bilavasitə Osman Qoçqarın mütərcim nüfuzunun və təşəbbüskarlığının nəticəsi kimi dəyərləndirilə bilər. Öz həyatının və yaradıcılığının qızğın çağında amansız ölüm isedadlı şair və tərcüməçini aramızdan apardı. Mirzə Cəlildən sonra onun yaxın dostu və silahdaşı Mirzə Ələkbər Sabirin "Hophopnamə"sini, Məhəmməd Hadinin gözəl və təkrarsız lirikasını, Əbdürrəhimbəy Haqverdiyevin "Marallarım" və "Xortdanın cəhənnəm məktubları"nı, Cəfər Cabbarlının faciələrini, Mikayıl Muşfiqin nəfis lirikasını, Əli Kərim və Məmməd Arazın şeir kitablarını və başqa neçə-neçə böyük ədəbi arzuların gerçəkləşmə ümidlərini də özü ilə birgə apardı... Özünəməxsus şair və bənzərsiz mütərcim Osman Qoçqarın ədəbi-mənəvi əlaqələrimiz tarixindəki xidmətlərini və yerini aydın təsəvvür etmək üçün, ümumən, XX yüzil Azərbaycan ədəbiyyatından özbəkcəyə tərcümə tarixinə qısaca bir ekskurs etmək kifayətdir. Bizcə, Özbəkistanda Osman Qoçqara qədərki Azərbaycan dilindən tərcümə nümunələrinin ümumi sayı və səviyyəsi barəsində müəyyən informasiya və bilgiləri burada bölüşmək məqsədə müvafiqdir.

II

Osman Qoçqarın mütərcimlik fəaliyyətini səciyyələndirərkən, onun min illik yaşarı və canlı ənənələri mövcud olan bir tərcümə mühitində yetişdiyini vurğulamaq vacibdir. İlk öncə onu qeyd etməliyik ki, Azərbaycan dilindən Türküstan türkcəsinə, yəni özbəkcəyə tərcümə işinin tarixi də təxminən, elə sovet dövründən başlanır. Amma bu o demək deyil ki, sovetlərə qədər Azərbaycan ədəbiyyatı nümunələrini Özbəkistanda oxumayıblar. Məsələ bundadır ki, ərəb əlifbasının mövcud olduğu dövrlərə qədər, yəni, 1929-cu ildə latın əlifbasının qəbul olunmasına qədər hər iki xalq bir-birinin ədəbiyyatını tərcüməsiz, sərbəst şəkildə başa düşüb. XX əsrin əvvəllərindəki Azərbaycan mətbuatı nümunələri Türküstanda çox geniş yayılmışdı. "Molla Nəsrəddin" jurnalını isə ərəb əlifbasında hər bir türkmən, özbək, tacik, qazax, qırğız başa düşmək imkanına malik idi. Köhnə məktəb və mədrəsələrdə isə bütün müsəlman Şərqində olduğu kimi, Türküstanda da Sədi, Hafiz, Nəvai və Füzuli divanları bir dərslik kimi istifadə edilirdi. Yəni, demək istəyirik ki, Azərbaycan dilindən tərcümə məsələsi sovet dövründə ərəb əlifbasının ləğvi, əvvəlcə latın əlifbasının, sonra isə kiril əlifbasının tətbiqi nəticəsində meydana gəlmiş və aktuallaşmış bir problem idi. Məhz buna görə də Azərbaycan ədəbiyyatından tərcümədən söhbət gedərkən uzun müddət, təxminən beş-altı əsrlik bir vaxt ərzində Nizami

Gəncəvi "Xəmsə"sindən edilmiş iki tərcümə azsaylı tərcümə nümunələrindən biri hesab olunmuşdur; dahi azərbaycanlının "Xosrov və Şirin" dastanını XIV əsrdə Xarəzmli Qütb, "Məxsənül-əsrar" dastanını isə yenə Xarəzmli Heydər – Heydər Xarəzmi XV əsrdə türkcəyə çevirmişdilər.

Amma ədalət naminə onu da qeyd etməliyik ki, yeni dövrdə, hələ inqilabdan əvvəl Azərbaycan ədəbiyyatından tərcümə tarixini də ötən əsrin 10-cu illərindən etibarən elə Türküstan cədidləri (yenilikçi) başlamışlar. Yalnız "Molla Nəsrəddin" və başqa qəzet-jurnallardan alınmış materialları deyil, əsrin əvvəllərində yeni yaranmaqda olan teatrların və teatr truppalarının ehtiyaclarını ödəmək, repertuarlarını zənginləşdirmək üçün cədidlər onlarla Azərbaycan dramaturqlarının əsərlərini özbəkcəyə çevirmişdilər. Özbək ədəbiyyatşünas alimlərinin dəfələrlə vurğuladığına görə, Cəlil Məmmədquluzadənin, Əbdürrəhimbəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Nəriman Nərimanovun, Hüseyn Cavid və Cəfər Cabbarlının əksər pyesləri ötən yüzilin 10-cu illərindən başlayaraq intensiv şəkildə özbəkcəyə çevrilmiş və səhnələşdirilmişdir. İnkarolunmaz tarixi faktlara və arxiv materiallarına əsaslanaraq görkəmli özbək ədəbiyyatşünas və teatrşünas alimləri İ.Sultanov, Y.Sultanov, M.Rəhmanov, S.Qasımov, S.Əliyev, Ş.Turdiyev, N.Kərimov, L.Kayumov, H.Abdusəmədov, M.Şərifov, B.Qasımov, E.Kərimov, H.Baltabayev və başqaları Türküstanda milli dramaturgiyanın təməl daşlarını qoyan Mahmud Xoca Behbudi, Abdulla Əvlani, Əbdürauf Fitrət, Hacı Müin Şükrulla, Abdulla Bədri, Həmzə Həkimzadə Niyazi, Qulam Zəfəri, Abdulla Qədiri, Mənnan Uyğur və başqaları tərəfindən qazantatar və Azərbaycan dramaturgiyasının əksər uğurlu nümunələrinin özbəkcəyə çevrilməsini öz tədqiqatlarında qeyd etmişlər. Özbəkistan Həmzəşünasları təkcə Həmzə Həkimzadə Niyazinin Azərbaycan dilindən 20-dən çox pyesi özbəkcəyə çevirdiyini söyləyirlər. Professor B.Qasımov Abdulla Əvlaninin Azərbaycan dilindən onlarla dram əsərini çevirdiyini bildirir. Akademik M.Rəhmanov məşhur "Özbək teatrı tarixi" (1968) kitabında inqilabdan əvvəl və sonra Özbəkistan teatr truppalarının repertuarında Azərbaycan dramaturqlarının əsərlərinin üstünlük təşkil etdiyini göstərir. Professor H.Baltabayev Abdulla Əvlaninin "Ölülər" komediyasının tərcüməsi ilə kifayətlənməyib, Mirzə Cəlilin, demək olar ki, bütün pyeslərini tərcümə etdiyini və həmin səhnə əsərlərinin özünün rəhbərlik etdiyi "Turan teatr truppası" vasitəsilə ölkə şəhərlərində nümayiş olunduğunu qeyd edir. Azərbaycan dilindən və dramaturgiyasından edilən tərcümələr 1920-cı illər ərzində də səngiməmiş, yüksələn xətlə davam etmişdir. Xüsusən, Hüseyn Cavidin və Cəfər Cabbarlının səhnə əsərləri Özbəkistan teatrlarında 20-30-cu illər ərzində, repressiyalar alovlanana qədər mühüm mövqeyə malik olmuşdur. Mütəxəssislər tərcümə tariximizin bu şanlı səhifələrini qeyd etməklə bərabər, ötən əsrin əvvəllərində geniş vüsət almış həmin tərcümə "bum"unun izsiz yoxa çıxdığını da təəssüflə vurğulayırlar. Qeyd etdiyimiz və dövrün istedadlı ziyalıları, özünəməxsus ədib və dramaturqları tərəfindən yerinə yetirilmiş bu tərcümələrin itib-batmasının mühüm səbəblərindən biri onların bilavasitə səhnə üçün nəzərdə tutulması və çap olunmaması idisə, ikinci mühüm səbəb isə, şübhəsiz ki, repressiya amili ilə bağlıdır. Türk xalqlarını bir-birindən ayırmağa və tamamilə yadlaşdırmağa yönəlmiş stalinizmin repressiya və qətliam tonqallarında özbək cədidlərinin özləri ilə birgə, onların əsərləri və arxivləri, teatr repertuarlarını bəzəyən məşhur tərcümələrin və əsərlərin səhnə variantları da yanıb külə dönmüşdü.

III

Osman Qoçqarla türk dillərindən tərcümənin özünəməxsusluğu və çətinlikləri barəsində, sovet dövrünün yaratdığı əngəllər və problemlər haqqındakı çoxsaylı söhbətlərimizdə cədidlərin yeni Türküstan mədəniyyətini formalaşdırmaq işində XX yüzilin əvvəllərindəki demokratik Azərbaycan ədəbiyyatı örnəklərinə fəal surətdə istinad etdiklərindən və həmin illərdəki qızğın tərcümə prosesindən dəfələrlə bəhs etmişdik. Yuxarıda qeyd etdiyimiz kimi, sovet dövründə ard-arda ərəb əlifbasının latın əlifbası ilə, latın əlifbasının isə 1939-cu ildən başlayaraq kiril əlifbası ilə əvəz olunması türk dillərinə tərcümə zərurətini gündəmə gətirdi. 1941-ci ildə, hələ Böyük Vətən müharibəsi başlanmazdan əvvəl Nizami Gəncəvi və Əlişir Nəvai yubileylərini keçirən Dövlət Komissiyasının iclasında Səməd Vurğunun Həmid Alimcana müraciətlə dediyi aşağıdakı mülahizələr gəlişigözəl sözlər deyildi: "Biz

indiyə qədər elə bilirdik ki, Əlişir Nəvai bir Azərbaycan şairidir". Həqiqətən, inqilabdan öncəki köhnə, ənənəvi Azərbaycan və Türküstan məktəblərində tədris olunan dərsliklər, demək olar ki, bir-birinin eyni idi. XV-XVI əsrlərdən başlayaraq, əsasən, humanitar məzmuna və təyinata malik Şərq məktəblərində "Qurani-Kərim", poetika elmləri, "Firdovsi", "Nizami", "Sədi", "Hafiz", "Nəvai", "Füzuli", "Mirzə Bedil" və başqa böyük şərq şairləri tədris olunurdu. Ənənəvi Şərq məktəblərinin dəyişməsi və onların öz yerlərini "rus-tuzem", "rus-tatar", daha sonra isə "üsuli-cədid" məktəblərinə verməsi ötən əsrin əvvəllərindən başlansa da, bu proses, təbii ki, 20-ci illərdən etibarən yeni sovet məktəblərinin meydana gəlməsi ilə geniş vüsət almışdı. Eyni əlifbada və eyni mədəniyyət ruhunda tərbiyə olunan Şərq xalqlarının ədəbiyyatları və klassikləri də milli çeşidlərə bölünərək, tamamilə bənzərsiz əlifbalarda təqdim olunmağa başladı. Məhz bu mənada 30-40-cı illərdən başlayaraq Türküstan türkləri Məhəmməd Füzulinin Azərbaycana məxsus olmasından necə heyrətlənirdilərsə, Azərbaycan türkləri də Əlişir Nəvainin Özbəkistana məxsusluğunu hələ o qədər qəbul edə bilmirdilər. 1926-cı ildə I Türkoloji qurultay ərəfəsində bütün türk xalqlarının dahi mütəfəkkiri Əlişir Nəvainin köhnə təqvimlə yubileyinin ilk dəfə Bakıda qeyd olunması faktı da Səməd Vurğunun yubiley komissiyasının iclasındakı təəccübünün nə qədər əsaslı olduğunu da nümayiş etdirməkdədir. Bu nöqteyi-nəzərdən yanaşanda, Azərbaycan türkcəsindən Türküstan xalqlarının dillərinə, eyni zamanda, özbək dilindən Azərbaycan türkcəsinə tərcümələrin sovet dönəmində başlanması təbii olmaqla bərabər, həm də Şərq və türk xalqlarını bir-birindən ayırmağa, parçalamağa yönəlmiş mədəni siyasətin nəticəsi kimi dəyərləndirilməlidir.

Sovet dövründə Azərbaycan ədəbiyyatının Özbəkistanda tərcüməsi və təbliği tarixi o qədər də zəngin deyil. Bu prosesin, təxminən, 30-40-cı illərdən başlandığını söyləmək olar. 20-ci illər Özbəkistan teatrlarında Hüseyn Cavid və Cəfər Cabbarlı pyeslərinin səhnələşdirilməsi, geniş təbliğ olunması bu yeni mədəni siyasətin təzahür forması deyil, əksinə, əsrin əvvəllərindən cədid yazıçıların başladığı mədəni hərəkatın davamı idi. 40-50-ci illərin tərcümə sahəsindəki ciddi və yaddaqalan hadisələri sırasında Məmməd Səid Ordubadinin "Qılınc və qələm", Mehdi Hüseynin "Abşeron", Mirzə İbrahimovun "Gələcək gün", "Böyük dayaq", romanlarının, Rəsul Rzanın "Lenin" poemasının, bir sıra şeir, hekayə və başqa əsərlərin tərcüməsini qeyd etmək yerinə düşər. Bu əsərlər sovet dövrünün ideoloji və siyasi əlamətlərini, etiketlərini əks etdirsələr də, oxucular arasında geniş yayıldığını və rəğbətlə qarşılandığını vurğulamaq məqsədə müvafiqdir. Xüsusən, "Qılınc və qələm" və "Gələcək gün" əsərləri uzun müddət sevilə-sevilə oxunmuş, "Lenin" poeması isə bədii məziyyətlərinə görə yüksək qiymətləndirilmişdi. "Lenin" poemasının özbəkcə tərcüməsinin son dərəcə uğurlu alınmasında XX yüzil özbək poeziyasının klassiklərindən biri, xalq şairi Mirtemirin böyük zəhmətini və mütərcim istedadını unutmamalıyıq. 40-50-ci illərin tərcümə məhsullarından söz açarkən Azərbaycanın Xalq şairi Səməd Vurğunun 50 illiyi münasibəti ilə nəşr olunmuş şeirlər kitabının bu prosesdə mühüm rol oynadığını da yaddan çıxartmaq olmaz. Səməd Vurğunun ilk şeirlər kitabının özbəkcəyə çevrilib nəşrə hazırlanmasında, təbii ki, Maqsud Şeyxzadə ilə birgə, Mirtemirin mühüm xidmətləri vardı. Səməd Vurğunun 60 illiyi münasibəti ilə çap olunmuş "Seçilmiş şeirlər" kitabının tərcüməsi və nəşri porsesində də Maqsud Şeyxzadə və Mirtemir yaxından iştirak etmişdilər.

Osman Qoçqar özünəqədərki tərcümə mədəniyyətini və sənətini yaradıcı surətdə qiymətləndirərkən, bu sahədə Maqsud Şeyxzadə və Mirtemirdən çox şeyləri əxs etmişdir. Ərəb, fars və rus dillərini mükəmməl dərəcədə mənimsəmiş Maqsud Şeyxzadə Türkiyə türkcəsini və başqa türk dillərini də yüksək səviyyədə bilirdi. Maqsud Şeyxzadənin tərcümə yaradıcılığı özünəməxsus bir tərcümə məktəbi kimi möhtəşəm və mötəbərdir. Böyük şair və filosofun rus dili vasitəsi ilə dünya ədəbiyyatından, qardaş və qonşu türk dillərindən, orijinaldan çevirmələri yüksək estetik əhəmiyyətini bu gün də qoruyub saxlamaqdadır. Böyük sənətkarın yalnız Səməd Vurğun və Nazim Hikmətdən deyil, eyni zamanda, qazax və qırğız poeziyasından, türkmən və qaraqalpaq şairlərindən, fars-tacik şeiriyyətindən etdiyi tərcümələr də diqqətə layiqdir. Amma M.Şeyxzadənin türk dillərindən çevirmələri içərisində "Nazim Hikmət. 65 şeir" kitabını [7] misilsiz bir nümunə adlandırmaq olar. Bəlkə də bu kitab Nazim Hikmətin dünya və türk dillərinə tərcümələri içərisində ən kamilidir. "Nazim Hikmət. 65 şeir" kita-

bındakı tərcümələrin səviyyəsini və gözəlliyini yalnız Rəsul Rzanın böyük türk şairindən dilimizə etdiyi çevirmələrin estetik keyfiyyəti ilə müqayisə etmək olar.

Osman Qoçqarın hansı mənəvi-mədəni məkanda və tərcümə mühitində yetişdiyini təsəvvürümüzə gətirmək üçün xalq şairi Mirtemirin tərcüməçilik ənənələri və dərslərinə də fikir verməliyik. Mirtemir Özbəkistanda türk dillərindən tərcümə məktəbinin əsasını qoyan və bu sahədə xariqələr yaratmış sənətkardır. XX yüzil qazax, qırğız, türkmən, qaraqalpaq, uyğur və Azərbaycan poeziyasının bir çox parlaq nümayəndələrini ilk dəfə o, uğurla özbəkcə səsləndirmişdi. Qazax poeziyasının məşhur klassikləri Abay Kunanbayev, Cambul Cabayev, qırğız xalqının sevimli şairi Toxtaqul, türkmən şeirinin klassikləri Məhtumqulu, Azadi, Kəminə, böyük qaraqalpaq şairləri Berdak və Əciniyaz ilk dəfə Mirtemirin sehrli qələminin gücü ilə özbəkcə dil açmışdılar. Molla Pənah Vaqif, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, Rəsul Rza, Nəbi Xəzri və çağdaş Azərbaycan şeirinin bir çox başqa nümayəndələrini özbəkcəyə məhz Mirtemir çevirdiyi üçün xalq tərəfindən məhəbbətlə qarşılanmışdır. Məsələn, Nəbi Xəzrinin şeirlər kitabını yüksək sənətkarlıqla özbəkcə səsləndirən Mirtemir türk dilindən tərcümənin misilsiz ustadı olduğunu bir daha nümayiş etdirmişdi. Yalnız Azərbaycan ədəbiyyatını sonsuz məhəbbət və sevgi ilə öz ana dilinə çevirən Osman Qoçqar deyil, 70-ci illərdə Bəxtiyar Vahabzadənin əsərlərini [8] özbəkcəyə tərcümə edən xalq şairləri Camal Kamal və Cümənniyaz Cabbarov, Səməd Vurğunun şeir və poemalarını özbək dilinə çevirən Rəzzaq Əbdürrəşid, Nazim Hikmətin "İnsan mənzərələri"ni [9] Türkiyə türkcəsindən tərcümə edən Rauf Pərfi, qazax və qaraqalpaq poeziyasını özbək dilinə yüksək səviyyədə çevirən Müzəffər Əhməd və başqa türk xalqları klassiklərini orijinaldan çevirənlər də Mirtemir dərslərini dərindən mənimsəmiş və ondan həmişə öyrənməyə çalışmışdılar. Xalq şairi Mirtemirin qardaş türk xalqları folklorundan etdiyi gözəl və mükəmməl tərcümələr də öz zamanında güclü rezonans doğurmuş və başqa qardaş respublikalarda da rəğbətlə qarşılanmışdır. Qırğızların möhtəşəm və cahanşümul "Manas"ını, qazaxların əzəmətli "Koblandı Batır"ını, qaraqalpaqların nəfis və zərif "Qırxqız"ını Mirtemir tərcüməsində oxumaq böyük ədəbi səadətdir. Böyük sənətkarın türk dillərindən tərcümə təcrübəsi və bu sahədəki uğurları qonşu və qardaş ölkələrdəki qarşılıqlı ədəbi təsir və çevirmə prosesinə pozitiv təsir göstərmişdir. Hər iki dildə – Azərbaycan və özbək dillərində eyni dərəcədə uğurla yazıb-yaradan Akif Azalpın qardaş türk dillərindən çevirdiyi onlarla poetik nümunələr [10], "Özbək xalq qoşuqlarından seçmələr" [11], "Kırımtatar xalq nəğmələri" [12], professor Nizami Tağısoyun qazax dilindən çevirdiyi "Koblandı Batır" dastanı [13] və bir çox başqa nümunələr, eyni zamanda bu sətirlər müəllifinin özbək dilinə tərcümə etdiyi, "Sehirli ağaclar" [14], "Azərbaycan nağılları" [15] və ana dilimizə bilavasitə orijinaldan çevirdiyi "Alpamış", "Gündoğmuş" dastanları böyük Mirtemirin tərcümə sənətinin ölməzliyini və yaşarılığını təsdiq edən ədəbi dəlil-sübutlardır.

IV

Osman Qoçqarın Azərbaycan ədəbiyyatından tərcümələri onu göstərir ki, Özbəkistanda həmişə tərcümə işinə və sənətinə böyük məsuliyyətlə yanaşmışlar. Yuxarıda biz, Türküstanda Azərbaycan ədəbiyyatından tərcümə tarixinin XIV-XV əsrlərdən başlandığını qeyd etmişdik. Bu ölkədə, təxminən, min illik tarixi məlum olan bu mürəkkəb və özünəməxsus mədəniyyətin inkişafında kəskin qırılmalar, demək olar ki, baş verməmişdir. Tarixən Türküstanda ərəb və fars dillərindən məhəlli türkçəyə, türk dilindən isə ərəb və fars dillərinə tərcümələr mütəmadi olaraq həyata keçirilmişdir. Xüsusən, Əmir Teymurun və Teymurilərin hökmranlığı dövründə başqa mədəniyyətlər və sənətlər kimi, tərcümə sənəti də yaşamış və çiçəklənmişdir. Əlişir Nəvai öz orijinal yaradıcılığında olduğu kimi, XV əsrdə tərcümə sənəti sahəsində də misilsiz möcüzələr yaratmışdır. XVI-XIX əsrlərdə Türküstanda ictimai-siyasi və iqtisadi geriləmə mövcud olsa da, ədəbiyyat və tərcümə işi öz yerində dayanmamışdır. Bu dövrlərdə mühüm tərcümələrlə birlikdə, tərcümə tarixi və nəzəriyyəsi ilə bağlı qiymətli əsərlər ərsəyə gəlmişdi.

Sovet hakimiyyəti illərində Özbəkistanda tərcümə sənəti ilə yanaşı olaraq, tərcümə nəzəriyyəsi və tərcüməşünaslıq elmi də yenidən formalaşmışdır. Rus dilindən tərcümələrlə bərabər, qardaş dillərdən və bir sıra dünya dillərindən də tərcümələrin zəruriliyi tərcümə praktikasının təhlilini və ümumiləşdirilməsini gündəmə gətirirdi. Bu mənəvi və mədəni ehtiyacları ödəmək üçün ölkənin ali təhsil və elmi tədqiqat müəssisələrində tərcümə işini tədqiq və tədris edən şöbələr, kafedralar yaranmışdı. Məsələn, 70-80-ci illərdə Daşkənd Dövlət Universitetinin Rus filologiyası və Özbək filologiyası fakültələrində Tərcümə sənəti və nəzəriyyəsi kafedrası uğurla fəaliyyət göstərmişdir. Bu kafedraya bir neçə onillik ərzində rəhbərlik etmiş professor Qeybulla Salamov və həmin kafedranın başqa bir görkəmli üzvü professor Nəcməddin Kamilov tərcüməçilik haqqındakı elmə böyük töhfələr bəxş etmişdilər. Q.Salamovun "Tərcümə nəzəriyyəsinin əsasları" kitabı (1980) [16] və N.Kamilovun "Xarəzm tərcümə məktəbi" (1986) [17] adlanan doktorluq dissertasiyası tərcüməşünaslıq sahəsində sabiq İttifaq miqyasında ciddi rezonans doğurmuşdur. "Tərcümə sənəti və nəzəriyyəsi" kafedrasında, xüsusən, 80-ci illərdə hazırlanmış və nəşr edilmiş "Tərcümə sənəti"(elmi məqalələr toplusu) [18] Respublikada filoloji elmin inkişafında və regional nüfuza malik olmasında mühüm rol oynamışdır. Özbəkistan Elmlər Akademiyasının Əlişir Nəvai Dil və Ədəbiyyat İnstitutunda da 60-80-ci illərdə "Tərcümə sənəti və nəzəriyyəsi" şöbəsi fəaliyyət göstərmişdir. Bu şöbəyə uzun müddət rəhbərlik etmiş professor Cüməniyaz Şərifovun "Özbəkistanda tərcümə sənəti tarixi" (1970) [19] kitabı uzun müddət özbək tərcüməçilərinin və tərcüməşünaslarının stolüstü kitabı olmuşdur.

Osman Qoçqarın müstəqillik dövründə geniş vüsət alan tərcümə yaradıcılığı Azərbaycanda bu istiqamətdə baş verən mühüm milli-mədəni yenilənmələr və yenidən qurulmalar ilə də həmahəngdir. Yeni əsrin ilk onilliyində dünya ədəbiyyatının Azərbaycanda və milli mədəniyyətimizin xarici ölkələrdə təbliği və tanıdılması yönündə xeyli diqqətəlayiq işlər görülmüşdür. Osman Qoçqarın Özbəkistan miqyasında geniş rezonans doğurmuş və ölkələrimiz arasındakı münasibətlərin daha da istiləşməsinə təkan vermiş ədəbi fəaliyyəti də həmin proseslərin tərkib hissəsi kimi qiymətləndirilə bilər. Xüsusən, 2013-cü ildən AMEA-nın Humanitar və İctimai bölmələrinə bilavasitə rəhbərlik etməyə başlayan AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən beynəlxalq miqyaslı tədbirlər ölkəmizin dünya, o cümlədən Mərkəzi Asiya respublikaları ilə elmi-mədəni əməkdaşlığına qüvvətli stimul verdi. Dünya şöhrətli alimin bir çox MDB ölkələri ilə yanaşı olaraq, Mərkəzi Asiya ölkələrinə – Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan və Özbəkistana çoxsaylı səfərləri, həmin ölkələrlə həmkarlıqda həyata keçirilən onlarla beynəlxalq elmi simpozium və konfranslar, ayrı-ayrı tanınmış alim və mütəxəssislərin artıq mütəmadi hal almış qarşılıqlı səfər və ezamiyyətləri bizim elmi-mədəni təmaslarımızı tamamilə yeni bir zirvəyə qaldırmışdır. Bu beynəlxalq elmi konfranslar sırasında Yunus Əmrə (2013), Məhtimqulu (2014), Əlişir Nəvai (2018-2020), Oljas Süleymenov (2016), Maqsud Şeyxzadə (2018), Çingiz Aytmatov (2018), Abay Kunanbayev (2020) və başqa beynəlxalq miqyaslı elmi tədbirləri xüsusi qeyd etməliyik. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru kimi akademik İsa Həbibbəylinin həyata keçirdiyi böyük yeniliklər və tədbirlər yalnız Azərbaycan miqyasında qalmayıb, qardaş ölkələrdə də əks-səda yaratmaqdadır. Azərbaycan ədəbiyyatının cahanşümul klassikləri Cəlil Məmmədquluzadə və Hüseyn Cavidin seçilmiş əsərlərinin ayrıca kitab halında və akademik İsa Həbibbəylinin geniş və ətraflı ön sözləri ilə Özbəkistan Respublikasının məşhur nəşriyyatlarında nəşr olunması bu proseslərin getdikcə daha çox elmi sanbal və səciyyə kəsb etdiyini göstərməklə yanaşı, həm də akademik məna və mündəricə daşıyan yeni mədəni epoxanın töhfələridir. Artıq xeyli vaxtdır ki, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda istiqlal ovqatı və dünyagörüşü ilə geniş vüsət almağa başlayan elmi-mədəni yeniliklər sistemində qardaş türk xalqları klassiklərinin ənənəvi yubiley və anım günlərinin keçirilməsi institut kollektivinin beynəlxalq miqyasda nüfuzunu formalaşdırmaqdadır. Hər il ənənəvi olaraq fevralın 9-da Əlişir Nəvai, fevralın 14-də Zahiriddin Məhəmməd Babur, mayın 18-də Məhtimqulu Fəraqi, Abay Kunanbayev və Çingiz Aytmatov günlərinin keçirilməsi, bu münasibətlə Azərbaycanda və qardaş respublikalarda bizim alimlərimizin yaxından iştirakı gözəl bir ənənəyə çevrilməkdədir. Akademik İsa Həbibbəylinin bilavasitə iştirakı və gərgin zəhməti nəticəsində Azərbaycan ədəbiyyatşünaslıq

elmində yeni şaxələnmələr və elmi-nəzəri sahələr meydana gəlməkdədir. XXI yüzildə yenidən qurulan və yaradılan bu elm sahələrinin banisi akademik İsa Həbibbəylidir; XXI yüzil Azərbaycan Nəvaişünaslığı, Baburşünaslığı, Məhtimquluşünaslığı, Abayşünaslığı, Şeyxzadəşünaslığı, Aytmatovşünaslığı və başqa ədəbi-nəzəri istiqamətlər müasir milli-müqayisəli ədəbiyyatşünaslığımızın tərkib hissəsinə çevrilməkdədir.

V

Osman Qoçqar erkən yaşlarından qəlbində ədəbiyyata böyük sevgi duymuş, təkçə doğma özbək şairlərinə deyil, həm də türk dünyasının Nizami Gəncəvi, Seyid İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Səməd Vurğun, Nazim Hikmət, Qaysın Quliyev, Mustay Kərim, İbrahim Yusubov, Rəsul Rza, Nigar Rəfibəyli, Çingiz Aytmatov, Bəxtiyar Vahabzadə, Oljas Süleymenov, Məmməd Araz, Xəlil Rza Ulutürk, Əli Kərim, Amandurdu Annadurduyev və başqa klassiklərə də sonsuz məhəbbətini öz şair dünyasında əbədi yaşatmağa, məhrəm və müqəddəs duyğularını həm şair, həm də mütərcim qələminin qüdrəti ilə ifadə etməyə müvəffəq olmuşdu. Şairin bu sətirlərin müəllifi tərəfindən ana dilimizə çevrilmiş və bilavasitə "Sizsiz"in motivləri və təəssüratı əsasında yazılmış məşhur "Xəzər ağısı"nda söylədiyi ürək sözləri onun yalnız şair qəlbinin əks-sədası olmayıb, həm də həyat və yaradıcılıq yolunun inikası, rəmzidir:

Budur, qayğılarla ötməkdə dünya,
Rəsulsuz, Nigarsız gün çıxıb-batar.
Yeni üfüqlərə getməkdə dünya,
Adamalar gözəl bir yuxuda yatar

Nazimin çin olar arzu, istəyi,
Canlanar yenidən türki bitiklər.
Rəsulun sevdiyi rəngləri təki,
Göy qurşağı asta qəddini diklər.

Səmada ildırım, şimşəklər çaxar,
Yağmağa başlayar yağış, leysanlar.
Küləklər saçına sığallar çəkər,
Durnalarla dolar göy asimanlar.

Durnalar qayıdar hər yaz, hər bahar,
Qayıdıb gələrlər Rəsulla Nigar [20, s.86-87].

Nəticə / *Conclusion*

Osman Qoçqarın tərcümələrində olduğu kimi, onun özünəməxsus və təkrarsız poetik yaradıcılığında da ümumtürk ruhu və ovqatı hökmrandır. Nizami və Nəvai, Füzuli və Babur, Cavid və Fitrət, Cavad və Çolpan, Səməd Vurğun və Qafur Qulam, Maqsud Şeyxzadə və Nazim Hikmət, Rəsul Rza və Mirtemir, Zülfiyyə və Nigar Rəfibəyli Osman Qoçqar üçün yalnız sevimli şairlər və ustadlar deyil, həm də daha çox milli-bədii idealın daşıyıcıları, ünvanı və rəmzləridir. Zatən, qardaş özbək şairinin və mütərciminin türk xalqlarının birliyinə və mənəvi həmrəyliyinə xidmət edən həyat və yaradıcılıq yolu da ümumtürk rəmzlərindən birinə çevrilməkdədir. Əminik ki, istedadlı şair və tərcüməçinin zəngin yaradıcılığı öz doğma Vətəni Özbəkistanda olduğu kimi, qardaş Azərbaycanda da həmişə qədirşünaslıqla anılacaq və qiymətləndiriləcəkdir.

Ədəbiyyat / *References*

1. Hüseyn Covid. Saylanma. Toşkent, 2018.
2. Calil Mammatkulizoda. Poçta kutisi. “Mumtoz soz” naşriyoti, Toşkent, 2019.
3. Yusuf Samadoğlu. Katl kuni. “Yoş qvardiya” naşriyoti. Toşkent, 1990.
4. Elçin. Tanlangan asarlar. İki cildlik, I cild. Toşkent, 2018.
5. Elçin. Tanlangan asarlar. İki cildlik, II cild. Toşkent, 2018.
6. Anor. Beşkavatli uyninq oltinci kavati. Roman. Toşkent, 2016.
7. Nozim Hikmat. 65 şeir. (Türkcadan Maqsud Şayxzoda tarcimasi). Toşkent, Özbekistan adabiyot va sanat naşriyoti, 1965.
8. Baxtiyor Vahabzoda. Şeirlar. Toşkent, “Ğafur Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti, 1981.
9. Nozim Hikmat. İnson manzaralari. Toşkent, “Ğafur Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti, 1982.
10. Akif Azalp. Turan havası. Bakı, 2006.
11. Akif Azalp. Özbek xalq şeirindən seçmələr. Bakı, “Elm və təhsil”, 2013.
12. Akif Azalp. Kırımtatar xalq şeirindən seçmələr. Bakı, “Elm və təhsil”, 2013.
13. Koblandı Batır. Qazax xalq qəhrəmanlıq dastanı. (Qazaxcadan çevirən prof. N.Tağısoy). Bakı, “Elm və təhsil”, 2017.
14. Ali Samad. Sehrli daraxtlar. Ozar tilidan Yaşar Kosim tarcimasi. Yoş qvardiya naşriyotı, Toşkent, 1990.
15. Ozarbaycon ertaklari. Ozarboycan tilidan M.Abduvahabova və Y.Kosim tarcimasi. Toşkent, “Şark naşriyoti”, 1995.
16. Salamov Q. Tarcima nazariyasininq asoslari. Toşkent, “Okutuvçi”, 1980.
17. Komilov N. Xorazm tarcima maktabı. Toşkent, 1986.
18. “Tarcima sanati”. (İlmiy makolalar toplamı). Ğofur Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti. Toşkent, 1980 (82, 84, 86, 88).
19. Cumaniyoz Şaripov. “Özbekistonda tarcima sanati tarixi. “Fan” naşriyoti, 1970.
20. Usmon Koçkar. Ağır karvon. Şeirlar. Toşkent. Ğofur Ğulom nomidaqi Adabiyot va sanat naşriyotı, 1991.

Творчество перевода Усмана Гочгара

Яшар Гасымбейли
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан. E-mail: yashargasimov@mail.ru

Резюме. Статья посвящена переводческому творчеству известного узбекского поэта и переводчика Усмана Гочгара. Литературная деятельность автора, который перевел на узбекский язык произведения классических и современных представителей азербайджанской литературы, можно считать одним из важнейших этапов литературных отношений между Узбекистаном и Азербайджаном в период независимости. Усман Гочгар является одним из тех, кто вместе с некоторыми ценными образцами азербайджанской классической поэзии передал творчество некоторых выдающихся писателей, таких как Мирза Джалил, Мир Джалал, Исмаил Шихли, Иса Муганна, Сабир Ахмедов, Иси Маликзаде, Юсиф Самадоглу, Эльчин, Анар, Агамали Садых и другие узбекским читателям. В частности, повествование и рассказы Джалила Мамедгулузаде, «Избранные произведения» Хусейна Джавида, «День

казни» Юсифа Самадоглу, два тома «Избранных произведений» Эльчина, романы «Шестой этаж пятиэтажного дома» и «Без тебя» Анара были представлены в переводе Усмана Гочгара узбекским читателям и получили большой успех. Тема «Азербайджан» заняла важное место в оригинальном поэтическом творчестве известного поэта и переводчика, он пропагандировал морально-эстетические ценности тюркской литературы. Несколько стихотворений Усмана Гочгара, а также поэма «Элегия Каспия», написанная по мотивам романа «Без тебя», переводились на наш родной язык и публиковались много раз.
Ключевые слова: Усман Гочгар, художественный перевод, литературные связи Узбекистана и Азербайджана, Мирза Джалил, Хусейн Джавид, Юсиф Самадоглу, Эльчин, Анар

Azərbaycanda özbək ədəbiyyatının tərcüməsi və nəşri

Gülnar Qasımlı
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulnar0486@mail.ru
https://orcid.org/0000-0003-2352-335X

Annotasiya. Məqalədə Özbəkistan ədəbiyyatının Azərbaycanda öyrənilməsi, nəşri və tərcüməsi məsələlərindən bəhs edilir. Burada nəşr olunmuş toplu, antologiya və almanaxlar haqqında ümumi məlumatlar verilmiş, şair və yazıçıların kitablarının, konkret əsərlərinin tərcümə məsələlərindən bəhs olunmuşdur. Özbək ədəbiyyatına məxsus müəlliflərin və onların əsərlərinin Azərbaycan dilinə tərcüməsində iştirak etmiş şair və yazıçıların gördüyü işlərə nəzər salınmışdır. Məqalədə eyni zamanda, sovet dövründə və müstəqillik illərində bu istiqamətdə görülmüş işlər, həyata keçirilmiş tədbirlər, özbək ədəbi nümunələrinin Azərbaycanda nəşri işlərində xüsusi rolu olan tədbir və qurumlar haqqında ətraflı bəhs olunmuşdur.
Açar sözlər: özbək ədəbiyyatı, Azərbaycan ədəbiyyatı, tərcümə, şeir antologiyası, nəsr almanaxı, ədəbi əlaqələr, nəşr məsələləri

http://dx.doi.org/10.29228/edu.151
Məqaləyə istinad: Qasımlı G. (2020) *Azərbaycanda özbək ədəbi-bədii nümunələrinin tərcüməsi və nəşri məsələləri.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 296-302
Məqalə tarixçəsi: göndərilib – 27.03.2020; qəbul edilib – 06.04.2020

Translation and publishing of the Uzbek literature in Azerbaijan

Gulnar Gasimli
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: gulnar0486@mail.ru
https://orcid.org/0000-0003-2352-335X

Abstract. The article discusses translation, publishing and studying issues of the Uzbek works in Azerbaijan. The article provides information about the published collections, anthologies, and deals with the translation of books and specific works of poets and writers. The works implemented by the poets and writers involved in the translation of Uzbek literature into Azerbaijani were viewed. At the same time, the article studies in detail the works done in this direction during the Soviet era and the years of independence, the implemented events, and institutions that have a special role in the publication of Uzbek literary works in Azerbaijan.
Keywords: Uzbek literature, Azerbaijani literature, translation, poetry anthology, prose almanac, literary relations, publishing issues

http://dx.doi.org/10.29228/edu.151
To cite this article: Gasimli G. (2020) *Translation and publishing issues of the uzbek literary-artistic examples in Azerbaijan.* «Comparative Literature Studies», Issue I, pp. 296-302
Article history: received – 27.03.2020; accepted – 06.04.2020

Giriş / *Introduction*

Türk dünyasının qüdrətli dövlətlərindən biri olan qardaş Özbəkistan ədəbiyyatının Azərbaycanda tədqiqi və təbliği tarixi çox qədimdir. Özbək ədəbiyyatının dahisi Əlişir Nəvai Nizami Gəncəvi yaradıcılığından təsirlənərək, "Xəmsə" yazmış sənətkarlardandır. Lakin Əlişir Nəvai əsərinin ən böyük dəyərlərindən biri də odur ki, ilk dəfə türkcə "Xəmsə" yazılmışdır.

İstər orta əsrlərdə və sovet dövründə, istərsə də müstəqillik illərində hər iki ölkənin ədəbi əlaqələrinin qarşılıqlı inkişaf dinamikasını Almaz Ülvinin "Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər)" [1] kitabından geniş izləmək mümkündür. Bu əsər ədəbi-mədəni faktlarla çox zəngindir və burada iki ölkə arasındakı 600 illik elmi-ədəbi tarixin hər anı izlənmişdir.

"Azərbaycanda özbək ədəbi-bədii nümunələrinin tərcüməsi və nəşri məsələləri" adlı yazını hazırlayarkən, həmin kitaba məhz bu səbəbdən müraciət etdik. "Özbək poeziyası Azərbaycan dilində", "Özbək nəsri Azərbaycan dilində", "Özbək poeziyasında Azərbaycan və Səməd Vurğun mövzusu", "Zülfiyyə lirikası və Azərbaycan mövzusu", "Qafur Qulam və Azərbaycan", "Özbək nəsrinin ilk dövrü", "40-cı illərdən sonrakı nəsr və tarixi roman janrı", "Dramaturgiya-teatr əlaqələri və ədəbi təsir məsələsi", "Maqsud Şeyxzadə taleyi və yaradıcılığı ədəbi əlaqələr müstəvisində" adlı bölmələrdə özbək ədəbi nümunələrinin Azərbaycanda tərcüməsi və nəşri məsələsi tam işıqlandırılmışdır. Həmin mənbəyə istinadən, bir neçə əsərin adını qeyd edək: "Üç qardaş" özbək xalq nağılı 1941 və 1972-ci illərdə Pənah Xəlilov, "Özbək nağılları" 1959-cu ildə, "Özbək xalq nağılları" 1987-ci ildə Ağababa Rzayev, "Özbək nağılları"nda 21 nağıl Ağababa Rzayev tərəfindən, "Özbək xalq nağılları"nda isə "Müsafir bəy", "Min hörük", "Atın-oy", "Ziyad Batır", "Mərd dost Qeyrət", "Fərhad və Şirin" və s. bu kimi 50 nağıl (kollektiv müəlliflərin tərcüməsi ilə) Azərbaycan dilinə tərcümə edilərək kitab halında nəşr olunmuşdur.

Əsas hissə / *Main part*

1960-cı il 20-27 yanvar tarixlərində Özbəkistanda keçiriləcək "Azərbaycan həftəsi günlərinə" töfhə olaraq əvvəlcədən – 1958-ci ildə irihəcmli "Özbək ədəbiyyatı antologiyası", 1959-cu ildə "Özbək şeirləri" kitabları nəşr olunmuşdu ki, bu ədəbi hadisə hər iki ölkədə böyük sevinclə qarşılanmışdır. Görkəmli Azərbaycan yazıçısı Mehdi Hüseynin başçılığı ilə Azərbaycan nümayəndə heyəti qardaş ölkədə vətənimizi təmsil etmişdir. Daha sonra 22-23 sentyabr 1962-ci ildə isə Daşkənddə "Bakı günləri" keçirilmişdir. Bunların qarşılığı olaraq Azərbaycanda 1-7 iyun 1961-ci ildə "Özbək kitabları həftəsi", 13-14 oktyabr 1962-ci ildə "Daşkənd günləri", 10-15 avqust 1967-ci ildə "Özbəkistan SSR günləri" qeyd edilmişdir. Azərbaycanda keçirilən özbək ədəbiyyatı həftəsində Daşkənddən Bakıya görkəmli şair, yazıçı və ədəbiyyatşünaslar gəlmişlər. Nəticə olaraq, 23 müəllifin 120 şeiri yer alan "Özbək şeirləri" almanaxı işıq üzü görmüşdür. 5 iyun 1979-cu ildə "Azərbaycanda Özbəkistan ədəbiyyatı və incəsənəti günləri", 1980-ci ildə isə "Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri" təntənə ilə qeyd edilmişdir. Bu ədəbiyyat bayramında, 1979-cu ildə "Nəğməli Özbəkistan" şeir və "Nurlu diyar" nəsr almanaxları oxucuların ixtiyarına verilmişdir" [1, s.104].

Ayrı-ayrı müəlliflərdən Qafur Qulam, Həmid Alimcan, Aybək Abdulla Qəhhar Həmid Qulam, Mirtemir və Zülfiyyə, Turab Tölə, Rəmz Babacan, Camal Kamal, Əqsəd Muxtar, Abdulla Aripovun kitabları kütləvi tirajla Azərbaycanda nəşr olunmuş və ədəbi tənqidin diqqətini cəlb etmişdir. Buna

nümunə olaraq 1979-cu ildə Yaşar Qasımovun tərcümə etdiyi İbrahim Qafurovun "Sözün işığı" kitabında özbək şairlərindən Qafur Qulam, Həmid Alimcan, Aybək, Maqsud Şeyxzadə, Mirtemir və Zülfiyyə, yazıçılarından və Şərəf Rəşidov haqqında elmi-fəlsəfi, ədəbi-tənqidi araşdırmaları göstərə bilərik.

İki xalqın oğlu kimi tanınan Maqsud Şeyxzadənin "Əks-səda", "Cəlaləddin Mənquberdi", "Mirzə Uluğbəy", ikicildlik "Seçilmiş əsərləri", "Daşkəndnamə" poeması (memuar) Nəriman Həsənzadə, Nəbi Xəzri, Eyvaz Borçalı, Xəlil Rza Ulutürk tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmişdir.

Özbək poeziya nümunələrini dilimizə çevirən Rəsul Rza, Süleyman Rüstəm, Zeynal Cabbarzadə, Xəlil Rza, Qabil, Qasım Qasımzadə, Məmməd Aslan, Səyavuş Sərxanlı, Əhəd Muxtar, Nüsrət Kəsəmənli, Ağacavad Əlizadə, Ağasəfa, Vaqif Hüseynov, İsgəndər Coşğun, Şəkər Aslan, Cavad Zeynal, Müzəffər Şükür və başqaları böyük xidmət göstərmişlər: "Özbək ədəbiyyatı antologiyası" (1958) "On beş yarpaq" (1975) və "Nurlu diyar" almanaxlarında xeyli sayda özbək şair və yazıçıların əsərlərindən nümunələr Azərbaycan oxucularına ərmağan edilmişdir.
Ümumiyyətlə, 2008-ci ilə qədər tərcümə və nəşr olunmuş əsərlər haqqında həmin mənbədən öyrənə bilirik.

1985-ci ildə isə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbi əlaqələr" seriyasından nəşr etdirdiyi "Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr" [2] elmi məqalələr toplusunda Azərbaycan və özbək alimlərinin 16 elmi tədqiqat məqaləsi yer almışdır. "16 elmi tədqiqat məqaləsindən ibarət olan toplu filologiya elmləri doktoru A.Hacıyevin "Tarixi inkişafın tipologiyası məsələləri" adlı araşdırması ilə açılır. Özbəkistan EA-nın akademiki Vahid Zahidov "Biz həmişə birlikdəyik" məqaləsində 1960 və 1980-ci illərdə hər iki ölkədə keçirilən ədəbiyyat və incəsənət günlərinin dostluq və qardaşlıq tellərinin, ədəbi əlaqələrin möhkəmlənməsi baxımından tarixi əhəmiyyətindən, bu görüşlərin Nizami, Nəvai, Füzuli dövründən başlayan zamanından söz açır, eyni zamanda, XX əsr özbək ədəbiyyatı və incəsənətinin inkişafında Azərbaycan ədəbi mühitinin böyük təsirindən, rolundan danışılır. Azad Nəbiyevin "Dastanda qəhrəman süjetin ənənələri" araşdırmasında "Koroğlu" və "Goroğlu" dastanlarının müqayisəli təhlilindən, folklor yaxınlığından maraqlı elmi-nəzəri mülahizələri qeyd olunur. Qafar Kəndli "Xaqani Şirvani və Xarəzmşahlar ocağı", Həmid Araslı "Nəvainin fəlsəfi qəsidələrində Xaqani təsiri", Cənnət Nağıyeva "Nizami sənətinin dahi tərənnümçüsü", Pənah Xəlilov "Həmzə Həkimzadə Niyazi və Azərbaycan ədəbiyyatı", Qulamhüseyn Əliyev "Qardaş ədəbiyyatların mövzu və obrazlar birliyi", Xəlil Rza "Maqsud Şeyxzadə yaradıcılığında Azərbaycan-özbək ədəbi ənənələri", Şamil Qurbanovun "Zülfiyyənin zərif poeziyası" kimi elmi-nəzəri tədqiqatlarında qoyulan problemlər aktuallığı ilə səciyyəvi xarakter daşıyırlar. Qeyd etdiyimiz bu araşdırma toplusunda özbək alimlərinin də yazılarına yer ayrılmışdır: S.Alimov "Vəzn ənənəsi və tərcümə", Səidə Nərzullayeva "Nizami və Nəvainin "Leyli və Məcnunu", Həsənxoca Məhəmmədxocayev "Füzuli istedadının pərəstişkarları", Şirəli Turdıyev "XX əsrin əvvəlləri özbək–Azərbaycan ədəbi əlaqələri", Sabir Əliyev "1917-1929-cu illərdə Özbəkistanda Azərbaycan teatrı və dramaturgiyası" və Ənvər Cabbarovun "Müasir əlaqələr səhifələrindən qeydlər" məqalələrində adlarından da göründüyü kimi, olduqca maraqlı və tarixlə səsləşən mövzulardan bəhs edilir" [1, s.107-108].

Əlişir Nəvainin ölkəmizdə nəşr tarixinə gəldikdə isə, yuxarıda adıçəkilən monoqrafiyada göstərildiyi kimi, "1902-ci ildə Baxçasarayda onun "Mühakimətül-lüğəteyn" əsəri İ.Qaspirinskinin giriş məqaləsi ilə, 1926-cı ildə isə "Münşaat" və "Vəqfiyyə" əsərləri ilk dəfə Bakıda nəşr edilmişdir. "Sirlər xəzinəsi", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Yeddi səyyarə" və "İskəndərin divarı" adlı əsərlərdən ibarət "Xəmsə"si əvvəllər hissə-hissə, daha sonra isə bütövlükdə Azərbaycan türkcəsinə uyğunlaşdırılmışdır. Ə.Nəvainin "Yeddi səyyarə" əsərindən iki nağıl 1979-cu ildə Ələkbər Ziyatayın orijinaldan tərcüməsi ilə nəşr olunmuşdur. 1948-ci ildə Məmməd Rahim, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Ələkbər Ziyatay və Əliağa Vahidin tərcüməsində "Fərhad və Şirin" əsəri Azərbaycan dilində çapdan buraxılmış, 1968-ci ildə əvvəlki tərcümə yenidən nəşr olunmuşdur. Əlişir Nəvainin 1975-ci ildə işıq üzü görən 96 səhifəlik "Şeirlər" kitabını Süleyman Rüstəm özbəkcədən dilimizə çevirmiş və

“Əlişir Nəvai” adlı müqəddimə yazmışdır. 2004-cü ildə isə “Əlişir Nəvai. Seçilmiş əsərləri” kitabı 1968 və 1979-cu ildəki nəşrləri əsasında təkrar 25000 tirajla işıq üzü görmüşdür” [1].

Əlaqələrin davamı olaraq, Azərbaycanın Xalq şairi Xəlil Rza Ulutürkün 1992 və 2005-ci illərdə “Turan çələngi”, 2000-ci ildə “Türkün dastanı” və“Dünyaya pəncərə” kitablarının nəşri diqqətəlayiqdir. “Xəlil Rza Ulutürkün tərcüməçilik sənəti şairin yaradıcılığında xüsusi yer tutur. "Qardaşlıq çələngi", "Dünyaya pəncərə" adlı tərcümə kitabları təsdiq edir ki, Xəlil Rza Ulutürk olduqca zəhmətkeş və məhsuldar tərcüməçi olmuşdur. Tərcümə sənətinin elmi-nəzəri problemlərindən bəhs edən "Şairlik və bədii tərcümə", "Bədii tərcümə bədii kəşf olmalıdır", "Tərcümə və bədii dil", "Poetik tərcümədə şairliyin elmi filoloji əməyə arxalanması zərurəti" və s. kimi məqalələrindən bəlli olur ki, o, bu sənətin sirlərini dərindən mənimsəmişdir. Yuxarıda adlarını qeyd etdiyimiz kitablara nəzər yetirdikdə aydın olur ki, Xəlil Rza Ulutürk dünya ədəbiyyatını dərindən öyrənmiş və həmin ədəbiyyatın ən gözəl nümunələrini dilimizə çevirmişdir. "Dünyaya pəncərə" kitabında yunan, macar, bolqar, çex, alman, yapon, fransız, ingilis, italyan, əfqan, hind-ümumilikdə 28 xalqın poeziya nümunələri Azərbaycan tərcümə xəzinəsinə daxil olmuşdur. Bu kitabda elə ölkələrdən poetik tərcümələr vardır ki, həmin ölkələrin bədii nümunələri məhz ilk dəfə Xəlil Rza Ulutürkün tərcüməsində Azərbaycan ədəbi tərcümə fonduna daxil olmuşdur. Bu kitabdan əvvəl isə nəşr olunmuş "Qardaşlıq çələngi" almanaxına o vaxtkı SSRİ xalqlarının poetik nümunələri daxil edilmişdir. Həmin almanax 10 il sonra "Turan çələngi" adı ilə daha mükəmməl, daha sanballı şəkildə nəşr olundu. Kitabdakı əsərlər sırf türkdilli xalqların özbək, qazax, qırğız, krım türkləri, tatar, Qətran Təbrizi, Xaqani, Gəncəvi, Tusi, Saib Təbrizi, Vazeh, Şəhriyar, Beqdaş, Rudəki kimi klassik Azərbaycan mütəfəkkirlərinin (fars dilindən) əsərlərindən ibarətdir. Xəlil Rza Ulutürkün türkdilli xalqların ortaq sərvətlərindən biri olan XI əsr yadigarı – "Qutadqu-bilik" poemasına müraciəti ulu möhtəşəm abidəmizə məhəbbətindən, eləcə də, əsərdə qoyulan problemlərə, fəlsəfi və siyasi məsələlərə bəşəri yanaşmada müəllifin – Yusif Balasaqunlunun elmi təfəkkürünə heyranlığından yaranmışdır. İnsanın eşq və elmlə bütün sədləri yaracaq əzmini yüksək yaradıcılıq qüdrəti ilə şərh edən, nəzmə çəkən müəllif fikirləri Xəlil Rza Ulutürk qəlbində alovlanan türkçülük məhəbbətinə doğmadır, tanışdır. Bu əsər ədəb, ərkan, dövlət, dövlət birliyi, insan əzəməti və s. haqqında ibratəmiz bir məktəb, fəlsəfə dünyasıdır (bu barədə monoqrafiyanın ilk fəslində müfəssəl yazılmışdır). Səkkakinin "Uluğbəyin mədhi" əsərini isə çox güman ki, Maqsud Şeyxzadənin "Mirzə Uluğbəy" faciəvi dramını tərcümə və tədqiq edərkən dilimizə çevirmək ehtiyacını duymuşdur. Bu ehtiyac isə dünyanın ən böyük astroloqu, ən adil hökmdarı Uluğbəyə və Uluğbəy sarayının şairi Səkkaki müdrikliyinə məhəbbətdən yaranmışdır” [1, s.252-253].

2007-ci ildə isə Akif Azalp “Turan havası” kitabını nəşr etdirmişdir. “Akif Azalp iki dildə - Azərbaycan və özbək dillərində yazıb-yaradır. Onun "Vətən" nəşriyyatında yeni nəşr olunmuş dördüncü – "Turan havası" kitabında hər iki dildə müxtəlif illərdə yazdığı şeirləri, onun tərcüməsində çağdaş özbək şeirinin tanınmış, nüfuzlu nümayəndələrinin əsərlərindən nümunələr, həmçinin özbək, krım, xakas və şor xalq mahnılarından tərcümələr daxil edilmişdir. Xalq şairi Fikrət Qoca kitaba yazdığı Ön sözdə qeyd edir ki, "rəngarəng mövzulu, maraqlı dünyagörüşünə, düşüncə tərzinə malik olan şairin əsərləri ədəbiyyatımızda yeni səs, yeni nəfəsdir” [6, s.178].

“Turan havası” kitabında “çağdaş özbək şeirindən Akif Azalpın tərcümələri daxil edilmişdir - Xalq şairləri Abdulla Aripov, Erkin Vahidov, Osman Qoçqar, Qoşqar Narqabil, Xasiyət Rüstəmova, İqbal Mirzədən olan seçmə tərcümələrdə "Azərbaycan", "İrəvan küçəsində", "Bahar günlərində payız havası", "Gülmə, gülmə", "Naməlum bakirə" şeirləri Azərbaycana, Azərbaycan gözəlinə, "lirik mən"in düşüncələrinə həsr olunmuşdur. Abdulla Aripovun "Azərbaycan" şeirilə Azərbaycan dilində indyəcən bir neçə şairin tərcüməsində rastlaşmışıq. Hər birinin öz ruhu, öz ahəngi vardır. Xalq şarimiz Xəlil Rza Ulutürkün A.Aripovdan olan bir xeyli tərcümələri könlümüzü sevindirib. Erkin Vahidovun yaradıcılıq nümunələri ilə həm Xəlil Rza Ulutürkün, həm də digər şairlərin tərcüməsində ilkin tanışlığımız olubdur. Akif Azalp da öz tərcümə səhifəsində bu şairə xüsusi yer ayırmışdır” [6, s.180-181]. .

Müstəqillik dönəmində işıq üzü görmüş kitablardan 1993-cü ildə Xalq yazıçısı Anarın "Yazıçı" nəşriyyatında nəşr etdirdiyi "Türkün 101 şairi" kitabını göstərə bilərik. Həmin kitabda özbək yazarlarından Rauf Pərfinin "Duyumlar" əsəri A.Bağırovun, Məhəmməd Salihin "Əgər bu sinəmə", "Gecə", "Ona ağı deyib" əsərləri V.Cəbrayılzadənin çevirməsində yer almışdır.

Bu əlaqələr müstəqillik illərində daha sıx şəkildə davam etdirilmiş, tərcümə və nəşr məsələləri iqtisadi çətinliklərə baxmayaraq dayandırılmamışdır. Azərbaycanda özbək əsərlərinə aid tərcümə, tərtib, araşdırma və digər bu kimi işlərin aparılmasında Xəlil Rza Ulutürkün, İsa Həbibbəylinin, Teymur Kərimlinin, Paşa Əlioğlunun, Tərlan Quliyevin, Kamil Vəliyevin, Akif Bağırovun, Yaşar Qasımbəylinin, Ramiz Əskərin, Almaz Ülvinin, İlqar İlkinin, Şahlar Dağlaroğlunun, Əkbər Qoşalının, Səlim Babullaoğlunun xidmətləri çoxdur.

"XX əsr özbək şeiri antologiyası"nda (2009) özbək yazarlarından – Çolpan, Elbək, Batu, Qafur Qulam, Aybək, Uyğur, Maqsud Şeyxzadə, Mirtemir, Zülfüyə, Şükrulla, Mirəziz Əzəm, Həmid Alimcan, Osman Nasir, Tahir Qəhhar, Fəxriyyə, İqbal Mirzə, Səlim Aşur, Eşqabil Şükür (50 müəllifin əsəri), "XX əsr Azərbaycan şeiri antologiyası"nda (2013) isə Azərbaycan yazarlarından Mirzə Ələkbər Sabirdən tutmuş, ta gənc Ülvi Bünyadzadəyə qədər (60 müəllifin əsəri) şairlər haqqında qısa məlumat və poetik nümunələrindən tərcümələr (kollektiv müəlliflər) daxil edilmişdir.

Qeyd edək ki, əslində elmi-ədəbi hadisələr iki ölkə arasındakı ədəbi-mədəni, siyasi-iqtisadi əlaqələrin inkişafına xidmət edir.

Ramiz Əskər 2011-ci ildə Zəhirəddin Məhəmməd Baburun "Seçilmiş əsərləri" və "Baburnamə"sini, Sultan Hüseyn Bayqaranın "Divan"ını (2011), Füzuli Bayat Zəhirəddin Məhəmməd Baburun "Baburnamə"ni (2011) tərcümə edərək nəşr etdirmişlər. Mətbuatdan xəbər verildiyi kimi, "Ramiz Əskər Əlişir Nəvainin "Xəmsə"sini Azərbaycan dilinə tərcümə edib". Müəllifin "Əlişir Nəvai və onun "Xəmsə" adlı kitabçası 2020-ci ildə nəşr edilmişdir.

Bunlarla yanaşı, Azərbaycan ədəbiyyatının Özbəkistanda nəşri də gündəmdən düşməyib. İlk dəfə 2014-cü ildə Məhsəti Gəncəvi, Heyran Xanım, Xurşudbanu Natəvanın şeirlərindən ibarət "Eşq içində pərvanələr" kitabı Xalq şairi Aydın Hacıyevin tərcüməsində özbək oxucularına təqdim olunmuşdur. Kitabın məsul katibi professor Həmdulla Baltabayev, tərtibçiləri isə A.Ülvi və Y.Qasımbəylidir. Həmçinin 2014-cü ildə çap olunmuş "Ömürdən uzun gecə" ədəbi-bədii kitabında Azərbaycan yazarlarının əsərləri də yer alıb.

2016-cı ildə Daşkənddə "Kamalak-Press" nəşriyyatında "Özbək ədəbiyyatı və Azərbaycan (tədqiqatlar, ədəbi portretlər, söhbətlər)" kitabı nəşr olunmuşdur. Kitabın elmi redaktoru və Ön sözün müəllifləri professor Qazaqbəy Yoldaşev və Sırdərya Utanova, rəyçisi isə Erqaş Açilovdur.

2018-ci ildə Azərbaycan və özbək dillərində Daşkənddə çap olunan "Özbək şeir çələngi"nin [3] tərtibçisi və uyğunlaşdıranı Ş.Dağlaroğlu və Ş.Qasımova, rəyçiləri N.Cəfərov və A.Ülvidir.

Cəlil Məmmədquluzadənin hekayələri Osman Quçkarın tərcüməsində akademik İsa Həbibbəylinin Ön sözü ilə 2019-cu ildə "Poçt qutusu" adı ilə Daşkənddə "Mümtaz" nəşriyyatında kitab halında çap olunmuşdur.

2019-cu ildə Qoşqar Narqabilin "Xoşbəxtliyin bazarı varmı, yaxud beş dul və bir rəis" pyesini A.Ülvi "Qoşqar Narqabilin həyat və yaradıcılığına dair etüdlər" adlı ön sözlə birlikdə nəşr etdirmişdir.

2019-cu ildə özbək şairlərinin Nəsimi haqqında yazdığı şeirlərdən ibarət "Məndə sığar iki cahan" kitabı da işıq üzü görmüşdür (nəşrə məsul Erqaş Açilov). Elə həmin il Ü.Bünyadzadənin "Əlvida" kitabının X.Rüstəmin tərcüməsində çap olunmasını da ədəbiyyatımızın qardaş ölkədə təbliği sırasına əlavə edə bilərik.

Hər iki ölkənin müstəqillik qazanmasından sonra bir sıra qurumlarının, xüsusilə Elmlər Akademiyalarının, Yazıçılar Birliklərinin əməkdaşlıqları davam etmişdir. Bu istiqamətdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Azərbaycanın Türk Xalqları ilə Əməkdaşlıq Mərkəzinin, Dünya Gənc Türk Yazarlar Birliyinin, Daşkənddə "Azərbaycan evi"nin, Beynəlxalq Türk Akademiyasının fəaliyyətini ayrıca diqqətə çatdırmaq lazımdır. Eyni zamanda, Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin də yazıçı və şairlərimizin əsərlərinin

tərcüməsi və təbliği sahəsindəki genişmiqyaslı fəaliyyəti yüksək qiymətləndirilməyə layiqdir. Bundan başqa, Azərbaycan tərəfdən Xəlil Rza Ulutürk, Almaz Ülvi, Ramiz Əskər, Samir Abbasov, Qulu Kəngərli, Yaşar Qasımbəyli, Akif Azalp və başqalarının özbək ədəbiyyatının tərcümə olunması və nəşr etdirilməsi istiqamətində göstərdikləri xidmətlər tarixin səhifələrinə çevrilmişdir. AZƏRTAC-ın Orta Asiya üzrə müxbiri kimi iyirmi ildən çoxdur ki, Daşkənddə yaşayan Qulu Kəngərlinin Azərbaycan və özbək yazıçı və şairləri arasında yaratdığı əlaqələr, tərcümə üçün əsərlərin təşviq etdiyi bələdçilik işi hər iki ölkə üçün əhəmiyyətli olmuşdur.

Hələ sovet dönəmində anadan olmasının 70 illiyi keçirilən görkəmli şair, dramaturqnın və elm xadimi Maqsud Şeyxzadənin 2008-ci ildə 100 illiyi, 2019-cu ildə isə 110 illiyi Azərbaycanda və Özbəkistanda geniş miqyasda qeyd edilmişdir. 2019-cu ildə "İki xalqın oğlu Maqsud Şeyxzadə" [4] kitabı onun 110 illiyi münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarına əsasən akademik İsa Həbibbəylinin elmi redaktorluğu və Ön sözü ilə çap olunmuşdur.

Vurğuladığımız kimi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun bu istiqamətdə apardığı işlər də danılmazdır. 2019-cu ildə nəşr olunmuş "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca lüğət" kitabının (iki dildə hazırlayan müəlliflər İsmayıl Məmmədli, Almaz Ülvi, Babaxan Şərif və Şahistə Kamranlı) İnstitutda təqdimat mərasimi keçirilib. Eyni zamanda, A.Ülvi və Y.Qasımbəylinin akademik İsa Həbibbəylinin 70 illiyinə həsr etdikləri "Ustoz" [5] adlı kitabları Obidjon Şəfiyevin tərcüməsində "Mümtoz söz" nəşriyyatında professor Həmidulla Baltabayev tərəfindən nəşr edilmişdir. 2020-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarına əsasən akademik İsa Həbibbəylinin elmi redaktorluğu ilə Əlişir Nəvainin "Hikmətli sözlər" əsəri Azərbaycan və özbək dillərində çap olunub. Əsəri A.Ülvi, Y.Qasımbəyli, A.Azalp tərcümə ediblər. 2020-ci ildə İnstitutda Özbəkistan Respublikasının Azərbaycandakı Səfirliyi və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti ilə birlikdə keçirdikləri Əlişir Nəvainin anadan olmasının 579 illiyinə həsr olunmuş "Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfransın materialları nəşr edilmişdir.

Nəticə / *Conclusion*

Bu iki ölkənin ədəbi əlaqələrini müstəqillik işığında gözdən keçirərkən belə bir təəssürat yaranır ki, Azərbaycan-özbək ədəbi əlaqələri türk kökənli xalqlar kimi daim inkişaf etmişdir. Müstəqillik illərində həyata keçirilən sanballı işlərin özülü sağlam və möhkəmdir.

Ədəbiyyat / *References*

1. A.Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri. Bakı, "Qartal", 2008.
2. Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr. Bakı, "Elm", 1985.
3. Özbək şeir çələngi (tərtibçisi və uyğunlaşdıranı Ş.Dağlaroğlu və Ş.Qasımova). Daşkənd, 2018.
4. İki xalqın oğlu Maqsud Şeyxzadə. Bakı, "Elm və təhsil", 2019.
5. Ustoz: akademik İsa Həbibbəylinin anadan olmasının 70 illiyi münasibətilə. Müəlliflər A.Ülvi və Y.Qasım. Daşkənd, "Mümtaz söz", 2019.
6. A.Ülvi. Ədəbi duyğular (məqalələr). Bakı, "Nurlan", 2008.

Перевод и издание узбекской литературы в Азербайджане

Гюльнар Гасымлы
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gulnar0486@mail.ru

Резюме. В статье рассматриваются вопросы перевода, публикации и изучения узбекских произведений в Азербайджане. Статья содержит информацию об опубликованных сборниках, сборниках, а также занимается переводом книг и конкретных произведений поэтов и писателей. Были просмотрены работы, выполненные поэтами и писателями, занимающимися переводом узбекской литературы на азербайджанский язык. В то же время в статье подробно рассматриваются работы, выполненные в этом направлении в советское время и годы независимости, проводимые мероприятия и учреждения, которые играют особую роль в издании узбекских литературных произведений в Азербайджане.
Ключевые слова: узбекская литература, азербайджанская литература, перевод, поэтическая антология, прозаический альманах, литературные связи, издательские проблемы

QARDAŞLIQ DUYĞULARI

Azərbaycandan salam

Xəlil Rza Ulutürk
Xalq şairi

Özbək dili

(Görkəmli özbək alimi İbrahim Haqqula)

Hansı gündə enib gəldin səmalardan, özbək dili?
Qanad aldın ən müqəddəs sədalardan, özbək dili?

Araxçınlı gəlinlərin dinlədinmi laylasını,
Sən yaradın o ilahi nidalardan, özbək dili!

Eraların alt qatında lay-lay qızıl külçəmizsən,
Söylə, nə cür çıxdın üzə?

Himalayla, Tyan-Şanla yaşıd olan ey möcüzə,
Söylə, nə cür çıxdın üzə?

Hansı ayda, hansı gündə silkələndi bizim cahan?
Elbrus, Alp, Pamir dağı ərzi yarıb çıxdı haçan?

Mən düşündüm, açar tapdım fikirlərin ilgəyinə:
Özbək dili qaldırmışdır bu dağları öz çiyninə!

Addımladım gah yaxında, gah uzaqda:
Kayrakqumda, Qayçıqayda, Qolbulaqda...

Torpaqdakı fil sümüyü izin sənin, özbək dili!
Kəhkəşanlar ərzə baxan gözün sənin, özbək dili!

Qalınlığı neçə arşın buzlaqları əritmisən,
Qılıncları susdurmusan, nizələri kiritmisən.

Təndirlərin şirmayınan əppəyinin istisini
Qanımıza yeritmisən, özbək dili!

Addımladın Zərəfşanda, Yeddi suyun arxasında.
Kaşqadərya, Çiv, Sarısuv yaxasında

Bir vaxt qızıl qayaları apardardı dalğasında,
Neçin belə azalıb su?

Özbəkistan

Xeyir! Məni gətirmədi nə təyyarə, nə də qatar.
Sənin adın çəkiləndə gördüm bir cüt qanadım var.
Zirvələri al günəşə dirsəklənən doğma diyar!
Yaşın – milyard, ruhun – bahar.
Vətənimin ortasında tər gülüstan – Özbəkistan.

Öz balanam, ana yurdun o başında doğulmuşam.
Dənizlərdən dənizlərə qanad gərən qızıl quşam.
İldırımı ötüb keçən sürətinə vurulmuşam.
Torpağına Ceyhun kimi, Ceyhun kimi sarılmışam.

Daş ver mənə saray tikim, sən memarsan, mən də ustan,
Yüz memara, min ustaya ilham verən Özbəkistan!

Damarlarda od axını, Kür, ya Araz kimi axın.
Bəlkə qardaş deyim sənə? Sən qardaşdan daha yaxın!
Bir rəmziyik cüt sinədə bir can kimi yaşamağın.
Doğmalığı qanımızda atəş kimi daşımağın!
"Dost" sözünə sığışmırıq, nə cür deyim təkcə dostam,
Məhəbbətin, sədaqətin tunc qalası – Özbəkistan!

Nəvaiyə oxşar mənəm, Nizamiyə bənzəyən sən.
Kəmaləddin Behzad olub "Xəmsə"ni ilk bənzəyən sən.
Cəlaləddin qılıncına, Babir qələminə əhsən.
Döşlərindən yüz dahiyə, min igidə süd vermisən,
Söz gücünə, saz gücünə qurtarmısan bizi yasdan,
Ozan dilli, qopuz telli bayramımız Özbəkistan!

Ləngər vurur Amu-dərya, qayaları qıra-qıra.
Yaqut, gövhər imarətlər qucağında sıra-sıra.
Registanda şəfəqinlə işıqlanır iki era.
Qalxıb göyə... yerdə deyil nə Səmərqənd, nə Buxara.
Hər sarayın bir möcüzə, hər divarın qızıl dastan.
Dastanlara, nağıllara sığışmayan Özbəkistan1

Kaşı – növ-növ, naxış – rəng-rəng, buta-alov, bəzək-mərcan.
Raketmidi o minarə, göy gümbəzmi o asiman?
Cəhənnəmdə yaşasa da cənnət çıxıb fırçasından,
Yüz dürdanə yaratmışdır bir məzarə sığan insan.
Ürək-dərya. Ləpə dodaq pıçıldayır asta-asta:
Səni tamam qavramağa çatmır ömür, Özbəkistan!

Turküstanın çələngidir Fərabilər, Birunilər.
Uluğbəyin zəkasıyla işıqlandı göydə ülkər.
Qızılqumda qızıla dön, Fərqanədə gül aç, göyər.
İnadını gürzə döndər, qanadını cürətlə gər!
Bağlarından calaq alsın Yer üzündə hər bağ, bostan.

Səadətim, – Özbəkistan!
Alqış sənə, salam sənə bizim Odlar diyarından!
Bu diyarın Araz adlı, Kür adlı şah damarından.
Buyur, sənə sovqat verim Göyçayımın xas narından,
Yandım, içim Zərəfşanın qoy dirilik sularından.

Doymur könül bu günəşdən, bu bahardan, bu tər yazdan.
Ağzımızda havası da şərbətləşən Özbəkistan!

Görən gözüm Azərbaycan, vuran nəbzim – özbək dili.
Təkcə iki yurdun deyil sizin, bizim özbək dili.
Misra-misra qızıl çəkən daş-tərəzim özbək dili.
Şeyxzadə ilhamında od nəfəsim özbək dili!
Ucalırsan, güc alırsan on dörd milyon oğul-qızdan,
Öz bəxtinin öz memarı, özbək dili Özbəkistan!

Akif Azalp
Şair

Özbəkistan dastanı

Yənə xəyal üzrə təşbihlər hil-hil,
Bir pəyğam vəsfiqə təlpinər dədil.
İlham pərisinin xuş xəbəridən,
Sərxuş sənduvacdəy yəyrəmaqda dil,
Özbek keləyətir tarix kəridən!
Əsrəb nərəsinin yənqrak səsini,
Qədim Xarəzmnin xəzinəsini,
İkki yərim-üç min yillər nəridən
Apıçlab "Avesta" dəfinəsini,
Özbek keləyətir tarix kəridən!
Bir kanad Alpamış, bir kanat Şirak,
Bir yan Alp Er Tünqə – yenqilməz tupraq!
Od alıb mənqulik səməndəridən,
Tomarislər qəlbin yarıtqan çıraq,
Özbek keləyətir tarix kəridən!
Dəhasının sansız mevəsi bilən,
Səmərqənd, Buxara, Xevəsi bilən,
Kənçə taşbitiknin oyuq bağrıdan
Şaşqə tenqdaş bolqən şevəsi bilən,
Özbek keləyətir tarix kəridən!
Əzəldən zəkavət nuriqə yalçıb,
Zülmətlərqə irfan yağdusin saçıb,
Turub tunu-kunnin tutəş yeridən,
Ne-ne səyyarələr, qitələr açıb,
Özbek keləyətir tarix kəridən!
Nəvai dürlərin bir-bir yad etib,
Dilqə Babur şahnın ərmanın bitib,
Şükr, kalməy Həknin öz nəzəridən
Dostlik və tinçliknin bayrağın tutub,
Özbek keləyətir tarix kəridən!
Yol boşat, dillərdə muzləqən ərman,
Yol boşat, mensiməy xar qılqan nadan!
Yənqi minyilliknin tanqatarıdan
Yol boşat, zəmanə, yol boşat, cahan,
Özbek keləyətir tarix kəridən!

Eldar İsmayıl
Şair

Özbəkistan deyəndə

Bakını seyr edəndə
Daşkənd yadıma düşüb.
Təbriz mənim sevgimi
Buxarayla bölüşüb.

Gəncəyə məhəbbətim
Səmərqəndlə qoşadı.
Onlar mənim qəlbimdə
Cüt qardaş tək yaşadı.

Mən Nizami deyəndə
Nəvaini anmışam.
Qardaş özbək elini
Azərbaycan sanmışam.

Yenilməyən türklərin
Baba yurdu bu diyar
Burda böyük fatihlər,
Əmirlər tutub qərar!

Qapımızı açmalı
Türkün əzəl şöhrəti,
Bu gün bizə gərəkdir
Əmir Teymur qeyrəti!

Özbəkistan deyəndə
Azərbaycan deyirəm.
İkisinə bir yerdə
Canım qurban deyirəm!

İbrahim İlyaslı
Sumqayıt poeziya evi

Özbəkistan duyğuları

Hələ olmamışam Özbəkistanda,
Görməmişəm ulu Səmərqəndi.
Məni Buxaraya dartır ürəyim,-
Bağrımın başına çəkir Daşkəndi.

Bir səs; "Harda qaldın, durma, gəl" deyir,
Bilmirəm kimim var mənim o yerdə.
Hər dəfə önümdə açılan kimi,
Xarəzmi gəzirəm xəritələrdə.

Bilqamıs, Alpamış dinir köksümdə,
Yenə qan yaddaşım yetir dadıma.
Bilgə Kaganımı xatırlayarkən,
Xivə də, Xaqan da düşür yadıma.

Gah sirli Sırdərya hopur ruhuma,
Gah da Amudərya axır içimdən.
Qızılqum səhrası Uçquduquyla
Uzaq keçmişlərə baxır içimdən.

Bəzən Surxandərya deyib dururam,
Bəzən Kaşqadərya durur önümdə.
Bir də görürsən ki, yal-yamacıyla
Fərqanə vadisi keçir könlümdən.

Torpağında nə sir, nə sehir varsa,
Məni ovsunlayır sanki Əndican.
Gözümün önünə gülüstanıyla,
Hərdən Kokand gəlir, hərdən Namanqan.

Qədim Türk tayfası, ağır eldilər,
Bizim Borçalıda Qarapapaqlar.
Adı tutulunca anıram həmən,-
Bizə də doğmadı Qaraqalpaqlar.

Özüm də bilmirəm heç necə oldu,
Başlayıb bitirdim bu səyahəti...
Bir onu duydum ki, hər addım başı,
Nəvai ruhudur yol göstərənim.

Əşrəf Fəxri
Şair

Qəmindən, ey ahu gözlü, yolunda bəs qədər durdum

(nəzirə)

"Ko'ngul jon birla bordi hamrahing, men dardila turdum,
Sanga jon birla ko'nglumni, seniTengriga topshurdum".
Əmir Əlişir Nəvai

Qəmindən, ey ahu gözlü, yolunda bəs qədər durdum,
Ki sandım burda xəlq oldum, budur axır-əzəl yurdum.

Süpürdüm yollarından düzdüyüm cismü dilü canı,
Yığıb bu çör-çöpü bir atəşin ah ilə yandırdım.

Başım açdım, yaxam cırdım, yürdüm, diyar-diyar gəzdim,
Səni hər səsə boylandımu, hər kölgədən sordum.

Yanan tənlə yatan bəxtim gözün gün tək qamaşdırdım,
Onu bir hicr şamı vəsl sübhiyçün oyandırdım.

Qiyamət səhnidir, ey dil, qəddi sərvim qiyam etmiş,
Əlimdən tut ki, bir ömrü sənlə durdum-oturdum.

Bir anda, Fəxri, yüz cür gövhəri-gənci-nihan gördüm
Nəvaivü Füzuli bəhrinə ol dəm ki, baş vurdum.

2020

İki xalqın oğlu

Maqsud Şeyxzadə
İki xalqın ortaq şairi

Daşkəndnamə
(poemadan parça)

Mən onda gəc idim... ən şux, ən sadə,
Axırda nə oldum? Şair Şeyxzadə!
Eh, ötən günlərin yelləri əsdi,
Qalın saçımızda dolaşdı, gəzdi.
Dostlarla deyişdik, içdik, gülüşdük.
Bir qismət çörəyi yarı bölüşdük.
Daşkənd, sən özünsən böyük poema,
Səni ana kimi qorudu zaman.
Sən mənim şeirimə, beytimə düşdün,
Sən mənim bu xoşbəxt bəxtimə düşdün.
Yuxuma girərsən, uzaqda olsam
Qoynunda olaram, mən harda qalsam.
Şərab şüşəsində, mərmər qübbədə,
Bir sur papağında, əziz türbədə
Acı, istiotlu aşda görürəm,
Sürmələr çəkilən qaşda görürəm.
Mən özbək şeirinin doqquz vəznində,
Yazdım dastanımı bir yaz fəslində.
Dastan yazanlardan ölçülər aldım,
Adını hörmətlə şeirimə saldım.
Deyirlər, uzansa, dastan oxunmaz,
Gərək macərası çox olsun bir az.
Ancaq, bağışlayar məni oxucum,
Yalnız məhəbbətdir uzunçuluğum.
On səkkiz nəğmədə yazdım bir əsər,
Mənim "Daşkəndnamə"m... bəli, bu qədər.

Daşkənd, mart–dekabr, 1957

Özbəkistandan baxanda

Qafur Qulam
Özbəkistan Xalq şairi

Səməd Vurğuna məktub

Şərəfli bu ölkənin lacivərd göylərini
Parlaq, nurlu ulduzlar bəzəmişdir əsrlər.
Nəzər salsan çox qədim tarixlər karvanına
Öz xalqına irfandan vermiş dürlü xəbərlər.

Qədim atəşkədələr müqəddəs ocağında,
Sərkərdəmiz Babəkin sönməyən nəfəsi var.
Yamaclarda, dağlarda, vadilər qucağında
Məğlubiyyət bilməyən xalqın qalib səsi var.

Sevgi olmayan yerdə hüsn ilə camal yoxdur,
Nə şərab, nə musiqi, nə ürəkdə ehtişam.
Qəzəlsiz ömürlərdə iqbal və kamal yoxdur,
Nəğməsiz ürəklərdə nə ehtiras, nə ilham.

Qədim-qədim dinlərin məhəbbətsiz ərkanı,
Xalqımız idrakını dondurmaq istəyərdi.
Əl-həzər, musiqini, gözəllər camalını,
Şərab, rəsm çəkməyi qadağan eyləyərdi.

Yox, yox, belə getmədi, yabancı əqidələr,
Bulud tək gizlətmədi gözəllik afitabın.
Cəhənnəm atəşləri, təhlükələr, tənələr,
Susdura biləmmədi xalq qəlbinin rübabın.

Məhsəti qəzəlləri bu diyarın köksü tək,
Ürəklərdən yer aldı – bir müqəddəs can kimi.
Nizami dastanları xalqın öz duyğusu tək,
Həmişə yaşarıdır – əbədi zaman kimi.

Qandaşım, qarındaşım, qardaşım Səməd Vurğun,
Könül təsəllisiyçün tarixdən dediyim bəs.
Sən öz xalqın şairi, xalqlar əbədi durğun
Damarında qanındır, ürəyindəki nəfəs.

Şərəfli bu ölkənin köksündə ulduz kimi,
Azər gözəllərinin çöhrəsində göz kimi,
Uşaqlar dodağında ən birinci söz kimi,
Halal zəhmət aşında pak-pakizə duz kimi.

Sənin şeirlərinin şöhrəti dünyayla bir,
Bugünün sənədidir, gələcək xəzinəsi.

Üfüqləri titrədən bir ildırım səsidir,
Bir azər aslanının əzəmətli nərəsi.

Amma bir həqiqət var dünyada qaya timsal,
Bu həqiqət babalar zəkasıdır münəvvər.
Həqiqət aləmində bu inam tapmaz zaval,
Sənə, mənə keçmişdən verib gəlmiş çin xəbər.

Sən ağsaçlı Qafqazda, mən Mavərəunnəhrdə[1],
Nurşirəvan qəsri tək hər ikimiz yüksəldik.
Bizim şöhrət-şanımız neçə kənddə, şəhərdə,
Dan çağı tək qızardı, düşmən köksünü dəldik.

Xalqımız, Vətənimiz, Dövlətimiz, Möhrümüz,
Hamısı min-min illər olacaqdır bərqərar.
Yenilməz inamımız, qüdrətimiz, mehrimiz,
Bizim güvənc yerimiz – ulların ruhu var.

Bu böyük əqidəylə dilləndirdin sazını,
Xalqı tərənnüm edən nəğmələrə cor olub.
Vətən keçmişlərini mədh edən avazını,
Qoy bu cahan dinləsin həmişə məğrur olub.

Ən yaxın dostlarımı bir-bir yada salarkən,
Səməd Vurğun adını söylərəm qürur ilə.
Çünki biz bir yaşadıq, qoşa yazıb-yaratdıq,
Qəlbimizdə məmnunluq, bir dünya sürur ilə.

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru

[1] Mavərəunnəhr – Orta Asiyanı ərəblər belə adlandırırdılar.

Abdulla Aripov
Özbəkiston Qəhrəmanı, Özbəkistan Xalq şairi

Azərbaycan

Xəyal atı ilə gəzsən hər yanı,
Tapammazsan bu cür xoşbəxt bir anı.

Nəqş edib qəlblərə tarix əzəldən
Qədim qandaşlığı – ali ehsanı.

Göylərə qaldırıb əzizləməkdə,
Bugün Azər eli Özbəkistanı.

Söyləsin min illik ağsaçlı tarix
Bu dostluq bilibmi şübhə, gümanı?

Özbəyəm, qədimdən sevib gəlmişəm,
Bu incə azəri dili, zəbanı.

Dostluq bu – sevgi tək şirin sevincdir,
Həmişə yüksəldər hər bir insanı.

Əslən Muğannaya bənzətmək olar,
Babəkin qəlbindən daşan tüğyanı.

Nizami balından halva bişirmiş
Nəvai zəbt edib bütün cahanı.

Bircə an əlindən qoymuşmu özbək,
Özün de, Füzuli yazan divanı.

Əzizim, qəlbimdə yaşatmaqdayam,
Nəsimidən miras sabit imanı.

Vurğunun şeiriçün can versə özbək,
Azər əsirgərmi Qafurdan canı.

Sənlə tarixin sınaqlarında
Birgə tanımışıq yaxşı-yamanı.

Tarix bir misilsiz, ali sərvətdir,
Mədh edim bu günü, eynən bu anı.

Qandaşlıq bayrağın göyə qaldırıb,
Gözə sürtməkdəyik bu gül məkanı.

Xəzər bir piyalə, yəni cami-Cam,
İçək şərəfinə dövrün-dövranın.

Mən sən tək bir yurdu tapmağım güman,
Sən də tapammazsan mən tək mehmanı.

Mövcud olmasaydı dünyada əgər,
Xəyalən tapardım Azərbaycanı.

1980

Özbəkcədən çevirənlər: **Almaz Ülvi, Yaşar Qasımbəyli**

Erkin Vahidov
Özbəkistan xalq şairi

Füzulinin heykəli önündə

Yellər, nəfəs dərin bir an əsməkdən,
Nəğməli bülbüllər, siz də edin yad.
Kərbəla çölündə tənha gəzməkdən
Yorulub, dincəlir Füzuli ustad.
Dəniz dalğalanma, gəl, uğuldama,
Şair ilhamına vermə, sən xələl.
Ustad ürəyində şeir doğulmaqda,
Dünyaya gəlməkdə munis bir qəzəl:
"Səba, əğyardan pünhan qəmim dildara izhar et,
Xəbərsiz yarıma hali-xərabından xəbərdar et,
Könül, qəm gnülərin tənha keçirmə, istə bir həmdəm,
Əcəl xabından əfqanlar çəkib Məcnunu bidar et".

Yarpaqlar rəqs edər şeir ahəngində,
Çiçəklər sakitcə əyib durar baş.
Mərmər çərhovuzun gümüş camına
Şair gözlərindən damcılayar yaş.
Bakı bağlarına çökməkdə axşam,
Günəş şüaları dənizdə süzər.
Şair ürəyindən daşanda ilham,
Göz yaşında axar qəmli bir qəzəl:
"Pərişan halın oldum, sormadın hali-pərişanım.
Qəmindən dərdə düşdüm, qılmadın tədbiri dərmanım,
Nə dersən, rüzgarım böyləmi keçsin, gözəl canım,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım".

Aşiqlər yuxular səhərə yaxın,
Füzuli divanın qoynuna qoyub.
Məcnun sevgisinin sehrinə baxın,
Bülbüllər dinləyər budağa qonub.
Xalqım candan sevər sözü, sənəti,
Xalqım nəğmələrə məftundur əzəl.
Bugünü, sabahı, əbədiyyəti
Düşünən qəlblərdə yaşayar qəzəl:
"Müqəvvəş qaşların kim, vösmə birlə rəng tutmuşlar,
Qılınclardır ki, qanlar tömək ilə zəng tutmuşlar.
Səhər bülbüllər əfqanı dəgil bihudə gülşəndə,
Füzuli naleyi-dilsazına ahəng tutmuşlar".
Qəzəl də olarmı bunca dilruba,
Bu qədər işvəli, bu qədər nazlı.
Mənim şairliyim yalandı, amma
Füzuli şeirinə aşiqəm azı.
Məcnun tək olmuşam dəli-divanə,
Dəlisov dalğalar düzünü desin,

Gecələr şeir oxuram mən yana-yana,
Dan yeri, sübh çağı - şahidlik etsin.
"Şifayi vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali şövq-zövqün təşnəyi-diydar olandan sor.
Gözlü yaşlıların halın nə bilsin mərdümü qafil,
Kəvakib seyrini şəbta səhər bidar olandan sor".

Yellər, nəfəs dərin bir an əsməkdən,
Nəğməli bülbüllər, siz də edin yad.
Kərbəla çölündə tənha gəzməkdən
Yorulub, dincəlir Füzuli ustad.

Dəniz dalğalanma, gəl, uğuldama,
Şair ilhamına vermə, sən xələl.
Ustad ürəyində şeir doğulmaqda,
Dünyaya gəlməkdə yeni bir qəzəl.

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru

Nodir Xolbutaev
O`zbekiston shoiri

Navoiy

Dustlar, bir zot kelmokda asrlarnı oralab,
Ezqulikni uluğlab, razolatni koralab.
Kaftida kueş tutub, zulmat koksin poralab,
Xar gunqildan gunqilqa safar kilar Navoiy,
Dillarni asir aylab, zafar kilar Navoiy.

Kuz oçqaydir toşlar xan teqsa kutluğ xassasi,
Kalblar bulokka dunar – asotirli "Xamsa"si,
İkki dunyeqa bezak xam suvrati, xam sasi:
Oşiklar barxaetdir – zavol bilmas Navoiy,
Zamonlar şiddatini guzqa ilmas Navoiy.

Kaknus, Simurğ tilida – yaxşilarninq xayrati,
Nafis majlislar tuzmiş Layli, Şirin xayati,
Pisand emas İskandar, Dorolarninq xaybati,
Etti sayerani xam kulqa oldi Navoiy,
Yulduz suzlarni oydin yilqa soldi Navaiy.

Oltin misralar tiza yuksaltdi işk zinasin,
El-ulusqa oçdi u maxfiy Xak xazinasin,
Beş asrdan oşdikim, tuqanmas qanjinasin –
Ayamasdan ulaşar saxiy vazir Navoiy,
Xap kunqilda tikladi bokiy kasr Navoiy.

Oşiklarninq şoxi u, şoirlar avliesi,
Tomirlarni eritqay xar xikmatin ziesi,
Adabiet mulkida yukdir tenqi, kiesi,
Kim kalamqa suyansa, şaksiz, piri Navoiy,
Yaratqanninq oşkor va pinxon siri Navoiy!

Xuruj kilsa xasrat, ox – kunqlinqqa kulok tutqay,
Qox kuşilib yığlar u, qoxo gulib ovutqay,
Ryxinqni kutarqaydir, qarçi uzi kon yutqay,
Xar bayti bir tumordir – baloqardon Navoiy,
Oşiklarninq dardiqa davo xap dam Navoiy.

Ey, birodar, karodan yuz uqirqil – okka kel,
Bul qanimat çoğlarda dilni kutkarmokka kel,
Uzlikni anqlay desanq, bu kun Milliy bokka kel –
Xar nixolqa niqoxbon, panox erur Navoiy,
Millat uçun abadiy maek erur Navoiy!

Camal Kamal
Özbekistan xalq shairi

Azərbaycan

Ürəyimdə mehrin duyub,
Astanana qədəm qoyub,
Camalına baxdım doyub,
Qarşıladın qucaq açıb,
Canım sənə olsun qurban,
Azərbaycan, Azərbaycan!

Səhər çağı gümüşlərin,
Dəniz üzrə ağquşların,
Oxuyanda alqışların,
Şirin-şəkər gülüşlərin
Bəxş eylədi canıma can,
Azərbaycan, Azərbaycan!

Turon elim, Shirvon elim,
Bag‘ri olov Arron elim,
Nizomiyga doston elim,
Nasimiyga armon elim,
Qadim qal’a, buyuk qo‘rg‘on,
Ozarbayjon, Ozarbayjon!

Turan elim, Şirvan elim,
Bağrı alov Aran elim,
Nizamiyə dastan elim,
Nəsimiyə yanan elim,
Qədim qala, böyük kurqan,
Azərbaycan, Azərbaycan!

Gözəllərdən gözəlimsən,
Füzulidə qəzəlimsən,
Lənkəranda əsəlimsən[2],
Sumqayıtda məşəlimsən,
Daim bahar, yaşıl bostan,
Azərbaycan, Azərbaycan!

Seyrangahın bəhri Xəzər,
Çöllərində ceyran gəzər,
Bağlarında səba əsər,
Sərhədini dağlar kəsər,
Yaşıl diyar – cənnətməkan,
Azərbaycan, Azərbaycan!

[2] əsəl - bal

Səkkiz güşə ulduzun var,
Gecələrin, gündüzün var,
Cənubda da nüfuzun var,
Ərdəbilin, Təbrizin var,
Bayrağında yaşar asman[3],
Azərbaycan, Azərbaycan!

Dostların var, düşmənin həm,
Çəkdin cəfa, cəbrü-ələm,
Önə keçdin qədəm-qədəm,
Bugün yenə sən möhtəşəm,
Nurlu yolda ulu karvan,
Azərbaycan, Azərbaycan!

İstiqlal dövranı keçməz,
Koroğlunun namı itməz,
Şəhidlərin şanı ölməz,
Yaşar qutlu qanı, sönməz,
Zalımlara verməz aman,
Azərbaycan, Azərbaycan!

Qarabağın azad olar,
Viran isə, abad olar,
Ellərin də şən, şad olar,
Bəd niyyətlər bərbad olar,
Dövran gələr aman-aman,
Azərbaycan, Azərbaycan!

Tanrı vermiş bərdaş[4] sənə,
Övliyalar sirdaş sənə,
Mehribandır günəş sənə,
Özbək yaxın qardaş sənə,
Yenə neçə dost-qədrdan[5],
Azərbaycan, Azərbaycan!

Çaylarının suyu dadlı,
Bulaq başı ziyafətli,
Çəmənlərin təravətli,
Qızların gül-lətafətli,
İgidlərin bir pəhləvan,
Azərbaycan, Azərbaycan!

Heydər oğlu İlham söylər,
Bülbüllərin muğam eylər,
Səməd Vurğun kəlam eylər,
Camal Kamal salam söylər,

[3] asman – asiman.
[4] Bərdaş - dözüm
[5] Qədrdan – qədirbilən

Yaşa, yüksəl, ey canacan,
Azərbaycan, Azərbaycan!

2017

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru

İxtiyar Rza
İki xalqın şairi

Özbəkistan

Yarpaq-yarpaq, ağac-ağac,
Qarış-qarış, qədəm-qədəm,
Kamalını gördüm sənin,
Camalını sevdim sənin –
Özbəkistan, Özbəkistan!

Qətrə-qətrə, qoşun-qoşun,
Alay-alay, yığın-yığın
Ellərini gördüm sənin,
Əllərindən tutdum sənin
Özbəkistan, Özbəkistan!

Qoşa-qoşa, əlvan-əlvan
Ənbər-ənbər, rəngin-rəngin,
Güllərindən dərdim sənin,
Yollarını sevdim sənin –
Özbəkistan, Özbəkistan!

Qatra-qatra, hovuch- hovuch,
Qultum-qultum, totli-totli
Suvlaringdan ichdim sening,
Ona, dedim – Quchdim seni –
O‘zbekiston, O‘zbekiston!

Daml-damla,ovuc-ovuc,
Qurtum-qurtum, dadlı-dadlı
Sularından içdim sənin,
Ana, dedim – qucdum səni –
Özbəkistan, Özbəkistan!

1980

Bir ovuc torpaq
(Maqsud Şeyxzadəyə)

Başını əyib yavaş-yavaş
ağ saçlı bir alim
qəbrin üstünə gətirib tökdü
bir ovuc torpaq –
Vətən torpağı, əzizim Maqsud!
Torpaqların bir olur
əzəldən gücü, qüvvəti.
Torpaqlarda
əzəldən olub
sönməz Vətənd eşqi,
Vətən həsrəti...
Ağ saçlı alim
qəbrin üzrə tökdü torpaq –
Xaqaninin, Nizaminin,
Nəsiminin bu günəcən yaşayan qüruru,
Adı... Şanı, şöhrəti,
Xətayinin qələminin,
qılıncının qüdrəti.
Bu dünyada misilsizdir
Cəlaləddin cürəti,
Ulu Teymur əzəməti,
Uluğbəyin qüdrəti.
Gürcü muzeylərinə baş vurmaq gərək
Dünyaya bəyan etmək üçün
Cəlaləddinin sonuncu məktubunu...
Qoca Qafqazın neçə-neçə gecəsini,
neçə-neçə gündüzünü,
babaların sirlər sandığını,
Onların yenilməyən varlığını.
Başını əyib yavaş-yavaş
Torpaq tökdü qəbrinin üstünə
Bir ovuc Vətən torpağı,
Əzizim Maqsud...

1969

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru

Cüməgül Suvanova
Səmərqənd şəhəri

Azərbaycan

Zalım zamanları yenib,
Bu gün azad, Azərbaycan.
Qəlbindən çox qanlar axıb,
Bugünsə şad, Azərbaycan.

Əl-ələ verib gedirik,
Dostluğumuz görür cahan.
Bağlarına, dağlarına
Olum qurban, Azərbaycan.

Səni görmək arzusuyla,
Sənə çatdım, oldum bir can.
Adəm Atam, Mama Həvvam,
Qaş və müjgan, Azərbaycan.

Qəlbimin ən dərinində,
Ürəyimin başındasan,
Qarabağın yağılarda,
Səmavi şan, Azərbaycan.

Bir niyyətlə, bir məqsədlə,
Birləşiblər, olub bir can.
Qənimlərə baş əyməz, yox,
Qala, kurqan, Azərbaycan.

Başım balış olsun sənə,
Cürətini görsün cahan,
Aşıb-daşar mehrim yenə
Azərbaycan, Azərbaycan!

Çevirənlər: **Yaşar Qasımbəyli, filologiya elmləri doktoru**
Almaz Ülvi (Binnətova), filologiya elmləri doktoru

Öktəmay Xaldarova
Özbəkistan şairi

Nəsimi

Bu dünya görməyib belə rəzalət,
Məgər qalmayıbmı dində dəyanət?
Bu, elə, şairə, sözə xəyanət,
Diriykən soydular İmadəddini.

Şairin eybi yox, sözündən başqa,
Alovtək parlayan gözündən başqa.
Dərdin anlayan yox özündən başqa,
Darda tək qoydular İmadəddini.

Şairin fəryadın eşidən saat,
Necə sakit durdu duyan camaat?
O gün imanlılar oldumu rahat?
Cəzalı qıldılar İmadəddin.

Möhkəm, mənfur zaman şiri idi o,
Şairlər içində iri idi o.
El üçün ürəktək biri idi o,
Sinədən dəldilər İmadəddini.

O yazdı pak eşqin ayətlərindən
Məhəbbət süzüldü beytlərindən.
Nəvai pir saydı bayatılarında,
Ucalıq bildilər İmadəddini.

Bütün türk dünyası edir onu yad,
Qəlblərə nəzmiylə olubdur nicat.
Cismin yox etdilər, ölmədi icad,
Can qədər sevdilər İmadəddini.

Çevirən: **Şahməhəmməd Dağlaroğlu**

FOTOLARDA YAŞAYAN QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ

FOTOLAR

Dahi mütəfəkkirlər Nizami Gəncəvi və Əlişir Nəvainin
yubiley komitələrinin iclası günlərində.
Soldan: *Maqsud Şeyxzadə, Azərbaycanın Xalq şairi Səməd Vurğun, qazax ədəbiyyatının klassiki Sabit Mukanov, Həmid Araslı, tacik ədəbiyyatının banisi Sədrəddin Ayni*
Bakı, Azərbaycan SSR Elmlər Akademiyası, 3 dekabr 1940-cı il

Özbəkistanın Xalq şairləri: Maqsud Şeyxzadə və Qafur Qulam

Özbəkistan Elmlər Akademiyası Əlişir Nəvai adına Dil və Ədəbiyyat İnstitutunda keçirilən "Maqsud Şeyxzadə – 100" Beynəlxalq elmi konfransı.
Sağdan: *Akademik Aziz Kayumov, Almaz Ülvi, Xalq şairi Cümənniyaz Cabbarov*
Daşkənd, 23 noyabr 2008-ci il

Özbəkistan Elmlər Akademiyası Əlişir Nəvai adına Dil və Ədəbiyyat İnstitutunda "Maqsud Şeyxzadə – 100" Beynəlxalq elmi konfransında.
Sağdan: *Almaz Ülvi, akademik Tura Mirzəyev, Özbəkistanın Milli Qəhrəmanı, Xalq şairi Abdulla Aripov*
Daşkənd, 23 noyabr 2008-ci il

Özbəkistan Respublikasının Dövlət Müstəqilliyi tədbirində.
Sağdan: *Firəngiz Ulutürk, Cənnət Nağıyeva, Almaz Ülvi, Nazim Süleymanov*
Bakı, Gülüstan sarayı, 15 sentyabr 2009-cu il

"Yaşayan Yunus Əmrə" Beynəlxalq elmi konfransına gələn Özbəkistan nümayəndə heyəti Heydər Əliyev adına hava limanında qarşılanarkən.
Sağdan: *Nigarə Ohandudayeva, Sırdərya Utanova, Dilroba Adnaniyazova, Gülbahar Aşurova, Almaz Ülvi, Bəxtiyar Məmmədov, Xasiyət Rüstəmova, Gülxumar Tuyçiyeva*
Bakı, 9 dekabr 2013-cü il

Əlişir Nəvainin anadan olmasının 570 illiyi münasibətilə keçirilmiş "Əlişir Nəvainin yaradıcı və mənəvi irsinin dünyəvi əhəmiyyəti" mövzusunda Beynəlxalq elmi konfrans günlərində, Özbəkistan Yazıçılar Birliyinin nümayəndə heyəti ilə
Sağdan: Munəvvər Osmanova, Almaz Ülvi, Siyuma Qəniyeva, Nuşabə Araslı, Kəramət Mollaxocayeva, Siracəddin Səid, Ziyadə Qafarova, Diloram Salahi, Mirzəpolat Mirzə, Muhammad Əli

Daşkənd, 03 oktybar 2011-ci il
Əlişir Nəvainin anadan olmasının 570 illiyi münasibətilə keçirilən Beynəlxalq elmi konfransda.
Sağdan: Bəhram Əbdülhəlimov, Almaz Ülvi, Nuşabə Araslı, Siyuma Qəniyeva, Munəvvər Osmanova.
Daşkənd, 3 oktybar 2011-ci il

"Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" adlı
Beynəlxalq elmi konfransın iştirakçıları sərgi önündə.
Sağdan: *Şerzod Fayziyev, İsa Həbibbəyli, Teymur Kərimli,*
Şahidə Mehdiyeva, Almaz Ülvi, Gülbahar Aşurova, Aybək Əkrəmov
Bakı, 16 noyabr 2016-cı il

"Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" adlı Beynəlxalq elmi konfransda.
Sağdan: *Gülbahar Aşurova, Şerzod Fayziyev, İsa Həbibbəyli, Teymur Kərimli, Almaz Ülvi*
Bakı, 16 noyabr 2016-cı il

Əlişir Nəvainin anadan olmasının 575 illiyi münasibətilə
Əfqanıstanın Kabul şəhərində keçirilən Beynəlxalq elmi konfransda.
Sağdan: *Paşa Əlioğlu, Akhlan Ahan Ansari (Hindistan), Almaz Ülvi, Məhəmməd Yakub Vahidi (Əfqanıstan)*
Kabul, 11-15 aprel 2016-cı il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
"Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsinin əməkdaşları.
Sağdan: *Yaşar Qasımbəyli, Almaz Ülvi, Şahnaz Nəsibli, Siracəddin Hacı, İsmixan Osmanlı*
20 may 2016-cı il

Əlişir Nəvainin anadan olmasının 575 illiyinə həsr olunmuş
"Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" adlı Beynəlxalq elmi konfrans.
Bakı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, 16 noyabr, 2016-cı il

"Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" adlı
Beynəlxalq elmi konfransda.
Sağdan: *Gülbahar Aşurova, İsa Həbibbəyli*
Bakı, 16 noyabr 2016-cı il

“Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı” adlı Beynəlxalq elmi konfransda.
Sağdan: *Yaşar Qasımbəyli, Şerzod Fayziyev, Almaz Ülvi,*
Gülbahar Aşurova, İsa Həbibbəyli, Teymur Kərimli, Siracəddin Hacı
Bakı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı,
16 noyabr 2016-cı il

Əlişir Nəvainin anadan olmasının 577-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi konfransda.
Sağdan: *Əzəmət Əkbər, Şöhrət Siracəddinov, Almaz Ülvi, Özbəkistanın Xalq yazıçısı Məhəmmədəli*
Özbəkistan, Nəvai şəhəri, 11 fevral 2017-ci il

İmam Əl Buxari ziyarətgah muzeyində
Sağdan: *Hüseyn Quliyev, Teymur Kərimli, İsa Həbibbəyli, İlhom Ramazanov*
Özbəkistan, Səmərqənd, 29 avqust 2017-ci il

İmam Əl Buxari ziyarətgahının muzeyinə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən bağışlanmış "Quran" kitabının təqdimetmə mərasimi
Sağdan: *Teymur Kərimli, İsa Həbibbəyli, İlhom Ramazanov, Hüseyn Quliyev, Mahir Hacıyev, Adilağa Mirzəyev, Samir Abbasov*
Özbəkistan, Səmərqənd, 29 avqust 2017-ci il

Əlişir Nəvainin anadan olmasının 577-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi konfransda.
Sağdan: *Əzəmət Əkbər, Özbəkistan xalq yazıçısı Məhəmmədəli, Almaz Ülvi, Benedik Peri (Macarıstan)*
Özbəkistan, Nəvai şəhəri, 11 fevral 2017-ci il

"Camal Kamal və Azərbaycan ədəbiyyatı" mövzusunda Beynəlxalq elmi konfrans.
Sağdan: İsa Həbibbəyli, Almaz Ülvi, Camal Kamal
Bakı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı,
30 may 2017-cı il

“Camal Kamal və Azərbaycan ədəbiyyatı” mövzusunda Beynəlxalq elmi konfrans.
Sağdan:*Camal Kamal, İsa Həbibbəyli, Roza Niyazmətova, Gülbahar Aşurova*
Bakı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı,
30 may 2017-cı il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Özbəkistan Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi arasında memorandum.
Sağdan: *Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru*
Samir Abbasov, Xanım Zairova, İsa Həbibbəyli
Bakı, 8 dekabr 2017-ci il

Azərbaycan-Özbəkistan dostluğuna həsr olunmuş "Əzəli dostluq riştələri" adlı filmin rejissoru Eldar Məmmədov AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Fəxri fərman"ı ilə təltif edilərkən.
Sağdan: *Eldar Məmmədov, İsa Həbibbəyli*
Bakı, 8 dekabr 2017-ci il

"Camal Kamal və Azərbaycan ədəbiyyatı" mövzusunda
Beynəlxalq elmi konfrans. Bakı, 30 may 2017-cı il
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalında
Sağdan: *Aygün Bağırlı, Əlizadə Əsgərli, Şöhrət Barlas, Qənirə Paşayeva, Yaşar Qasımbəyli, Camal Kamal, Almaz Ülvi, İsa Həbibbəyli, Gülbahar Aşurova, Sənubər Səmədova, Roza Niyazmətova, Asif Rüstəmli*
Bakı, 30 may 2017-ci il

Özbəkistan Respublikası Daşkənd Dövlət Özbək dili və ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Siracəddinovla Bakıda Əlişir Nəvai heykəli önündə.
Sağdan: *Almaz Ülvi, Şöhrət Siracəddinov, Yaşar Qasımbəyli, Gülnaz Səttarova*
Bakı, 29 iyun 2018-ci il

Özbəkistan Respublikası Daşkənd Dövlət Özbək dili və ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Siracəddinov AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyliyə Əlişir Nəvainin kətan üzərində hazırlanmış rəsmini hədiyyə edərkən.
Sağdan: *İsa Həbibbəyli, Şöhrət Siracəddinov*
Bakı, 28 iyun 2018-ci il

Özbəkistan Respublikası Daşkənd Dövlət özbək dili və ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Siracəddinov AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsində.
Sağdan: *Almaz Ülvi, Şöhrət Siracəddinov*
Bakı, 28 iyun 2018-ci il

Əlişir Nəvainin anadan olmasının 578-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi konfransda.
Sağdan: *Akademik Bəxtiyar Nəzərov, prof. Zakircan Maşrapov akademik Möhsün Nağısoylu, Almaz Ülvi*

Özbəkistan, Nəvai şəhəri, 7 fevral 2018-ci il

Əlişir Nəvainin anadan olmasının 578-ci ildönümünə həsr olunmuş
Beynəlxalq elmi konfransda.
Sağdan: *Elçin İbrahimov, Könül Rəhimova, Möhsün Nağısoylu, Almaz Ülvi, Ramiz Əskər*
Özbəkistan, Nəvai şəhəri, 6-7 fevral 2018-ci il

Zəhirəddin Məhəmməd Baburun anadan olmasının 530 illiyi ilə əlaqədar
Beynəlxalq Babur Fondunun keçirdiyi Beynəlxalq elmi konfransda.
Sağdan: nəvaişünaslar – Kəramət Mollaxocayeva, akademik Aziz Kayumov,
Almaz Ülvi, akademik Siyuma Ğəniyeva
Özbəkistan, Daşkənd, 9-11 iyun 2013

Əlişir Nəvainin anadan olmasının 578-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi konfransda.
Sağdan: Almaz Ülvi, Tursun, Faiza Həbibə Arral (Əfqanıstan), akademik Möhsün Nağısoylu, akademik Bəxtiyar Nəzərov
Özbəkistan, Nəvai şəhəri, 7 fevral 2018-ci il

"Zahirəddin Məhəmməd Babur və Azərbaycan" adlı Beynəlxalq elmi konfrans.
Sağdan: Məhəmmədəmin Tuxliyev, İsa Həbibbəyli, Həmidulla Baltabayev, Abidcan Şəfiyev
Bakı, 20 aprel 2018-ci il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda keçirilən
"Zahirəddin Məhəmməd Babur və Azərbaycan" adlı Beynəlxalq elmi konfrans.
Sağdan: *Abidcan Şəfiyev, Sanjay Rana, İsa Həbibbəyli, Həmidulla Baltabayev, Almaz Ülvi, Şerzod Fayziyev, Sənubər Səmədova, İlhamə Sultanova*
Bakı, 20 aprel 2018-ci il

Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universitetində
Məhəmməd Füzuli otağının açılışı tədbirində.
Sağdan: *şair Qeyrət Məcidi, Şöhrət Siracəddinov, Almaz Ülvi, Qulu Kəngərli*
Daşkənd, 30 oktyabr 2019-cu il

Özbəkistan Respublikasının tanınmış şairləri AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda. Sağdan: *Əlizadə Əsgərli, Rüstəm Behrudi, Gülçöhrə Şəhabəddinqızı, İsa Həbibbəyli, Öktəmay Xaldarova, Almaz Ülvi, Aygün Bağırlı, Nahidə Xəqaniqızı, Mehman Həsənli*
Bakı, 30 noyabr 2019-cu il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəylinin adından Mirzə Cəlil xatirə lövhəsini Özbəkistan Milli Universitetinə hədiyyə edilərkən.
Sağdan: Universitetin prorektoru, professor Rəhimə Şirinova, Almaz Ülvi
Daşkənd, 30 oktyabr 2019-cu il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli ilə Özbəkistan Milli Universitetinin rektoru Əvəzjan Mərahimov arasında imzalanan Memorandium tərəflər arasında təqdim olunarkən.
Sağdan: Samir Abbasov, Həmidulla Baltabayev, Almaz Ülvi, professor Rəhimə Şirinova
Daşkənd, Özbəkistan Milli Universiteti. 30 oktyabr 2019-cu il

Özbəkistan Respublikası Elmlər Akademiyasının Özbək dili, ədəbiyyatı və Folkloru İnstitutunda akademik İsa Həbibbəylinin baş redaktorluğu ilə nəşr olunmuş "İki xalqın oğlu Maqsud Şeyxzadə" kitabının təqdimatında.
Sağdan: *Almaz Ülvi, institutun direktoru, professor Nizaməddin Mahmudov, akad. Naim Kərimov*
31 oktyabr 2019-cu il

Daşkənd şəhərindəki "Fəxri Xiyaban"da iki xalqın oğlu Maqsud Şeyxzadənin məzarı ziyarət edilərkən,
Sağdan: *Gülbahar Aşurova, Burabiya Rəcəbova, Ənvər Allambergenov, Almaz Ülvi, Marhabo Kuçkarova, Nurbay Cabbar, Şəhla Cabbar*
31 oktyabr 2019-cu il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda.
Soldan: *İsa Həbibbəyli, Həmidulla Baltabayev*
Bakı, 17 noyabr 2019-cu il

Cəlil Məmmədquluzadənin nəslinin nümayəndələri ilə.
Soldan: *Samir Səttarov, Mehman Həsənli, Martin Cavanşiri, İsa Həbibbəyli, Pşemislav Cavanşiri, Həmidulla Baltabayev, Ağahüseyn Şükürov*
Bakı, 16 noyabr 2019-cu il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində.
Soldan: *Pşemislav Cavanşiri, İsa Həbibbəyli, Həmidulla Baltabayev, Martin Cavanşiri*
Bakı, 16 noyabr 2019-cu il

Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyinə həsr olunmuş
Beynəlxalq elmi-praktik konfransda.
Sağdan: *Mənzər Hüseynova, Almaz Ülvi, Şirindil Alışanlı, Həmidulla Baltabayev, Əlizadə Əsgərli, Mirzə Cəlilin nəticəsi Martin Cavanşiri və onun oğlu Pşemislav Cavanşiri, Aygün Bağırlı, Tehran Əlişanoğlu, Yaşar Qasımbəyli, Gülnar Qasımlı*
Bakı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, 21 noyabr 2019-cu il

"Mirzə Cəlil –150" Beynəlxalq elmi konfransında.
Sağdan: *Aygün Bağırlı, Yaşar Qasımbəyli, Əlizadə Əsgərli, Həmidulla Baltabayev, Almaz Ülvi*
Bakı, 21 noyabr 2019-cu il

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən keçirilən "Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfransının iştirakçılarından bir qrupu Əlişir Nəvainin heykəli önündə.
Sağdan: *Zöhrə Əliyeva , Akif Azalp, Yaşar Qasımbəyli, Bakijon Tuxliyev, Aygün Bağırlı, Gülşən Kəngərlinskaya, Almaz Ülvi, İsa Həbibbəyli, Şöhrət Siracəddinov, Nadir Xalbutayev, Nurbay Cabbarov, Elçin İbrahimov, Mehman Həsənli*
Bakı, 21 fevral 2020-ci il

"Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfransının iştirakçılarından bir qrupu Əlişir Nəvainin heykəli önündə.
İsa Həbibbəyli, Aygün Bağırlı, Nurbay Cabbarov, Almaz Ülvi, Sənubər Səmədova tələbələrlə
Bakı, 21 fevral 2020-ci il

Daşkənd Özbək dili və Ədəbiyyatı Universitetinin rektoru, professor Şöhrət Siracəddinova Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Fəxri doktoru" diplomu təqdim olunarkən.
Sağdan: *İsa Həbibbəyli, Şöhrət Siracəddinov*
Bakı, 21 fevral 2020-ci il

"Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfransda.
Sağdan: *Teymur Kərimli, Nurbay Cabbarov, Bokijon Tuxliyev, Almaz Ülvi, İsa Həbibbəyli, Şöhrət Siracəddinov, Nadir Xalbutayev, Alimcan Dövlətov*
Bakı, 21 fevral 2020-ci il

“Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr” şöbəsi nəzdində “Əlişir Nəvai adına Ədəbiyyatşünaslıq Mərkəzi”nin açılışı günündə.
Sağdan: *Nadir Xalbutayev, İsa Həbibbəyli, Şöhrət Siraciddinov, Şahidə Mehdiyeva, Nurbay Cabbarov, Bokijon Tuxliyev, Almaz Ülvi*
Bakı, 21 fevral 2020-ci il

“Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi” adlı Beynəlxalq elmi konfransından sonra Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarla görüşdən
Sağdan: *Nurbay Cabbar, Nadir Xalbutayev, Anar, Almaz Ülvi, Nahidə Xəqaniqızı*
Bakı, 21 fevral 2020-ci il

"Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfransından sonra Azərbaycan Milli Elmlər Akademiyasının əsas binası önündə. Sağdan: *Akif Azalp, Yaşar Qasımbəyli, Bokijon Tuxliyev, Siracəddin Hacı, İsmixan Osmanlı, Şöhrət Siracəddinov, İsa Həbibbəyli, Teymur Kərimli, Nurbay Cabbarov, Ramiz Əsgər, Elçin İbrahimov, Mehman Həsənli*
Bakı, 21 fevral 2020-ci il

"Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfransından sonra Azərbaycan Milli Elmlər Akademiyasının Elektron kitabxanasında.
Sağdan: *Yaşar Qasımbəyli, Nadir Xalbutayev, Şöhrət Siracəddinov, İsa Həbibbəyli, Nurbay Cabbar, Almaz Ülvi, Aygün Bağırlı, Akif Azalp, Mehman Həsənli*
Bakı, 21 fevral 2020-ci il

AZƏRBAYCANDA ÖZBƏK NƏŞRLƏRİ

«Elm və təhsil» nəşriyyatının direktoru:
Professor Nadir Məmmədli

Nəşriyyat redaktoru: fil.ü.f.d. **Töhfə Talıbova**
Publishing editor: PhD in philology **Tohfa Talibova**
Редактор издательства: др.филос. по филологии **Тохфа Талыбова**

Texniki redaktor: **Rəşid Kərimli**
Make up editor: **Rashid Karimli**
Технический редактор: **Рашид Керимли**

www.clsjournal.literature.az
comp.lit@lit.science.az
Çapa imzalanıb: 12.05.2020. Formatı: 70x100 1/16
Approved to the print: 12.05.2020. Format: 70x100 1/16
Подписано к печати: 12.05.2020. Формат: 70x100 1/16
Tirajı 300 nüsxə. Həcmi: 22 ç.v.
Edition 300 copy. Size: 22 p.p.
Тираж 300 экземпляров. Том: 22 п.л.

==========
Jurnal *"Elm və təhsil nəşriyyat-1" MMC-də*
hazır elektron variantdan çap olunmuşdur.

E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Baki, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.